# ELM İŞIĞI

**İslam İnqilabının Böyük Rəhbəri həzrət Ayətullah Seyid Əli Xameneinin elm və elm istehsalı barədə çıxışlarından seçmələr**

**Birinci cild**

## Birinci bölmə: İslam və Elm

### Birinci fəsil: İslamda elmin əhəmiyyəti

**Savadsızlıqla mübarizə cihaddır!**

Savadlandırma Hərəkatında çalışan qardaş və bacılar cihad halında olduqlarını bilsinlər. Ucqar şəhər və kəndlərə getmək, qapıları döymək, məscidlərdə siniflər düzəltmək və heç bir təşəkkür gözləmədən xalqa ən dəyərli hədiyyə olan elm və savad öyrətmək cihaddır. Savadsızlıq bütün cəmiyyətlər üçün eyibdir, bu dövrdə - böyük güclərin xalqın savadsızlığından və məlumatsızlığından istifadə etdiyi məşəqqətli əsrdə inqilabçı müsəlman cəmiyyət üçün isə daha böyük eyibdir. Savadsızlara hörmətsizlik etmək istəmirəm, amma savadsızlıq doğrudan da eyib sayılır. Savadsızların özləri savadlıların köməyi ilə bu eyibdən qurtulmağa çalışsınlar.[1]

**Əziz Peyğəmbərin (s) öyrənmək barədə tövsiyəsi**

Bizim Peyğəmbərimiz (s) 14 əsr öncə buyurmuşdur: "Elm Çində olsa belə, gedib öyrənin".[2] Əgər elm ucqar bir yerdə olsa da, gedib öyrənin; elm və sənayedə onların məlumatlarından istifadə edin. Buna əsasən, digərlərinin elmindən və sənaye nailiyyətlərindən istifadə etmək lazımdır, amma bizim özümüz də öyrənməyə və qurmağa ciddi səy göstərməliyik.[3]

**Avropada elmin ilk bayraqdarları**

Siz bilirsiniz ki, işarə vurulan əsrlərdə (Farabidən Xacə Nəsirə qədər davam edən 3 əsrdə) Avropada dinlə ziddiyyət vardı. Əlbəttə, bir dövrə qədər elə dinə görə elmlə ziddiyyət olub. Hətta Avropada da elmin ilk bayraqdarları dindar şəxslər olmuşlar. Bu məşhur Roje Bikenin (1214-1294) özü – fransızlar ona Roje Biken deyirlər – keşişdir. O, 13-cü əsrdə

---

[1] Məmurlarla və xalqla görüşdə çıxışdan: 1990.

[2] "Vəsail əş-şiə", c. 27, səh: 27.

[3] Məmurlarla və xalqla görüşdə çıxışdan: 1990.

Avropada elmin ilk bayraqdarlarından idi. Başqa sözlə desək, o, Avropa renessansı ilə nəticələnən birinci elm əlamətlərini və o elmi dəyişikliyi yaradanlardandır. Bu da dindarlar tərəfindən idi; lakin aydın dindarlar, qaranlıq beyinli dindarlar yox.[4]

**Din tərəfindən bəşər üçün elmi məmuriyyət**

Siz elmə həvəsi, elmsevərliyi və bu nəhəng dünyada qaydalarının olduğunu, onun bütün hissələrinə qanunun hakim olduğunu cəmiyyətə ötürməlisiniz. Biz din tərəfindən bu qanunu kəşf etməyə və nəticədə bu aləmi idarə etməyə əmr olunmuşuq. İnsan bunu idarə etmək üçün gəlmişdir. İnsan daşa, taxtaya, ağaca, yer üzünə, yerin altına hökm etməyə gəlib, onlara məhkum olmağa gəlməyib. Bəşər varlığının fəlsəfəsi və əsas vəzifəsi olan yer üzünə hakimiyyət yalnız o zaman həyata keçəcək ki, siz yerin – yəni suyun, havanın, küləyin qanunlarını öyrənəsiniz. Bu qanunları öyrənmədən olmaz. Və bu qanunları elmlə öyrənmək olar. Buna əsasən, elmə həvəs mühüm bir məqsəddir.[5]

**Müsəlman cəmiyyətində təlim-tərbiyənin dəyəri**

Başqa bir hədisdə göstərilir ki, üç nəfərə hörmətsizlik edən şəxs münafiqdir; yəni onlara yalnız münafiqlər hörmətsizlik edərlər. Birincisi bir hörmət məsələsidir və hörmət əlaməti kimi göstərilir: "İslamda qocalmış şəxs". Yəni İslamda və İslam yolunda ömrünü keçirib, saqqalını ağartmış şəxs. İkincisi mühüm məsələdir: "ədalətli rəhbər". Üçüncüsü isə xeyir işlərin müəllimi, insanlara dərs, savad, din və elm öyrədəndir.[6] Ona hörmətsizlik etmək yalnız münafiqlərin işidir. Cəmiyyətdə təlim-tərbiyə işi və müəllimin dəyəri bu qədər ucadır. Bu çox əhəmiyyətli bir məsələdir.[7]

**Öyrənməyin sonu yoxdur!**

---

[4] İran İslam Respublikası radiosunun Elm şöbəsinin əməkdaşları ilə görüşdə çıxışdan: 1992.

[5] Yenə orada.

[6] Vərram məcmusu, c. 2, səh: 212.

[7] Müəllim və fəhlələrlə görüşdə çıxışdan: 1992.

Sizin hamınız İslam cəmiyyətində öyrənmək halında olduğunuzu bilməlisiniz. Hər kəs hər bir mərhələdə öyrənə bilər. Öyrənməyin hüdudu yoxdur. İnsan dövrün əllaməsi olsa da öyrənməlidir. Təsadüfən daha çox məlumatı olanlar və məlumatı dadanlar elm öyrənmək barədə daha çox düşünürlər. Siz hansı alimi taparsınız ki, əlinin altında bir neçə cild kitab olmasın, gecə-gündüz və vaxt düşdükcə onları mütaliə etməsin?! Elm, maarif və bilik adamlarını və elmi dadan şəxsləri bilikdən ayırmaq olmaz.[8]

### Fikir adamlarının elmlə sıx əlaqəsi

Fərz edin bir elm adamına desinlər ki, siz gündüzlər mütailə etdikdə məsələn, on tümən qazanırsınız, amma mütailə etməsəniz, sizə on beş tümən verərik. Əgər bir alimlə belə bir müqavilə bağlayıb mütaliə etməməsinin müqabilində ona beş tümən artıq verəcəyinizi desəniz, sizcə o bu beş tüməni alıb mütaliə etməməyə razı olar? Belə bir şey mümkündür? Çox çətin! Zavallı, qarınqulu alim olsa, heç; əks təqdirdə çox çətin ki, elm və maariflə işləyən bir adam beş tümən pul alıb mütaliə etməsin. Deyər ki, xeyr, cənab, əgər istəyirsinizsə, həmin on tüməndən də bir qədərini götürün, amma mən mütaliə edə bilim. Bu nə üçündür? Bu onun üçündür ki, fikir adamlarının qəlbi ilə elm və məlumat arasında sıx əlaqə və qaynaq yaranmışdır. Biz məlumatı xarici təsiri üçün istəməliyik. Əlbəttə, ifratçılıq olmamalı və məlumat xalqın fikrincə dəyərsiz görünməməlidir. Xeyr! Elm həqiqətən dəyərli bir şeydir. Mənim sözümdən elə başa düşülməsin, onu demək istəmirik. Amma hər halda elm xarici təsirinə görə olmalıdır. Bu elmin bağışlayacağı müsbət təsir mühüm məsələdir. Elm əməl üçün olmalıdır.[9]

### Elm, aydınlıq və din məsələlərinin qarşılıqlı əlaqəsi

Üç məsələ var. Bu üç məsələni bir-birinin yanında düzgün dərk və onları bir-biri ilə müqayisə etmək lazımdır. Bu üç məsələ elmdən, aydınlıqdan, dini, yaxud məzhəbi imandan ibarətdir. Bu üç məsələni

[8] Yenə orada.

[9] İslam Respublikası radiosunun İqtisadiyyat şöbəsinin əməkdaşları ilə görüşdə çıxışdan: 1992.

düzgün tanımalı və praktik yerlərini bilməliyik. Əgər bu üç məsələ arasındakı nisbəti düzgün təhlil edə bilsək, çoxlu suallara cavab tapılar və müxtəlif sahələrdə olan çoxlu düşüncə çatışmazlıqları aradan qalxar. Elm həyat amili, dünyadakı əşyaların yerini və onlardan yararlanmağın necəliyini bilməkdir.[10]

**Elm məsələsi**

Elm bir növ tanışlıqdır və cəmiyyət üçün zəruri sayılır. Əgər elm olmasa, insan zülmətdə qalar, ətrafındakı əşyaları tanıyıb onlardan bəhrələnə bilməz.[11]

**Maddi elm də şərafətlidir!**

Bu gün dünyanın anbaan böyük addımlar atdığı mütərəqqi texnologiyada biz həmişə müştəri və istehlakçı kimi onların arxasınca qaçmalıyıq. Onlardan istifadə etməli, bəzən surətini çıxarmalı və yaxud təqlid etməliyik. Bütün bu sahələrdə bizim elmi inkişafa ehtiyacımız var. Biz elmi yüksəliş əldə etməliyik. Əgər cəmiyyətdə elmi yüksəliş əldə etməsək, heç şübhəsiz, ölkənin sabahı böyük problemlərlə qarşı-qarşıya qalacaq. Bəllidir ki, maddi dünyanın qazandığı uğurlar elmin köməyi ilə əldə edilənlərdir. Elmin maddi və mənəvisi olmur. Elm elmdir, bilməkdir; elm əziz və dəyərlidir. İnsan mütləq elmin arxasınca getməlidir. Elm hərəkətdə olan insanın görən gözüdür, həmişə onun arxasınca getmək lazımdır. Siz bilir və görürsünüz ki, başqaları belə etdilər.[12]

**Elmin təhlükələrə mane olması**

Heç nəyin bahasına elmdən vaz keçməyin, elmin qədrini bilin. Elm çox əhəmiyyətlidir. Harada olsanız, yalnız alim olduqda ən yaxşı işi görə bilərsiniz. Əgər arif də olsanız, alim olduğunuz təqdirdə yolunuzu azmazsınız. Alim olmayan arif - Allah yolunu keçmiş, bu yolda hərəkət etmiş arif insan yolunu aza bilər; qalıb onun bəxtinə. Əgər onun üçün

---

[10] Babul şəhərində universitet mənsubları və mədəniyyət işçiləri ilə görüşdə çıxışdan: 1995.

[11] Yenə orada.

[12] Yenə orada.

təhlükəli şərait yaransa, mütləq yolunu azacaq. Amma əgər arif insan alim də olsa, imam kimi olar; dünya işlərinin yandırıcı alovunun ortasında, inqilab, dövlət quruculuğu və hökumətin bu qədər ağır işləri arasında İbrahim Xəlil (ə) sayağı alovda hərəkət edir, alov onun üçün sərin və zərərsiz olur. Dünya onu qərarsız edə bilmir. Bu, elmə görədir.[13]

**Elm və texnologiyanın inkişafının yanında sabit dini dəyərlər**

Bu gün bəşəriyyətin Əmirəlmömininin (ə) bayraqdarı olduğu xislətlərə ehtiyacı var. Bu xislətlər elmin, texnologiyanın inkişafı və dünyada yeni məişət üsullarının yaranması ilə köhnəlmir; ədalət, insaf, haqsevərlik, hegemonizmlə düşmənlik, qəlbin Allahla əlaqəsi köhnəlmir; bunlar bütün tarixdə insan vücudunun sabit rəngləridir.[14]

**Dinin elm öyrənməyə dair tövsiyəsi**

Bizim hamımız ümumiyyətlə, din üçün çalışmağa gəlmişik. Hər bir dindar insanın məqsədi din üçün çalışmaqdır. Bəs elm nə olsun? Din deyir ki, elm öyrənin. Dünyanı qurmaq nə olsun? Din deyib ki, dünyanı abadlaşdırın. Bunların hamısı dindir, hamısı dinin daxilindədir. Bəs insanların düşüncə, siyasət və beyin baxımından hidayət edilməsi nə olsun? Bu da dindəndir. Çünki din insan həyatının xüsusi bir sahəsinə aid deyil.[15]

**Elmin və müəllimin dəyəri**

Ölkədə müəllimlərə hörmət olunması yalnız kompliment xarakteri daşımır. Bu sözlərin mənası odur ki, cəmiyyət elmin, təhsilin, insan və alim olmağın qədrini bilsin. Bu sözlər ondan ötrüdür ki, sinif, müəllim, elm və dərsin səbəbkarı uca tutulsun. Elmin, təhsilin və müəllimin qədrini, elm və mədəniyyətin əhəmiyyətini bilməyən xalq haraya çatsa, zəif olar; maddi

---

[13] İmam Hüseyn (ə) Universitetində çıxışdan: 1998.

[14] Mübarək ramazan ayının iyirmi ikisi və Ümumdünya Qüds Günündə Tehranın cümə namazı xütbələrindən: 1999.

[15] Təlim və Tərbiyə Naziri və tərbiyəvi işlər üzrə məsul şəxslərlə görüşdə çıxışdan: 2000.

baxımdan necə inkişaf etsə də, devrilməyə və məğlub olmağa qabiliyyətli olar.[16]

### İslamın elmin inkişafına və istedadların çiçəklənməsinə həvəsləndirməsi

Bəziləri də bunu gücləndirdilər ki, bəli, İslam dünyaya qarşı çıxır. Görün İslamın müxalifləri dünyanı necə dəyişdiriblər və elmi necə inkişaf etdiriblər. İslamda deyilən dünya bu deyil. İslamda məzəmmət olunmuş dünya odur ki, sən özün üçün toplamaq istəyirsən; bu dünya pisdir. Yəni mən özümü, arvad-uşağımı, gələcəyimi, ticarətimi, filan yerdə olan filan qazancı, bugünkü sözlə desək, cəmiyyətdə iqtisadi təmtərağı düşünüm; bu pisdir. Yer üzünü abadlaşdırmağa, elmi inkişaf etdirməyə, bəşəri və təbii istedadları günbəgün aşkarlamağa və çiçəkləndirməyə isə İslamda hər yerdən artıq həvəsləndirilmişdir.[17]

### Məbəs - elm və hikmət bayrağının ucalması

Məbəs əslində bəşəriyyət üçün yüksək və bənzərsiz xüsusiyyətlərə malik olan peyğəmbərlik və elçilik bayrağının ucaldılması günüdür. Məbəs əslində elm və bilgi bayrağını ucaltdı. Besət (peyğəmbərlik) "Oxu" sözü ilə, "Oxu, yaradan Rəbinin adı ilə"[18] ayəsi ilə başlandı və "İnsanları hikmətlə və gözəl öyüd-nəsihətlə Rəbbinin yoluna dəvət et!"[19] ayəsi ilə davam etdi; yəni hikmətlə yanaşı olan dəvət. İslam dəvəti əslində tarix boyu bütün dünyaya hikməti yaymaqdır.[20]

### Elm öyrənmək və mənəvi paklıq - Peyğəmbərin (s) təlimləri

Peyğəmbərin (s) dəvət etdiyi məsələlər tarixin bütün dövrlərində bəşərin ehtiyaclı olduğu məsələlərdir. Peyğəmbər (s) insanı elmə dəvət

---

[16] Beynəlxalq Əmək Günü və Ustad Mütəhhərinin şəhadətinin ildönümü münasibəti ilə fəhlə və müəllimlərlə görüşdə çıxışdan: 2000.
[17] Bəsic Müqavimət Qüvvəsinin komandirləri və nümunəvi üzvləri ilə görüşdə çıxışdan: 1992.
[18] "Ələq"/1.
[19] "Nəhl"/125.
[20] Mübarək Məbəs bayramı münasibətilə quruluşun məsul şəxsləri ilə görüşdə çıxışdan: 2001.

etdi. Quranın ilk ayələri elmi uca tutmağa dairdir: "Oxu, yoxdan yaradan Rəbbinin adı ilə! O, insanı laxtalanmış qandan yaratdı. Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir! O Rəbbin ki, qələmlə (yazmağı) öyrətdi"[21]. Əvvəl təlim məsələsini irəli sürdü. Elm insanın xilasının və qurtuluşunun amilidir, xüsusi zaman və məkana aid deyil, bəşər həyatının bütün dövrlərinə məxsusdur.

Əziz Peyğəmbər (s) insanları mənəvi saflığa, paklığa və nəfsin tərbiyəsinə çağırdı: "(Əksəriyyəti yazıb-oxumaq bilməyən) ümmi ərəblərə özlərindən peyğəmbər göndərən Odur. (Bu peyğəmbər) onlara (Allahın) ayələrini oxuyar, onları (günahlardan, şirk və küfr çirkabından) təmizləyər, onlara kitabı və hikməti öyrədər"[22]. Mənəvi saflıq birinci şərtdir.[23]

**Peyğəmbərin (s) hər şeydən öncə elm və ağıl barədə tövsiyəsi**

Mən əziz Peyğəmbərdən (s) bir hədis qeyd etmişəm, onu söhbətimin əvvəlində oxumaq istəyirdim, lakin indi oxuyuram. O həzrət məşhur səhabəsi Abdullah ibn Məsuda buyurur: "Ey Məsud oğlu! Bir iş görmək istəsən, onu elm və ağılla gör". Bunun istisnası yoxdur, bütün işlərə aiddir. Bunlar İslam şüarlarıdır. İndi bəziləri 1400 ildir mədəniyyətlərindən olan bu məsələni müsəlmanlara öyrətmək istəyirlər.

Bu sözlər köhnələn deyil, həmişə yenidir: "Heç bir işi tədbirsiz və elmsiz görmə!"[24] Bütün işlər ölçülüb-biçilmiş və elmi surətdə görülməlidir: Allah-Taala buyurur ki, yunu sap, sonra isə sapları yenidən yun edən qarı kimi olmayın. Əgər işi məntiqsiz, elmsiz və tədbirsiz görsəniz, Allahın sizə verdiyi qüvvəni çevirib elm və ağıl ehtiyatını yerə tökmüş və geriyə qayıtmış olarsınız. Biz geriyə qayıtmamalıyıq.[25]

**Böyük Peyğəmbər (s): "Ağıl ən dəyərli nemətdir!"**

O biri hədis İslamın əziz elçisi həzrət Peyğəmbərdəndir (s): "Allah bəndələrinə ağıldan daha üstün bir şey paylamamışdır". Allah-Taala Öz

---

[21] "Ələq"/1-4.
[22] "Cümə"/2.
[23] Mübarək Məbəs bayramında quruluşun məsul şəxsləri ilə görüşdə çıxışdan: 2003.
[24] "Məkarim əl-əxlaq", səh. 457.
[25] Zəncan vilayəti universitetlərinin müəllim və tələbələri ilə görüşdə çıxışdan: 2003.

bəndələrinə ağıllılıqdan daha dəyərli bir şey verməmişdir. Allah öz bəndələri arasında ruzini bölmüşdür: hava, su, ömür və ləzzətləri. Bütün nemətlər Allahdandır. İslam peyğəmbərinin (s) sözünə əsasən, bütün bu müxtəlif və rəngarəng nemətlər arasında ağıl qədər dəyərli bir nemət bölünməmişdir. Sonra bəzi cümlələr buyurur, uzun olduğundan onları oxumuram. Sonda belə deyir: "Allah bütün peyğəmbər və elçiləri yalnız ağlı təkmilləşdirməkdən ötrü göndərmişdir".[26] Allah-Taala tarix boyu xalqın arasına göndərdiyi hər bir peyğəmbəri onlardakı ağlı kamilləşdirməkdən ötrü göndərmişdir. Nəhcül-bəlağənin bir xütbəsində də var ki, Allah-Taala peyğəmbəri, ağıl xəzinələrini xalqda oyatmaq üçün göndərdi.[27] Bu ağıl nə üçündür? Bu ağıl həyat yolunu tapmaq üçündür. Fikirləşmək və ağılla həyatın yolunu tapmaq lazımdır. Mənim siz əziz övladlarıma ən mühüm tövsiyəm budur.[28]

**İslamın elmə göstərdiyi əhəmiyyətin nəticəsində müsəlmanların elmin zirvəsinə ucalması**

İslamda isə vəziyyət tam başqadır. İslamda dinin elm və ağılla ziddiyyət məsələsi ümumiyyətlə, mənasızdır. İslamda dinin ideoloji prinsiplərini və praktik məsələlərini əldə etmək üçün əsas qaynaqlardan biri ağıldır. Etiqad prinsiplərini ağılla qavramaq lazımdır. Lakin hüquqi-praktik hökmlərdə də ağıl əsas dəlillərdən biridir. Əgər siz bizim hədis kitablarımıza baxsanız, misal üçün, min il bundan öncə yazılmış əl-Kafi kitabına baxsanız, görərsiniz ki, onun birinci fəsli “Ağıl və cəhalət” adlanır. Bu fəsil ağıl, onun dəyəri və əhəmiyyəti, bilginin və ağlın əhəmiyyəti barədədir. İslam həmçinin elmə dair ən mühüm hərəkəti etmiş və ən güclü həvəs yaratmışdır.

İslam sivilizasiyası İslamda ilk gündən başlayan elmi hərəkətin hesabına yarandı. Hələ İslamın doğmasından iki əsr ötməmişdi ki, elə bir mühitdə İslamın güclü elm hərəkatı başlandı. Onu bu günlə müqayisə etmək üçün gərək dünyanın bugünkü elmi avanqardlarını təsəvvür edib,

---

[26] "Əl-Kafi", c. 1, səh: 12.
[27] Nəhcül-bəlağə, xütbə 1.
[28] Qəzvinli müəllim və tələbələrlə görüşdə çıxışdan: 2003.

sonra dünyanın ucqar bir nöqtəsində yerləşən bir ölkəni nəzərə alasınız. Hər növ mədəniyyətdən uzaq olan bu ölkədə birdən-birə sivilizasiya yaranmağa başlayır və misal üçün, 100, yaxud 150 ilə elmi baxımdan hamıya üstün gəlir. Bu bir möcüzədir, ümumiyyətlə, təsəvvürediləsi deyil. Əgər İslam elmə, elm öyrənməyə, öyrətməyə və alim yaşamağa həvəsləndirməsəydi, bu baş verməzdi.

Görün dillər əzbəri olan, lakin bəzən dərinliyinə diqqət yetirilməyən bəzi hədislərdə nə qədər mühüm məqamlar var: "İnsanlar üç qisimdir: alim, nicat yolunda olan öyrənci və su üzündəki çör-çöp".[29] Ümumiyyətlə, insanlar üç qisimdir: alim insanlar, öyrənənlər və digərləri, yəni sərgərdan, dəyərsiz və çəkisiz insanlar. Görürsünüz ki, İslam elm məsələsində birinci növbədə dəyəri elmin üzərinə aparır; istər elmə malik olmaq və onu digərlərinə öyrətmək, istərsə də öyrənmək. İslam belə bir dindir.[30]

**Elmin zati dəyəri**

Elmi elita ölkənin mənəvi sərvətidir. Dünyada mənəvi sərvətlərə maddi baxış onların pula çevrilmə imkanı ilə ölçülməsinə səbəb olmuşdur; bu elm nə qədər pula çevrilə bilər; bu incəsənət nə qədər pula çevrilə bilər. İslamda isə belə bir meyar yoxdur. Təbii ki, elmin, incəsənətin və digər mənəvi dəyərlərin pula çevrilməsi qadağan olunmur. Xeyr! Elm rifah amili, incəsənət həyatın rövnəqlənməsinin və qiymətlənməsinin səbəbkarıdır. Eybi yoxdur. Lakin buna baxmayaraq, bu mənəvi sərvətin özünün də İslama görə uca dəyəri var. Yəni bu sənətkarın sənət əsərini kimsə tanımasa və ondan heç kəs istifadə etməsə də, İslama və mənəvi baxışa görə, ona sahib olmağın özü bir dəyərdir. Bir alim inkar olunsa və onun elmini heç kəs öyrənməsə də, o elmə malik olmanın özü bir dəyərdir. Düzdür ki, elm əməlin müqəddiməsidir. Düzdür ki, bilik bacarıq alətidir. Lakin bu bacarıq, bu əməl zəruri olaraq həmişə maddi sərvətə çevrilmir. Biz bu baxışı gücləndirməliyik.

Bir cəmiyyətdə yoxsulluğa, yaxud təcrübənin azlığına görə elmə, tədqiqata, incəsənətə və yaxud bu kimi digər mənəvi sərvətlərə maddi

---

[29] "Əl-İrşad", c. 1, səh: 227.

[30] Gənc alimlərlə və tələbələrlə görüşdə çıxışdan: 2004.

qarşılıq vermək mümkün olmaya bilər. Bizim cəmiyyətimizdə və dünyanın çoxlu yerlərində də mütləq belədir. Bu, elm və incəsənət işlərinin dayanmasına səbəb olmamalıdır. Mən elm və ədəbiyyat tarixinə baxanda görürəm ki, bəşərin elm və incəsənətdə ən mühüm inkişaflarının bir hissəsi nəinki maddi qarşılıq görməmiş, hətta bəzən təhqir və inkara məruz qalmışdır. Onları işə vadar edən amil həvəs, eşq və mənəvi hisslər olmuşdur. Bunu inkar etmək, bunun önünü kəsmək olmaz. Elm, tədqiqat və incəsənət hər yerdə pulla mübadilə olunmur, pulla ölçülmür.[31]

**İslamın hər yerdə elm öyrənməyə dair tövsiyəsi**

Biz elmi hər kəsdən öyrənərik, eybi yoxdur. İslam bizə deyib ki, hətta Çində olsa belə elmi öyrənin.[32] O zamanın Çini qədim və mütərəqqi bir sivilizasiyanın varisi idi. Yolu uzun idi, İslam haqqında heç bir şey də eşitməmişdilər. Eyni zamanda Peyğəmbər buyurdu ki, elmi, biliyi, təcrübəni, texnologiyanı öyrənmək üçün haraya lazım olsa, gedin; yəni alimin şagirdi olun, alimin qarşısında ədəblə diz qatlayın və ondan öyrənin.[33]

**Elm və hikmətin İslam dəvətinin birinci proqramlarından olması**

İslam dəvətinin başında hər şeydən əhəmiyyətli olan üç məsələ durur; bunlar şərafətli Quran ayələrində bəyan olunmuşdur: Elm və hikmət, mənəvi paklıq və əxlaq, ədalət və insaf. Əgər düzgün baxsaq, bu gün də bəşər bu üç amilə möhtacdır.[34]

**İslamın elmə hərtərəfli dəvəti**

Bu gün bəşər elmi çoxlu nailiyyətlər əldə etmişdir; lakin xüsusi bir cəhətdən. Maddi həyata aid olan maddi və təbii elmlərdə bəşəriyyət inkişaf etmişdir, lakin mənəvi elmlərdə - yaranışın başlanğıcına və ilahi tövhidə dair insanın zehnini aydınlaşdıran, onun qəlbini bəşər xilqətinin

---

[31] Kerman vilayətinin elmi nümunələri ilə görüşdə çıxışdan: 2005.

[32] "Vəsail əş-şiə" c. 27, səh: 27.

[33] Kerman vilayəti universitetlərinin müəllim və tələbələri ilə görüşdə çıxışdan: 2005.

[34] Əziz Peyğəmbərin (s) Məbəs gününün ildönümündə quruluşun məsul şəxsləri və xalqın müxtəlif təbəqələri ilə görüşdə çıxışdan: 2007.

məqsədinə sarı hidayət edən məsələlərdə öyrənməyə möhtacdır. İslamın elmə dəvəti hərtərəfli bir dəvətdir.[35]

### İslamda öyrətməyin dəyəri

Təlim və tərbiyə məsələsi qarşı tərəfə və bir insana həyat və dirilik bəxş etmək məsələsidir. İslam bu gözlə baxır. Siz çalışın quru görünən torpağın bir hissəsini qazın, oradan bir bulaq axsın; çox dəyərsiz nəzərə çarpan bir toxumu yararlı bir torpaqda əkin, onu suvarın, ondan yaşıl ağac bitsin. Məsələ belədir; istər pula çevrilməyə qabiliyyətli olsun, istər olmasın. İslam təlim-tərbiyəyə və müəllimə bu gözlə baxır.[36]

### İslam mədəniyyətində alim və öyrənci əxlaqı

Keçmişdə - Qərb mədəniyyəti ölkəmizdə bu qədər genişlənməzdən öncə, yəni İslamdan sonrakı 1100-1200 il ərzində, ölkəmizdə müxtəlif zamanlara uyğun olan elm, təhsil və tədris süfrəsinin açıldığı zaman müəllimin uca mənəvi dəyəri vardı. İslam təlim-tərbiyəsində üsul elə idi ki, bir öyrəncinin öz müəllimi qarşısında ayağını uzatması görünməzdi. Bizlər də belə idik, tədris etdyimiz zaman tələbələrimiz də bizimlə belə rəftar edirdilər.

Müəllimin tələbə yanında həqiqətən hörməti vardı. Onun əlaməti hələ də bizim elmi hövzələrimizdə qalır, çünki elmi hövzələr elm və mədəniyyət sahəsində Qərb üsullarından az təsirlənmişlər. O üsullar hələ də elmi hövzələrdə var, müəllim tələbənin gözündə hörmətli, uca və dəyərlidir; tələbənin qəlbində onun qorxudan yox, ucalıqdan qaynaqlanan heybəti var. Lakin bu tələbə dərsdə irad da bildirir.

Bizim hövzə dərslərimizdə tələbənin ustada irad bildirdiyi qədər universitet siniflərimizdə irad bildirilmir. İcazə almaları da lazım deyil; məsələn, demirlər ki, müəllim, icazə verirsiniz? Xeyr! Müəllim danışır, o tərəfdən bir tələbə irad bildirməyə başlayır. Müəllim də onun iradını dinləyir. Bəzən sərtlik də edir; yəni elmi bir məsələ barədə müəllimi ilə cürət və cəsarətlə danışır. Lakin həmin tələbə bu müəllimin qarşısında

---

[35] Yenə orada.

[36] Fars vilayətinin müəllimləri ilə görüşdə çıxışdan: 2008.

təvazökardır, ona təzim edir, onun əlini öpür, qarşısında ayağını uzatmır və ona "sən" demir.

Biz 1200-1300 il müəllim və tələbə əlaqəsini ölkəmizdə belə davam etdirmişik. Nəhayət Qərb mədəniyyəti və Qərb dəyərləndirməsi ölkəmizə daxil olur. Siz görün bu müddətdə nə qədər müəllim şagird tərəfindən döyülmüşdür! Nə qədər müəllim sinifdə şagirdin vasitəsi ilə məsxərə olunmuş, nə qədər ağır söz eşitmişdir! Az qiymət verdiyinə görə nə qədər müəllim şagird tərəfindən öldürülmüşdür! Belə də olub. Ölkəmizin bəlli keçmişinə və tarixinə görə bizdə belə problem az olmuşdur. Bəzi yerlərdə - Qərb mədəniyyətinin mərkəzlərində isə çox güclü, rüsvayçı və kobud şəkildə olmuşdur.[37]

**İslam cəmiyyətinin müəllimi uca tutmağa ehtiyacı**

Mən çalışıram ki, müəllimin dəyərləndirilməsi İslama uyğun olsun. Bizim cəmiyyətimizin müəllimə hörmət etməyə, onu uca tutmağa ehtiyacı var. Əgər şagirdin valideyni müəllimə sözün həqiqi mənasında hörmət göstərsə, o şagird də sinifdə və sinifdən sonra müəllimə qarşı eyni hissə malik olar. Bizə bu lazımdır. Bu sizin üçün bütün maddi imtiyazlardan üstündür.[38]

**Müəllimlik - peyğəmbərlərin peşəsi**

Bizim Böyük İmamımız həkim – hikmət sahibi idi. İmam Quranda işlənən mənada bir həkim idi. Həkim - digərlərinin gözlərindən uzaq və gizli qalan həqiqətləri görən şəxsdir. Onun sözlərinin sadə görünməsi mümkündür, lakin nə qədər yarsanız, görərsiniz ki, daha çox qatları və dərinlikləri var. İmam belə idi. Siz Quranda "hikmət" sözünün işləndiyi yerlərə baxın - "Bunlar Rəbbinin sənə vəhy etdiyi hikmətlərdəndir"[39] - görün bunlar nədir. Görürsünüz ki, zahirən adi tövsiyələrdir, bizim həmişə bir-birimizə dediyimiz sözlərdir, lakin diqqət etdikdə çox dərin olduğunu görürsünüz.

---

[37] Yenə orada.
[38] Yenə orada.
[39] "İsra"/39.

Fərz edin ata-anaya hörmət hikmətlərdən biridir. Ata-anaya hörmətin təsir və faydalarının sonu yoxdur. İnsan bu məsələdə nə qədər dərinliyə varsa, hələ də daha dərin olduğunu görər. Hikmət budur. İmam bir həkim idi. Burada dedilər ki, müəllimlik peyğəmbərlərin sənətidir. Bu, çox böyük sözdür.[40]

**Müəllim barədə bir hədis**

Quranın bir neçə yerində təkrar olunmuş "Onları (mənəvi cəhətdən) təmizləyər, onlara kitabı və hikməti öyrədər" kimi ayələrdən əlavə, əziz Peyğəmbərdən (s) təlim işini ona aid edən bir hədis nəql olunmuşdur. O hədis budur: "Allah məni özünü və digərlərini çətinliyə salan yox, asanlaşdıran müəllim göndərmişdir". Mən öz təlimlərimlə şagirdlərimə həyatı asanlaşdırıram, işlərini asan edirəm. Bu asanlaşdırma səhlənkarlıqdan başqa bir şeydir. Yəni mən nə özümü həyatın ağır dolanbaclarına düçar edirəm, nə də xalqı. Mən öz təlimlərimlə xalqı doğru yola, düzgün yola və asfalt yola hidayət edirəm. Asanlaşdırma budur.

İnsan bəzən bir məqsədə çatmaq istəyir, amma yolu tanımır. Daş, torpaq, çör-çöp, nəfəs kəsən hündürlüklər; daim çıx yuxarı, düş aşağı, sonu da ya çata, ya çatmaya. Bu, çətinləşdirmədir. Bəzən də tanış və bələd bir adam yoldaşlıq edir, onunla birgə gedir. O insan deyir ki, cənab, buradan get; yol həm hamardır, həm yaxındır, həm də səni mütləq istədiyin yerə çatdıracaq. "Asanlaşdıran müəllim" budur. Müəllimlik belə bir peşədir. Bizim əsas sözümüz budur.[41]

**İslamda öyrənciyə hörmət**

Burada dəyər cəhəti olan başqa bir məqam da var. Mən buna da toxunmaq istəyirəm. Burada müraciət siz müəllimlərədir. İslama görə, müəllimə hörmət olunduğu kimi, öyrənciyə də hörmət olunmalıdır. Şagirdi aşağılamaq olmaz. Bunun çox dərin tərbiyəvi cəhəti var. Burada da belə bir hədis nəql olunur: "Öyrəndiyiniz və öyrətdiyiniz şəxsə qarşı təvazökarlıq edin və zalım alimlərdən olmayın".

---

[40] Fars vilayətinin müəllimləri ilə görüşdə çıxışdan: 2008.
[41] Yenə orada.

Zalım iki cürdür: siyasi və elmi zalım. Elmi zalım olmayın, alim zalımlardan olmayın; firon kimi. Mən ölkə universitetlərinin birində illər öncə - bəlkə də 40-45 il öncə belə bir müəllim görmüşdüm. Şagirdləri ilə elə danışır, elə dərs deyir və elə davranırdı ki, atanın rəftarına yox, fironun rəftarına bənzəyirdi.

Müəllimin bəzən sərt olması mümkündür, lakin sərtlik təhqirdən, aşağılamaqdan fərqli bir şeydir. Şagirdə hörmət etmək lazımdır. Yəqin ki, sizin hər birinizin hörmət etdiyiniz şagirdlər barədə çoxlu təcrübələriniz var; bu iş yaxşı nəticə vermiş, onun tərbiyəsini asanlaşdırmışdır. Söymək, təhqir etmək və hətta vurmaq yaxşı deyil. "Ədəbləndirmək üçün vurmaq" sözü qədimdən məşhur olan sözlərdəndir. Sonralar məlum oldu ki, xeyr, vurmaq yaxşı deyil. Mənim fikrim də budur. Şagirdi mum kimi əldə fırladıb formaya salmaq lazımdır, lakin mülayimliklə. Müəllimin hünəri budur. Bu da müəllimə dəyər barədə başqa bir məsələdir.[42]

**İslamda dünyəvi elmlərin əhəmiyyəti**

Elm cəmiyyət üçün ilahi bir nemətdir: həm dəyər və mənəviyyat elmləri, həm də bu zəngin təbiətində və bu heyrətamiz xilqətində Böyük Allahın insan üçün yaratdığı xəzinələrdən daha artıq və daha yaxşı istifadə etməkdə insana kömək edən elmlər. Yarandığı zamandan insan təbiətin sirlərini açmağa, bu möhtəşəm quruluşun və böyük sistemin sıx küçə və dalanlarını kəşf etməyə çalışmışdır. İslam və bütün dinlər bunu təsdiq edirlər.

Siz heç bir dində, xüsusən də İslam dinində dünyəvi elmlərin faydalı olmadığına, yaxud zərərli olduğuna, yaxud onları öyrənməyin lazım olmadığına dair bir söz və cümlə tapa bilməzsiniz. Əksinə, bəşərin bu günə qədər əldə etdiyi bütün bu elmlər, insanın bu mövcud həqiqətdən və Allahın bizim üçün yaratdığı təbiətdən daha yaxşı istifadə etməsi üçün vasitə olan bütün bu elmlər, həmçinin bu günə qədər bəşərin əldə etmədiyi elmlər İslama görə dəyərlidir. Bəlkə də gələcəkdə o qədər elm tapılacaq ki,

[42] Yenə orada.

onların həcmi və sayı indiyədək kəşf olunan bütün bəşəri elmlərdən artıq olacaq.[43]

**Bütün elmləri öyrənmək**

Bizim ixtiyarımızda olan bu dünya, bu yer, bu maddələr bəlkə də bu gün bəşərin istifadə etdiyindən milyon qat səmərəlidir. Bu sudan, bu torpaqdan, bu maddələrdən, bu havadan, yerin altında olan maddələrdən, ixtiyarımızda olan və qiymətini bilmədiyimiz bu şeylərdən bəşəriyyət gələcəkdə çoxlu faydalar götürə bilər. Biz bu gün nefti yandırırıq, ola bilsin gələcəkdə neftin insana elə faydaları kəşf olunacaq, o qədər qiymətli sayılacaq ki, heç bir ağıllı adam bir damla nefti yandırmağa razı olmayacaq və onun yerinə digər enerjilərdən istifadə edəcək. Siz görürsünüz ki, bu gün zibillərdən dəyərli maddələr hazırlayırlar. Zibil zibildir; bu çox kiçik bir misaldır. Çoxlu şeylərdən istifadə edilməsi mümkündür. Onları hansı yolla anlamaq, hansı yolla təbiətin çoxlu sirlərini anlamaq və onlardan istifadə etmək olar? Elm yolu ilə.

Peyğəmbər (s) "Çində olsa belə elmi öyrənin" - deyə buyurduqda demək istəmir ki, gedin Çindən fəlsəfəni, yaxud fiqhi öyrənin. Gedin elmi - hər hansı bir elmi və elmə aid məsələləri, yəni texnologiyanı və bəşərin çarpışdığı çoxlu sənətləri öyrənin; bunlar lazımlı işlərdir.[44]

---

[43] Universitetlərin gənc alimləri ilə görüşdə çıxışından: 2008.
[44] Yenə orada.

## İkinci fəsil: Elm və dinin əlaqəsi

### Keçmişdə dini və qeyri-dini elmin bir olması

Elm və din əsrlərlə birgə olub. Yəni alimlər adətən dindar olmuşlar. Din elmi və qeyri-dini elmlər bir-birinə qarışmışdı və bir qrupun əlində idi. Məhəmməd ibn Zəkəriyya Razi, yaxud İbn Sina həm də fəqih olmuşlar. Digərləri də belə olmuşlar.[45]

### Əxlaqi inkişafın yanında elmi inkişaf

Elm, sənaye inkişafı, elmi və maddi inkişaf əxlaqi inkişafın kənarında olmalıdır. Allaha diqqət də əxlaqi inkişafın əsas təməli hesab olunur.[46]

### Din - müsəlmanların elmi birinciliyinin əsas amili

Bəzi adamlar səhvən düşünürlər ki, elmsevərlik dindarlıqla uyğun gəlmir. Mən görmüşəm. Son bir neçə ildə xüsusi siyasi məqsədi olan və bizim tanıdığımız bəzi şəxslər (bəlkə də xalq bu şəxslərin məqsədindən xəbərsizdir, lakin biz insanları keçmişdən yaxşı tanıyırıq. Odur ki, bizim üçün təxmin vurmaq imkanı daha tez yaranır. Bəzilərinin isə siyasi məqsədləri olmaya da bilər) daim həvəsləndirir, bu gün bizim cəmiyyətimizdə mövcud olan dindarlığın elmlə ziddiyyət təşkil etdiyini və elmlə xalqın dindarlığına zərbə vurmağın mümkün olduğunu təlqin etməyə çalışırlar.

Bunlar səhvə yol verirlər. Bu iki məsələnin bir-biri ilə heç bir ziddiyyəti yoxdur. Çünki əgər din bu gün bizim tərəfdarı olduğumuz İslam dinidirsə, bu, inqilab edən, döyüş üçün əsgər hazırlayan, elmə dəvət edən bir dindir. Ümumiyyətlə, müsəlmanların bir neçə əsr boyunca dünyada elmin məşəlini əlində tuta bilmələrinin səbəbi İslamın elmə və biliyə diqqəti idi. Farabidən Xacə Nəsirə qədər təxminən üç əsr bu bayraqdarlıq davam etmişdir; özü də yüksək səviyyədə, aşağı səviyyədə yox. Bu gün Xarəzminin riyaziyyatdakı fikirləri, yaxud İbn Sinanın tibbi

---

[45] Səhiyyə Naziri və ölkənin tibb universitetlərinin rektorları ilə görüşdə çıxışdan: 1990.

[46] Şəhid ailələri, müharibə əlilləri, xalqın müxtəlif təbəqələri və dövlət məmurları ilə görüşdə çıxışdan: 1991.

nəzərləri qüvvədən düşmüş nəzərlər deyil. Onların əsasında yeni nəzərlər yaranmışdır, lakin qüvvədən düşməmişlər, sıradan çıxmamışlar, düzgün nəzərlərdir və sözsüz ki, təkmil olunmuşlar. Bunların hamısı haradan qaynaqlandı? İslam dinindən qaynaqlandı. Yəni müsəlmanları bu elmi zirvətə çatdıra bilən əsas amil İslam dini idi.[47]

**Dini ruhun elmi ruha dayaq olması**

Bizim İbn Sinamız da belə idi. İbn Sina bir din alimidir. O müəyyən mənada ümumiyyətlə, bir arifdir. Biruni də din alimidir. O, "Hindistan həqiqətləri" kitabını yazmışdır. Bilirsiniz ki, bu kitabın adı bir şeir beytindən götürülmüşdür. O öz dövründə riyaziyyat, astronomiya və müxtəlif elmlər üzrə mütəxəssis olmuşdur. Əməlli-başlı bir ruhani olan Şeyx Bəhai də belə idi. Şeyx Bəhainin dövründə din fənləri ruhani təbəqəsinin inhisarına keçmişdi. Keçmişdə bu formada bir təbəqə olmamışdır. Bütün elmlərdə alim olan bir ruhani olmuşdur. Misal üçün, İbn Sinanın özünün fəlsəfə şagirdi də olmuşdur, tibb şagirdi də. Lakin Şeyx Bəhai ruhaniliyin təbəqə formasına düşdüyü bir dövrə aiddir. Yəni peşəkar bir məscid və minbər axundudur. Deməli, dini ruhun elmi ruhla heç bir ziddiyyəti yoxdur. Hətta dini ruh elmi ruhun köməkçisi və dayağıdır da.[48]

**İslam elm və mənəviyyatın bayraqdarı kimi**

İslam dini özünün erkən çağında dünyada elm və mənəviyyat çırağını yandırdı.[49]

**Din – elmə lazım olan mühit**

Din bir fondur, arxa plandır. Dini əxlaq bir tənəffüs mühitidir. Əgər bu mühit olsa, hər bir varlıq öz ehtiyacı və potensialı qədərincə düzgün mənasını ifadə edəcək. Əgər bu tənəffüs mühiti olmasa, nə elm, nə siyasət,

---

[47] İran İslam Respublikası radiosunun Elm şöbəsinin əməkdaşları ilə görüşdə çıxışdan: 1992.

[48] Yenə orada.

[49] Mübarək Fitr bayramında müqəddəs Məşhəd şəhəri əhalisinin və həzrət Əli ibn Musa Rzanın (ə) ziyarətçilərinin toplantısında çıxışdan: 1992.

nə qazanc, nə də bəşər həyatının ümumi məsələlərindən olan hər hansı bir şey öz mənasını ifadə edəcək.

Elm dinin qarşısında olan bir şey deyil; bir-birinin kənarında olan iki şey deyillər ki, ya bu olsun, ya o. Bunların insan vücuduna nisbəti fərqli nisbətlərdir. Din bəşər həyatının ideal mühitindən ibarətdir. İnsan ideal həyata malik olmaq istəsə, bu mühitdə olmaldır. Bu mühiti qurmağın təbii qanun-qaydaları var. Onlara riayət olunmalı, uyğun mühit vücuda gəlməli və qurulmalıdır. Bu mühit qurulduqda onun daxilində hər hansı bir sahənin alimi, siyasətçi, sənətkar, cahil və hər bir kəs bir cür yaşayacaq. Odur ki, bunlar bir-birinə tam uzlaşa bilərlər. Yəni dini elminə təsir edən və elmi dinindən təsirlənən kamil bir dindar və kamil bir alim meydana çıxar. Düzgün olan budur və siz bu gün bunun hazırlıq işlərini görürsünüz. Buna əsasən, bu mübarək bir addımdır və mən çox sevinirəm ki, İslam Respublikasında bu barədə düşünürlər.[50]

**Elmin faydalı olmasının şərti: dini ruhla yanaşı olması**

Mənim əzizlərim, çalışın dini ruhiyyənizi və imanınızı gücləndirin. Elm o zaman işə yarayacaq ki, dinlə yanaşı olsun. Bəli, sizin dininiz var, bu dində mənəviyyat və paklıq var. Bu din məntiqli, möhkəm, məqbul və ziyalıların da qəbul etdiyi etiqad təməllərinə malikdir. O zaman sizin elminiz həm özünüz üçün, həm də bəşəriyyət üçün faydalı olacaq.

Bəziləri elə bilirlər ki, tələbə universitetə daxil olan kimi dini öpüb kənara qoymalıdır. Xeyr! Bu fikir tərzi tağut dövrünə aid idi. Onlar kökündən universitetləri antidin və qeyri-dini mühitə çevirdilər. Bu işdə israrla və məqsədyönlü şəkildə dayandılar.[51]

**Elm və dinin ayrılığı təfəkkürünün gəlişi və möminlərin ona qarşı çıxması**

Əlbəttə, bu fikir (elmin dindən ayrılığı) yeni elmlərin İrana daxil olduğu dövrdə İslamla arası olmayan ölkələrdən idxal edildi. Sonra

---

[50] "Həkim əxlaqı" konfransının üzvləri ilə görüşdə çıxışdan: 1993.

[51] Kuhgiluyə və Buyer Əhməd vilayətinin universitet mənsubları və mədəniyyət işçilərilə görüşdə çıxışdan: 1994.

Pəhləvilər dövründə gücləndi və onu ənənəyə çevirmək istədilər. Lakin cənab Doktor Vilayətinin haqlı olaraq dediyi kimi, ixlaslı və həqiqətən Allah yolunun mücahidi olan möminlərin bir qrupu inqilabdan öncə möhkəm dayanıb yeni elmlərlə məşğul olmağın dinə nəinki zidd olmadığını, hətta dinin xidmətində də dura biləcəyini sübut etdilər. Bu insanlar inqilab boyunca da bunu sübuta yetirdilər və indi də universitetlərdə sübuta yetirirlər. Çoxlu gənc qızlar tibb ixtisasının ən yüksək mərhələlərini keçdilər, eyni zamanda başlarında çadra olduğuna görə fəxr də etdilər. Əksinə, münasib olmayan bəzi qadın həkimlər də vardı; mən bir dəfə dedim ki, bunlar bizim xəstə xanımlarımız üçün kişidən də naməhrəmdirlər; buna görə yaxşı olar ki, qadınlar kişi doktora müraciət etsinlər, amma bunların yanına getməsinlər. Həqiqətən belə qadın həkimlər də vardı.[52]

**Elmin faydasına uyğun ilahi savab**

Öyrətdiyiniz elm nə qədər faydalı olsa, savabı da bir o qədər çox olar. Belə deyil ki, Quran və din elmləri öyrətməyin savabı var, amma cəbr, fizika və həndəsə öyrətməyin savabı yoxdur. Siz sinifdə dərs deyir və xalqın balalarını alim edirsiniz. Bir insanı alim və cəmiyyət üçün faydalı edən hər bir dərsi öyrətmək savabdır. Bu, İslamın məntiqidir.[53]

**Elmi araşdırmalarda imanın təsiri**

İmanın, dini etiqadın və inqilabçı ruhiyyənin bəzi sahələrdə, məsələn, müharibədə, yaxud praktik sahə olan ölkə quruculuğunda nə qədər təsiri varsa, tədqiqat, elm, düşüncə və mədəni işlər sahəsində də eynilə belədir. Əsas inkişaf amillərindən biri əzmkarlıq, iradə və özünə güvənməkdir və bu ruhiyyə mömin və inqilabçı kadrlarda daha çoxdur. Odur ki, iş gedir.

---

[52] Ölkə həkimlərinin İslam birliyi və İslam cəmiyyətinin üzvləri ilə görüşdə çıxışdan: 1994.

[53] Müəllim Günü və Beynəlxalq Əmək Günü münasibətilə fəhlələrlə, nümunəvi müəllimlərlə və Mənzil Fondunun əməkdaşları ilə görüşdə çıxışdan: 1995.

Allaha şükür olsun ki, siz də bu yaxşı iman, cəbhə və universitetdə cihad hissi ilə çalışır və fəaliyyət göstərirsiniz. Bu, sevindirici haldır.[54]

### İmanın elmdən üstün olması

Elm ayağının axsadığı bəzi yerlərdə iman işlək olur. Əgər siz bəşər həyatının tarixinə və çətin dönəmlərinə baxsanız, görərsiniz ki, bu çətinliklər daha çox iman barmağı ilə həll olunub, nəinki elmin yumruğu ilə. Elmin piyada və gücsüz olduğu yerdə iman ölkələri xilas edib, xalqları əsarətdən çıxarıb. İman pisliklərin, çirkinliklərin və zülmlərin hökmranlığına son qoyub. Burada çox əhəmiyyətli olan məsələ elm, ziyalılıq və imandan ibarət olan üç amilin rolunu və onların bir-biri ilə əlaqəsini bilməkdir.[55]

### Elmin, dinin və aydınlığın birgə olması

Mənim əziz bacılarım, qardaşlarım və övladlarım! Bilin ki, İslam quruluşunda elm, aydınlıq və iman bir-birinin yanında və yanaşıdırlar. İslam hökuməti nəinki elmlə din arasında ziddiyyəti və müharibəni qəbul etmir, hətta inanır ki, iman, elm və aydınlıq əl-ələ verib böyük bir qüvvə yarada bilərlər. Elmsiz iman faydasızdır. Çünki elmsiz iman əlsiz insana bənzəyir. Fərz edin, bu insan özünün ağlı, instinktləri, yaxud səyi ilə bir qızıl xəzinəsinə çata bildi, amma o xəzinəni götürmək üçün əli yoxdur. Elm vasitədir. O, əl və barmaqlar kimidir, insanın həyatı üçün zəruridir. Məhz buna görədir ki, dünyanın ən uca mömini, yəni əziz və müqəddəs peyğəmbərimiz Məhəmməd ibn Abdullah (s) elm arxasınca getməyi əmr etdi və bu əmr yerinə yetirildi.[56]

### Dini inanc - elmi inkişaf amili

Bütün sahələrdə inkişaf edəcəksiniz. Düşməndən qorxmayın, Allah yolunda zəiflik göstərməyin və qəmgin olmayın. Əgər mömin olsanız,

---

[54] Fəqih rəhbərin Azad İslam Universitetindəki nümayəndəliyinin rəhbəri və İsfahan Tibb Universitetinin müəllimləri ilə görüşdə çıxışdan: 1995.

[55] Babul şəhərində universitet mənsubları və mədəniyyət işçiləri ilə görüşdə çıxışdan: 1995.

[56] Yenə orada.

inkişaf edəcəksiniz. Quran təlimlərinə əsasən, İran xalqı elm, tədqiqat, iqtisadiyyat, istehsal, sənaye, elmi texnologiya və həyatın ona layiqli idarəsi sahəsində irəliləyəcək. Bu ölkənin sabahı bu gündən dəfələrlə yaxşı, aydın və şirin olacaq; bu şərtlə ki, imanınızı qoruyasınız, İslamı əziz sayasınız və İslam təlimlərini öyrənəsiniz.[57]

**Elm öyrənməyin istiqamət və ruhunun əhəmiyyəti**

Bu gün dünyanın bəzi yerlərində insani dəyərləri məhv etmək üçün elm öyrədilir. Bu gün şeytani məqsədlərlə özgə ölkələrin sərhədləri arxasında pusqu quranlara kökək etmək üçün elm öyrənənlər var. Bu, dəyər deyil. Bir zaman bizim bu müqəddəs torpağımızda bəzi şəxslər İranı və onun cəmiyyətini fəsada daha çox və daha yaxşı sövq etmək üçün elm öyrənirdilər. Bunun dəyəri yoxdur. İstiqamət və ruh mühüm məsələdir.[58]

**Allah üçün elm öyrənmək və onu inkişaf etdirmək**

"Təbii mənbələri kəşf edin, bu dünyanı qurun, maddi vasitələri öyrənin, beyninizi elmlə silahlandırın, dünyanı, təbiəti, maddəni və qaynaqları tanıyın, kəşf edin, yetişdirin; çünki bunlar sizə məxsusdur" - deyən İslam xatırladır ki, bunların hamısını Allah üçün edin, Allahı yada salın, Allahın xatirəsini ürəyinizdən çıxarmayın və bütün bu hərəkətləri ibadət formasında yerinə yetirin.[59]

**İmanın gücü ilə yeni elmləri mənimsəmək**

Əgər biz yeni elmlərdə o qədər də məlumatlı olmayan, lakin güclü və böyük insanlar tapa bilsək, bunlar həmin elmləri də öz əllərinə keçirib özlərini onlarla təchiz olunan şəxslərin təhlükəsindən qoruya və hətta onların siyasətlərini puç edə biləcəklər.[60]

---

57 Qorqan şəhərinin idman stadionunda çıxışdan: 1995.

58 Fəhlə və müəllimlərlə görüşdə çıxışdan: 1996.

59 Məhərrəm ayı ərəfəsində ruhani və təbliğatçılarla görüşdə çıxışdan: 1996.

60 Beynəlxalq İslam Elmləri Mərkəzinin İdarə Heyətinin üzvləri ilə görüşdə çıxışdan: 1997.

**Hizbullahçının (əsl Allah adamının) ilahi dəyərlərin kənarında düşüncə və elmdən istifadə etməsi**

Hizbullahçı şəkildə irəliləyin. Hizbullahçı həm Allahın bəxş etdiyi imkanlardan ən yaxşı şəkildə istifadə edən - elmdən istifadə edən, ağıl və düşüncədən istifadə edən, kadrlardan istifadə edən, yaradıcılıqdan və təcrübədən istifadə edən, müqəddəs müdafiə dövrünün səkkizillik təcrübəsindən maksimum istifadə edən, həmçinin İslamın ona öyrətdiyi insani və ilahi dəyərləri uca tutan, onu öz inkişafının səbəbkarı sayan, ona arxalanan və onunla şərəf duyan şəxsdir.[61]

**Sivilizasiyanın dindarlıqla uyğunluğu**

Dindarlıq və sivilizasiya nə üçün bir-birinə zidd olmalıdır? Sivilizasiya - elmi nizam-intizamla və yaxşı həyat təcrübələri ilə yanaşı olan və məişət inkişaflarından istifadə edən həyatdır. Dindarlıq da həyatda düzgün istiqamətə - ədalət, insaf, səmimiyyət, sədaqət istiqamətinə malik olmaq və Allaha sarı getməkdir. Bunların bir-biri ilə nə ziddiyyəti var?! İnsan bu istiqamətlə elə yaşaya bilər. Necə ki, bizim çoxlu alim və mütəfəkkirlərimiz dindar olmuşlar; Avropanın indiki sivilizasiyasının korifeylərinin çoxu - əsasən sonrakı dövrlərdə - dindar olmuşlar.

İslam sivilizasiyası öz dövründə tarixin parlaq sivilizasiyalarından idi. Bu gün də onun əlamətləri mövcuddur. Allaha şükür ki, bu gün də müsəlman xalqların çoxu və xüsusən bizim xalqımız günün mədəniyyətindən, elmindən istifadə edir, onu əldə etməyə çalışır, çoxlu nailiyyətlər də qazanır. Eyni zamanda bu xalq həm də dindardır və bunlar bir-birinə zidd deyil.[62]

**Müsəlmanların ruhən dəyişməsi - elm və təfəkkürdə sıçrayışın səbəbkarı**

Siz diqqət yetirsəniz, görərsiniz ki, müsəlmanlar erkən İslam çağında Allah hakimiyyətinin qısa dövrü olan bir neçə ilin sayəsində uzun əsrlər boyu dünyanı dəyişdirə bildilər, dünyaya elm, mədəniyyət, təfəkkür, ağıl,

---

[61] "Zülfuqar manevri" mərasimində çıxışdan: 1997.
[62] Gənc və yeniyetmələrlə səmimi söhbətlərdən: 1998.

ruh, məna, məntiq və hər şey bəxş etdilər, zəngin İslam mədəniyyətini yaratdılar, sonrakı il və əsrlərdə bəşər inkişafına şərait yaratdılar. Bunlar erkən İslam çağının müsəlmanında yaranan dəyişikliyə görədir.

Bu gün də Allahla mənəvi əlaqə sayəsində həqiqətən dəyişib ruhani bir insana çevrilən, fiziki və maddi ehtiyaclarını unutmayan, - "Dünyadakı payını unutma"[63] - dünyanı abadlaşdıran, maddi məhsulların keyfiyyətini yüksəldən, elmi inkişaf etdirən, məişəti sahmana salan, amma bunlarda dayanmayan, mənəvi amallara və böyük ilahi arzulara vurulacaq şəkildə dəyişən müsəlman yalnız öz cəmiyyətini ucaltmağı bacarmayacaq, hətta bütün dünyaya və tarixə təsir göstərəcək, insaniyyəti dəyişdirəcək. Allahın yardımı ilə bu baş verəcək. Bunun əsas şərti odur ki, bu gün bizim İslam quruluşumuzda insanlar özlərinin Allahla səmimi və mənəvi əlaqələrini gücləndirsinlər, Allahla daha artıq ünsiyyətdə olsunlar. Rəcəb ayı və bu faydalı fürsətlər bunun üçün qənimət sayılır.[64]

**Din İran tarixində elmin inkişaf amili kimi**

Din elmin tərəfdarı və ona həvəsləndirəndir. Böyük alimlər nadir hallar istisna olmaqla hamılıqla ilahi alimlərdən olmuşlar. Məsələn, bir qədər öncəyə qədər - yəni min ildən sonra Avropa universitetlərində bir mənbə kimi istifadə olunan Qanun kitabının müəllifi İbn Sina bir din alimidir, irfan və fəlsəfə mövzusunda yazan bir insandır. Farabi və digərləri də belə olmuşlar. Düzdür, belə olmayan nadir alimlər də var. Yəni nadir hallarda təbii elmlərin alimi din alimi sayılmamışdır. Belələri də olmuş, lakin az olmuşdur. Buna əsasən, elm və din birgə inkişaf etmiş, din elmə yardımçı olmuşdur. Bu da çox mühüm bir məsələdir və xoşbəxtlikdən, bizim ölkəmizdə vardır.[65]

**Elm və dinin uyğunluğuna dair real nümunə**

Sizin universitetiniz, bu universitetdə təhsil alan siz əziz tələbələr və müəllimləriniz din və elmin qovuşmasının canlı, görkəmli və praktik

---

[63] "Qəsəs"/77.
[64] Xalqın müxtəlif təbəqələri ilə görüşdə çıxışdan: 1998.
[65] Ölkənin elmi elitasının nümayəndələri ilə görüşdə çıxışdan: 1999.

nümunəsisiniz. Bəziləri oturub söhbətlər etsinlər və fəryad qoparsınlar ki, elm və din bir-biri ilə uyğun gəlmir. Yüz saat çıxışın sizin bir saat iştirakınız qədər elmi faydası yoxdur. Çünki siz varsınız, iştirak edirsiniz, o, robotlarınızın keçmişi, dünyada birinci yeri tutduğunuz riyaziyyat müsabiqəsi, sərmayələri cəzb etməyiniz, çox görkəmli elmi nümayəndələriniz, bu da sizin dini simanızdır. İndi bu universitetdə olan Quran və din mərkəzləri, dini incəsənət işləri ölkənin bir çox universitetlərindən daha yaxşı, daha canlı və daha fəaldır. Mən də onların bəzisindən xəbərdaram. Bəzilərinin sözü ilə desək, bir şeyin mümkün olmasının ən yaxşı və ən konkret dəlili onun həyata keçməsidir.

Biz bir şeyin mümkün olub-olmaması haqda danışırıq, sonra görürük ki, mümkünlüyü haqda danışdığımız bu şey indi mövcuddur; daha mübahisə və müzakirələr bitir. Düzdür, yenə də bəziləri mübahisəni davam etdirəcəklər. Dünyada bikar və yalnız zehni mübahisələrin ardınca düşən insanlar az deyillər. Orada-burada oturub danışırlar: "Danışaq görək inqilabi təmayül, din və dini əməl təmayülü elmi inkişafla uyğun gəlir, yoxsa yox?" Çox gözəl, oturub gecəyə qədər danışsınlar. Bu universitetin, burada bu elmi toplumun, mənim üçün çox yaxşı və əziz olan siz tələbələrin və çox yaxşı müəllimlərinizin varlığı bu söhbətləri faydasız, əbəs və yersiz edir.[66]

**Dindarlığın elmi topluma müsbət təsiri**

Dindarlıq hər bir kəs üçün, hər bir şəhərdə - ölkə idarəçiliyində və əsaslı işlərdə çox müsbət bir amildir; işin nəticəsi üçün çox faydalı amildir. Din olsa, əmanətdarlıq, iman və təqva da olar. Din olsa, xəyanət və az işləmək olmaz. Din olsa, bütün mərhələlərdə öhdəlik və məsuliyyət hissi olar. Din bunlardır. Din olsa, elmi iş daha saf, daha ürəkdən və mükafata göz dikmədən görülər. Təsadüfən elmin tarixində harada elm və tədqiqat işində inkişaf olmuşsa, əksər hallarda - ümumi demək istəmirəm - belə olmuşdur; inkişaf elmin rəğbətlə araşdırıldığı, vəzifə, muzd, pul və bu kimi işlər səbəbindən görülmədiyi yerlərdə yaranmışdır. Elmə rəğbətlə araşdırma aparan alimlər daha çox və daha böyük işlər görmüşlər. Din

[66] Şərif Sənaye Universitetində görüşdə çıxışdan: 1999.

olsa, elmi məsuliyyət hissi, tədqiqat məsuliyyəti hissi, elmi işdən maddi mənfəət güdməmək hissi insanda daha çox olacaq. Bir ölkənin elmi toplumu üçün dindarlıq çox dəyərli bir şeydir. Elmi toplum üçün dinsizlik həqiqətən daha zərərlidir və adi camaatda olan dinsizlikdən olduqca artıq ziyanı var. Bunlar çox da əsaslandırmaya ehtiyacı olmayan, dəlili özündə olan məsələlərdəndir. Odur ki, möhtərəm cənablardan, xanımlardan və müəllimlərdən elm mühitində və sinifdə bu ehtiyatın olması gözlənilir. Ümidvaram Allah-Taala sizin hamınızı müvəffəq etsin![67]

**Tərbiyənin olmaması elmin olmaması ilə müqayisədə daha zərərlidir!**

Bilməmək səbəbindən etdiyimiz bütün bu zərərlər düzgün tərbiyənin olmamasından etdiyimiz zərərlərin müqabilində az və kiçikdir. Elmimiz olan sahələrdə insani və düzgün tərbiyəmiz olmadıqda bu bizə zərbə vurur. Görün necə böyük zərərdir! İnsan zəhmət çəkib bir elm əldə edir və bu elm onun süqutuna bais olur. Bu çox böyük ziyandır. Tərbiyənin əhəmiyyəti burada bəlli olur.[68]

**Cahillikdən irəli gələn zərərlər**

Bəşər öz həyatının müxtəlif dövrlərində cəhalətindən çox zərər çəkmişdir. İndi də belədir. Çünki bəşərin bildiyi bu miqdar bilmədiyi miqdar qarşısında çox az və kiçikdir. Bunu böyük alimlər demişlər, biz də onlardan öyrənmişik. Dünyanın məşhur alimləri deyirlər ki, bizim bu varlıq aləmi və əzəmətli kainat haqda bildiklərimiz bir halqa qədərincədir və çox şeyləri bilmirik. Həqiqətən elədir. Yəni onların zehnə yaxın yerlər barədə sözlərini eşidən insan görür ki, belədir, çox şeyləri bilmirlər. Elm hələ inkişaf etməmişdir. Bəşər cahalətin zərərini çəkmişdir, indi də çəkir, lakin tərbiyənin yoxluğuna görə çəkdiyi cəza cəhalətin yoxluğuna görə çəkdiyi cəzadan dəfələrlə artıqdır.

Bu bizə çox aydın bir müqayisə göstərir. Görün insanlar bilməmək, cəhalət və bilgisizlik səbəbindən nə qədər zərər çəkmişlər. İndinin özündə

---

[67] Universitet rektorları və müəllimləri ilə görüşdə çıxışdan: 1999.
[68] Təlim və Tərbiyə Naziri və tərbiyəvi işlər üzrə məsul şəxslərlə görüşdə çıxışdan: 2000.

biz şəxsi, kollektiv və siyasi rəftarlarımızda bilməmək səbəbindən nə qədər səhvə düşür və nə qədər zərər çəkirik. Quran deyir: "Əgər qeybi bilsəydim, sözsüz ki, daha çox xeyir-mənfəət əldə edərdim və mənə pislik toxunmazdı"[69]. Bizim qarşımızda nə qədər qeyb var və bizim üçün aydın olanlar nə qədər kiçikdir! Qeyb aydınlığın müqabilindədir.[70]

**Elm və proqram - hizbullahçı olmağın mənası**

Mən hizbullahçı sözünü dedikdə məqsədim budur ki, belə bir insan böyük məqsədlər təsvir edə, onun üçün proqram hazırlaya və alimcəsinə irəliləyə bilər. Çünki: "Bilin ki, yalnız Allah dəstəsi nicat tapmışlardır"[71]. Kim nicat tapacaq? Məgər elmsiz, diqqətsiz, proqramsız, iradəsiz və bir insanın uca xüsusiyyətləri olmadan müvəffəqiyyət mümkündür?! Məgər Allahın sözü əbəsdir?![72]

**Elmi və ixtisası işlətməkdə mənəvi meyarların təsiri**

Məncə bu söz (mənəvi meyarlar) elmi, təcrübəni, ixtisası və peşəni inkar etmək deyil ki, bəzi adamlar hay-küy salsınlar, mənəvi meyarları, dəyər meyarlarını və ilahi meyarları istəyən kimi onların elmə müxalif olduğunu desinlər. Xeyr! Əgər bu olmasa, elm də, ixtisas və təcrübə də işlədilməz. Mütəxəssis, alim, peşəkar, təhsilli və yaradıcı olan sizlər bunları nə zaman özünüz üçün duyulan mənfəəti olmayan sahədə işlədərsiniz? Sizdə qayğıkeşliyin və ixlasın olduğu zaman. Əgər Allah eləməmiş, məndə və sizdə bu ixlas və qayğıkeşlik olmasa, bu təcrübəni nə üçün burada işlətməliyik, gedib özümüz üçün qazancı olan yerdə işlədərik. Nəticə bu olur ki, bu sahəyə bir şey aid olmur; yəni dövlətə və ölkəyə bir xeyri olmur. Əsas məsələ budur.[73]

**Elmin inkişafı imanı artırır!**

---

[69] "Əraf"/188.

[70] Təlim və Tərbiyə Naziri və tərbiyəvi işlər üzrə məsul şəxslərlə görüşdə çıxışdan: 2000.

[71] "Mucadilə"/22.

[72] Korpusun raket layihəsinin işçiləri ilə görüşdə çıxışdan: 2000.

[73] Mənzil Naziri və nazirliyin məsul şəxsləri ilə görüşdə çıxışdan: 2000.

Elm nə qədər inkişaf etsə, imanın təməlləri bir o qədər möhkəmlənər. Siz bir qədər torpağa, yaxud bir daş parçasına bəsit bir əşya kimi baxıb "Bunu Allah yaratmışdır" - dediyiniz zaman bir növ imanınız var. Bu əşyada olan bütün molekulları, zərrəcikləri və atom elementlərini müşahidə, onun nizam-intizamını, hərəkətini, mürəkkəb quruluşunu, təsir və xüsusiyyətlərini müşahidə edərək "Allah bunun Xaliqidir" - dediyinizdə isə imanınız ayrı cür olacaq.

Elm nə qədər inkişaf etsə, kainat nə qədər artıq tanınsa, dənizlər, səhralar və zərrəciklər elmin nə qədər artıq diqqət mərkəzində olsa, insan vücudunda olan çoxsaylı qüvvələr nə qədər çox tanınsa, bu möhtəşəm və mürəkkəb quruluşu yaradan Allaha imanın daha möhkəm əsası olacaq. Bəzilərinin əzilib-bükülmüş bir kağız parçasına kiçik və artıq bir şey kimi baxması mümkündür, amma başqa birisi bu kağızı açıb onun qatlarını düzəldə, böyük bir vərəqə çevirə, sonra onda olan xətləri bir-bir oxuyub sözlərini anlaya bilər. Bu gün elm insanın məhdud vücudunda olan böyük qüvvələri kəşf edir; sinir sistemində, vücudun zərrəciklərində başdan-ayağa qədər bütün bədən üzvlərinin bütün molekullarında və beyində olanları. Etiraf edirlər ki, hələ insan beynini düzgün tanımayıblar, insan qüvvələrini tanımayıblar, insanın diqqət qüdrətini düzgün tanımayıblar. İnsan bunlara baxdıqda imanı güclənir.[74]

### İmanın elmi inkişafa təsiri

Bəzi adamlar deməsinlər ki, siz həmişə iman üzərində dayanır, elmi və təcrübəni unudursunuz. Xeyr! Elm, təcrübə və elmi inkişafı iman gücü ilə daha çox mənimsəmək, əldə etmək və sonra onu ən yaxşı və ən gözəl şəkildə öz yerində işlətmək olar.[75]

### Elmi üsullardan istifadə - dindarlıq əlaməti

Ehtiyatlı olun. Elə bilməyin ki, biz dindar olduğumuzdan daha elmi, dəqiq, planlı və meyarlara əsaslanan iş görməyimiz lazım deyil. Xeyr,

---

[74] Ərdəbil vilayətinin gəncləri ilə görüşdə çıxışdan: 2000.

[75] "Əli ibn Əbu Talib (ə) Diviziyasının Şəhid Zabitləri" konfransının üzvləri ilə görüşdə çıxışdan: 2001.

dindarlıq əlamətlərindən biri budur ki, elmi, dəqiq, möhkəm və zərif üsullardan istifadə olunsun və səhvlər minimuma ensin.[76]

**İnsanın bütün istedadlarını işlədib elm istehsal etməsi - imana arxalanmağın nəticəsi**

Bəzi adamlar elə bilirlər ki, iman və fədakarlıq üzərində dayanmağın mənası canını fəda etməyə hazır olmaq deməkdir. Xeyr! İman və fədakarlıq üzərində dayanmağın mənası budur ki, qəlbində olan imanla, Allaha arxalanmaqla və güvənməklə insanın bütün qüvvələri işə düşsün, bu qüvvələr elm, təcrübə istehsal etsin və ən mürəkkəb sənayeləri yaratsın; necə ki, yaratdı.[77]

**Təlimin kənarında tərbiyənin də lazım olması**

Yalnız elm deyil, elmin kənarında mütləq tərbiyə də var. Siz təlim və tərbiyə qurumlarındansınız. İnqilabın əvvəlindən tərbiyə işlərinə başlandı. Mən də möhtərəm nazirə tövsiyə etdim, indi də deyirəm ki, buna ciddi yanaşılmalıdır. Müdrikliklə bu sahəni aktivləşdirən Şəhid Rəcaiyə və Şəhid Bahünərə Allah rəhmət eləsin! Bütün səviyyələrdə bu hissəni təlim və tərbiyədən ayırmaq olmaz. Buna diqqət yetirmək lazımdır. Təlim və tərbiyə işinin ən azı yarısı tərbiyədir. Buna görə siz görürsünüz ki, mənəvi paklıq və təlim Quranda peyğəmbərlərin vəzifəsi kimi göstərilir. Bəzi alimlər "onları (mənən) təmizləsin" sözünün Quranın iki ayəsində "onlara öyrətsin" sözündən önə keçməsini mənəvi paklığın təlimdən üstün olması kimi başa düşmüşlər. Bu mümkündür. Ən azı budur ki, mənəvi saflıq təlimlə yanaşıdır: "Onları mənən paklayar, onlara kitabı və hikməti öyrədər".[78] Həm də burada kitab və hikmətin təlimindən söhbət gedir, dəyərsiz işlərin təlimindən yox. Bu, mənəvi paklığın kənarındadır. Buna

---

[76] Müdafiə Nazirliyinin İnformasiya Mühafizəsi Komitəsinin və Silahlı Qüvvələrə Dəstək Komitəsinin üzvləri ilə görüşdə çıxışdan: 2001.

[77] Xürrəmşəhrin azadlığının ildönümü münasibəti ilə xalqın müxtəlif təbəqələri ilə görüşdə çıxışdan: 2002.

[78] "Bəqərə"/129; "Cümə"/2.

əsasən, mənəvi paklıq çox dəyərli işdir. Və mənəvi paklıq tərbiyə deməkdir.[79]

## Təlimin və mənəvi paklığın zəruriliyi

Xalqın xəzinələri - yəni uşaq, yeniyetmə və gənclər sizin əlinizdədir. Heç bir xəzinə bundan qiymətli deyil. Əgər bunların istedadından düşüncə tərbiyəsi və elmi inkişaf üçün istifadə olunmasa, yaxud elmi cəhətdən inkişaf etsələr, lakin insani, əxlaqi və tərbiyəvi cəhətdən yoldan çıxmış və biçimsiz insanlar kimi yetişsələr, bütün əxlaqi meyarlara etiqadsız və etinasız insan olsalar, nə xalqa, nə ölkəyə, nə millətə, nə İslama və inqilaba, nə ölkənin xidmətçilərinə və məmurlarına, nə tale və tarixlərinə etinaları olsa, bunlar nə qədər alim olsalar da, bu elm mənfi bir şey olacaq. Yəni elmin miqdarı nə qədər çox olsa, zərbəsi və zərəri də çox olacaq. Bu məşhur şeirin real nümunəsi olacaq:

Oğru çıraq ilə gələrsə əgər
Ən yaxşı meyvəni ağacdan dərər!

Buna əsasən, şagirdlərin tərbiyəsinə çox əhəmiyyətli yanaşmaq lazımdır.[80]

## İranlı gənclərin İslam dəyərlərini qoruması elmi inkişafın rəhnidir!

Bəşərin əldə etməli olduğu və hələ fəth olunmamış elm və bilik zonaları olduqca çoxdur. Bəşər çox şeyləri hələ bilmir. Bunları kəşf etmək lazımdır və siz bunları kəşf edən öncüllər ola bilərsiniz. Əlbəttə, qeyd etdiyim kimi, bu hiss o zaman yaranacaq ki, bizim gənclərimiz əsas elementi əsl İslam olan öz milli kimlikləri və dəyərləri üçün dəyər tanısınlar. Özündən uzaqlaşmaq, boş bir qab kimi digərlərinin istifadəsinə düşmək heç bir şeyi həll etmir. İslam birliklərinin üzərinə bu dəyər kimliyini gənclərdə qorumaq məsuliyyəti düşür. Siz ölkədən xaricdə çalışan İslam birlikləri olaraq, əslində daha çox iş görürsünüz; həm özünüz

---

[79] Təlim və Tərbiyə Nazirliyinin məsul şəxsləri ilə görüşdə çıxışdan: 2002.
[80] Yenə orada.

elm öyrənirsiniz, həm də elm öyrənənləri doğru və düzgün yolda qoruyursunuz. Bu çox dəyərli bir şeydir.[81]

**İslam ruhunun elm öyrənməyə təsiri**

İslam təfəkkürü bir xalqı canlı, fəal, ümidli və hərəkətli edir. Məhz buna görə İslam dünyası bir gün elmin zirvəsində durdu. Bilirsiniz ki, İslamın gəlişindən sonrakı üçüncü-dördüncü əsrlərdə İslam dünyasında tədricən elmi hərəkət başlandı və İslam dünyası elmin zirvəsində durdu. O gün Avropada və dünyanın digər yerlərində, Şərqi Asiyada, Çində və digər yerlərdə İslam dünyası qədər elmdən əlamət yox idi. İslam dünyası elmin zirvəsində durdu və bu, İslamın insanlarda yaratdığı həvəsə görə idi.[82]

**Həkim Bəsici - elm və dinin uyğunluğunun praktik isbatı**

İndi gəldik Bəsic məsələsinə. Bəsic həkimlərin, ali ixtisas və postixtisas sahiblərinin səviyyəsinə gəldikdə iki dəyərli məna kəsb edir: Biri budur ki, bu toplum dindar, imana və dini öhdəliyə sadiq, Allahı, qiyaməti, müsəlmanlar, möminlər və xalq qarşısında dini vəzifəni qəbul edən bir toplumdur və elm bu dərin, səmərəli və təsirli inamlarla uyğundur. Bəli, buna əhəmiyyətsiz yanaşmaq olmaz. Bu çox mühümdür. On illər, bəlkə də əsrlərdir - miladi tarixi ilə 18-19-cu əsrlərdən elmin dinlə uyğun olmadığını, harada elm varsa, dinin olmadığını, harada din varsa, elmin olmadığını sübuta yetirməyə çalışırlar.

Siz bunu rədd etmək üçün heç bir iş görməmisiniz; nə kitab yazmısınız, nə fəlsəfi araşdırma aparmısınız, lakin öz varlığınız və əməliniz göstərdi ki, bu fəlsəfə səhvdir. Odur ki, bu iş çox dəyərlidir. Hədisdə buyurulur ki, həqiqətləri dildən başqa vasitə ilə isbat edin.[83] Bu sizin gördüyünüz işdir. Yəni öz vücudunuzla göstərdiniz və bu iş hər bir qalın kitabdan, fəlsəfi araşdırmadan daha təsirli və daha faydalıdır.

---

[81] Şərqi Avropa İslam Təşkilatları İttifaqının bir qrup tələbəsi ilə görüşdə çıxışdan: 2002.
[82] Yenə orada.
[83] "Vəsail əş-şiə", c. 1, səh. 56.

Həmçinin göstərdiniz ki, elm və din nəinki bir-birinə zidd deyil, hətta bir-birinə kömək də edir.[84]

**Mömin gənclər və elmi inkişaflar**

Müxtəlif sahələrdə inkişaflar, ümumi olmasa da, əksər yerlərdə həmin mömin və hizbullahçı uşaqlara məxsusdur. Nüvə enerjisi məsələsi və digər elmi məsələlərdə də belədir. İnsanın bir nailiyyət müşahidə etdiyi yerlərdə iş imanlı, Allah-Taalaya təvəssül və təvəkkül edən uşaqların işidir.[85]

**Elm və din münasibətlərinin Avropada və İslam regionunda fərqli vəziyyəti**

Din və elm arasında müharibə İslam regionuna yox, Avropaya məxsusdur. Əsrlərlə din adı ilə elmə və elm adı ilə dinə qarşı çıxan onlardır. Məsihilikdə olan qüsurlu və zəif dini inanc həmin taleyə düçar olmalı idi. Həmin zəif və qüsurlu dini inancla illərlə elmlə vuruşdular, sonra da elm gəlib dini inancın kökünü qazdı. Bunun İslama aidiyyəti yoxdur. İslam regionunda elmi İslam ucaltdı. Siz görün İslam tarixində elmi şəxsiyyətlər kimlərdir. Bunlar həm bugünkü mənada alim idilər, həm də fəqih, filosof, mütəkəllim və hədisşünas idilər. İbn Sina, Farabi, bu gün də dünyanın yeni elm səhifəsində adları qeyd olunan böyük elmi şəxsiyyətlər həm də din alimi idilər. İslamda din elmə dəvət etdi və elm də dinə.

Bu gün dünya hegemonlarının hiyləgər şəkildə və riyakarcasına əldə bayraq etdiyi məfhumlar - məsələn, insan hüquqları və digər dəyərlər İslamın sözləridir. İnsan hüququna dəvət edən İslamdır. Cəmiyyətdə qadın hüququna dəvət edən İslamdır. Elmə çağıran, təbiəti və təbiət qanunlarını öyrənməyə dəvət edən İslamdır. Təbiətin sirlərini kəşf etməyi bizə əmr edən, onları çıxaran və öz həyatında onlardan istifadə etməyi əmr edən

---

[84] Doktorlar Cəmiyyətinin Bəsici ilə görüşdə çıxışdan: 2003.
[85] "Royan" Tədqiqat Mərkəzinin üzvləri ilə görüşdə çıxışdan: 2003.

İslamdır. Bütün bu işlərdə bizə ruh yüksıkliyi, həvəs və yorulmaz bəxş edən dini inancdır.[86]

### İslamda təbii elmlərə dəvətin məqsədi

İslam istəyir ki, müsəlman xalq abadlığı, torpaqdan və torpağın məhsullarından istifadəni yüksək və maksimum həddə çatdırsın. Buna görə elmə, elmin inkişafına, təbiət aləmini kəşf etməyə dəvət edir. Çünki sözügedən bunsuz mümkün deyil.

Siz bilirsiniz ki, Avropada Sənaye inqilabından və renessansdan öncəyə qədər müsəlmanlar elmi baxımdan dünyada hamıdan öndə olmuşlar.[87]

### Əmirəlmöminin (ə): "Dini elmlə qoruyun!"

Əmirəlmöminin (ə) gənclərə müraciətlə bu iki cümləni buyurur: "Ey gənclər! Öz heysiyyətinizi ədəblə və dininizi elmlə qoruyun".[88] Özünüzün insani şərəfinizi və heysiyyətinizi ədəb-ərkanla, öz dininizi isə elmlə qoruyun. Çox əhəmiyyətli bir sözdür. Elm dini qoruyur. Bu, İslamın məntiqidir. Qoy İslamla düşmən olan boşboğazlar həmişə İslamın elmlə uyğun olmaması barədə danışmaqlarında olsunlar.[89]

### İran mədəniyyətinin və elminin mənşəyi dindir!

Əlbəttə, bizim milli kimliyimiz əvvəldən İslamla qarışmışdır; dilimiz, ənənələrimiz, elmimiz, alimlərimiz İslamla qarışmışlar. Tarixdə görürsünüz ki, bizim görkəmli, məşhur və ölməz alimlərimiz dünyəvi elmlərlə yanaşı din elmini də öyrənmiş şəxslərdir. Yəni bütün elmlər dindarlar vasitəsi ilə inkişaf etmişdir. Əlbəttə, bu o demək deyil ki, yalnız dini mədrəsə tələbələri bu xüsusiyyətə malik olmuşlar. Xeyr! Cəmiyyət dini cəmiyyət idi. Bizim mədəniyyətimiz, elmimiz, rəftarımız, ənənələrimiz dinlə qarışmış, onların çoxu dindən qaynaqlanmışdır.[90]

---

[86] İraqın universitet müəllimləri ilə görüşdə çıxışdan: 2003.
[87] Dövlət Şurasının üzvləri ilə görüşdə çıxışdan: 2003.
[88] Yəqubi tarixi, c. 2, səh: 210.
[89] Qəzvinli müəllim və tələbələrlə görüşdə çıxışdan: 2003.
[90] Teleradio Verilişləri Şirkətinin əməkdaşları ilə görüşdə çıxışdan: 2004.

**Dinin elmlə uyğun olması və ona düzgün istiqamət verməsi**

Dünyada elmin sekulyar mahiyyətli olmasını və dəyərlərlə heç bir əlaqəsi olmadığını sübuta yetirmək üçün çox çalışdılar, onun üçün fəlsəfə düzəltdilər, dəlil göstərdilər. Bilik anlayışını dəyərlərdən uzaq bir anlayış kimi göstərmək üçün çalışdılar; yəni indi sizin gördüyünüz işin tam əks tərəfi. Siz deyirsiniz Universitet cihadı. Cihad bir dəyərdir. Həqiqət də budur ki, elm və ağıl ikitərəfli qüvvələrdir. Onlar dəyərlərin xidmətində də dura bilərlər, heyvanlığın və yırtıcılığın xidmətində də. Bu, elmin idarəsinin kimin əlində olmasından asılıdır.

Əgər elmin idarəsi dünyagir, hökmranlıq istəyində olan, pulpərəst və müstəmləkəçi insanların əlində olsa, bu gün dünyada müşahidə etdiyiniz olacaq; yəni elm müstəmləkə, istismar, xalqların təhqiri, işğalçılıq, pozğunluğu, seksi və heroini yaymaq üçün vasitə olacaq. Elm olmasaydı, müstəmləkə də olmazdı. Avropalılar elmlərinin sayəsində dünyada xalqları müstəmləkəyə çevirdilər, 100-150, 200 il geridə saxlayıb öz maddi sərvətlərindən məhrum, insani istedadlarını məhv etdilər, qırğınlar törətdilər. Elm həyatın heyvani cəhətlərindən başqa bir şey haqda fikirləşməyən insanlar tərəfindən idarə olunanda belə olur.

Lakin elm mömin bəndələr tərəfindən idarə olunsa, o zaman xidmət göstərər və ziyanlı olmaz. Əgər nüvə enerjisini kəşf edənlər dəyər və təqva sahibləri, onu işlədənlər dəyərli və mömin bəndələr olsaydılar, heç zaman Hiroşima hadisəsi baş verməzdi. Siz görürsünüz ki, onlar hələ də bacardıqları qədər bu dağıdıcı amildən istifadə edirlər. Bu qüvvələr zəif atom silahlarını 10-12 il əvvəl İraq müharibəsində işlətdilər. Dünyanın başqa regionlarında da nəsillərin kəsilməsinə səbəb olan bu silahı işlətmişlər. Bu silah, Quran sözü ilə desək, insanları sonsuz və yerləri məhv edir.[91] Allah bilir ki, həmin zəhərli və dağıdıcı şüaların təsirləri hələ neçə illər, neçə nəsil və xalqlar üçün qalacaq. Əgər elmin idarəsi mömin insanların əlində olsa, bu məsələlər qarşıya çıxmaz və elm bəşəriyyətin xidmətində durar. Çünki onda bu potensial da var.

---

[91] "Bəqərə"/205.

Buna görə də, elmi sekulyarizə etmək, elmin dəyərlə birgə olmadığını sübut etməyə çalışmaq çox böyük bir çaşdırma və hiylədir. Xeyr! Elm dəyərlə birgə ola bilər. İslam mənəviyyatının heyvanlıqla, fəsadla və elmdən sui-istifadələrlə problemi var, elm, texnologiya və tədqiqatla yox. Mənəviyyat elmlə birgə ola, elm və tədqiqatın nəticələri mənəviyyat istiqamətində hərəkət edə bilər.[92]

**İslamda elmin inkişafına diqqətin nəticələri**

İslamın mənəvi və əxlaqi bir hərəkat olmasına, onun uca məqsədinin kamil və İslam meyarına uyğun bir insan yetişdirməkdən ibarət olmasına baxmayaraq, şübhəsiz, elmi və iqtisadi inkişaf İslamın məqsədlərindəndir. Buna görə görürsünüz ki, İslam dünyanın ən yoxsul və ən geriqalmış yerlərindən birində meydana çıxdı, amma ömründən hələ əlli il ötməmiş ozamankı sivil dünyanın əlli faizindən çoxu İslam bayrağı altına keçdi. Bu sivilizasiyanın ömründən iki əsr ötməmiş böyük İslam dünyası elm, müxtəlif bilgilər, mədəni və iqtisadi inkişaflar baxımından bəşər mədəniyyətinin zirvəsinə çevrildi. Bu yalnız İslam təlimlərinə görə baş verdi.[93]

**İslam dünyagörüşü; elmə həvəsləndirmə və Qərbin humanitar elmlərinin yanlış əsaslarına qarşı mübarizə**

Bizim dünyagörüşümüzdə elm dinin içindən çağlayır, elmin ən yaxşı həvəslənidiricisi dinin özüdür. Bizim tanıdığımız din, Qurandan öyrənib əxz etdiyimiz dini ideologiya, yaranışdan, insandan, metafizikadan, tövhiddən, Allahın istəyindən, qəza və qədərdən yaratdığımız təsəvvür elmlə uyğundur. Ona görə də, din, elmi istehsal edən və ona həvəsləndirəndir. Nümunəsinə siz özünüz tarixdə baxın. İslamın ilk əsrlərində bu dinin həvəsləndirməsinə görə elmi hərəkət o qədər yüksəldi ki, o zamana qədər dünyada analoqu yox idi. Elm və din bütün sahələrdə bir-birinə qarışmışdı. Elm, tədqiqat və sənaye özünə görə güclü inkişaf etdi. Bu gün Qərbdə irəli sürülən humanitar elmlər, iqtisadiyyat,

---

[92] Universitet cihadının ekspertləri və Elmi Şura üzvləri ilə görüşdə çıxışdan: 2004.
[93] İslam İnkişaf Bankının iclasında iştirak edən iqtisadçılarla görüşdə çıxışdan: 2004.

sosiologiya, idarəetmə və humanitar elmlərin digər sahələri bir antidini və qeyri-dini dərkə əsaslanır, yüksək biliyə və İslam tövidinə inanan şəxslərə görə etibarsızdır. Biz bu sahələrdə işləməliyik.[94]

**Elm və texnologiya inkişafında mənəviyyat meyarı**

Çox mühüm olan texniki işlərdə, çox dəqiq və həssas texnologiyalarda dindar, mömin və hizbullahçı uşaqlar ən yaxşılar sırasındadırlar. Elə uşaqlar ki, bir şeyə nail olanda həmin yerdə səcdəyə gedib Allaha şükür edirlər. Bunlar mühüm məsələlərdir. Mənəviyyat meyarı və İslamın işarəsi ilə bu böyük məqsədə ümidvar olmaq, onu araşdırmaq və ona çatmaq olar. Bir xalqın bu iş üçün iradə potensialı var, lakin bir tələbə toplumunda daha güclü iradə ola bilər.[95]

**İmanın elmə istiqamət verməsi**

Elmin dinlə uyğun olub-olmamasını demək, əslində elm və dinin təsir etdiyi zonaları görməməkdir. Bunların hər birinin bir təsir zonası var. Bunların uyğunlaşdırılması odur ki, iman - yəni işlədən amil elmi - yəni bu silahı alır və istiqamətini müəyyənləşdirir. Bu silahla ən yaxşı və ən pis adamları hədəf seçmək olar. Baxır bu silah kimin əlində olsun. Bu silah elm, onun istiqamətini müəyyənləşdirən isə imandır.[96]

**İman - xalqda yenilik yaradan elmi hərəkətin dayağı**

İşi görən sizsiniz. Allaha şükür ki, həm iradəniz var, həm istedadınız, həm də həvəsiniz. Sizin bu hərəkətinizin dayağı da imandır. Bunu bilin ki, bir xalqı dəyişdirməyə qadir olduğunu dediyim elmi açar imanla əldə olunur, imanla saxlanır, imanla işlədilir. Güclü imanın belə bir rolu ola bilər. İmanla bütün işlər daha asan görülür. Allaha şükür olsun ki, həm imanınız var, həm marağınız, qərarınız, güclü iradə və əzmkarlığınız, həm

---

[94] Universitet müəllimləri ilə görüşdə çıxışdan: 2004.
[95] Vəhdəti Gücləndirmə Şöbəsinin üzvləri ilə görüşdə çıxışdan: 2005.
[96] İmam Sadiq (ə) Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışdan: 2006.

də istedad və düşüncə bacarığınız. Siz bu işi görməlisiniz. Bu iş yaxşı getməlidir.[97]

**İslamın sayəsində elm zirvələrinin fəthi**

Biz İslam dəyərlərini öz milli şöhrətimizin səbəbkarı bilirik. Biz bu dəyərləri xalqımızda istedadların inkişaf amili sayırıq. Biz İslamın sayəsində, Allahın qüvvə və qüdrəti ilə adi və normaldan artıq sürətlə elm zirvələrinə yüksəlib bu zirvələri fəth edə biləcəyik. Biz uzun illər məcburən düşdüyümüz zəifliyə qalib gəlib özümüzü gücləndirəcəyik.[98]

**Ölkənin elmi inkişafında İslamın rolu**

Əgər gənclərimizin elmdə sürətlə inkişaf etdiklərini və yalnız irəliyə doğru getdiklərini görürsünüzsə - xoşbəxtlikdən, ölkəmizdə elmin inkişafı günbəgün artır - bu, cəmiyyətimizdə olan çox cüzi İslama görədir. Biz İslam inancının, İslam ruhiyyəsinin və İslam dərkinin sahəsini nə qədər genişləndirə bilsək, bu nailiyyətlər daha da artacaq və digər ölkələr üçün də örnək olacaq.[99]

**Elmi işlə yanaşı olan dindarlıq üzərində təkid**

Mənim təkidim budur ki, elmin inkişafı üçün işlədikdə elm və dinin yanaşı olduğunu unutmayasınız. Dinsiz və dindən uzaq olan elm birinci addımda və qısa müddətdə bir ölkəni müəyyən nailiyyətlərə çatdıra bilsə də, uzun müddət üçün bəşəriyyətə ziyanlı olacaq; necə ki, ziyanını görməkdəsiniz.[100]

**Allah yolunda olan elmin təsirləri**

---

[97] Atom Enerjisi Təşkilatının məsul şəxsləri və nüvə ekspertləri ilə görüşdə çıxışdan: 2006.

[98] Xalqın müxtəlif təbəqələri, ölkə və ordu məmurları və İslam ölkələrinin səfirləri ilə görüşdə çıxışdan: 2006.

[99] Beynəlxalq Quran müsabiqəsinin iyirmi üçüncü mərhələsində iştirak edən qiraətçilərlə görüşdə çıxışdan: 2006.

[100] "Royan" Tədqiqat Mərkəzinə baxış keçirərkən etdiyi söhbətlərdən: 2007.

Elmi dinlə yanaşı bilmək lazımdır. Elmi Allah üçün və Allah yolunda öyrənmək və işlətmək lazımdır. Bu hər yerdə bizim ilkin təlimlərimizdən olmalıdır.

Bu elmin uğurları da çoxdur; bunu sizə deyim. Deməsinlər ki, elmi müqəddəsləşdirsək, dinlə birləşdirsək, möminbazlıq etsək, daha inkişaf etməz. Xeyr! İndi sizin Universitet cihadınızın özü, sizin bütün bu böyük işləriniz mömin kadrlar vasitəsi ilə görülmüşdür. Bu onu göstərir ki, elm imanla yanaşı olduqda uğurları da çox olur.[101]

**Fikir və düşüncə dünyasının İslam elminə və hikmətinə ehtiyacı**

Bu gün haqla və insafla desək, fikir və düşüncə dünyasına görə (fikir və düşüncə ilə işləməyən adamlarla işimiz yoxdur), Qərb dünyasında bir boşluq və bir sual mövcuddur. Bu boşluğu daha liberal-demokratiyanın cavabları doldura bilmir; necə ki, sosializm də doldura bilmədi. Bu boşluğu insani və mənəvi məntiq doldura bilər. Bu da İslamın ixtiyarındadır.

Doktor Zəryab həm yaxşı və peşəkar universitet mənsubu idi, həm də hövzədə yaxşı tələbəlik dövrü keçirmiş, imamın şagirdi olmuş və İslam elmlərini öyrənmişdi. Dostlarımızın biri deyir ki, o, ömrünün axırında bir yaradıcılıq məzuniyyəti götürüb Avropaya getmişdi. Qayıdandan sonra demişdi ki, bu gün Avropa universitetlərinin Molla Sədraya və Şeyx Ənsariyə ehtiyaclı olduğunu gördüm. Şeyx Ənsarinin sahəsi hüquq və fiqhdir, Molla Sədranın sahəsi isə ilahi hikmət. Deyirdi mən görürəm ki, bu gün onların Molla Sədraya və Şeyx Ənsariyə çox ehtiyacları var.

Bu, qərbşünas, bir neçə Avropa dilini mükəmməl bilən, illərlə orada yaşayıb dərs oxuyan və İslam elmləri ilə də tanış olan bir müəllimin haqlı qənaətidir.[102]

**İctimai sahələrdə mənəviyyat və maddiyyatın qarşıdurması**

Mənəviyyata arxalanan xalq qüvvələrinin gücə və təhdidə arxalanan maddi qüvvələrlə qarşıdurması mövzusu çox mühüm, yeni və böyük bir mövzudur. Bu mövzu ictimai elmlərdə, xalqların psixologiyasında və

---

[101] Yenə orada.

[102] Universitet rektorları və müəllimləri ilə görüşdə çıxışdan: 2007.

ictimai psixologiyada araşdırılmalıdır, lakin tamamilə diqqətdən kənarda qalmışdır.

Nə atom bombası olan, nə elmi baxımdan yüz il ərzində elmin öncülləri ilə yanaşı hərəkət etmək imkanı verilən və çox zaman geri qalan, sərvətlər baxımından həmin varlı ölkələrə çatmayan ölkəmiz və xalqımız ən mühüm sahələrdə silahı, texnologiyası, maddi və informasiya gücü olan qüdrətli ölkələrin təxribatlarını zərərsizləşdirə və məğlub edə bilmişdir. Bunun səbəbi nədir? Bu, diqqətəlayiq məsələdir. Bunu politoloq və sosioloq alimlər təhlil etsinlər, görsünlər bu gün İranda mənəviyyatın rolu özünü necə göstərir.[103]

**Dindarlıq - inkişaf və ilahi yardım amili**

Gənclərlə danışmağı lazım bildiyim başqa bir mövzu dindarlıq məsələsidir. Əziz gənclər! Dindarlıq, imkan daxilində dini məsələlərə riayət etmək ilahi nəzərə, insani uğurlara və inkişafa bais olur. Buna əhəmiyyətsiz yanaşmayın. Mən demək istəyirəm ki, hansısa riyazi düsturu, kimyəvi elementi, yaxud ixtiranı edəndə, tapanda və ya həll edəndə Allahı yada salmaq sizə kömək edər. Allah-Taala insana yardım edir, işlər Onun əlindədir.

Bəlkə də demişəm ki, bizim gənclərimiz kök hüceyrələr məsələsini araşdırıb kəşf edəndə Royan müəssisəsinin sədri mərhum Mühəndis Kazimi həmin qrupla birgə mənim yanıma gəlib məruzə edirdi. O deyirdi ki, mən işin nə yerdə olduğunu bilmək üçün "sabah işi bitirəcəyik" deyən gənc mühəndisə zəng vurdum. Həyat yoldaşı dəstəyi götürüb dedi ki, mühəndis axırıncı məsələni tapa bildiyinə görə səcdəyə gedib ağlayır. Mərhum Mühəndis Kazimi bunu danışanda həm özünü ağlamaq tutdu, həm məclisdə iştirak edən həmin gənci. Mənəviyyat məsələsinə əhəmiyyətsiz yanaşmaq olmaz.[104]

**Bəsicin elmi rolu**

---

[103] Tehranın cümə namazı xütbələrindən: 2007.

[104] Şiraz universitetlərinin müəllim və tələbələri ilə görüşdə çıxışdan: 2008.

Bəsicin rolu döyüş və müharibə ilə bitmir. İslamın ehtiyacı olan və İslam Respublikasının ehtiyac duyduğu hər bir yerdə Bəsic qüvvəsi iştirak edə bilər. Necə ki, xoşbəxtlikdən, elm və təhsil sahəsində Bəsic üzvü olan gənclərin çox yaxşı uğurlar qazandığını, nailiyyətlər əldə etdiyini görür və eşidirik.[105]

**Bəsic üzvü olan gənclərin elmi inkişafı**

Bizim fəal gənclərimiz də müxtəlif sahələrdə inkişaf etmişlər. Bu gün bizim xalqımız arasında Bəsic üzvü olan gənclərimiz elm, təcrübə və mürəkkəb texnologiya sahələrində inkişaf etmişlər.[106]

**Təlimin kənarında tərbiyənin əhəmiyyəti**

Mühüm olan növbəti məqam təlim və tərbiyə işlərində tərbiyə sisteminə əhəmiyyətli yanaşmaqdır. Bəziləri tərbiyə sisteminə diqqətsizlik səbəbindən inqilabın əvvəlində yaradılan bu bölməni təlim və tərbiyə məcmusundan kənarlaşdırdılar, tədricən zəiflətdilər və demək olar ki, sıradan çıxardılar. Siz indi bunu lazım bilirsiniz. Bunu icra edin, həyata keçirin. Tərbiyənin əhəmiyyəti təlimdən çox olmasa da, az deyil. Bizim uşağımızın, şagirdimizin zehnindən ibarət olan ağ və hazır lövhə yalnız xətləməklə, üzərinə rəqəmlər yazmaqla düzəlmir. Onu düzəltmək lazımdır. Bu isə tərbiyə deməkdir. Tərbiyə məsələsinə - onu hansı formada edirlərsə, etsinlər, biz forması barədə fikir yürütmürük - əhəmiyyətli yanaşılmalıdır; dərs vəsaitində, müəllim seçimində, müəllim yetişdirməkdə və idarəçiliyin özündə.

Təlim və tərbiyə qurumları istər idarədə, istər insani kadrlarda kəmiyyət inkişafından nə qədər çəkinsə, bir o qədər yaxşı olar. Çünki təlim və tərbiyə qurumlarının kəmiyyət inkişafı bu gün birinci prioritet deyil, keyfiyyət daha mühümdür. Ehtiyaclar təmin olunsun, müəllimə və məktəbə olan ehtiyac təmin olunsun. Birinci növbədə keyfiyyət artırılsın,

---

[105] Fars vilayətinin Bəsic üzvləri ilə görüşdə çıxışdan: 2008.
[106] Kazirun rayonunun əhalisi ilə görüşdə çıxışdan: 2008.

hazırlıq, təcrübə, elm və mədəniyyət baxımından müəllimlərin dərəcəsi yüksəldilsin. Bunlar təlim və tərbiyə işlərində mühüm məsələlərdir.[107]

**Əxlaqi tərbiyə - elm öyrənməyə şərait yaradan amil**

Əziz İslam Peyğəmbəri (s) bir hədisdə buyurmuşdur: "Həqiqətən ağıl cəhalətin bağı və nəfs hərəkət edənlərin ən pisidir".[108]

Sonra buyurur ki, ağıldan səbir yarandı və səbirdən elm vücuda gəldi. İnsan bunların sıralanmasına diqqət yetirsin: Ağıl əvvəlcə səbri yaradır. Bu səbir haləti olduqda elm öyrənməyə, fərdin və cəmiyyətin öz məlumatlarını artırmasına şərait yaranacaq. Yəni elm səbirdən sonrakı mərhələdədir. Səbir əxlaqdır. Quran ayəsində də "Onları mənəvi cəhətdən paklasın, onlara kitab və hikmət öyrətsin" - deyə buyurduqda mənəvi paklığı birinci qeyd edir. Bu, əxlaqi tərbiyədir.[109]

**Elmi araşdırmalarda əsas amil**

Burada deyildi ki, dini mənəviyyat amilini - dinsiz və dindən uzaq olan mənəviyyatı yox; bu əslində mənəviyyat deyil, xəyaldır - elmi hərəkətdə və elmi tədqiqatda əsas götürməliyik. Bunu xanımlardan biri burada dedi. Bu tamamilə doğrudur. Əsas məsələlərdən biri budur; buna diqqət yetirmək lazımdır. Əgər bu olsa, cəmiyyətin əxlaqlaşması da – bu sonuncu əziz gəncimiz gözlənti irəli sürdü; bu bizim gözləntimizdir və bunu dəfələrlə təkrar etmişik – həyata keçəcək. Çünki şüarla inkişaf etmək olmaz, hərəkət etmək və təsvir olunmuş məqsədə yaxınlaşmaq lazımdır.[110]

---

107 Müəllimlər, fəhlələr və feldşerlərlə görüşdə çxışdan: 2009.
108 "Tühəf əl-üqul", səh: 15.
109 Mübarək Məbəs bayramında çxışdan: 2009.
110 Ölkənin elmi elitasının nümayəndələri ilə görüşdə çxışdan: 2009.

## Üçüncü fəsil: Müsəlmanların möhtəşəm elmi keçmişi

### Orta əsrlər: Avropa qaranlıqda, İslam isə elmin zirvəsində

İranda Qərbin müasir elmlərinə yol açıldıqdan sonra xəyanətkar və qafil əllər bu xalqın geri qalması və inkişaf etməməsi üçün işlər gördülər. Uzun illər və hətta əsrlər boyu bizim xalqımız elmin zirvəsində idi, o dövrdə dünyanın heç bir yerində elm bu qədər inkişaf etməmişdi. Siz eşitmisiniz ki, Orta əsrlər qaranlıq və zülmət çağıdır. Bu gün də avropalılar hər hansı bir xalqı pisləmək istəsələr, deyirlər ki, bunlar Orta əsrlərə aiddirlər. Orta əsrlər - yəni Avropa xalqlarının cəhalət və zülmət əsrləri. Məhz bu əsrlərdə İranda və İslam ölkələrində elmin parlaq dövrü yaşanırdı. İbn Sina, Əbu Reyhan Biruni, Məhəmməd ibn Zəkəriyya, böyük astronom və riyaziyyatçı olan Ömər Xəyyam, təbiət elmlərində bizim ən böyük alimlərimiz, ən böyük ədiblərimiz, elmi əsərləri bu gün də dünyada mühüm sayılan ən böyük riyaziyyatçılarımız, astronomlarımız və təbiblərimiz Orta əsrlərdə yaşamışlar.

Bəli, Orta əsrlər avropalılar üçün zülmət və qaranlıq çağıdır, biz müsəlmanlar üçün isə elmin çiçəkləndiyi əsrlərdir. Avropalılar bu həqiqəti gizlədirlər. Qərb tarixçiləri onu dillərinə gətirmirlər. Biz də adət edib inanmışıq.[111]

### Erkən İslam çağında savadsızlıqla mübarizənin səmərələri

Dünyada elmdən, savaddan, dərsdən, tapşırıqdan, təlim və təhsil əlamətlərindən bir xəbərin olmadığı zaman bizim İslamımız və Quranımız "Oxu" sözü ilə başladı, qələmə və yazıya and içdi, bir neçə söz öyrətmək müqabilində müharibə əsirini azad etdi. Bu, on dörd əsr öncəyə ayiddir. İslamın və bizim əziz Peyğəmbərimizin (s) bu işlərinin nəticəsində ərəbin savadsız cəmiyyəti bugünkü Avropanın elm və bilikdən heç bir xəbəri olmayan dövrdə ən böyük universitetlərə, ən böyük alimlərə, farabilərə, ibn sinalara, məhəmməd ibn zəkəriyyalara, əbu reyhanlara və başqalarına sahib olsun. Yəni erkən İslam çağında savadsızlıqla mübarizə, elmə və biliyə həvəsləndirmə İslam cəmiyyətini o zamanın sivil dünyasından

---

[111] Universitet mənsubları və elmi hövzə tələbələri ilə görüşdə çıxışdan: 1989.

təxminən yeddi-səkkiz əsr irəliyə apardı. Düzdür, sonra biz gerilədik. Müsəlmanlar tənbəllik etdilər və iş bu yerə çatdı. Amma indi yenidən başlaya bilərik. Yenidən inqilab oldu, yenidən İslam iş başına gəldi və indi daha savadsızlığın mənası yoxdur.[112]

**Erkən İslam çağında bəşər elminin böyük mərkəzi**

Bura - Məkkə və Mədinə vəhy mərkəzidir, iman və ilahi ayələrə əməl sayəsində rahatlandıqları zillət topağından baş qaldırmağı bacarıb özləri üçün insana layiq azadlığı təmin edən, bəşəriyyətin azadlığı və insanın o dövrün qızıl və güc imperatorluqlarının hökmranlığından xilası bayrağını ucaldan, Qurandan qaynaqlanan bilginin işığı ilə bəşər elminin böyük mərkəzini ərsəyə gətirən, özü əsrlərlə bəşər elminin uca kürsüsündə oturub səxavətli şəkildə bütün bəşəriyyətə öyrədən, mütəmadi əsrlər boyu ən qiymətli elmi əsərlər yaradan və bəşər dünyasının taleyini öz elmi, siyasəti və mədəniyyəti ilə yazan mömin və müqavimətli topluma ilahi bərəkətlərin nazil olduğu yerdir.

Bunların hamısı əsl İslam təlimlərinin, Peyğəmbər (s) dövründə və erkən İslam çağının bir dövründə hakim olan ilahi hökumətin faydalarındandır; şah hökumətlərinin xəbis ağacının inkişafına, hökmranlığına və tövhid dövründən qayıdışa rəğmən, yenə əsrlərə qədər öz səmərələrini müsəlmanlara daddırır, onları və bütün bəşəriyyəti bəhrələndirir.[113]

**Müsəlman və qeyri-müsəlmanların elmi rəhbərliyinin müqayisəsi**

Müsəlmanlar Orta əsrlərdə, ondan öncə və sonra elmdə, fəlsəfədə, fiqhdə və etikada mütərəqqi və inkişaf etmiş mədəniyyətə malik idilər. Dünyanı indiki mədəniyyətə və elmə çatdıran amillərin çoxu müsəlmanlara aiddir. Mühüm məsələ budur ki, müsəlmanlar elmi baxımdan öncə olduqları dövrdə digərlərini təhqir etmədilər, onların elmə malik olmalarına maneçilik törətmədilər, elmi öz inhisarlarında

---

[112] Məsul şəxslərlə və xalqla görüşdə çıxışdan: 1990.
[113] Hörmətli Allah evinin ziyarətçilərinə müraciətdən: 1991.

saxlamadılar. Dünyanın şərqi və qərbi müsəlmanların keçmişdəki bu geniş elm süfrəsindən istifadə edirdi.

Müsəlmanlar dünyanı tamamilə fərqli olan iki hissəyə bölməmişdilər, lakin görürük ki, qeyri-müsəlmanlar elmə yiyələndikdə bütün bu işləri gördülər: digərlərini təhqir etdilər, öz keçmişlərini onlara unutdurdular. Belə ki, bu gün bir çox İslam ölkələrində müsəlmanların öz keçmişlərindən xəbərləri yoxdur. Bunun nəticəsi olaraq yüksək elmi dərəcələrə nail olmaq ümidini də onlardan almışlar. Sanki İslam ölkələrinin və müsəlman cəmiyyətlərin elmi dərəcələrə yüksəlmək istedadı və bacarığı yoxdur.[114]

### İslamın elmə və elm fəlsəfəsinə diqqəti

Bizim istifadə edib işə başlamağımız üçün bir vasitə, necə hərəkət edəcəyimizi bilmək üçün bir baxış lazımdır: haradan, haraya, hansı tərəfdən, hansı yolla və hansı məqsədlə? Bunların hər ikisi insanların həyatı üçün lazımdır: biri dünyadır, biri axirət. Əgər bunların hər ikisi bir yerdə cəm olsa, dünya və axirət səadəti hasil olar. Yəni insanın həm dünyası, həm də axirəti olar, nəticədə xoşbəxt bir həyat alınar: səadətli və peyğəmbərlərin istədiyi bir həyat. Məhz buna görə Peyğəmbərimiz (s) din gətirdi, istiqaməti göstərdi, mənəviyyata arxalandı, lakin davamlı olaraq insanlara maddi vasitələr də verdi. Bəzi məsələləri, elmi, yəni həyat elmini, həyatın idarəsinə aid elmi özü birbaşa xalqa öyrətdi. Bəzən də iş mürəkkəb olduqda və ixtisasa ehtiyac yarandıqda onlara əmr edirdi ki, gedib elm öyrənsinlər, məlumat toplasınlar, əşyalara baxsınlar.

Quranda və əziz Peyğəmbərin (s) sünnəsində kəşf etmək, görmək və tapmaq yolu öyrədilmişdir. Siz görürsünüz ki, erkən İslam çağı cəmiyyətlərində bunların hər birinin bir zirvəsi və əzəməti var. Dünyəvi baxımdan da, onlar İslamın sayəsində bəşər elminin zirvəsində dururlar. Qərblilər daha bu gün bunu inkar etməli deyillər. Müsəlman xalqların tarixi inkaredilləsi deyil. Əgər bunların hər ikisi, yəni dünya və axirət bir

---

[114] Şeyx Müfidin minilliyi münasibəti ilə beynəlxalq konfransın xarici və daxili qonaqları ilə görüşdə çıxışdan: 1993.

yerdə əldə edilsə, dediyimiz olacaq. Amma əgər bunların hər hansı biri olmasa, nöqsan yaranacaq.[115]

**İslamın uca sivilizasiya yaratması**

Məgər quru bir səhrada zəngin bir mədəniyyət yarana bilər?! Məgər belə bir şey mümkündür?! İslamda isə belə oldu. Nəinki müxtəlif kitablar oxumağa və yeni elmi nəzəriyyələr irəli sürməyə səbəb olan savadı, hətta adi oxumaq savadı belə olmayan insanlar zəngin mədəniyyətin əsasını qoydular.

Necə mümkündür ki, bir xalq və cəmiyyət bu yolları keçsin, onun elmi nəzərləri bütün məsələlərdə dünyanın birinci dərəcəli modern elmi nəzərlərinə hakim olduqdan sonra digər sivilizasiyaları öz xeyrinə sıradan çıxarıb yeganə sivilizasiya olsun?! Ərəbistan xalqının nəinki dəyərli, ümumiyyətlə, elmi fikri və hətta adi savadı yox idi. Lakin belə bir cəmiyyət Peyğəmbərin (s) hicrətdən sonra və hökumət dövründəki mübarək həyatının on ili ərzində elə bir mədəniyyətin təməllərini qoydu ki, o mədəniyyət bir neçə əsr dünyanı idarə etdi və bütün mədəniyyətləri təsiri altına saldı.

Həmin əsrlərdə - miladi tarixi ilə üçüncü, dördüncü, beşinci və altıncı əsrlərdə Qərb mədəniyyəti üstün mədəniyyət idi. Şərq mədəniyyəti devrilmişdi və İran mədəniyyəti də əslində bir şey deyildi. Amma İslam mədəniyyəti o üstün Qərb mədəniyyətini sıradan çıxardı. Yəni Qərb mədəniyyəti bu mədəniyyətin qarşısında qüvvədən düşdü; günəş doğandan sonra daha işığı görünməyən bir ulduz kimi, yaxud bir neçə yüksək ixtisaslı doktorluq dərəcəsi olan çox mahir bir mütəxəssisin gəlişi ilə ibtidai bir həkimin "kimsə mənə müraciət etsin" deməyə üzü gəlmədiyi kimi. İslam mədəniyyəti yarananda belə oldu.[116]

**İxlaslı mücahidlik - İslam sivilizasiyasının qələbə amili**

İslam mədəniyyətinin məğzi öz daxilindən idi. Düzdür, canlı mədəniyyət digərlərindən də istifadə edir. Sual budur ki, bu abad dünya,

---

[115] Hövzə və Universitetin Birliyi Günü münasibətilə tələbələrlə görüşdə çıxışdan: 1993.
[116] Keşikçilər Korpusunun müxtəlif bölmələrinin komandirləri ilə görüşdə çıxışdan: 1994.

elmi işlətmək, varlıq aləminin - maddi aləmin birinci dərəcəli həqiqətlərinin müsəlmanlar tərəfindən kəşfi, düşüncələri, fikirləri, beyinləri işlətmək, böyük elmi fəaliyyətlər, dünya miqyasında ozamankı möhtəşəm universitetləri açmaq, o zaman onlarla sərvətli və iqtidarlı ölkə və tarix boyu bənzərsiz bir siyasi güc yaratmaq haradan vücuda gəldi? Tarixdə İslamdan başqa bir güc yoxdur ki, Avropanın ürəyindən Hindistan yarımadasının ortasına qədər vahid bir ölkə olsun və vahid hökumət tərəfindən idarə olunsun.

Avropanın Orta əsrlər dövrü Avropa üçün cəhalət və bədbəxtlik dövrüdür. Avropalılar Orta əsrləri qaranlıq və zülmət dövrü adlandırırlar. Lakin Avropada qaranlıq və zülmətin hakim olduğu həmin Orta əsrlər İslam ölkələrində, o cümlədən İranda elmin parlaq dövrüdür. Elmin parlaq dövrü olan dördüncü hicri əsri barədə kitablar yazmış və tədqiqatlar aparmışlar. Elə siyasi qüdrət, elə elmi qüdrət, elə dünya bəzəmək, elə ölkə idarəsi və bütün canlı, aktiv və qurucu bəşəri qüvvələri işlətmək nəyin təsirindən vücuda gəldi? İslam təlimlərinin təsirindən. Məsələ yalnız budur.

İslam müsəlmanlara bir dərs öyrətdi. O dərs nə zaman müsəlmanların arasında olsa, nəticəsi mənəvi və maddi ucalıq olar. O dərs ixlaslı mücahidlik dərsidir. Harada ixlaslı mücahidlik olsa, nəticəsi parlaq olar. Lakin ixlaslı mücahidliyin Allah üçün baş verməsi də mümkündür, Allahdan qeyrisi üçün də. Əgər Allah üçün baş versə, əbədi qalacaq və məhv olmayacaq. Lakin Allahdan qeyrisi üçün baş versə, daimi olmaz. Ola bilsin birisi kiməsə aşiq olsun, ixlasla ondan ötrü çalışsın, yaxud öz vətəninə aşiq olsun və vətəni üçün ürəkdən və səmimiyyətlə hərəkət etsin. Bunlar daimi deyil, uyğun həyəcan və hissin yaşayacağı zamana qədərdir. Hissləri bir qədər soyuyan kimi gözü açılır və öz-özünə deyir ki, mən nə üçün gedib ölməliyəm, filankəs isə yeyib boynunu yoğunlatmalıdır?! Lakin Allah üçün olsa, belə düşünməz, ağlı nə qədər çoxalsa, mübarizliyi də artar. Çünki bilir ki, "Sizdə olan tükənər, Allah dərgahında olan isə əbədidir"[117]; yəni Allah üçün verilən hədər getmir.[118]

---

[117] "Nəhl"/96.

[118] Keşikçilər Korpusunun müxtəlif bölmələrinin komandirləri ilə görüşdə çıxışdan: 1994.

**Müsəlmanların elmi birincilik tarixi**

Peyğəmbərin (s) vəfatından hələ iki əsr ötmədən ərəb bölgəsinin mərkəzliyi ilə İslam dünyasında elm bayrağı ucaldı. Elm onlara məxsus deyildi, müsəlmanların elmdən xəbəri yox idi. Onlar elmi digər yerlərdən öyrəndilər. Çünki Peyğəmbər (s) buyurmuşdu: "Elm Çində olsa belə, gedib öyrənin".[119] Əgər lazım olsa, elm öyrənmək üçün dünyanın o tərəfinə də gedin. Müsəlmanlar elmi öyrəndilər və inkişaf etdirdilər. Hicri təqvimi ilə 4-5-ci əsrlərdə Cənubi Avropada, bugünkü İspaniyada İslam hökuməti qurulanda Avropanın ən yüksək universiteti ogünkü Andalusda yerləşirdi. Pier Russo Elmlər tarixi kitabında yazır ki, bir tacir oğlunu elm öyrənmək üçün universitetə göndərmək istəyirdi. O, bu məqsədlə bir müəllimlə məshələtləşdi. Müəllim dedi ki, oğlunun dörd riyazi əməli öyrənməsini istəyirsənsə, Fransanın və Mərkəzi Avropa bölgəsinin bütün universitetləri bunu yaxşı öyrədərlər. Lakin dörd riyazi əməldən yüksək elm öyrənməsini istəyirsənsə, gərək onu Andalusun İslam universitetlərinə göndərəsən. Bunu qərblilər yazıblar. Pier Russonun yazdığı Elmlər tarixi kitabı dini təmayüllərə qarışmadan elmlər tarixinə aiddir. Buna əsasən, elm bayrağı müsəlmanların vasitəsilə ucaldı. Deməli, elmsiz iman faydalı deyil.[120]

**Müsəlmanların tarixi elmi parlaqlığına Qərb tarixçiləri tərəfindən qoyulan senzura**

Hicrətin üçüncü və dördüncü əsrləri və ondan sonrakı dövr elə parlaq bir mədəniyyətlə bəzənmişdi ki, min ildən sonra dünyanın indiki mədəniyyətində onun elmi və mədəni faydalarını hələ də açıq şəkildə görmək olar. Qərb tarixçiləri elm və mədəniyyət tarixindən danışarkən elmin, mədəniyyətin və sivilizasiyanın bu mühüm və bənzərsiz dönüşündən yan keçir və elm sərgüzəştini qədim Yunan və Romadan birbaş renessansa birləşdirirlər; sanki elm və sivilizasiya min il ölmüşdü, renessansda birdən doğuldu. Lakin həqiqət budur ki, Orta əsrlər yalnız

---

[119] "Vəsail əş-şiə" c. 27, səh: 27.

[120] Babul şəhərində universitet mənsubları və mədəniyyət işçiləri ilə görüşdə çıxışdan: 1995.

Qərb və Avropa üçün qaranlıq, cəhalət və vəhşət əsrləri idi, Avropadan bir neçə dəfə böyük olan və Andalusdan Çinə qədər uzanan İslam dünyası üçün isə elmi parlaqlıq, oyanış və yüksəliş dövrü sayılırdı.[121]

**Peyğəmbər (s) quruluşunun əsas xətlərinə dair şəffaf bilgi**

Əziz Peyğəmbər (s) əsas xətləri bir neçə amildən ibarət olan bir quruluş yaratdı. Mən bu əsas xətlər arasında dördünü mühüm bilirəm: Birincisi şəffaf və şübhəsiz məlumatdır; dinə, hökmlərə, cəmiyyətə, vəzifəyə, Allaha, Peyğəmbərə (s) və təbiətə dair məlumat. Həmin məlumat elmlə və elm öyrənməklə sonuclandı, İslam cəmiyyətini hicrətin dördüncü əsrində elmi sivilizasiyanın zirvəsinə çatdırdı. Peyğəmbər (s) anlaşılmazlıq və şübhənin qalmasına qoymurdu. Bu barədə Quranda maraqlı ayələr var. Harada çaşqınlıq əmələ gəlirdisə, bir ayə nazil olub hər şeyi aydınlaşdırırdı.

İkinci əsas xətt mütləq və güzəştsiz ədalət idi· Üçüncüsü Allah qarşısında kamil və şəriksiz bəndəlik, dördüncü isə eşq və güclü emosiyadır.[122]

**Müsəlmanların elmi və mədəni inkişafının mənşəyi**

Erkən İslam çağında besət məfhumundan istifadə edib bu parlaq nuru ozamankı dünyanın hər yerinə yaya, çoxlu insanları doğru yola yönəldə və həqiqi bəndəliyə çəkə bildilər. Ondan sonra bir dönəmdə dünyada elə mədəniyyət, əzəmət və elm yarada bildilər ki, tarixin uca divarları arxasından və uzun məsafələrindən hələ də onun işıltısı görünür, dünya həmin elm, sənaye, düşüncə, bilgi və mədəniyyət inkişafından bəhrələnir. Müsəlmanlar tarix boyu İslamdan nə zaman bəhrələnə bilmişlərsə, xoşbəxt olmuşlar. Hansı insan öz istedadı qədərincə istifadə edə bilmişsə, özünü xoşbəxt etmişdir.[123]

**İslamın ilk əsrlərində elm və mədəniyyətin çiçəklənməsi**

---

[121] İslam ölkələri başçılarının səkkizinci iclasının açılış mərasimində çıxışdan: 1997.
[122] Tehranın cümə namazı xütbələrindən: 1998.
[123] Məbəs bayramı münasibətilə İran İslam Respublikası quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışdan: 1998.

Bir zaman müsəlmanlar cənubi Avropadan, İspaniyadan Fransanın cənubuna qədər bir İslam ölkəsi yaratdılar. Bu ölkə sivilizasiyanın beşiyi oldu və Avropada elm İslamın ilk əsrlərinin həmin Andalus sivilizasiyasından çiçəkləndi. Orada elmin çiçəklənməsinin geniş macəraları var, qərblilərin özləri də bunu etiraf edirlər. Əlbəttə, indi bu vərəqi elm tarixindən çıxarmağa və müsəlmanların adını tamamilə silməyə çalışırlar. Amma onların özləri bu tarixi yazmışlar. Təbii ki, bizim tarixlərimizdə də qeyd olmuşdur.[124]

**Dərin ilahi hikmətlərin dərki**

Nəhcül-bəlağədə və Əmirəlmömininin (ə) qısa sözlərində olan bu dərin hikmətləri bizim hamımız dərk edə bilmərik. Böyük alimlər, dərin ağıl və elm sahibləri bunları dərk edirlər.[125]

**Elmli dünya qurmaqda İslamın hünəri**

İslamın potensialı olduqca böyükdür. İslamın bizim önümüzdə qoyduğu zirvələr bunlardan çox yüksəkdir. O, İslam sivilizasiyanın nə olduğunu bilməyən, bəşəri elmlərlə heç bir əlaqəsi olmayan bir xalqı dünya elminin zirvəsinə qaldırır və bütün bəşər dünyası bu xalqın elmindən, əsərlərindən, təfəkkür və düşüncələrindən bəhrələnir. Bu, İslamın hünəridir. Biz müsəlmanlar isə özümüzü bu zirvədən yerə atdıq. Biz səhv etdik, zəifliklərə və xarlıqlara razı olduq və bu gün İslam dünyası geri qalmışdır.

Biz yenidən bu yolu öndə tutub irəliləyə bilərik: "Bir tayfa özünə bəxş olunan neməti (naşükürlük üzündən küfrə) dəyişməyincə, Allah da ona əta etdiyi neməti dəyişən deyildir".[126] Biz özümüzdə yaratdığımız dəyişiklik qədər inkişaf etdik, Allah-Taala bizi qabağa saldı. Yenə də bu hərəkəti davam etdirmək lazımdır.[127]

---

[124] Sistan və Bəlucistan vilayətinin gəncləri ilə görüşdə çıxışdan: 2003.

[125] Əli ibn Əbu Talibin (ə) mübarək doğum gününün ildönümündə xalqın müxtəlif təbəqələri ilə görüşdə çıxışdan: 2007.

[126] "Ənfal"/53.

[127] Mübarək Fitr bayramında quruluşun məsul şəxsləri ilə görüşdə çıxışdan: 2007.

**İslamın kamil din olması**

Mənəviyyat dini olan İslam həm də elm dinidir. Hicrətin dördüncü və beşinci əsrlərində İslam toplumu ən mütərəqqi toplum idi. Bizim o dövrdəki elmi fəxrlərimiz min il ötdükdən sonra elm səmasında ulduz kimi parlayırlar. Lakin müəyyən səbəblərdən biz dayandıq və tənəzzülə uğradıq.[128]

**Fədək xütbəsində elm və hikmət**

O həzrətin zahiri həyatında mövcud olanlardan biri də elm, hikmət və düşüncədir. O həzrətin məşhur Fədək xütbəsini həm şiələr yazmışlar, həm də əhli-sünnə müəllifləri qeyd etmişlər. Siz bu xütbəyə baxdıqda onun həmd-sənasında və girişində o həzrətin dilindən ətrafa bütünlüklə elm və hikmət yayıldığını görürsünüz. Bu gün Allaha şükür olsun ki, bu xütbə bizim üçün qalmışdır. Bu xütbə təlim mövzusu, elm və biliyə aid müraciət deyildi, əslində siyasi bir mübahisə idi. Lakin bu mübarək xütbədə bizim üçün ən yüksək səviyyəli ilahi bilgilər və İslam təlimləri vardır.[129]

---

[128] Maşınqayırma sənayesinin məhsullarına baxış keçirərkən etdiyi söhbətlərdən: 2010.

[129] Həzrət Fatimeyi-Zəhranın (ə) və İmam Xomeyninin doğum gününün ildönümündə Əhli-beyt məddahları ilə görüşdə çıxışdan: 2010.

## Dördüncü fəsil: Müsəlmanların bugünkü acınacaqlı vəziyyəti və onların elmi fəaliyyətinin zəruriliyi

### İslam ölkələrinin böyük zərəri

Bu gün əksər İslam ölkələri Qərbin şirkət və hökumətlərinin ciblərini doldurduğu on illərdən sonra hələ də gerilik vadisində sərgərdan, Qərbin sənayesinə, elminə və məhsuluna möhtac qalmışlar, siyasət dünyasında hələ də onların tüfeylisi və zavallı ardıcılıdırlar. Bu ilk gündən İslamın fundamental prinsipinə - yəni İslam tövhidinə diqqətsizlik səbəbindən yaranmış və zaman ötdükcə artmış böyük zərərdir. Zaman irəlilədikcə, elm kamilləşdikcə, hökumətləri və ölkələri daha imkanlı etdikcə İslam ölkələri daha gücsüz, daha asılı, daha cürətsiz və daha təşəbbüssüz olmuşlar.[130]

### İslam dünyası elm və sənaye mərkəzlərinin diqqətində olsun!

Bu gün bizim elm, sənaye və texnologiya mərkəzlərində çalışan gənclərimiz bilsinlər ki, İranı onlar qurmalıdırlar. Daha geniş bir baxışda İslam dünyasını diqqətdə saxlayın. İslam dünyası nə üçün bu qədər zəif və möhtac olsun?! Nə üçün hər şeyini düşmənlərinin qapısından dilənsin?! Bu gün bəzi pullu müsəlman ölkələri pul verib meyvə-tərəvəzlərini təyyarə ilə Avropa ölkələrindən gətirirlər, texniki alətlər öz yerində, liman düzəltmək öz yerində, kəşflər öz yerində. Nə üçün belə olmalıdır?! Məgər İslam xalqının nəyi çatmır?!

Bu gün dünyada bir milyard müsəlman var, özü də bizim həssas ölkələrimizdə. Bu gün dünyanın böyük bir hissəsi İslam övladlarının ayağı altındadır. Bütün bu zəngin qaynaqlarla, bu coğrafi mövqe ilə yenə də ABŞ, İngiltərə və digər bu kimi dövlətlər bu ölkələrə hakim olmalıdırlar?! Müsəmanlar oyanmalı, bir ailə kimi bir-birinin elmindən, sənayesindən, mənbələrindən və pulundan istifadə etməli və beynəlxalq düşmən qarşısında güclü bir cəbhə qurmalıdırlar.[131]

---

[130] Həzrət İmam Xomeyninin vəfatının birinci ildönümü münasibəti ilə müraciətdən: 1990.

[131] Xalqın müxtəlif təbəqləri və məmurlarla görüşdə çıxışdan: 1991.

**Keçmişin elmi ehtiyatlarına arxalanıb İslam dünyasında elmi hərəkət yaratmaq**

Əgər müsəlmanlar özlərini xilas etmək istəyirlərsə, öz elmi keçmişlərinə arxalanmalıdırlar. Biz müsəlmanların elmi istedadımız var. Bizim keçmişimiz bunu göstərir. Biz deyirik ki, İslam dünyasında nikbin və ümidverici bir elmi hərəkət yaransın. Biz müsəlman ölkələri daxilində bir elmi hərəkət yaratmalıyıq. Şeyx Müfid kimi şəxsiyyətləri anmaq müsəlmanlar arasında həmin ruhiyyəni dirçəltmək üçündür.

İslam dünyasında bizim çoxlu böyük şəxsiyyətlərimiz var. İslam dünyası şərqdən qərbə qədər belə şəxsiyyətlərlə doludur. İbn Sinanın və İbn Rüşdün adı bir zaman Qərb fəlsəfəsini bürümüşdü. İbn Sina haradandır? İbn Rüşd haradandır? Biri Şərqin sonundan və biri Qərbin sonundan. Amma hər ikisi müsəlman və hər ikisi İslamın sərvətidir. Əlbəttə, bizim İbn Sinadan və İbn Rüşddən sonra da çox dəyərli şəxsiyyətlərimiz oldu, lakin qərblilər onları gizlətdilər.[132]

**Elm öyrənməyin vacibliyini başa salmağın zəruriliyi**

Əgər müsəlmanların elm və bilik karvanından geri qaldığını görürsünüzsə, səbəb budur ki, onlara elmi və insan həyatı üçün lazım olanı öyrənməyin vacib olduğu başa salınmamışdır.[133]

**Elmi zirvəyə doğru hərəkətin dini vəzifə olması**

Sizin işiniz elmi inkişaf və elmi şüurluluğun davam etdirilməsidir. Bu, İslamın bəyəndiyi, əhəmiyyətli yanaşdığı və həvəsləndirdiyi bir işdir. Biz bu dinə inanan müsəlman və mömin kimi elmi işi və elm zirvəsinə doğru hərəkəti həm fərdi işlərimizdə, həm də ölkənin ümumi proqramlarında davam etdirməyə borcluyuq. Bu bir vəzifədir. Bu məsələyə baxış belə olmalıdır.[134]

**Müsəlmanların elm karvanından geri qalmasının səbəbi**

---

[132] Şeyx Müfidin minilliyi münasibəti ilə beynəlxalq konfransın xarici və daxili qonaqları ilə görüşdə çıxışdan: 1993.
[133] On üçüncü Quran müsabiqəsinin yekun tədbirində çıxışdan: 1996.
[134] Gənc alimlərlə və tələbələrlə görüşdə çıxışdan: 2004.

Müsəlman toplumlarının elm, quruculuq və yaradıcılıq karvanından geri qalması İslam əmrlərinə əməl etməmələrinə görədir.[135]

**Müsəlmanların elm və texnologiyada geriliyi - təqvasızlığın nəticəsi**

Doğrusu da budur. Bu gün müsəlman xalqların beynəlxalq güclərin hegemonluğu qarşısında deməyə sözləri yoxdur; nə lazımi elmləri, nə mütərəqqi texnologiyaları, nə də müxtəlif siyasi sahələrdə məharətləri. Nə üçün? Biz nə üçün geri qaldıq? Çünki təqvanı əldən verdik. Bu, təqva ilə aradan qalxan sıxıntılardır.[136]

**İslam dünyasının birliyi - elmi inkişafın müqəddiməsi**

Bizim fikrimizcə, bu gün İslam dünyasının ən mühüm məsələsi birlik məsələsidir. Əgər bu birlik baş tutsa, biz elmi inkişafa da nail ola bilərik, siyasi inkişafa da.[137]

**İslam dünyasının elmi və mənəvi inkişafdan ötrü din təlimlərinə üz tutması**

Bu gün İslam dünyası İslam şəriətinə və təlimlərinə sarılmaqla bəşəriyyətin ucalığa və kamilliyə sarı avanqardı ola bilər. Bu gün dünya İslam ümmətinin hərəkətinə hazırdır. Bəşərin elmi inkişafları – onların əsas hissəsində əxlaq, mənəviyyat və dini ruh kənara atılmışdır – bəşər elmi və insanın dünyanın təbii həqiqətlərinə yeni baxışı İslam ümmətinin bu hərəkətinin əsası ola bilər. İslam təlimləri İslam dünyasının ixtiyarındadır. Peyğəmbərin (s) davranış tərzi, sözləri və hamısından üstünü, Qurani-kərim İslam dünyasının ixtiyarındadır və İslam dünyası hərəkət edə bilər.

Bu gün İslam dünyası öz ucalığı, müstəqilliyi, elmi inkişafı və mənəvi qüdrəti - yəni dinə sarılması, Allaha təvəkkül etməsi və Allahın yardımına əmin olması üçün çalışmalıdır: "Bəndələrinə verdiyin vədlər qətidir"[138]. Bu ilahi vəddir. Qəti ilahi vəddir ki, "Allaha ona kömək edənə mütləq kömək

---

[135] Sərçeşmə misi kompleksinin əməkdaşları ilə görüşdə çıxışdan: 2005.
[136] Tehranın cümə namazı xütbələrindən: 2005.
[137] İslam Birliyi Konfransının iştirakçıları ilə görüşdə çıxışdan: 2006.
[138] "Vəsail əş-şiə", c. 14, səh: 395.

edəcək"[139]. Bu vədə etimadla iş və əməl mühitinə daxil olsunlar. Bu əməl yalnız ələ tüfəng götürmək deyil, bu əməl fikir əməlidir, ağıl əməlidir, elm əməlidir, ictimai əməldir, siyasi əməldir; hamısı Allah üçün və hamısı İslam dünyasının birliyi yolunda.[140]

**Elm və texnologiyada gerilik**

Biz çox geri qalmışıq, İslam dünyası çox geridədir. Biz elm və texnologiyada inkişaf etməliyik.[141]

**Müasir dövrdə İslam hüququ**

Biz bu gün İslam dünyasında supergüclər tərəfindən bir ölkəyə və bir xalqa yox, bütün İslam ümmətinə vurulan ardıcıl zərbələr qarşısında qalmışıq. Bir nümunəsi İslam məhkəməsi və İslam hüququdur. İslamın mütərəqqi və dəyərli məhkəmə qanunları var. İslam hüququ dünyanın ən uca və ən mütərəqqi hüquqlarındandır. Bunu hər kəs görə bilər. İslam alimlərinin bu əsrlər boyu müxtəlif ölkələrdə İslamın hüquqi məsələlərinə, cəza qanunlarına və cinayət məcəlləsinə dair yazdıqlarına baxaq.

Bunlara baxanda çox dəyərli bir toplu görürük. Biz İslam dünyasında bu uzun illər ərzində bu hüquq ətrafında mərkəzləşsəydik, yenilik və inkişaf qanunu ilə onları günbəgün inkişaf etdirə bilərdik. Lakin İslam dünyasında bu baş vermədi. Müstəmləkəçilər siyasi və iqtisadi məsələlərdə İslam ümmətinə qalib olduqları kimi, mədəni və hüquqi məsələlərdə də İslam ölkələrinə və müsəlman xalqlara öz istismarını və qələbəsini yeritdi, heç bir səbəb olmadan bizim məhkəməmiz Avropa və Qərb məhkəməsi kimi oldu. Bunlar İslam dünyasının dərdləri və problemləridir.[142]

---

139 "Həcc"/40.

140 Quruluşun məsul şəxsləri ilə görüşdə çıxışdan: 2007.

141 Əziz Peyğəmbərin (s) Məbəs gününün ildönümündə xalqın müxtəlif təbəqələri və quruluşun məsul şəxsləri ilə görüşdə çıxışdan: 2007.

142 İslam ölkələrinin məhkəmə rəhbərləri ilə görüşdə çıxışdan: 2007.

## Beşinci fəsil: İdeal İslam cəmiyyəti

### İslam cəmiyyətinin öncüllüyü

Ölkə məmurları hərəkət etsinlər. İslam cəmiyyəti inşallah bütün dünyada elmin, sənayenin, inkişafın, azadlığın, mənəviyyatın, ilahi bəndəliyin, dinin və dini inancların bayraqdarı olsun.[143]

### İdeal İslam cəmiyyətinin xüsusiyyətləri

Ölkənin quruculuğu, bu bərəkətli torpağı abadlaşdırmaq və tağutların hakimiyyəti dövründə bu istedadlı xalq üçün zorla yaradılan təəssüflü gerilikləri düzəltmək İslam Respublikasının əsas məqsədlərindən biridir.

Elm və tədqiqatın gücləndirilməsi, elmi inkişaf, insani istedadların çiçəkləndirilməsi, ayıqlığın və ümumi məlumatın artırılması inqilabın əsas cəhətlərindən başqa birisidir. İdeal İslam cəmiyyəti elə cəmiyyətdir ki, onda hər bir cəmiyyətin ən qiymətli milli sərvəti olan bəşəri düşüncə və fikir xəzinələri çıxarılıb işlədilsin, savadsızlığın kökü kəsilsin, məktəblər bütün uşaqları qoynuna alsın, universitetlər və elmi hözvələr rövnəqlənsin, tədqiqat mərkəzləri fəal və qabaqcıl olsun, kitab hər yerə yayılsın, mətbuat məzmunlu olsun və məlumat bəxş etsin, alim və müəllimlər həvəskar və maraqlı, yaradıcı, yenilikçi, yazıçı və sənətkarlar ümidli və faydalı olsunlar.

Bizim ideal və məqbul İslamla bugünkü məsafəmiz çox, lakin qət ediləsidir. Müsəlman İran sübut etməlidir ki, bu gün də özünəməxsus elmi istedadlar yetişdirən mərkəzdir. Diktatura və müstəmləkənin ikiəsrlik istismarı bu xalqın mahiyyətini dəyişdirə bilməmişdir. Əgər ötən iki əsrdə müstəmləkə və istibdadın hökmranlığı istedadların çiçəklənməsinə mane olmuşsa, bu gün xalqın azadlığı, oyanışı dövründə və İslam inqilabının sayəsində gerilik düzəldilməlidir.[144]

### Müsəlmanlar elmi inkişafa, digərləri isə keçmişə sarı!

---

[143] Tehranın cümə namazı xütbələrindən: 1990.

[144] Həzrət İmam Xomeyninin vəfatının birinci ildönümü münasibəti ilə müraciətdən: 1990.

Görün Quran elm, keçmişə baxmaq, keçmiş barədə düşünmək və ondan dərs almaq üzərində nə qədər dayanır! Biz müsəlman, inqilabçı və dünyanın yeni hərəkətinin öncülü olduğumuzdan bu elmi digərlərindən yaxşı bilməliyik. Digərləri mürtəcedirlər, geri qalmışlar, üzü keçmişə dayanmışlar; onların bərbəzəklərinə baxmayın. Digərləri ehtirasın, ən kiçik bəşəri hisslərin əsiridirlər. Öncül, avanqard və yenilikçi sizsiniz, dünyaya yeni sözü siz deyirsiniz. Siz mümkün olan hər bir elmin, o cümlədən hərb elminin, hərb sənətinin və yeni döyüş taktikalarının ən yaxşısına malik olmalısınız.[145]

**Elmi gizlətməyin və inhisarda saxlamağın məzəmmət olunması**

Təlim haqda söylənmiş hədislərdə elmini gizlədən alim lənətlənmişdir. Bu yalnız din elminə məxsus deyil. Sözsüz ki, onun xüsusi yeri və əhəmiyyəti var. Öz elmini gizlədib şagirdlərinə öyrətməyən həkim, mühəndis, öz təcrübəsini və elmini gizlədən, inhisarında saxlayan mahir fəhlə və hər hansı şəxs lənətlənmişdir; elmin aşkarlanması, elmi məsələnin ifşa olunması ümumi şəkildə fəsad törətdikdə isə heç. Hər halda, cəmiyyət təlim, təhsil, öyrənmək və öyrətmək yeri olmalıdır. Söhbət bundan gedir.[146]

**Elmi inkişafsız mənəviyyatın böyük sapqınlıq olması**

Məsələnin o biri tərəfi də belədir. Yəni əgər bir cəmiyyət yalnız mənəvi cəhətlərə baxsa və elmdən xəbərsiz olsa, elmi tərəqqidən, elmi kəşflərdən, elmi yeniliklərdən, vətən övladlarının təhsilindən, həyatı bu gün dünyanın tələb etdiyi və ehtiyaclı olduğu asanlıqla və sürətlə bəşərin ehtiyaclarına uyğun şəklə sala biləcək insanlar yetişdirməkdən uzaq olsa, yenə də başqa bir qanadı sınmışdır. Elə bilməyin ki, İslam hər bir şeyin mənəvi məsələlərdə inhisarının tərəfdarıdır və maddiyyata diqqət yetirmir. Xeyr! Bu yayınma birinci yayınma qədər böyükdür. İslam çox aydın şəkildə dünyadan və həyatdan üz çevirməni rədd etmişdir.[147]

---

[145] Fəqih rəhbərin İslam İnqilabının Keçikçiləri Korpusundakı nümayəndəlik orqanlarının məsul şəxslərinin və komandirlərin dördüncü böyük toplantısının sonunda çıxışdan: 1991.

[146] Müəllim və fəhlələrlə görüşdə çıxışdan: 1992.

[147] Hövzə və Universitetin Birliyi Günü münasibətilə tələbələrlə görüşdə çıxışdan: 1993.

**Elm və iş - bir-birinin zəruri şərti**

İşsiz elm elə əməlsiz elmdir: "Əməlsiz alim meyvəsiz ağaca bənzəyir". Bitmiş ağac ilahi qüdrətin əlamətidir, amma meyvəsi yoxdur. Həmçinin bir şəxs elmsiz işlədikdə, o iş ibadət olsa da, faydası yoxdur və dövri hərəkətə bənzəyir; bir şəxs inkişaf olmadan öz ətrafına fırlanır. Ölkənin həm elmə, həm də işə ehtiyacı var. Allah-Taala da bunların hər ikisini savab saymış, onlar üçün mükafat təyin etmişdir.[148]

**Bəşər təkamülünün elm və çalışmaqdan asılı olması**

Elmi yaymaq və işi görmək də namaz qılmaq və Quran oxumaq kimi ibadətdir. Bunlar kiçik iş deyil. Nə üçün Allah-Taala öyrətməyi və işləməyi bəşərə savab etmişdir? Axı Allahın işləri əbəs deyil. Bu ondan ötrüdür ki, Allah-Taalanın bəşərin həyatı dövründə nail olmasını istədiyi kamillik həmçinin elm və işə bağlıdır. İşsiz, yaxud az və ya pis işləyən və yaxud elmsiz və savadsız bir cəmiyyət və xalq özünü lazımi şəkildə bəşəri kamilliyə çatdıra bilməz, dünya həyatı hədər gedər. Haqq-Taalanın kamil və qüsursuz elmində bu məsələ aydındır.[149]

**Quran mədəniyyəti: Elmi inkişaf mənəvi ucalığın kənarında**

İlahi peyğəmbərlərin dəyərli təlimləri və Allah-Taalanın nurlu ayələri ilə bəşər üçün bəzənmiş və işıqlanmış dünya insana layiq dünyadır. Elə bir dünyadır ki, onda həm abadlıq, rifah, elm və sənaye inkişafı var, həm də siyasi iqtidar və mənəvi yüksəliş. Elə bir dünyadır ki, insanlar bir-birinin yanında rahatlıq, təhlükəsizlik və əmin-amanlıq hiss edirlər və insaniyyət çiçəklənir. Lakin bu, maddi sivilizasiyanın düzəltdiyi dünyada mövcud deyil. Çünki maddiyyatçı dünyada insanlar canavarlar kimi bir-birindən qorxmalıdırlar. İran xalqı həm maddi, həm də mənəvi cəhətdən özü üçün belə bir dünya qurmaqda israrlıdır. Bu isə uzunmüddətli bir mübarizədir.

---

[148] Müəllim Günü və Beynəlxalq Əmək Günü münasibətilə fəhlələrlə, nümunəvi müəllimlərlə və Mənzil Fondunun əməkdaşları ilə görüşdə çıxışdan: 1995.

[149] Yenə orada.

Allaha şükür olsun ki, bu gün bu ölkədə elmin və dünyaya xidmət göstərə biləcək İslam mədəniyyətinin karvanı hərəkətə başlamışdır.[150]

**İki əsas şərt olan təlim-təbriyə və yaradıcılıq sahələrində inkişaf**

Müəllim elmin timsalıdır, fəhlə isə əməlin. Bu səbəbdən Müəllim və Fəhlə günü elm və əməl günüdür. Cəmiyyətin varlığı da elm və əmələ bağlıdır. Əgər biz öz aramızda bu iki əsası – yəni elm və əməli, təlim və tərbiyəni, iş və yaradıcılığı inkişaf etdirib bu iki sahədə nəzərəçarpacaq inkişaf yarada bilsək - Allaha şükür olsun ki, bu gün bu böyük həddə yaranmışdır - ölkənin məqsədlərə sarı hərəkəti sürətlənəcək, problemlər aradan qalxacaq və bizim böyük inqilabımızın müsəlman İran üçün nəzərdə tutduğu vəziyyət yaxınlaşacaq. Odur ki, bu iki əsas mühüm məsələdir. Bu iki əsasın nümayəndələri - yəni bir tərəfdən ölkənin müəllim toplumu, təlim və tərbiyə işçiləri, digər tərəfdən də fəhlə toplumu, işə, yaradıcılığa, istehsala, sənayeyə, əkinçiliyə və bu kimi sahələrə aid olanlar ölkə üçün çox əhəmiyyətlidirlər.[151]

**Elmi irəliləyiş və təbiətin öyrənilməsi**

İslam demir ki, dünyanı abadlaşdırmayın, elm öyrənməyin, təbiətdəki ilahi qanunları öyrənməyə çalışmayın. Xeyr, əksinə, İslam insanı elmə və ağla sarı yönəldir.

İslam düşüncə və elm baxımından cəmiyyətin səviyyəsini yüksəldir; insandan istəyir ki, yeri qursun, abadlaşdırsın, Allah-Taalanın bu dünyada yaratdığı, havada, torpaqda, günəşdə, suda və kainatda əmanət qoyduğu digər qüvvə və istedadları kəşf etsin, özünün və digər insanların ixtiyarında qoysun.[152]

**Elm və iman örnəyini göstərməyin zəruriliyi**

---

[150] Əzəmətli "Qüds yolu" manevrində iştirak edən silahlı qüvvələrin toplantısında çıxışdan: 1997.

[151] Beynəlxalq Əmək Günü və Müəllim Günü ərəfəsində müəllim və fəhlələrlə görüşdə çıxşdan: 1997.

[152] Mübarək Fitr bayramı münasibəti ilə ümumi görüşdə çıxışdan: 1999.

Biz dünyaya elə bir nümunə nəsil təqdim etmək istəyirik ki, əməli surətdə elmlə məşğul olub onu öyrənməyin, varlıq aləmində və insanın öz vücudunda ilahi əmanətlərdən maksimum bəhrələnməyin, eyni zamanda dindar, əxlaqi və mənəvi dəyərlərə sadiq qalmağın mümkünlüyünü isbat etsin.

Əgər İslam Respublikası və İslam quruluşu 30, 40 və ya 50 il ötdükdən sonra olsa belə alim, elmə inanan, elm öyrənən və elmi işlədən şəxsin dindar, dini və əxlaqi dəyərlərə sahib olub bəşər üçün bu faydaları yetirdiyini dünyaya göstərsə, bilirsiniz İslam üçün necə böyük təbliğat olacaq?! Bəşərin üzünə hansı qurtuluş qapısı açılacaq və bəşəriyyət necə təhlükəsizlik hiss edəcək?! Əgər İslam quruluşu bu işə ciddi girişsə, bunu əməldə kimlər həyata keçirməlidir? Siz gənclər.[153]

**Elmi inkişafın kənarında mənəviyyata və əxlaqa ehitiyac**

Biz elə bir dünya istəyirik ki, həm elm, bilik, texnologiya, elmi inkişaf və kəşflərdən bəhrələnsin, həm də mənəvi və əxlaqi yoxsulluğu olmasın. Bu gün təəssüf ki, ölkəmiz elmi baxımdan geridədir. Biz ötən iki yüz ildə inqilaba qədərki hökumətlərin pis işləməsi nəticəsində geri qalmışıq. İndi fərz edin bu gerilik aradan qalxsa və dünyanın elmdə inkişaf etmiş bugünkü ölkələri kimi olsaq, o məsələnin və digər çatışmazlığın əhəmiyyəti və zərəri bundan az olmayacaq. Əgər bu gün Qərbin düçar olduğu kimi, elmi baxımdan inkişaf etmiş, lakin ayrıseçkiliyə, əxlaq fəsadına, güclü əxlaqi yoxsulluğa və sərgərdanlığa düçar olan, mənəviyyatı unudub həyat ləzzətlərindən yapışan bir cəmiyyətimiz olsa, bu çox böyük ziyan olacaq.[154]

Əgər gənclər bu yolda yaxşı hərəkət etmək istəsələr, sizin Quranınız məşəl ola bilər. Quranı olmağın rolunu bundan anlamaq olar. Siz dərrakəlilər, istedadlılar və inkişaf etmiş gənclər bu məşəli əlinizdə saxlamalısınız. Siz əslində Quran məşəlini qəlbinizdə saxlayıb dərs oxumalı, düşünməli, işləməli, yeni yollar axtarmalı, elmdə, bilgidə, inkişafda, sənayedə və hər bir şeydə açılmayan qapıları açmaq barədə

---

[153] İftardan sonra tələbələrlə görüşdə çıxışdan: 1999.
[154] Yüksək istedadlı Quran şagirdləri ilə görüşdə çıxışdan: 2000.

fikirləşməlisiniz. Ölkənin elm yoxsulluğunu öz səyinizlə aradan qaldırın, tədqiqat yoxsulluğunu aradan qaldırın və bütün bunları Quranla birgə edin. Bu olacaq ideal vəziyyət. Buna görə mən gənclərə çox ümidvaram; Quran və İslam təlimləri ilə tanış olan gənclərə isə qat-qat artıq ümidvaram.[155]

**Gəncin tərbiyəsində İslamın üç əsas şərti**

İslam əməlsiz, dinsiz alim və əxlaqsız dindar istəmir. Bəzi insanlar zahirən dindardırlar, lakin heç bir İslam əxlaqları yoxdur; İslamın zahiri məsələlərinə əməl edir, namaz qılır, oruc tuturlar, lakin onlarda bir zərrə xeyirxahlıq, fədakarlıq, yaxşılıq, həmdərdlik və əməkdaşlıq yoxdur.

Əxlaqlı olan, lakin elmlə, yaradıcılıqla və bu kimi işlərlə məşğul olmayan dindarın da faydası yoxdur. Siz bu gəncdə üç əsas şərt olan elm, əməl və əxlaqı yetişdirin. Əlbəttə, bunun bir qədəri proqram hazırlayanlara aiddir ki, onlar hansı proqramı, hansı kitabı, hansı dərsi və hansı mövzunu hazırlasınlar. Lakin bir hissəsi də sizə - təhsil müdirlərinə aiddir. Bu sahədə vəziyyəti görən sizsiniz; müəllimi, məktəb direktorunu, tərbiyəvi işlər üzrə müavinini və şagirdi tanıyır, işləri bacarırsınız.[156]

**Elmi işin kənarında imanın zəruriliyi**

Milli təhlükəsizlik təhdidləri ilə mübarizədə şübhəsiz ki, elektron və digər üsullarla elmi işlər görməlisiniz. Elmi iş və fəaliyyət olmadan dayanmaq olmaz. Lakin bir kəmər kimi bu toplumun hər tərəfini saxlayan, təhlükəsizlik hasarı kimi bu xalqı qoruyan amil onun imanıdır. Bu kəməri imkan daxilində möhkəmlədin.[157]

**Zühur dövründə elmdən səmərəli istifadə**

Zühur dövrü elə dövrdür ki, bəşəriyyət rahat nəfəs ala, Allahın yolunu gedə, təbiətdə və insanın vücudunda olan bütün istedadlardan səmərəli istifadə edə biləcək. Bu gün bəşərin potensialından səmərəli

---

[155] Yenə orada.

[156] Təlim və Tərbiyə idarələrinin məsul işçiləri və Ümumdünya Əhli-beyt Assambleyasının gəncləri ilə görüşdə çıxışdan: 2000.

[157] Yenə orada.

istifadə olunmur, istedadlar tələf olur; təbii istedadlar da həmçinin. Ekologiya əleyhinə görülən və təbiəti çirkləndirən bəzi işlərin hamısı təbii imkanlardan pis istifadədən irəli gəlir. Bəşər bu işə başlamışdır və inkişaf edir. Amma bu, düzgün və yeganə yol deyil; elmin yolları çoxdur. Bəşər ilahi quruluş sayəsində o yolu tapa bilər.[158]

**Ruhi və mənəvi yüksəlişin kənarında elm və sənaye inkişafı**

Bir ölkənin ucalığı onun yoxsulluğu və ehtiyacı ilə uyğun gəlmir. Buna görə də biz sənaye və tədqiqatla məşğul olmalıyıq. Lakin xalqın yalnız buna ehtiyacı yoxdur, mənəviyyata, ilahi hidayətə və düzgün ilahi yolda qalmağa da ehtiyacı var. Çünki bu olmasa, çox hünər göstərsək, sənaye baxımından bizdən bir addım öndə, lakin yenə də inkişaf etmiş sənaye ölkələrinin ardıcılı olan bir ölkə olacağıq. Biz isə bunu istəmirik. Bizim məqsədimiz budur ki, İslamın bizim üçün təsvir etdiyi və insanın xoşbəxt olduğu bir quruluş yaradaq. İnsan xoşbəxtliyi də onun mənəvi və ruhi yüksəlişinə bağlıdır. Necə ki, həm də maddi həyat baxımından onun əlinin açıqlığına – yoxsul, möhtac olmamasına, digərlərinin ardınca düşməməsinə və elmi yüksəlişinə bağlıdır. Biz özümüzü dünya istismarçılarının bugünkü zalım sistemində boğmaq istəmiriksə və bunu sözün həqiqi mənasında, ürəkdən qəbul ediriksə, sizin sahənizdə - istər parlamentdə, istər hökumətdə görülən bütün işlərdə bu mənəvi və dəyər cəhətinə mütləq diqqət yetirilsin və bu sahədə diqqətsizliyin baş verməsinə əsla icazə verməyin.[159]

**Elmi inkişaf ideal İslam dünyasının rəhnidir!**

Bu gün Allahın lütfü ilə ölkəmizdə yaranmış əhval-ruhiyyəni qorumağa ehtiyacımız var. Biz İslam məfhumları ilə düzgün tanış olmalı, İslam dəyərlərini qorumalı və elmi, İslamın təsvir etdiyi dünyanı yaratmaq üçün işə salmalıyıq. İslamın müsəlmanlar üçün proqnozlaşdırdığı dünyanı elmsiz əldə etmək mümkün deyil. Quranın iki yerində təkrar olunan

---

[158] Feyziyyə mədrəsəsində Qum Elm Hövzəsinin müəllim-tələbə kollektivinin böyük toplantısında çıxışdan: 2000.

[159] İslam Şurası Məclisinin Təhsil, tədqiqat və texnologiya komissiyasının üzvləri ilə görüşdə çıxışdan: 2001.

“Müşriklərin xoşuna gəlməsə də, onu (İslamı) bütün dinlərin fövqündə (bütün dinlərdən üstün) etmək üçün Öz peyğəmbərini doğru yolla və haqq dinlə göndərən Odur!”[160] ayəsi bütün dünyaya mədəni cəhətdən qələbə çalmaq, bütün xalqların hidayətini ələ almaq və onları nura, mənəviyyata və ilahi təkamülə sarı yönəltmək deməkdir. Elm olmadan bu böyük məqsədə çatmaq mümkün deyil. Yəni cahil və savadsız qalmaqla, elmi cəhətdən yerində saymaqla və həmişə elmi istehsal edənlərin əlindəkilərə ehtiyaclı olmaqla bu məqsədlərə çatmaq mümkün deyil. Bunun üçün mütləq elm istehsal etmək lazımdır.[161]

**Qərb mədəniyyəti qarşısında mənəvi mədəniyyətin əsasını qoymaq**

Əgər bu ölkə maddi fəaliyyət və inkişaf sahələrində uğur qazana bilsə, elm, texnologiya və sənaye əldə etsə, güclü beynəlxalq siyasətə və diplomatiyaya malik olsa, cəmiyyətin iqtisadi vəziyyətini yaxşılaşdırsa, tükənməz yeraltı və yürüstü sərvətlərdən – mədənlərdən, əkinçilikdən və digər sahələrdən yararlansa, geniş və rəngarəng İran torpağından və onun mühüm strateji movqeyindən istifadə etsə, xülasə, özünü beynəlxalq və sivil inkişaf standartlarına uyğunlaşdırsa, bu, maddi inkişafı dəyər və mənəviyyat çırağının işığı altında əldə etməyi bacaran ilk ölkə və dövlət olacaq. Bu isə yeni bir mədəniyyət deməkdir. Tarixdə bunun misli azdır və bu, Qərb mədəniyyəti qarşısında çox xəbərdaredici bir fenomendir.[162]

**Xalq hərəkətinin məğzi**

Burada oturan sizlər bir gün bəşəriyyətə dünyanın ən səs-sədalı və ən mühüm ixtirasını təqdim edib öz xalqınızı irəliyə apara bilərsiniz. Bir xalq işini yalnız səs-küylə görə bilməz. Əlbəttə, səs-küy də lazımdır, amma hərəkətin məğzi və dərinliyi olmalıdır. Məğz və dərinlik də iki şeydən artıq deyil: biri iman, biri elm. Bu iki amilə malik olmaq lazımdır. İmansız elm

---

[160] "Səff"/9.

[161] Şərqi Avropa İslam Təşkilatları İttifaqının bir qrup tələbəsilə görüşdə çıxışdan: 2002.

[162] Ayətullah Müctəhidi adına elm mədrəsəsinin tələbə və müəllimləri ilə görüşdə çıxışdan: 2004.

işi irəliyə aparmır; yəni kənarında çoxlu problemlər yaradır. Elmsiz iman da belədir.[163]

**İslamın mütərəqqi elmi toplum qurmağa həvəsləndirməsi**

İslam öz tərəfdarları üçün elmi və əməli inkişafın, texnologiya inkişafının və xalqın dünyəvi inkişafının mövcud olduğu bir cəmiyyət istəyir. İslamın elmə, əmələ və fəaliyyətə həvəsləndirməsi bundan ötrüdür. Allahın qanunu budur ki, hansı xalq çalışıb işləsə, onun səmərəsini mütləq görəcək.[164]

**İdeal İslam cəmiyyəti**

İslam, daxilindən elmin çağladığı bir cəmiyyət istəyir. Bütün ictimai təməllər elm əsası üzərində yenidən qurulmalı və inkişaf etməlidir.[165]

**Elmi sivilizasiya - həqiqi İslama əməl etməyin nəticəsi**

İslam ölkəsi - həyatverici, həvəsverici, hərəkətverici İslamın, yanlış düşüncə, doqmatizm və yayınma olmayan İslamın, kənar qatqılardan uzaq olan, insanlara qorxmazlıq verən, onları elmə və biliyə çağıran İslamın hakim olduğu bir ölkədir. Elə bir İslam ki, İslamın birinci əsrində əməl olunan formada pərakəndə bir toplumu tarixi və qlobal sivilizasiyanın zirvəsinə çatdıra bildi, mədəniyyəti və elmi dünyaya hakim oldu. Elmi nüfuz və hakimlik öz ardınca siyasi iqtidar da gətirir, iqtisadi rifah da, əxlaqi dəyərlər də; əgər ölkə sözün həqiqi mənasında İslam ölkəsi olsa.[166]

**Elm İslam cəmiyyətinin fundamental prinsiplərindən biri kimi**

İslam inqilabı bir qrupun, bir partiyanın, yaxud bir cəmiyyətin hakimiyyət istəyindən ötrü yaranmadı. İslam inqilabını İranın müsəlman xalqı həyata keçirdi. Bu inqilabda məqsəd də İslam cəmiyyəti qurmaqdır. İslam cəmiyyətinin əsas meyarları isə bunlardır: elmli, əxlaqli və ədalətli cəmiyyət. Hamı bunun üçün çalışmalıdır. Bizim sadiq olduğumuz

---

[163] Ölkənin gənc ixtiraçıları ilə görüşdə çıxışdan: 2005.
[164] Rəfsəncan əhalisinin böyük toplantısında çxışdan: 2005.
[165] Şəhid ailələri ilə görüşdə çxışdan: 2005.
[166] Tehranın cümə namazı xütbələrindən: 2005.

prinsiplər bunlardır. İslam cəmiyyəti bu dəyərlərdən ötrü qurulmuşdur. Bizim maddi həyatımızı, bizim rifahımızı, bizim siyasi və beynəlxalq izzətimizi və bizim təhlükəsizliyimizi kamil şəkildə təmin edə bilən amil də bunlardır. Hamı elmli, əxlaqlı və ədalətli bir cəmiyyət yaratmağa çalışmalıdır; hökumətlərin vəzifəsi də budur; bütün məmurların vəzifəsi də budur; müxtəlif sahələrin müdirlərinin vəzifəsi də budur; xalqın arzusu, istəyi və məmurlardan tələbi də budur: elmli, əxlaqlı və ədalətli bir cəmiyyət.[167]

**İslam ümmətinin Əhli-beyt elminə və təlimlərinə ehtiyacı**

İmam Sadiqdən (ə) dərs öyrənən minlərlə insanın hamısının şiə və o həzrətin imamlığına etiqadlı olduğunu düşünmək səhvdir. Xeyr, çoxları İmam Sadiqin (ə) imamlığına şiələr kimi etiqad bəsləmirdilər, amma onun elmindən və o həzrətdə olan İslam təlimlərindən istifadə edirdilər. Bizim hədislərimizdə rəvayətçiləri arasında əhli-sünnədən və qeyri-şiələrdən olan insanların da yer aldığı hədislər çoxdur; amma həzrət Əbu Abdullah Sadiqdən (ə) rəvayət nəql edirlər.

Bu sözün mənası odur ki, İslam dünyası və İslam ümməti bu gün də İmam Sadiqin (ə) və Əhli-beytin təlimlərinə ehtiyaclıdır; İslam dünyası İmam Sadiqin (ə) və digər imamların təlimlərini və Əhli-beyt bilgilərini öyrənməyə möhtacdır, onlardan istifadə etməlidir. İslam ümmətinin müxtəlif təbəqələri bu vasitə ilə bir-biri ilə yarışmalıdırlar ki, İslam təlimlərinin səviyyəsi yüksəlsin.[168]

**Müəllimin hörmətini saxlamaq**

Mən həm xalqa, həm də müəllim olan sizə demək istəyirəm ki, müəllimin hörmətini və qədrini bilin, onu uca tutun. Əlbəttə, daha çox xalqa demək istəyirəm, çünki çox vaxt müəllim öz qədrini bilir; həqiqətən elmi olan və onu kiməsə öyrədən ayıq müəllim nə iş gördüyünü dərk edir. Bağlı bir qıfıl və bir açar var. Müəllim bu açarı şagirdə verir və deyir ki, bu

---

[167] Əziz Peyğəmbərin (s) Məbəs gününün ildönümündə quruluşun məsul şəxsləri və xalqın müxtəlif təbəqələri ilə görüşdə çıxışdan: 2007.

[168] İmam Rzanın (ə) müqəddəs məqbərəsinin ziyarətçilərinin böyük toplantısında çıxışdan: 1998.

açarı bu qıfla belə sal. Bunun adı təlimdir. Bu, başqa heç bir şəkildə həll edilməsi mümkün olmayan bir tənlikdir. Müəllim həll yolunu göstərir. Hər bir sahədə müəllimin işi budur. Odur ki, müəllimlər müxtəlif fərqlərlə nə iş gördüklərini bilirlər. Lakin mənim sözüm daha çox xalqadır.

Mən bizim cəmiyyətimizdə təlim və tərbiyə məqamının İslamın təyin etdiyi şəkildə olmasını istəyirəm. Belə bir hədis nəql olunmuşdur: "Kim mənə bir hərf öyrətsə, məni özünə qul etmişdir". Mən bilmirəm ki, bu hədisin sənədi var, ya yox, varsa necə və nə qədər düzgündür. Lakin söz düz sözdür. Yəni insan bir şəxsdən öyrənməklə əslində bir mərhələni arxada qoyur və o mərhələyə görə özünü həmin bələdçinin xidmətçisi bilməyə və etməyə dəyər. Əsas söz budur.[169]

**Müəllimlik peşəsinin ideal nöqtəsi**

Böyük bir müəllimin şəhid olduğu günü müəllim günü kimi qeyd etmək bizim üçün öyrədicidir. Bu, simvolik xarakterlidir. Yəni, təlim və tərbiyə işinin əzəməti o qədərdir ki, düşüncə və elm işi ilə həyatın əsas sahələrində iştirak etməyin sintezi - necə ki, bu, Şəhid Mütəhhərinin həyatında görünürdü – bu şərafətli peşənin və bu böyük işin ideal nöqtəsidir.[170]

---

[169] Fars vilayətinin müəllimləri ilə görüşdə çıxışdan: 2008.
[170] Ölkə müəllimləri ilə görüşdə çxışdan: 2010.

## İkinci bölmə: Qərb və elm

### Birinci fəsil: Orta əsrlərdə təhrif olunmuş dinin elmlə ziddiyyəti

**Elm və dinin ziddiyyətinə dair düşüncə - kilsə irticasının nəticəsi**

On doqquzuncu əsr Avropasının təfəkkürü elm və dinin ayrılığına, iman və elmin ziddiyyətinə əsaslanırdı. Əlbəttə, bu təfəkkürün formalaşmasında tarixi amillərin də rolu olub. Günah ogünkü kilsənin idi. Təəssübkeş, qapalı, dövründən geri qalmış, insani və bəşəri duyğuları saymayan kobud kilsə belə təfəkkürün yaranmasına bais oldu. Dünyanın hər hansı bir nöqtəsində dini rəhbərlər həqiqətləri, tərəqqiləri, insan xislətinin gözəl tərənnümlərini görmək, ona məhəl qoymaq və dəyərləndirmək istəməsə, nəticə belə olur.[171]

**Qərbin geriliyinin İslam mədəniyyətinin elmi zirvə dövrü ilə eyni zamanda baş verməsi**

Avropalılar elmi baxımdan nə qədər yaxşı və öndə olsalar da, istər fərdi, istər ictimai və tarixi əxlaq baxımından onların arasında yaramaz adamlar olduqca çoxdur. Ümumi şəkildə demirəm ki, pisdirlər, amma onların arasında çoxlu pis şeylər var; məsələn, tarixi təhriflər və böyük milli yalanlar. Onlar on doqquzuncu əsrdə bu nəticəyə gəldilər ki, elm və dinin hər ikisi cəmiyyətdə rol oynayanda din elmin yerini daraldır, ona imkan vermir və elm inkişafdan qalır. Dəlili Orta əsrlərdir. Orta əsrlərdə xalqın dini vardı, həm də çox və təəssüblü idi, buna görə də elm inkişaf etmədi. Amma bu ağır dini təəssüb və etiqad daşları arasından tədricən elm otları cücərdi, dinin yerini daraltdı, boy atıb cəmiyyəti idarə etdi və dini sıxışdırdı.

Onların bu təhlili səhvdir və reallıqlara dayanmır. Əvvəla onların dediyi Orta əsrlər Avropanın cəhalət və bədbəxtlik dövrü olan Orta əsrlərdir, bütün dünyanın elmi gerilik dövrü deyil. Bunlar Avropanı

---

[171] Babul şəhərində universitet mənsubları və mədəniyyət işçiləri ilə görüşdə çıxışdan: 1995.

ümumiləşdirirlər. Orta əsrlər zülmətinin zirvəsi nə zamandır? Miladi tarixi ilə onuncu, on birinci və on üçüncü əsrlər; hicrətin dördüncü, beşinci və altıncı əsrləri – yəni İslam ölkələrinin və hamısından çox İranın elmi inkişafının zirvə çağı. Bu əsrlər İbn Sinanın, Razinin, Farabinin və digərlərinin doğulduğu və yaşadığı əsrlərdir. Bu böyük şəxsiyyətlərin hər biri bu tərəfdən dünyaya işıq saçan bir günəşdir.

Hicrətin dördüncü əsri İslam sivilizasiyasının zirvə çağıdır. Əgər "Dördüncü əsrdə İslam sivilizasiyası" kitabını oxusanız, görəcəksiniz ki, hicrətin dördüncü əsrində - yəni miladi tarixi ilə on birinci əsrdə, Avropada heç bir şeyin olmadığı cəhalət zülmətinin zirvə dövründə İslam inkişafının mərkəzi İrandır, nadir nümunələr istisna olmaqla, ovaxtkı alimlərin təxminən hamısı iranlıdır. Bir halda ki, o zaman İranda din və dindarlıq Avropadan nəinki zəif deyil, həm də olduqca güclü idi.[172]

**Məsihi xurafatı - Orta əsrlərdə elmi inkişafa maneə**

Deməli, elmə mane olan din deyil, başqa bir şeydir. O, xalqın müxtəlif cahillikləri, ozamankı məsihiliyin xurafatıdır. İslamda heç zaman bir alimi elminə görə təhqir etməyiblər. Halbuki Avropada elminə görə birini öldürdülər, birini daşqalaq etdilər, birini dar ağacından asdılar, çoxlarını yandırdılar. Yəni onlar orada baş verənləri - təhrif olunmuş məsihilikdən ibarət çox cəhalətpərəst və xurafatçı dindən qaynaqlanan işləri bütün dünyaya aid edirlər. İslamın günahı nədir? Müsəlmanların günahı nədir? Müsəlman xalqların günahı nədir?[173]

**Təəssübkeş məsihiliyin Avropada elmi inkişafa qarşı çıxmasının nəticəsi**

Əlbəttə, bu fəlakət Qərbin taleyi idi. Avropa renessansından öncə Qərbin düçar olduğu ruhaniliyin - o fanatik, köhnəpərəst, inadkar, ağıl və məntiqdən tam uzaq təəssübkeşliyin nəticəsi həm də bunlar idi. Elm və inkişafa qarşı çıxdıqda, insanları xəyali cinayətlərlə diri-diri yandırdıqda - bu çox da qədim dövrə yox, Avropanın iki-üç əsr qabaqkı dövrünə aiddir -

---

[172] Ölkənin elmi elitasının nümayəndələri ilə görüşdə çıxışdan: 1999.

[173] Yenə orada.

Avropanın bütün düşüncə və mənəviyyat sahələrinə və kilsəsinə çirkin xurafat hakim olduqda, nəticəsi Avropada yaranan və onu uçuruma salan bu vəziyyət olur.

Siz gənclər sivil Qərb dünyasının mənəviyyatsızlıq üzündən həlak olacağı günü görəcəksiniz. Bu gün malik olduğu imkan və qüdrət zirvəsindən zillət və xarlığın dibinə enəcək. Tarixi proseslərin nəticəsi sürətli və tez olmur. Bu nəticələr o zaman görünəcək ki, daha əlacı mümkün olmayacaq. Qərb sivilizasiyası üçün o gün gələcək. Bu gün Qərbin aydın insanlarının özləri bu haqda xəbərdarlıq edirlər. Bu söz burada oturub uzaqdan danışan mənim kimi bir hövzə tələbəsinin sözü deyil, onların öz sözləridir. Təbii ki, biz də bunu anlayırıq.[174]

### Avropada kilsənin təəssübkeş rəftarı nəticəsində elm və dinin ziddiyyəti

Qərbdə və Avropada vəziyyət fərqli idi. Məsihi Avropasında elmi hərəkətin başlanması dini maarifin bitməsi ilə bir oldu, yəni bu mərhələnin başlanması o mərhələnin sonu sayıldı. Bəlkə elə belə də olmalı idi, çünki məsihi aləmində dini maarif xurafatçı, təəssübkeş və tamamilə elm əleyhinə bir maarif idi. Avropada elmi kəşf etdiyinə görə alimləri ya həbsxanaya salır, ya qamçılayır və ya odlayırdılar. Uzun əsrlər boyu alimi cadugər adlandırıb yandırırdılar. Siz Qərbin ədəbi əsərlərində və elm tarixində bu məsələni aydın görə bilərsiniz. Cəmiyyətin dini çevrəsinin, dini rəhbərlərin və yüksək mövqe sahiblərinin elmlə belə rəftar etdiyi bir ictimai şəraitdə elm özünə yer açsa, təbii ki, dini və dini inancları bədbəxt günə qoyar və onun dövrünü bitirər. Bu aydın bir məsələdir.[175]

### Kilsənin elmə qarşı mübarizəsinə diqqət

---

[174] Ayətullah Müctəhidi adına elmi mədrəsənin müəllim və tələbə kollektivi ilə görüşdə çıxışdan: 2004.
[175] Gənc alimlərlə və tələbələrlə görüşdə çıxışdan: 2004.

Orta əsrlərdə Avropada kilsə elmə qarşı mübarizə aparmışdır. Avropanın elmi renessansının həmin keçmişə reaksiya olduğunu diqqətdən qaçırmamalıyıq.[176]

---

[176] Kürdüstan vilayətinin universitet müəllim və tələbələri ilə görüşdə çıxışdan: 2009.

## İkinci fəsil: Renessansdan sonra elmin dindən ayrılması

### Elmin dinlə əlaqəsizliyinin təlqini

Elmin dindən ayrıldığı zamandan - yəni elmin son iki əsrdəki yeni inkişaf dövründə belə təlqin edilirdi ki, elm dünyası din, əxlaq və mənəviyyat dünyasından ayrıdır. Elm və dini iki ayrı-ayrı zonalara daxil edirdilər. Belə başa düşülürdü ki, bir alimin dindar olması mümkündür, lakin onun dininin elminə aidiyyəti yoxdur; onun elmi bir problemi, dini də başqa bir problemi həll etmək üçündür və bunların bir-biri ilə əlaqəsi yoxdur. Bəllidir ki, elm və dinə və onların arasındakı əlaqəyə dair belə təsəvvür və qənaət yarandıqda dinin elm zonasındakı yeri tədricən zəifləyər və nəhayət itər; necə ki, dünyanın bir çox yerlərində belə oldu. Halbuki elm və dinin əlaqəsinə dair bu təsəvvür kökündən səhvdir.[177]

### Elm və dinin uyğunsuzluğu - qüvvədən düşmüş qədim düşüncə

Demək istədiyim söz İranın bugünkü gəncləri olan sizə ünvanlanıb. Bu söz bəlkə də Avropanın bugünkü gəncinə aid deyil; İranın dünənki gəncinə də aid deyil bəlkə. Əslində, hamıdan çox İranın bugünkü gənc nəsli onu düzgün anlaya bilər. Mənim əzizlərim! Bir gün bəşəriyyətin aydın və qulaqbatıran sədası, yəni dünyanın nüfuzlu təbliğatçıları, siyasətçilər, böyük və məşhur alimlər, yazıçılar, jurnalistlər, siyasi partiya liderləri və digər şəxslər təbliğ edirdilər ki, elmlə iman arasında uyğunluq yoxdur. Bu hansı zamana aiddir? Miladi tarixi ilə on doqquzuncu əsrə. Hərdən din hikməti və insan fitrətinin təbiəti ilə tanış olmayan bəzi insanların dilindən eşidilən bəzi sözlər sizin dini buraxıb elmin ardınca düşmənizə bais olmasın. Elə bilməyin ki, bunlar bu günün sözləridir. Bunlar on doqquzuncu əsr Avropasının sözləridir.

Bəzən mərkəzdə təzə xəbərlər dərc olunan bir qəzet nəşr olunur; Tehranda və başqa şəhərlərdə qəzet nəşr olunur. On gündən sonra ucqar bir nöqtədə yaşayan və əlinə qəzet düşməyən bir kəndli bu qəzeti bir yolçudan, yaxud nəyinsə büküldüyü bir paket formasında əldə edir. O,

---

[177] "Həkim əxlaqı" konfransının üzvləri ilə görüşdə çıxışdan: 1993.

qəzetin xəbərini on-on beş gündən sonra filan kənddə oxuyur və təzə xəbər olduğunu sanıb dostlarına danışır.

Bəziləri on doqquzuncu əsr Avropasının qüvvədən düşmüş sözünü - ondan sonra daha üstün insanlar tərəfindən çox dəyərli sözlər deyilib - qəsdən bu gün gətirib hansısa cəmiyyətdə aktual söz kimi ortaya qoyurlar. Bu, günün sözü deyil.

Buna əsasən, on doqquzuncu əsrdə Avropada yayılan elm və imanın ayrılığı fikri nəhayət dünyanı bu vəziyyətə saldı. Köhnə xəbərlərin yazıldığı bu qəzet indi bir ziyalının, yaxud qeyri-ziyalının əlinə düşür, o bunun yeni xəbər olduğunu güman edib oxumağa və danışmağa başlayır. Bu, günün məsələsi deyil, dünənin məsələsidir, on doqquzuncu əsrə aiddir. Biz iyirmi birinci əsrin astanasındayıq, dünya o gündən indiyə qədər on dəfə fırlanıb.[178]

**Avropa alimlərinin dinə qarşı çıxmalarının səbəbi**

Öz beyni, təfəkkürü ilə işləyən adam nə üçün mütləq öz tarixinə, vətəninin və ölkəsinin ənənələrinə yad və hətta düşmən olmalıdır?! Nə üçün məzhəbə qarşı çıxmalıdır?! Səbəb budur ki, aydınlıq və intellektuallıq məsələsinin ilk dəfə Fransada yarandığı dövr Fransa və Avropa xalqının Orta əsrlərdən çıxdığı zaman idi. Onlar qara, kobud və xurafatçı kilsə məsihiliyini arxada qoyub, rədd etmişdilər. Bu məsihilik alimi öldürürdü, ixtiraçını və kəşf edəni mühakimə və sürgün edirdi, özünü və kitabını məhv edirdi. Belə bir şəraitdə aydın insanların meydana çıxıb bu xüsusiyyətlərə malik olan və heç bir ağıllı adamın qəbul etmədiyi söz və xurafatlarla dolu olan bir dini kənara qoymaları, yeni işlərə başlamaları, Fransanın yeni ensiklopediyasını yazmaları və böyük işlər görmələri təbii idi. Bu zaman onların dinə arxa çevirmələri də təbii idi.[179]

**Renessansdan sonra dinin sıradan çıxması xəyalı**

---

[178] Babul şəhərində universitet mənsubları və mədəniyyət işçiləri ilə görüşdə çıxışdan: 1995.

[179] Tehran Universitetinin tələbələri ilə görüşdə çıxışdan: 1998.

Avropanın elmə üz tutduğu bu yeni sənaye həyatının ilk iki əsrində dinin öldüyü güman edilirdi. Bu gün fikir, düşüncə və siyasət işinə yeni qoşulanların səsləndirdiyi bu fikirlər Avropanın filosof və siyasətçilərinin on doqquzuncu əsrdəki sözləridir. Onlar dinin bitdiyini güman etdilər. Onların təcrübəsi göstərirdi ki, xurafata bulaşmış və zülmətlərə qarışmış din elmin hücumu qarşısında tab gətirə bilməyib əridi, yox oldu. Onlar elə bildilər ki, insanlar arasında harada din varsa, onların Avropada və Qərbdə gördükləri kimidir.[180]

**Şəkkaklıq, əqli, əxlaqi və elmi prinsiplərin inkarı - renessansın nəticəsi**

Qərb renessans dövründə elmi, siyasəti və həyat tərzini dindən ayıranda, dinlərin insanlara vəd etdiyi cənnətin yerinə dünyada onlar üçün cənnət düzəltmək istəyirdi. Bu cənnət bu gün cəhənnəmə çevrilmişdir. Özləri də bunu deyirlər. Bir gün bunlar dinə qarşı çıxdılar. Əlbəttə, Avropa ziyalılığının qarşı çıxdığı din bəşər həyatına layiq din deyildi, xurafatla dolu bir din idi, bir elmi kəşfinə görə Qalileyi edama məhkum edən, başqa birisini işgəncə altında öldürən din idi; həqiqi məsihilik yox, təhrif olunmuş məsihilik dini. Onun ayrılmasının eybi yoxdur, mənəviyyatın və əxlaqın elmdən, siyasətdən, həyat sistemindən, fərdi və ictimai münasibətlərdən ayrılmasının eybi var. Elm və ağlı mütləq etdilər, dedilər ki, din kənara çəkilsin, elm və ağıl gəlsin. 19 və 20-ci əsrlər belə ötdü. Təxminən 40-50 ildir ki, ağla da irad bildirirlər, uca səslə ağlın qəti nəticələrini inkar edirlər, bütün prinsiplərdə - əxlaqi, əqli və hətta elmi prinsiplərdə şəkkaklığa (skeptisizmə) və nisbiliyə çəkilmişlər. Bu kiminsə yamsılamalı olduğu bir təcrübə deyil. Qərbin getdiyi, lakin mənzilə çatmadığı yolu izləmək səhvdir.[181]

---

[180] Keşikçi Günü münasibətilə İslam İnqilabının Keşikçiləri Korpusunun keşikçiləri və komandirləri ilə görüşdə çıxışdan: 1999.

[181] Kerman vilayəti universitetlərinin müəllim və tələbələrilə görüşdə çıxışdan: 2005.

## Üçüncü fəsil: Əxlaqsız elm və onun nəticələri

### Elmi nailiyyətlər arasında müxtəlif tənəzzüllər

Amerika, Avropa və Qərb ölkələri öz mədəniyyətlərinin bir qrupa deyil, bütün bəşəriyyətə aid olan sənaye, elm və tədqiqat kimi gözəl məhsulları arasında növbənöv fəsadları, əxlaqsızlıqları və pozğunluqları da üçüncü dünya ölkələrinə daxil etdilər, xalqı, gəncləri və hökumətləri qara günə qoydular.[182]

### Bəşərin əsl cəhaləti

Bəşərin cəhaləti ixtira və kəşflərin əks tərəfi deyil. Əgər bəşər müxtəlif elmlərə yiyələnsə, lakin düzgün insani münasibətləri bilməsə, cəhalətə qərq olmuşdur. Bəşər elmin zirvəsinə çatsa, lakin hüquqi baxımdan insanın iki növ və iki təbəqə olmasını düşünsə, cahildir. Bəşəriyyət maddi inkişaflara nail olsa, lakin həyatı zülm üzərində qurulsa, hegemonizm xalqa hakim olsa, güclülər zəifləri əzsələr, dünyada mərifət və insaniyyət nuru qalmasa, hiylə geniş yayılsa, yenə də həmin cahiliyyət var. Bəşəri bədbəxtliyə və fəlakətə sürükləyən bəlalar bunlardır.[183]

### Elmi inkişaf kamillik demək deyil!

Qeyd etdiyimiz təkamülün mənası nədir? İnsanın kamil olması nə deməkdir? İnsan ixtiralara, elmlərə və müxtəlif elmi inkişaflara yiyələndikdə kamil olur? Bir xalq varlandıqda kamil olur? Bir xalqın həyatı kompüterlə, kosmik raketlərlə və rabitə texnologiyaları ilə təchiz olunduqda onun kamilləşdiyini söyləmək olarmı? Xeyr, ilahi dinlərin məntiqində və alim insanların baxışında kamillik bunlar deyil. Bu gün dünyanın inkişaf etmiş ölkələrinin malik olduğu imkanlar onların qüdrət amilidir, amma zəruri olaraq kamilliklərinə dəlalət etmir. Düzdür, pul,

---

182 Qum, Rəfsəncan və Kəhnuc şəhərlərinin müxtəlif təbəqələri təmsil edən nümayəndələrinin beyət mərasimində çıxışdan: 1989.

183 Məbəs bayramında İslam Respublikası quruluşunun məsul şəxsləri və şəfəq ongünlüyü mərasimində iştirak edən xarici qonaqlarla görüşdə çıxışdan: 1992.

silah, ixtiralar, elm, texnologiya və elmi inkişaf bir xalqa qüdrət gətirir, amma qüdrətli hər kəs kamil deyildir.[184]

**Dünyanın hegemon güclərinin elmə malik olmalarının aqibəti**

Kiminsə "biz bu gün Qərb xalqlarının nail olduğu yerə çatmalıyıq" – deyə düşünməsi səhvdir. Düzdür, onların elmini öyrənməliyik. İnkişaf etmiş elm sağlam və kamil bir xalqın ixtiyarında olsa, xeyir-bərəkət gətirər; modern silah ağıllı və kamil bir xalqın əlində olsa, təhlükəsi olmaz; atom enerjisi dünya alimlərinin və dünyanın sağlam insanlarının ixtiyarında olsa, insanların inkişafına səbəb olar. Amma atom kamillikdən bəhrələnməyən bir xalqın əlində olsa, bəşər həyatını təhdid edər. Qitələrarası raketlər, nüvə başlıqları, inkişaf etmiş topxanalar, kosmos texnologiyası və möhtəşəm rabitələr dünyanın bugünkü hegemon güclərinin ixtiyarında olsa, nəticəsi nə olar? Nəticədə bu gün ABŞ-ın, yaxud digər qüvvələrin və dünən SSRİ-nin xalqlara və milyonlarla insana etdiyi və etməkdə olduğu zülmlər baş verər.

Sərvətli, inkişaf etmiş, maddi tərəqqi və təkamülə malik olan ABŞ-da təbəqələr arasındakı fərq olduqca böyükdür. Orada qaralara, yoxsullara və fəhlələrə zülm olunur. Həmin elm, sərvət və texnologiya mərkəzində çoxlu insanlar gecə küçələrdə gəzən itlərin yanında yatırlar. Bəzi insanlar digər insanları haqsız öldürürlər. ABŞ-da qətlin və cinayətin statistikası dünyanın hər yerindən çoxdur. Halbuki onların elmi, texnologiyası, sərvəti və maddi inkişafları var.[185]

**Elm və texnologiya bir xalq üçün əbədi və qeyd-şərtsiz qüdrət gətirmir!**

Böyük güclərin maraq və mənafeyi bundadır ki, güclərinin əbədi və dəyişməz olduğunu göstərsinlər. Yəni başqa çarə yoxdur və bu vəziyyətlə barışmalısınız. Nə iş görə bilərsiniz?! Onun atomu, texnologiyası, elmi, alimi var; indi siz çalışsanız da, nə edə bilərsiniz?! Bizi buna inandırmaq

---

[184] Mübarək Fitr bayramında müqəddəs Məşhəd əhalisinin və həzrət Əli ibn Musa Rzanın (ə) ziyarətçilərinin toplantısında çıxışdan: 1992.

[185] Yenə orada.

onlara sərf edir, həqiqət isə belə deyil. Atomu, elmi, texnologiyası vardı, kosmosa birinci uçmuşdu, sonu isə elə oldu - devrildi.[186]

### Xaricə getmiş dinsizlərin faydasız olması

Tutaq ki, gedib avropalılardan elmi öyrəndik və qayıtdıq; əgər ehtiraslı, vicdansız, iradəsiz və dinsiz bir insan olsaq, bu elmin xalqımıza nə xeyri olacaq?! Necə ki, elm öyrənib qayıdanların ölkələrinə xeyir vermədiklərini, bu məmləkət üçün bir iş görmədiklərini və bu ölkənin yenə də geridə qaldığını gördük. Bu, onların təqsiridir. Bu, ən azı son iki əsrdə - ondan öncəni bilmirik - heç bir şey anlamayan, başlarına öz mənafelərindən başqa bir şey girməyən sultanların təqsiridir.[187]

### Elm – xalqlara qarşı zülm aləti

Bu, elmin dindən ayrılığının nəticəsidir. Elm dinlə yanaşı olsa, bəşəriyyətə xeyir verər, amma dindən ayrı olsa, Qərbdə olduğu kimi şər amili olar. Elm nurdur, amma bu gün çoxlu insanların həyatını qaraltmışdır. Bu gün elm dünya siyasətçilərinin və dünya güclərinin əlində xalqlara zülm etmək üçün alət olmuşdur.

Siz görün bu gün Qərb siyasəti və hegemonizm elm vasitəsi ilə xalqlara nə qədər zülm edir. Görün bu gün ABŞ və dünyanın bəzi ölkələri xalqlara nə edirlər. Gördünüz ki, İraqda nə etdilər. Gördünüz ki, bəzi Afrika ölkələrində nə etdilər. Fələstinlilərə qarşı nə etdiklərini də görürsünüz.[188]

### Əziz Peyğəmbərin (s) doğulduğu dövrdə elm və əxlaqın ziddiyyətli vəziyyəti

Əziz Peyğəmbərin (s) doğumu biz müsəlmanlar üçün bir neçə cəhətdən əhəmiyyətə malikdir. Birinci cəhət budur ki, o həzrətin doğumu

---

[186] Xarici İşlər Nazirliyinin əməkdaşları və İran İslam Respublikasının səfirləri ilə görüşdə çıxışdan: 1992.

[187] Kürd şəhərində Çahar-Mahal və Bəxtiyari vilayətinin məsul şəxslərilə görüşdə çıxışdan: 1992.

[188] Şeyx Müfidin minilliyi münasibəti ilə beynəlxalq konfransın xarici və daxili qonaqları ilə görüşdə çıxışdan: 1993.

dünyanın və tarixin elə bir dövründə baş verdi ki, bütün bəşəriyyət iki aşkar xüsusiyyətə malik idi. Bu iki xüsusiyyətin biri o idi ki, elm, ağıl və düşüncə baxımından özündən öncəki dövrlərdə yaşayan insanlara nisbətən çox inkişaf etmişdi. Onların arasından filosof və alimlər meydana çıxmış, böyük riyaziyyatçılar, həkimlər, mühəndislər və sivilizasiyalar baş qaldırmışdı. Bu sivilizasiyalar təbii ki, elmsiz yarana bilməzdi. Qərbdə akademiyalar, Şərqdə hikmətxanalar, Çin sivilizasiyası, Misir sivilizasiyası və böyük tarixi sivilizasiyalar olmuş, bəşər kamilləşmişdi. Bu bir xüsusiyyət.

İkinci xüsusiyyətin birinci xüsusiyyətlə birləşməsi çox qəribədir. O da budur ki, o zaman bəşər əxlaq baxımından həmişəkindən daha zəif durumda, yaxud belə demək mümkünsə, uçurumun dibində idi. Elm və biliyə malik olan həmin insan təəssübkeşliyin, xurafatın, eqoistliyin, zülmün, xalqa qənim kəsilən antibəşəri hökumətlərin aciz əsiri olmuşdu. Dünyada belə bir vəziyyət hakim idi.[189]

**Yalnız elmi inkişaf qurtuluşa dəlil deyil!**

Elm inkişaf etmişdir. Bəziləri oturub ABŞ-ın və digər yerlərin elmi inkişafına həsrətlə baxırlar. Elmi inkişaf şübhəsiz, pərəstişə layiqdir. Geriqalmış ölkələrin elmi durumu şübhəsiz ki, fəlakətdir. Allah bu fəlakətləri müsəlman xaqlara gətirənlərin əzabını artıq eləsin! Ötən iki yüz ildə bu fəlakətləri bizim xalqımızın başına gətirən mənfur və rəzil Pəhləvi və Qacar sülalələrinə Allah lənət eləsin! Biz elm sarıdan ABŞ-dan çox öndə idik. Biz bir vaxtlar elm sarıdan Avropadan çox öndə idik. Bu şahlar, zalım hökumətlər, firon və tağutlar, indi də onların tör-töküntüləri, orada-burada jurnal və qəzet nəşr edib hər şeydən dəm vuran bu adamlar bu xalqın dünya xalqları ilə yanaşı və hətta onlardan öndə irəliləməsinə imkan vermədilər. Bəli, elmi gerilik təəssüfedicidir. Yolu da budur ki, gənclər, qocalar, alimlər və məmurlar hamılıqla çalışıb bu boşluğu doldursunlar.

Lakin bunu da bilin ki, hansısa ölkənin elmi inkişafı onun və xalqının qurtuluşuna dəlil deyil. Bir çox xalqlar bu gün elmi baxımdan zirvədə,

---

[189] Əziz Peyğəmbərin (s) və İmam Sadiqin (ə) doğum günündə məsul şəxslərlə və xalqın müxtəlif təbəqələri ilə görüşdə çıxışdan: 1993.

lakin boğaza qədər bataqlıq və fəsad içərisindədirlər. İndinin özündə dünyada böyük adlarla və bir supergücün çətri altında belə xalqlar yaşayırlar. Bunu bilin ki, həmin ölkələrdə qadın bədbəxtdir, kişi yazıqdır, gənc məhv olmuşdur, fəsad, pozğunluq, narkomaniya, cinayət və bəşər bədbəxtliyinin müxtəlif növləri qətliam törədir, meydan sulayır. Onların media imkanları isə bu faciə və fəsadların aşkarlanmasına imkan vermir. Cahil və zalım bir insanın əlində güclü bir mikrofon olanda, səsi alimlərin və düzgün insanların da yer aldığı mikrofonsuz kütlənin səsini üstələyir. Bu gün dünya bu vəziyyətdədir.[190]

**Elm mənəviyyatı artırmaq üçün**

Hökumətin və mən daxil bütün məmurların vəzifəsi budur ki, bu addımın (təsis olunan akademiyanın) inkişafı üçün bacardığımız hər biri işi görək. Alimlərin vəzifəsi budur ki, bu iş üçün bacardıqları hər bir xidməti göstərsinlər və elmə həqiqətən dəyər versinlər. Biz ümidvarıq ki, bu gün elmdə inkişaf edəcək və ondan dünyada mənəviyyatı artırmaq üçün yararlanacağıq. Təəssüf ki, bu gün elm dünyada maddiyyat, fərdiyyətçilik və hətta fəsad elmi olmuşdur. Bu gün elmdə hər yerdən öndə olan ABŞ fəsad cəhətindən də dünyanın hər yerindən öndədir; təhlükəsizlik, qətl, insana hörmətsizlik, cinayət və çirkin işlər baxımından da birincidir. Belə ki, bəzi məsihi ruhanilər və vicdanlı insanlar bunları eşidəndə dəhşətə gəlirlər.[191]

**İnsaniyyəti pozğunluğa çəkən inkişafın məzəmmət olunması**

Bu necə elmdir?! Bu necə inkişafdır?! Bu necə tədqiqatdır ki, bəşəri fəsada çəkir, həmcinsbazlığı təbliğ edir, insaniyyəti pozğunluğa çağırır, şəxsiyyətləri alçaldır, insana yalnız yaşamaq, qarın doyurmaq və ləzzət almaq yolunu açır və mənəviyyatı yaddan çıxarır?! Bu, çox pis əlamətdir. Əlbəttə, yaxşı alimlər çoxdur, biz fərdlərdən danışmırıq. Təəssüf ki, Qərb ölkələrində elmi dirçəldənlər bu vəziyyətin ilk qurbanlarıdır. Bu gün onlara hörmətsizlik olunur, çünki materialist siyasətçilər, yaxud oliqarxlar,

---

[190] Yenə orada.

[191] Elmlər Akademiyasının üzvləri ilə görüşdə çıxışdan: 1993.

pullular və korparasiya sahibləri bu işlərdə elmi maddi bir resurs etmişlər. Biz bunun əksini edə bilərik. Biz elmin inkişafını inşallah mənəviyyatın və dəyərin inkişafı ilə yanaşı edə bilərik. Ümidvaram ki, inşallah siz bu yolun öncülləri olasınız.[192]

**Mənəvi baxış olmadan elmin zərərli olması**

Bu gün Qərb mədəniyyətinin yetişdirdiyi quruluşlarda - istər Qərb coğrafiyası daxilində, istərsə dünyanın digər yerlərində məişət avadanlıqları və texnika baxımından o qədər inkişaf ediblər ki, səma ulduzlarına çatıblar. Bu elmi baxımdan, insafla desək, fövqəladə əhəmiyyətlidir. Bunu inkar etmək olmaz. Təsəvvür edin, kosmosa gedib orada teleskop cihazını təmir edirlər. Bu, bəşər üçün böyük inkişafdır. Lakin əgər həyatın istiqaməti baxımından insanın ehtiyaclı olduğu baxış olmasa, ümumiyyətlə, bu texnikalar bəşər üçün lazım deyil, hətta zərərlidir də. Bugünkü insan bu baxımdan geri qalıb, əli boşdur, dünyada mənəviyyat yoxdur, düzgün yol yoxdur. Məhz buna görədir ki, dünya zülmlə dolub. Əfsuslar olsun ki, bəziləri belə aydın məsələni anlamırlar.

Məgər bu dünya bəşərin deyil?! Məgər bu elm və tərəqqi insanın istifadə etməsi üçün deyil?! Dünyada insanların əksəriyyətinin günbəgün daha bədbəxt olması, bir qrupun insana məxsus olan həmin mütərəqqi elmi texnikalarla sıxıntı yaratması insaniyyətin bir qanadının qırılıb düşdüyünü anlamaq üçün kifayət edir. Bu, mənəviyyat qanadıdır.

Əgər biz də öz cəmiyyətimizdə mənəvi cəhəti görməzdən gəlsək, silsək, yaxud səhnədən çıxarmağa çalışsaq, belə olacaq. Əgər din alimlərini, dini təcrid etmək, xəbis məqsədlərdən ötrü qüvvələrin səfərbərliyinə başlansa, cəmiyyət məişət əşyaları baxımından inkişaf edəcək, lakin onun mənəviyyat cəhəti olmayacaq və o yarımçıq qalacaq.[193]

**Elmin inkişafı – ikitərəfli xəncər**

Elə bilməyin ki, müvəffəqiyyət atom bombası deməkdir. Atom bombası müvəffəqiyyət deyil. Elmi inkişaf ikitərəfli bir xəncərdir;

---

[192] Yenə orada.

[193] Hövzə və Universitetin Birliyi Günü münasibətilə tələbələrlə görüşdə çıxışdan: 1993.

müvəffəqiyyət də ola bilər, fəlakət də. Hələ ki, bu gün elm Qərb dünyası üçün fəlakət amilidir.

Həmin elm dünyasında prezidenti, naziri, vəkili və kompaniya sahibi daim hərisliyin, tamahkarlığın, mübarizə və çəkişmənin yaratdığı yanar cəhənnəmdə yanırlar. Dinclik nə gəzir?! Elmin onlara xoşbəxtlik gətirdiyini düşünməyin. Görürsünüz ki, həmin ölkələrdə çoxları şəhər və cəmiyyətlərdən uzaqlaşır, gedib meşənin, yaxud kəndin bir tərəfində yalqız yaşayır, illərlə insan görmür və bundan məmnunluq duyurlar. Çünki cəmiyyətləri cəhənnəm kimi, müxtəlif əzab və narahatlıqlarla doludur. Bunlar dinclik, rahatlıq və inkişaf deyil.[194]

### Elmi inkişafa rəğmən, Qərbdə insani gerilik

Avropalılar elmi baxımdan inkişaf etmələrinə baxmayaraq, insani baxımdan əsla inkişaf etməyiblər. Təəssüf ki, onlarda insani ənənə və hisslər ibtidai, geriqalmış, çox inhisarlı və millətlər arasında ciddi ayrıseçkilik əsasındadır. Onlara görə qərbli həmişə qeyri-qərblidən öndə olmalıdır.[195]

### İmansız elmin yeni hegemonizmin yaranmasına bais olması

Yeni dünyada elm bəşərin inkişafına və həmçinin yeni bir hegemonluq növünün də yaranmasına vasitə oldu. Elə bir hegemonluq ki, onda dünyanın bir yerinin hakimləri maraqlarını təmin etməkdən, yaxud "maraqları təmin etmək" adlandırdıqları işdən ötrü dünyanın hər bir nöqtəsinə amiranə şəkildə müdaxilə etməyi öz haqları bilirlər.

Siz görün dünyanın hegemon güclərinin və bu gün özəlliklə ABŞ-ın bir bəhanə ilə hərbi qüvvə toplamadığı hansı həssas boğaz - Hürmüz boğazı, Cəbəllüttariq boğazı, Dardanel boğazı – və hansı həssas su keçidi var?! Bunları hansı amil vücuda gətirdi? Bu, elmin inkişafının nəticələrindəndir. İmansız elm belə olur.

---

[194] Mübarək ramazan ayının birinci günündə çıxışdan: 1994.

[195] Kuhgiluyə və Buyer Əhməd vilayətinin universitet mənsubları və mədəniyyət işçilərilə görüşdə çıxışdan: 1994.

Əgər elm inkişaf etməsəydi, texnologiya olmasaydı, yeni elm və texnologiya sahiblərinin ixtiyarında mütərəqqi silahlar olmasaydı, sualtı qayıqlar, qitələrarası raketlər, kosmik raketlər və minlərlə təhlükəli texnikalar olmasaydı, məgər bir hökumət və dövlət öz hegemon ruhunu bu şəkildə genişləndirib bütün dünyaya əl uzada bilərdi?! Tarixdə bunun bənzəri görünməmişdir. Bu bizim dövrümüzə aiddir.[196]

**Elm və dinin ayrılığına dair düşüncənin nəticələri**

Avropa elmi kəşflərin və bəşəri biliklərin öncülü olduğu bir əsrdən çox müddətdə dinin elmdən ayrılığına dair səhv təfəkkürün zərbəsini gördü. Bu elə məsələlərdəndir ki, bu gün baş verir, lakin təsiri sabah görünür. Bir oğru səssiz bir küçədə camaatın evinin divarına dırmaşırdı. Bir nəfər ona çatıb dedi: "Nə edirsən?" Dedi ki, təbil çalıram. Dedi ki, bəs səsi niyə çıxmır? Dedi: "Mənim təblimin səsi sabah çıxacaq".

Dünya on doqquzuncu əsrdə yersiz vurulan təblin səsini eşitdi. Bitlz və gənclərin həyatının digər yanlış üsulları cəmiyyətlərin yaxasını tutanda dinin elmdən ayrılığının mənasını anladılar. Bəşər elminin beşiyində - Qərb ölkələrində, Avropa və Amerikada ailələr dağılanda, yeniyetmələr kəmərlərinə silah taxıb küçələrdə terror qrupları yaradanda, müxtəlif şəhər və ölkələrdə insanları öldürməyə başlayanda anladılar ki, dinin elmdən ayrılığının hansı nəticələri varmış. Bunlardan qabaq kiçik bir atom bombası bir anda on minlərlə insanın canını alanda elmin dindən ayrılığının mənasını anladılar. Sözsüz ki, bunun acı nəticələrini hələ görəcəklər.[197]

**İmansız elmin nəticələri**

Mənim əzizlərim! Avropa tarix boyu qanlı soyqırımların, müharibələrin mərkəzi olmuşdur. Bu qitə german, anqlosakson və bu kimi digər bir neçə məşhur irqin məskənidir. Avropa elmə yiyələndikdə dünyada böyük və bənzərsiz müharibələr baş verdi. Onun iki nümunəsi birinci və ikinci dünya müharibələridir. Başqa heç bir yerdə qısa müddət

---

[196] Mazandaran vilayətinin Bəsic üzvləri, Keşikçilər Korpusunun üzvləri və mücahidlərlə görüşdə çıxışdan: 1995.

[197] Babul şəhərində universitet mənsubları və mədəniyyət işçiləri ilə görüşdə çıxışdan: 1995.

ərzində belə müharibələr baş verməyib. Bu hadisələr imansız elmin nəticələridir.[198]

**Dinə zidd olan elmə yiyələnmiş sivilizasiyalar**

Mən Qurani-kərimdə çox maraqlı bir ayə ilə rastlaşdım. Biz elə düşünürük ki, elmin dindən ayrılması son əsrlərə aiddir, lakin bu ayə göstərir ki, keçmişdə də belə olmuşdur. Şərafətli ayə "Qafir" surəsindəndir:

"Məgər onlar yer üzünü dolaşıb özlərindən əvvəlkilərin axırının necə olduğunu görmürlərmi?! Onlar bunlardan daha çox, daha qüvvətli, yer üzündə daha çox iz qoymuş kimsələr idi. Qazandıqları onlara bir fayda vermədi. Peyğəmbərləri onlara açıq-aşkar möcüzələr gətirdikdə özlərində olan elmə sevindilər".[199] Qədim İran, Roma, Yunan mədəniyyətləri, miladdan əsrlər öncənin məşhur Hellin mədəniyyəti müəyyən həddə elmdən bəhrələnib. Bu elm xalqın ixtiyarında olmaqdan daha çox padşahların, güclülərin və hakimlərin ixtiyarında olub. Onlar da peyğəmbərlərin ən pis düşmənləri sayılıblar. Peyğəmbərlər din gətirəndə onların elmi göz və qulaqları önündə maneəyə çevrilirdi və dəvətə əhəmiyyət vermirdilər. Deyirdilər ki, bizim üçün elm kifayətdir, sizin dininizə ehtiyacımız yoxdur. Qarunun əhvalatı da bu məzmundadır. Quranın digər yerlərində də oxşar ayələr var. Amma bu bir ayə çox aydındır.[200]

**Ədalətsevərlik olmadan elmi inkişafın aqibəti**

Kapitalist quruluşlar dünyada ölkələrinin abadlığına, elm və sənayenin inkişafına çalışdılar, ictimai ədalət prinsipinə isə layiqincə diqqət yetirmədilər. Əlbəttə, o məqsədlərin çoxunu əldə edə bildilər; məsələn, elm, komfortlu yaşayış, mütərəqqi texnologiya, lüks həyat tərzi və hərbi güc əldə etdilər. Bu da Allahın vədidir. Allah-Taala söz verib ki, hansı xalq hər hansı bir məqsəd uğrunda ciddi çalışsa, o məqsədə çatar. Bunda şübhə yoxdur. Ciddi şəkildə hərəkət edənlər də həmin nisbətlə

---

[198] Yenə orada.

[199] "Qafir" ("Mömin")/82-83.

[200] Babul şəhərində universitet mənsubları və mədəniyyət işçiləri ilə görüşdə çıxışdan: 1995.

həyatın zahiri amillərinə - yəni sərvətə, hərbi gücə, elmə və inkişafa nail oldular, amma həyatda xoşbəxt olmadılar. Həmin ölkələrdə bəşəriyyətin dərdləri bitməmişdir, sərvət cəmiyyətin bir qrupuna məxsusdur. Onlar ayrıseçkiliyi aradan qaldırıb ictimai ədaləti bərqərar edə bilməmişlər.[201]

**Kapitalizm məktəbinin o biri üzü**

Əksər bəşəri məktəblər, o cümlədən Qərb kapitalizmi də belədir; bir tərəfini - insanları işə, fəaliyyətə, irəliləyişə, maddi inkişafa, sərvətə və elmə sarı aparan tərəfini görmüşlər və düzgün də görmüşlər. Lakin digər tərəfini görməmişlər; göydələnlərin mövcud olduğu, sərvət və dəbdəbənin olduğu cəmiyyətlərdə çoxlu insanların aclığı və yoxsulluğu da var, acından ölmək də var, zülm də var; hamısından pisi, bu vəziyyətdən ləzzət alan bütün şəxlərin evinə nüfuz edən və onların həyatını acılaşdıran ümumi fəsad da var. Bu problem yarandı və işi korladı.[202]

**Əxlaqsız elm xilaskar deyil!**

Elmin insani duyğularla sintezi mühüm məsələdir və hər yerdə lazımdır. Qərb dünyasının və sivilizasiyasının postmodern elminin bəşəriyyəti xilas etməyə qadir olmamasının səbəbi onun insaniyyətlə birgə olmamasıdır. Harada elm olsa, lakin vicdan, mənəviyyat, əxlaq və bəşəri duyğular olmasa, insan o elmdən mənfəət götürməz. Mənəviyyatsız və əxlaqsız elm atom bombasına çevrilib günahsız insanların başına tökülür, Livanda, işğal olunmuş Fələstində və dünyanın digər yerlərində mülki şəxsləri hədəf seçir, kimyəvi silah olub Hələbçədə və dünyanın digər yerlərində qadını, uşağı, kişini, gənci, insanı və heyvanı məhv edir. Bunlar haradan gəldi? Bu partlayıcı maddələr həmin elm mərkəzlərindən və Avropa ölkələrindən gəldi. Bunları düzəldib lazımi keyfiyyətləri olmayan bir rejimin ixtiyarında qoyan onlar idi. Nəticəni isə gördünüz.

---

[201] Məbəs bayramında quruluşun məsul şəxsləri ilə görüşdə çıxışdan: 1995.

[202] Məhərrəm ayı ərəfəsində ruhani və təbliğatçılarla görüşdə çıxışdan: 1996.

Silahlar və müxtəlif elmi nailiyyətlər bu gün bəşəri xoşbəxt, ailələri səadətli edə, övladlara, uşaqlara, qadın və kişilərə həyatın ləzzətini daddıra bilməmişdir və bilmir; çünki əxlaq və mənəviyyatla birgə deyil.[203]

**Elmi inkişaflara rəğmən, bəşərin köhnə dərdləri**

Dünya elm, texnologiya, texnika, sürət və asanlıq baxımından keçmişlə tamamən fərqlənmişdir, bəşərin həmişəlik və köhnə dərdləri isə hələ də yerində qalır. Əsas problemlər keçmişdə olanlardır. Qərb liberalizmi, kommunizm, sosializm və digərləri öz imtahanlarını verib bacarıqsızlıqlarını sübut etmişlər. Keçmişdə olduğu kimi bu gün də İslam dini yeganə şəfa nüsxəsi və qurtuluş mələyidir.[204]

**Bəşərin həyat dəyərlərini görməzdən gəlmək – elmin mənəviyyatdan ayrılığının nəticəsi**

İkinci məsələ mənəviyyata diqqətdir. İman, mənəvi vurğunluq və mənəviyyata eşq olmadan heç bir səy tam uğura çatmaz. Bir cəhətdən müvəffəq olsa da, digər cəhətdən nöqsan yaranacaq. Qərb dünyasında elmin inkişafı bəşərin bütün ömründə bənzərsiz olmuşdur. Elmi baxımdan çox inkişaf etmişlər, lakin kök baxımından mənəviyyatdan və imandan ayrıldıqlarından həyatları axsayır. Bu o demək deyil ki, alimlər arasında dindar insanlar yoxdur. Son əlli ildə və ondan öncə bütün iyirminci əsrdə - on doqquzuncu əsr ayrı cür idi – Avropa mütəfəkkirləri arasında dindar insanlar çox olmuşdur. Amma Qərb dünyasında elmi inkişafın əsası əvvəldən mənəviyyatdan ayrılıq üzərində qurulmuşdur. Odur ki, heç bir elmi kəşfdə, heç bir elmi ixtirada, inkişafdan heç bir elmi istifadədə mənəvi cəhətə riayət olunmurdu.

Mənəvi cəhət nə deməkdir? Yəni bəşərin etiqadları, imanı, səmimiliyi, mənəviyyatı, yaxşı xüsusiyyətləri, məzhəbi və dini hansı taleyə malik olacaq. İxtira və kəşflərdə bu məsələ əsla nəzərə alınmır. Buna görə çox zaman bəşər həyatının dəyərləri sayılan hər bir şey görməzdən gəlinir

---

203 Feldşer Günü münasibəti ilə feldşerlərlə və müharibə əlilləri ilə görüşdə çıxışdan: 1997.

204 İslam ölkələri başçılarının səkkizinci iclasının açılış mərasimində çıxışdan: 1997.

və nəticə bu gün gördüyümüz olur. Qərbdə ailə təxminən yoxdur, ya da çox zəifdir; təhlükəsizlik, səmimilik, mənəviyyat və məntiqli dindarlıq yoxdur. Maraqlıdır ki, Qərbdə, xüsusən də ABŞ kimi ölkələrdə dindarlıq və dinə inam var, lakin tam avam formasında. Elmdən söhbət düşdükdə insan orada düşüncə səviyyəsinin yüksək olduğunu görür. Lakin dindən söhbət düşdükdə düşüncə səviyyəsi olduqca aşağıdır və dinlə məntiqli bir rəftar ümumiyyətlə, görünmür.[205]

**Bərəkətsiz elm və inkişaf**

Bu gün ölkəmizdə düşmənlər - yəni bu dəyərlərlə, bu xalqın kimliyi ilə və bu inqilabla düşmən olanlar daim elmi işlər görürlər. Bəzi nailiyyətlər də əldə etmişlər. Bəzi sahələrdə çox inkişaf etmişlər, lakin işləri bərəkətsizdir. Hegemon düşərgənin bu qədər gücü, pulu, elmi və inkişafı var, lakin görürsünüz ki, böyük beynəlxalq məsələlərdə çox zaman palçığa batmışdır. Sanki bir nəfərin milyardlıq sərmayəsi var, lakin bu puldan aylıq gəliri yalnız on mindir. Bu gün hegemon dünyanın vəziyyəti belədir, işlərinin bərəkəti yoxdur.[206]

**Dinclik və səadət gətirməyən elmi inkişaflar**

Siz baxın, ən çox inkişaf etmiş ölkələrdə elm çoxdur, sərvət çoxdur, bütün sahələrdə mütərəqqi və heyrətamiz texnologiya hakimdir, ancaq eyni zamanda insanın dincliyi və səadəti yoxdur. Bu, iddia və əfsanə deyil, həmin ölkələrdə görən, yazan və danışan şəxslərin hamısı üçün aydın həqiqətdir; dünya da bunu bilir. Bəşər bunu imanın sayəsində aradan qaldırmaq istəyir.[207]

**Son iki yüz ildə elmi inkişafların səhv yolu**

Elm bütün sahələrdə və qeyd olunan həmin xarabalıqlarda inkişaf etmişdir, lakin bəşərin səadət və inkişafının meyarı elm deyil; bəşər inkişafının meyarı bir neçə gün insanı razı saxlayan texnikalara malik

---

[205] İftardan sonra tələbələrlə görüşdə çıxışdan: 1999.
[206] Korpusun raket layihəsinin işçiləri ilə görüşdə çıxışdan: 2000.
[207] Dini Ekspertlər Məclisinin üzvləri ilə görüşdə çıxışdan: 2000.

olmaq deyil. Bəşər inkişafının meyarı onun iki yüz illik bu hərəkəti arasında itirdiyi düzgün yoldur. Siz elə bir günü təsəvvür edin ki, bəşərin görkəmli alimləri oturub hesablasınlar və qəti nəticələrlə bu qənaətə gəlsinlər: əgər bəşər elmi inkişaflarını bu ik yüz ildə əldə etdiyi yoldan əldə etməsəydi – bunun çoxlu yolları vardı - fərz edin bəşər neft enerjisindən biçimsiz istifadənin və dünyada bu möhtəşəm zavodları təsis etməyin yerinə bəşərin imkanı daxilində olan, lakin üzərində işlənməyən enerjilərdən istifadə etsəydi, bu iki yüz ildə həm bəşər elmi bu inkişaflara malik olardı, həm də bütün bu bəşəri tələfat baş verməzdi. Korlanmış bu ekologiya, əxlaqdan uzaqlaşmış bu insan, yayılmış bu pozğunluq, dünyada günbəgün artan bu təbəqələrarası fərq, zəif ölkələrin müstəmləkəyə çevrilməsi və zəruri olaraq dünyanın istismarçı güclərinin digər ölkələrə hökmranlığı da olmazdı.

Bir gün bəşər bu qənaətə gələcək, bəşər elmi kəşf edəcək ki, bu 200-300 ildə yanlış yol getmişdir. O, fikrincə çox dəyərli nailiyyətlər əldə etmişdir, lakin bilmir ki, ilahi hidayətə diqqət yetirsəydi, eyni miqdarda çalışmaqla bu qədər tələfat vermədən həmin nailiyyətləri və onlardan da çoxunu əldə edərdi.[208]

### Texniki elmlərin səhv yolu

Bu gün elmdən sui-istifadə olunmuş və hətta bir addım da irəli gedib demək lazımdır ki, elm yanlış yola çəkilmişdir. Bu gün görürsünüz ki, bütün dünya sənayesi ekologiyanı çirkləndirməklə məşğuldur. Ümumiyyətlə, dünya sənayesi ekologiyanı çirkləndirmək üzərində qurulmuşdur. Nə üçün? Ona görə ki, bu gün dünya sənayesi nefti yerin altından çıxarıb yandırmağa bağlıdır. Bu iş yeri korlayır, neft mədənlərini məhv edir - çünki neft yenidən əmələ gəlmir - havanı korlayır, həmçinin dünyada çoxlu ölümcül təsirlər buraxır. Bu gün elmdən belə istifadə olunur. Nəticə çıxarılmır ki, bu gün elmin yolu düzgün yol deyil?! Həqiqət budur ki, bu sahədə ən çox təzyiq və çətinlik geriqalmış xalqlara və üçüncü

---

[208] İslam İnqilabının Keçikçiləri Korpusunun komandirlərinin böyük toplantısında çıxışdan: 2000.

dünyaya yönəlir; baxmayaraq ki, bu işləri törədənlərin özləri də onun acı nəticələrindən uzaq qalmırlar.[209]

**Elmi rəqabət - ABŞ-ın regiondakı müharibələrinin pərdəarxası**

Dostların biri Yaponiyanın adını çəkdi. Bilirsiniz Yaponiya hansı şəraitdə elmi işlərə başladı? Yapon alimləri və sənətkarları hansı ağır şəraitdə işlədilər? Bu gün Yaponiya dünyada elmin zirvəsində durur. İndi sizin ABŞ-ın bu regionda, məsələn, İraqda və digər yerlərdə gördüyü və zahirən tam siyasi görünən işlərin çoxu əslində bir div kimi irəliləyən Yaponiya və Çin kimi ölkələrlə rəqabətə hesablanıb. Onlar özlərinin potensial və yeni nəfəsli rəqibləri qarşısındakı nisbi elmi geriliklərini düzəltməyə çalışırlar.[210]

**Qeybə inamsız elmin aqibəti**

Bildiyiniz kimi, elm sivilizasiyanın əsasıdır, lakin düzgün mədəniyyət üçün kifayət edən şərt deyil. Qeybə iman olmadan elmin nəticəsi bu gün dünyada gördükləriniz olur. Görün bu gün elm bütün şərafəti və dəyəri ilə yanaşı, dünyagirlərin və beynəlxalq dəlilərin əlində nəyə çevrilmişdir. Nə insan, nə xalqlar, nə həqiqət üçün bir haqq tanıyırlar, nə də doğruluq üçün bir dəyər.[211]

**Mənəvi paklığı olmayan elmin aqibəti**

Mənəvi paklıq olmayan elm də bəşərin fəsadı, süqutu və azğınlığı üçün vasitə olar. Necə ki, bu gün dünyada elmin bəşərin süqut amili olduğunu, elmdən xalqları zəncirləmək, həqiqətləri ayrı cür göstərmək və insanları ac saxlamaq üçün istifadə olunduğunu görürsünüz. Dünyada nə qədər insan elm vasitəsi ilə inkişaf edib hakim olan müstəmləkəçilərin istismarına görə bu gün özünə məxsus olan həyat qaynaqlarından məhrumdur, yoxsulluq, məhrumluq və səfalət içərisində yaşayır. Bu gün

---

[209] "Ekologiya, din və mədəniyyət" mövzusunda beynəlxalq elmi konfransın Elmi Şura üzvləri və qonaqları ilə görüşdə çıxışdan: 2001.

[210] 2001-2002-ci illərdə ali məktəblərə qəbul imtahanlarının nümunəvi abituriyentlərinin, dünya və ölkə üzrə olimpiada qaliblərinin toplantısında çxışdan: 2002.

[211] Şəhid Behişti Universitetinin müəllimlərilə görüşdə çxışdan: 2003.

də belədir. Bu gün dünya hegemonizmi – dünyada yeni formaya düşmüş müstəmləkə elmə və elm imkanlarına güvənib insanları bədbəxt edir, zəncirləyir, ölümə, məhvə və yoxluğa düçar edir. Mənəvi paklığı olmayan elmin nəticəsi bunlardır.[212]

**Qərb və texnologiyanın qeyri-insani yollarda işlədilməsi**

Bu gün Qərb texnologiyasının inkişaflarlarının böyük eybi budur ki, bunlar texnologiyanı bəşəriyyət üçün zərərli olan sahələrə yönəltmişlər. Atom bombasını və kimyəvi silahları bunlar düzəltmişlər. İnsan üçün ölümcül maddələri bunlar hazırlamış və özləri də istifadə etmişlər. Atom bombası istehsalının heç bir yaxşı cəhəti yoxdur, bir anda milyonlarla insanı məhv edən silahdır. Buna görə də istehsalı və çoxaldılması düzgün deyil, istifadə edilməsi isə hamısından böyük səhvdir. Texnologiya dünyada müxtəlif sahələrdə əyri və səhv yol keçmişdir. Düzdür, müsbət və yaxşı yerlərdə də işlədilmişdir. Şübhəsiz ki, bu yerlər Allahın və xalqın məmnun olduğu yerlərdir. Lakin əyri yollarda da hərəkət etmişdir. Biz işin əvvəlindən müəyyən etməliyik ki, ölkə texnologiyasını hansı sahələrdə və hansı yolda inkişaf etdirmək istəyirik.[213]

**Qərbdə elmin mənəviyyatdan ayrılığının ziyanları**

Qərb mədəniyyəti mənəviyyatla düşmənlik və mənəviyyatın rəddi üzərində quruldu. Bu, Avropada sivilizasiyanın, elm və sənaye hərəkətini başlayan şəxslərin böyük səhvidir. Elmə əhəmiyyətli yanaşdılar - bu yaxşı idi, lakin mənəviyyatla muharibəyə başladılar - bu pis idi. Odur ki, bu maddi və mənəviyyatdan uzaq sivilizasiya nə qədər inkişaf edirsə, azğınlığı da çoxalır, həm özlərini, həm də bütün bəşəriyyəti özünün zəhərli meyvələri ilə acılayır; necə ki, bu günə qədər bunu etmişdir.

Uzun illər onlarla ölkəni və milyonlarla insanı ən çətin və ən ağır əzablara düçar edən müstəmləkə faktoru elmin və siyasətin mənəviyyatdan və Avropada dövlətin əxlaqdan ayrılması nəticəsində baş verən işlərdən biridir. Birinci və ikinci dünya müharibələri də həmin acı

---

[212] Mübarək Məbəs bayramında quruluşun məsul şəxsləri ilə görüşdə çıxışdan: 2003.
[213] Elmi nümunə tələbələrlə görüşdə çıxışdan: 2003.

meyvələrdən idi. Kommunizm və avtoritar marksist hökumətləri də elm və sənaye hərəkətinin mənəviyyatdan ayrılığının acı meyvələrindən və nəticələrindən idi. Ailə ocağının dağılması, cinsi fəsad seli və ifratçı kapitalizmin tüğyanı - hamılıqla həmin ayrılığın nəticələridir. Mənəviyyat siyasətdən çıxarılmışdır.

Keçmişdə də dünyanın hakim və diktatorları dünyanın şərqində və qərbində bu işlərdən görürdülər. Lakin avropalılar insan hüquqları və insan azadlığı kimi gözəl ad və şüarlarla tanış olub elm yoluna qədəm qoyduqda mənəviyyatdan uzaq düşmələri bu şüarların gözlənilən və ifadə etdiyi şəkildə bəşəriyyətə xeyir gətirməsinə qoymadı. Onlar da bəşəriyyət üçün şər və fəsad amili oldular.[214]

**İlahi mədəniyyətin elmi və dünyəvi sivilizasiyadan çıxarılmasının nəticəsi**

İnkişaf etməkdə olan, uca elmi, ictimai və dünyəvi amallara malik bir cəmiyyətdə onun hərəkət və fəaliyyətlərini yönəldən nüfuzlu bir mədəni cərəyan mövcud olsa, bu cəmiyyət xeyrə və uğura qovuşar. Amma əgər inkişaf və elmi tərəqqi halında olan cəmiyyətdə belə dini, ilahi və mənəvi bir mədəni cərəyan mövcud olmasa, nəticə sizin bu gün inkişaf etmiş Qərb ölkələrində müşahidə etdiyiniz olar: inkişaf nə qədər çoxdursa, yaxşılıqdan, insaniyyətdən və ədalətdən uzaqlaşmaq da çoxdur.

Siz bu gün ABŞ-da elm, sərvət, hərbi güc, siyasi fəaliyyət və diplomatiya baxımından maddi sivilizasiyanın zirvəsini görürsünüz. ABŞ sərvətə, əfsanəvi hərbi qüvvəyə və qeyri-adi güclü siyasi fəaliyyətə malik bir ölkədir. Lakin siz insanlıqdan, mənəviyyatdan, əxlaqdan və dəyərdən uzaq olmağın zirvəsini də bu ABŞ cəmiyyətində görürsünüz. Bu öncədən heç bir cəmiyyətdə görünməmişdir. Bu gün ən çirkin insani, əxlaqi, cinsi və ictimai işlər bu inkişaf etmiş cəmiyyətdə və buna bənzər cəmiyyətlərdə qanuni formaya və məqbul ənənəyə çevrilmişdir. Günah bütün bəşər cəmiyyətlərində var, lakin günahın ənənə və qanun olması, onun üçün sərmayə qoyulması və müdafiə edilməsi misilsiz bir sapqınlıqdır. Bu gün

[214] İmam Xomeyninin vəfatının on beşinci ildönümü mərasimində çıxışdan: 2004.

bu sapqınlıq ən mütərəqqi elm, sənaye, maddiyyat, iqtisadiyyat və siyasət cəmiyyəti olan ABŞ-da aydın şəkildə müşahidə olunur.

Siz görürsünüz ki, bir kişi, yaxud qadın zahiri baxımdan yaraşıqlı və çox xoşagələn bir formadadır. Əgər kimsə bu kişini küçədə, yaxud bu qadını bir marketdə görsə, onların davranış tərzinə qarşı heç bir bədbinlik hissi keçirməz, lakin o, Bağdadın Əbu Qüreyb həbsxanasında vəhşi bir canavara çevrilir. Çünki bu təmiz, səliqəli, odekolonlu, qalstuklu və bantlı insan görünüşünün arxasında vəhşi bir it yatmışdır, bu cinayəti törədən cəmiyyət isə elm, sənaye və mədəniyyət baxımından mütərəqqi, bəşəriyyətin rəhbərliyi üçün iddialı bir cəmiyyətdir. Bir cəmiyyətdə mənəvi hidayət xətti və təsirli sağlam mədəni axın olmasa, nəticə belə olur. Qərb sivilizasiyasının böyük günahı bu idi.[215]

**Elmin mənəviyyatdan ayrıldığına görə Qərb sivilizasiyasının məhvi**

Bu elm vasitəsi ilə tükənməz sərvət də qazandılar, yeraltı sərvətlərdən və Allahın verdiyi mənbələrdən də maksimum istifadə etdilər, kosmosa da getdilər, cisimləri dərinliyinə qədər kəşf də etdilər. Elmi inkişafda çox işlər gördülər və bu elmdən də sərvət, qüdrət, siyasət və hər bir şey əldə etmək üçün qanuni və qanunsuz şəkildə maksimum istifadələr də etdilər. Bu elmlə müstəmləkəçilik etdilər, müxtəlif beynəlxalq qırğınlar törətdilər. Avropalılar son əsrdə müxtəlif müharibə və hadisələrdə milyonlarla insan öldürdülər. Buna əsasən, bunların elmdə problemləri yox idi, lakin hidayətsiz, dəyərsiz, mənəviyyatsız, insaniyyətsiz, təkcə dünyaya diqqət yetirib axirətə göz yuman elmin nəticəsi budur. Əvvəl həyata gözəllik bəxş edir, güc, sərvət və gözəllik verir, sonra isə "Batil məhv olur"[216]. Məsələnin sonu budur və bu davam edəcək. Bilin ki, əsla mənəviyyatı olmayan mütərəqqi və sivil cəmiyyətlərin

---

[215] Ayətullah Müctəhidi adına elmi mədrəsənin müəllim və tələbə kollektivi ilə görüşdə çıxışdan: 2004.
[216] "Ğürər əl-hikəm", səh. 71.

əxlaqi vəhşilikləri günbəgün çoxalacaq. Bu vəhşiliklər bugünkü Qərb mədəniyyətinin böyük uçurumudur və onları məhv edəcək.[217]

### Qərb elminin qeyri-dini əsası

Biz görürük ki, bu və ya digər sahələrdə tədqiqatları, araşdırma və nəzəriyyələri öyrənmək Qərb dünyasında da qəbul olunan və etmiad göstərilən əsas deyil, xüsusən humanitar sahədə belədir. Əlbəttə, bu, təcrübi elmlərdə və texnologiyada da özünü göstərir. İslamın insana, elmə, insan həyatına, təbiətə və varlıq aləminə olan baxış tərzi insanın ixtiyarında yeni məlumatlar ortaya qoyur. Bu baxış Qərbdə elmi tədqiqatların əsası və təməli olmayıb. Qərbdə elmi tədqiqatlar din adlandırdıqları bir şeylə qarşıdurma əsasında başlayıb. Əlbəttə, onlar buna haqlı idilər, renessansın qiyam etdiyi, dünyanın elm və fikir istqamətini ziddinə çəkdiyi bir din din deyildi, din adı altında xurafat və əfsanələr idi. Orta əsrlər kilsəsinin dini din və dini məlumatlar deyildi. Təbii idi ki, alimlərin, ziyalıların və düşüncə sahiblərinin beyinlərində düyünlər və şübhələr qalsın və onlar üçün antidini çıxış yolları tapılsın. Buna görə də, onlar üçün elm və dinin bir araya gəlməsi çox çətin məsələdir, amma bu, bizdə problem deyil.[218]

### Bugünkü elmin kapitalizmin xidmətində durması

Bu gün elm insanlıqdan xəbəri olmayan şəxslərin əlindədir. Elm və texnologiya cəmiyyətlərin yüz faiz zərərinə, oliqarxların, biznesmenlərin və güclülərin xeyrinə olan məqsədlərə xidmət göstərir.[219]

### Qərb mədəniyyətinin məqsədi: mənəviyyatsız elmin inkişafı

200-300 il öncə əsası qoyulan bəlli sivilizasiya qarşısına mənəviyyatsız elm və maddiyyatın inkişafını, məişət və texnologiya inkişafını məqsəd qoymuşdur. Onlar mənəviyyatı bəzən inadkarlıqla, bəzən etinasızlıqla, bəzən hiyləgərliklə bəşər həyatından sildilər. Odur ki, siz bugünkü dünyaya baxdıqda möhtəşəm və bənzərsiz maddi inkişaflar

---

[217] Ayətullah Müctəhidi adına elmi mədrəsənin müəllim və tələbə kollektivi ilə görüşdə çıxışdan: 2004.
[218] Universitet müəllimləri ilə görüşdə çıxışdan: 2004.
[219] Kerman şəhərinin alim və ruhaniləri ilə görüşdə çıxışdan: 2005.

görürsünüz. Bu inkişaflar elə bir halda xalqın həyatına tətbiq olunmuşdur ki, onda mənəviyyat üçün əsaslı, həqiqi və mərkəzi rol əsla mövcud deyil. Bəzən haradasa müxtəlif dəlillərə görə ona dindən, yaxud dini və mənəvi məsələlərdən nəsə qarışdırmaları mümkündür, lakin insan kimliyinin, insan cəmiyyətlərinin və bəşərin indiki həyatının əsas formatında mənəviyyat əsla mövcud deyil.[220]

**Qərbdə mənəviyyatsız elmi inkişaf və İslamın yolunu getməyin zəruriliyi**

Qərb xalqları və hökumətləri elmi inkişafa nail olmuşlar, onların həyatında parlaq gözəlliklər müşahidə olunur. Lakin bu, insan varlığının yalnız bir hissəsidir; onların həyatında əxlaq, mənəviyyat, rəhmlilik, insaf, uca ilahi amallara vurğunluq, Allahla əlaqə, ürəklə məşğul olmaq yoxdur, günbəgün zəifləmiş və daim zəifləməkdədir. Əgər bir zaman onların məbəd və kilsələrində mənəviyyatın bir zərrəsi vardısa, o da tədricən dünya maddiyyatının əzəmətinin təsiri altında get-gedə zəifləyir. Bizim isə bu uzun əsrlər ərzində dünyada bir böyük insan toplumumuz olmayıb ki, həm öz dünyasını təbiət nemətləri və dünyəvi elmi inkişaflar baxımından abadlaşdıra bilsin, həm də onların həyatının əsas hissəsində mənəviyyata və əxlaqa diqqət yer alsın, Allahla öz mənəvi əlaqələrini kəsməsinlər, mühüm həyat münasibətləri üçün özlərini ilahi təlim və hidayətdən məhrum etməsinlər. İslam dünyası belə bir vəziyyətə malik ola bilərdi, amma təəssüf ki, bu baş verməmişdir.[221]

**Qərb elmində imansızlığın nəticələri və qarşılığında İslam universitetlərinin vəzifəsi**

Əgər Qərb elminə iman hakim olsaydı, Qərb elmi atom bombası düzəldib sonra da bu qədər çətinliyə düşməzdilər ki, nə edək, məhdudlaşdıraq, dünyanı dağılmağa qoymayaq və s. İş ümumiyyətlə, bu yerə çatmazdı. Əgər iman elmlə yanaşı olsaydı, müstəmləkəçilik və elmin məxluqu olan yeni müstəmləkəçilik ümumiyyətlə, vücuda gəlməzdi;

---

[220] Xarici ölkələrdəki mədəniyyət nümayəndələri ilə görüşdə çıxışdan: 2004.
[221] Ölkənin minlərlə Bəsic üzvü ilə görüşdə çıxışdan: 2005.

ölkələrə hakim olmaq, ölkələri tutmaq, xalqlara zorla hökmranlıq etmək, xalqların sərvətini mənimsəmək - bu, dünyanın və xalqların son iki yüz ildəki bəlasıdır - ümumiyyətlə, vücuda gəlməzdi. İmandan ayrı olan elm budur və siz İslam universitetində bu boşluğu doldurmaq, elmi imanla qarışdırmaq, yəni elmi, istər öz daxili quruluşunda, istər nəticələrində, istər işlədiləcək istiqamətlərində imanla doyuzdurmaq istəyirsiniz.[222]

**Əxlaqsız elm - sapqınlıq vasitəsi**

Elmə yiyələnmək lazımdır. Əlbəttə, bunu bilirik ki, elm təklikdə kifayət etmir. Elm əxlaq və imanla yanaşı olmalıdır ki, biz Qərbin düşdüyü çalaya düşməyək. Elm Qərbdə zülmə, əxlaqi sapqınlığa, azdırıcı və həlakedici mədəniyyətlərin yayılmasına vasitə oldu. Biz ona düçar olmamalıyıq; bu öz yerində. Amma indi əsas məqam budur ki, elm bizim üçün həyati bir məsələdir.[223]

**İmansız və əxlaqsız elmin nəticələri**

Sizə demək istədiyim başqa bir məsələ budur ki, elm dinlə və əxlaqla olduqda bəşəriyyət üçün faydalı olacaq. Bunu qəti şəkildə bilin. Elm nə qədər inkişaf etsə də, əgər əxlaqdan və dindarlıqdan uzaqlaşsa, bəşəriyyətə fayda yetirməyəcək. Elmi bəşəriyyətin yüksəlişi üçün istədiklərini deyən şəxslər bu məsələyə diqqət yetirməlidirlər. Bunun aydın misallarını hamınız eşitmisiniz. Mən bunları təkrarlamaq istəmirəm. Məsələn, kimya elmində inkişaf edənlər kimyəvi bomba və kütləvi qırğın silahları ixtira etdilər. Nüvə elmlərində inkişaf edən şəxslər atom bombası və xalqların faciəvi qırğın silahlarını düzəltdilər. Bunlar aydın misallardır. Siz xalqlara baxın, dünyada elmi baxımdan inkişafın zirvəsində olan bir xalqı təsəvvür edin. Görün bu ölkənin xalqı həqiqətən səadətə çatmışdır? O ölkədə ədalət var? O ölkədə yoxsulluq, ayrıseçkilik və ədalətsizlik aradan qalxmışdır? İddia etdikləri kimi xalq dinclik içərisində, şiddət və təcavüzdən uzaq şəkildə yaşayır? Orada elm də var, bu reallıqlar da var. Ailələrin həyatına etimad və dinclik hissi hakimdir? Övladlar ata və anaların ağuşunda yaxşı

---

[222] İmam Sadiq (ə) Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışdan: 2006.
[223] Gənc alimlərlə görüşdə çıxışdan: 2006.

hisslərlə tərbiyə olunurlar? Orada qətl, terror, cinayət və bu kimi işlər yoxdur?

Görürsünüz ki, tam əksinədir. Bu gün ən çox təhlükə elmi baxımdan ən yüksək səviyyədə olan ölkədə - yəni ABŞ-dadır. Dünyada - nə Avropada, nə Asiyada heç bir ölkə ABŞ qədər təhlükəli deyil. Ən çox psixoloji sıxıntı oradadır; vətəndaşlar tərəfindən bir-birinə qarşı ən çox qətl və kobudluq oradadır; ən çox ayrıseçkilik və təbəqələrarası fərq oradadır. Himalay dağı boyda sərvətlər və vəsfəgəlməz yoxsulluqlar – yəni sözün həqiqi mənasında acından ölənlər var. Fərq bu qədər böyükdür.

Tarixin əvvəlindən bu günə qədər zamanla dəyişməyən ən mühüm bəşəri amallar bunlardır. Bəşərin ən mühüm amalı ədalət və təhlükəsizlikdir, bir-birinin yanında rahat yaşamaqdır, digərlərindən əziyyət görməməkdir, psixoloji dinclik, ailədə rahatlıq, ailə həyatından və övladları görməkdən, ata-ananın yanında olmaqdan həzz almaqdır. Bunlar bəşərin ən əsaslı ehtiyaclarıdır. Bəşər əvvəldən bu günə qədər bunları istəmişdir; dünən də istəmişdir, bu gün də istəyir. Bu məsələlər elmi baxımdan ən inkişaf etmiş o cəmiyyətdə əsla yoxdur. Deməli, elm imanla və əxlaqla yanaşı, çiyin-çiyinə hərəkət etməyəndə nəticəsi belə olur.

Əgər alim dindar olsa, cəmiyyət onun elmindən həqiqətən bəhrələnər. Din elmin inkişafının qarşısını almır, hətta onun inkişafına kömək də edir, elmin təcavüzünün, insaniyyət çərçivəsindən çıxmasının qarşısını alır.[224]

### Bizim istəmədiyimiz elm

Bu bizim məntiqimizdə düzgün deyil ki, bir xalq elmini atom bombası kimi bir silah düzəltmək üçün işlətsin, o da bir yerə düşəndə daha günahlı-günahsız, silahlı, kiçik uşaq, südəmər körpə və məzlum insanlara baxmasın, fərq qoymasın, hamını məhv etsin. Biz bu yolda işlədilən elmi, buna malik olan ölkəni və bununla sonuclanacaq yeniliyi təsdiq etmirik. Biz belə dəyişikliyi sevmirik.[225]

---

[224] Yenə orada.

[225] Simnan vilayəti universitetlərinin müəllim və tələbələri ilə görüşdə çıxışdan: 2006.

**Qərbdə mənəviyyatsız elmi inkişafın sonu**

Qərbin maddi mədəniyyəti elm və texnologiyada inkişaf etdi, mürəkkəb maddi üsullarda böyük uğurlara nail oldu, lakin mənəviyyat sarıdan günbəgün geridədi. Nəticəsi bu oldu ki, Qərbin maddi elmi və inkişafı bəşəriyyətin zərərinə tamamlandı. Elm bəşəriyyətin xeyrinə bitməlidir; sürət, asanlıq və rahat əlaqələr xalqın dincliyinin, təhlükəsizliyinin və rahatlığının xidmətində durmalıdır. Əldə edilməsinə görə xalqın gecə-gündüzü olmayan elm - yəni atom bombası, uzaqvuran raket və qəfil partlayış bəşəriyyət üçün faydalı deyil. Qərb dünyası öz elmi inkişafı ilə bu təhlükəli tələyə düşdü.[226]

**Dindən ayrı elmin nəticəsi**

Dindən ayrılan və özünü din qarşısında məsuliyyətli bilməyən elmin nəticəsi bu gün dünyadakı vəziyyət olur: elm zülm, istismarçılıq və nəsilləri məhv etmək üçün vasitədir; elmin məhsulu bir tərəfdən atom bombasıdır, digər tərəfdən narkotik maddələrdir, dünyanın çoxlu ölkələrində bütün insani hisslərdən uzaq olan siyasətçilərin iş başına gəlməsidir.[227]

**Elm və bilik xoşbəxtliyin özü yox, onun vasitələrindəndir!**

Bu gün Qərbin liberal-demokrat dünyasının böyük çatışmazlığı budur; zavodları çoxaltdılar, maşınları çoxaltdılar, elmin əhatəsini genişləndirdilər, lakin ictimai ədaləti təmin edə bilmədilər, insani əxlaq süquta uğradı. Bu mənim burada dediyim söz deyil. Məgər bu gün dünyada yayımlanan beynəlxalq bir tribunadan o xalqlarının hissinin ziddinə bir söz demək olar?! Bu onların öz sözləridir.

Bu gün əxlaqi böhran Qərb liberal-demokratiyasının yaxasını tutmuşdur. Bu gün cinsi, iqtisadi, əxlaqi böhran və ailə böhranı öz elmi inkişafları ilə tarixin gözünü qamaşdıran həmin ölkələrin problemləridir.

Bəşərin xoşbəxtliyi onun elminin inkişafı ilə hasil olmur. Bəşərin səadəti psixoloji və düşüncə təhlükəsizliyində, nigaranlıqsız, əxlaqi,

---

[226] Şahrud əhalisi ilə görüşdə çıxışdan: 2006.
[227] "Royan" Tədqiqat Mərkəzində keçirilən görüşdə çıxışdan: 2007.

mənəvi və maddi təhlükəsizliklə yanaşı olan həyatda və ictimai ədalət hissindədir. Qərbdə bu yoxdur; nəinki yoxdur, hətta günbəgün ondan uzaqlaşır da. Biz dünyaya göstərmək üçün bunu öz amalımız kimi təsvir etdik. Biz etmədik, Allah etdi. İran xalqı özünün bu yola inamının tələbinə əsasən bu yolla getdi.[228]

**Tərbiyəsiz elmin nəticəsi**

Tərbiyəsiz təlimin faydası olmur. Tərbiyəsiz təlim cəmiyyətlərin başına bu gün 100-150, yaxud daha artıq vaxt ötdükdən sonra Qərb cəmiyyətlərinin hiss etdiyi bəlanı gətirəcək. Bu elə şeydir ki, təsiri on ildən, iyirmi ildən sonra görünmür. Bir də gözünüzü açıb görürsünüz ki, bir nəsil əldən çıxmışdır və düzəltməsi mümkün deyil; bir nəsil məyusedicidir. Məndə bu barədə çoxlu məlumat və tükürpədici statistikalar var. İndi deməyə imkan yoxdur, hərdən bəzi yerlərdə demişəm; açıq və qətiyyətli etiraflar var.

Elə bilməyin ki, biz burada oturub uzaqdan danışırıq. Xeyr! Bu onların öz sözləri, özlərinə etdikləri xəbərdarlıqdır. Bu, Qərbdə baş verib. Bu, evi kökündən uçuran bir seldir. Tərbiyəsiz elm belədir. Bir cəmiyyətdə elm tərbiyədən uzaq inkişaf etdikdə atom bombası öz yerində, müxtəlif siyasi çirkinliklər öz yerində, müxtəlif yalanlar öz yerində, kartel və trestlərin iqtisadi maraqları öz yerində, ancaq əsas məsələ insan nəslinin tələf olmasıdır. Buna görə tərbiyə işləri çox mühümdür, özü də yaxşı, güclü və işgüzar müavinlik və idarəçilik formasında, yalnız zahiri formada yox.[229]

[228] Yəzd əhalisinin böyük toplantısında çıxışdan: 2008.
[229] Fars vilayətinin müəllimləri ilə görüşdə çıxışdan: 2008.

## Dördüncü fəsil: Elm Qərb iqtidarının təməli kimi

### Adi insanlar elmlə dünyaya hakim olmuşlar!

Bu gün elm dünyada çox böyük rol ifa edir. Bu gün böyük ölkələrdə dünyanın siyasi dövlətlərinə və rejimlərinə hakim olan şəxslər adi insanlardırlar, şəxsiyyətin böyüklüyü baxımından orta səviyyədən də aşağıdırlar. Onların işləri və sözləri bunu göstərir. Onlar ya düşüncə baxımdan, ya da insani və əxlaqi baxımdan aşağıdırlar. Baxın, bu Amerika, bu da Qərbdir. Amma eyni zamanda bunlar dünyaya hökmranlıq edirlər. Nə üçün? Elmə görə.

Nə zamana qədər müsəlman xalqlar bir quruluşun hərəkətində və şəxsiyyətində, bir xalqın öz hüququnu qorumasında və dünya quruculuğundakı təsirdə əsas amil sarıdan yoxsul qalmalıdırlar? Dünyada elmsiz heç bir təsir qoymaq mümkün deyil. Siz dünyanın ən yaxşı insanları olsanız, biz ən yaxşı, ən şərafətli və ən əziz xalq olsaq da, bəşəriyyət üzərində təsir qoya bilməsək, bu dağıdıcı burulğanı ram edə bilməsək, nə faydası var? Axı bir insanın məsuliyyəti fərdi, ailəvi və məhdud mənada olan milli məsuliyyət deyil. Bu insani bir məsuliyyətdir. İnsan ümumiyyətlə, insaniyyət çərçivəsində yaşayır. Məgər bu qədər böyük işləri elmsiz yerinə yetirmək olar?![230]

### Dünyada bugünkü iqtidarın üç təməli

Bu gün dünyada siyasi iqtidar üç təmələ əsaslanır: birincisi sərvət, pul və maliyyə imkanları; ikincisi elm və texnologiya imkanları; üçüncüsü informasiya imkanları. Əgər ABŞ-ın bu sərvəti və indiki elmi inkişafı olsa, lakin informasiya şəbəkələri ondan alınsa, təsiri nə qədər olar? Üçdə biri azalacaq? Şübhəsiz, üçdə birindən çoxu azalacaq.[231]

### Elmi iqtidarın siyasi hökmranlığa təsiri

---

[230] Mədəniyyət və Ali Təhsil Nazirliyinin əməkdaşları və universitet rektorları ilə görüşdə çıxışdan: 1990.

[231] Radio və televiziyanın Xəbər bölmələrinin sədrləri və məsul işçiləri ilə görüşdə çıxışdan: 1991.

Bu gün iqtidar vasitələri keçmişlə fərqlənir. Bu gün elm də şübhəsiz, siyasi iqtidar vasitələrindəndir. Fərz edin peyk antenləri, kompüter texnikası və dünyadakı bu nəhəng informasiya resursları ilə - internet və digər vasitələrlə öz istədiklərini bu böyük dünyanın harasına istəsələr, çatdıra bilirlər. Bu, siyasi hökmranlıq vasitələrindəndir. Keçmişdə belə deyildi. Nə belə bir elm vardı, nə də elm bu şəkildə siyasi hökmranlığın xidmətində dururdu. Amma bu gün belədir. Siyasi hökmranlıq vasitələrinə malik olan bir ölkə və zəif olub bu imkanlara malik olmayan – radiosunun elə səsi çıxmayan, elmi iqtidarı elə olmayan, kosmosa peyk göndərə bilməyən və o şəkildə hərbi təhdid edə bilməyən bir ölkə bir-biri ilə dost münasibətləri qurmaq istəsə, şübhəsiz, bu dost münasibətləri həmin güclünün bu zəif üzərində təsiri və nüfuzu ilə nəticələnəcək. Bunda şübhə yoxdur.[232]

**Avropalıların elm vasitəsi ilə zorakılıq etməsi**

Avropa tarixini oxuyan adam avropalıların tipik olaraq kobud olmalarına şübhə etməz. Ütülü paltarda, qalstuklu və ətirli olan zahiri görkəmin çox kobud və qaba daxili var. Bu, onların ədəbiyyatlarında və mədəniyyətlərində aşkar görünür. Oraya getməyən və onları yaxından görməyən bəlkə də bunu dərk etməz, amma gedib görənlər bu haqda çoxlu əhvalatlar danışırlar və insan nə olduğunu başa düşür. Belə xarakterə malik bir xalq bu gün bütün dünyaya hegemonluq edir və dünya da onun sözünü qəbul edir. Bu, elmə görədir. Görün elm nə qədər əhəmiyyətlidir.

Elmləri olanda, sizin həyati əhəmiyyətli neft resurslarına malik olmanıza baxmayaraq, təbii ki, ona ehtiyaclı olacaqsınız, buna məcbursunuz. Amma əslində o sizə ehtiyaclı olmalıdır, çünki sizin neftiniz olmasa, onun zavodları işləməz, işıqları yanmaz, soyuq havada qızına bilməzlər. Hər bir şeyləri sizin neftinizdən qaynaqlanır, amma eyni zamanda siz onlara ehtiyaclısınız, onlar sizə və hətta sizin neftinizə də vəzifə təyin edirlər.[233]

---

[232] Dini Ekspertlər Məclisinin üzvləri ilə görüşdə çıxışdan: 1998.
[233] Ölkənin universitet rektorları ilə görüşdə çıxşdan: 1998.

**Elm - Qərb cəmiyyətinin qüdrət rəmzi**

Elm təkamülə yetişmək üçün insanın əsas silahıdır. Elmsiz mümkün deyil. ABŞ-da, Avropada və digər Qərb cəmiyyətlərində mövcud olan fəsad onları yerli-dibli məhv etmək üçün kifayət idi. Amma bu gün bu şəxslər bütün fəsadları ilə dünyanı ələ keçirmiş və qalmışlar. Bu onların bəzi müsbət xüsusiyyətlərinə, o cümlədən elmlərinə görədir. Onlar elmə önəm verdilər.[234]

**Elmi inkişafın siyasi və mədəni üstünlük amili olması**

Tarixin hər bir dönəmində elmi inkişaflar dünyanın bir tərəfində baş vermişdir. Bir zaman Çin dünyanın elmi inkişafının timsalı olmuşdur, bir gün Şərq, bir gün Qərb, bir gün də Avropa. Müəyyən bir qrup elmi inkişaf səbəbindən hərbi iqtidara malik ola bildi; yəni elmi inkişaf onları hərbi iqtidara və hərbi iqtidar onları siyasi iqtidara çatdırdı. Bunlar bu inkişafın sayəsində bir mədəniyyət düzəldirlər. Yəni özləri inandıqlarını və adət etdiklərini düzəldib yaranışın və təbiətin səmadan nazil olmuş ayələri formasında xalqın başına endirirlər. Bu mədəniyyətin qarşısında nə olsa, səhv, pis, çirkin və qeyri-məqbul sayılır.[235]

**ABŞ-ın hökmranlıq üçün elmdən istifadə etməsi**

Amerikalıların həqiqətən təsirli usulları da var və dünya ölkələrində nüfuz yaratmaq üçün elmdən maksimum istifadə edirlər. Onların informasiya və təbliğat işləri möhtəşəmdir. Bu gün amerikalıların gördüyü təbliğat işini dünyada heç kim görmür. Çünki onlar elmi tamamilə həmin məqsədlərin istiqamətində işlədib, hər yerə hakim ola bildilər.[236]

**İstismarçılıq əlaqəsini qorumaq üçün lazım olan üç məsələ**

İstismarçı qüvvələrin dünyanın istismarçı quruluşunda istismarçı ilə istismar olunanın əlaqəsini qorumaq üçün təkid göstərdikləri əsas üç məsələ var: mədəni istismar, iqtisadi istismar və elmi istismar. Bunun üçün

---

[234] İmam Hüseyn (ə) Universitetində çıxışdan: 1998.
[235] İslam Şurası Məclisinin Rəyasət Heyətinin üzvləri ilə görüşdə çıxışdan: 2000.
[236] Yenə orada.

istismarı qəbul edən, yaxud istismar altında olan tərəfi bu üç sahədə müstəqilliyə, özünəinama və inkişafa sarı getməyə qoymurlar.[237]

**Elm - dünyanın istismarçı sistemini pozan amil**

Bu gün dünyada istismarçı quruluş alış-veriş əsasında deyil, maksimum almaq və minimum vermək əsasındadır; sərvəti, imkanları, ölkələrdə siyasi, iqtisadi və ictimai resursları sorurlar, ələ keçirirlər və müqabilində bəzən heç bir şey vermirlər, bəzən zərərli bir şey verirlər, bəzən də azca nəsə verirlər. İndi dünyanın siyasi quruluşu belədir: istismarçı və istismar altında olan.

Əgər bu quruluşun pozulması və ölkələrin öz xalqlarının istedadı qədərincə elmi münasibətlərdə mövqe qazanması lazımdırsa, bu işdə təsirli olan əsas məsələ elmdir. Buna görə elmi ciddi saymaq və inkişaf etmək lazımdır.[238]

**Hegemonların elm hesabına dünyaya hakim olması**

Bu gün dünyanı ələ keçirmiş və həqiqətən insaniyyət və mənəviyyatdan xəbəri olmayan bu vəhşilər elmin sayəsində bu üstünlüyə malik ola bilmişlər. Onlar elm öyrəndilər. Mən dəfələrlə demişəm: ağıllı olan quldur və xəncərli bir insan gedib bir elmi öyrənir və bu elmin sayəsində həmin quldurluğunu da əldən vermir. Bunlar belədirlər. İnsan görür ki, bunlar həqiqətən dünyanın quldurlarıdır. Bu hegemonlar dünyanın xəncərliləri və çığırıb-bağıranlarıdır, lakin elmlə təchiz olunmuşlar. Siz çox nəcabətli, çox dindar, çox şərafətli, çox əsil-nəsəbli və möhtərəm ailədənsiniz. O, əsil-nəsəbsizdir, köksüzdür, ailəsizdir, lakin imkanlıdır. Siz isə imkanlı deyilsiniz. Siz savadsızsınız, o isə savadlıdır və buna görə gəlib sizə hakim olur; bunun oyan-buyanı yoxdur.[239]

**Elmin inkişafı və hegemonizmin asanlaşması**

---

[237] Universitet cihadının ekspertləri və Elmi Şura üzvləri ilə görüşdə çıxışdan: 2004.

[238] "Royan" Tədqiqat Mərkəzində keçirilən görüşdə çxışdan: 2007.

[239] Hökumət həftəsi münasibəti ilə prezidentlə və Dövlət Şurasının üzvləri ilə görüşdə çxışdan: 2007.

Şübhəsiz ki, bütün tarixdə dünyanın istismarçı və hegemon gücləri olmuşdur. Lakin elmin, sənayenin və modern rabitə imkanlarının inkişafı ilə bu istismarçılıq asanlaşmışdır. Buna görə görürsünüz ki, amerikalılar bütün dünyaya tamah salırlar, mənafelərinin təhlükəyə düşməsi bəhanəsi ilə müxtəlif yerlərə müdaxilə edirlər. Sanki onların mənafeyi bütün dünyanın mənafeyindən üstündür, xalqların mənafeyindən üstündür.[240]

240 Həzrət İmam Xomeyninin vəfatının 19-cu ildönümü tədbirində çıxışdan: 2008.

## Beşinci fəsil: Elmin inhisarı və ondan sui-istifadə

### Elm bütün bəşəriyyətə məxsusdur!

Elm bir şəxsə və bir xalqa məxsus deyil. Elm bəşəriyyətə məxsusdur və xalqların arasında əlbəəl olur. Bir zaman bugünkü sivil Avropa cəhalət və məlumatsızlığın sonunda idi. Müsəlmanlar o dövrün böyük alimləri olub elmi avropalılara öyrətdilər. Bu onların dediyi, yazdığı və yazmaqda olduğu sözdür, məchul bir şey deyil ki, biz iddia edək. Bir zaman elm Asiyada idi, indi Avropadadır, bir zaman da başqa bir yerdə olacaq. Elm bütün bəşəriyyətə məxsusdur. Elm elə bir şey deyil ki, bir xalq onunku olduğunu və bəşəriyyətə məxsus olmadığını desin. Xeyr, elm bəşəriyyətə məxsusdur. Biz elmi harada görsək, öyrənərik.[241]

### Elmə görə quldur ölkələrə ehtiyac

Bu gün geriqalmış xalqların problemi birinci növbədə budur. Siz əxlaqi baxımdan geriqalmış, insaniyyət baxımından qiyməti sıfır olan və dünya ölkələri ilə münasibətdə quldurluq edən bir ölkəni təsəvvür edin. O, elmə malik olduğuna görə hər bir insaflı insanı və xalqı ona ehtiyaclı olduğunu etiraf etməyə vadar edir; çarəsi yoxdur. O da elmini quldurluğu ilə qarışdırıb verir. Daha nə etmək olar? Xalqların çarəsi nədir? Öz daxili xəzinələrini tapmaqdan başqa çarələri yoxdur; öz ölkələrində mövcud olan zəngin insani qaynaqları çıxarmaqdan başqa çarələri yoxdur.[242]

### Avropa və elmin inkişafında inhisarçılıq

İkinci məqam budur ki, Avropa bəzi hadisə və amillərin təsirindən elmi baxımdan inkişaf etdi. Onlar bu inkişafı öz hüdudlarında saxlamağa çalışdılar. Siz gənclər əgər bu sahədə mütaliələr etsəniz və müxtəlif kitablar oxusanız, bu nəticəyə gələrsiniz. Bu da bir həqiqətdir.

İslamiyyət dövründə müsəlmanlar dünyada elm bayrağına sahib oldular. Onlar elm öyrənməyi lazım və vacib bildikləri kimi, elm öyrətməyi

---

[241] Məmurlarla və xalqın müxtəlif təbəqələri ilə görüşdə çıxışdan: 1991.
[242] Universitet rektorları ilə görüşdə çıxışdan: 1993.

də lazım bilirdilər; deyirdilər ki, elmin zəkatı onu öyrətməkdir.[243] Buna görə də İslam universitetlərində bütün ölkələrdən tələbələr vardı. Onlar gəlib təmənnasız olaraq müsəlmanlardan elm öyrənirdilər. O universitetlər elmi yayırdılar, elmi kitabları onun-bunun ixtiyarında qoyurdular. Bu hansı dövrə aiddir? Elmin hər yerdə sirr olduğu dövrə; kimin elmi vardısa, özü üçün vardı və digərlərinə vermirdi. Amma müsəlmanlar - istər iranlılar, istər andaluslular, istər ərəblər elmi digərlərinə verirdilər.[244]

**Qərblilərin qüvvədən düşmüş elmi digərlərinə verməlıəri**

Düzdür, Avropa ölkələrində çoxlu universitetlər var və digər ölkələrin tələbələri də o universitetlərdə dərs oxuyurlar. Lakin siz Avropada elm tarixinə baxsanız, bu nəticəyə gələrsiniz ki, avropalılar həmişə öz elmlərini ona ehtiyacları olmadıqda başqalarına verir və öyrədirdilər. Yəni artıq elm qüvvədən düşür və avropalıların təbirincə desək, dimode olunurdu. Onlar ən yaxşı elmi inkişafları və ən üstün elmi nailiyyətləri həmişə öz hüdudlarında saxlayırdılar.

Bu gün də elədir. Bu gün də başqa ölkələrin tələbələrinin heç biri avropalılara məxsus olan modern, yeni və əsaslı elmi mərkəzlərə yol tapa bilmirlər; belə mərkəzləri özləri yaratdıqda isə heç. Buna görə də Avropada tədqiqat mərkəzləri qeyri-avropalı millətlərin əlindədir. Məsələn, iranlı bir alim Avropada elmdə yeni bir inkişaf vücuda gətirmiş, yaxud yeni kəşf etmişdir. Bu var, bunu o fərd edib. Amma elm sahiblərinin ixtiyarında olanın bacardıqları və imkanlarının icazə verdiyi həddə başqalarına çatmasına qoymurlar.[245]

**Avropanın müstəmləkə üçün elmdən istifadəsi**

Elm avropalıların əlində olduğu zamandan onu xalqlara hakim olmaq üçün vasitə etmişlər. Böyük günah budur. Elm istər yeni silahlar vücuda gətirməklə, istərsə də müxtəlif iqtisadi, siyasi və digər üsullarla dövlətləri, hökumətləri və ölkələri tutmaq üçün bir vasitəyə çevrildi.

---

[243] "Bihar əl-ənvar", c. 2, səh. 25.

[244] Kuhgiluyə və Buyer Əhməd vilayətinin universitet mənsubları və mədəniyyət işçilərilə görüşdə çıxışdan: 1994.

[245] Yenə orada.

Bunun adı müstəmləkədir. Başqa sözlə desək, elm müstəmləkənin dayağı oldu. Necə ki, bu gün hegemonizmin dayağıdır.[246]

**Qərbin Şərq təfəkkürünün zəifliyinə dair təlqini**

Mənim əzizlərim! Uzun illər müxtəlif usullarla Şərq xalqlarına təlqin etmişlər ki, siz müxtəlif cəhətlərdən ikinci dərəcəli insanlarsınız. Prinsipcə müstəmləkə fəlsəfəsi bu idi. Təəssüf ki, müstəmləkə fəlsəfəsi üzərində çox işlənməmişdir. Mən əvvəllər bir müddət bu sahədə araşdırma apardım ki, bu mənfur müstəmləkə fenomeninin necə və hansı təməllər üzərində yarandığını öyrənim. Bəlli oldu ki, müstəmləkəçilərin çox təəssüflü fəndlərindən biri bu olmuşdur ki, bacardıqları qədər Asiya ölkələrinə - bu olimpiadalarda üç dəfə birinci yeri tutan Çinə, bizim ölkəmizə və digər yerlərə pis təlqinlər etmişlər. Şərq xalqlarına zorla ikinci dərəcəli və zəif insanlar olduqlarını, idarə və təfəkkür qabiliyyətlərinin olmadığını qəbul etdirmək istəmişlər. Digər tərəfdən, təlqin edirmişlər ki, elm onlarınkıdır, inkişaf onlarınkıdır və ümumiyyətlə, hər bir haqq onlara məxsusdur. Onlar zorla qəbul etdirirdilər ki, sizə bir şeyi verən və sizdən bir şeyi alan bizik. Onlar guya sivilizasiya və inkişaf verir, xalqların istismarını, onların sərvətini, azadlığını və həyatını almağı da bunun muzdu bilirdilər. Onlara görə bu ədalətli bazarlıq idi. Onlar belə rəftar edirdilər.[247]

**Qərbin elm və texnologiyanın qarışısını alması**

Siz baxın, inqilabın əvvəlindən 15-16 ildir Qərb bacardığı qədər bizim xalqımızı hər cəhətdən təzyiq altında saxlamağa çalışır; hətta elm və texnologiyanın ötürülməsində də. Bunu onların özləri bu gün açıqca söyləyirlər. Halbuki bir neçə il öncə belə açıq demirdilər. Bizim xalqımız boş əllə, yalqız və qərib şəkildə başlamışdır və inşallah gələcək illərdə nəsib olacaq mühüm bir inkişafın əlamətlərini bu gün onun çöhrəsində müşahidə edirik, tumurcuqları da sizlərsiniz.[248]

---

[246] Yenə orada.
[247] Elmi olimpiadalarda iştirak edən şagirdlərlə görüşdə çıxışdan: 1995.
[248] Yenə orada.

**Elmi yaymaqda qərblilərin xəsisliyi**

Elmin doğulduğu yer, onun xəsis və inhisarçı bölgəsi Avropa və Amerikadır. Onlar elm öyrətməyə xəsislik edirlər. Bu gün onlar çarəsizlikdən universitetlərinin qapısını hamının üzünə açmışlar. Başqa xalqların, xüsusən də şərq və müsəlman xalqlarının elmi tərəqqi, ixtira və kəşflərlə tanış olmasına o zaman icazə verirlər ki, ya bu xalqlar o texnologiyaların oxşarını yaratmış, ya da həmin elm öz yerlərində moddan düşmüş olsun.[249]

**Elmin İslam təfəkkürü əleyhinə alət olması**

Bu gün qlobal hegemonizm öz elmi qüvvəsini və siyasi ilxısını təfəkkür, mədəniyyət və elm alətləri ilə İslam təfəkkürünü zəiflətməyə səfərbər etmişdir. Lakin bu hiylə ilə də bir iş görə bilməyəcək.[250]

**Qərbin elmin kənarında mütləq halallıq mədəniyyətini ixrac etməsi**

Qərb supergücləri bu təsirli hücumda elm və texnologiya inkişafından və özlərinin bəzi milli və yerli xüsusiyyətlərindən bəhrələnmişlər. Biz düşməni qınamırıq, yaxıngörənliyi, tənbəlliyi və xudpəsəndliyi ilə düşmənin qələbəsinə və öz tənəzzülünə şərait yaradanlar qınanmağa daha layiqdirlər. Qərb özünün hərtərəfli hücumunda bizim imanımızı və dini xüsusiyyətlərimizi də hədəf seçdi və hamının ehtiyac duyduğu elmi sayəsində özünün düçar olduğu mütləq halallıq, dində və əxlaqda laqeydlik mədəniyyətini israrla cəmiyyətlərimizə ixrac etdi. Şübhəsiz, bu əxlaqi bataqlıq çox da uzaq olmayan bir gündə Qərbin indiki mədəniyyətini batırıb məhv edəcək.[251]

**Elmi üstünlüyü qorumaq - texnologiya ötürülməsinə maneə**

Qərbdə azadlığın hüdudunu maddi mənafelər təşkil edir. Onlar əvvəlcə ictimai və fərdi azadlıqlara məhdudiyyət qoydular. Bu onların

---

[249] Babul şəhərində universitet mənsubları və mədəniyyət işçiləri ilə görüşdə çıxışdan: 1995.

[250] Məhərrəm ayı ərəfəsində ruhani və təbliğatçılarla görüşdə çıxşdan: 1996.

[251] İslam ölkələri başçılarının səkkizinci iclasının açılış mərasimində çıxışdan: 1997.

biridir. Maddi maraqlar təhlükəyə düşəndə azadlığı məhdudlaşdırırlar. Maddi maraqlara misal kimi bu ölkələrin elmi üstünlüyünü və qüdrətini göstərmək olar. Təlim-tərbiyə elə məsələlərdəndir ki, ondakı azadlıq insanların əsla danılmaz hüquqlarından sayılır. İnsanların öyrənmək hüququ var. Lakin Qərb dünyasının böyük universitetlərində bu azadlığa məhdudiyyət qoyulur. Yüksək elm və texnologiyanı, onların dili ilə desək, HIGH TEC-i köçürmək olmaz. Müəyyən ölkələrə texnologiya ixrac etmək qadağandır. Niyə? Çünki bu elm köçürülsə, onların inhisarından çıxacaq və onların vəziyyətləri dəyişəcək. Azadlığa sərhəd qoyulur. Yəni müəllimin haqqı yoxdur ki, üçüncü dünyanın şagirdinə, məsələn, iranlı, yaxud çinli tələbəyə hansısa elmi sirri öyrətsin.[252]

**Qərbdə elmin təbəqələrə bölünməsi**

Biz azğın hökumətlər, çirkin səltənətlər, xalqa etinasız yanaşan eqoist, tamahkar və diktator hakimlər üzündən 250 il geri qaldıq. İndi Allahın lütfü ilə bəşəriyyətə məxsus olan elmdən istifadə etməyə çalışacağıq. Elm heç bir xalqın inhisarında deyil. Bizim elmimiz də bəşəriyyətə məxsus idi. Hicri tarixi ilə 3-5 və 6-cı əsrlərdə bütün dünya bizim elmimizdən istifadə edib. Bu gün də Avropanın, Amerikanın və digərlərinin elmi var. Bu da bəşəriyyətindir. Əlbəttə, onlar gizlədirlər, bunu bilin; bəlkə də xaricə səfər edən bəzi müəllimlərinizdən eşitmisiniz ki, onlar gizlədirlər. Elm mərhələlərə bölünüb. Onlar xarici vətəndaşlara müəyyən bir mərhələdən artığını öyrənməyə qoymurlar. Özləri ondan daha üstününü öyrəndikdən sonra aşağı mərhələlərə icazə verirlər.[253]

**Elmi mübadilə ikitərəfli olmalıdır!**

Elm elə bir şey deyil ki, hər hansı bir ölkə "mənim başqa heç bir xalqa ehtiyacım yoxdur" - desin. Xeyr, elm mübadilə ediləsidir. Əgər bir ölkədə elmin qapıları bir müddət bağlı qalsa və digərlərindən istifadə olunmasa, öz daxilində olan istedad da sönər. Elm mübadilə ilə, alış-verişlə inkişaf edir. Buna əsasən, "ehtiyacsız olaq" dedikdə məqsədim bu deyil ki, daha

---

[252] Pedaqoji universitetin bir qrup tələbəsinin məzuniyyət tədbirində çıxışdan: 1998.
[253] Tehran şəhəri universitetlərinin müxtəlif tələbə birlikləri ilə görüşdə çıxışdan: 1999.

heç kəslə elmi mübadiləmiz olmasın. Xeyr! İnsan elmin zirvəsində də mübadilə etməlidir. Bunda şübhə yoxdur. Lakin təəssüflü olsa da, elmi baxımdan geriqalmış ölkələrin indiki vəziyyəti elədir ki, elmi münasibətləri qarşılıqlı deyil, birtərəflidir; yalnız yalvarıb onlardan istəməlidir; onlar da bir qədər verməli və çoxunu gizlətməlidirlər.

Bu gün dəyərli və üstün elm və sənaye çoxlu ölkələrin ixtiyarına buraxılmır. Bu ümumiyyətlə, onlara məxsus cəmiyyətlərdən kənara çıxmır və başqa ölkələrə istifadə icazəsi verilmir.[254]

**Xalqların elm və texnologiya gücü - hegemonizm qarşısında müqavimətin zəmanətçisi**

Bir xalq hegemon məqsədləri olan bir dövlətlə əlaqədən heç bir xeyir və fayda görməz. Baxın, indi Asiyada, Afrikada və digər yerlərdə ABŞ-la əlaqəsi olan müxtəlif ölkələrin nə qədər elmi gücləri olsa, nə qədər elmi və texnoloji inkişaf və müstəqillikləri olsa, bir o qədər müqavimət göstərə bilərlər. Əgər öz daxillərində möhkəm bir bünövrə qura bilməmişlərsə, hegemon ABŞ nəinki onlara fayda yetirməyəcək, hətta onlardan istifadə edəcək, onlara zərbə vuracaq, onları özünün istər hərbi, istərsə də digər dəyərsiz məhsullarını satmaq üçün bazara çevirəcək, sərvətlərini talayacaq, bütün işlərinə qarışacaq. Hegemonizmin məqsədi budur.[255]

**Elmi inkişaflar - Qərb istismarının alətləri**

Qərbdə elmi inkişaf var, amma bu elmi inkişaflar digər xalqları istismar etmək üçün bir vasitəyə çevrilmişdir. Qərblilər elmi güc əldə edən kimi onu siyasi və iqtisadi qüdrətə cevirib dünyanın şərqinə və qərbinə sarı yollandılar. Harada istismara mümkün bir ölkə gördülərsə, çəkinmədilər; harada istismar etmədilərsə, deməli, mümkün deyildi.[256]

**Yeni elmlər və təbii qaynaqların dağıdılması**

---

[254] Ölkə üzrə elmi nümunələrlə görüşdə çıxışdan: 1999.

[255] Amerikanın casus yuvasının tutulmasının ildönümü (Beynəlxalq Hegemonluqla Milli Mübarizə Günü) münasibəti ilə tələbə və şagirdlərlə görüşdə çıxışdan: 1999.

[256] Tehranın cümə namazı xütbələrindən: 2000.

Bu gün həyatın çiçəklənməsi təbiəti dağıtmaqla baş verir. Bu gün dünyada elm öncüllərinin, elmin təbilçalanlarının, elm siqnalını və şeypurunu çalan şəxslərin elmlə nə iş gördüklərini yaxşı görürsünüz. Nefti yerin altından çıxarıb odladılar, həm o sərvəti, həm mühiti korladılar, həm də səs-küy yaratdılar. İnsan istilik istəyir - səs-küylə, sərinlik istəyir - səs-küylə, su və çörək istəyir - səs-küylə. Bu indi bizim elmimizin gördüyü işdir.

Bu idealdır?! Həyat budur?! Neftdən və minlərlə digər sərvətdən ayrı cür istifadə etmək olmazdı?! Xoşbəxtlikdən, indi deyirlər ki, neft əslində yandırmaq üçün deyil, neftdən hamısı insan həyatı üçün lazım olan minlərlə maddə istehsal olunur.

Bu bizim səhvlərimizə bir nümunədir. Torpağı da korlayırıq, suyu, havanı, nefti, qazı da korlayırıq, öz vücudumuzu, insan cismini, düşüncəsini və istedadlarını da.[257]

**Elmin dövri birinciliyində Qərbin nöqsanı**

Elm Avropaya və Qərbə məxsus deyil. Elm bəşərə və insani istedada məxsusdur. Elm bir gün dünyanın bir tərəfində inkişaf edir və digərləri ondan istifadə edirlər, bir gün də orada qürub edir və başqa bir yerdə inkişaf edir. Şərq bir neçə min il elmin zirvəsi və mərkəzi olmuşdur. Bir dövrdə də Qərb elmin mərkəzi olmuşdur. Elm hamıya məxsusdur; onun şərqlisi-qərblisi yoxdur. Onu öyrənmək lazımdır. Qərblilərin nöqsanı budur ki, elmdən pis istifadə etdilər, onu pis məcraya saldılar. Siz bunu düzəldin, amma bundan ötrü onu öyrənməlisiniz.[258]

**Dünyaya rəhbərlik etmək üçün ABŞ-ın elmi inkişafa istinadı**

Həqiqən ABŞ dünyaya nə vermək istəyir? Yalnız üstün sənayesinə, mürəkkəb və yüksək texnologiyasına, elmi inkişafına və sərvətinə - hərbi və diplomatik güc də onun nəticəsində yaranır – istinad edərək dünyaya

---

[257] Siyasi-mədəni birliklərlə görüşdə çıxışdan: 2000.

[258] Dəmavənd Elm Hövzəsinin tələbələri və Rifah mədrəsəsinin şagirdləri ilə görüşdə çıxışdan: 2000.

rəhbərlik etmək istəyir? Bir çox ölkələr deyirlər ki, xeyr, amma çoxları da boyunduruq altına girmişlər. Biz bunu qəbul etmirik.[259]

**Maddi və mənəvi inkişafa səy və güclü iradə**

Qərbin maddi sivilizasiyası elmi inkişafları və özü ilə gətirdiyi digər məziyyətləri ayrıseçkiliyə, zülmə və mənəviyyatdan uzaq qalmağa sərf etdi. İslam inqilabı isə bunun əksini istəyir. Biz elə bir cəmiyyət istəyirik ki, onda eyni zamanda dünya və axirətə, maddiyyat və mənəviyyata, elm və dinə, ədalətə və istedadların inkişafına diqqət yetirilsin. Sözsüz ki, belə bir cəmiyyətə nail olmaq üçün çalışmaq, əziyyət çəkmək lazımdır. Bu, böyük işdir, xalqın davamlı və güclü iradəsi olmadan əldə olunmaz.

Onlar bu bölgələrdə belə xalqların olmasını istəyirlər, bu xalqlar üçün hətta öz xalqlarının düçar olduğu tamamilə yararsız ictimai həyatı da rəva görmürlər. Onlar deyirlər ki, siz əlimizin altında yaşamalısınız; elm yaxşıdır, amma onlar üçün; inkişaf yaxşıdır, amma onlar üçün. Yəni bu xalqlar Qərb mədəniyyətinin və modernizmin çirkab sularını işlətməlidirlər. İstədikləri budur.[260]

**İnkişaf etmiş elm və texnologiyanın çirkin məqsədlərə xidmət etməsi**

Bəşərin inkişaf etmiş texnologiyası və mürəkkəb elmi adi xalqa asanlıq və sürət imkanı yaratdığı kimi, murdar məqsədli qüvvələrə ondan da çox imkanlar yaratmışdır. Bu gün dünya tağutları dünyaya, bütün bəşəriyyətə və bəşəri sərvətlərə hakim olmağı və onları bu yoldan saxlayan bütün maneələri məhv etməyi özlərinə məqsəd seçə bilirlər. Təəssüf ki, bəzi yerlərdə belə çirkin və xəbis niyyətlərdən böyük fəsadlar törəyir. Bu gün məsuliyyət çox ağırdır.[261]

**Elmdən çirkin istifadələr**

---

259 Xarici İşlər Nazirliyinin məsul işçiləri və İran İslam Respublikasının ölkə xaricindəki nümayəndəliklərinin başçıları ilə görüşdə çıxışdan: 2000.

260 İslam İnqilabının Keçikçiləri Korpusunun İmam Huseyn (ə) diviziyasının döyüşçüləri ilə görüşdə çıxışdan: 2001.

261 İslam Respublikası quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışdan: 2002.

Bəzən də elmin zirvəsinə çatmış belə bir ölkə onu digərlərinin alim olmasının və həyat mənbələrinə yiyələnməsinin qarşısını almaq üçün işlədir. Qlobal güclərin yeni mürəkkəb istismar dövrü boyunca və ondan sonra bu bu baş vermişdir. Böyük güclər elmdən digərlərinin sərvətlərini mənimsəmək, başqa xalqların başından vurmaq və onların inkişafına mane olmaq üçün istifadə etdilər. İndi də ondan çirkin və yanlış yolda istifadə edirlər. Lakin hər halda, proqramla işlədilər, müntəzəmlik göstərdilər, yaxşı idarə etdilər və buraya çatdılar.[262]

**Qərbin elmə əsaslanaraq müstəmləkəyə başlaması**

Avropalılar öz işlərinə elmlə başladılar, az elmlərindən siyasi məqsədləri üçün yararlandılar və ölkələri zəbt etdilər. Yəni ilk addımlardan müstəmləkəyə başladılar. Xaç yürüşləri ilə müstəmləkə hücumları arasında fərq vardır. Xaç yürüşləri ölkə tutmaq üçün düşünülməmiş hücum idi, elmə əsaslanmırdı. Buna görə də iki yüz il gecikdilər, daim məğlub oldular, sonda da hətta müsəlmanların təsiri altına düşüb birdəfəlik getdilər.

Müstəmləkə hərəkəti isə belə deyildi, başlandığı zamandan elmə əsaslanırdı; müstəmləkə regionunda özünü tüfənglə göstərən elmə. Xəncər qarşısında tüfəng elmi bir fenomen idi ki, onlar istifadə etdilər. Yaxud fərz edin yelkənli gəmi qarşısında paroxoddan istifadə etdilər. Portuqaliyadan, İspaniyadan, yaxud İngiltərədən qalxıb Hindistan yarımadasına getmək üçün elmi bir fenomen olan paroxod yelkənli gəmidən dəfələrlə əhəmiyyətlidir. Buna əsasən, elmin ilk addımlarından siyasi məqsədlərdən ötrü, dünyanı zəbt və istismar etmək üçün istifadə etdilər və heç bir şeyə rəhm etmədilər.

Müstəmləkəyə çevrilmiş bölgələrdə bir insanın törədə biləcəyi maksimum vəhşilikləri avropalılar törətdilər. "Maksimum" sözünü tam mənasında deyirəm. Yəni həqiqətən tarixdə bundan pisi olmayıb. Onlar öz hökmranlıqlarını gücləndirmək üçün əsla səhlənkarlıq etmədilər. Gördüklər işlərdən biri sərvət toplamaq idi və ondan istifadə edib yenidən elm istehsalını artırdılar. Yəni elm və istismarçılıq beləcə əl-ələ verdi və hər

---

[262] Şərqi Avropa İslam Təşkilatları İttifaqının bir qrup tələbəsilə görüşdə çıxışdan: 2002.

ikisi gücləndi. Bu gün gördüyünüz Qərb - son məhsulu da hələlik ABŞ-dır - belə bir prosesin nəticəsidir.[263]

**İlk elmi məhsullardan istifadə edən Qərbin siyasi istismarı**

Qərblilər elmi inkişaflarından ilk dəfə siyasi məqsədlə istifadələr etdilər, insani məqsədlə yox. Qərblilər elmdən ilk olaraq müstəmləkə işlərində istifadə etdilər. Onlar Avropada elmi hərəkətin başlandığı 17-18-ci əsrlərdən müstəmləkəyə başladılar. Qərblilərin Asiya və Afrikanın sərvətli bölgələrində müstəmləkəçi hərəkətinin başlanması da həmin dövrə aiddir. Onlar həmin məhdud elmdən digər ölkə və torpaqlarda yaşayan insanları daha çox istismar etmək üçün istifadə edə bildilər. Hər halda, tüfəng xəncər və nizə qarşısında mühüm silah sayılır.

Onlar əldə etdikləri elm və texnologiyanın ilkin mərhələləri ilə tüfəngdən, paroxoddan və ucqar ölkələri daha çox istismar etmək vasitələrindən istifadə etdilər. O ölkələrin bəziləri, misal üçün, Hindistan, Afrika və digər yerlər çox qədim mədəniyyətlərə malik idilər. O xalqın sərvətindən istifadə edib öz elmi bünövrələrini gücləndirdilər və sonra yenə elmdən dünyanın müxtəlif bölgələrində yerlərini bərkitmək üçün istifadə etdilər; yəni elmdən hakimiyyət üçün, hakimiyyətdən də elm üçün istifadə etdilər. Nəticədə müsəlman ölkələrinə həm siyasi, həm də mədəni və elmi hökmranlığı ələ keçirdilər.[264]

**Qərbin elm və müstəmləkə inkişafının bir-birinin xidmətində durması**

Mənim nəzərdə tuduğum məsələdə müstəmləkənin rolu olduqca çoxdur. Müstəmləkə məsələsinə, eləcə də siyasi, ictimai və mədəni şəraitə görə və sürətli amillərin köməyi ilə dünyanın bir hissəsi elmi zirvələrə doğru digər hissəsindən daha tez start götürdü. Bu hissə sürətli amillərin köməyi ilə inkişaf etdi, onları günbəgün daha sürətləndirdi, gücləndirdi, imkanlarını artıraraq elmi nailiyyətlər əldə etdi. Halbuki biz bütün elmi inkişaflara rəğmən, cəhalətlə əhatə olunmuşduq. Dünyanın həmin

---

[263] "Royan" Tədqiqat Mərkəzinin üzvləri ilə görüşdə çıxışdan: 2003.

[264] “Vilayət layihəsi”nin tələbələri ilə görüşdə çıxışdan: 2003.

hissəsinin sakinləri heyrətamiz elmi inkişaflar əldə etdilər. Sonra da ümumi siyasətləri bu oldu ki, elmi öz əllərinə keçirsinlər və geriqalmış ölkələrin onlara çatmasına, yaxud onlardan önə keçməsinə imkan veməsinlər. Siz yəqin ki, bəzi mütərəqqi texnologiyalar üçün yaradılan məhdudiyyətlər və onların dünyanın heç bir nöqtəsinə sızmaması haqda eşitmisiniz.

Müstəmləkə amili dünyanın bəlli hissəsinin elmi inkişafına təsir göstərdi. Həm də müstəmləkə bacarığı elmi inkişaf miqdarından asılı idi və o inkişafdan da siyasi məqsəd üçün istifadə etdi. Misal üçün, İngiltərə Hindistanı müstəmləkəyə çevirəndə paroxoddan istifadə etdi, Hindistanın istismarı da paroxodun mütərəqqi gəmilərə çevrilməsinə, özünün və digər bölgələrin daha artıq istismarına zəmin yaratdı. Beləliklə öz inhisarlarında olan elm müstəmləkənin xidmətində durdu, müstəmləkəçilik də elmin xidmətində.[265]

**Elm istehsalında elm mərkəzlərinin idarəçiliyinin rolu**

Üçüncü məsələ budur ki, bu işlərin (Proqramlaşdırma və elm istehsalı hərəkatının) hamısı yalnız pula və istedada deyil, layiqli idarəçiliyə də ehtiyaclıdır və bu, universitetin müdiriyyətinə aid məsələdir; istər universitet, institut və tədqiqat mərkəzlərinin başçılarına, istər dövlət qurumlarının, məsələn, Təhsil Nazirliyinin, Səhiyyə Nazirliyinin, Təlim və Tərbiyə Nazirliyinin rəhbərlərinə. Bunların üzərinə ağır vəzifələr düşür. Möhtərəm nazirlər burada iştirak etdiyindən bunu deyirəm ki, eşidib bununla məşğul olsunlar. Nazirliklərdə və universitetlərdə aparıcı vəzifələrdə çalışanlar bizim hamımızın istədiyimiz bu məqsəddən ötrü çox mühüm və həlledici işlər görə bilərlər.

Ölkədə çoxlu istedadlarımız var. Onlar tanınmaq, toplanmaq və istiqamətləndirmək lazımdır. Onları əməli şəkildə başa salmaq lazımdır ki, istedadlarına dəyər veririk. Bəzi dostların dediyi bu maddi və mükafat məsələləri həyata keçəsidir, lakin idarəçiliyə bağlıdır. Əlbəttə, bu sahədə

---

[265] Ölkənin universitet müəllimləri ilə görüşdə çıxışdan: 2003.

Mədəni İnqilab Ali Şurasının da üzərinə məsuliyyət düşür. Bu şuranın üzvləri də bu arzuların həyata keçməsinə çalışmalıdırlar.[266]

**Elmin ədalətli bölgüsünün və texnologiyanın inhisarına qarşı mübarizənin zəruriliyi**

Mənim ümumi sözüm budur ki, elm tarixi bir dəlilə görə - o tarixi dəlilin nə olduğunu yaxşı bilirik - dünyanın bir toplumunun və bir hissəsinin inhisarındadırsa, onlar elmi yalnız özlərinki sayıb ayrıseçkilik edirlərsə, digər xalqlara satırlarsa, öz siyasətlərini qəbul etdirmək üçün vasitəyə çevirmişlərsə - müstəmləkə ümumiyyətlə, bundan yarandı – bu, bəşəriyyətə böyük zülmdür. Elm sərvət kimi ədalətli bölünməlidir. İslamın fikri də budur ki, elm bütün ölkə və xalqlar arasında bölünməlidir. Hansısa texnologiyanı Asiyanın, yaxud digər yerlərin xalqlarına verməmək fikri texnologiyanın inhisarıdır. Bu, iqtisadiyyatda baş verdikdə nəhəng iqtisadi korparasiyalar yaranır və insanlara zülm olunur; siyasətdə baş verdikdə də beynəlxalq inhisarçılıq yaranır və müharibələr törədilir.[267]

**Elmin inhisarı - istismarçı münasibətləri qorumaq üçün Qərbin strategiyası**

İstismar altında olan ölkələrdə inkişaf etməyə qoymadıqları və ciddi maneə törətdikləri məsələrdən biri elmdir. Onlar bilirlər ki, elm qüdrət amilidir. Qərblilərin özləri elmlə gücləniblər. Bu, tarixi həqiqətlərdəndir. Əlbəttə, elm Şərqlə Qərb arasında hərəkət edib, gah onlarda, gah da bunlarda olub. Bir zaman onlar cəhalətdə idilər. Özlərinin təsvir etdikləri Orta əsrlər dövründə dünyanın bu tərəfində elmin zirvə çağı idi. Amma qərblilər elmə yiyələnən kimi ondan hökmranlıq, sərvətlənmək, siyasi güclərini artırmaq, xalqların sərvətini talamaq və özlərinə sərvət istehsal etmək üçün bir vasitə kimi istifadə etdilər. O sərvətdən yenidən elm istehsal etdilər, elmi yüksəltdilər, inkişaf etdirdilər.

Onlar elmin bir ölkəyə qüdrət bağışlamaqda nə qədər təsirli olduğunu bilirlər. Buna görədir ki, istismarçı sistemin, yəni istismarçı ilə

---

[266] Yenə orada.

[267] Gənc alimlərlə görüşdə çıxışdan: 2004.

istismar olunan arasındakı əlaqənin dünyaya hakim olmasını isətyirlərsə, istismar altında saxladıqları ölkələri savadlanmağa və elmi inkişafa qoymamalıdırlar. Bu, sabit strategiyadır, oyan-buyanı yoxdur. Bu gün dünyada bu minvalla hərəkət edirlər. Buna əsasən, elm öyrənmək və tədqiqat aparmaq üçün zəhmət çəkmək, çalışmaq lazımdır.[268]

**Elmi inkişafın köməyi ilə Qərbin kapitala pərəstiş mədəniyyətinin yayılması**

Avropanın fəlsəfə, ədəbiyyat, incəsənət və digər sahələrdə düşüncə yeniliklərinin başlandığı zamandan - yəni on səkkizinci əsrin ortalarından, şəxsi maraqlar və kapitalın birinciliyi təfəkkürünün Avropa və Qərbdə hakim ideologiya olduğu zamandan onlar dünyanı öz mədəniyyətləri ilə fəth etməyə çalışmış və buna nail olmuşlar. Biz bu reallığı görməliyik. Onlar elmin, elmi yenilik və inkişafın köməyi ilə öz mədəniyyətlərini təxminən bütün dünyaya genişləndirə bildilər. Əslində bugünkü Qərbin - Avropanın, Amerikanın, Yaponiyanın həyatına hakim ideologiya o mədəniyyətin təsiri altındadır, kapitalın birinciliyi, şəxsi maraqlar, ləzzətpərəstlik və bu kimi amillər dünya rəftarına əsas hakim ideologiyadır; yəni qazancın, fərdi marağın birinciliyi, hər şeyin pulla ölçülməsi və dəyərləndirilməsi. Elm də pulla ölçülür və pul üçün elm öyrənirlər. Ədəbiyyat və düşüncə də belədir, dəyərlər də pulla ölçülür.

Bu, dünyaya hakim ideologiyanın xülasəsidir. Onlar günbəgün müasirləşən modern təbliğat və elm vasitələri ilə - belə ki, bu dövrü informasiya və kommunikasiya əsri adlandırırlar - öz işlərini yaxşı apara bildilər. Bu gün siz baxın, Qərb həqiqətən dünyanın ağasıdır. Elmlərinin köməyi ilə dünyanın hər şeyini aparırlar. Harada da problemə düşsələr, siyasi, iqtisadi və hərbi təzyiqlə problemi həll edir, işlərini görürlər.[269]

**Ağalıq etməkdən ötrü elm inkişafının inhisarda saxlanması**

Dünyanın coğrafi və siyasi münaqişə və müharibələri zamanı Qərb, yəni Avropa yeni elmə daha tez nail oldu. Bu, avropalıların beyinlərinin

---

[268] Universitet cihadının ekspertləri və Elmi Şura üzvləri ilə görüşdə çıxışdan: 2004.
[269] Beynəlxalq İslam Elmləri Mərkəzinin qonaqları ilə görüşdə çxışdan: 2005.

şərqlilərdən daha yaxşı işləməsini göstərmirdi və göstərmir. Onlarda və o ölkələrdə iqlim və şərait baxımından bu tərəfdə mövcud olmayan qabiliyyətlərin olmasını da göstərmir. Bir zaman Şərq elmi cəhətdən öndə və Qərb cəhalətin dibində olmuşdu. Tarixdə belə dövrlər də olub. Bu dönəmdə - yəni bəşəriyyətin Qərbdə həyata keçən yeni elmi hərəkəti dövründə baş verən və bəlkə də keçmişdə analoqu olmayan isə budur ki, onlar elmin inhisarına çalışdılar. Bu inkişaf və ağalıq vasitəsini yalnız özlərinə saxlamağa, siyasi və iqtisadi ağalıq üçün ondan maksimum yararlanmağa çalışdılar. Elmin və sivilizasiyanın əlbəəl gəzdiyi bəşəriyyət tarixində belə bir şey olmamışdı.[270]

**Texnologiya inkişafının islamofob medianın xidmətində durması**

Bu gün informasiya və rabitə kanalı qarşılıqlı və çoxtərəfli deyil, birtərəflidir. Mütərəqqi elm və texnologiyanın köməyi ilə informasiya hakimiyyətinin və media imperatorluğunun bəyəndiyi dünyanın hər tərəfinə yayılır və hər yerdə işıqlandırılır. Onların bəyəndiyi nədir? Onların yayılmasını istədikləri hansı informasiyalardır? İnsani bilgilərdir? Dəyərli məlumatlardır? Həqiqətən onda insani ədalət var? Biz əsla belə bir şey görmürük.

Siz bu gün dünyaya hakim olan media siyasətinə baxın. Onların marağı İslamı terrorçuluqla eyniləşdirməyi tələb edir. Bu iş maksimum sürətlə və mütərəqqi texnologiyaların maksimum yardımı ilə baş verir. Onların marağı tələb edir ki, qarşılıqlı olaraq ABŞ-ı insan hüquqları və demokratiya örnəyi hesab etsinlər. Bu iş mürəkkəb və çox inkişaf etmiş informasiya texnologiyasının köməyi ilə asanlıqla görülür.[271]

**Qərbin istismar məqsədi ilə elmdən istifadə etməsi**

Lakin son dönəmdə - yəni elmin avropalı və qərbli toplumun əlinə düşdüyü renessansdan sonra elmdən adi və təbii şəkildə istifadə olunmadı. Elm onların əlində istismarçılıq üçün vasitə oldu; ölkələrin istismarı və tədricən müstəmləkə məsələsi meydana çıxdı. Şərq – yəni əksər Asiya

---

[270] Universitet müəllimləri ilə görüşdə çıxışdan: 2005.

[271] Müxtəlif ölkələrin media rəhbərləri və prodüsserləri ilə görüşdə çıxışdan: 2006.

bölgələri və Afrika 200-300 il müstəmləkə çəkməsi altında əzildi və qərblilər elmdən yalnız siyasi istismar və müstəmləkə üçün yox, hətta xalqları sıxmaq, onların şirəsini sormaq, imkanlarını və sərvətlərini talamaq üçün istifadə etdilər. Necə ki, öz mədəniyyətlərini elmi baxımdan geriqalmış xalqlara sırımaq üçün də elmdən istifadə etdilər. Onlar bu məqsədlə belə xalqlara elmi inkişafdan heç bir pay ayırmadılar. Onlar nəinki elmə həvəsləndirilmir, hətta qarşılarında maneələr də yaradılırdı.[272]

**Bəzi ölkələrin Qərbin istəyinin əksinə olan elmi inkişaf tərzi**

Mən sizə deyim ki, qərblilər heç zaman istəməyiblər və istəmirlər ki, qərbli olmayan birisi onların elm klubuna daxil olsun. Bu gün inkişaf etmiş Asiya ölkələrinin heç birinə - Yaponiyaya, Çinə və müəyyən həddə Hindistana Qərb kömək etməyib. Çin Şərq və Qərbin, kommunizm və kapitalizmin kəskin çəkişmələrində o zamanın sovetləri tərəfindən səxavətlə müdafiə olundu, hətta nüvə enerjilərini ruslar verdilər; Çinin heç nəyi yox idi. Sovetlər ABŞ və Avropa qarşısında böyük bir Asiya cəbhəsi yaratmaq üçün kommunist ölkəsi olan Çini gücləndirdilər. Hindistan da sonrakı dərəcədə elə idi. Yəni Şərq və Qərb cəbhələrində Hindistan sola meyl göstərirdi. Sovetlər, yəni solçular ona kömək etdilər. Amerikalılar qarşılığında Pakistana kömək etdilər. Əlbəttə, Pakistan da nüvə enerjisini özü yaratmayıb, Çindən alıb. Lakin ABŞ göz yumdu və regional siyasi balansa görə üstünü vurmadı. Yaponiya öz elmi inkişafını ABŞ və Qərbin köməyi ilə əldə etmədi. Yaponlar elmi yol tapa bildilər. Bəlkə də oğurluq yaxşı təbir deyil, amma onlar qarşı tərəfin razı olmadığı formada elmi ondan götürdülər. Onlar zəhmətkeş xalq olduqlarından özlərini inkişaf etdirdilər, Qərb onlara kömək etmədi.[273]

**Hegemonların İranın nüvə məsələsinə qarşı çıxmalarının səbəbi**

Bu gün ABŞ kimi bir ölkənin xarici siyasətinin əsas problemi İranın nüvə məsələsi olmuşdur. Nə üçün? Ona görə ki, bu, inkişaf etməsini istəmədikləri bir xalqın inkişaf əlamətidir. Bu xalqın güclənməsini, elmi

---

[272] Gənc alimlərlə görüşdə çıxışdan: 2006.
[273] Məşhədin Firdovsi Universitetində tələbələrlə görüşdə çıxışdan: 2007.

güc əldə etməsini, mənəvi güc və özünəinam qazanmasını istəmirlər. Onlar yenidən bu ölkəyə hakim olmaq istəyirlər.[274]

**İnkişaf etmiş ölkələrin bəlaları və onlardan qurtuluş yolları**

Qərblilərin və avropalıların öz xeyirlərinə tamamlanan ən böyük işlərindən biri bu idi ki, digər ölkələlərin istedadlılarını ələ aldılar, öz fikirlərini onlara təlqin etdilər, sonra onları öz cəmiyyətlərinə buraxdılar. Qərb ölkələri - yəni İngiltərə, Fransa və digər ölkələr həmin ölkələrdə pul xərcləyib öz siyasi təfəkkürlərini yaymaq əvəzinə, onların yetirmələri gedib təmənnasız şəkildə onların işlərini gördülər. Geriqalmış və inkişaf etməmiş ölkələrin bəlalarından biri bu idi. İndi də onların adamları var və işlərini görməkdədirlər. Buna son qoymaq lazımdır. Biz milli özünəinam əldə etsək, istedadlar çağlayacaq, görəcəyik və sübut olunacaq ki, bacarırıq.[275]

**Elmi inkişafın hegemonizmə təhdid olmasının səbəbi**

Nə üçün bir xalqın və bir ölkənin elmi inkişafı kimin üçünsə təhdid sayılmalıdır? Nə üçün? Çünki inhisarçı, istismarçıdırlar, İranı yem fərz edirlər, bu ölkəni bütün ehtiyatları, üstün və dəyərli coğrafi mövqeyi ilə birgə udmaq istəyirlər. İran xalqının, iranlı gəncin oyanışı, istedadı və elmi inkişafı isə buna mane olur. Odur ki, sizin texnoloji inkişafınız, nüvə sənayeniz və digər elmi nailiyyətləriniz onları qəzəbləndirir.

Bəli, əgər İran xalqı laqeyd və iranlı gənc düşüncəsiz olsa – elmlə, işlə, istehsalla və yenilklə məşğul olmasa, vaxtını eyş-işrətdə keçirsə, onlar sevinərlər. Onlar bunu istəyirlər, Şiraz şəhərinin elmi inkişaf mərkəzi olmasını istəmirlər. Mən dedim ki, sizin Şirazınız sənaye inkişafı baxımından ölkə şəhərlərinin və vilayətlərinin ön xəttindədir, bəzi elmi fənlərdə sizin gəncləriniz, kişi və qadınlarınız dünyada məşhur olmuşlar. Onlar bunu istəmirlər. Onlar istəmirlər ki, bizim universitetimiz, elmi hövzəmiz, laboratoriyamız, istehsalat mərkəzlərimiz rövnəqlənsin. Onlar qız və oğlanın bir-birinə qarışmasının, ehtiraslı münasibətlərin, qafilliyin, eyş-işrətin və bu kimi işlərin cəmiyyətdə ənənəyə çevrilməsini istəyirlər.

---

[274] Bəsic üzvü olan şagird və tələbələrlə görüşdə çıxışdan: 2007.
[275] Yəzd vilayəti universitetlərinin tələbələri ilə görüşdə çıxışdan: 2008.

Onlar bunu istəyirlər, siz isə əksini etdiniz. ABŞ-ın və sionistlərin qəzəblənməsi və bütün bu təbliğat kampaniyası bundan ötrüdür.[276]

**Elm - dəyər, yaxud antidəyər**

Elmin özü dəyərdir. Bu dəyərdən bəşəriyyət əleyhinə istifadə edənlər onu antidəyərə çevirə bilərlər. Elmin özü isə bir dəyərdir. Elmin sayəsində Allahı tanımaq da asanlaşır. Elmli adamlar peyğəmbərlərin və İslamın sözünün haqq olmasını daha yaxşı anlayırlar. Elmi ehtiraslarla, qərəzlərlə, maddi aləmdə və maddi təmayüllərdə mövcud olan amillərlə qarışdırmaq olmaz. Qərbdə pis olan onların dəyər əleyhinə hərəkət etmələri, elmdən ehtiras və nəfs üçün bəhrələnmələridir, elmin özü yox. Buna əsasən, elm bir dəyərdir. Bunda şübhəniz olmasın. Həm inanc, dəyər elmləri, yaxud digər elmlər, məsələn, fəlsəfə və fiqh çox dəyərlidir, həm də bəşərin ixtiyarında olub dünyanı kəşf etməyə, onun sirlərini açmağa və bu möhtəşəm xəzinədən daha yaxşı istifadəyə səbəb olan elmlər.[277]

**Elmdən istifadədə fərqli istiqamətlər**

Formaların eybi yoxdur. Atom texnologiyası heç bir günah etməyib, günah onun istiqamətini insanların məhvinə yönəldəndədir. Yaxud misal üçün, inkişaf etmiş Nano texnologiyasının, yaxud çox mütərəqqi elektronik sənayelərin, aerodinamikanın və digər elmlərin günahı yoxdur. Bunlar çox yaxşıdır və insanın Allahın bu təbiətdə yaratdığı sərvət və nemətlərdən ən yaxşı formada istifadə etməsi üçün vasitələrdir. Günah o adamlardadır ki, Allahın verdiyi bu nemətdən və ilahi xəzinədən hegemonluq etmək, digərlərinə hakim olmaq, digərlərinin hüququnu tapdamaq üçün istifadə edirlər.

Yaxşı bünövrənizin olduğuna, Allaha, insan ucalığına etiqadlı olduğunuza, zülm, işğal və təcavüzə qarşı çıxdığınıza, hegemonluğu, şəxsi və ictimai ehtiraslardan qaynaqlanan cəmiyyət və hökumətləri pis saydığınıza görə bu elmləri siz öyrənin ki, dünyada öz dəyərlərinizi yaya,

---

[276] Fars vilayətinin muharibə əlilləri, fədakarları və şəhid ailələri ilə görüşdə çıxışdan: 2008.

[277] Universitetlərin gənc alimləri ilə görüşdə çıxışdan: 2008.

inamlarınızı hakim edəsiniz. Bu pisdir?! Bir nəfər təyyarəyə minib əyyaşlıq və avaralıq üçün hansısa ölkənin filan şəhərinə gedir. Bir nəfər də həmin təyyarəyə minib Allah evinin ziyarətinə gedir. İstiqamətlərin fərqli olduğuna görə bu təyyarənin günahı yoxdur.

Siz elm və texnologiyanı oyrənin, bu sahədə zirvəni fəth etməniz üçün sizdə olan özəl istedaddan - mən buna toxunacağam, bəzi dostlar da dedilər - istifadə edin. Sonra bundan yalançı dəyərlərin, nəfsi istəklərin, veyilliyin, qızıl və gücün insan taleyinə hökmranlığının yerinə həqiqi dəyərləri yaymaq üçün istiadə edin.[278]

**Qərbin elmdən sui-istifadəsi**

Bu gün dünyada iki milyarddan artıq insan acdır. Bu zarafatdır?! Bu gün bəzi xalqlar qızıl üzərində yeriyirlər, lakin qarınları acdır. Dünya düzəni istismarçı, hegemon, zalım düzəndir. ABŞ nə yolla buraya çatdı? Necə oldu ki, dünyaya bu şəkildə hegemonluq edə bildi? Çünki elmi vardı və elmdən istifadə etdi. Qərblilər tarix boyu mövcud olmuş bu beynəlxalq yarışdan sui-istifadə etdilər.[279]

**Qərblilərin elm və texnologiyada önə keçməsinin aqibəti: müstəmləkənin yaranması**

Qərblilər önə keçən kimi elmi üstünlükdən siyasi və iqtisadi istismarçılıq üçün istifadə etdilər və müstəmləkəçilik vücuda gəldi. Müstəmləkəçilik əvvəllər yox idi. Müstəmləkəçiliyin mənası budur ki, bir ölkə minlərlə kilometr uzaqdan sərvətli bir ölkəyə, məsələn, Hindistan yarımadasına gəlib xəncər və mütərəqqi silah gücünə oranı ələ keçirsin.

Bilirsiniz ki, İngiltərə suyun ortasındadır. İngilislər dənizçilik və gəmiçilik işində mahir olduqlarından dənizçiliyi inkişaf etdirdilər, təhlükələrə və risklərə atıldılar, gəlib Hindistanı tapdılar, onu ələ keçirdilər və özlərinin elmi üstünlüklərindən siyasi məqsədlə istifadə etdilər. O zamana qədər elmi üstünlüyü olan müxtəlif ölkələrin heç biri bu işi görməmişdi. Şərq bölgəsinə və Hindistan yarımadasına gedib ilk dəfə

---

[278] Yenə orada.
[279] Yenə orada.

müstəmləkəçiliyi başladan ingilislər, belçikalılar, hollandiyalılar, həmçinin sonradan gedib Afrikanı tutan bir qrup Avropa ölkəsi, məsələn, Portuqaliya elmi inkişaf qüvvəsindən və elmi bacarıqlarından siyasi yolda istifadə etdilər, müstəmləkəçiliyi yaratdılar.

Bu zaman müstəmləkə altında olan xalqın taleyi müstəmləkəçi xalqın əlinə keçir. Onları cəhalətdə saxlamaq üçün bundan istifadə etdilər və elmi rəqabəti bacardıqları qədər dayandırdılar. Elmdən belə sui-istifadə olunmuşdur.[280]

**Qərbin vasitəsi ilə elmin inhisarı**

Dünyada dəyişikliklər baş verir, insanlar bir həddə qalmırlar. İnsanı həbs etmək olmaz. Hər halda, istər elmdə, istər siyasətdə insan istedadı öz işini görür və gördü də.

Dünyanın bugünkü vəziyyəti elədir ki, elmi inkişafa sahib olan qüvvələr bu inkişafı öz inhisarlarında saxlamağa çalışırlar. Siz yaxşı bilirsiniz ki, inkişaf etmiş Qərb ölkələrində öz çevrələrindən xaric insanlara bəzi elmlərə yiyələnmək imkanı verilmir; yəni bunlar özəldir. Köhnəldikdən sonra yayılan sənədlər kimi, elm də əhəmiyyətini itirəndən sonra digərlərinə onu öyrənməyə icazə verirlər; yəni özləri daha üstün bir mərhələyə çatandan sonra. Onlar elmdə belə inhisarçıdırlar.[281]

**Elm dövrü dünyasının əsas problemi**

Elm dövrünün və modern dünyanın əsas problemi bu idi ki, ilahi bir nemət olan elm bu dünyada fəsadın, şiddətin, təcavüzün xidmətində durdu. Bu böyük nemət qarşısında ən böyük qədirbilməzlik odur ki, bir nəsil, bir xalq və bir toplum elmi bir dövrdə zülmün, şiddətin, təcavüzün və insani dəyərləri vurmağın xidmətində işlətsin. Bu, son iki-üç əsrdə, xüsusən də ötən onilliklərdə dünyada baş verdi.

Bəzi xalqlar elmə yiyələnmişlər; bu təbiidir. Elmi birincilik tarix boyu müxtəlif xalqlara məxsus olub. Bir zaman elmin mərkəzi şərq bölgəsi idi,

---

[280] Yenə orada.
[281] Yenə orada.

bir zaman da qərb bölgəsi oldu. Bu xalqlar elmə yiyələndikdə onu müstəmləkənin xidmətində işlətdilər, onunla xalqları vurmağa başladılar.

Dünyanın şərqində və qərbində - Afrika və Asiyada çoxlu əhalisi olan ölkələr Qərb ölkələrinin elmi vasitəsi ilə vuruldular, müstəmləkəyə çevrildilər, nəsillər əsir alındı. ABŞ-ın bugünkü qaraları Qərb müstəmləkəçiləri vasitəsi ilə Afrika ölkələrindən əsir götürülən həmin yoxsulların övladlarıdır. Onları öz evlərindən, tarlalarından, yaşadıqları yerlərdən heyvan kimi ovlayıb çətin işlərə məcbur etdilər, didərgin saldılar. Bu iş qara dövrlərdə bütün dünyada - Hindistan yarımadasında, Asiyanın sonunda baş verdi.

Öz elmləri ilə, yiyələndikləri və ilahi nemət olan biliklə Allahın bəndələrini, Allahın xalqını xar etdilər, zülmə məruz qoydular, onların həyatını uzun müddət qaraltdılar.

Hər bir elm nərdivanın bir pilləsi kimidir; insan bir pillə qalxdıqda, sonrakı pillələrə qalxmaq üçün də imkan yaranır. Onlar da yiyələndikləri həmin elmlərdən istifadə edib elm nərdivanında yüksəyə qalxdılar; atom bombası, kimyəvi silahlar istehsal etdilər, nəsillər məhv edildi, insanlar öz əzizlərinə yas saxladılar, dünya sizin siyasi coğrafiyada müşahidə etdiyiniz vəziyyətə düşdü, hegemon və hegemonizmi qəbul edən, zalım və məzlum cinahlarına bölündü; özü də olduqca böyük fərqlərlə. Dünyanın indiki siyasi, mədəni coğrafiyası bu qara əsrlərin son dövrlərində bu formaya düşdü.[282]

[282] İmam Hüseyn (ə) Universitetinin məzuniyyət mərasimində çıxışdan: 2009.

## Altıncı fəsil: Qərbin inkişaf üçün müsəlmanların elmindən istifadə etməsi

### Qərb mədəniyyətinin İslam əsərlərindən qidalanmaqla ucalması

Bu bir həqiqətdir ki, Avropanın hər bir şeyi İslam mədəniyyəti qarşısında rəngini itirdi və bu hal hicrətin dördüncü, beşinci və altıncı əsrlərinə qədər davam etdi. Əlbəttə, bundan sonra İslam mədəniyyəti illərlə tənəzzülə uğradı və nəhayət renessans dövrü çatdı. Bundan sonra Qərb mədəniyyəti yenidən yüksəlməyə başladı. Lakin Qərb mədəniyyəti İslam mədəniyyətinin qələbəsindən sonrakı bütün illərdə bu mədəniyyətdən qidalanmaqla məşğul olmuşdur. O dövrün kitablarına və mənbələrinə baxın. Ən böyük alimlər İslam əsərləri ilə işləyib onlardan bir şey anlaya və onları tərcümə edə bilən alimlər olmuşdur.[283]

### Digərlərinin elm və sənaye inkişaflarından istifadə etmək

Əlbəttə, bu gün Yaponiya, Almaniya və bəzi Avropa ölkələri elmi, texnoloji və sənaye inkişafı baxımından, humanitar elmlərin bəzi sahələrində, idarəçilikdə və digər sahələrdə inkişaf baxımından öndədirlər. Bu nailiyyətlərdən hamı istifadə etməlidir. Bizim istifadə etməyimizi istəməyənlərin acığına, biz bütün bunlardan istifadə edəcəyik. Bir gün Qərb və Avropa biz müsəlmanların elmindən, bizim elmi inkişaflarımızdan, kitablarımızdan, yazılarımızdan və mədəniyyətimizdən maksimum istifadə edib özünü irəliyə çəkdi.[284]

### Bəşərin elm və bilgilərinin Peyğəmbər (s) təlimlərindən götürülməsi

Peyğəmbərin (s) təlimlərindən bəhrələnənlər təkcə müsəlmanlar deyillər. Dünyanın bugünkü elmi, sivilizasiyası, bu gün dünyada mövcud olan bilgi və bəşər karvanının inkişafı onun vücuduna borcludur. Bu, biz müsəlmanların iddiası deyil, bütün insaflı şəxslər və tarixçilər qəbul edirlər ki, İslam dünyasında elmi oyanış get-gəl vasitəsi ilə yarandı, onların işğal

[283] Korpus komandirləri ilə görüşdə çıxışdan: 1994.
[284] Tehran şəhəri universitetlərinin müxtəlif tələbə birlikləri ilə görüşdə çıxışdan: 1999.

və müharibələri bu oyanışın digər nöqtələrə də ötürülməsinə səbəb oldu. Bəşərin bilgi və düşüncələri, bu gün insanların diqqət mərkəzində olan məsələlər, misal üçün, insan hüquqları, azadlığı, bərabərliyi və qardaşlığı bu uca insanın hədiyyələridir.[285]

### Qərbin müsəlmanların elmindən istifadə və inkişaf etməsi

Qərblilər elmi bizdən öyrəndilər. Siz Pier Russonun Elmlər tarixi kitabına baxın. Orada deyir dörd-beş əsr öncə bir tacir Avropa ölkələrindən birində bir müəllimə müraciət edir, deyir ki, istəyirəm övladım dərs oxusun, onu hansı məktəbə yollayım? Müəllim cavab verir ki, əgər dörd riyazi əməllə - toplama, vurma, çıxma və bölmə ilə kifayətlənirsənsə, onu bizim, yaxud digər bir Avropa ölkəsinin istənilən məktəbinə yolla, amma bundan artığını istəyirsənsə, onu Andalusa, yaxud müsəlmanlar yaşayan başqa bir bölgəyə göndərməlisən. Bunu Pier Russo yazır, mənim sözüm deyil. Xaç yürüşləri bu sahədə onlara kömək etdi. Onlar bizdən öyrəndilər. Onların alimlərinin bu bölgələrə səfərləri bizdən öyrənmələrinə səbəb oldu. Həmçinin bizim alimlərimizin səfərləri və kitablarımızın aparılması onlara böyük kömək göstərdi.[286]

### Müsəlmanların sui-istifadə etmədən elmi inkişaf etdirməsi

Bir zaman dünya elminin mərkəzi İslam idi, amma İslam dünyası elmə malik olduğuna görə gedib məsələn, Avropanı, Afrikanı, yaxud başqa bir bölgəni müstəmləkəyə çevirmədi. Bu elm genişlənib hər yerə çatdı və hamı ondan istifadə etdi.[287]

### Qərb elminin inkişafında İslam dünyasının rolu

Hansı səmavi kitabın birinci müraciətində elmə, qələmə, təlimə diqqət yetirilmiş və əhəmiyyətli yanaşılmışdır. Əgər bu gün Qərb dünyasının elm işində və elmi inkişafda müvəffəqiyyəti varsa, hansı insaflı

---

[285] Əziz Peyğəmbərin (s) və İmam Sadiqin (ə) doğum günü münasibətilə məsul şəxslərlə və xalqın müxtəlif təbəqələri ilə görüşdə çıxışdan: 1999.

[286] Həmədan vilayəti universitetlərinin müəllim və tələbələri və həmədanlı gənclərlə görüşdə çıxışdan: 2004.

[287] Gənc alimlərlə görüşdə çıxışdan: 2006.

tarixçi və alim bunu İslam dünyasından götürdüyünü təsdiq etməz?! Qərb dünyasının və Avropanın qaranlıq və zülmət çağı olan Orta əsrlər İslam dünyasında elm, ağıl, düşüncə, fəlsəfə, ibn sinalar, farabilər dövrüdür.[288]

[288] Namazın Bərpası Komitəsinin əməkdaşları ilə görüşdə çıxışdan: 2006.

## Yeddinci fəsil: Elmi inkişafa bais olan yaxşı səciyyələr

**İnkişaf səydən asılıdır!**

Əgər bəzi xalqların elmi və texnoloji inkişafa, siyasi və iqtisadi ağalığa nail olduqlarını, sərvətli və qüdrətli olduqlarını görürsünüzsə, nə varsa, səydən asılıdır. Bu, İslam prinsiplərindən biridir.[289]

**Qərbin elmi inkişafı onların bəzi yaxşı xüsusiyyətlərinin nəticəsidir!**

Mən dəfələrlə demişəm: Əgər dünyada elmi inkişaf etdirən Qərb ölkələrində bəzi yaxşı və bəyənilmiş xüsusiyyətlər olmasaydı, o inkişaflar hasil olmazdı, digərlərinə rəva gördükləri zülm onları məhv edərdi. Yaxşı xüsusiyyətlər onların qalmasına və inkişafına bais olmuşdur. Biz o xüsusiyyətləri tərk etmişik. Onlar işdə müntəzəmdirlər, vaxtın dəyərini bilirlər və istehsal etmək istədikləri məhsula əhəmiyyətli yanaşırlar.[290]

**Elmi sevmək elmi inkişaf amilidir!**

Sizcə belə bir inamı olan alim bir an işdən əl çəkib maaş, ev və digər bəhanələrlə səhlənkarlıq edər?! Son 400 ildə Qərbdə böyük işlər görməyi bacarmış bütün məşhur alimlər bu hisslə elmi inkişaflara nail ola bilmişlər; yəni işi sevərək görmüşlər.[291]

**Qərb mədəniyyətinin müsbət cəhətlərinə dair daha bir nümunə**

Fərz edin bu cəmiyyətlərin örnəyi ABŞ-dır. Orada bu mədəniyyət tam şəkidə görünür və yaxşı xüsusiyyətləri də var. Yəni bu mədəniyyət və sivilizasiya, öz sözləri ilə desək, bu ideologiya xalqı işə və çalışmağa dəvət edir, vaxtın qədrini bilməyə, dəqiqələrə və insan kapitalının bütün xırdalıqlarına riayət etməyə çağırır. Bütün xüsusiyyətləri ilə yanaşı bu mədəniyyətin nəticəsi nədir? Nəticəsi sərvətli, inkişaf etmiş, elm və texnologiyaya malik olan bir cəmiyyətin yaranmasıdır. Həmin gözəlliklər

---

[289] İmam Huseynin (ə) doğum günün və Keşikçi Günündə Keşikçilər Korpusunun üzvləri və komandirləri ilə görüşdə çıxışdan: 1992.

[290] Tehranın cümə namazı xütbələrindən: 1994.

[291] Keşikçilər Korpusunun müxtəlif bölmələrinin komandirləri ilə görüşdə çıxışdan: 1994.

Amerika və Avropada bu fikirlərin ortaya qoyulduğu ötən iki-üç əsrdə xalqın və Qərb mütəfəkkirlərinin gözünü tutdu, bu həyat üsulunu, bu məktəbi, mədəniyyəti və toplumu hamı xoşladı və qəbul etdi.[292]

**Elm və sənayedə riskə atılmaq**

Avropalılar riski sevirlər. Bəzi yerlərdə risk etmək yaxşı xüsusiyyətdir; elm və sənayedə doğrudan da yaxşı xüsusiyyətdir, işə yarayır. Mən də elm və sənaye ilə məşğul olanlara dəfələrlə demişəm ki, onu öyrənin, komandalar seçib yetişdirin. Siz bacararsınız. Bunlar qeyri-mümkün işlər deyil. Bunların yolu və üsulu var; iradə, əzmkarlıq və yaradıcılıq lazımdır.[293]

**Qərb inkişafının mənşəyi**

Qərb ölkələri sivilizasiya və maddi inkişaf baxımından yaxşı yerlərə çatmışlar; çoxlu sərvət, elmi inkişaf və müxtəlif ixtiralar. Şübhəsiz ki, bu, onların təfəkküründə mövcud olan müsbət cəhətlərdən, lokal xüsusiyyətlərdən irəli gəlir.[294]

**İnkişafa təsir göstərən iki amil**

Mən xalqların taleyini və tarixini mütaliə edirəm. Yalnız keçmişdə yox, bizim öz dövrümüzdə də belədir. Görürük ki, ölkələrin milli inkişafında təsirli olan ən mühüm amillərdən ikisi bunlardır: biri təhlükəyə atılmaq, biri də çətin, müntəzəm və ardıcıl işləmək. Mən bu gün sizə bu iki xüsusiyyəti tövsiyə etmək istəyirəm.[295]

**Elmi cürətin və riskin mənası**

Riskin əksi qorxudur. Nədən qorxu? Uğursuzluqdan qorxu, müvəffəq olmamaq qorxusundan işə qatılmamaq, çatmamaq qorxusundan

---

[292] Məhərrəm ayı ərəfəsində ruhani və təbliğatçılarla görüşdə çıxışdan: 1996.
[293] Bədən Tərbiyəsi Komitəsinin sədri, müavinləri və ölkənin idman federasiyalarının prezidentləri ilə görüşdə çıxışdan: 1996.
[294] İslam Konfransı Təşkilatının Təbliğat Fəaliyyətlərini Əlaqələndirmə Komitəsinin üzvləri ilə görüşdə çıxışdan: 1998.
[295] Gənc alimlərlə görüşdə çıxışdan: 2006.

getməmək, qəbul olmamaq qorxusundan addım atmamaq, problem yaratmasından qorxub hərəkət etməmək. Bunların hamısı riskin əksidir. Qərblilərin yaxşı xüsusiyyətlərindən biri - biz pis və yaxşı xüsusiyyətlərin hər ikisini görür və inkar etmirik - təhlükəyə atılmaqdır. Qərblilər və onların ardınca amerikalılar - avropalıların mədəniyyətini ilk dəfə onlar götürdülər - bu müsbət xüsusiyyətə malikdirlər. Risk etmək cəmiyyətə uğur gətirə bilər.

Siz gənclər hazır olmalısınız. "Bəlkə mümkün olmadı" qorxusu çox pis şeydir. Bəzən insanın təsəvvürləri onun üçün çox məyusedici bir gələcək göstərir. Mənim fikrimcə, nöqsanların biri budur: əgər universitetə daxil olsaq, dərs oxusaq, bu tədqiqata başlasaq, tədqiqat və araşdırma ilə məşğul olsaq, alınarmı? Əlimizə bir şey keçərmi? Gərək başlayasınız. Ərəb şairinin sözü ilə desək, bəladan da pis olan bəladan qorxmaqdır. Bu, bəlanın özündən də pisdir. Birdən olmadı?! Bu "birdən"ə çox fikir verməyin. Başlayın, görəcəksiniz ki, olur. Uğurun müşahidə olunduğu bütün maddi və mənəvi sahələrdə bu cürət, cəsarət və uğursuzluq ehtimalından qorxmamaq bizi inkişaf etdirən çox mühüm amil olmuşdur.[296]

**Tənbəllik və rahatlıq istəyi; mühüm elmi kəşflərə maneə**

"Çətin iş" məsələsinin əksi tənbəllikdir. Tənbəlliyin və problemsiz həyat istəyinin sizi aldatmasına qoymayın. Tənbəllik olsaydı, bu mühüm elmi kəşflərin heç biri baş verməzdi. Böyük kəşf sahiblərinin və ixtiraçıların həyatını oxuyun, görün necə yuxunu özlərinə haram etmiş, çətinlikləri asanlaşdırmış, problemlərlə uyğunlaşmış və gedib əsaslı nöqtəyə çatmışlar. Əlbəttə, bu uğurlar çox yerdə, bəlkə demək olar ki, əksər yerlərdə sonda onlar üçün faydalı da olmuşdur; maddi fayda, rifah, ad-san, pul və bu kimi amillər gətirmişdir. Lakin əvvəldə onların məqsədi belə şeylər olmamışdır; gedib bir məsələnin və bir işin məğzini öyrənmək istəmişlər. Bunu sizə qəti bir tövsiyə kimi deyirəm.[297]

---

[296] Yenə orada.

[297] Yenə orada.

**Çalışmaq - ABŞ-ın elmdə zirvəyə ucalmasının amili**

Bu gün elmin zirvəsində olanlar həmişə belə olmayıblar. Bu gün elmi baxımdan dünya ölkələrindən və bütün elm mərkəzlərindən irəlidə olan ABŞ yüz il öncə özünün adi silahlarından ötrü İngiltərəyə, Fransaya, İtaliyaya möhtac idi. Tarixi oxuyun, Amerikanın daxili müharibələrində - Amerikanın şimalı ilə cənubu arasındakı bu müharibələr tarixdə məşhurdur; cənublular ayrılmaq istəyirdilər, amma şimallılar vuruşur və onları ayrılmağa qoymurdular. Təxminən 1860-cı ildə, yəni 150 il bundan öncə bu dördillik müharibə baş vermişdir - iki tərəf öz uğurunu bunda görürdü ki, İngiltərədən bir müharibə gəmisi, yaxud top alsın və Sakit okeandan keçirib bu tərəfə çatdıra bilsin. O zaman imkanları yox idi, amma bu gün elmin zirvəsindədirlər; çünki çalışmışlar.

Çalışmağın dinə, imana, küfrə və İslama dəxli yoxdur. Quran bunu deyir. Mən dəfələrlə bu ayəni demiş və oxumuşam: "Onların və bunların hər birinə Rəbbinin nemətindən verərik. Rəbbinin neməti qadağan deyildir"[298]. Biz hamıya kömək edirik. Bu, Allahın qanunudur. Kim hansısa bir məqsəd yolunda çalışsa, Allah-Taalanın qoyduğu qanuna əsasən, nəticəsini görəcək.[299]

---

[298] "İsra"/20.

[299] Simnan vilayəti universitetlərinin müəllim və tələbələri ilə görüşdə çıxışdan: 2006.

## Səkkizinci fəsil: Elmin dəyərləndirilməsində yanlış ənənə

### Elmin dəyərinn azalması

Demirəm ki, uzaq keçmişlərdə hamı alim olmuşdur. Xeyr! Savadsızlıq çox idi, elm az idi, amma elm adamları arasında elmə rəğbət böyük idi, elmi onun özü üçün istəyirdilər. Uzun illər bizim cəmiyyətimizdə bu mədəniyyəti dəyişdirməyə çalışdılar və elm bir vasitəyə çevrildi; elm öyrənmək qarını doldurmaq üçün bir vasitə oldu. Bu, elmin dəyərini azaldır.[300]

### Avropalılar tərəfindən pis elmi ənənənin təbliği

Təəssüf ki, avropalılar bizim ölkəmizdə puldan ötrü elm öyrənməyi ənənəyə çevirdilər. Bu, çox pis ənənədir. Halbuki Avropanın elmi inkişafının yaradıcıları elmi elm üçün öyrəndilər, pul üçün yox. Mən bir neçə il öncə prezident binasında olarkən təsadüfən alim və tədqiqatçılarımızın bir qrupu ilə görüşdüm. Onlara dedim ki, nə üçün bu gün tədqiqatdan, əməli işdən söhbət düşdükdə dərhal deyirlər ki, ağa, bizə pul vermədiniz, laboratoriya vermədiniz, imkan yaratmadınız. Görün dünyanın bu möhtəşəm kəşflərini edənlər belə şərtlər irəli sürürdülər, yoxsa gedib qapıları bağlayıb, öz adi həyatlarından, gəncliklərindən, arvad-uşaqlarından, rahatlıqlarından keçib bu möhtəşəm kəşfləri edə bildilər?! Düzdür, sonra var-dövlət də qazandılar, beynəlxalq mükafat da aldılar, imkanlar da yarandı, lakin bunlar üçün işləmədilər. Biz öz xalqımızda və alimlərimizdə bu ruhu dirçəltməliyik ki, elm üçün işləsinlər və elmsevərlik artsın.[301]

### Qərbdə elmin dəyərləndirilməsi: pula qarşılıq

Bunlar əsasən məişət və maddiyyata önəm verirlər, mənəviyyata, ruha və mənəvi işlərə ən az dəyəri verirlər. Bunlar üçün hər şeyin dəyəri pulla ölçülür. Elə elm yaxşıdır ki, onun pula qarşılıq dəyəri çox olsun; elə

---

300 Müəllim və fəhlələrlə görüşdə çıxışdan: 1992.

301 Elmlər Akademiyasının üzvləri ilə görüşdə çıxışdan: 1993.

sənaye yaxşıdır ki, belə olsun; elə siyasət yaxşıdır ki, belə olsun; elə ticarət yaxşıdır ki, belə olsun. Bu, indi hakim mədəniyyətdir.[302]

**Qərbdə elmin və proqramın pulla ölçülməsi**

Çox yerlərdə elm və proqram var, lakin pulla mübadiləyə qabiliyyətli proqramdır. Bu gün maddi dünyanın eybi budur ki, hər şeyi pula qarşılığı ilə ölçür: Bu kəşfin qiyməti nə qədərdir? Bu iş, bu dərs demək və bu dərs oxumaq nə qədər sərvət amilidir? Biz işinin dəyəri pula qarşılıq edilməyən bir qrup tapsaq, o zaman o iş həqiqi qiymətini tapar və dəyəri yüksələr. Saleh əməl yüksəlir, ucalır, Allah-Taala onu qəbul edir və ardınca bərəkət də gəlir: "Və saleh əməl onu qaldırar"[303].[304]

**Qərblilərə görə elmin dəyəri: pula qarşılıq**

Bu gün qərblilər üçün ən çox əhəmiyyətli olan puldur, İslamda isə belə deyil. İslamda elm mahiyyət etibarilə şərəflidir. Onlara görə isə elm pula çevrilə bildiyi üçün dəyərlidir. Elə elm qiymətlidir ki, onunla dollar, yaxud funt əldə etmək mümkün olsun. Biz onların bu vəziyyətindən istifadə edərik və elmlərini onlardan satın alarıq, xərcini də ödəyərik, lakin heç kəsi yamsılamarıq; bunu etməməliyik. Bu mənim siz gənclərə sözümdür. Düzdür, bu sözləri demək asandır, lakin onlara əməl etmək bu qədər asan deyil. Bizim işimiz buna görə çətindir.[305]

**Müəllimin Qərb mədəniyyətinin görmədiyi digər kimliyi**

Müəllimin şəxsi kimliyindən əlavə, öyrənilə bilən bütün insanlara məxsus bir müəllimlik kimliyi də var. Müəllimin ictimai kimliyi var; dəyəri də onun ictimai müəllimlik kimliyinə görədir. Biz etiraf etməliyik ki, bu məsələ üzərində az işləmiş və əməldə müəllim üçün maddi cəhətdən - yəni dərsin pula çevrilmə qabiliyyətindən başqa bir dəyər tanımayan mədəniyyətə və şəraitə təslim olmuşuq. Maddi sivilizasiyanın mədəniyyəti

---

302 İslam Şurası Məclisinin Rəyasət Heyətinin üzvləri ilə görüşdə çıxışdan: 2000.
303 "Fatir"/10.
304 Korpusun raket layihəsinin işçiləri ilə görüşdə çxışdan: 2000.
305 Həmədan vilayəti universitetlərinin müəllim və tələbələri və həmədanlı gənclərlə görüşdə çxışdan: 2004.

budur: dəyərləndirmə meyarı hər bir şeyin pula çevrilmə qabiliyyətindən ibarətdir. Müəllim də o mədəniyyətdə birbaşa, yaxud dolayısı ilə pul düzəldə bildiyi qədər möhtərəmdir. Biz - İran xalqının elm və mədəniyyət xadimləri bu yanlış ənənəyə təslim olduq; halbuki İslam məntiqində məsələ bunun fövqündə durur.[306]

**Qərblilərin inkişafa dair bölgü meyarı**

Qərblilər uzun illər fərasətli bir təbliğat taktikası işlətmişlər. O da budur ki, dünya ölkələrini inkişaf etmiş, inkişaf etməkdə olan və inkişaf etməmiş ölkələrə bölmüşlər. Bəli, ilk mərhələdə insan elə bilir ki, inkişaf etmiş ölkə texnologiyaya və mütərəqqi elmə malik ölkədir; inkişaf etməyən və inkişaf etməkdə olan da həmin nisbətlə. Halbuki məsələ belə deyil. "İnkişaf etmiş" və onun ardınca gələn "inkişaf etməkdə olan" və "inkişaf etməmiş" sözlərində bir dəyərləndirmə vardır.

Əslində "inkişaf etmiş ölkə" deyəndə məqsədləri bütün xüsusiyyətlərinə - mədəniyyətinə, adət-ənənələrinə, rəftarına və siyasi istiqamətinə malik olan Qərb ölkəsidir; bu inkişaf etmişdir. İnkişaf etməkdə olan ölkə qərbləşmə halında olandır. İnkişaf etməyən ölkə isə qərbləşməyən, yaxud qərbləşmə halında olmayan ölkədir. Belə izah etmək istəyirlər. Əslində bugünkü Qərb mədəniyyətində ölkələrin inkişafa həvəsləndirilməsi onların qərbləşməyə həvəsləndirilməsidir. Buna diqqət yetirməlisiniz.[307]

---

[306] Fars vilayətinin müəllimləri ilə görüşdə çıxışdan: 2008.
[307] Kürdüstan vilayətinin müəllim və tələbələri ilə görüşdə çıxışdan: 2009.

## Doqquzuncu fəsil: Müsəlmanların və İranın elmi inkişafı əleyhinə təbliğat və hərəkət

### Qərbin tədqiqat mərkəzlərində çalışan islamşünaslar

Bunların İslama dair ekspert və mütəfəkkirləri var; oturub araşdırır, müxtəlif xalqlar, düşüncələr, ənənə və məzhəblər barədə qovluqlar hazırlayırlar, özlərinin tədqiqat, mədəniyyət, kəşfiyyat və siyasət mərkəzlərində həmin arxivlənmiş qovluqları yenidən araşdırır və yeni tədqiqat işləri görürlər. Eşidirik ki, İsraildə "İranda İslam və Şiəlik" adlı seminar keçirilir; bu, sözügedən işlərdəndir. Dünyanın bir çox yerlərində Qərb dünyasının, kapitalizm və hegemonizmin vasitəsi ilə seminarlar və tədqiqat məclisləri təşkil olunur, İslama yenidən baxış üçün müxtəlif nəzəriyyələr irəli sürülür.[308]

### Elmin öz daxilimizdən baş qaldırması

Bu gün istismarşılığın, imperializmin, ABŞ-ın və dünyanı qarışdırmış sionistlərin çox həssaslıqla yanaşdıqları məsələlərdən biri, inqilabi quruluşa malik olan ölkələri elmi cəhətdən inkişaf etməyə qoymamaqdır. Onlar bu məsələdə bizim ölkəmizə qarşı daha həssasdırlar. Çünki onların İslama və İslam inqilabına qarşı həssas mövqeləri başqa heç bir inqilaba qarşı olmayıb, yoxdur və olmayacaq.

Bu gün bu ölkədə elmi inkişaf etdirmək iqtidarında olanlar daha artıq məsuliyyət hiss etməlidirlər. Çünki düşmən bizi öz ayağımız üstə durmağa qoymur. Öz ayağı üstə durmaq o zaman baş verər ki, elm bizim içimizdən çağlasın və biz dilənçi kimi düşmənlərimizə əl açmayaq. Yüksək istedad sahibləri, istedadlı şagirdlər və ölkənin gələcəyi üçün faydalı ola bilən hər kəs böyük məsuliyyət hiss etməli, həm də çox sevinməlidir ki, düşmənlərin istəyinin əksinə olaraq, ölkə və xalqları üçün faydalı və təsirli ola bilərlər.[309]

### Beyinləri oğurlamaq - xalqların dərdi

---

[308] Qum Elm Hövzəsinin müəllim və tələbələrinin nümayəndələri ilə görüşdə çıxışdan: 1989.

[309] Universitet mənsubları və elmi hövzə tələbələri ilə görüşdə çxışdan: 1989.

Bu gün təəssüf ki, bir çox xalqlar öz istedadlarından istifadə edə bilmirlər, azsaylı təhsillilərini də supergüclərin pulu özlərinə cəlb edir. Bir gənc ölkəsində dərs oxuyub elmi dərəcələr alır, elmindən istifadə zamanı çatdıqda isə düşmənlər onu götürüb aparır və öz xalqından uzaqlaşdırırlar. Bu, beyinlərin qaçışı, daha doğrusu, beyinlərin oğurlanmasıdır. Bu da xalqların dərdlərindəndir.[310]

**İnqilabın elmi fəaliyyətləri əleyhinə mənfi təbliğat**

Bu gün düşmənin işlərindən biri inqilab və İslam cəbhəsini elmdən, ixtisasdan və istedaddan uzaq bir cəbhə kimi göstərməkdir. Bu mənim təkid göstərdiyim mədəni-ideoloji hücumun şaxələrindən biridir. Bu, mədəniyyət vasitələri ilə edilən bir hücumdur. Hamıya belə göstərmək istəyirlər, həqiqət isə bunun tam əksinədir. Ölkəmizdə inqilabdan sonrakı sənaye və texnologiya inkişafının bəlkə də demək olar ki, böyük əksəriyyəti möminlərə, cəbhə uşaqlarına, əksərən müharibədə xidmət göstərmiş, işləmiş hizbullahçılara aiddir. Ya birbaşa onlara aiddir, ya da bir vasitə ilə. Məndə son zamanlar haqda dəqiq statistika yoxdur. Yadımda olan 3-4 il öncəki statistikalardır. İnqilabdan sonrakı elmi inkişaf və ixtiraların siyahısını görmüşdüm. Bu mənim üçün təxminən qəti bir şeydir.

Hizbullahçı uşaqların məşğul olduğu hər bir işdə digərlərindən yaxşı hərəkət etdiklərini görürük. Düzdür, bəzi sahələrə girişmirlər, amma məşğul olduqları hər bir işdə qeyrilərindən yaxşı işlədiklərini görürük. Elmi işdə və tədqiqatda da belədir.[311]

**Qərbin və müsəlmanların elmi rəftarlarının müqayisəsi**

Bu gün dünyanın elm mərkəzləri həqiqətən elmi baxımdan geriqalmış ölkələrlə məşğul olmur, hətta onlara öyrətmək üçün də sərmayə qoymurlar. ABŞ və Avropada elm inkişaf etmişdir, lakin onu yalnız özləri üçün istəyirlər. Mən qədimdə zadəganların öz övladları və yaxınları üçün açdıqları məktəbləri belə təsəvvür edirəm. Bəzən aşpaz övladı olmuş Mirzə

---

[310] Həzrət Mehdinin (ə) doğum günündə Qum əhalisinin böyük toplantısında çıxışdan: 1992.

[311] Korpusun Hərbi Hava Qüvvələrinin komandirləri ilə görüşdə çıxışdan: 1993.

Tağıxan kimisi də istedadlı olub qapının arxasından nəsə eşidə bilərdi. Lakin onlarda bu alicənablıq yox idi ki, onun da istedadı olduğunu görüb içəriyə alsınlar və oxumasına icazə versinlər.

Bu gün üçüncü dünya ölkələri ilə belə rəftar olunur. Əgər bir şey öyrənmişlərsə, özləri öyrənmişlər. Parlaq bir istedadı kəşf etdikdə isə onu ovlamağa çalışırlar, orada sərmayə qoyurlar, amma yenə də özləri üçün edirlər. Lakin müsəlmanlar bir zaman elmi səxavətlə dünyanın cəhalət dolu yerlərinə aparıb elm öyrənmək kimi onu öyrətməyi də vacib əməl bilir və elmin zəkatının digərlərinə öyrətməkdən ibarət olduğunu düşünürdülər. Bugünkü dar düşüncəli elm sahiblərində isə bu marağı görmürük.[312]

**Qərbin vasitəsi ilə beyinlərin oğurlanması**

Bundan pisi odur ki, onlar dünyanın digər bölgələrinin istedadlı beyinlərini oğurlayıb aparırlar. Avropalıların beyin oğurluğu məsələsi üçüncü dünya ölkələrinin uzun illərdir düçar olduğu bəlalardan biridir. Çoxlu ziyalı və yazıçılar bu məsələyə dair mətləblər yazmış, etirazlar etmiş, danışmışlar. Həmin etirazlar bu gün də davam edir. Onlar haradasa parlaq bir beynin olduğunu anlasalar, imkan yaratmaqla, pulla, müxtəlif yol və həvəsləndirmələrlə onu öz xalqının əlindən almağa, aparıb özləri üçün işlətməyə və istifadə etməyə çalışırlar. Bu gün beyin oğurluğu dünyada mövcud olan adi bir işdir.[313]

**Texnoloji inkişafların müqəddəs müdafiənin faydalarından olması**

Düşmən təbliğat aparır ki, bunlar atom bombası düzəldirlər. Özü və hamı bu iddianın yalan olduğunu bilir. Düşmən bizim inkişafımıza inanmaq istəmir. Bizim səkkizillik müdafiəmizin faydalarından biri həmin elmi və texnoloji inkişaflar və ən dəqiq texnikaların istehsalıdır. Biz onlara boş əllə, heç bir keçmişə malik olmadan nail olduq və indi İran xalqının

---

[312] Elmlər Akademiyasının üzvləri ilə görüşdə çıxışdan: 1993.

[313] Kuhgiluyə və Buyer Əhməd vilayətinin universitet mənsubları və mədəniyyət işçilərilə görüşdə çıxışdan: 1994.

sərvətlərindən sayılırlar. Bu toplum dəyərlidir, İslam və müsəlmanlar üçün qorunmalıdır.[314]

**Qərbin İrandakı yeni texnologiyaya qarşı mübarizəsi**

Gördünüz ki, atom stansiyası və atom kürəsi məsələsində dünyada necə qalmaqal yaratdılar. Dedilər ki, İran atom bombası düzəltmək istəyir. Bilirlər ki, belə deyil. Onlar bizim atom sənayesinə sahib olmamızı istəmirlər. Onlar bu xalqda yeni texnologiya və yeni üsulların olmasını istəmirlər. Çünki belə istedadlı bir xalq yeni elm və texnologiyaya yiyələnsə, daha heç vaxt onunla qarşı-qarşıya gələ bilməzlər.

Hegemonizm istəyir ki, ölkə daxilində tənbəllik və işsizlik olsun, xalqın iqtisadi, ictimai və mədəni işlərdə quruculuğu, yeniliyi və islahatı dayansın. Hegemonizm istəyir ki, ölkədə elm inkişaf etməsin, tədqiqat olmasın, dərs olmasın.[315]

**Elm və mənəviyyatın inkişafı - qərblilərin ittihamlarının səbəbkarı**

Biz İslam mədəniyyətində və o mədəniyyətə sarı hərəkət edən müqəddəs İslam Respublikası quruluşunda bunu məqsəd seçmişik ki, elmi mənəviyyatla yanaşı inkişaf etdirək. Qərb dünyasının bizim mənəviyyata bağlılığımıza həssaslığı, dindarlığımıza təəssübkeşlik və fanatiklik adı qoyması, əxlaqi və insani əsaslara sevgimizi insan hüquqlarına qarşı çıxmaq adlandırması ona görədir ki, bu onların üsulunun ziddinədir. Onlar elmi inkişaf etdirdilər - sözsüz ki, bu, mühüm və böyük iş idi - lakin əxlaq və mənəviyyatdan ayrı düşdülər. Ona görə də olanlar oldu. Biz istəyirik ki, elm əxlaqla birgə inkişaf etsin, universitet elm mərkəzi olduğu kimi, din və mənəviyyat mərkəzi də olsun, universtet məzunları elmi hövzə məzunları kimi dindar olsunlar. Bu, onların bəyənmədiyi və istəmədiyi məsələdir.[316]

**Atom bombası qalmaqalının səbəbi**

---

[314] İslam İnqilabının Keşikçiləri Korpusunun komandirləri və məsul şəxsləri ilə görüşdə çıxışdan: 1995.

[315] Beynəlxalq Hegemonluqla Mübarizə Günü münasibəti ilə çıxışdan: 1996.

[316] Feldşerlərlə görüşdə çıxışdan: 1997.

Bəli, bizim uşaqlarımız, gənclərimiz, alimlərimiz işləməli, bizi elmi zirvəyə çatdırmalıdırlar və biz bununla ölkəni təbliğat, müasir texnika və hərbi imkanlar baxımından təchiz etməliyik. İndi onların atom stansiyasına dair yaratdıqları bütün qalmaqal buna mane olmağa hesablanıb.[317]

### Universitetləri elmi inkişafdan saxlamaq üçün düşmənin fəaliyyətləri

Düşmənin bu xəbis hərəkətləri təəssüf ki, ölkə universitetləri daxilində faciələrə səbəb oldu və universitetdən sonra bayıra da sirayət etdi. Mən bunların arxasında ölkənin elm və tədqiqatının inkişafına qarşı xəbis məqsədlər müşahidə edirəm. Onlar bizim universitetlərimizin elm və dərs ocağı olmasını, sizlərin alim olmanızı və ölkənin gələcəyini alimcəsinə idarə etmənizi istəmirlər. Onlar İslam quruluşunun universitetlərin elmi inkişafını, ali təhsilin kəmiyyət və ketfiyyət baxımından tərəqqisini - bu gün Allaha şükür olsun ki, bu mövcuddur - qorumasına mane olmaq istəyirlər.[318]

### İslamı və İslam Respublikasını araşdırmaq üçün beynəlxalq elmi seminarlar

Biz bu gün təxminən bu beynəlxalq diqqətin mərkəzindəyik. Belə demək olar ki, İslam və özəlliklə İslam Respublikası bu diqqətin mərkəzindədir. Bəlkə də eşidirsiniz, yaxud xəbəriniz var ki, dünyanın müxtəlif yerlərində, xüsusən də İslamla və İslam Respublikası ilə dost münasibəti olmayan ölkələrdə bu fenomeni araşdırmaq üçün müxtəlif təmayüllərdə beynəlxalq elmi-ixtisas seminarları keçirilir. Bu, məsələnin əhəmiyyətini göstərir.[319]

### Gənclərin elmi fəaliyyətinin qarşısını almaq üçün düşmənin planları

---

[317] Dini Ekspertlər Məclisinin üzvləri ilə görüşdə çıxışdan: 1998.
[318] Təbriz Universitetinin tələbələri və məsul işçiləri ilə görüşdə çıxışdan: 1999.
[319] Fiqhin ali-ixtisas (xaric) dərsinin əvvəlindəki söhbətlərdən: 1999.

İslamın və bu ölkənin düşmənləri həmişə gənc nəslin elmi fəaliyyətdə imanla yanaşı hərəkət edib bir yerə çatmalarına və öz ölkələrini inkişaf etdirmələrinə mane olmaq istəyirdilər. Onlar həmişə gənc nəslin qarşısında bataqlıq və uçurum yaratmaq istəyirdilər. Əlbəttə, instinktiv təmayül də mövcuddur. Bəzən qocalar da bəzi vəsvəsələr qarşısında yuvarlanırlar, hələ gənc bir yana qalsın.

Həmişə belə şeylər olub. Buna görə inqilabdan öncə, sonra və inqilabın əvvəllərində İslama, inqilaba və İslam quruluşuna müxalif olan bütün qruplar universitet üzərində mərkəzləşdilər. Onlar universiteti tutmaq, gəncləri bir tərəfə çəkmək, İslam inqilabını, İslam quruluşunu, İslamın bu möhtəşəm və gözəl hərəkətini gənc, alim, elmi gələcəyə malik və düşüncə əhli olan tərəfdarlarından məhrum etmək istəyirdilər. Buna görə universitetdə çoxlu işlər gördülər. Düzdür, yəqin ki, sizin çoxlarınızın yadında deyil, lakin mənim üçün dünən kimidir. O zaman da mömin, yaxşı, prinsipial və aktiv tələbə təbəqəsi aldanmışların qarşısında ən mühüm rolu ifa etdilər. Müxtəlif qruplaşmalar Tehran Universitetinin qərbindəki xiyabanda hər addımbaşı bir tablo vurmuş, müxtəlif adlarla qərargahlar düzəltmişdilər. Universitetin daxilində də müxtəlif kafedraların müəyyən otaqlarını özlərinə ayırmışdılar. Əvvəlcə oranı öz siyasi mübahisələrinə və partiya işlərinə mərkəz etmiş, sonra isə silah anbarına çevirmişdilər.[320]

**Düşmənin universitetlərin inkişafına mane olması**

Universitetin başını necə qatsınlar ki, tələbə və müəllimi bu yoldan saxlasınlar? Əmin olun ki, bu gün kəşfiyyat orqanlarının diqqət mərkəzində olan məsələlərdən biri ayıq tələbəni və İranın elmli universitetini ölkənin tərəqqisi ilə nəticələnəcək yoldan saxlamaq, ona mane olmaqdır.[321]

**Düşmənin universitetlərin elmi hərəkətinə əngəl törətməsi**

---

[320] Tələbələrlə görüşdə çıxışdan: 2000.

[321] Əmir Kəbir adına Sənaye Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışdan: 2001.

Nə zaman ölkədə qurucu bir hərəkət yaranırsa, düşmən qarşı tərəfdən İslam Respublikasının bu hərəkətləri yerinə yetirə bilməməsi üçün təhriklərə başlayır. İndi bir müddətdir elmə, tədqiqata və onun əhəmiyyətinə dair ciddi sözlər deyilir. Mənimlə görüşlərdə dəfələrlə universitet məsələlərinə dair söhbət edən müəllimlər, tələbələr, elm mərkəzlərinin və universitetlərin rəhbərləri elmin əhəmiyyətindən danışır, bizim elm, tədqiqat və araşdırma işlərimizdəki geriliklərimizdən gileylənir və şikayət edirlər. Mən də məmurlara dəfələrlə tövsiyələr etmişəm. Onlar yaxşı qərarlar qəbul edib və bəzi işlər görmüşlər.

Buna əsasən, elm və tədqiqat bazarını rövnəqləndirməyə, alim yetişdirməyə, universitetlərdə və elm mərkəzlərində zehinləri tərbiyə etməyə sarı hərəkət bir müddətdir keçmişdəkindən daha ciddi şəkildə başlanmışdır. Amma siz bir də görürsünüz ki, universitetdə nəinki təkcə elm və tədqiqatın, hətta onun özünün və adi gedişin də təhlükəyə düşüb dayanması və tətil edilməsi üçün bir bəhanə tapılır. Bu kimin işidir? Bu, düşmən işi deyil?! Gənclərin elm, tədqiqat və düşüncə işləri ilə məşğul olmalarına son dərəcə ehtiyac olduğu, quruluşun da bu iş üçün proqram hazırladığı, onunla keçmişdəkindən daha ciddi şəkildə məşğul olduğu və bunun hamı tərəfindən təbii bir ehtiyac kimi duyulduğu bir zamanda qəfildən bir dəstə peyda olub universiteti, tələbəni, müəllimi və tədqiqatçını adi işindən çəkindirməyə, yaxud işə əngəl törətməyə çalışır.[322]

**İranda yerli nüvə elminə qarşı düşmənliyin səbəbi**

Görürsünüz ki, İranda nüvə məsələlərinə dair necə ajiotaj yaratmışlar. Deyirlər ki, İran nüvə silahı düzəltmək üçün nüvə elmi ilə məşğul olur. Birinci hissəni yalan deyirlər, nüvə elmi ilə məşğul olmaq isə doğrudur və onların narahatlığına bais olur. İran xalqı kimi hansı xalq digərlərinin köməyi olmadan çox mütərəqqi və mürəkkəb bir texnologiyanı əldə edə bilmişdir?! Onlar bu həqiqəti bilirlər və bu onların qəzəblənməsinə səbəb olur. Əslində İran xalqının çox mürəkkəb və yüksək səviyyəli bir texnologiyaya nail olmasına görə narahatdırlar. Amma bu narahatlıq onların İran xalqının sözügedən texnologiyanı özünün

[322] Tehranın cümə namazı xütbələrindən: 2002.

yaratdığını və onu heç kəsdən borc götürmədiyini anladıqlarına görə daha da artmışdır. Biz bu nüvə sənayesini ölkəmizdə hansısa əcnəbi ölkənin mühəndis və mütəxəssisləri vasitəsi ilə əldə etsəydik, bu qədər qəzəblənməzdilər. Ancaq bilirlər ki, iranlı gənc, iranlı tədqiqatçı və alim öz beyninin və düşüncəsinin köməyi ilə bu çətin yolu keçə bilmişdir. Onlar bundan ötrü narahat olmuşlar. Həm də bilirlər ki, bu daha mübarizə aparılası deyil. Nə iş görə bilərlər?

Onlar yerli bir elmlə üz-üzə qalmışlar. Bir ölkədə yerli elmlə mübarizə aparmaq və onu məhv etmək olmaz. Çünki o, xalqa məxsusdur, xalqın içindən gəlmişdir. Bunu bilirlər və buna görə qəzəblənmişlər. Odur ki, tapdıqları yeganə yol ajiotaj yaratmaq və İranın atom bombası düzəltmək istədiyini deməkdir. Özləri də bilirlər ki, bu söz yalandır, biz nüvə silahı düzəltmək istəmirik, amma eyni zamanda İran xalqının fəxri olan və onun istehsal etdiyi nüvə texnologiyasına görə narahatdırlar və dünyada təbliğat qalmaqalı yaradırlar.[323]

**Düşmənin ölkədə elmi inkişafa müxalif olması**

Biz müxtəlif sahələrdə inkişaf edə bilmişik. Əlbəttə, İslam Respublikasının müxalifləri - İslam Respublikasının özünü qəbul etməyən və xoşlamayan şəxslər ölkəmizdə elmin inkişafına sərt müxalifdirlər. Çünki bunun İslam Respublikasının qüdrət amillərindən biri olduğunu bilirlər.[324]

**Nüvə texnologiyasını dayandırmaq tələbi**

Sözsüz ki, bizim məqsədimiz bu texnologiyadan dinc istifadədir. Bundan bir neçə il öncə kimyəvi silahların qadağan olunmasına dair konvensiyaya qoşulmaq məsələsi müzakirə olunanda mən ölkə məmurlarına öz fikrimi dedim. Mənim fiqhi nəzərimcə, kütləvi qırğın silahlarının istifadəsi qadağandır. Biz fiqhdə ümumiyyətlə, bu məsələyə qarşı çıxır və bunu haram bilirik. Buna əsasən, biz kütləvi qırğın silahlarının və atom silahının tərəfdarı deyilik, onları əldə etməyə

---

[323] Pişva və Vəramin şəhərlərinin şəhid ailələri ilə görüşdə çıxışdan: 2003.
[324] Xarici İşlər Naziri, səfirlər və nazirliyin əməkdaşları ilə görüşdə çxışdan: 2003.

çalışmırıq da. Lakin bu texnologiyanı əldən vermək istəmirik. Bu texnologiya çox mühüm faktordur, xalqımızın haqqı və nailiyyətidir. Amerikalılar açıq şəkildə dedilər, bəzi avropalılar da söylədilər ki, İran nüvə yanacağının istehsalını dayandırsın. Xeyr! Bu, yersiz, haqsız, zülmkar bir istəkdir və biz heç vaxt buna boyun əyməyəcəyik.[325]

**Qərb dünyasının İranın elmi inkişafından ötrü narahatlığı və qorxusu**

Elm, tədqiqat və texnologiya baxımından inkişaf etmişik və böyük işlər görülmüşdür. Bunlar bu gün dünyanı narahat edən və qorxudan məsələlərdir. Əlbəttə, onlar özləri də bilirlər ki, bizim nüvə silahımız yoxdur. Onlar nüvə silahına görə narahat deyillər, nüvə elminə görə narahatdırlar. Bilirlər ki, bu bizdə var. Yalnız bu nümunəni qeyd edirlər, amma təkcə bu deyil, bizim digər elm və tədqiqat uğurlarımız da var. Bizim gənc, dinamik və aktiv beyinlərimiz işləyirlər. Onlar bu inkişafları dərk etdiklərinə görə narahatdırlar və qorxurlar.

Avropa 200 il öncədən özünün elmi ağalığını əbədilik qorumaq qərarına gəlmişdir. Ancaq dünyanın bir nöqtəsində bir ölkə elmi inkişaf yoluna qədəm qoyur. Özü də elə bir ölkə ki, zülmün, hegemonizmin və Qərbin ümumi siyasətinin - yəni dünyanın hegemon və zəif saxlanana, zalım və məzluma, istismarçı və istismar olunana bölünməsi əleyhinə bayraq qaldırmışdır. Bu, dünyanı qorxudur.[326]

**Elmi güclərin elmin birtərəfli istehsalına çalışması**

Biz öz növbəmizdə düşünürük ki, ölkənin ən çox kapital qoyuluşu elmi inkişaf sahəsi üçün olmalıdır. Mən dedim ki, universitetlər və ölkənin elm mərkəzləri elm istehsalına çalışmalıdırlar və ölkədə sözün əsl mənasında Proqramlaşdırma hərəkatı yaranmalıdır. Çünki hələlik elmi baxımdan güclü olan tərəf indiki vəziyyətin əsla öz zərərinə bitməsinə razı olmur, öz ziyanına olacağını bilir. Buna görə də mövcud vəziyyəti saxlamaq istəyir; yəni o istehsal edib istədiyi qədər başqalarına versin,

---

[325] Yenə orada.
[326] Ölkənin cümə imamları ilə görüşdə çıxışdan: 2003.

digərləri də tərcümə edib onun elmi məhsulundan bəhrələnsinlər; istehsalat, elm istehsalı və tədqiqat sahəsində isə heç bir fəaliyyətləri olmasın.

Onlar bununla xalqları asılı saxlamaq istəyirlər. Buna görə görürsünüz ki, bizim elmi inkişaflarımıza əsəbiləşirlər. Bu gün olduqca çox yaxşı və dəyərli işlər görülmüş nüvə enerjisinə dair sözləri budur ki, İranda nüvə silahı olmasın. Lakin əsas məsələ başqa şeydir. Onlar istəyirlər ki, İranda nüvə elmi və nüvə texnologiyası olmasın. Onlar deyirlər siz nüvə enerjisi istəyirsinizsə, biz sizin üçün stansiya tikər, yanacağını da satarıq və özünüzün stansiya qurub yanacaq istehsal etməyinizə ehtiyac qalmaz. İndi əsas problem budur. Onlar bu elmin burada inkişaf etməsini istəmirlər. Bizim məmurlarımız onlara nə qədər "biz nüvə silahı əldə etmək istəmirik" deyirlərsə də, onlar öz mövqe və sözləri üzərində təkidlə dayanırlar.[327]

**Qərbin İranda tədqiqat inkişafına qəzəblənməsi**

Kök hüceyrələrin istehsalı və çoxaldılması barədə tədqiqat aparılmışdır. Bu gün həmin işlə məşğul olan tədqiqatçı qardaşların biri bu məclisdə iştirak edir. Bu mövzuda çox yüksək elmi toplantı təşkil olundu, müxtəlif ölkələrdən insanlar dəvət edildilər və hamı İranın bu sahədəki nailiyyətlərini təsdiqləyib təriflədi. Bu yaxınlarda bu barədə mənə verilən bir məlumatda yazılmışdı ki, bəziləri bundan ötrü çox qəzəblənmiş və narahatlıq hissi keçirmişlər. Onlar İranın çox inkişaf etmiş bu yüksək elmə nail olmasından narahat olmuşlar.[328]

**ABŞ-la bugünkü mübarizənin növü**

Bu gün ABŞ-la mübarizə bu sahələrdədir. ABŞ-la mübarizə elm sahəsinə də aiddir. Orada da elmi inkişafımıza görə narahatdırlar; bizim xalqımızın elmi, iqtisadi inkişaflarına, hökumətin xalqa xidmət göstərə və xalqın problemlərini həll edə bilməsinə görə narahat olurlar. Kim elmi geriliyə kömək etsə, ABŞ-ın xeyrinə işləmişdir.[329]

---

[327] Elmi nümunə tələbələrlə görüşdə çıxışdan: 2003.
[328] Yenə orada.
[329] Tehranın cümə namazı xütbələrindən: 2003.

**Qərblilər: "Biz müsəlman Yaponiyasının yaranmasını istəmirik!"**

Bu gün universitetlərimiz elmi işlər görür, gənclərimiz elmi cəhətdən inkişaf edirlər. Bizim elmi inkişaflarımız bəzi sahələrdə dünyanı narahat etmişdir. Bu, inqilabın sayəsində baş verdi. Onlar İran xalqının elmi cəhətdən inkişaf etməsini istəmir, bunu açıq şəkildə söyləyirlər. Bir ölkənin elmi və iqtisadi inkişafı olmayınca həmişə güclülər ona hegemonluq edərlər. İstismar və işğal altında olan Yaponiya özünü toparlayıb elmi cəhətdən inkişaf etdi. Qərblilər əsla istəmirlər ki, Şərq regionuna, qeyri-Avropa irqinə diqqət yetirsinlər, ancaq elmi inkişafına görə onu ciddi saymağa məcburdurlar. ABŞ-ın bəzi siyasi, yaxud siyasi-elmi mərkəzlərində demişlər ki, biz müsəlman Yaponiyasının yaranmasını istəmirik. Müsəlman Yaponiya - yəni siz. Demişlər biz imkan verməri ki, İran xalqı özü elmi nailiyyətlər qazansın. Bunlar İran xalqının hərəkətini, bu özünəinamı görürlər. Bu da inqilabın və İslam quruluşunun səmərələrindəndir.[330]

**İranda yerli elmin inkişafı - hegemonizmi və Qərbin hökmranlığını məhv edən amil**

Onların təşvişə düşmələri bundan ötrüdür ki, bu elmin ölkə daxilində yaranıb inkişaf etdiyini və yerli olduğunu görüb narahatlıq hissi keçirirlər. Əlbəttə, bu o demək deyil ki, həmin aparatı biz ixtira etmişik. Xeyr! Bu o deməkdir ki, biz bunu öyrənmək üçün onların qapısına getməmişik. Öz gənc alimlərimiz, sizin kimi cavanlar, yüzlərlə mütəfəkkir və aydın beyin bu mürəkkəb aparatı işlədib nəticə göstərmiş, elmi özləri inkişaf etdirmiş, texnologiya əldə etmiş, onun-bunun qapısına getməmişlər. Bu, onların narahat olmasının bir səbəbidir. Niyə? Çünki bu, onların müstəmləkəçi fəlsəfələrinin tam ziddinədir. Onlara görə, müstəmləkə altında saxlamaq istədikləri ölkələr elm və texnologiya əldə etməməlidirlər, bu sahədə müstəqil olmayıb, başqalarına əl açmalı, möhtac olmalıdırlar.

---

[330] Tehranın cümə namazı xütbələrindən: 2004.

Onlar bilirlər ki, bu gün İran və onun xalqı bu texnologiyanın zirvəsində dura bilsə, onun İslam ümmətinin müstəqilliyi və müsəlman iqtidarı haqqındakı sözləri də müsəlmanlar arasında və İslam cəmiyyətlərində özünə daha artıq yer açacaq, daha tez qəbul ediləcək. Buna görə narahatdırlar və ajiotaj yaradırlar. Buna əsasən, həqiqət onların dediklərinin əksinədir.

Bu gün bizim milli borcumuz budur ki, bizi elmin zirvələrinə yaxınlaşdıran bu texnologiyanı və oxşar texnologiyaları əldə edək. Bu məsələni təqib etmək bu gün bizim xalqımıza və bunu bacaran bütün insanlara vacibdir. Onların vəzifəsi budur ki, xalqı ucaldıb asılılıqdan xilas etsinlər.[331]

**Düşmənlərin məqsədyönlü blokadasına rəğmən, ölkənin həssas inkişafları**

Dünyanın hakim gücləri o zaman anlayırdılar ki, İslam Respublikası quruluşu onların istismarçı maraqları üçün təhdiddir. Bunu dərk edirdilər və buna görə əvvəldən ona qarşı çıxdılar. Amma bu təhdid İranın özünə görə yox, İslam Respublikasının yeni sözünə görə idi. İslam dünyasında və beynəlxalq siyasətdə İslam Repsublikasının yeni söz və ideyaları cəlbedicidir və onların çoxlu düşüncə əsaslarını vurur.

Onlar bunu bilir, lakin özlərinə təsəlli verirdilər ki, İslam Respublikası qala bilməyəcək. Çünki elm və texnologiyanın birinci sözü dediyi və sərvətin də bu yolla əldə olunduğu bir dünyada uyğun imkanı olmayan və blokadada olan bir ölkə öz-özünə məhv olacaq. Daim özlərinə təsəlli verirdilər. Həm iqtisadi, həm elmi, həm texnoloji blokadaya saldılar, həm müharibə başlatdılar, həm müharibədə bizim düşmənimizə bacardıqları dəstəyi verdilər. Amma indi görürlər ki, 25 il ötdükdən sonra İslam Respublikası uçqunlar altından baş qaldırıb, öz ayağı üstə dayanır, özünə arxalanır, ümidli, gələcəyə nikbindir, elm və texnologiya sahəsində də inkişaf etmişdir. Bunlar həqiqətdir. Bu həqiqətləri anlayır və bilirlər ki,

---

[331] Universitet cihadının ekspertləri və Elmi Şura üzvləri ilə görüşdə çıxışdan: 2004.

çox mühüm və həssas olan bəzi sahələrdə dünyada birinci yerləri tutmuşlar.[332]

**ABŞ-ın qəzəblənməsi atom silahına görə deyil, inkişaf etmiş İrana görədir!**

Kim güman edərdi ki, gənclərin ixtira yarışmasında İran dünyada birinci olsun?! Bizim gənclərimiz gedib ixtiralarını təqdim etdilər. Siz görürsünüz ki, biz riyaziyyat, fizika, kimya, kompüter və digər elmlər üzrə olimpiadalarda dünyada yer tuturuq. Bu o deməkdir ki, bizim bu gücümüz var. Biz nüvə texnologiyasında öz düşmənimizi şahmatçıların sözü ilə desək, mat etdik. Sonrakı ajiotaj və qəzəblər bundan ötrüdür. Mən dedim ki, ABŞ-ın problemi İranın atom silahı deyil, inkişaf etməsidir. Deməli, elmi inkişaf çox əsaslı və mühüm məsələdir. Elmi inkişafın da dərs oxumağa və tədqiqata ehtiyacı var.[333]

**ABŞ-ın İslam Respublikasına qarşı çıxmasının səbəbi**

Hegemon ABŞ quruluşunun və hər bir hegemon supergücün İslam quruluşu ilə düşmənliyi ona görədir ki, İslamın adı və uca təlimləri ilə bir ölkənin elmi və əməli inkişafa sarı hərəkət etdiyini görür və bunun onların nüfuzunun qarşısını alacağını bilirlər. Onlar öz qüdrət dairələrindən xaric olan hər hansı bir ölkənin elmi inkişafa nail olmasına dözmürlər, elm və inkişaf sahəsində onlarla rəqabətə doğru gedən hər bir ölkəyə müxalifdirlər. Onlar dünyanın müxtəlif bölgələrində öz maraqlarını güdürlər.[334]

**Bizim elmi hərəkətimizə sərt reaksiyalar**

Bizim elmi hərəkətimiz islami, dini, əqli, etiqadi və mədəni bir hərəkət olsa da, gözləmək olmaz ki, bu gün dünyanı idarə edən siyasətçilər təşvişə düşməsinlər və reaksiya göstərməsinlər. Xeyr! Reaksiya da

[332] Tehranın cümə namazı xütbələrindən: 2004.
[333] Vəhdəti Gücləndirmə Şöbəsinin üzvləri ilə görüşdə çıxışdan: 2005.
[334] Rəfsəncan əhalisinin böyük toplantısında çıxşdan: 2005.

mümkündür. Necə ki, bu gün bu hərəkətin mərkəzi və əsası olan İrana və inqilaba sərt reaksiyalar verirlər və siyasi rəftarları çox kobuddur.[335]

**Ölkə hərəkətinin yüksələn inkişafı və ABŞ-ın düşmənliyi**

Quruluşun əsas əngəl törətdiyi şəxslər öz xeyirlərini nədə görürlər? İranda İslam Respublikasının ayaqda olduğu təqdirdə ABŞ öz xeyrini nədə görür? O öz xeyrini ixtilaf yaratmaqda, bu gün sizin xalqda müşahidə etdiyiniz birliyi məhv etməkdə və ölkənin elmi hərəkətini dayandırmaqda görür. Çünki elmi inkişaf hər bir ölkənin iqtisadi, siyasi, hərbi və psixoloji inkişafına səbəb olur. Biz illərdir bu hərəkətə başlamışıq, yaxşı inkişaf etmişik və hərəkət məqbul inkişafla və yüksək artımla davam edir; baxmayaraq ki, onların ürəyi bu hərəkətin dayanmasını istəyir. Çünki onların məsləhəti xidmət dalğasını dayandırmaqdadır.[336]

**İslam ölkələrinin elmi və texnoloji inkişafına maneə**

Siz görürsünüz ki, İslam dünyasının düşmənləri İranın nüvə enerjisi məsələsində nə qədər təzyiq göstərirlər. Onlar bilirlər ki, biz atom bombası düzəltmək istəmirik. Onlar bir İslam ölkəsində elmin, texnologiyanın inkişafına görə narahatdırlar. Həm də bu ölkə ABŞ-ın sayasətlərinə təslim olmadığını, ondan qorxmadığını göstərmişdir. Onlar bu müsəlman ölkəsinin dünyanın ən mühüm müasir texnologiyası olan nüvə texnologiyasına malik olmasını istəmirdilər. Onlar buna görə təzyiq göstərirlər. Amma sözsüz ki, biz öz qərarımızı vermişik.[337]

**Müstəmləkə səbəbindən müsəlmanların elmi geriliyi**

Miladi tarixi ilə 19 və 20-ci əsrlərdə müstəmləkəyə və düşmənlərin hökmranlığına düçar olan biz müsəlman xalqlar elm karvanından geri qaldıq, düşmənlərimiz gücləndilər, biz isə günbəgün zəiflədik. Onlar bizim qanımızı sorub gücləndilər, biz isə qan itirib zəiflədik. Vəziyyət elə bir həddə çatdı ki, İslam ümmətinin, xüsusən də Orta Şərq regionunda

---

[335] Beynəlxalq İslam Elmləri Mərkəzinin qonaqları ilə görüşdə çıxışdan: 2005.
[336] Ölkə valiləri ilə görüşdə çıxışdan: 2006.
[337] İslam Birliyi Konfransının iştirakçıları ilə görüşdə çıxışdan: 2006.

müsəlman xalqların taleyi zalım və insafsız hakimlərin əlinə keçdi; bir dövrdə İngiltərənin əlinə keçdi, sonra da o öz mirasını müasir böyük şeytana, yəni Amerika Birləşmiş Ştatları rejiminə təhvil verdi. Hər halda, İslam dünyasının zəifliyindən istifadə etdilər.[338]

**Hegemonizmin İran əleyhinə üç mübarizə sahəsi**

Mən qlobal hegemonizmin İran xalqı əleyhinə proqramlarını üç cümlədə xülasə edirəm: birincisi psixoloji, ikincisi iqtisadi muharibə, üçüncüsü isə elmi inkişafla mubarizədir. Hegemonizmin bizim xalqımızla düşmənliyi bu üç əsas sahədə xülasə olunur.[339]

**Qərbin ölkənin elmi inkişafına qarşı mübarizəsinə bir nümunə**

Elmi inkişafa qarşı mübarizə haqda mühüm bir nümunə nüvə enerjisidir. Siyasi və digər danışıqlarda deyirlər ki, Qərb dövlətləri İranda nüvə imkanının olmasına razı deyillər. Yaxşı, razı olmasınlar. Məgər biz nüvə imkanı əldə etmək üçün kimdənsə icazə istədik?! Məgər İran xalqı digərlərinin icazəsi ilə bu işə başlayıb ki, razı olmadıqlarını desinlər?! Siz razı olmayın, İran xalqı isə razıdır və bu enerjiyə malik olmaq istəyir.

Mən ötən il novruz günü (martın 21-də) burada dedim ki, nüvə enerjisi ölkəmiz üçün zəruri məsələ və uzunmüddətli bir ehtiyacdır. Əgər bu gün ölkə məmurları nüvə enerjisini əldə etməkdə səhlənkarlıq etsələr, sonrak nəsillər onları qınayacaqlar. İran xalqının və İran ölkəsinin nüvə enerjisinə və bu imkana silah üçün yox, həyat üçün ehtiyacı var.[340]

**Düşmənin ölkə əleyhinə hücumlarının mühüm hədəflərindən biri: müəllimlər**

Mən bu ilin əvvəlində dedim ki, düşmən üç məqsədi – elmi geriliyi, iqtisadi geriliyi və milli birliyin məhvini ciddi şəkildə qarşısına məqsəd qoyub; dollar xərcləyir, muzdur tutur, təhlükəsizlik orqanlarının ən

---

[338] Xalqın müxtəli təbəqələri, ölkə və ordu məmurları və İslam ölkələrinin səfirləri ilə görüşdə çxışdan: 2006.

[339] İmam Rzanın (ə) müqəddəs məqbərəsinin ziyarətçilərinin böyük toplantısında çxışdan: 2007.

[340] Yenə orada.

peşəkar ekspertlərini işə salır ki, ölkədə bu üç işi görsün; yəni iqtisadi cəhətdən geri qalaq və məğlub olaq, elmi cəhətdən başlayan inkişafı dayandıraq, mövcud birliyi də pozub bir-birimizin canına düşək. Düşmən bu üç məqsədi izləyir.

Bu üç məqsədin iki hissəsində mühüm hədəflərdən biri müəllimlərdir; həm elmi inkişaf sahəsində, həm ictimai birlik sahəsində. Əlbəttə, bu gün düşmən fəaliyyətlərinin zirvə dövrüdür. Amma bu təxribatlar 20-25 il öncədən də olmuşdur. Mən buna yaxından şahid olmuşam. Müəllim təbəqəsi bu təxribat təzyiqi qarşısında dağ kimi dayanmışdır.[341]

**Yaradılan əngəllərə rəğmən, elmin inkişafı üçün qətiyyətli iradənin olması**

Əgər bu xalq özünü inkişaf, elm və tərəqqi zirvələrinə çatdıra bilsə, xalqların mənəviyyat yolunda böyük bir darvaza açılacaq. Odur ki, bu xalqın öz məqsədinə çata bilməməsi üçün əngəl törədir, qarşı çıxır, əks-təbliğat aparır, aşağılayır, siyasi və iqtisadi təzyiqlərdən istifadə edirlər. Lakin bizim iradəmiz, bu xalqın iradəsi qətiyyətlidir və yolu davam etdirir. Gəncin rolu burada özünü göstərir.[342]

**Elmi rəqibləri sıradan çıxarmağa dair sionizm üsulu və onunla mübarizənin zəruriliyi**

Bu gün təhlükəli sionizm şəbəkəsinin və onların müxtəlif ölkələrdəki rəsmi əlaltılarının geniş yayılmış siyasətlərindən biri budur ki, xüsusən İslam ölkələrində və xüsusən də elmi, yaxud siyasi rəqib kimi baş qaldırıb onların maraqlarını təhlükəyə salmaları mümkün olan yerlərdə gəncləri həyata ciddi baxışdan uzaqlaşdırsınlar. Onlar gəncləri məhv etmək istəyirlər, bunun üçün proqram hazırlamışlar. Bu proqramla mubarizə bir vəzifə olmaqdan əlavə, həm də şücaətli siyasi hərəkətdir. Odur ki, dini işlərə aid sahələr, İrşad Nazirliyi, elmi işlər, təlim-tərbiyə, ali və tibbi təhsil

---

[341] Müəllimlərlə görüşdə çıxışdan: 2007.

[342] Şagirdlərin İslam birlikləri ilə görüşdə çıxışdan: 2007.

sahələri dövlətin ümumi proqramlarında çox həssas sahələrdən sayılırlar və onların üzərinə böyük vəzifələr düşür.[343]

**Qərblilərin nüvə texnologiyasına yiyələnməyimizə narahat olmalarının pərdəarxası**

Baxın, bir neçə gün öncə ABŞ prezidenti dedi: "Biz İrana təzyiq göstərəcəyik ki, İran xalqı nüvə enerjisinə malik olmağın onlara sərf etmədiyi qənaətinə gəlsin". Bu sözün mənası odur ki, İran xalqının bir texnologiya zirvəsinə çatması - indi onlara görə bunun nümunəsi nüvə enerjisidir - digər xalqları o qədər həvəslənidirir, müsəlman xalqların bacarıqlarına inandırır ki, daha buna nəzarət edə, cilovlaya bilmirlər.

Əlbəttə, ona başqa ad qoyurlar. Deyirlər ki, biz atom bombasından qorxuruq. Lakin özləri də, dünyada çoxları da bilirlər ki, yalan deyirlər. Onların problemi atom bombası deyil. Bilirlər ki, İran nüvə silahı əldə etməyə çalışmır, nüvə elminə və nüvə texnologiyasına yiyələnmək istəyir. Onlar buna görə narahatdırlar. Bir xalq onlardan icazə almadan, kömək almadan, onlara dilənçi kimi əl uzatmadan öz gücünə belə bir nailiyyət əldə edə bilmişdir. Onları qəzəbləndirən də budur.

"Biz filan cinahı, filan qrupu dəstəkləyirik". Nə üçün? Çünki o cinah demiş, yaxud söz vermişdir ki, bu işlərlə, müqavimətlə müvafiq deyil, gedib ABŞ-ın qarşısında əyilib "siz bizim inkişaf etməyimizə icazə verirsinizmi?" - deməklə müvafiqdir. Canavarın ağzından yemi müzakirə ilə almaq olmaz, güclə almaq lazımdır.[344]

**Müstəmləkə düşərgəsinin İranın elmi inkişafı qarşısında əl-ayağa düşməsi**

Kapitalizm və müstəmləkə düşərgəsi özünün bütün siyasi gücü, bütün maliyyə və iqtisadi imkanları və bütün təbliğat maşınları ilə İran xalqının geri çəkilməsi və təslim olması üçün təzyiq göstərməkdədir. Onlar İran xalqını yalnız nüvə hüququndan yox - nüvə hüququ İran xalqının

---

[343] Prezident və quruluşun məsul şəxsləri ilə görüşdə çıxışdan: 2007.

[344] 29 Bəhmən (18 Fevral) münasibətilə Azərbaycan xalqının müxtəlif təbəqələri ilə görüşdə çıxşdan: 2008.

hüquqlarından biridir – həm də başucalığından, müstəqillik, qərar vermə və elmi inkişaf hüququndan geri çəkilməyə vadar etmək istəyirlər. İran xalqı bu gün elm və texnologiya inkişafının magistralına çıxmışdır və özünün tağutlar dövründəki ikiəsrlik geriliyini düzəltmək istəyir. Bunlar əl-ayağa düşmüşlər və dünyanın bu həssas nöqtəsində yerləşib İslamın bayraqdarı kimi tanınan İran xalqını bu uğurlardan saxlamaq istəyirlər. Bunun üçün təzyiq göstərirlər, lakin İran xalqı möhkəm dayanmışdır.[345]

**Ölkənin elmi aktivliyinə qarşı maneə**

Bunlar istəmirlər ki, iranlı gənc sexdə, laboratoriyada, universitetdə, elm mərkəzində, iş yerində, sənaye fəaliyyətində və əkinçilikdə aktiv olsun. Cinsi ehtiras məsələləri ilə məşğul olan, yaxud narkotikaya qurşanan gəncin nə işləməyə taqəti olar, nə düşünməyə hövsələsi, nə qüvvəsi, nə yaradıcılığı, nə gücü və lazımi iradəsi, nə də əzmkarlığı. Bu gün iranlı gənci ehtiraslara, narkotik maddələrə, müxtəlif cinsi əyləncələrə çəkmək üçün aparılan mütəşəkkil təxribatlar çox təhlükəlidir. Onlarla mübarizə birinci növbədə xalqın, xüsusən də gənclərin özlərinin üzərinə düşür.[346]

---

[345] Şiraz əhalisi ilə görüşdə çıxışdan: 2008.
[346] Həzrət İmam Xomeynini vəfatının on doqquzuncu ildönümü mərasimində çıxışdan: 2008.

## Onuncu fəsil: Qərbin səhv mədəniyyətini onun elmindən ayırmağın zəruriliyi

**Elm və sənaye dəyərinin nisbi olması**

İndi elm atom silahlarının xidmətində və İsrailin əlindədir. Bu dəyərlidir?! Xeyr! Bunun heç bir dəyəri yoxdur. Belə şeylərin dəyəri nisbidir. Mütləq dəyər bunlara məxsus deyil. Sözsüz ki, mütləq dəyərlər var. Ümumiyyətlə, dinlərin əsas işi düzgün və doğru dəyərləri mütləqləşdirməkdir. Lakin elm, sənaye və texnologiya mütləq dəyərlərdən deyil; harada işlədilməsindən, kimin əlində olmasından və necə istifadə edilməsindən asılıdır. İncəsənət də belədir.[347]

**Düşmənin qeyri-elmi cəhətlərindən təsirlənmək nöqsanı**

Bu asılılığı elm öyrənməyə həvəslə səhv salmaq olmaz. Bəzən elm bizim düşmənimizin əlində olur; düşmənin yanına gedib diz üstə oturar və ondan elm öyrənərik. Bunun eybi yoxdur. Elmin dəyəri o qədər ucadır ki, insan ona görə hətta müxalif olduğu şəxsin yanına da gedə bilər. Bu bir məsələdir, elmdən başqa cəhətlərdə - siyasətdə, mədəniyyətdə və digər sahələrdə həmin düşmənin təsiri altına düşmək isə başqa bir məsələ. Bizim üçün, necə deyərlər, üçüncü dünya üçün istədikləri və planlaşdırdıqları ikincisidir. Təsadüfən birincinin baş tutmasına maneçilik də törətmişlər.[348]

**Qərb sivilizasiyasının məhsullarından istifadə edərkən seçim etməliyik!**

Biz əcnəbilərin fikir, ağıl və təcrübə məhsullarından istifadə edərkən seçimin vacib olduğunu düşünürük. Yəni bizə nə lazımdırsa və yaxşıdırsa, seçib götürərik. Biz nəyə qarşı çıxırıq? Biz xaricilərin özlərinin istədiyi hər bir metodu xalqımıza sırımasına, yəni onların seçib bizə verməsinə qarşı çıxırıq. Biz buna qarşı çıxırıq. Biz istəyirik ki, Qərb mədəniyyətindən və sivilizasiyasından bu gün bizə lazım və faydalı olanı özümüz seçək və

---

[347] İslam Təbliğatı Komitəsinin İncəsənət Şöbəsinin Müqavimət İncəsənəti və Ədəbiyyatı bölməsinin məsul şəxsləri, yazıçıları və sənət adamları ilə görüşdə çıxışdan: 1991.

[348] Mədəni İnqilab Ali Şurasının yaradılmasının yeddinci ildönümü münasibətilə şura üzvlərilə görüşdə çıxışdan: 1991.

götürək. Siz qərblilər nə üçün bizim istəyimizin əksinə olaraq lazım olanları bizə vermirsiniz? Ən yaxşı elmi nailiyyətlər qadağandır, inkişaf etmiş texnologiya qadağandır, dəqiq elmlər qadağandır, tapılmayan nüsxələr qadağandır, amma hicabsızlıq, spirtli içkilər, ən pis cinsi üsullar öyrədən filmlər azaddır, çoxdur, zorla verilir və buradakı kimi sərhədlərdə ciddi nəzarət olsa, qaçaq yolla ölkəyə idxal edilir. Bizim sözümüz budur.[349]

**Qərb elmlərindən istifadə**

Biz yaxşı, gözəl, məntiqli və prinsiplərimizə uyğun olanı dünyada hər hansı bir şəxsdən almaqdan çəkinmirik; hətta o şəxs öz düşmənimiz olsa da. Biz "Elm Çində olsa belə, gedib öyrənin"[350] hədisini 1400 ildir təkrarlayırıq. Biz qərblilərin yaratdığı və yaydığı elmləri öz universitetlərimizə gətirib təbliğ edir və yayırıq. Biz hətta mükafat verir və tələbələrimizi o elmləri öyrənməyə sövq edirik. Biz bu ittihama layiq deyilik ki, yaxşı olsa belə əcnəbilərdən gələn hər şeyi rədd etdiyimiz söylənsin. Xeyr! Əsla belə deyil. Əgər əcnəbilərin yaxşı mədəniyyəti olsa, biz o mədəniyyəti də götürərik.[351]

**Qərb elmlərindən və Qərb mədəniyyətinin yaxşı cəhətlərindən istifadə**

İslam o zaman deyirdi ki, elm üçün lazım olsa, Çinə gedin. Bəlli olur ki, İslam Çin mədəniyyəti, elmi və sivilizasiyası adlı bir şeyi qəbul edir və əsla inkar etmir. Məhz buna görə müsəlmanlar digərlərinin əsərlərini tərcümə və onlardan istifadə etməyə başladılar.

Bu gün də biz açıq şəkildə elan edirik, dəfələrlə də demişik ki, Qərb mədəniyyətinin çox böyük eyibləri var. Sözsüz ki, yaxşı cəhətləri də var və onlardan istifadə etmək lazımdır. Biz heç zaman kimisə təhqir etmirik, amma onlar edirlər.[352]

---

[349] Hövzə və Universitetin Birliyi Günü münasibəti ilə hövzə və universitet tələbələri və xalqın müxtəlif təbəqələri ilə görüşdə çıxışdan: 1994.
[350] "Vəsail əş-şiə" c. 27, səh: 27.
[351] Dini Ekspertlər Məclisinin üzvləri ilə görüşdə çıxışdan: 1999.
[352] Xarici İşlər Naziri və İran İslam Respublikasının xarici ölkələrdəki səfirləri ilə görüşdə çıxışdan: 1999.

**Düşüncə sahəsində şübhə yayanların qanun pozuntusu**

Düşüncə sahəsində qanunu pozurlar. Düşüncə və fikir sahəsində qanunlar var və o qanunlara tabe olmaq lazımdır. Əgər kiminsə bir düşüncə əsası barədə şübhəsi varsa, qanunu budur ki, onu ixtisaslı mərkəzlərdə və elm ocaqlarında bəyan etsin. Ya bəhanəni aradan qaldırıb öz beynini təmizləmək lazımdır, ya da şübhə həqiqi iraddırsa, onu bir nəzəriyyəyə çevirib elm adamlarını və mütəxəssisləri qane etmək lazımdır. Bu cənablar bu qanuna itaət etmirlər. Onların beyninə bir şübhə gəlir, özləri etiqadsız olurlar, min növ bəla və müsibət səbəbindən dərin imanlarının təməllərini nəfs, rahatçılıq və dünyagirlik qarışqası çeynəyir, yeyir və şübhə sahibi olurlar. Sonra gəlib şübhəni ictimai rəydə ortaya qoyur və adını da yeni baxış qoyurlar. Bu, ictimai rəyə xəyanətdir.[353]

**Qərbin elmini yanlış mədəniyyətindən ayırmağın zəruriliyi**

Son məsələ budur ki, elmi inkişaf və elmi iqtibas - mən iqtibası lazım görürəm, yalnız tərcümə ilə kifayətlənməyi yox - lazımlı işdir. İslam da bizə bunu əmr edir. Hər halda, başqalarından elm öyrənmək onların mədəniyyətini öyrənməklə qarışdırılmamalıdır. Kiminsə, "qərblilərin elmi yaxşıdır, deməli onların mədəniyyətləri, həyat tərzləri və əxlaqları da yaxşıdır" – deyə düşünməsi çox kobud səhvdir. Xeyr! Bunlar arasında heç bir əlaqə yoxdur. Elmləri yaxşıdır, amma elm bu mədəniyyətin nəticəsi deyil, əksinə, bu mədəniyyət elmə də zərər vurur. Elmin özünəməxsus yaradıcı elementləri var. Onları tapmaq lazımdır.

Özbaşınalıq, dinsizlik, eqoistlik, pula və maddiyyata sitayiş və maddi dəyərlərin birinciliyi mədəniyyəti, Qərbin bugünkü yanlış mədəniyyətidir. Əgər o xalq imanlı, saleh, yaxşı işlər görən və dünyanın bərbəzəklərinə etinasız olsaydı, bu elm bütün dünyaya faydalı olardı. Necə ki, İslam mədəniyyətinin çiçəklənmə dövründə - hicrətin 4, 5 və 6-cı əsrlərində görkəmli elm adamları meydana çıxdı və elmi günün ən uca zirvəsinə çatdırdılar. Bu gün Qərbdə yayılan tüfeylilik, dinsizlik və sair bu tip ənənələr onlara hakim deyildi; ibn sinalar, məhəmməd ibn zəkəriyya

[353] İsfahan vilayətinin gəncləri ilə görüşdə çıxışdan: 2001.

razilər, xarəzmilər və digərləri belə deyildilər. Bunlar Qərb mədəniyyətinə oxşar mədəniyyət altında yetişmədilər. Heç Qərbin böyük alimləri, Qərb elminin əsasını qoyanlar da belə mədəniyyətlə böyüməmişlər. Odur ki, Qərbin elmi üstünlüyünü və tərəqqisini heç zaman onun mədəni üstünlüyü kimi başa düşmək lazım deyil.[354]

**Aydın müsəlmanların Qərb sivilizasiyasına qarşı çıxmalarının səbəbi: mənəvi boşluq**

Ziyalı və aydın islamçıların Qərb mədəniyyətinə müxalif olduqları deyiləndə qərbli inadkarların özləri məsələni tərsinə çevirib onların elm və inkişafa müxalif olduqlarını göstərməyə çalışırlar, halbuki İslama inamı olan bir şəxsin Qərb mədəniyyətinə qarşı çıxması elmi inkişafa, xurafatla mübarizəyə və bütün ictimai münasibətləri elmə əsaslandırmağa görə deyil, dünyanın bu toplumunda mənəviyyatın və dəyərin yoxluğuna görədir.[355]

**Qərbin mədəniyyətini yamsılamadan ondan elm öyrənmək**

Deməli, şagirdlik etmək əvvəla şagird qalmaq demək deyil. Biz həmişə şagird qalmağı düşünməməliyik. Xeyr! Çalışın, görəcəksiniz ki, onlar sizdən öyrənməyə məcbur olacaqlar. İkinci tərəfdən, elmdə şagirdlik etmək mədəniyyətdə təqlidçilik etmək demək deyil. Bu çox əhəmiyyətli məsələdir. Qacarlar dövründə Qərb mədəniyyətinin nümunələri ilk dəfə olaraq ölkəyə daxil oldu. Avropalılarla əlaqə quran birinci təbəqə olan ozamankı əyan-əşrafın və saray iranlılarının öyrəndikləri ilk məsələ elm deyildi, onların adət-ənənələrini, rəftarını və davranış tərzlərini öyrəndilər. Bu səhv və yanlış xətt oradan başladı.

Bəziləri belə düşünürlər ki, qərblilər elmdə bizdən üstün olduqlarına görə, biz mədəniyyəti, inancları, həyat tərzini, ictimai və siyasi münasibətləri də onlardan öyrənməliyik. Bu, düzgün deyil. Əgər sevdiyiniz çox yaxşı bir müəllim sizə dərs verirsə, bu o deməkdir ki, onun

---

[354] 2001-2002-ci illərdə ali məktəblərə qəbul imtahanlarının nümunəvi abituriyentlərinin, dünya və ölkə üzrə olimpiada qaliblərinin toplantısında çıxışdan: 2002.

[355] Ayətullah Müctəhidi adına elmi mədrəsənin müəllim və tələbə kollektivi ilə görüşdə çıxışdan: 2004.

xoşu gəlsin deyə, mütləq onun paltarı rəngində geyinməlisiniz?! Əgər bu müəllimin pis bir adəti varsa, siz də bu adəti ondan öyrənməlisiniz?! Məsələn, müəllim dərsin ortasında əlini burnuna salırsa, siz ondan elm öyrənirsiniz deyə, bu işini də yamsılamalısınızmı?! Avropalıların səhv işləri və çirkin hərəkətləri olduqca çoxdur. Nəyə görə bunları öyrənməliyik?! Qərblilərin elminə ürəkdən məftun olan bir nəfər deyirdi ki, biz təpədən-dırnağa qədər qərbləşməliyik. Nə üçün?!

Biz iranlıyıq, iranlı da qalmalıyıq; müsəlmanıq, müsəlman da qalmalıyıq. Onların elmi bizdən çoxdursa, eybi yox, gedib onlardan elm öyrənərik, adət-ənənələri, mədəniyyəti və rəftarları nə üçün onlardan öyrənək?! Bu, çox yanlış bir məntiqdir. Onlar hər hansı bir səbəbdən qalstuk adlı bir şeyi boyunlarına dolayırlar. Biz onları bu işə görə qınamırıq, qalstuk onlarındır. Amma biz də onları yamsılamalıyıqmı?! Bu iş üçün bizim məntiqimiz nədir?! Biz nə üçün onların geyimlərini, rəftarlarını, davranış və danışıq tərzlərini, hətta ləhcələrini yamsılamalıyıq?! Mən bəzən televiziyada bizim müxbirimizin dünyanın hansısa nöqtəsindən fars dilində İrana aid bir reportaj verdiyini izləyirəm. O, farsca elə danışır ki, elə bil bir ingilis fars dilində danışır. Bu, başucalığının zəifliyindən və həqarət hissindən doğur. Mən nə üçün iranlı olduğumdan ötrü həqarət hissi keçirməliyəm?! Mən öz dilim, mədəniyyətim, vətənim, ölkəm və tariximlə fəxr edirəm. Nə üçün onları yamsılamalıyam?! Onları yamsılamağa səbəb yoxdur. Onların elmi çoxdur; çox yaxşı, biz elmlərini öyrənərik. Bunun üçün pul lazım olsa, onu da ödəyərik. Təsadüfən, onlar elmi pula dəyişməyi öyrəniblər.[356]

### Günün elmindən istifadə

Mən elmi istifadə - yəni Qərbin dünyaya təqdim və bu sahədə inkişaf etdiyi yeni elmdən istifadə üzərində dayanmaq istəyirəm. Günün elmindən mütləq istifadə etməliyik və bu bizə kömək edə bilər. Bu,

---

[356] Həmədan vilayəti universitetlərinin müəllim və tələbələri və həmədanlı gənclərlə görüşdə çıxışdan: 7 2004.

bəşəriyyətə məxsus olan bir amildir. Bundan yararlanmalı, istifadə etməli və ilahi yardıma əmin olmalısınız.[357]

[357] Beynəlxalq İslam Elmləri Mərkəzinin qonaqları ilə görüşdə çıxışdan: 2005.

## Üçüncü bölmə: İran və elm

### Birinci fəsil: İranda möhtəşəm elmi keçmiş

**İranda elmin və dinin yanaşı olması**

Bizim ölkəmizdə min il elm və din bir-birinin yanında olub. Bizim tariximizin böyük alim, həkim, astronom və riyaziyyatçıları, adları və kəşfləri bu gün də dünyada məşhur olan dahi şəxslər ilahi alimlərdən, din sahiblərindən və dini mütəfəkkirlərdən olmuşlar. Tibb kitabı hələ də dünyada canlı elm kitabı sayılan, özü müxtəlif sahələrdə bəşər tarixinin parlaq siması hesab olunan, bu min ildə dünyanın bütün elm sahələrində tanınan və tanınmaqda olan, elm tarixinin bəzi nailiyyətlərinə imza atan İbn Sina həm də bir din alimi olmuşdur. Məhəmməd İbn Zəkərriyya Razi, Əbu Reyhan Biruni və digər alimlər - İslam dünyasının mütəfəkkirləri, kəşf və ixtira sahibləri də belə olmuşlar. Ölkəmizdə və İslam dünyasında vəziyyət belə idi.[358]

**Bugünkü nəslin fəxr dolu elmi keçmişdən xəbərsiz olması**

Təəssüf ki, yeni nəsil bizim qədim elmi nailiyyətlərimizdən xəbərsizdir. Bilirsiniz ki, İranın elmi keçmişi necə fəxrli olmuşdur. Bəzən nəyinsə Orta əsrlərə aid olduğunu deyirlər, amma bilmirlər ki, Orta əsrlər Avropa üçün xəcalət əsridir. Bu, bizim üçün nur dövrüdür.

Siz hicrətin dördüncü əsrinə baxın. Adam Mitsin "Dördüncü hicri əsrində İslam mədəniyyəti" kitabı göstərir ki, bütün İslam məmləkətləri dünyanın elm bazarı və onun əsas mərkəzi İran idi; yəni İsfahan, Rey, Fars, Xorasan, Hərat, Mərv və s. Bu şəhərlər dünya elminin mərkəzi olmuşdur. Amma təəssüf ki, bugünkü nəsil bunları bilmir. Əlbəttə, nəinki mənim dediyim bu sözləri bilmirlər, yox, bunları yüz dəfə eşidiblər, hamı kitabında yazıb, hər yerdə danışılıb, amma buna inam yoxdur. Dillə deyilməsə də, bugünkü və bundan qabaqkı nəsildə İranın keçmişinə inamsızlıq var. Səbəbi də budur ki, Qərb sivilizasiyası və bu nəhəng

---

[358] Universitet mənsubları və elmi hövzə tələbələri ilə görüşdə çıxışdan: 1989.

texnologiya hər yeri o qədər bürüyüb ki, heç kim öz şəcərənaməsinə baxmağa belə cürət etmir.

Bu gün elm onların əlindədir. Bunda heç bir şübhə yoxdur. Lakin onlar xalqların elmi keçmişini də inkar etmək istəyirlər. Bəzi yerlərdə sivilizasiyaları da inkar edirlər. Bu qərblilər və avropalılar dünyanın bəzi nöqtələrinə, o cümlədən Latın Amerikasının bəzi bölgələrinə getdikdə bütün sivilizasiyanı inkar etdilər.[359]

**Elmi keçmişi xatırlamağın inkişafımıza təsiri**

İranda bu işləri görmək mümkün deyildi. Çünki bu qədər kitab, bu qədər elmi əsər və parlaq tarix mövcuddur; bir iş görə bilməzdilər, amma təsirini beyinlərdən silmişlər. Siz bunu bərpa etməlisiniz. Bu xatırlatmanın bizim elmi inkişafımıza doğrudan da təsiri var. Bu nəsil belə bir istedadı və keçmişi olduğunu bilsə, gələcəyə bir cür baxar, amma olan-qalan nə varsa, hamısının avropalıların əlində olduğunu və bizim həmişə onların arxasınca düşdüyümüzü güman etsə, bu bizim elmi inkişafımızda başqa cür təsir buraxar.[360]

**Elm və mədəniyyət - iki müxtəlif sahə**

Bizim ölkəmiz yalnız min ili aşan keçmişdə yox, hətta yaxın keçmişlərdə də mədəni baxımdan üstün bir ölkə olmuşdur. Elm, texnologiya və onun şaxələri ilə mədəniyyət arasında fərq vardır. Elmin özü də mədəniyyətin şaxələrindən olsa da, bunlar iki ayrı-ayrı sahələrdir. Bir xalqın təsəvvür, düşüncə, iman, inam, adət və ənənə, düşüncə və beyin ehtiyatlarından ibarət olan mədəniyyəti xüsusi mənada mədəniyyət adlandıra bilərik. Bu baxımdan biz elm və texnologiyada inkişaf etmiş dünyadan nəinki geri deyilik, hətta bir çox cəhətlərdən öndəyik də.[361]

**Qədim elmi əsərlərə görə iranlı olmaqla şərəf duymaq**

---

[359] İran İslam Respublikası radiosunun Elm şöbəsinin əməkdaşları ilə görüşdə çıxışdan: 1992.

[360] Yenə orada.

[361] Şərqi Azərbaycan vilayətinin şairləri, sənət adamları və ədibləri ilə görüşdə çıxışdan: 1993.

Qədim əsərlər mütləq təbliğ olunmalıdır. Bizim indiki çatışmazlıqlarımızdan biri özümüzlə şərəf duymaqdır. Bizim keçmişdəkilərimiz iranlı olmaqla şərəf duyarkən daşınmaz və istifadəyə qabiliyyətsiz əsərlərdən yapışdılar, məsələn, Təxti-Cəmşiddən. Düzdür, Təxti-Cəmşid mühüm bir şeydir, amma bir xalqın güvənməli olduğu amil elmdir. Mən Təxti-Cəmşidə gedib gördüm ki, orada yaxşı işləsələr, bu da elmi inkişafa səbəb ola bilər. Yəni o binada elə şeylər var ki, oranı tikən rejimin elmə malik olduğundan xəbər verir və o, yalnız incəsənət əsəri deyil. Çünki elm olan yerdə incəsənət olmaya, yaxud incəsənət olan yerdə elm olmaya bilər. Orada isə elm də vardır.[362]

**Elmə güclü həvəs oyatmaq üçün elmi keçmişi bərpa etmək**

Məqsədim budur ki, qədim elmi əsərləri bərpa etmək xalqımızın özü ilə qürur duymasına səbəb olar. Xalq belə güman etməsin ki, bizim istedadımız yoxdur. Bu xalqın istedadlı olduğu bəlli olmalıdır. Mən dəfələrlə müxtəlif mövzularda söhbət edərkən bunu qəsdən təkrarlayıram. Mən Amerika və Avropanın birinci dərəcəli universitetlərini görmüş şəxslərdən eşitmişəm ki, iranlıların istedadı dünyanın orta həddindən yuxarıdır. Bu, adi iranlılar barədədir. Amma bunların arasında üstün olanlar da var. O məlumatlarda bəlkə bu da olmuşdur ki, onların dahiləri çoxlu xalqların dahilərindən artıqdır. Bu, çox mühüm məsələdir. Buna həqiqətən inanmalıyıq. Bizim gənclərimiz buna inansalar, görün elm və kamillik üçün necə həvəs əldə edərlər. Bunlar lazımi məsələlərdir.[363]

**İranda parlaq elmi-mədəni keçmiş**

İran xalqının digər müsbət cəhəti qədim və köklü tarixindən, mədəni və elmi keçmişindən ibarətdir. Bu şübhəsizdir. Bu gün kolun altından təzə çıxan, keçmişi, tarixi, elmi, mədəniyyəti və böyükləri olmayan bir xalqı bir zaman dünyanın ən böyük alimlərinə malik olmuş və bu məziyyəti bir-iki dəfə yox, əsrlərlə qoruyub-saxlamış bir xalqla müqayisə etmək olmaz. İslamdan sonrakı əsrlərdə - yəni hicrətin dördüncü əsrindən etibarən bir

---

362 İlin nümunəvi kitablarının naşir və müəllifləri ilə görüşdə çıxışdan: 1993.
363 Yenə orada.

neçə əsrə qədər - mübahisəli olduğu üçün dəqiq müəyyənləşdirmək istəmirəm - müxtəlif elmlərdə - istər təbii, istər humanitar elmlərdə, istər astronomiyada, ədəbiyyatda, fəlsəfədə və riyaziyyatda dünyanın ən böyük alimləri iranlı olmuşlar. Onların arasından farabilər, ibn sinalar, fəxr razilər, məhəmməd ibn zəkəriyya razilər, xarəzmilər, xəyyamlar, firdovsilər və sədilər çıxmışdır. Bunlar bizim xalqımızın keçmişidir.[364]

### İranın İslamdan sonrakı elmi birinciliyini gizlətmək üçün Pəhləvilərin hiyləsi

Rza xanın və oğlunun dövründə bu ölkənin tarixini və mədəni keçmişini xatırlatmaq istəsəydilər, 1330, 1340 və 1350-ci hicri ilindən birdən-birə hicrətdən öncəyə atılırdılar, 1300-1400 ili bütünlüklə silirdilər. Halbuki İran xalqının mədəniyyət və elm baxımından öncüllüyü, birinciliyi bu 1300-1400 ilə, yəni İslamiyyət dövrünə aiddir. Onlar bu illəri silir, qaranlıq və lal tarix olan İslamdan qabaqkı illərə gedirdilər. Elə bir keçmişə gedirdilər ki, orada Təxti-Cəmşid saraylarından, sütunlardan və bəzi rəsmlərdən başqa bir şey yox idi. Görün İran xalqını kitab, elm, bilik, ədəbiyyat və mədəniyyət nümunəsi qalmayan o lal və qaranlıq keçmişlə necə aldatmaq istəyirdilər.[365]

### İranlılar - ən çox din və ərəb kitablarının müəllifləri

Bu bölgədə yaşayan xalq, toplum bir vaxtlar təbii, humanitar, dəqiq, dini və mütləq elmlərdə ən üstün olmuşlar. İslamın ərəb ölkələrindən İrana gəlməsinə baxmayaraq, dini kitabların, təfsir, hədis, fiqh və hətta ərəb dili kitablarının ən yaxşısını iranlılar yazıblar. Bu bir həqiqətdir. Ən yaxşı ərəb kitablarını iranlılar yazıblar. Ən məşhur ərəb dili kitabı "Firuzabadi" lüğətidir. Ərəb dilində yaxşı bir lüğət kitabı yazmaq istəyənlər bu kitabı şərh ediblər. Deməli, bu bir məsələ. Yəni İran xalqı istedad baxımından belə bir keçmişə malikdir.[366]

---

[364] Ordu Günü münasibəti ilə ordu nümayəndələri ilə görüşdə çıxışdan: 1994.

[365] Kuhgiluyə və Buyer Əhməd vilayətinin universitet mənsubları və mədəniyyət işçilərilə görüşdə çıxışdan: 1994.

[366] Yenə orada.

**Müxtəlif elmlərdə iranlıların yüksək istedadı**

Cənablar! İranlının dünya miqyasında bəşərin orta həddindən yüksək istedadı var. Bunu həm tarix sübuta yetirib, həm də müxtəlif bölgələrdə müxtəlif insanlar üzərində aparılan araşdırmalar. Düzdür, bütün xalqların dəyərli insanları var, lakin söhbət orta həddən gedir. Bu məmləkətdə orta istedad həddi dünya miqyasındakı orta həddən yüksəkdir. Prinsipcə belə də olmalıdır. Siz bu ölkənin keçmişinə baxın. Dağıdıcı müstəmləkə siyasətlərinin hələ bu ölkədə mənfur şah sülalələrinə caynaq atmadığı zaman hər yerdə bu üstünlüyün əlamətlərini görmək olar. Əqli elmlərdə, fəlsəfə və irfanda, elmi inkişaflarda, bəşəri elmlərin genişləndirilməsində, elmdə yeni kəşflər etməkdə, humanitar elmlərdə, məsələn, ədəbiyyat və incəsənətdə, dini elmlərdə, məsələn, fiqh, hədis və təfsirdə iranlılar yalnız İslam dünyasında yox, bütün dünya miqyasında görkəmlilərdən olmuşlar. Bu faktor burada güclü istedad və beyin potensialının olduğuna dəlildir. Bu gün bu potensial heç bir maneə olmadan inkişaf etməlidir.[367]

**İranlı istedadının tarixi qəhrəmanlığı**

İnqilabın sayəsində xoşbəxtlikdən, bu gün bizim kadr problemimiz yoxdur. Müxtəlif sahələr üzrə yaxşı müəllimlərimiz, məqbul şəraitimiz, inqilabdan öncəkindən on dəfə, yaxud daha artıq tələbəmiz, həm də istedadlı tələbəmiz var. İstedad da bizim məmləkətimizdə yerli və təbiidir. Tarix boyu iranlı nə zaman öz istedadını göstərməmişdir?!

İslamdan sonrakı dövr haqda bizim yazılı tariximiz var. Ondan öncəyə aid yazılı tariximiz təəssüf ki, yoxdur. Mən o dövrü də inkar etmək istəmirəm. Bəzən insan belə üstünlüklərdən xəbər verən işarə və əlamətlər müşahidə edir. Həm də bəlli təbəqə quruluşlarında bu məsələlərin inkişaf etməsi çox da gözlənilmirdi. İslamdan sonra isə azadlıq və İslam bərabərliyi gündəmə gəldi. Məsələn, görün bu 1200 il ərzində Hind okeanından Sakit okeana qədər uzanan İslam dünyasında mövcud biliklər üzrə korifeylər kimlər olmuşlar. Hansı sahəyə baxırsınızsa, iranlıları

---

[367] Müdafiə Nazirliyinin Mexanika zavodlarına baxış keçirərkən etdiyi söhbətlərdən: 1994.

görürsünüz. Bu onu göstərir ki, burada çox da qəribə və əfsanəvi olmayan bir şey deyil; yəni Allaha şükür olsun ki, istedad var.

Siz bu gün uşaqlarınızı beynəlxalq yarışlara göndərir və onların tez bir zamanda bu yarışlarda püxtələşmiş şəxslərdən, min cür adamı və arxası olanlardan önə keçdiklərini görürsünüz. Onlar birinci, ikinci, yaxud üçüncü olur və məşhurlardan ibarət uzun sıranı arxada qoyurlar.[368]

**Avropanın Orta əsrləri dövründə İranda elm və mədəniyyətin rövnəqlənməsi**

Mən Həmədan şəhərinin İslam dövründən xəbərdaram. İslamdan qabaqkı dövrdən çox da xəbərim yoxdur; əslində heç kimin xəbəri yoxdur. İslam dövründə İbn Sina bu şəhərdə fəlsəfə, tibb, həndəsə, riyaziyyat və digər elm və incəsənət sahələrində ən üstün nəzəriyyələri yazıb-yaradanda, öyrədəndə bizim fəlsəfə və üsul (İslam hermenevtikası) kitablarımızda həmədanlı kişi adlı bir nəfərdən danışılır. Bu həmədanlı kişinin məntiq, fəlsəfə və üsul elmlərində nəzəriyyələri var. İbn Sina Həmədana gəlib bu kişi ilə görüşəndə onun barəsində deyir: "O çox yaxşı və çoxlu üstün cəhətlərə malik bir kişi idi". Barəsində deyilən sözlərdən bəlli olur ki, bu kişi min il əvvəl həndəsə, fəlsəfə və məntiqdə mütəxəssis imiş. Min il bundan əvvəl, hicri tarixi ilə dördüncü, miladi tarixi ilə onuncu əsrdə. Onuncu əsr hansı zamandır? Dünyanın məşhur Orta əsrlərinin ortası. Eşitdiyiniz Orta əsrlər Avropaya aiddir, İrana yox. Avropada Orta əsrlərin qaranlıq, zülmət və cəhalət tərənnümü olduğu gün Həmədanda İbn Sina və həmədanlı kişi vardı. Bir müddətdən sonra Rəşidüddin Fəzlullah vardı, Baba Tahir vardı, böyük alimlər vardı. Bu bizim elmi və mədəni keçmişimiz və ona dair sənədimizdir.[369]

**İranın elm tarixini yazmaq**

Təəssüf ki, biz keşmişlə əlaqəni kəsmişik. Bizim gənclərimiz elm tariximizi bilmirlər. Bu bizim nöqsanlarımızdan biridir. Əlbəttə, deyilib və

---

[368] Universitet müəllimləri ilə görüşdə çıxışdan: 2000.

[369] Həmədan vilayəti universitetlərinin müəllim və tələbələri və həmədanlı gənclərlə görüşdə çıxışdan: 2004.

tövsiyə olunub ki, İranda elm tarixi sahəsində işlənsin. İndi işləyirlər və yaxşı işlər görülmüşdür. İnşallah bundan sonra daha da artacaq.[370]

**İranın elm tarixinin bəzi görkəmli şəxsləri**

Bütün bu əsrlərdə ölkəmizdə elmi şəxsiyyətlərimiz olmuşdur. Düzdür, son əsrlərə çatanda zəifləmişdir, ləyaqətsiz padşahlar, müxtəlif daxili müharibələr qoymayıb. Lakin müxtəlif dövrlərdə dünyanın ozamankı elmləri sahəsində biz alimlər yetişdirmişik.

Hicri tarixi ilə 4 və 5-ci əsrlərdə, yəni Avropanın Orta əsrləri – miladi tarixi ilə mütləq cəhalət dövrü olan 10 və 11-ci əsrlərdə bizdə İbn Sina, Məhəmməd ibn Zəkəriyya Razi olmuşdur. Avropalılar keçmişə baxdıqda elə bilirlər ki, bütün dünya Orta əsrlərdə olmuşdur. Tarixi onlar yazmışlar. Təəssüf ki, ölkəmizdə də onların tarixləri tərcümə olunub yayılmışdır. Avropanın Orta əsrlər dövründə, yəni zülmətin, qaranlığın və məlumatsızlığın son həddində bizdə Farabi, İbn Sina, Xarəzmi kimi alimlər olmuşdur. Görün nə qədər fərq var.[371]

**Yəzd şəhərinin elmi keçmişi**

Qeyd etdiyim kimi Yəzd elm şəhəridir. Müxtəlif fənlərdə, xüsusən də dini elmlərdə Yəzd alimlərinin adını çəkmək və onları qısaca xatırlatmaq saatlarla vaxt aparar. Bu yalnız keçmişə aid deyil. Bizim dövrümüzdə, bizim təhsil və ictimai fəaliyyətlər dövrümüzdə də bu vilayətdə dəyərli alimlər, şəxsiyyətlər və parlaq simalar olmuşdur.[372]

**Şirazlıların istedadı**

Şiraz ötən əsrlərdə təxminən elmin bütün sahələrində, həmçinin ictimai, dini və xalqların taleyinə aid olan digər sahələrdə öz insani istedadını sübuta yetirmişdir.

Sədi və Hafiz fars dili və ədəbiyyatının iki parlaq ulduzudur. Bu, şərhə ehtiyacı olmayan məsələdir. Müxtəlif elmlərdə bu vilayətdən böyük

---

[370] Gənc alimlərlə görüşdə çıxışdan: 2007.
[371] Yenə orada.
[372] Yəzd əhalisinin böyük toplantısında çıxışdan: 2008.

şəxsiyyətlər çıxmışdır. Onların hər biri öz dövrlərində birinci olmuşlar; istər fəlsəfədə, istər fiqhdə, istər ədəbiyyat və qrammatikada, istər incəsənət, təfsir və lüğətdə, istərsə də astronomiya, fizika və təbabət kimi sahələrdə. Bu müxtəlif elmlərdə hər biri zirvəyə çatan və dövrünün məşhur şəxsiyyətlərindən olan bu alimlərin adlarını çəkmək və bir-bir tanıtdırmaq başqa bir məclis və başqa bir görüş tələb edir.[373]

**İslamdan sonra İranın elmdə birinciliyi**

Mənim qəti fikrim budur ki, iranlının İslamın gəlişindən sonra gördüyü işlər özünün bütün tarixi boyu gördüyü işlərlə müqayisəedilləsi deyil. İran İslam dövründə - hicrətin üçüncü, dördüncü və beşinci əsrlərində dünya elminin, sivilizasiyasının, siyasətinin və iqtisadiyyatının zirvəsində durmuşdu; şərqdə, qərbdə, Asiyada, Avropada - dünyanın heç bir yerində bu həddə deyildi. Bu, İslamın sayəsində olmuşdur. Ondan öncə İranın heç zaman belə birinciliyi olmamışdır.[374]

**Elmin xalqlar arasında gəzməsi - ilahi qanunlardan biri**

Elm tarix boyu dünya xalqları arasında əlbəəl gəzmişdir. Siz elə bir xalq tapmazsınız ki, elm əvvəldən axıra qədər onların ixtiyarında olsun. Xeyr! Bu, Allahın qanunlarından biridir. Cəmiyyətlər arasındakı bu elmi yarışmada bir zaman şərq öndə idi, bir zaman İslam ölkələri, bir zaman da məhz İran ölkəsi.

Görürsünüz ki, bu gün bəzi qərb ölkələri elmi baxımdan yüksək səviyyədədirlər, digərləri onları görmək üçün yuxarı boylanmalıdırlar. Bir zaman sizin ölkəniz də belə idi; Avropa, şərq və qərb ölkələri iranlı alimləri görmək üçün yuxarı boylanmalı olurdular. Yalnız elmdə yox, hətta o dövrün texnologiyasında bütün dünyadan öndə olan böyük alimlər vardı. Bir zaman belə olub, sonra da qərblilər önə keçdilər.[375]

**İbn Sinanın Qanun kitabı İranda və Avropada**

---

[373] Şiraz əhalisi ilə görüşdə çıxışdan: 2008.
[374] Fars vilayətinin icra məmurları ilə görüşdə çıxşdan: 2008.
[375] Universitetlərin gənc alimləri ilə görüşdə çıxşdan: 2008.

İbn Sinanın Qanun kitabının tərcüməsi mürəkkəb və çox dəyərli bir işdir. Bu kitab min il öncə bir iranlı tərəfindən ərəb dilində yazılmış və əsrlər boyu dünyanın böyük tibb universitetlərində istifadə olunmuş, amma fars dilinə çevrilməmişdi. Mənim xəbərim vardı ki, bir müddət, bəlkə də yüz il öncəyə qədər Avropa ölkələrinin tibb məktəblərində Qanun kitabı bir mənbə sayılırdı, Avropa dillərinə tərcümə olunmuşdu, farsdilli insan isə ondan məhrum idi.

Prezidentlik dövrümün ortalarında bu məsələ diqqətimi çəkdi ki, biz nə üçün Qanunu tərcümə etməmişik. Bir qrupu çağırıb dedim ki, Qanunu tərcümə edin. Bir sərəncam verildi və işə başladılar. Bu işlər üçün eşq lazımdır, sərəncam və fərmanla olmur. Bu əsnada mənə xəbər verdilər ki, bu kitab tərcümə olunmuşdur; mərhum Həccarın zənnimcə səkkizcildlik kitabını gətirdilər. Mənim nə təbabət ixtisasım var, nə oturub bu kitabı ərəbcəsi ilə uyğunlaşdırmışam, amma oxuyanda gördüm ki, kim bu kitabı oxusa, bu gözəl nəsrin səlisliyi və güclülüyü qarşısında baş əyər.[376]

[376] Kurdüstan vilayətinin görkəmli şəxsiyyətləri ilə görüşdə çıxışdan: 2009.

## İkinci fəsil: Ölkənin elmi inkişafına Qacar və Pəhləvi xəyanəti

### İranın elmi cəhətdən geri qalmasında Qacar və Pəhləvilərin xəyanəti

Allah Qacar və Pəhləvi sultanlarına lənət eləsin! Xüsusən Nasirəddin şahın dövründən Məhəmmədrzanın zamanına qədər şahlıq etmiş xəbis və murdar insanların günahından keçməsin! Onlar bu xalqın, bu ölkədə mövcud olan qiymətli istedadların başına nə oyun açdılar! Bilirsiniz ki, iranlının istedadı dünya ölkələrində mövcud olan orta istedad səviyyəsindən yuxarıdır. Mən bunu mütəxəssis və məlumatlı insanlara və statistikaya istinadən deyirəm. Bizim keçmişimiz də bunu göstərir. Bu xalqı özünü ən azı irəliyə doğru gedən bu at arabasına çatdırmalı olduğu dövrdə dərin yuxuya verdilər. Bir də onda ayıldı ki, araba avtomobil, avtomobil isə reaktiv təyyarə olub, həm də çox güclü inkişaf edib və elm karvanından bizə toz-torpaqdan başqa bir şey qalmayıb.[377]

### Elm və abadlıqda geri qalmanın səbəbi

Hansı amil bais oldu ki, bu istedadlı xalq uzun illər, bəlkə də bir neçə ərzində elm və bilik karvanından bu qədər geri qalsın? Şübhəsiz, xəyanətkar qüvvələrin hökmranlığı, zalım, müstəbid və savadsız şahlar bu ölkənin başına bu bəlaları gətirdilər və beləliklə abadlıq işləri də dayandı. Əgər bir ölkədə İslam qanunları icra olunsa və İslam hökuməti qurulsa, xalqın önündəki bu maneələr götürülər. İranda İslam inqilabı bu böyük hünəri və bu möcüzəni göstərməlidir.[378]

### Qərb ölkələri ilə elmi və mədəni mübadilənin üsulu

Bizim ölkəmizlə digər öləkələr arasında mübadilə məsələsi qarşıya çıxanda İranın keçmiş hakimləri elə etdilər ki, biz dünya xalqlarına öz

---

[377] Mədəniyyət və Ali Təhsil Nazirliyinin əməkdaşları və universitet rektorları ilə görüşdə çıxışdan: 1990.

[378] Quruculuq Cihadı Naziri, nazirliyin məsul şəxsləri, mücahidləri, Gilan və Zəncan vilayətlərinin şəhid ailələri, əşirətləri və zəlzələdən zərər çəkənlərlə görüşdə çıxışdan: 1991.

məlumatımızı və möhtəşəm mədəniyyətimizi təqdim etmək - bizim digərlərinə öyrətməli çox şeyimiz var - və əcnəbilərin elmlərini öyrənmək yerinə onlara sərgilərindən asmaq üçün əl işlərimizi, yaxud zavodlarını işlətmək üçün neftimizi verdik, özümüz də oturub onların azğın mədəniyyətlərini gözlədik.

İranın Qərblə mədəni əlaqəsini idarə edənlər demədilər ki, hər bir iranlı Qərbdən bacardığı qədər elm öyrənməlidir. Bunu desəydilər, yaxşı olardı. Biz buna yaxşı baxırıq. Biz indi də deyirik ki, dünyanın elmi inkişafları var. Bizi 200-300 il geridə saxlayıb inkişaf etməyə qoymayıblar. Biz özümüzü onlara çatdırmalı, onların elmlərini öyrənməliyik. Amma sözügedən adamlar bunu demədilər. Dedilər ki, İran zahiri və daxili baxımdan - geyimdə, görkəmdə, üzdə və əxlaqda avropalı olmalı, onların əxlaqını, geyimini və məişət tərzini götürməli, qeyri-sağlam əlaqələrini öyrənməlidir. Bunun nəticəsində mənfur şah dövrünün sonlarında bəlli duruma düşdük. Onun təsir və qalıqları hələ də görünür.

Biz məlumatı, elmi hamıdan öyrənməliyik. Biz onlardan elmi öyrənməliyik, əxlaq fəsadını, aludəlikləri, zərərli vərdişləri, təhlükəli xəstəlikləri, SPİD dedikləri bu Amerika taununu və digər əxlaq fəsadlarını yox. Bunları onlardan öyrənməyin, elmlərini isə öyrənin.[379]

### Pəhləvi dövründə kitab yerinə qeyri-sağlam əyləncələrin təbliği

Təəssüflə etiraf etməliyik ki, İslamdan sonrakı tarix boyu mədəniyyətin, kitabın və elmin bayraqdarlarından olmuş əziz xalqımız arasında kitabın yayılması və kitab oxumaq həvəsi belə bir xalqdan gözləniləndən çox aşağı həddədir. Ölkəmizdə çoxlu acı, xoşagəlməz məsələlər kimi bu da ötən iki yüz ildə zalım, azğın, mədəniyyətsiz və savadsız padşahların hakimiyyətinin nəticəsidir.

Digər xalqların elmə, tədqiqata, biliyə üz tutduqları bir dövrdə bizim qədim və istedadlı xalqımız mənfur, xudpəsənd, hegemon və ləyaqətsiz insanların hakmiyyəti altında elmdən kənar qaldı. Asılı və azğın Pəhləvi hökumətinin bütün işləri xalqın ziyanına və düşmənlərinin xeyrinə gördüyü son dövrdə nəinki kitabı və mütaliəni təbliğ etmək üçün iş

[379] Müəllim və fəhlələrlə görüşdə çıxışdan: 1992.

görülmədi, hətta qeyri-sağlam əyləncələrlə, gənclər arasında ehtiras alovunu qızışdırmaqla bu təcili zərurəti xalqın gözündən və diqqətindən daha da kənarlaşdırdılar. Qlobal şəraitin İran xalqının pis vəziyyətində əsaslı dəyişikliklərə dözdüyü ən yaxşı dövrlərin birində bizim məzlum xalqımızı ondan məhrum etdilər. Vəziyyət elə bir həddə çatmışdı ki, Tehranda və bəzi şəhərlərdə barların sayı kitabxanaların və kitab mağazalarının sayından dəfələrlə çox idi.[380]

**İranın ən qaranlıq elmi dövrü**

Mənim fikrimcə, Qacarlar dövrü İran xalqının ən qaranlıq dövrlərindəndir. Mən dəfələrlə demişəm ki, Allah Qacar padşahlarına lənət eləsin. Onlar inkişaf və elm dövründə, elm və mədəniyyətdən bəhrələnməyin tam zamanında lazım olan işi görmədilər və İranı bu günə saldılar. Mən onlara iynə ucu qədər də hörmət bəsləmirəm.[381]

**Qərbə tabe olan cəmiyyətlər; nə müasir elm və nə mənəviyyat**

Biri var ki, bir cəmiyyət məişət texnikalarına aid elmlər baxımından inkişaf edir; məsələn, Qərb cəmiyyətləri belədir. Amma biri də var ki, bu baxımdan da inkişaf etmir; Qərbə tabe olan cəmiyyətlərin çoxu belədir. Onlar mənəviyyatı atdılar, ancaq maddiyatı da əldə edə bilmədilər. Pəhləvilər hakimiyyəti dövründə bizim vəziyyətimiz belə idi; mənəviyyatdan uzaqlaşdıq, maddiyyatı da modern, yeni, elmi və həqiqi formasında ölkəmizə daxil edə bilmədik. Yəni həm dünya, həm axirət baxımından ziyana uğradıq.[382]

**Elmi asılılıq və xalqın təhqir edilməsi**

Tağut Pəhləvi rejiminin başçıları ağıllı, qeyrətli, şücaətli, elm və mədəniyyətdə parlaq keçmişi olmuş bu xalqın sərvətlərini ABŞ-dan hərbi təyyarə almağa sərf edirdilər. Təyyarənin bir hissəsi xarab olanda iranlı mühəndisin onu açıb düzəltməyə haqqı çatmırdı. Hissələr mürəkkəb idi,

---

[380] Böyük Rəhbərin Kitab həftəsinin başlanması münasibətilə müraciətindən: 1994.
[381] Şərqi Azərbaycan vilayətinin ədəbiyyatçı, şair və sənət adamları ilə görüşdə çıxışdan: 1993.
[382] Hövzə və Universitetin Birliyi Günü münasibətilə tələbələrlə görüşdə çıxışdan: 1993.

təyyarənin bəzi hissələri bir-birinə bağlanmış on detaldan təşkil olunurdu. Onlar nöqsanlı hissəni açıb təyyarə ilə onu istehsal edən və satan ölkəyə - əsasən də ABŞ-a göndərirdilər. Sonra nöqsanlı hissəni təhvil verib yenisini alır və geri qayıdırdılar. Nə üçün iranlı bir mühəndisin təyyarənin xarab hissələrinə əl vurması yasaq idi? Çünki onlara deyirdilər ki, sizin belə məsələlərlə nə işiniz var, bunlar xarici mütəxəssislərə aiddir, siz ümumiyyətlə, belə işlərə qarışmayın.

Bir xalqı təhqir etmək belə olur. Mən çox təəssüflə deməliyəm ki, bu gün də ölkənin bəzi yerlərində belə təfəkkür tərzinə malik insanlar tapılır. Yəni hələ də bəziləri Qərbə və ABŞ-a bağlı olan keçmişdəkilərin fikir və üsul tör-töküntülərinin təsiri altındadırlar.[383]

**Müasir İranda elmi geriliyin əsl səbəbi**

Biz düşmənin dağıdıcı təbliğatının təsirindən uzaq durub özümüz olsaq, bir xalq olaraq sayılsaq, öz keçmişimizə baxmalı və deməliyik ki, bəli, bu bir həqiqətdir ki, biz bu gün dünyada elmi baxımdan geri qalmışıq, lakin bu gerilik xalqın istedad baxımından çatışmazlığından irəli gəlmir. Belə deyil ki, onun istedadı yoxdur, elm və təhsil adamı deyil. Xeyr, buna görə deyil, başqa amilə görədir. Əslində onu qəsdən geridə saxlayıblar.[384]

**Ölkənin geri qalmasında Qacar və Pəhləvilərin cinayətləri**

Elm və iş bir xalq üçün iki qanaddır. Elmsiz və işsiz xalq inkişaf etməz. Mən buna görə dəfələrlə demişəm ki, İran xalqı ürəkdən Pəhləvi və Qacar sülalələrinə lənət oxumalıdır. Bu iki xəbis sülalə məmləkətin, bu qədim, istedadlı və ağıllı xalqın iki qanadını qırdılar, elm və işin heç birində bu xalqa şərait yaratmadılar. Görülən işlər dəyərsiz, yaxud az dəyərli işlər idi, elm təqlidçi və ikinci dərəcəli idi. Ürəkdən çağlayan, həqiqətən həyata zinət bəxş edən və məmləkətdə əhəmiyyətli işlər yaradan işi görmədilər, bacardıqları qədər məhv etdilər. Ürəkdən çağlayan yaradıcı elmi məhv etdilər. Həmin sülalələr bu cinayətləri törətdilər. Nəticədə elm,

---

[383] Beynəlxalq Əmək və Müəllim günlərində fəhlə və müəllimlərlə görüşdə çıxışından: 1994.

[384] Kuhgiluyə və Buyer Əhməd vilayətinin universitet mənsubları və mədəniyyət işçilərilə görüşdə çıxışdan: 1994.

sivilizasiya, bilik və təcrübə yarışmasında ya digərlərindən öndə olan, ya da ən azı zəif qalmayan İran xalqı illərlə geri qaldı.[385]

**İstedadın kənarında iradə və səyin zəruriliyi**

Bu gün bizim çoxlu imkanlarımızın olmaması öz keçmişimizə görədir. Qərb və Avropa ölkələrinin anbaan yeni elmi kəşflər etdiyi bir dövrdə İran xalqında bu istedadlar vardı, amma təəssüf ki, yuxuda idi və bir iş görmədi. Odur ki, iradə və səy lazımdır.[386]

**Zalım şah rejimlərinin istedadlar barədə siyasəti**

Siz inqilabdan öncəki dövrü xatırlamırısınız. Bəziləriniz hələ doğulmamışdınız, bəziləriniz də azyaşlı və uşaq idiniz. O zaman zalım şah rejiminin siyasəti belə idi ki, ölkə əcnəbilərin əli ilə idarə olunsun. Bu ölkənin elmi qüvvəsi əcnəbilərin ixtiyarında idi. Əcnəbi ekspertlər universiteti, ordunu, dövlət qurumlarını və ölkənin tədqiqat mərkəzlərini ələ keçirmişdilər. Parlaq istedad gördükdə onu öz ölkələrinə aparırdılar. Bu gün Avropa və Amerika ölkələrində görkəmli iranlı şəxsiyyətlər yaşayırlar. Onları gənclikdən oralara aparmışlar, indi də başqa bir dövlətin, başqa bir ölkənin mənafeyinə xidmət edirlər. Bu iş xaricilər – yəni ölkəmizin müxtəlif orqanlarına hakim şəxslər tərəfindən görülürdü. Seçən və qərar verən onlar idi. Bu xalqın heç bir rolu və təsiri yox idi. Bu məsələ zalım şah dövrünə aiddir.[387]

**Pəhləvi və Qacar hökumətlərində elmi gerilik**

İran xalqı əcnəbilərin müdaxiləsi, azğın rejimlər, zalım Pəhləvi və Qacar hökumətlərinə görə - bu iki mənfur sülalə illərlə hökmranlıq edib bu ölkəyə əcnəbilərin ayağını açdılar - elm və bilik karvanından geri qaldı. İran xalqı o zaman həyatını abadlaşdıra, inkişafa və həqiqi irəliləyişə nail ola bilər ki, öz ayağı üstə dayansın, həyatda ilahi hökmləri icra etsin,

---

[385] Müəllim Günü və Beynəlxalq Əmək Günü münasibətilə fəhlələrlə, nümunəvi müəllimlərlə və Mənzil Fondunun əməkdaşları ilə görüşdə çıxışdan: 1995.

[386] Elmi olimpiadalarda iştirak edən şagirdlərlə görüşdə çıxışdan: 1995.

[387] Arvest kəndinin şagirdləri ilə görüşdə çıxışdan: 1995.

düşmənin əl-ayağını bu ölkədən tamamilə kəssin. Bu, imamın yolu və tövsiyəsidir.[388]

**Qacarların və Pəhləvilərin elmi inkişafa etinasızlığı**

Keçmiş dövrlərdə biz elmdə geri qaldıq. Bizim xalqımız, elm adamlarımız istəyirdilər, amma dövlət qurumları fikirləşmir və əhəmiyyət vermirdilər. Qacar və Pəhləvi dövründə dövlət qurumları xalqın maraq göstərmədiyi şeyləri istəyirdilər. Hansı məsələdə ölkənin məsul şəxsləri və hakimləri ilə xalq arasında müştərək səy, uyğunluq və həmrəylik olurdusa, uğur da olurdu. Əlbəttə, inqilabdan sonrakı dövr üçün bunun çoxlu nümunələri var.[389]

**Ölkənin geriliyə məcbur edilməsi**

Mənim əzizlərim! Bu xalq elm, mədəniyyət, düşüncə, elmi və ictimai inkişaflar baxımından geridə deyildi. Onu müxtəlif dövrlərdə təcavüzkar güclər azğın hakimlərin köməyi ilə buna məcbur etdilər, İran xalqını zor və zülmlə bəşər sivilizasiyasından və elmi inkişaflardan saxladılar. İslam gəlib bu xalqı diriltdi, onu öz bacarıqları ilə tanış etdi, Allah-Taala bu xalq üçün peyğəmbərlərin dili ilə danışan, onu oyadan, öz hüququ və qüdrəti ilə tanış edən bir müəllim göndərdi. Bu müəllim başa saldı ki, bir xalq iradə göstərsə, necə böyük möcüzələr yaradar. Bu xalq oyandı. On səkkiz ildir bu xalq bu səmavi və ilahi dərslərdən istifadə edib düşmənlərin onun əlinə, ayağına və boynuna doladığı cadu zəncirlərini biri o birindən sonra aça bildi, elm və ölkə quruculuğu baxımından hərəkətə başladı, əxlaq və dini dəyərlər baxımından çox inkişaf etdi.[390]

**Rza xan və hövzələrdə iyirmiillik elmi durğunluq**

---

[388] Xalqın müxtəlif təbəqələri və həzrət İmam Xomeyninin vəfatının ildönümü mərasimində iştirak edən xarici qonaqlarla görüşdə çıxışdan: 1996.

[389] Bədən Tərbiyəsi Komitəsinin sədri, müavinləri və ölkənin idman federasiyalarının başçıları ilə görüşdə çxışdan: 1996.

[390] Əzəmətli "Qüds yolu" manevrində iştirak edən silahlı qüvvələrin toplantısında çıxışdan: 1997.

Eyni işi başqa bir formada Rza xan gördü; mədrəsələrin qapısını bağladı, əmmaməyə qadağa qoydu, ruhaniləri cəmiyyətdən təcrid etdi, hövzələri bağladı, alimləri dini tədris kürsüsündən endirdi, tələbələri didərgin saldı, təxminən iyirmi ilə yaxın bir müddətdə elmi hövzələrdə faciəli elmi bir durğunluq yaratdı. Üstündən 40-50 il ötdükdən sonra bu boşluq hələ də hiss olunur. Onlar ruhaniliyi məhv etmək istəyirdilər. Rza xan xaraktercə quldur idi, bu işi də quldurluqla gördü.[391]

**Keçmiş rejimlər tərəfindən iranlının yaradıcı qüvvəsinin təhqir edilməsi**

Mənim əzizlərim! İran gəncləri! Bu ölkəyə və bu müqəddəs torpağa hakim olan xain rejimlər uzun illər sizin atalarınızı təhqir etdilər, əcnəbilərin İran xalqını təhqir etməsinə imkan yaratdılar. Nə iranlı siyasətçinin nəfəs almağa cürəti vardı, nə iranlı alimin və mütəxəssisin işləmək qüdrəti, nə iranlı gəncin yenilik və yaradıcılıq qüvvəsi, nə iranlı hərbçinin hətta bu ölkənin sərhədlərini müdafiə etmək gücü. Amerikalılar, müstəmləkəçilər və İngiltərənin qoca müstəmləkə imperatorluğu İran xalqını belə görmək istəyirdi, belə xoşlayırdı; cibi pulla dolu olan cansız və ölü bir bədən kimi; gəlib ona istədiklərini etsinlər və sərvətini talayıb aparsınlar.[392]

**Qacar və Pəhləvi hökumətləri vasitəsi ilə elmi dalan yaratmaq**

Belə olmaz. Biz işləməli, elmi işlər görməliyik. Qacarların və Pəhləvilərin şahlığı dövründə bu ölkənin başına gətirilən və adətən diqqətdən kənarda qalan ən böyük faciələrdən biri budur ki, dünyada elm qapılarının açıldığı zaman bunlar İranı bir dalanda saxlayıb, hərəkət və inkişafa qoymadılar. Ən böyük cinayət budur. Bu, öldürməkdən, yandırmaqdan, həbsə salmaqdan və işgəncə verməkdən qat-qat ağırdır. Bu, neftin pulunu mənimsəməkdən və əcnəbiləri hakim etməkdən ağırdır. Bu, çox mühüm məsələdir, amma heç kəs buna diqqət yetirmir.[393]

---

[391] Məşhəd Elm Hövzəsinin tələbələri ilə görüşdə çıxışdan: 1997.
[392] "Zülfüqar manevri" mərasimində çıxışdan: 1997.
[393] Ölkə üzrə universitet rektorları ilə görüşdə çıxışdan: 1998.

**Pəhləvi fəsadının və asılılığının elmi inkişafa mane olması**

Amerikalılar uzun illərdir elmi işlərdə çalışırlar. Amerikalılar bu sahədə azad şəkildə, həm öz milli imkanları, həm də digər ölkələrdən qarət etdikləri imkanlar sayəsində alim yetişdirəndə və inkişaf edəndə bizim xalqımız elə bir quruluşun çomağı altında idi ki, qorxu və asılılıq yaratmaqla, siyasi və əxlaqi fəsadlarla iranlı alimə hətta düşünmək imkanı vermirdi. Siz istəyirsiniz ki, belə bir şəraitdə biz ABŞ səviyyəsində və onunla ayaq-ayağa irəliləyək?! Bu, artıq gözləntidir.[394]

**Qacar və Pəhləvi vasitəsi ilə İranın geridə saxlanması**

Pəhləvi və ondan öncə Qacar rejiminin ən böyük cinayəti - Pəhləvilər elə fəlakət törətdilər ki, tarixin cinayətkarlarının üzünü ağartdılar. Onlar da çox pis idilər, lakin bunlar onlardan on qat artıq pis idilər - bu böyük, istedadlı, bacarıqlı, ağıllı, elmli, inanclı və mədəni xalqı əsir etmək, psixoloji və fiziki cəhətdən əl-ayağını zəncirləmək idi. Dünyanın Yaponiya, Avropa, Amerika kimi elm mərkəzləri yarışabənzər səylə çalışdıqları bir zamanda bu sahədə ən azı onlarla yan-yana inkişaf edə bilən bu güclü rəqibi saxladılar və yarışda iştirak etməyə qoymadılar.[395]

**Geriliyin səbəbkarları: Avropalılar və daxili diktatorlar**

İran heç zaman birbaşa müstəmləkə altında olmamışdır. Amma görün Qərb dövlətlərinin təsiri İrana nə etdi: bizi yüz il geridə saxladılar. Biz bir zaman dünyada elmin öncüllərindən idik, iranlı elmi, biliyi və düşüncəsi dünyada məşhur idi. Xalqların inkişafı dövründə avropalılar daxili diktatorlarımızın köməyi ilə bizi geridə saxladılar. Biz sivilizasiya karvanından yüz il geri qaldıq və İranda bu qədər zülm baş verdi, bu qədər ayrıseçkilik edildi. Sizin hər biriniz öz ölkənizdə Qərb sivilizasiyasının xalqınıza vurduğu zərbələri müşahidə edirsiniz.[396]

---

[394] Tehran Universitetindəki sual-cavab toplantısındakı söhbətlərdən: 1998.

[395] Parçin silahqayırma kompleksinə baxış keçirərkən etdiyi çıxışdan: 1998.

[396] İslam Konfransı Təşkilatının Təbliğat Fəaliyyətlərini Əlaqələndirmə Komitəsinin üzvləri ilə görüşdə çxışdan: 1998.

**Qacar və Pəhləvilərin inkişaf əleyhinə siyasətləri**

Bir zaman bu ölkəyə, bu topağa, bu sərvətlərə istedadları öldürən rejimlər hakim olmuşdular. İstedadları öldürmələrinin dəlili budur ki, avropalıların bu ölkəyə daxil olmasından inqilaba qədər ötən yüz ildə - təxminən 1879-1979-cu illərdə, yəni əvvəlcə Qacarlar dövrünün ikinci yarısında, sonra da Pəhləvilər dövründə bu ölkədə elm, elmi inkişaf, mütəfəkkir beyin və elmi hərəkət görünmədi, yəni buna imkan vermədilər. Görkəmli bir şəxs tapılanda da, oğurlayıb başqa yerə apardılar və orada istifadə etdilər. Bütün dünyanın qələbəyə, inkişafa, sivilizasiyaya və maddi yenidənqurmaya sarı dördnala çapdığı bir dövrdə ölkəmizi bədbəxt vəziyyətdə saxladılar və zəhərli işlərlə məşğul etdilər.[397]

**Keçmiş rejimdə istedadlara qarşı etinasızlıq**

Siz ölkənin indiki vəziyyətini görürsünüz. Bu ölkədə hər kəs, xüsusən də siz gənclər mütləq bilirsiniz ki, biz dünyada elm, sənaye, texnologiya və tədqiqat baxımından öz layiqli yerimizi tutmaq üçün illərlə çalışmalıyıq. Bu gerilik ölkənin və xalqın böyük potensialından istifadə edə bilməyən bacarıqsız rejimin əlliillik hakimiyyətinin təsiridir. Siz bugünkü istedadı görürsünüz. Görün bizim gənclərimiz dünyanın elmi olimpiadalarına necə çıxırlar! Keçmişdə bu istedadlardan istifadə olunmurdu, onlara diqqət göstərilmirdi. Yalnız özlərinin qanunsuz məqsəd və istəkləri üçün onlardan istifadə edirdilər. Bəziləri buraxıb gedir, çoxları da qalırdılar, lakin istedadlarında heç bir inkişaf yaranmır və bir iş görülmürdü.[398]

**Keçmiş rejimdə asılı sənaye və özünü unutmuş elmi mühit**

Onlar bu xalqa qarşı bacardıqlarını etdilər. Bu xalq, bu istedadlar, bu beyinlər və bu gənclərin öz ehtiyaclarının bir hissəsini özlərinin istehsal etmək qüvvəsi və imkanı yox idi; "xaricə ehtiyacımız yoxdur" - demək imkanı yox idi. Ölkəyə bir sənaye, misal üçün, avtomobil, yaxud

---

[397] Mübarək ramazan ayı ərəfəsində ruhani və təbliğatçılarla görüşdə çıxışdan: 1998.

[398] Şəfəq ongünlüyünün ikinci günü – İslam İnqilabı və Gənclər Günündə çıxışdan: 1999.

dəmirəritmə sənayesi gətirildikdə, çox yarımçıq şəkildə gətirilirdi, özü də başdan-ayağa asılı şəkildə. Satdıqları mütərəqqi və modern cihazların, misal üçün, hərbi təyyarələrin təmirinə icazə vermirdilər, mütləq xaricdə təmir edilməli idi. İqtisadi baxımdan yüz faiz asılı və istehlakçı, elmi baxımdan təxminən sıfır həddində idik. Bu xalqın yeni dünya elminin bazarında heç bir yeni sözü yox idi. Universitetlər kəmiyyət baxımından da çox az idi. Pəhləvi rejiminin sonlarında ölkədə indikinin təxminən onda biri qədər tələbə vardı. Sinifdə, dərsdə hər hansı bir sahədə - istər humanitar, istər texnoloji, sənaye, istərsə də təbii elmlərdə deyilənlər digərlərinin sözləri idi. Elmi baxımdan yeni bir şey yox idi.[399]

**Son iki-üç əsrdə ölkənin elmi istedadlarına etinasızlıq**

Son iki-üç əsrdə təəssüf ki, biz elm sarıdan çox geridə qalmışıq. Bu dövrdə ən böyük günahı və təqsiri istedadları məhv edən hakimlər etdilər. Biz nümunələrini bilirik. Əlbəttə, Səfəvilərin sonuna qədər yaxşı idi. Bəlkə Səfəvilərdən bir qədər sonra da elmi inkişaf və böyük düşüncələrin yetişdirilməsi baxımından böyük alimlər peyda olublar. Lakin sonra tədricən məhv oldu. Əvvəla həvəsləndirən yox idi; nə elm öyrənməyə həvəsləndirən vardı, nə də istifadə edərək həvəsləndirən.

Bunun çoxlu nümunələri var, onları tək-tək araşdırmaq olar. Məsələn, silah istehsalında Qacarların ilk dövründə bir sənətkar yeni bir silah düzəltdi. O vaxt dünyada ondan inkişaf etmiş silah yox idi, dünyanın ozamankı silahları kimi idi. Amma bəzi əməllərlə onun özünü də məhv etdilər, silahını da.

Qacarlar dövründə bir coğrafiyaşünas vardı. O, Xuzistan bölgəsinə gedib o dövrə görə çox dəqiq xəritə çəkdi. Bütün imkanları, görülən, görülməyən və görülməli olan işləri bir məruzədə nizama saldı - bu məruzə bu gün də mövcuddur - amma ona əsla diqqət yetirilmədi. Mən müharibə və ondan sonrakı hadisələrlə əlaqədar olaraq Xuzistanla bir qədər tanışam. Bu yazını görəndə öz-özümə fikirləşdim ki, o zaman buna əməl olunsaydı, bizim Xuzistanımız çox inkişaf etmiş olardı. O, düz ehtiyaclar üzərinə barmaq qoymuşdu, Xuzistanın suyunu və torpağını

[399] Tehranın cümə namazı xütbələrindən: 1999.

araşdırmışdı. Belə məsələlərə əsla diqqət yetirilmirdi. Lakin müxtəlif sahələrdə istedadlı şəxslər vardı.

Sənaye sahəsində - sözsüz ki, elm sahəsi ayrıdır - bəzi şəxslərin nailiyyətləri vardı, amma diqqətdən kənarda qalırdı, hörmətsizliklə, qədirbilməzliklə və hərdən bəzi xarici tacirlərin müdaxiləsi ilə üzləşirdi. Öz-özlərinə fikirləşirdilər ki, burada belə bir məhsul istehsal olunsa, onların ticarəti dayanar. Bütün bu amillərin nəticəsi olaraq bu ölkə son iki-üç əsrdə elm və sənaye baxımından bu vəziyyətə düşmüşdür.

Xoşbxətlikdən, siz o günləri görməmisiniz. Siz Allahın lütfü ilə hərəkətin başlandığı və inkişafın hasil olduğu bu günü görürsünüz. İnqilabdan öncəki günlər elm, sənaye, inkişaf və bu kimi məsələlərdən xəbərdar olan hər kəs üçün həqiqətən ağlamalı idi. Əgər yaxşı istedadı olan bir adam tapılsaydı da, qalxıb buradan getməkdən başqa çarə görmürdü. Beyin alverçiləri dəyərli və fəal beyinləri öz ölkələrinə aparırdılar, bizim kimi ölkələr bu beyinlərdən məhrum qalırdı.[400]

### Ordunun tarixində tədqiqat və texnologiyaya qarşı maneçilik

Özlərinə sərf edən, özlərinə, öz zahiri cah-calallarına aid olan qədərincə orduya zahiri görkəm, təntənə və bərbəzək verirdilər, lakin elm, texnologiya, tədqiqat və istehsal əsla mövcud deyildi. Hərbi Hava Qüvvələri bir texnika və alət göstərib desin ki, bunu mən düzəltmişəm, mənim övladlarım öz düşüncələrinin məhsulu ilə düzəltmişdir; əsla belə bir şey yox idi, yəni icazə vermirdilər. İnsan həmin insandır, Hərbi Hava Qüvvələrinin ozamankı gənci istedad və keyfiyyət baxımından bugünkü gənci kimi idi, lakin icazə vermirdilər. Təhsil xüsusi bir çərçivədə, əcnəbi ölkədə müəyyən şəraitdə verilirdi; təkcə hərbi işdə yox, həm də mədəni və etiqadi sahələrdə əmr, meyar və üsullar əcnəbilərin təsiri altında və əlində idi. Onlara üç-dörd texnika da verirdilər.

Orduya bir texnika verirdilər, amma onun bir hissəsi yerini dəyişdikdə, yaxud xarab olduqda daha istifadə edə bilmirdilər. Bu necə ordudur və necə müstəqil ola bilər?! O zaman bu haqda söhbət getmirdi ki, İran ordusu öz beyninin məhsulundan istifadə edə bilsin. Əsla! Hətta

[400] Ölkə üzrə elmi elitanın nümayəndələri ilə görüşdə çıxışdan: 1999.

bundan da getmirdi ki, ona verilən təyyarəni, radarı, yaxud müasir elektron cihazı dəqiq öyrənsin; buna da icazə verilmirdi. Bu bir varlığın inkişafının qarşısını alan daş, hicab və pərdədir. Bu varlıq key və laqeyd qalana qədər bu pərdə var, özünə gəldikdə isə pərdələri və maneələri götürür. Bu baş verdi və ordu özünü İran xalqının ön sıralarında yerləşdirdi.[401]

**Keçmiş rejimdə elm və sənayenin dayanması**

İnqilabdan öncə sənaye inkişafı dövründə İranda bu işi dayandırdılar. Sənayedə idxalatın qarşısını almalı olan inkişaf baş vermədi. Bu ölkədə fəal sənayenin qarşısı alındı, xaricə asılılığı idxal edilən məhsullar qədər, yaxud ondan da artıq olan sənaye gücləndirildi. Elmi dayandırdılar. Universitet və tələbədən o qədər dəm vurdular, amma əməldə ölkə universitetlərinin ən az elmi fəaliyyəti də yox idi. Kimin fəal beyni və parlaq istedadı vardısa və işləmək istəyirdisə, ölkə daxilində məhv edilməsəydi, xaricə gedib işləməyə məcbur olurdu; burada imkan yox idi.[402]

**Keçmiş rəhbərlərin elmi gerilikdən ötrü məsuliyyət daşıması**

Ölkəmiz elm və düşüncə işində ən azı inqilabın başlandığı zamana qədərki on illərlə, bəlkə bundan da artıq geridə olmuşdur. Təəssüf ki, ölkə üçün iş görə bilən və görən şəxslər az idi. İş görə bilən, lakin iş imkanı verilməyən şəxslər dəfələrlə artıq idi. İş görə bilən, lakin bir tərəfdə oturub öz işi ilə məşğul olmağı tərcih edən insanlar da az deyildilər; belələrini də tanıyırıq. Sözsüz ki, bunların hamısının günahı ölkənin taleyi və mənafeyi haqda düşünməyən və buna əhəmiyyət verməyən rəhbərlərin üzərinə düşür. Elə olduqda bu vəziyyət də təbiidir. Nəticə belə olub ki, bu ölkə bütün bu istedadlı insanı, bütün bu elm, texnologiya, sənaye və müxtəlif

---

[401] Şəhid Səttari adına Aviasiya Universitetində Hərbi Hava Qüvvələrinin şəxsi heyəti ilə görüşdə çıxışdan: 2000.

[402] Müqəddəs Məşhəd şəhərində həzrət Rzanın (ə) ziyarətçilərinin böyük toplantısında çıxşdan: 2000.

elmi sahələrin inkişafına və bəlli imkanlarına rəğmən, bu gün çox böyük fərqlə geridədir.[403]

**Elmi inkişaf olmadan modern məhsullara malik olmağın nəticəsi**

Keçmişdə heç bir elmi inkişafımız yox idi. Eyib bunda deyildi ki, modern məhsullarımız yox idi; çünki varımız idi. F-14 bu ölkəyə gələndə dünyanın çox yeni təyyarələrindən idi. Amma bu bir ölkə üçün kifayətdir?! Bir xalq üçün kifayətdir?! Bizim problemimiz elmin, bacarığın olmaması, ölkənin və xalqın elmi qüvvəsinin və fitri istedadının inkişaf etməməsi idi. Bəli, eyib bu idi. Odur ki, verdiklərini aldıqda tamamilə əliboş qalırdı; ehtiyat hissələrini satmayanda təyyarə yerdə qalırdı.[404]

**Ölkənin bugünkü geriliyinin əsas səbəbi**

Birincisi elm öyrənməyə çalışmaqdır. Elmə əhəmiyyətsiz yanaşmayın. Bilin ki, bu gün ölkənizdə gördüyünüz geriliyin əsas səbəbi ölkə gəncinin sizin yaşlarınızda olduğu, elm öyrənməli və istedadlı insanının istehsal, quruculuq və yaradıcılıq üçün həvəsləndirilməli olduğu zamanda - o dövrdə dünya hələ bu möhtəşəm inkişaflara nail olmamışdı, biz də digər xalqlarla bir səviyyədə idik - İran rəhbərlərinin səhlənkarlıq və xəyanət etmələri, özləri ilə məşğul olmaları, öz mütləq hakimiyyətlərini düşünmələri və xalq barədə fikirləşməmələridir. Biz buna görə geridə qaldıq. Bu gün cəmiyyətdə çoxlu yoxsulluq və catışmazlıq görürsünüzsə, əsas səbəbi budur ki, həm Qacar, həm də ondan sonrakı mənfur Pəhləvi rejimlərinin başçıları bu ölkəni və onun gənclərini elm karvanından geri saldılar.[405]

**Qacar və Pəhləvilərin böyük günahı - dini və elmi zəiflətmək**

Mən sizə deyim: əgər o zaman ölkəmiz elmi işlərə qoşulsaydı, dindar olduğumuza görə, elm və din bir-biri ilə qarışardı, bu gün dünyanın ən yaxşı xalqlarından sayılar, bəşəriyyətə yeni əzəmət və ucalıq bəxş edə

---

[403] Ərak şəhərinin elmi elitası ilə görüşdə çıxışdan: 2000.
[404] Korpusun Hərbi Hava Qüvvələri layihəsinin məsul şəxsləri ilə görüşdə çıxşdan: 2001.
[405] Məktəb Parlamentinin nümayəndələri ilə görüşdə çıxşdan: 2001.

bilərdik. Onlar nəinki elmi gücləndirmədilər, avropalıların ikinci və üçüncü dərəcəli elmi əsərlərinin tərcüməsi ilə kifayətləndilər, ölkənin daxili yaradıcılığına heç bir diqqət yetirmədilər, digər tərəfdən dindarlığı da zəiflətdilər. Yəni hər iki qanadı kəsdilər. Pəhləvi və Qacar sülalələrinin böyük günahları budur.

Bəzi adamlar axtarırlar ki, bunlar hansı günahı etmişlər, xaricilərlə hansı alçaldıcı müqaviləni bağlamışlar; sözsüz ki, belə nümunələr də çoxdur, amma İranda İslam inqilabından öncəki hökumətlərin dosyesinin qara nöqtəsi budur: dini zəiflətdilər, elmin qarşısını aldılar, yolunu dəyişdilər, gənclərin, bütün alimlərin və istedadlıların düşüncəsinə, elminə və yaradıcılığına dəyər vermək əvəzinə yaxşıları dəstələyib əcnəbilərə təqdim etdilər, qalanının başını da ikinci və üçüncü dərəcəli əsərlərin tərcüməsi ilə qatdılar, heç olmasa yeni, təzə və aktual əsərlərin tərcüməsi ilə də yox.[406]

**İnqilabdan öncə istedadların məhv edilməsi**

Biz mənfur rəhbərlərin, avtoritar rejimlərin, Qərbə və ABŞ-a bağlı hökumətlərin əlində qalmışdıq. Elmin doğuş və inkişaf dövrü olan bu 150-200 ildə harada öz istedadımızı çiçəkləndirmək istəmişiksə, başımızdan vurublar. Əgər Qərbdən gələn bu kiçik sənayeni - şüşəni, parçanı, fotoqrafiya şüşələrini düsəltmək istədiksə, mane oldular. Dünyada istehlakçılarının olmasını istəyən transmilli korporasiyalar da bunu istəmirdilər, buna görə qarşısını alırdılar. Bizim keçmiş hökumətlərimiz asılı, azğın, pis və ləyaqətsiz olmuşlar.

İnqilabdan sonra bu sədlər sındı. Əgər məcburi müharibə və bəzi başqa məsələlər olmasaydı, inqilabçı hakimiyyət bundan yaxşı işlər görə bilərdi. Allahın lütfü ilə inşallah gələcəkdə İslam quruluşunun və inqilabın sayəsində bu işlər görüləcək. Bu bizim ölkəmizin qəti taleyidir.[407]

**Elm karvanından geri qalmaq - tarixi reallıq**

---

[406] Yenə orada.
[407] Universitetlərin nümunəvi tələbələri ilə görüşdə çıxışdan: 2002.

Qarşılıqlı olaraq ölkənin elmi toplumundan gözləntilər də var. Bu söz hansısa bir şəxsə, universitetə və ya mərkəzə müraciət deyil, ölkənin elmi toplumuna, elm və tədqiqat adamlarına müraciətdir. Biz müəyyən tarixi səbəblərə görə dünyanın elm karvanından geri qalmışıq. Bunu inkar edə bilmərik. Bu bizim üz-üzə qaldığımız reallıqdır. Halbuki bizim xalqımızda alim olmaq, elmi istehsal etmək və onun sərhədlərini yeniləmək bacarığı həmişə olmuşdur. Bizə belə tarixi zülm olunmuşdur. Bu gün sizin cəmiyyətdə elmin inkişafına, həvəsə, elmin əsaslı bir məsələ kimi ortaya qoyulmasına aid müşahidə etdikləriniz inqilabdan sonrakı dövrə aiddir. İnqilabdan əvvəl elm yaddan çıxmışdı. Universitet vardı, alimlər vardılar, amma elm sözün həqiqi mənasında mühüm məsələlərdən sayılmırdı. Uzun illər belə oldu və bizim xalqımız elm karvanından geri qaldı.[408]

**Pəhləvilərin böyük cinayəti: milli istedadın təhqir edilməsi**

Bu sahədə Pəhləvi hökumətlərinin çox böyük cinayəti var. Çünki bu mədəniyyəti oturuşdurdular və dedilər ki, iranlı gedib palçıq aftaba düzəltsin. Təəssüf ki, belə düşüncənin tör-töküntüləri bizim ölkəmizdə hələ də mövcuddur. Hələ də bəziləri öz insani istedadlarına inanmaq istəmirlər. Bu, xalqla onun qiymətli sərvətləri arasında qalın beton kimi böyük bir sədd oldu; elə bir insani istedad ki, ibn sinalar, farabilər, zəkəriyya razilər və digər elm böyüklər yetişdirmişdi. Elmi bunlar avropalılara verdilər. Buna əsasən, bu möhtəşəm resursla İran xalqı arasında ayrılıq saldılar.[409]

**Qacar və Pəhləvilərin asılı diktatorluğunun nəticələrindən olan elmi gerilik**

Qədim padşahlar diktator olsalar da, əcnəbi güclərdən asılı və onların fərmanına müti deyildilər. Lakin Qacar dövrünün sonlarından və bütün Pəhləvi dövründə padşahlar həm diktator idilər, həm də asılı. Bu, keçmişdə İranda hakim olan siyasi quruluşun əlavə xəstəliyi oldu. Bu diktatorluğun və asılılığın ölkəmizə və xalqımıza çoxlu təsir və nəticələri

---

408 Şəhid Behişti Unversitetinin müəllimlərilə görüşdə çıxışdan: 2003.
409 "Royan" Tədqiqat Mərkəzinin üzvləri ilə görüşdə çıxışdan: 2003.

olmuşdur. Bizim ölkəmizi geridə saxlayan, təbii sərvətlərimizi düşmənlərə yedirdən, xalqımızın düşüncə və elm inkişafına mane olan amil bu diktatorluq və asılılıq idi. Biz bir zaman dünyada elmin bayraqdarı idik, sonra isə digərlərinin elminin zəif və əhəmiyyətsiz cəhətlərinin və artığının dilənçisi olduq, digərlərinə əl açdıq. Onlar da istədikləri zaman əlimizə nəsə qoydular, istəmədikdə - əksər vaxtlarda da istəmirdilər - imtina etdilər. Buna əsasən, bizim xalqımız həmin diktatorluq və asılılıq səbəbindən geriqalmış və zəif bir xalq oldu.[410]

**İnqilabdan öncəki yuxu və hiylə dövrü**

Biz inqilabdan qabaq uzun illər elmdən uzaq qalmışıq. Bir dövr yuxu və mütləq qəflət dövrü idi. Bir dövrdə isə təbii surətdə xalqlar arasında oyanış yarandı. Bu dövr də aldatma və hiylə dövrü oldu. Elmin ölkəyə daxil olmasına qoymur, xalqın başını qatır, tədqiqat yolunu açmır, istedadları yetişdirmir, həvəsləndirmirdirlər.[411]

**Elmi gerilikdə şah sülaləsinin günahı**

Nə üçün İran, necə deyərlər, inkişaf etməkdə olan, yəni inkişaf etməmiş ölkələrin sırasında olmalıdır? "İnkişaf etməkdə olan" kompliment xarakterli bir ifadədir, əslində geriqalmış və inkişaf etməmiş deməkdir. Məgər bizim zehnimiz, istedadımız və düşüncə qüvvəmiz bu gün 200 ildir elm dünyasında öncül olanlardan azdır?! Görürsünüz ki, az deyil. Onlar elm baxımından bizdən 200 il irəlidədirlər. Bu, padşahların, diktatorların, bu ölkədə hökmranlıq etmiş mənfur sülalələrin, Pəhləvi xanədanının günahıdır. Bu gün mənim və sizin malik olduğumuz və bu ölkədə hakim olmalı hissi bir gün boğdular. Nə üçün boğdular? Çünki ölkənin başçıları onun belə hərəkət və inkişaf etməsini istəməyən güclərin əlaltıları idilər. Onlar da sərvət qaynaqlarını əldən vermək istəmirdilər.[412]

**İranda elmi geriliyin nəticələri**

---

[410] Tehranın cümə namazı xütbələrindən: 2004.

[411] Universitet cihadının ekspertləri və Elmi Şura üzvləri ilə görüşdə çıxışdan: 2004.

[412] Həmədan vilayəti universitetlərinin müəllim və tələbələri və həmədanlı gənclərlə görüşdə çıxışdan: 2004.

Keçmişdə bu ölkədə elm bulaqları qurumuşdu. Bu iş müxtəlif yollarla baş tutmuşdu. Biri bu idi ki, Qərbin elmi tərəqqi sindromu qarşısında ölkəmizdə belə bir təsəvvür çox ciddi şəkildə formalaşmışdı və təkidlə deyilirdi ki, iranlı qadir deyil, iranlı bacarmır, iranlının elm və sənaye inkişafı üçün lazım olan istedadı yoxdur. Bu gün bu söz sizin qulaqlarınıza tanış deyil, amma bilin ki, uzun müddət ölkədə bu düşüncə tərzi yayılırdı. Deyirdilər ki, iranlı ancaq ədəbiyyatı bacarır, özü də poetik ədəbiyyatı - gülü-bülbülü və sair belə məsələləri. Ədəbi araşdırmalarımızı da avropalılar və Avropa şərqşünasları aparırdılar. İranlı ciddi və əsaslı işləri bacarmırdı.

Elmi yoxsulluğun nəticəsi sənaye yoxsulluğu oldu. Sənaye yoxsulluğunun nəticəsində adi dünya yaşayışı səviyyəsinə nail olmaq üçün bütün ehtiyatları xərcləməli olduq; yəni həmişə idxal etdik, montaj sənaye yaratdıq, başqalarının ardınca qaçdıq, neft və digər daxili ehtiyatları əldən verdik. Başqa bir nəticəsi də bu oldu ki, bu ölkədə humanitar istedadlardan əlavə, həm də çoxlu təbii potensiallar məhv oldu. İnsanlar alim olmadıqda, sənayeyə malik olmadıqda, elm və texnologiyaları olmadıqda, özlərinin təbii sərvətlərindən xəbərsiz qaldılar. Uzun illər ötürdü; bu ölkədə neft var idi, amma heç kim bilmirdi ki, o nədir və hansı işə yarayır. İnkişaf etmiş əcnəbilər isə onu tanıyır, praktik yerlərini yaxşı bilirdilər. Buna görə də, gəlib onu kəşf etdilər, ona sahib çıxdılar və öz xeyirlərinə işlətdilər. Həm bizim ölkəmizdə, həm də dünyanın çoxlu neft ölkələrində belə etdilər.

Bütün bunlar elmi geriliyin nəticəsidir. Elm olmayan yerdə sənaye də yoxdur; sənaye olmasa, cəmiyyətin çoxlu sərvətləri gizli qalar, bütün ehtiyatlar günün sənayesini əldə etmək üçün xərclənər. Bunun ardınca isə əcnəbiləri izləmək, yad mədəniyyətləri yamsılamaq və çarəsiz halda onların siyasətlərinə tabe olmaq gəlir. Bütün bunlar elmsizlikdən qaynaqlanır.[413]

## Dünyada elmi yarışın getdiyi zaman bizim xalqımızın zəncirlənməsi

---

[413] Mübarək ramazan ayında tələbələrlə görüşdə çıxışdan: 2004.

Sonrakı məsələ bizim beynəlxalq mövqeyimizdir. Bu, üzərində təkid etdiyim və ilk müraciət obyektinin də siz tələbə gənclərdən ibarət olduğu elm məsələsidir. Biz öz elmsizliyimizin altını çəkirik. Elmi hərəkətin yeni başlandığı, elmi fərqlərin hələ güclənmədiyi və İran xalqının ön sıralara keçə bildiyi zaman bizi zəncirlədilər, ən azı inkişafımıza kömək etmədilər. Kimlər iş başında idilər? Nasirəddin şah, Müzəffərəddin şah kimilər və Qacar sülaləsinin digər bacarıqsız xainləri. Onlardan sonra da dərhal Rza xan və oğlu Məhəmmədrza kimilər hakimiyyətə gəldilər. Onlar nəinki ölkədə elmə şərait yaratmadılar, hətta istedadları öldürdülər və inkişafa icazə vermədilər. Buna görə geridə qaldıq və məsafə çoxaldı.[414]

**Bizim geriliyimizin Qacar və Pəhləvi dövründən başlanması**

Əgər ölkənin məsələn, son yüzillik keçmişinə qayıtsaq - bizim tarixi geriliyimiz də həmin yüz ildə başladı; çünki biz bir dövrdə elmi baxımdan öncül, başqa bir dövrdə də orta səviyyəli ölkələrdən idik – görərik ki, bizim geriliyimiz elm dünyasının yeni dönüş nöqtəsinə çatdığı və dünyada yeni yarışmanın yarandığı zamandan başlandı. Düz həmin həssas dövrdə və xalqımızın öz istedadı ilə yüksələ bildiyi həmin yarış anında şahlar, Qacar sülaləsindən olan başçılar, sonra da Pəhləvi sülaləsi bu xalqı elə vəziyyətə saldı ki, bu yarışda iştirak edə bilmədik. Fərz edin dünya, yaxud qitə səviyyəsində mühüm bir idman yarışında gənc, fəal, həvəskar və istedadlı bir milli komanda var. Ancaq yarışda iştirak etməyin tam zamanında, yaxud yarışa bir az qalmış komandaya virus, yaxud yuxu gətirən bir maddə vururlar. Nə baş verər?! Bəllidir ki, komanda üzvləri yarışda iştirak edə bilməzlər. Yarışda iştirak etmədiyində isə gerilik qətidir. Bu, müstəbid, antimilli və bir müddətdən sonra həm də asılı olan padşahların bu xalqın başına gətirdikləri bəladır. Və təbii ki, biz də geridə qaldıq.[415]

**Çox sərvətli bir xalqı geridə saxlamaq**

---

[414] Vəhdəti Gücləndirmə Şöbəsinin üzvləri ilə görüşdə çıxışdan: 2005.

[415] Şəhid Səttari adına Aviasiya Universitetinə baxış keçirərkən etdiyi söhbətlərdən: 2005.

Mənim əzizlərim! Bizim xalqımız on illərlə getməli olduğu yoldan geri saxlandı. Biz bu geriliyi düzəltməliyik. Bunlar həqiqətdir, bizim tariximizdir. Bizim xalqımız bu gün elm sahəsinə qoşulduqda dünyada heyrət doğurur, hərbi qarşıdurmaya daxil olduqda geniş imkanlı düşmənləri təəccübləndirir, siyasi güc sınaqlarına qoşulduqda güclülərə rəqib olur. Bizim belə bir xalqımız var. Bu xalq bu insani istedadı ilə, bu geniş, məhsuldar, təbii sərvətlərlə dolu olan qızıl torpaqla elmin, sivilizasiyanın, maddi və mənəvi tərəqqinin zirvəsində dura bilərdi. Amma elə iş gördülər ki, üçüncü dünya ölkələrindən oldu; özü də son sıralarda.

Bu ölkənin məlumatlı insanlarının tağut rejiminə bu qədər lənət oxumaları əbəs deyil. Ölkəmizdə belə bir cinayət törədildi və xalqımıza bu vəziyyət yaradıldı. Sonsuz zirvəyə pərvaz edə bilən bir xalqın qanadlarını kəsdilər, ayaqlarını bağladılar, yaraladılar. Bizim xalqımızı özünə bədbin, gələcəyinə ümidsiz, uzaq üfüqlərə çatmaq üçün passiv, digərlərinin qarşısında məftun və valeh bir xalqa çevirmişdilər. Lakin inqilab bu xalqı bərk tərpətdi, onun baxışını kökündən dəyişdirdi. Bizim xalqımız oyandı, hərəkət etdi, yola düşdü, özünü tanıdı, "bacarırıq" dedi və bacardı. İndi də inkişaf etmişdir.[416]

### Qacar və Pəhləvi dövrü - elmi gerilik dövrü

Biz elmdə geri qalmışıq; təkcə əlliillik mənfur Pəhləvi dövründə yox - əlbəttə, bu dövrdə elmi dərinlik baxımından məmləkətin evini yıxdılar - hətta ondan öncədən. Qacarlar və Pəhləvilər dövrü bu elmi geriliyin tərənnümləridir. Biz indi çalışıb bu dərin məsafəni yaxınlaşdırmaq istəyirik.[417]

### İstedadlar üçün imkan yaradılmamasının sonucu

Elmin güclü inkişaf dövrü olan bu 150-200 ildə ölkəmizə edilən ən böyük xəyanət bu idi ki, öz keçmişində Əbu Əli Farabi və Razi kimi şəxsiyyətləri olan bu istedadlı xalqı bugünkü elm dünyasında öz yerini tutmasına qoymadılar, ya da buna şərait yaratmadılar. Siz "qoymadılar" da

---

[416] Minlərlə Bəsic üzvü ilə görüşdə çıxışdan: 2005.

[417] İmam Sadiq (ə) Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxşdan: 2006.

deyə bilərsiniz - bu, bədbin baxışdır; "şərait yaratmadılar" da deyə bilərsiniz - bu, nikbin baxışdır. Hər halda, bundan az deyil. Qacar və Pəhləvi dövrlərində buna şərait yaratmamaqdan ibarət olan böyük günah onların üzərinə düşür.

Şərait yaranmadıqda bu xalqda və gənclərdə mövcud olan istedad iki-üç yoldan birini keçər. Biri budur ki, ümumiyyətlə, aşkara çıxmaz; sizin nə qədər fiziki gücünüz və fiziki inkişaf potensialınız olsa da, əvvəldən idman edib əzələlərinizi tərpətməsiniz, inkişaf etməzsiniz və bu istedad tələf olub batar. (İkincisi budur ki,) istedadı olan, amma bu istedadı çiçəkləndirmək üçün yolun olmadığını görən insan xarici ölkələrə gedər. Uzun illər boyu baş verən beyinlərin qaçışı məsələsi bizim tariximizin böyük bəlasıdır. İstedadlı və bacarıqlı insanlar dünyanın bir tərəfinə gedib işləmişlər. (Üçüncüsü budur ki,) bu istedad yanlış və səhv yollarda işlədilər. Çünki istedadlar üçün şərait yaradılmamışdır.[418]

**Elmi gerilik - zalım şahların hökmranlığının nəticəsi**

Biz uzun illər azğın və asılı hökumətlərin hökmranlığı səbəbindən beynəlxalq rəqabətlərdən kənar qalmışdıq. Bir zaman elm və mədəniyyətin öncülü olan İran xalqı zalım şahların və xalqdan uzaq qüvvələrin hökmranlığı səbəbindən elə vəziyyətə düşdü ki, dünyada elmi və siyasi müsabiqənin başlandığı təxminən 200 il öncədən bu tərəfə yarışdan kənarda qaldı. Xalqların müsabiqəsinə qoşulmayan bir xalqın isə təbii olaraq istedadları əriyir və uğurları dəyərsiz olur.[419]

**Çoxlu istedadlara rəğmən gerilik**

Həqiqət budur ki, ölkəmiz və cəmiyyətimiz inqilabdan sonrakı bütün bu dövrdə həssas anlar keçirmişdir. Bu arada gənclərin rolu, gəncliyin və gənclik istedadlarının təsiri səciyyəvi olmuşdur. Biz istedadlı xalqıq, əvvəllər də istedadlı olmuşuq. Lakin müstəmləkə və diktaturaya, sülalə hakimiyyətlərinə, haqsız və zalım hökumətlərə görə son iki-üç əsrdə dünyanın elm karvanından geri qaldıq.

---

[418] Atom Enerjisi Təşkilatının məsul şəxsləri ilə görüşdə çıxışdan: 2006.
[419] İmam Rzanın (ə) pak məqbərəsinin ziyarətçilərinin toplantısında çıxışdan: 2007.

Elmi gerilik özü ilə birgə iqtisadi, mədəni, hərbi və digər gerilikləri də gətirir. Öz istedadlarına, təbii və humanitar potensialına, coğrafi mövqeyinə - dünya xəritəsinə baxsanız, görərsiniz ki, İran necə həssas nöqtədə yerləşir - özünün yeraltı sərvətlərinə görə dünyanın ən mütərrəqi və ən sərvətli ölkələrindən birinə çevrilməli olan ölkə Qacar və sonra Pəhləvi rejimləri dövründə geriqalmış, asılı, yoxsul, zəif və başıqapazlı bir ölkəyə çevrildi.[420]

**Ölkənin orta təhsil sisteminin bünövrəsi bizim bugünkü düşüncə və fəlsəfəmizin ziddinədir!**

Nəzərə alınması lazım olan başqa bir məsələ budur ki, ölkəmizin indiki orta təhsil sistemi bizim fikrimizin, proqramlarımızın, fəlsəfəmizin məhsulu deyil. Bu aydın və qəti məsələlərdəndir, lakin buna diqqət yetirmirik.

Bu iş ilk gündən ölkədə inandığımız fəlsəfə əsasında aparılmadı. Onda iki böyük eyib vardı: biri etiqad və inanc sarıdan, biri də siyasət və ölkənin idarəsi baxımından.[421]

**Qədim orta təhsil sisteminin iman sarıdan eybi**

İman sarıdan eybi bu idi ki, yeni orta təhsil sistemini ölkəyə gətirənlərin niyyəti nəinki xalqı və gəncləri dindar etmək deyildi, hətta əksinə, xalqı dini etiqadlardan uzaqlaşdırmaq idi. Qətiyyətlə belədir. Əlbəttə, ölkədə Təlim və Tərbiyə Nazirliyini ilk yaradanlar, proqram hazırlayanlar, dərs vəsaiti yazanlar hamılıqla dinsiz adamlar deyildilər. Xeyr! Onların arasında dindar adamlar da vardı, lakin ümumi proqram belə idi. Həmin proqram orta təhsildə bir formada, hicabın qadağan olunmasında bir formada, Rza xanın vasitəsi ilə dini mərkəzlərə qarşı təzyiqdə bir formada özünü göstərirdi; yəni qeyri-dini və hətta antidin təfəkkürlərin inkişafı.

---

[420] Şagirdlərin İslam birliklərinin üzvləri ilə görüşdə çıxışdan: 2007.

[421] Təlim və Tərbiyə Naziri, nazir müavinləri və ölkənin maarif müdirləri ilə görüşdə çıxışdan: 2007.

Orta təhsil belə bir düşüncə əsasında yaradıldı. Qeyd etdiyim kimi, əvvəldən orta təhsil sistemini quranların hamısı dinsiz insanlar deyildilər, dindarlar da vardı. Dindarlıq əlamətləri də həmin orta təhsil sisteminin bəzi yerlərində və qədim kitablarda görünür. Biz bəzilərini keçmişdə, yeniyetməlik dövründə görmüşdük və bəzi şeylər bilinirdi. Lakin bünövrə antidin idi, qeyri-dini yox; dinlə ziddiyyət əsasında qurulmuşdu və zaman ötdükcə Pəhləvi dövrünə qədər bu antidin cəhət daim artdı.[422]

**Köhnə təhsil sisteminin siyasi və idarəçilik cəhətinin eybi**

Siyasi və idarəçilk cəhəti təhsil sisteminin antimilli cəhəti idi. O rejim millətçilik iddiası edir və bunu həqiqətən də istəyirdi, çünki ideologiyası olmadığından buna məcbur idi. İdeologiya, din kənara atıldıqda onun yerinə bir şey qoymaq lazımdır. Onlar çoxlu ölkələrdə olduğu kimi onun yerinə millətçiliyi gətirmişdilər. Odur ki, millətçiliyi istəyirdilər, lakin istədikləri millətçilik həqiqi və milli kimliyin qorunması mənasında deyildi. Hansı dəlilə görə? Ona görə ki, onların siyasi asılılığı günbəgün artırdı və bu onların təlim-tərbiyə mərkəzlərinin keyfiyyətində özünü göstərirdi; necə ki, bizim hüquq və məhkəmə qanunlarımızın yazılmasında, dövlət idarələrimizin və dövlətin ümumi strukturunun qurulmasında özünü göstərirdi; yəni mütləq qərbpərəstlik. Orta məktəblərdə də belə idi.[423]

**İnqilabdan öncəki orta təhsil sisteminin əsas xətləri**

Bizim orta təhsil sistemimiz qərbpərəst, təqlidçi, Avropada qəbul olunmuş inam və əsaslara söykənən bir sistem idi; biri Belçikanı tərcih edirdi, biri İngiltərəni, biri Fransanı. Hər halda, onlara məxsus idi. Bu bizim idarə və təşkilatlarımızın müxtəlif sahələrində də hiss olunurdu. Orta təhsil sistemi də eynilə belə formalaşdı və belə qaldı. Maraqlıdır ki, bizim klassik və qədim orta təhsilimizin əcnəbi müəllifləri həmin formalarla kifayətlənmədilər, daim yenilik yaratdılar və özlərini inkişaf

---

[422] Yenə orada.

[423] Yenə orada.

etdirdilər. Amma bu təqlidçilər o yenilikləri də anlamadılar və qədim formanı saxladılar.

Ölkəmizin klassik orta təhsil sistemi belə idi. Sözsüz ki, biz ümumi şəkildə danışdıq, orta təhsil sistemini tam tərif etmək istəmirik.

Bu iki böyük eyib - yəni birincisi dinlə ziddiyyət, ən azı dini əsaslarla, əxlaqla və dini tərbiyə ilə fərqlilik cəhəti, ikincisi də kəskin şəkildə tərcüməçi, asılı və təqlidçi olması, İranın və onun xalqının həqiqi ehtiyaclarından baş qaldırmaması bizim orta təhsil sistemimizin İslam inqilabına qədər davam edən əsas eyibləri idi.[424]

**İnqilabdan qabaqkı dövrdə inkişaf yolu**

Son 100-150 ildə ölkəmizdə islahat, inkişaf və tərəqqi iddiası edib bizi doğrudan da səhv yola çəkənlər bu böyük günahı etdilər. Biz bu 150 ildə həm məqsədə çatmadıq və geri qaldıq, həm də vaxtımız tələf oldu. Ardıcıl bir neçə nəsil gəlib tələf oldu, bu biyabanda sərgərdan qaldı, nəticə hasil olmadı. Nəhayət, bir nəsil səhv etdiyini gördü və qayıdıb yenidən hərəkətə başladı. Cəmiyyətləri səhv yola çəkənlərin günahı budur ki, onların vaxtlarını, ömürlərini və fürsətlərini tələf edirlər.

Bir zaman bizim cəmiyyətimizə inkişafın qərbliləri yamsılamaqda olduğunu başa salmışdılar; özü də elm öyrənməkdə yamsılamaq yox, zahiri işlərdə yamsılamaq: qadınlarımız hicabsız olsunlar, kişilərimiz filan cür papaq qoyub, filan cür paltar geyinsinlər.

Bilirsiniz ki, bir zaman ölkəmizdə Pəhləvi papağı adlı xüsusi bir papağı qoymaq icbari oldu. Bu papaqdan qoymayan cihayətkar sayılırdı. Sonra bir addım irəliyə gedib dedilər ki, ya Pəhləvi papağı, ya da şlyapa. Çünki qərblilər - avropalılar şlyapa qoyurdular. Qərbdən gəlmiş vahid geyim formasının yayılmasından ötrü ölkədə geyilən müxtəlif növ və yerli paltarların hamısı qadağan olundu. Nə üçün? İnkişaf üçün.

Ölkənin inkişafını bunda gördülər ki, insanlarımız kostyum geyinsinlər, qalstuk bağlasınlar, qadınlarımız hicabsız olsunlar, qərblilərin adət-ənələrini öyrənsinlər. Görün bunlar bir ölkə üçün nə qədər ziyanlı, nə qədər utandırıcıdır! O zaman isə nəinki xəcalət çəkmir, üstəlik fəxr edir və

---

[424] Yenə orada.

uca səslə fəryad qoparırdılar. Bu, səhv yoldur, yanlış inkişaf nüsxəsidir. Prinsiplər bu səhvlərin qarşıya çıxmaması üçündür.[425]

---

[425] Tələbələrlə görüşdə çıxışdan: 2008.

## Üçüncü fəsil: Keçmişdə elmi dindən ayırmaq

### İranda elm və dinin ayrılığı

Dinin hakim olduğu və xalqın həyatının dindən və mənəvi məsələlərdən tam uzaqlaşmadığı vaxta qədər vəziyyət belə idi. Avropalıların, qərblilərin, sionist siyasətçilərin və İslam dünyasını məhv etmək üçün plan cızan mütəfəkkirlərin elmi siyasətlə birgə ölkəmizə daxil etdikləri vaxtdan onu dindən ayırdılar və nəticədə din elmdən, elm də dindən uzaq bir sahəyə çevrildi.[426]

### İranda yeni elmlərin mütəxəssislərinin dindən ayrılığının nəticəsi

Belə bir parlaq keçmişə malik olan xalq bu ölkədə hakim olan zalım şah hökuməti dövründə və hamısından pisi, son iki yüz, yaxud yüz əlli ildə, yəni Qacarların sonlarından, Pəhləvilərin axırına qədər elmdə baxımından bu qədər tənəzzülə uğradı. Onlar bunu etdilər. Bunun əsas səbəbi ölkəmizdə dinin elmdən ayrılığı idi. Bizim ölkəmizdə təbii elmlərin mütəxəssisləri, alim və tədqiqatçıları dindən ayrı qaldılar, nəticədə xalqlarına və ölkələrinə yaramadılar. Ən yaxşıları gedib əcnəbilərə fayda yetirdilər. Bir qrup da qalıb burada əcnəbilər üçün işlədi.

Universitetlərdə dərs oxumuş ziyalılar Pəhləvi hökuməti boyu ən xəyanətkar şəkildə ölkəni idarə və xalqa xəyanət etdilər. Onlar bu universitetlərin məzunları idilər. Allah rəhm elədi və İslam inqilabı baş verdi. Bu cəmiyyətin müasir ziyalıları tərəfindən tədricən universitet təhsili alan və siyasi işlərlə məşğul olan nəsli o qədər köksüz, etiqadsız və əsilsiz nəsil idi ki, onlar iş başına gəlsəydilər, Allah bilir bu xalqın və bu ölkənin başına nə oyun açardılar. Bu xalqın var-yoxunu, olan-qalanını yandırıb məhv edəcəkdilər. Allaha şükür olsun ki, onlar macal tapmadılar və İslam inqilabı baş verdi.[427]

### İslam hüququnun zənginliyi

---

[426] Universitet mənsubları və elmi hövzə tələbələri ilə görüşdə çıxışdan: 1989.

[427] Yenə orada.

Bizim İslam hüququmuz Qərb hüququndan zəngindir. Bu günlərdə barəsində çox danışılan Şeyx Ənsarinin kitab yazdığı və tədqiqat apardığı sahələrdə hansı Qərb hüquqçusu ona və ayağının tozuna çata bilər? İslam hüququ sahəsində bizim böyük alimlərimiz var. Necə olur ki, yenə də hüquq sahəsində Qərbə müraciət etməliyik və onların mülki iddia, mədəni və cəza hüquqları sahəsində apardıqları araşdırmalara baxmalıyıq?! Yenə onlardan öyrənməliyik?! Hətta bu gün də bəziləri bu həqiqətləri görməzdən gəlmək istəyirlər. Bu həmin günlərin acı təsirləridir. Belə hazırladılar: hövzəyə arxa çevirmiş universitet və universitetə arxa çevirmiş hövzə; universitet hövzənin işlədiyi dəyərlərdən ayrı, hövzə də universitetdə görülən elmi tədqiqatlardan xəbərsiz.[428]

**Münəvvirülfikr**

Təqlidçi İran ziyalısı Qacarlar dövründə ilk dəfə intellektual amilini ölkəyə daxil edib ona "münəvvirülfikr" adını qoydu və sonralar eyni antidin xüsusiyyətli ziyalıya çevrildi. Və onu ən məntiqli təfəkkürlərə, ən aydın təlimlərə, ən möhkəm dəlillərə və ən şəffaf əxlaqi məsələlərə söykənən, o zaman İranda, ziyalılığın Qərbdə görmək istədiyi işi görən İslamın qarşısına çıxardılar.[429]

**Keçmişdə universitetləri din və təqvadan ayırmaqda məqsəd**

Keçmişdə universitetlərin din, təqva və bəndəlikdən uzaqlaşmasına səy göstərilirdi. İran xalqının düşmənləri tərəfindən planlanan bu hiylədə məqsəd ali təhsilli və ziyalı nəslin laqeyd olub böyük amallara qarşı sevgisini əldən verməsi, dəyərsiz istəklərin və şəxsi qazancın əsiri olması idi. Şərəfli universitet mənsubları, dindar müəllim və tələbələr o çətin mühitdə həmişə bu şeytani hiyləyə qarşı mübarizə apardılar.[430]

**Keçmiş rejim tərəfindən cəmiyyətdə dinə zidd tərbiyə ilə yanaşı olan təlim**

---

[428] Hövzə və Universitetin Birliyi Günü münasibəti ilə hövzə və universitet tələbələri və xalqın müxtəlif təbəqələri ilə görüşdə çıxışdan: 1994.
[429] Tehran Universitetinin tələbələri ilə görüşdə çıxışdan: 1998.
[430] Universitetlərin dərs ilinin başlanması münasibəti ilə müraciətdən: 1999.

Dedilər ki, keçmişdə bircəhətli idi; təlim vardı, təbriyə isə yox idi. Mən əlavə etmək istəyirəm ki, bəli, bəlkə də təlim-tərbiyə qurumlarında belə idi, amma bütün cəmiyyətdə ikicəhətli idi; bir cəhəti təlim, bir cəhəti də dinə zidd tərbiyə. Keçmiş rejimdə belə idi. Bütün amillər beyinlərin din əleyhinə tərbiyəsinə yönəlmişdi. Hər şey gənci ehtirasa, laqeydliyə və veyilliyə dəvət edirdi. Məgər gəncə vəzifə tapşırmaq və ondan iş istəmək olardı?! Biz nə üçün elm və əməlin bütün sahələrində bu qədər geridə qaldıq? Çünki gənclər laqeyd və hövsələsiz idilər. Sonra hər bir misi qızıla çevirən inqilab kimi bir alov saçdı. İnqilabın xarakteri belədir, belə böyük möcüzələr edir. İnqilab bizə gəncləri dini yönümdə tərbiyə etmək şəraiti yaratdı. Gənclərlə məşğul olun, əcrinizi də Allah verəcək.[431]

[431] Təlim və Tərbiyə Naziri və tərbiyəvi işlər üzrə məsul şəxslərlə görüşdə çıxışdan: 2000.

## Dördüncü fəsil: Keçmişdə elmi ümidsizlik və özünə inamsızlıq hissinin aşılanması

### Tağut universitetlərinin taleyi

Universitetlər öz elm və tədqiqat işlərini inqilabçı və müsəlman həvəskarlığı ilə görsünlər. Əks təqdirdə, onların taleyi tağut dövrünün universitetlərindən yaxşı olmayacaq. Onda əcnəbilər qarşısında elmi cəhətdən özünə inamsızlıq və öz dəyərlərinin təhqiri istedadların çiçəklənməsinin qarşısını alırdı, istedadlı beyinləri öz məmləkətlərindən qaçmağa həvəsləndirirdi. Dəyərli və qayğıkeş müəllimlər istedadlı qüvvələrin tərbiyəsi üçün inqilabi şəraiti fürsət bilməli və tələbələr müəllimlərə hörmətlə yanaşı - bu, İslam baxımından vacib əməldir – icazə verməməlidirlər ki, kimsə bədxahlıqla elm və ixtisasdan universitetlərdə müstəmləkə mədəniyyətinə vasitə düzəltsinlər, əcnəbilərin istismarı dövründəki kimi universiteti özünə yad olan əcnəbipərəst beyinlərin tərbiyə mərkəzinə çevirsinlər. Qayğıkeş və sədaqətli ziyalılar bilsinlər ki, bu gün böyük sınaq günüdür, tarix onların bugünkü rəftarları haqda dəqiq və ifşaçı mühakimə yürüdəcək.[432]

### İranda ziyalılığın xüsusiyyəti: elmi həqarət hissi

Əgər bir xalq və ya qrup keçmişdə heç bir əqli və elmi üstünlüyünün olmadığını hiss etsə, həqarət hissi duyar və bu səbəbdən, dünyanın yeni elmi tərəqqisi qarşısında siyasi, mənəvi və düşüncə baxımından özünəinamı əldən verər. Bu ölkədə Qacarlar dövrünün sonlarında yaranan yeni ziyalılıqda buna təkidlə çalışırdılar.[433]

### Pəhləvi dövrünün universitetində asılılıq və özünə inamsızlıq

Bu gün ölkədə yeni elm mərkəzlərinin yaranmasından altmış-yetmiş il keçir. İnqilabın qələbəsindən sonra yerli tədqiqata güvənmək üçün edilən həqiqi hərəkəti çıxmaq şərtilə, keçmişdə diqqətediləsi heç bir iş

---

[432] Həzrət İmam Xomeynini vəfatının birinci ildönümü münasibəti ilə müraciətdən: 1990.

[433] Kuhgiluyə və Buyer Əhməd vilayətinin universitet mənsubları və mədəniyyət işçilərilə görüşdə çıxışdan: 1994.

görülməmişdir. Rza xanın və oğlunun dövründəki universitet tərəfindən hansı mühüm ixtira, hansı böyük kəşf edilib və əcnəbilərə asılılıqdan qurtulmaq üçün hansı iş görülüb?! O zaman universitet ölkəni günbəgün xaricdən daha asılı edirdi.

Düzdür, bu, tələbə gənclərin təqsiri deyildi. Mən o günün hadisələrini yaxından görmüş bir insan kimi bunu təsdiq edirəm: bizim ozamankı tələbə gənclərimizin heç bir təqsiri yox idi. Elə bir mühit yaratmışdılar ki, orada orijinal elmi iş mümkün deyildi. Son illərdə Qərb mədəniyyətini, qərbliləri, xüsusən də ABŞ-ı bu gəncin gözündə o qədər böyük və mövqeyini o qədər əlçatmaz göstərmişdilər ki, bizim gənc müsəlman tələbəmiz haraya çatırdısa, ümumiyyətlə, təsəvvür etmirdi ki, kimsə bu dərin elmi məsafəni qət edib oralara çata bilsin. Bunu təsəvvür də etmirdi. Buna görə də heç bir səy göstərilmirdi. Dərs oxumuş və təhsil almış bir nəfərin ən böyük elmi bacarığı bu idi ki, qərblilərin istehsal etdiyindən istifadə edə bilsin. Bu qədər. Onlar bir şey düzəltsinlər, bu da ondan istifadə edə bilsin. Hətta iranlı mühəndislərə xaricdə düzəldilib İrana gətirilən bəzi yeni maşın və aparatların təmirinə belə icazə vermirdilər; deyirdilər bu alətlərə əl vurmağa haqqınız yoxdur. İran ordusuna modern təyyarə satırdılar, şərti bu idi ki, İranın texnik zabitləri ona əl vurmasınlar. Nə vaxt xarab olsa, məsələn, beş yüz hissədən təşkil olunan detallar məcmusunu ayırıb xaricə göndərsinlər. Yəni bütün kompleksi təyyarəyə qoyub aparsınlar, orada təmir edib qaytarsınlar.[434]

### ABŞ-ın aviasənaye tədqiqatına maneəsi

Mən bəlkə bir dəfə də demişəm: Keçmişdə ABŞ-dan alınan bu reaktiv təyyarələrin hər hansı bir hissəsində - böyük bir detalın xırda bir hissəsində nöqsan yaransaydı, amerikalılar bizim Hərbi Hava Qüvvələrimizin texniki mütəxəssislərinə bu böyük detalı açıb onun kiçik hissəsindəki nöqsanı aradan qaldırmağa, yaxud dəyişməyə icazə vermirdilər. Onlarla, bəzən yüzlərlə kiçik hissədən təşkil olunan bu böyük detalı təyyarəyə qoyub ABŞ-a aparır, orada dəyişdirir və geri qaytarırdılar.

---

[434] Hövzə və Universitetin Birliyi Günü münasibəti ilə hövzə və universitet tələbələri və xalqın müxtəlif təbəqələri ilə görüşdə çıxışdan: 1994.

Belə rəftar edirdilər. Bu ölkədə nə tələbənin sayı, nə təhsilin keyfiyyəti, nə işə şərait, nə tədris və nə tədqiqat həvəsi vardı. Belə bir vəziyyətdə siz gözləyirsiniz ki, İran xalqı inkişaf etmiş olsun?![435]

**İstibdad dövründə elmi həqarət hissinin təbliği**

Bu gün elm sahəsində yorulmadan çalışmalı, uzun diktatura dövrünün mənfi təsirlərini düzəltməliyik. O dövrdə istedadları çiçəklənməyə qoymadılar, xalqın əsl və həqiqi kimliyini göstərməsinə imkan vermədilər. Qərbin elm və sənaye inkişafının nəticəsi olan məhsulların idxal edilməsinin ardınca, onun hər bir şeyini Qərbdən asılı etdilər, elm və mədəniyyət məhsullarını da ölkəyə idxal etdilər. Gördükləri birinci iş bu ölkənin təhsilli təbəqəsini öz varlığına etiqadsız etmək idi. Onları öz mədəniyyətlərinə, adət-ənənələrinə, elmlərinə, parlaq istedadına inamsız etdilər. Bu inamsızlıq uzun illər öz təsirini buraxdı.

Bu düşüncəni - iranlını təhqir düşüncəsi həqarət hissinin ölkənin seçilmiş təbəqələrinin beyninin dərinliklərinə qədər nüfuz etməsinə səbəb oldu. Qərbin bu vəziyyətin məhsulunu biçməsi, təbii ki, uzun illər çəkdi. Amma nəhayət, onlar müvəffəq oldular və onun nəticəsi indi ölkəmizdə müşahidə etdiyiniz gerilikdir. Bütün bu humanitar baza və maddi mənbələrlə, malik olduğumuz xüsusi coğrafi mövqe ilə, parlaq elmi və mədəni keçmişlə və malik olduğumuz böyük elm xəzinəsinin irsi ilə yanaşı, bu gün vəziyyətimiz elm, sənaye və müxtəlif elmi inkişaf göstəricilərində lazım olduğundan çox aşağıdır.[436]

**İnqilabdan öncəki universitetlərdə qapalı şərait**

Mən inqilabdan öncə bu ölkənin elmi mühitində, ziyalılar arasında və universitetdə olmuşam. Yaxından görmüşəm ki, ən yaxşıları "burada işləmək olmur" deyən şəxslər idi. Deyirdilər ki, bizim istedad və imkanımız var, amma açıq bir cəmiyyətə getməli, açıq şərait tapmalı və dünyada işləməliyik. Bunlar ən yaxşıları idilər. Ozamankı elm adamlarının çoxu düşünürdü ki, iranlı nə etsə, geridədir. Deyirdilər ki, ümumiyyətlə,

---

[435] Tehran Universitetindəki sual-cavab toplantısındakı söhbətlərdən: 1998.
[436] Pedaqoji universitetin bir qrup tələbəsinin məzuniyyət tədbirində çıxışdan: 1998.

bizim üçün elm yollarına çatmaq mümkün deyil, onlar təyyarə ilə gəzirlər, biz isə ulağa minib onlara çatmaq istəyirik. Yolu budur ki, bir yolla özümüzü bu təyyarədən asaq ki, bizi də aparsınlar. Fikir tərzi belə idi. Elmi fəaliyyətlər də əksərən bu təfəkkürlə baş verirdi; kopyalama və təqlidçilik təfəkkürü ilə.

Bu ölkədə böyük bir istedadın dalan açmaq, qısa yol tapmaq və bu məsələlər barədə fikirləşmək cəsarəti yox idi. Dünyanın bütün elmi işləri kəşf olunmuş qısa yollar olsa da, bizdə belə bir həvəs yox idi. Demirəm ki, belə düşünən bir nəfər də yox idi, bəzi şəxslərin belə düşünməsi mümkündür, lakin bu işlərlə məşğul olmaq üçün onların heç bir imkanı yox idi. Hər halda, bu təfəkkür mövcud deyildi.

Təəssüf ki, onlarda elmi və mənəvi həqarət, əskiklik hissi yaranmışdı. Dünyanın həm də siyasi hakimləri olan elmi öncülləri bu ruhu müstəmləkə dünyasında, öz sözləri ilə desək, dünyanın cənub hissəsində yaratmışdılar; elə bir iş görmüşdülər ki, özlərini həmişə onlara möhtac, yoxsul və dilənci hesab etsinlər.[437]

**Ümid və fəaliyyət - inkişaf amilləri**

Bir xalqı inkişaf etdirən xarakterlər ümid, fəaliyyət və ciddilikdir. Ümidsiz, öz gələcəyinə məyus olan, özünü əskik hesab edən xalq inkişaf edə bilməz. Hər hansı bir məhsulun daxildə istehsal olunmasının mənası bu idi ki, dəyəri yoxdur. Ali təhsillilərin və digər şəxslərin özləri də deyirdilər ki, iranlı bir lüləhəng – yəni qədim palçıq aftaba da düzəldə bilmir. Yəni inkişaf etmiş elmli nəsil də bu ölkənin elmi gələcəyinə qarşı ümidsiz idi. Bu, sözügedən əxlaqi problemdir.[438]

**Keçmişdə ordunun özünə inamsızlığı**

İnqilabın əvvəllərində hər bir şeyi xaricdən bəzəkli və gözoxşayan qablarda idxal etməyə vərdiş etmiş və bu məmləkətin gəncinin beyninin günün elmi incəlikləri ilə tanış olmasına icazə verməyən şəxslər bizə

---

[437] Həzrət İmam Xomeyninin yüzilliyi tədbirlərinin Təşkilat Komitəsinin üzvləri ilə görüşdə çıxışdan: 1999.

[438] Tehranın cümə namazı xütbələrindən: 1999.

deyirdilər ki, olmaz. Əgər təyyarəmizin yatdığını, tankımızın işləmədiyini, tüfəngimizin olmadığını, yaxud J-3 silahımızda qüsur yarandığını deyirdiksə, cavab verirdilər ki, düzəltmək mümkün deyil. Bunlar bəzəkli qablarda J-3 göndərilməsinə adət etmişdilər. Keçmiş rejimin sonlarında J-3 ölkə daxilində istehsal olunanda da bütün hissələri xaricdən gətirir və burada birləşdirirdilər. Bu da əslində düzəltmək deyildi. Bunlar deyirdilər ki, mümkün deyil. Amma bəziləri onların qarşısında dayanıb dedilər ki, olar, sizin istedadınız digərlərindən az deyil, çoxdur, lakin elm, təcrübə və inkişaf etmiş sənaye sahələrində düşünməyinizə imkan verməyiblər.[439]

**İnqilabdan öncə elm mərkəzlərinə Qərbə təqlidçilik hissinin təlqin edilməsi**

İnqilabdan qabaqkı son yüz ildə bu ölkə üçün sözün həqiqi mənasında heç bir əsaslı iş görülməmişdir. Bu gün universitetdə sizin elmi həqiqətlərə gözünüz açılmışdır. Görürsünüz ki, bizim nə qədər görülməyən işimiz və gedilməyən yolumuz var. Bu yolları getmək, elm karvanı ilə yanaşı hərəkət etmək, ölkədə elmi, alimi, tədqiqatı, elm və tədqiqatda müstəqilliyi sınaqdan keçirmək olardı, amma bu işi görmədilər, bunun əksini etdilər.

Yeni elmin ölkəmizə daxil olduğu zaman gətirilən təqlid və tərcümədən ibarət idi. Məqsədim dəyərli bir əsərin tərcüməsi deyil; bu, lazımlı bir işdir. Məqsədim tərcümə düşüncəsidir; yəni bir xalqdan yaradıcılıq qüvvəsini, yeni söz cəsarətini almaq, həmişə başından vurmaq, bir yerə çatmaq və adam olmaq istəyirsə, qərbliləri yamsılamalı və onlardan bir iynə ucu qədər də yayınmamalı olduğunu təlqin etmək. Bizim xalqımıza və elm mərkəzlərimizə belə öyrətdilər, elmi yaradıcılığa və yeniliyə icazə vermədilər. Elm və düşüncəni istehsal etmək lazımdır. Bunlar nə təcrübi elmlərdə buna imkan yaratdılar, nə humanitar elmlərdə, nə də siyasi və ictimai elmlərdə. Buna görə də vəziyyət gördüyünüz kimidir.[440]

---

[439] Ordunun informasiya təhlükəsizliyinin komandirləri ilə görüşdə çıxışdan: 2000.
[440] İsfahan vilayətinin gəncləri ilə görüşdə çıxışdan: 2001.

**Yaradıcılıq elm və sənaye inkişafının rəhnidir!**

Bir xalqın tanınmayan sahələrə giriş cəsarəti olmayınca nə elmdə inkişaf edər, nə sənayedə və nə siyasətdə. Bizə vərdiş etdirmişdilər ki, yaradıcılığa cürət etməyək. İnqilab dövründə mənim buna dair xatirələrim var. Beyinləri qədim mədəniyyətin təsiri altında olan bəzi şəxslər deyirdilər ki, mümkün deyil.[441]

**Qərbpərəst ziyalıların ölkənin elmi inkişafına xəyanəti**

Pəhləvi dövrünün və ondan bir qədər öncənin qərbpərəst ziyalılarının böyük günahı budur ki, bu inamı müxtəlif formalarda xalqımızın beyninə yeritdilər; xalqı inandırdılar ki, iranlı bir şey bacarmır, nə düşüncəsinin, nə elminin, nə incəsənətinin və nə tarixinin bir dəyəri var. Siz dəyərinizin olmadığını hiss etdikdə nə edərsiniz? Təbii ki, dəyərli olduğunu hiss etdiyiniz bir mərkəzə sığınarsınız. O mərkəz haradır? Bunu da özləri müəyyən edirdilər: Qərbin mədəniyyəti, sivilizasiyası və elmi. Qərblilər dünyanın müxtəlif xalqlarını bu şəkildə elmi inkişafdan saxlayıb, onlarda elmi fəaliyyət cürətinin yaranmaması üçün iş apardılar. Çünki xüsusən İslam bölgələrində böyük elmi inkişaflar üçün güclü potensial vardı. Bizim dünyanın elm karvanından geri qalmağımız təsadüfi deyil.[442]

**Alimlərimizin tarixi problemi: düşüncələrin tərcümə və təqlidçiliyi**

Bizim tarixi bir problemimiz var. Təəssüf ki, bu, ölkənin keçmiş asılı və azğın hökumətlərindən qaynaqlanır və yüz əlli il öncədən qalmış bir bəladır. Biz özümüzü tədricən bundan qurtarmalıyıq. Problem budur ki, yeni elm işığının ölkəyə saçdığı zamandan ozamankı alimlər tərcümə fikrinə düşdülər; təkcə elmi əsərlərin tərcüməsi yox, hətta tərcümə fikri və düşüncəsi; yəni hər şeyin digərlərinin etdiyinin tərcüməsi formasına düşməsi və özünü onların qəliblərinə salmaq. Bu qrup əsla özündə yeni elm mühiti yaratmaq cəsarəti tapmadı; nəinki onlardan elm öyrənmələrini,

---

[441] Əkinçilik Cihadı Naziri və fəqih rəhbərin nazirlikdəki nümayəndəliklərinin məsul şəxsləri ilə görüşdə çıxışdan: 2001.

[442] Şagirdlərin İslam Birlikləri İttifaqının üzvləri ilə görüşdə çıxışdan: 2002.

hətta mədəniyyəti, əxlaqı, siyasi və ictimai təfəkkürləri də onlardan götürməli olduqlarını düşünürdülər.[443]

**Elmi gerilik - keçmişdə özünə inamsızlıq mədəniyyətinin nəticəsi**

Asılı siyasətçilərdən, maliyyə müqavilələri ilə ağızları yumulan şəxslərdən heç bir gözlənti yox idi. Amma o dövrdə elmi və mədəni şəxsiyyətlərdən bu gözlənti vardı; hansı etiqadda olsaydılar, hətta İslamı qəbul etməsəydilər, imanları olmasaydı da, bu xalqın mədəni kimliyinə dəyər verməli idilər, lakin vermədilər. Onlar qapıları açdılar, gözləri yumdular, valeh olub yerlərində dondular və bizi geriyə saldılar. Bu səbəbdən elm və texnologiyada geri qaldıq. İndi xoşbəxtlikdən, belə deyil və çox fərqlənib, lakin mənim gənclik dövrümün ənənəsinə görə, hər bir məhsul yalnız xarici olduğuna görə gözəl, daxili və yerli olduğuna görə isə xoşagəlməz idi. O dövrlərin ümumi mədəniyyəti belə idi. Ölkə daxilində elm və tədqiqat sərhədlərini yarmaq və bağlı yollarını açmaq cəsarəti ümumiyyətlə, təsəvvür olunmurdu. Özlərində belə bir istedad görən şəxslər ölkədən xaricdə işləməkdən başqa bir şey düşünmürdülər. Bizim özümüzün qurmağımız, istehsal etməyimiz və yaratmağımız ümumiyyətlə, təsəvvür olunmurdu.[444]

**İnqilabdan sonra elmi cəsarətin yaranması**

Biz elmi cəhətdən geri qalmış və geridə saxlanmışdıq. 50 ildən artıq bir müddətdə bu ölkədə elmi fəaliyyətlər olduqca zəifləmiş, bəzi sahələrdə isə ümumiyyətlə, dayandırılmışdı. Yaradılmış maneələr bu millət üçün öldürücü zəhər kimi idi. Bizim xalqdan özünəinamı almışdılar. Bizim xalqımızı, istedadlı şəxslərimizi və aydın beyinlərimizi bu sərhədlərdən xaricdə olanlara o qədər vurğun etmişdilər ki, ümumiyyətlə, heç kəs cürət və cəsarət toplayıb o söz və nəzəriyyələrin əleyhinə, yaxud onlardan fərqli bir fikir yürütmək haqqında düşünmürdü. Biz hələ də müəyyən miqdarda bu problemlə qarşı-qarşıyayıq. Əlbəttə, İslam bizə özünəinam verdi,

---

[443] 2001-2002-ci illərdə ali məktəblərə qəbul imtahanlarının nümunəvi abituriyentlərinin, dünya və ölkə üzrə olimpiada qaliblərinin toplantısında çıxışdan: 2002.
[444] Teleradio Verilişləri Şirkətinin əməkdaşları ilə görüşdə çıxışdan: 2004.

inqilab bizə cəsarət bağışladı. Bu gün gördüklərimiz həmin cəsarətin nəticəsidir. Bu cəsarəti gücləndirib inkişaf etdirmək lazımdır. Bizim istedadlarımız yaxşıdır; bizim cavanlarımız yaxşıdırlar.[445]

**İranda elm öyrənməyə dair iki əsr ümidsizlik**

Bu bəlli məsələyə nə üçün inanmalıyıq? Ona görə ki, çox uğurlu elmi keçmişimizə və tariximizin dünyada uzun müddət elm ocağı kimi tanınmasına rəğmən, dünyada Qərb dövlətləri vasitəsi ilə müstəmləkəçilik, siyasət və dünyanı ələkeçirmə hadisələri başlanan son bir-iki əsrdə onların siyasətləri səbəbindən elmə ya etinasız qalmışıq, ya onu əldə etməyə ümidsiz olmuşuq, ya da üsullarında səhvə yol vermişik və nəticəsi belə olub. Bir dövrdə bu ölkədə darülfünun yaratmaqla, əslində öz iradələri ilə möcüzə yaratdılar. Siz baxın, biz bu gün də darülfünunun təsis edilməsini Əmir Kəbirin gözəl işlərindən sayırıq. Məgər darülfünun bizim xalqımızın elmə dair dərin tarixi və böyük işləri qarşısında nədir ki?! Biz bu qədər geridə saxlandıq; ya iradəsizlik etdik, ya diqqətsizlik.[446]

**İranın xilası üçün qərbpərəstlərin yanlış çıxış yolu: avropalaşmaq**

Qərb həyatı darvazası İranın üzünə açılanda - orada inkişaf, elm, maşın vardı, iranlıların isə heç bir şeyi yox idi - ozamankı siyasətçi, mütəfəkkir və görkəmli şəxsiyyətlərimiz o inkişafları görəndə Əmir Kəbirin Nasirəddin şahın dövründə çalışdığı işi görmək fikrinə düşmədilər, Əmir Kəbirdən 60-70 il sonra Məşrutə dövründə birisi peyda olub dedi ki, İranın xilası fiziki, psixi, zahiri və daxili cəhətdən qərbləşməkdədir.

Geri qalmaların əvəzini çıxmaq üçün daxilə müraciət edib öz gövhərini axtarmaq, özünü özündə tapmaq yerinə, gedib özlərini Avropanın keçilmiş yolunda tapmaq istədilər. Onlar bu səhvi etdilər, sonra da ingiltərəlilərin vasitəsi ilə Pəhləvi rejimi iş başına gəldi. Ondan sonra amerikalılar ingilislərin yerini tutdular. ABŞ və İngiltərə üçün ən yaxşı seçim Rza xan və Məhəmmədrza idi. Çünki Qərb həmin planların, həmin

---

[445] Universitet müəllimləri ilə görüşdə çıxışdan: 2004.

[446] Təhsil Naziri və universitet rektorları ilə görüşdə çıxışdan: 2005.

mədəniyyətin, asılılığın, geriliyin və daxili istedadların üstünü örtmək işinin ölkədə zahirən iranlı olan şəxslərin əli ilə icra olunmasını istəyirdi. Bu gün bizim gəncimizin həmin yolu keçmək istəməsi səhvdir. O yol səhv yoldur.[447]

**Elmi inkişafın qarşısını almaq üçün özünə inamsızlığın aşılanması**

Müstəmləkə zülmü altında olan ölkələrə qarşı görülən işlərdən biri onları elmi cəhətdən geridə saxlamaq idi. Həm praktik olaraq onların inkişafına mane oldular, həm də psixoloji cəhətdən zəiflətdilər ki, bacarmadıqlarını hiss etsinlər. Bu bizim xalqımız üçün uzun bir dövrdə baş verdi; bizi inkişafdan saxladılar. Demirik ki, bu iş bütünlüklə elmin öncülü olan qərblilər vasitəsilə görülmüşdür, daxili qüvvələrin, diktatorların, pis hökumətlərin təsiri olmamışdır. Məsələnin bu tərəfini inkar etmirik, lakin o tərəfi də ən mühüm təsiri buraxdı.

Qacarlar dövründə ən mühüm təsirli şəxsiyyətlərin yanlış siyasəti, yanlış anlaması, dünyagirliyi və tənbəlliyi ölkənin vəziyyətinə təsir göstərirdi. Amma həmin dövrdə Əmir Kəbir kimi birisi peyda olub elmi inkişafın rolunu və elmin inkişafa təsirini siyasətçilər səviyyəsində düzgün kəşf etdiyində ikinci amilin, yəni xarici amilin rolu özünü aydın şəkildə göstərir və yaranan qığılcımı söndürməyə çalışırlar. Yəni bilirlər ki, bir ölkəni iqtisadi və siyasi istismar altında saxlamaq üçün onun elmi inkişafına mane olmaq lazımdır. Eynilə bu amil Pəhləvi rejimi dörvründə də mövcud olmuşdur. Bunlar təhlili və izahı uzun məsələlərdəndir. Bunlar yalnız iddia deyil, arxasında dəlillər mövcuddur.[448]

**Qacarlar dövründən məftunluq və əcnəbipərəstliyin yaranması**

Qacarlar dövrünün ortalarından bizdə bir məftunluq və əcnəbipərəstlik peyda oldu. Bunun təbii amilləri də vardı. Bu amillər günbəgün güclənib Pəhləvi rejimində zirvəyə çatdı və onların əsasında ölkədə çox təhlükəli mədəniyyətin əsası qoyuldu; məsələn, iranlı bacarmır, iranlının elm və mədəniyyət sahələrinə giriş ləyaqəti yoxdur; bizim bütün

---

[447] Kerman vilayəti universitetlərinin müəllim və tələbələrilə görüşdə çıxışdan: 2005.
[448] Universitet müəllimləri ilə görüşdə çıxışdan: 2005.

mədəni keçmişimizə, dəyərli olan tarixi və elmi irsimizə qarşı mənfi baxış. Bunlar bu ölkədə baş verdi.[449]

**Elmi tədqiqat yerinə istehlak və təqlidçilik**

İran uzun illər, 60-70 ildən artıq müddətdə ingilislərin və qərblilərin ixtiyarında idi. Buna gücləri çatmadı ki, misal üçün, ölkədə bir elmi tədqiqat mərkəzi yaratsınlar və o, əlli il ərzində iki ixtira etsin, iki-üç yeni elmi kəşf edən alimlər yetişdirsin. Yəni bunlar Qərbdən bu qədər də istifadə etmədilər. Onlar nə istəyirdilər? İstehlakçı istəyirdilər; elə bir iqtisadi istehlakçı ki, təbii surətdə mədəni istehlakçılıq və siyasi təslimçiliklə yanaşı olsun. Onlar bunu istəyirdilər. Bunlar da asanlıqla təslim oldular və istədiklərini verdilər.[450]

**Tağut dövrünün təhsil kadrları**

Bir ölkənin müəllimləri bunun əksinə çalışsalar, yəni şücaətli insan yerinə qorxaq insan yetişdirsələr, müstəqil insan yerinə başıqapazlı və zəif insan yetişdirsələr, öz vətənini və milli fəxrlərini sevən insan yerinə əcnəbilərə vurğun insan yetişdirsələr, ismətli, təqvalı və mömin insan yerinə laqeyd, imansız və dinsiz insan yetişdirsələr, istedadlı və özünə güvənən insanlar yerinə digərlərinin elmi və qeyri-elmi imkanlarına vurğun insanlar yetişdirsələr, siz görün ölkədə hansı faciə yaranar!

Tağutların hakimiyyəti dövründə - yəni Rza xanın zamanında yeni təhsil sistemi yaradılanda ölkənin təhsil sistemi ikinci növdən idi. Müdirlərin nə iş gördüklərini bilməmələri də mümkün idi, lakin məqsəd və plan bu idi. Onların yetirmələri də az-çox belə oldular. Düzdür, müəllim və orta təhsil məmurları arasında dindar, müstəqil, mömin və ismətli insanlar vardı, az da deyildilər. Onlar öz işlərini gördülər, amma plan bu idi.[451]

**Özünəinamın əksi**

---

[449] Gənc alimlərlə görüşdə çıxışdan: 2006.
[450] Simnan vilayəti universitetlərinin müəllim və tələbələri ilə görüşdə çıxışdan: 2006.
[451] Müəllimlərlə görüşdə çıxışdan: 2007.

Özünəinamın əksi özünə inamsızlıqdır; dünya xalqlarının bir cinahının - bu gün Qərbin fikri, fəlsəfəsi, elmi, hətta onların təklif etdiyi milli inkişaf modelləri qarşısında özünə inamsızlıq; halbuki milli inkişaf modeli müxtəlif xalqlara görə fərqlənir. Çox təhlükəli xəstəlik olan özünə inamsızlığı davamlı on illər boyu xalqımızın beyninə köçürüblər.[452]

**Özünəinam prosesinin maneələri**

Özünəinam prosesi və onun səmərəyə çatması yolunda üç əsas maneə mövcuddur. Biz bu üç maneəyə diqqət yetirməliyik. Bu üç maneə milli özünəinam prosesini, onun davamlı qələbələrlə sonuclanmasını və amallara çatmasını sarsıda bilər.

Birincisi məyusluq yaratmaq, elmi fərqləri üzə vurmaqdır. Bu bir həqiqətdir. Bizim bu gün 200 ildir elmi işlə məşğul olan və elmi cəhətdən inkişaf etmiş dünya ilə fərqlərimiz var. Bu fərqləri üzə vurur və deyirlər ki, onları necə keçmək istəyirsiniz?! Məgər mümkündür?! Bizim tədqiqatçı və alim gəncimizi bu yolla məyus edirlər. Mən deyirəm ki, bəli, olar, nə üçün olmasın? Biz digərlərinin elmindən istifadə edib ayağımızı bir addım yuxarıya qoyarıq. Necə ki, bu işi görmüşük. Biz digərlərinin elmindən istifadə edib bəzən dünyada olmayan şeylər düzəltmişik; misal üçün, bəzi tibbi və əczaçılıq məhsulları və sair. Bunlar Qərb elminin müqəddimələrindən istifadə etməklə əldə olunub, amma onlardan daha böyük işlər görülüb. Fərq bizi məyus etməməlidir. Biz elmi sürətimizi artıra, bu fərqi günbəgün azalda bilərik. Güclü iradə ilə inkişaf edək. Xüsusən bu gün Qərb dünyası ciddi problemlər içərisindədir. Əlli il, yüz il öncə bu problemlər yox idi.

Bu gün Qərbdə əxlaqi, cinsi problemlər, ümidsizliyin artımı keçmişə nisbətən çox kəskin olmuşdur. Bu gün bu məsələlər orada problemdir. Əlbəttə, belə uzunmüddətli məsələlər özünü asanlıqla gösətərmir, lakin onların sözlərindən, mütəfəkkir adamlarının açıqlamalarından anlamaq olur ki, nigarandırlar. Gənc nəsillər tənəzzülə sarı gedir, cinayətlər çoxalır, ailələrin dağılması get-gedə artır.

---

[452] Yəzd vilayəti universitetlərinin tələbələri ilə görüşdə çıxışdan: 2008.

Nə eybi var?! Bir xalq özünü müəyyən həddə bu bəlalardan qorumağa qərar vermişdir; qərarı, Allaha təvəkkülü, özünəinamı, müəyyən amalları da var. Onlar kimi o da bu yolu keçə bilər. Biz bir gün Qərbdən irəlidə idik, amma problem yarandı, onlar çalışdılar və önə keçdilər. İndi də biz önə keçə bilərik. Gənci iradə ilə hərəkət edən, məmur və müdirləri də iradə ilə proqram və layihə hazırlayan bir xalq üçün fərqləri azaltmaq əsla qeyri-mümkün deyil.

Buna əsasən, düşmən üç maneə düşünə bilər: biri məyusluğa rəvac vermək, biri istedadları yayındırmaq, biri də radikal tədbirlər; yəni hərbi hücum və bu tip işlər.[453]

**Düşmənin elmi məsələlərdə ümidsizlik yaratmasına dair real nümunələr**

İndi bu bir neçə nümunəyə baxın. Biri nüvə enerjisi məsələsidir. Ölkəmiz daxilində təbliğat apardılar ki, nüvə enerjisinin xərci gəlirindən çoxdur, nə üçün bu işi görürsünüz? Beynəlxalq media da bunu tam izləyirdi və indi də izləyir. Bu iş başlayandan, yəni beş-altı il öncədən indiyə qədər həmişə bunu deyib və təkrar ediblər. Hətta bəziləri məktub yazıb dedilər ki, biz fizikik, bunların sentrifuq aparatlarını işlətmə iddiaları həqiqətə uyğun deyil. Bu sözü o qədər əminliklə dedilər ki, biz məcbur olub bəzi nümayəndələr göndərdik. Dedik ki, gedib yoxlasınlar, yaxşı baxsınlar, bəlkə bunların dediyi kimidir. Bu, beş-altı il öncəyə aiddir. Araşdırıb dedilər ki, yox, iş çox yaxşı, düzgün, elmi və əsaslı şəkildə görülür. Əvvəl dedilər olmaz, bacarmarıq, sonra bacardığımızı gördükdə dedilər ki, bu, gəlirsiz bir xərcdir.

Mən ötən il novruz bayramındakı ümumi çıxışda bu barədə geniş söhbət etdim, indi təkrarlamaq istəmirəm. Necə yəni faydası yoxdur?! Biz iyirmi ildən sonra atom stansiyalarından ən azı iyirmi min meqavat elektrik enerjisi əldə etməliyik. Ölkədə enerji istifadəsi və ehtiyaclı olduğumuz elektrik istehsalının təxmini miqdarının ən azı iyirmi min meqavatı gərək atom stansiyaları ilə təmin olunsun. Əks təqdirdə, digərlərindən elektrik dilənməliyik. Əgər dilənə bilməsək, utansaq, yaxud

---

[453] Yenə orada.

bizə verməsələr, elektriklə işləyən hər bir şeyin xeyrindən keçməliyik: zavodun, istehsalatın, bir çox inkişaf amillərinin. Yaxşı, iyirmi ildən sonra iyirmi min meqavatı əldə etmək üçün biz nə vaxt başlamalıyıq?! İndi gec olmasa da, şübhəsiz ki, tez deyil. Bəlkə də gecikmişik.

Görün necə qəribə əsaslandırmadır: deyirlər ki, ehtiyacımız yoxdur; yaxud deyirlər ki, siz atom stansiyası tikə bilməzsiniz. Üç-dörd faiz zənginləşdirilmiş uranla nə edəcəksiniz?! Yenə "bacarmazsınız" mövzusudur. Nə üçün bacarmarıq?! Köməksiz və müəllimsiz belə bir möhtəşəm zənginləşdirmə mərkəzləri yaradan xalq nə üçün stansiya tikə bilməz?! Bacarmalıyıq. Nə üçün bacarmayaq?!

Bir gün deyirdilər ki, siz buxar stansiyası tikə bilməzsiniz. Mənim yadımdadır, prezident olan vaxt keçmiş rejimdə başlanıb yarımçıq qalmış bir stansiya vardı. Gəlib-gedirdilər ki, hansısa ölkədən beynəlxalq dəllallar gəlib onu tiksinlər. Bəziləri də deyirdilər ki, biz daxildə tikə bilərik. Biz bu işlərlə məşğul olan məsul şəxslərin bir neçəsini prezident aparatına çağırdıq. Ölkə məmurlarından bir neçəsini, Baş naziri və digərlərini dəvət etdik ki, müzakirə edək. Onlar dedilər ki, Tehranın yaxınlığındakı bu stansiyanı axıra çatdırmamız mümkün deyil. Bu onların qənaəti idi. Dedilər ki, ümumiyyətlə, mümkün deyil, mütləq xaricdən gəlməlidirlər. Biz xaricdən kimisə gətirmədik, daxili mütəxəssis gedib onu təkmil etdi. İndi də illərdir elektrik enerjisi istehsal edir və ölkə ondan yararlanır.

İnqilabın əvvəlində Quruculuq cihadı elevator (taxıl anbarı) tikmək istəyirdi. Bilirsiniz ki, tağut dövründə bizim elevatorları Sovet mütəxəssisləri tikirdilər. Tağut rejimi buğdanı ABŞ-dan alırdı, elevatorunu Sovet tikirdi. Elevatorun zahiri sadədir, amma nisbətən mürəkkəb texnologiyası var. Quruculuq cihadı dedi ki, elevator tikmək istəyirik. Ətrafdan səslər ucaldı ki, bacarmazsınız, əbəs yerə özünüzü yormayın, ölkənin sərmayəsini də hədər etməyin. Onlar Xuzistanda kiçik bir elevator nümunəsi tikdilər. Mən o zaman gedib ona baxdım. Bu gün sizin İslam ölkəniz dünyada elevator tikən birinci və qabaqcıl ölkələrdəndir.

Tehranın yaxınlığındakı bəndlərin biri su buraxırdı, onu düzəltmək lazım idi. Dedilər ki, bu bəndi tikən kompaniyanın özü gəlməlidir. Gedib gətirdilər. Bu da mənim prezidentliyimin əvvəllərinə aiddir. Deyirdilər

məgər biz bənd tikə bilərik?! Keçmişin təlqinləri idi. Bizim gənclərimiz iradə göstərdilər, getdilər bənd tikməyə. Bu gün İslam Respublikası Allahın lütfü ilə bölgənin ən yaxşı bənd tikən ölkəsidir. Regionumuzda İslam Respublikası kimi heç bir ölkə istər betondan, istər torpaqdan böyük bəndlər tikməkdə peşəkar deyil. Bizim tikdiyimiz bəndlər tağut dövründə xarici şirkətlər vasitəsi ilə tikilən oxşar bəndlərdən daha yaxşı, daha böyük və əlbəttə, ki, çox az xərclidir. Öz işimizdir, nə üçün bacarmarıq?!

Xeyr! Atom stansiyası da tikə bilərik və tikməliyik. Bu gün başlasaq, bir neçə ildən sonra nəticə hasil olacaq. Bir neçə ildən sonra başlasaq, sonrakı bir neçə ildə nəticəsi görünəcək. Əgər başlamasaq, geri qalacağıq. Əgər zənginləşdirməni bu gün başlamasaydıq, on ildən, iyirmi ildən sonra nəhayət başlamalıydıq. Dedilər ki, ruslar sizə zənginləşdirilmiş uran verirlər, özünüz nə etmək istəyirsiniz? Bu yaxınlarda ABŞ-ın möhtərəm cahil prezidentinin buyurduğu sözlərdəndir bu: ruslar verirlər, İran nə iş görmək istəyir? Burada da nə onun kimi möhtərəm, nə də onun qədər cahil olan bəzi şəxslər həmin sözü təkrar etdilər ki, ruslar satırlar, gördünüz ki, birinci yük gəldi, ikinci yük gəldi, siz daha nə etmək istəyirsiniz, nə üçün özünüz zənginləşdirmə aparırsınız?

Sanki yerinin altı neft ehtiyatları ilə dolu olan bir ölkəyə deyirlər ki, nə üçün quyu qazırsan, get nefti xaricdən al. Yəni neft ehtiyatlarına malik olan bir ölkə nefti idxal etsin. Nə qədər gülüncdür! Əgər bir gün bu yanacağı vermək istəməsələr, yaxud desələr ki, bu qiymətə, yaxud bu şərtlə satırıq, İran xalqı qəbul etməyə məcbur olacaq.

Fikir versəniz, görərsiniz ki, bunlar düşmənin məyusluq yaratmaq planıdır. İndi bu qədər əhəmiyyətli olan atom enerjisi işi başlayıb. Xalq onun üçün bu qədər sevinir. Bu isə deyir ki, siz nə üçün əhəmiyyətsiz atom enerjisindən ötrü məmləkəti problemlərə salırsınız? Baxın, bu, sözügedən ümidsizlik yaratmaqdır. Bundan ehtiyatlı olmanız lazımdır.

Bu, milli özünəinama zərbə vuran amildir. Təəssüf ki, bir neçə il qabaq bu iş baş verdi. Yəni İran xalqının özünəinamının möhkəm dayağına çevrilməli olan atom enerjisi məsələsini bizdən özünəinam hissini almağa vasitə etmək istədilər.[454]

---

[454] Yenə orada.

**İnkişaf üçün yanlış yollar təhlükəsi**

Yanlış yollardan qorxmaq lazımdır. Bəzən inkişaf üçün yanlış məsələ və yollar təklif edirlər. Bir nümunəsini dedim; Pəhləvi dövrünün inkişafları kimi. Onların bəzisi həqiqətən durğunluq, bəzisi gerilik və süqut idi...

Bu səhv yolların başqa bir nümunəsi bəzən dövrümüzdə də görünən nümunələrdir. Buna diqqət yetirmək lazımdır. Bu nümunədə zahiri məsələlərin adı çəkilmir, iranlı və islamçı kimliyi də birincidə olduğu kimi inkar olunmur. Lakin siyasətçilərdə, cəmiyyətin aparıcı adamlarında bu yarışmanın hərəkət və inkişafına dair ümidsizlik haləti müşahidə olunur. Yəni Qərbə uca və əlçatmaz bir yer kimi baxırlar. Adını da qoyurlar realistlik. Deyirlər ki, reallıq budur. Onlar bu gün elmi baxımdan bu qədər öndədirlər, müxtəlif sahələrdə bu qədər inkişaf etmişlər, humanitar elmlərdə, ictimai, siyasi məsələlərdə bu qədər yeni və kreativ nəzəriyyə irəli sürüblər; biz nə vaxt bunların tozuna çata bilərik?! Yəni onlarda belə bir hiss mövcuddur.

Bu otuz ildə mən dəfələrlə belə insanlarla rastlaşmışam. Onlar ya açıq, ya yarımaçıq şəkildə, ya da dolayısı ilə çatdırırdılar ki, biz əlbəttə, hərəkət etməliyik, amma gərək onların ardınca gedək; biz nəinki onlardan önə keçə, heç tozlarına da çata bilmərik; nə üçün əbəs yerə özünüzü əziyyətə salırsınız?!

Bunun mənası odur ki, bizim xalqımız, müxtəlif Şərq və müsəlman xalqları həmişə Qərbin ardınca hərəkət etməyə, onların daimi şagirdləri olmağa məhkumdur, nəinki onlardan önə keçməyə, heç onlara çatmağa da ümid bəsləyə bilməz. Bu çox təhlükəli və səhv fikirdir. Lakin təəssüf ki, bəzi universitet müəllimləri, siyasi mütəfəkkirlər və din natiqləri tərəfindən təbliğ olunur. Bu, uzunmüddətli bəşəri təcrübənin tam ziddinədir.

Məgər Allah-Taala insanların bir qismini belə yaradıbmı həmişə öndə olsunlar?! Hansı tarixi fakt bunu təsdiqləyir?! Məgər bu gün dünyada öndə olanlar bir neçə əsr bundan qabaq bütün sahələrdə dünyanın geriqalmış xalqları deyildilər?! Məgər Avropanın Orta əsrləri tarixin yadından çıxıb?! Mən dəfələrlə demişəm ki, Orta əsrlər cəhalət və zülmət dövrüdür, lakin

müsəlman xalqlar və İran üçün yox, Avropa üçün. Adını cəhalət, savadsızlıq, zülmət və yuxu dövrü qoyduqları həmin dövr bizim ölkəmizdə və müsəlman ölkələrində elm və fəlsəfənin əzəmət və inkişaf dövrü, siyasi inkişaf və iqtidar çağı idi.

Bu baxış çox təhlükəlidir. Siz görürsünüz ki, bu gün ölkənizdə elmi inkişaflar var. Xüsusən həmin sahələrdə də bəziləri deyirdilər ki, faydası yoxdur. Lakin müsəlman və iranlı gənc iradə və həvəslə işə başladı, digərlərinə çatdı, bəzi yerlərdə digərlərindən önə də keçdi. Yəni sərf etdiyi zamana nisbətən önə də keçmişdir. Buna əsasən, bu təfəkkür sözügedən yanlış təfəkkürlərdəndir. Əsla ümidsiz baxmaq olmaz.

Dinin, İslamın və Quranın insana baxışı belədir: nizam-intizamla, proqramla intensiv çalışmalıdır ki, nəticələrə nail olsun.[455]

---

[455] Tələbələrlə görüşdə çıxışdan: 2008.

**Beşinci fəsil: İndiki vəziyyətin təsviri; inqilabdan sonrakı imkan və inkişaflar**

**Elmi inkişaf üçün yaranmış dəyərli fürsət**

Fürsətlər doğrudan da dəyərlidir. Bu gün İslam Respublikası quruluşunda universitet rektoru olan sizlər xalqınızın, ölkənizin elmi tərəqqisinə kömək etmənizə tam əmin ola bilərsiniz. Çox təsirli olan bu xüsusiyyət ölkəmizin elmi mühitində çox az dövrlərdə mövcud olub. Bir ölkənin siyasi və ictimai həyatına əcnəbilər hakim olanda orada elmin hansısa rola malik olduğunu düşünmək olarmı?!

Kiçik bir düzəliş etməyə başlayan, yaxşı ideya və məqsədlə bir neçə gün çalışan Əmir Kəbirdən sonra təəssüf ki, ölkəmizin ali təhsil mühitində davamlı bir fürsət yaranmadı. Mənim qətiyyətlə demək istədiyim budur. "Davamlı" deməyim ondan ötrüdür ki, ölkədə elmi işləri idarə edənlərin bəzisi həqiqətən işləmək, çalışmaq istəyirdilər. Lakin bir qığılcım kimi tez sönürdülər, işin davam etməsinə imkan verilmirdi. Bu gün isə elə deyil. Bu gün sizin büdcəniz az ola bilər. Bu çatışmazlıqlar var. Bunlar da həll ediləcək.[456]

**Elmi ərməğan edən amil**

Məsələ burasındadır ki, İran xalqı öz məqamına uyğun bir sivilizasiya yaratmaqdadır. Sivilizasiyanın əsas təməli sənaye, texnologiya və elm yox, insani mədəniyyət, baxış, əqidə və düşüncə kamilliyidir. Bir xalq üçün hər şeyi təmin edən və elm bəxş edən budur. Biz bu yolda və bu istiqamətdəyik. Bu işi görməyə biz qərar verməmişik, İran xalqının tarixi hərəkəti bunu ərsəyə gətirməkdədir.[457]

**Azadfikirlilik şəraitinin təsiri**

Bu gün də siz istedadların azad olduğu, onlara imkan yaradıldığı İslam Respublikası dövründə fikir azadlığının hakim olduğunu görürsünüz. Alət və texnikaların olmamasına rəğmən, azad düşüncə

---

[456] Səhiyyə Naziri və ölkənin tibb universitetlərinin rektorları ilə görüşdə çıxışdan: 1990.
[457] Yeni il münasibəti ilə müraciətdən: 1994.

şəraitinin özü öz işini görür. Biz bu gün şagirdlərin fizika, riyaziyyat və digər olimpiadalarında iştirak edirik; birdən-birə aşağıdan yüksək rütbələrə qalxırıq. Bizim parlaq istedadlarımızın dünyada xüsusi yeri var.[458]

**Ölkədə elmə həvəs oyadan şərait**

Bu gün cəmiyyətimizə baxanda görürük ki, elmi baxımdan iki-üç əsr geri saxlanandan sonra indi bizdə azadlıq, müstəqillik, təbii istedadlar var və məsul şəxslər dərs oxumağa həvəsləndirirlər. Düzdür, xırda-böyük problemlər də var. Harada problem yoxdur ki?! Hər bir yerdə nə isə problem var. Əsas elmə həvəsləndirən mühitin olmasıdır. Bu gün Allaha şükür olsun ki, bu ölkənin hər yerində universitet var; Yasucda var, Gəçsaranda var, hətta ölkənin ucqar bölgələrində də universitet tikilib; dövlət universiteti, Azad universitet, Nur sözü universiteti və müxtəlif təhsil müəssisələri. Mühit elm mühiti, şərait iş şəraitidir, hamı da inkişafa doğru gedir. Yəni bu, müvəqqəti siyasət və taktika deyil. Ölkəmiz də yaş baxımından gəncdir, gənc və gənclərlə dolu bir ölkədir.[459]

**Yenilik - azad elmi mühitlərin səmərəsi**

Bəşər beyninin möhtəşəm məhsulları olan universitetlər sizin ixtiyarınızdadır. Belə azad və dəyərli mühitlər beyinlərdə dəyişiklik yaradır. Diqqət yetirsəniz, görərsiniz ki, inqilabdan sonra yaranan bu azad elm və düşüncə şəraitinə görə müxtəlif sahələrdə çoxlu yeniliklərimiz olmuşdur. Bunu davam etdirin.[460]

**Elm və tədqiqat mərkəzlərinin artması**

İşlərin bir qismi elm və tədqiqat işinin inkişafıdır. Bu inkişaf ölkə boyu tələbənin, universitetin, müəllimin, tədqiqat və təhsil mərkəzlərinin sayında baş vermişdir. Universitetlərin və ali təhsil mərkəzlərinin indiki sayı iyirmi il öncə üçün təsəvvüredilməz idi. Bu inkişaf prosesini iyirmi il

---

[458] Kuhgiluyə və Buyer Əhməd vilayətinin universitet mənsubları və mədəniyyət işçilərilə görüşdə çıxışdan: 1994.
[459] Yenə orada.
[460] Ölkə hakimlərinin İslam birliyi və İslam cəmiyyəti ilə görüşdə çıxışdan: 1994.

öncə - yəni inqilabdan beş il qabaqla müqayisə etsəniz, tələbənin və elm mərkəzlərinin sayı baxımından inanılmaz olduğunu görərsiniz.[461]

**Mömin və fəal gənclərin texnologiyada təsəvvürolunmaz inkişafı**

Biz bu gün çox dəqiq və mühüm sənayedə elə inkişaflara nail olmuşuq ki, hətta bizi yalandan atom bombası düzəltməkdə ittiham edən və kiçik bir məsələ əsasında bizim elm, texnologiya və digər tədqiqat qurumlarımızın xırdalıqları barədə məlumat öyrənməyə çalışan bədxahlarımız da inanmırlar. Dünya özünün bütün gücü ilə çalışıb bizi mühüm sənaye işlərindən məhrum etmək istədi, hətta onun üçün hazırlıq sayılan amillərin ölkəyə daxil olmasına, yaxud ticarətinə icazə vermədilər. Lakin bizim əsasən mömin, inqilabçı və fəal gənclərimiz oturub fikirləşdilər, işlədilər, düşmənin istəmədiyinə ən yaxşı şəkildə nail oldular.

Bu gün sənaye və texnologiya sahəsində dost və düşmənin təsəvvüründən çox uğurlarımız var. Əlbəttə, bizim ciddi şəkildə məşğul olduğumuz bütün sahələrdə gözəçarpan uğurlarımız bir gün aşkara çıxacaq. Bizim mömin və aktiv gənclərimiz harada bir maneəni götürməyə qərar vermişlərsə, bacarmışlar. Bəzən onların düşüncə və işgüzarlığı səbəbindən möcüzəyə bənzər işlər görülmüşdür.[462]

**İslam inqilabından sonra görülən dəyərli elmi işlər**

Əlbəttə, insafla desək, inqilabın əvvəlindən bu günədək elm və iş sahəsində çoxlu işlər görülmüşdür. Kim bunu inkar etsə, sanki “indi hansı dəlilə əsasən gündüzdür?” - deyir. Bu qədər aydındır. İnsan ölkəyə baxsa, şagirdin, müəllimin, mütəxəssisin və tələbənin artmasını, çoxlu laboratoriyaları, əkinçilik və sənaye işini, dəqiq və dəyərli işləri, çoxlu yenilik və ixtiraları görər. Onları bu on beş ildə İslam dini xalqa vermişdir. Mən və siz də deyə bilmərik ki, bu işləri biz gördük. Bu nailiyyətlər İslama məxsusdur.[463]

---

[461] Hökumət həftəsi münasibəti ilə Dövlət Şurasının üzvləri ilə görüşdə çıxışdan: 1994.
[462] Sənət və kino adamları ilə görüşdə çıxışdan: 1995.
[463] Müəllim Günü və Beynəlxalq Əmək Günü münasibətilə fəhlələrlə, nümunəvi müəllimlərlə və Mənzil Fondunun əməkdaşları ilə görüşdə çıxışdan: 1995.

**Embarqolar sayəsində möhtəşəm inkişaf**

Biz necə bacardıq? Bu məmləkətdə pilot ABŞ təyyarəsi ilə uçurdu. Zabit-texniklər təmir işləri görürdülər, lakin heç biri bu təyyarənin hissələrini açıb necə olduğuna baxmağa cürət göstərmirdilər; adları da təmirçi idi. Təyyarənin hissələri xarab olduqda ABŞ-a aparıb orada təmir etməli idilər. Həmin təyyarə ilə işləyən texniklərimizə ABŞ təyyarəsinin hissələrini təmir etməyə icazə verilmirdi. Lakin həmin silahlı qüvvələr və xalq bu sahədə möhtəşəm şəkildə inkişaf edə bilmişdir.[464]

**İslam ölkəsi elmi inkişafın avanqardı olmalıdır!**

Bu ölkədə yaşamaq digər xalqların qibtəsinə səbəb olmalı, ondan dərs götürmək istəməlidirlər. Bu, düşməni məğlub edən amildir. Düşmən inandırmaq istəyir ki, bir ölkə və xalq İslama sığınsa, yoxsul yaşamalı, elmi inkişaflardan məhrum olmalı və özünü idarə edə bilməməlidir. İran xalqı! Siz bu 16 il ərzində - inqilabın əvvəlindən bu günə qədər düşmənin bu istəyi ilə vuruşmuş və mübarizə aparmısınız.

İran xalqı öz birliyini və başucalığını qorudu, abadlıq işlərini davam etdirdi, inkişaf etdi, öz mədəniyyətini dirçəltdi, universitetlərini günbəgün abadlaşdırdı və izdihamlı etdi, ölkədə elm və biliyi günbəgün genişləndirdi. Xalqlar da kor deyillər, baxıb bu vəziyyəti görür, İslama üz tuturlar, İslam oyanışı və İslama qayıdış günbəgün güclənir.[465]

**Hizbullahçıların vasitəsi ilə elmi inkişaflar**

Bunu hamı bilsin; sənaye, texnologiya və elmi-texnoloji inkişaflarda inqilabdan öncə ilə yerlə-göy qədər fərqimiz varsa, biz hizbullahçılara borcluyuq. Əsasən onlar etdilər, dalanları açıb irəliləyənlər əsasən onlar idi. Bu səbəbdən bütün sahələrdə - həm iqtisadi sahədə, həm idmanda, həm elm və mədəniyyətdə Allahın lütfü ilə iş hizbullahçıların əli ilə aparılmışdır.[466]

---

[464] Yenə orada.

[465] Xalqın müxtəlif təbəqələri və həzrət İmam Xomeyninin vəfatının ildönümü mərasimində iştirak edən xarici qonaqlarla görüşdə çıxışdan: 1995.

[466] Müharibə əlili olan idmançılarla görüşdə çxışdan: 1995.

**Gənclər üçün ali təhsil imkanı**

Gənclər üçün böyük bir imkan təhsil imkanıdır və bu imkan ölkəmizdə bütün gənclərə yaradılmalıdır. Keçmişdə gənclərin çoxunun belə imkanı yox idi, əyalətlərdə, ucqar kəndlərdə və hətta kiçik şəhərlərdə də tam orta təhsil almaq, universitetə girmək və ali təhsil almaq imkanı olmayan şəxslər vardı. Biz çalışırıq ki, ölkənin gəncləri bacardıqca təhsillərini davam etdirib məmləkətləri üçün faydalı olsunlar.[467]

**İstedadlar ölkənin xidmətində durmalıdır!**

İslam quruluşu və İslam Respublikası dövründə siyasət budur ki, ölkənin bütün əhalisinin düşüncə, ağıl və elmi inkişafı olsun. Siyasət budur ki, ölkənin istedadları ölkə üçün işlədilsin, ucqar kənd və şəhərlərlə Tehran və digər böyük şəhərlər arasında fərq olmasın.[468]

**İnqilab və elmi özünəinam hissinin dirçəlməsi**

Kompüter proqramına aid çox dəqiq və mürəkkəb elmi bir layihə üçün keçirilən tenderdə bütün dünyadan iştirak edirdilər. İslam inqilabının müsəlman uşaqları da tenderə qatıldılar. Beynəlxalq münsiflər heyəti elm və sənayedə inkişaf etmiş Amerika və Avropa ölkələri arasında iranlıları seçdi. İnqilab xalqda və gəncdə özünəinam hissini dirçəltmişdir. Bu gün İran xalqı özünə güvənir. Bu 17 il ərzində Allahın lütfü ilə çox inkişaf etmişik, zaman ötdükcə inkişaf da çoxalacaq, bu şərtlə ki, haqq cəbhəsi - yəni siz səhnədə ola, gələcəyə inam və ümidinizi günbəgün artıra və fəaliyyət iradənizi bir an da əldən verməyəsiniz.[469]

**İnkişafın olmaması - həyat enerjisinin tədricən itməsinin əlaməti**

Şəhid Səttari Hərbi Hava Qüvvələrinin komandanı olmazdan öncə bizim orada özünütəmin cihadımız vardı; çox yaxşı və fəal idi. O mərhum gəlib bu qüvvələrdə quruculuq işini artırdı, əslində böyük bir hərəkətə başladı. Özünütəmin cihadı da çoxlu uğurlar əldə etdi. Mən bu gün

---

[467] Arvest kəndinin şagirdləri ilə görüşdə çıxışdan: 1995.
[468] Yenə orada.
[469] Babul əhalisinin toplantısında çxışdan: 1995.

görürəm ki, Allahın lütfü ilə həmin proses sürətlə davam edir. Əgər indi vəziyyət Şəhid Səttarinin dövründə kimi olsaydı, mən qəti etirazımı bildirərdim. Çünki keçmiş vəziyyəti saxlamaq kifayət etmir. Durğunluq həmişə ölmək əlamətidir, canlı bir varlıq inkişaf halında olmalıdır. Əgər fəlaiyyət və inkişafın olmadığını görsək, bilməliyik ki, bu canlı varlıq tədricən məhv olur və həyat qüvvəsini itirir. Bu əzizlərin şəhidliyindən ötən təxminən bir ildə Allahın lütfü ilə Hərbi Hava Qüvvələrinin hərəkəti irəliyə doğru olmuşdur, elm, tədqiqat və sənaye sahəsində davamlı inkişafı gösətərən işlər görülmüşdür.[470]

**Gənclərin elmi və mənəvi inkişaflarının düşmənlər üçün xoşagəlməz olması**

Ötən il bir məsələ mənim diqqətimi çəkdi. O budur ki, bizim gənclərimiz düşmənlərimizin xoşlamadığı çoxlu sahələrdə ciddi və fəaldırlar. Məsələn, onlar mənəviyyata diqqət ayırır, elmə üz tuturlar. Elmi inkişaf, tələbə məsələsində yenilik və ölkədə tələbələrin sayının artması bizim düşmənlərimiz üçün əsla xoşagələn deyil. Onlar ölkədə elmin bu qədər tərəfdarı oluğunu və beləliklə vətənin gələcəyinin yaxşı olacağını görə bilmirlər. Biz hətta elmi yarışlarda gənclərimizin yaxşı nailiyyətlər əldə etdiyini gördük. Bütün bunlar hegemonizmlə mübarizəyə və ölkənin gələcəyinə köməkdir.[471]

**İslam Respublikasının elm və sənaye vasitəsi ilə xalqların psixologiyasına təsir göstərməsi**

Bu gün dünya reallığı budur; bu müstəqil İslam ölkəsi və bu şücaətli xalq nə qədər inkişaf etsə, elmi, işi, təcrübəsi, universiteti, məktəbi, zavodu, laboratoriyası nə qədər yaxşı olsa, bu psixoloji amilin xalqlara təsiri bir o qədər çox olar. İqtisadi embarqo qoyanlar İslam Respublikasının sənaye, texnologiya və elmi inkişaf vasitəsi ilə xalqlara təsir göstərməsinə mane

---

[470] Hərbi Hava Qüvvələrinin komandirləri ilə görüşdə çıxışdan: 1995.
[471] Yeni il münasibəti ilə çıxışdan: 1996.

olmaq istəyirlər. Allaha olsun ki, bacarmırlar və biz günbəgün inkişaf edirik.[472]

**İmamın elmi müstəqillik tövsiyəsi və real vəziyyət**

Quruculuq sahəsində də belədir. (Mərhum imam) buyurdu ki, siz hər şey düzəldə, ölkənizi öz əlinizlə abadlaşdıra, əcnəbilərə ehtiyacsız ola, elm və bilik mərhələlərini digərləri kimi qət edə və universitetlərinizi müstəqilləşdirə bilərsiniz. Bu gün görürsünüz ki, İran xalqı bu sahələri addım-addım inkişaf etdirir. Xalq bunları təcrübə etdi.[473]

**İstedadları çiçəkləndirməyin yolu**

Digər tərəfdən, siz ən yüksək istedad sahibinin əlinə bir bel verib onu qeyri-elmi işə vadar etsəniz, istedadı çiçəklənməz. Lakin şərait yarandıqda və Allahın lütfü ilə əcnəbilərin istismarından çıxdıqda, ölkənin şəraiti yavaş-yavaş yaxşılaşdı. Təlim, tərbiyə, tədqiqat, universitet və məktəb mühiti əlverişli olduqda hökumət və ölkə məmurları da həvəsləndirdilər və gördüyünüz kimi istedadlar çiçəkləndi.[474]

**Hərbi istehsalda gənclərin yaradıcılığı və inkişafı**

Bu gün gənclərimiz, sənətkarlarımız, mühəndislərimiz və texnoloqlarımız xalqımıza xas yaradıcılıqla hərbi sursatın istehsalı sahəsində çox inkişaf edə bilmişlər. İran İslam Respublikası bizim mömin kadrlarımız vasitəsi ilə dünyanın mütərəqqi qırıcılarının istehsalçıları sırasına qoşulmuşdur. Keçmişdə belə imkanlar yaradılmırdı.[475]

**Ali təhsilin yüksələn inkişafı**

Bizim çoxlu gənci, inkişaf etməkdə olan universitetləri və elm mərkəzlərinin günbəgün çoxalan məzunları olan bir xalqımız var. Bu gün elm mərkəzləri inqilabdan öncəki dövrə nisbətən olduqca artmışdır. Bu

---

[472] Ölkə fəhlələri, müəllimləri və mədəniyyət mənsubları ilə görüşdə çıxışdan: 1996.
[473] Həzrət İmam Xomeyninin vəfatının ildönümü mərasimində çıxışdan: 1996.
[474] Beynəlxalq Əmək Günü və Müəllim Günü ərəfəsində fəhlə və müəllimlərlə görüşdə çıxışdan: 1997.
[475] "Zülfüqar manevri" mərasimində çıxışdan: 1997.

ölkədə o zamandan on dəfələrlə artıq universitet, elm və tədqiqat mərkəzi var. Ölkənin insan kapitalı, təlim-tərbiyə mərkəzləri də belədir.[476]

**Ölkənin elm mərkəzlərinin kəmiyyət və keyfiyyət dəyişikliyi**

Doğrudan da biz İslam inqilabından sonra ölkə universitetlərinin kəmiyyət və keyfiyyətində böyük dəyişikliyin şahidi olmuşuq. Kəmiyyət baxımından məsələ aydındır. Siz görün ölkənin hər yerində nə qədər ali məktəb var. Ucqar şəhərlərdə heç zaman ümid etməzdilər ki, ali təhsil üçün hətta kiçik bir mərkəzləri olsun. Onların bəzilərində tam orta məktəb də yox idi, indi isə dövlət və özəl universitetlər mövcuddur. Deməli, kəmiyyət baxımından həqiqətən çox inkişaf etmişik. Əlbəttə, demirik ki, kəmiyyət hər şeydir. Lakin bu süfrəni açmağın özü çox əhəmiyyətli işdir. Qoy hamı ondan dadıb istifadə edə bilsin.

Keyfiyyətə gəldikdə, əxlaqi və mənəvi keyfiyyətlər aydındır. Çox işlər görülüb. Elmi keyfiyyət baxımından bəzi yerlərdə doğrudan da çox yaxşı işlər görülüb. Lakin hər halda, mənim əzizlərim, biz amalçılığı prinsip seçmişik. Bu o deməkdir ki, heç bir hədlə kifayətlənmək olmaz.[477]

**İslam Respublikası – elmə və mədəniyyətə əsaslanan quruluş**

Bu universitet asılı və azğın Pəhləvi rejiminin özünə elmi-mədəni hörmət qazanmaq istədiyi universitetlərdən idi. Bu səbəbdən dünyanın çoxlu elm mərkəzlərində qeyd olunmuş və tanınmışdır; həm tanıyırlar, həm əlaqələri olub, həm də bəlkə elmi konfranslarında iştirak etmişlər. Siz çalışın İslam Respublikası mədəniyyətinə əsaslanan quruluşla Pəhləvi cəhalətinə əsaslanan quruluş arasındakı elmi fərqi dünyaya göstərin.

Bu quruluş elmə, mədəniyyətə, dinə və bilgiyə əsaslanır; onun məmurları elm adamlarıdır, elm və mədəniyyətlə tanışdırlar, elm və mədəniyyətin qədrini bilirlər. Keçmiş rejim üçün isə elm və mədəniyyət zahiri bir şey idi, kitab mağazasına gedib şkafları üçün bir metr kitab alanlar kimi idilər; rəngini seçirlər, amma kitabın nə olması onları maraqlandırmır. O quruluş elm, bilik və mədəniyyətlə belə rəftar edirdi.

---

[476] Kərəc əhalisinin möhtəşəm toplantısında çıxışdan: 1997.
[477] Ölkə üzrə universitet rektorları ilə görüşdə çıxışdan: 1998.

İşinin elm və mədəniyyətsiz ötüşdüyünü bilsəydi, bunları da etməzdi, lakin dünyanın elm və mədəniyyətlə maraqlandığını görürdü. Buna görə öz imici üçün bu məsələlərə yer ayırmağa məcbur idi. Bütün hərəkəti elm və bilgi əsasında olan quruluş isə tam başqa bir şeydir: "Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir! O Rəbbin ki, qələmlə (yazmağı) öyrətdi".[478] Digər yerlərdə də belədir. Görün ölkədə tələbələrin sayı, səviyyəsi, həmçinin elmi iş o zamanla nə qədər fərqlənmişdir. Həqiqətən çox aydın şəkildə fərqlənmişdir.[479]

**Mömin alimlərə güvənmək**

Keçmişdə universitet və elm mərkəzlərimiz çox zaman İslama etiqadı olmayan qüvvələrə güvənirdi. Bu gün isə ölkəmizdə minlərlə mömin, həvəskar və alim qüvvə yetişmişdir. Biz inkişaf etmişik, Allahın qüvvə və qüdrəti ilə günbəgün daha artıq inkişaf edəcəyik.[480]

**Elmi inkişaf - ABŞ-dan asılılığa son qoyulmasının nəticəsi**

İran xalqı bu ölkədə ABŞ-la dost münasibətləri on illər boyu sınaqdan keçirmişdir. Bu ölkə sionistlərin və amerikalı oliqarxların istirahət yeri olmuşdu, buraya gəlib əylənirdilər. Onlar buraya texnologiya, elm gətirmirdilər, universitetlərin səviyyəsini yüksəltmirdilər, buranın gənclərini alim yetişdirmirdilər. İranlılar o zaman bircə beynəlxalq elmi tədbirdə də nəzərəçarpacaq şəkildə iştirak etmirdilər. Lakin bu gün həmin gənclər dünyanın elmi yarışlarında yüksək yerlər tuturlar. O zaman İran dünyada sayılan bir ölkə deyildi. İranın adı hansısa məhsuluna görə çəkilirdi - xüsusi məclislərdə neftinə, ümumi məclislərdə xalçasına görə. Ancaq bu gün İranın gəncləri, döyüşçüləri, görkəmli şəxsiyyətləri, böyük alimləri, istedadlı və yaradıcı gəncləri, onların tədqiqatları xalqların

---

[478] "Ələq"/3-4.

[479] Bazar ertəsi görüşlərində Şiraz Universitetinin Rəyasət Heyəti ilə görüşdə çıxışdan: 1998.

[480] Xalqın müxtəlif təbəqələri, əsirlikdən azad olanlar, müharibə əlilləri və hörmətli şəhid ailələri ilə görüşdə çıxşdan: 1996.

gözünü qamaşdırır. Sizin uğurlarınız bütün İslam dünyasında ürəkləri sevindirir.[481]

**İnqilabdan sonrakı elmi və maddi inkişafın yüzillik dövrlə müqayisəsi**

Bu iyirmiillik dövrdə baş verənlər - hətta bütün çətinlikləri ilə yanaşı müqəddəs müdafiə dövründə quruculuq, abadlıq, maddi, elmi inkişaf, universitetlərin və tədqiqat mərkəzlərinin artırılması baxımından görülən işlər – yəni bir xalq və onun gələcəyi üçün mühüm olan bütün bu meyarlar yüzillik dövrdən dəfələrlə çox və keyfiyyətlidir.[482]

**İnqilabın universitetlərin istiqamətinə təsiri**

İslam inqilabı universitetin istiqamətini birdən-birə dəyişdirdi, özünəinamı, yaradıcılığı, müstəqilliyi, İslam dəyərlərinə sadiqliyi, elmi cihadı, əsirlik və asılılıqdan azadlığı onun əsas istiqamətinə çevirdi.[483]

**İnqilabın universitet toplumuna səmərələri**

Elm və tədqiqatda tələbələrin sayının on dəfə artması, çoxlu elm və tədqiqat fənlərinin yaranması və inkişafı, ali təhsilin ümumiləşməsi, yaradıcılıq və ixtira sahəsində parlaq istedadların aşkara çıxması İslam inqilabının universitet toplumuna bəxş etdiyi özünəinamın səmərələrindəndir. Mədəni, dini və siyasi sahələrdə tələbələrin və universitet mənsublarının İslam quruluşuna xidməti, müdafiə və quruculuq işində fədakarlığı, İslam amallarına sadiqliyi, tələbə və müəllimlərin böyük hissəsində olan paklıq və bəndəlik ruhu inqilabi istiqamətin təsirlərindən və Böyük İmamın ölməz dərslərinin nəticələrindəndir.[484]

---

[481] İmam Əlinin (ə) doğum günündə 13 Aban münasibətilə tələbə və şagirdlərlə görüşdə çıxışdan: 1998.

[482] Mübarək ramazan ayı ərəfəsində ruhani və təbliğatçılarla görüşdə çıxışdan: 1998.

[483] Universitet mənsublarının və tələbələrin həzrət İmam Xomeyninin xatirəsinə həsr olunan xüsusi toplantısına müraciətdən: 1999.

[484] Yenə orada.

**Müharibədən sonra tələbələrin elm və tədqiqat fəaliyyəti**

Bizim tələbələrimiz müharibədən sonra güclü elm və tədqiqat işinə başladı. Bizim böyük ölkəmiz keçmişdəkindən daha çox tələbə və alimə layiq bir ölkədir. Bu gün keçmişdəkindən çox inkişaf etməyimizə baxmayaraq, ölkəmiz bundan da artığına layiqdir.[485]

**Tələbəliyin kəmiyyət və keyfiyyəti**

Bu il tələbələrin və universitetlərimizə qəbul olanların sayı ötən illərlə müqayisəolunmazdır. İndi ölkə tələbələrinin sayı inqilabın əvvəllərinə və ondan öncəyə nisbətən on dəfədən artıqdır. İndi bizim təxminən on qat artıq tələbəmiz var, elmi səviyyə yüksək, elmi iş, tədqiqat yaxşı, fənlərin müxtəlifliyi çox yaxşıdır, hərəkət başlanmışdır. Həm tələbələr, həm də şagirdlər arasında olan parlaq istedadlar özlərini göstərirlər. Ölkənin, inqilabın və İslam quruluşunun gələcəyi bunu özünə müjdə hesab edə bilər. Bu hər bir ölkə üçün şad xəbərdir ki, gənclər elmə və dərsə həvəs göstərirlər, müəllimləri qayğıkeş, universitetlərə məsul şəxslər həvəskar, ixlaslı və doğma kadrlardır. Mən "doğma" sözünü təkrar etməkdə israrlıyam. Bu bir həqiqətdir. Bu gün Allaha şükür olsun ki, belədir və düşmən bunu görə bilmir.[486]

**İnqilabdan sonra universitetlərdə saflıq və dindarlıq**

Bu gün Allaha şükür ki, İslam ölkəmizin digər ictimai mühitləri kimi universitet də dini əlamətlərlə zinətlənmiş, saflıq, dindarlıq və inqilab ruhu ilə bəzənmişdir. İnqilabın universiteti iki onillikdə bütün inqilabi səhnələrdə fəal iştirak etmiş və böyük şəhidlər vermişdir. Siz əziz tələbə və müəllimlər bu gün əziz İslam ölkəmizin belə təsirli hissəsinin əmanətdarısınız.[487]

**İstedadları tanımağın və işlətməyin əhəmiyyəti**

---

[485] Təbriz Universitetinin tələbələri və məsul işçiləri ilə görüşdə çıxışdan: 1999.
[486] Yenə orada.
[487] Universitetlərin dərs ilinin başlanması münasibəti ilə müraciətdən: 1999.

Elmi fəaliyyətiniz üçün sizə kömək edən əziz dostlara – istər universitetlərdə, istər liseylərdə və istər digər elm mərkəzlərində çalışıb sizə dəstək olan, məşğələ keçən, müəllim və kitab hazırlayan, mütaliə və araşdırma imkanı yaradan və bu istedadların çiçəklənməsinə bais olan dostlara ürəkdən və səmimi təşəkkürümü bildirirəm. Sizin istedadlarınız kimi və bəlkə bunlardan da üstün istedadların çiçəklənməsi üçün biz çox gözləməli olduq.

Bu ölkədə istedad vardı, lakin məsələnin o biri tərəfi yox idi. Yəni bu istedadları tanıyıb, onların qədrini bilməli, fəaliyyət yoluna çıxarmalı olan yox idi. Bu səbəbdən istedadlar zəiflədi, paslandı və məhv oldu. Hər bir yaxşı şey belədir; qulluq etməsələr, nə qədər sərvətli və dəyərli olsa da, tədricən məhv olar; müstəsna şəraitdə qeyri-adi səylər göstərildikdə isə heç.

Buna əsasən, məsələnin ikinci tərəfinin əhəmiyyəti birincidən az deyil. Əgər istedad sahiblərini həvəsləndirənlər, qədirbilənlər və şərait yaradanlar olmasa, bu istedadlar tələf olar və bəzən daha zirək olanların tələsinə düşər.[488]

**İnqilabın faydalarından biri: elmi özünəinamın dirçəldilməsi**

İnqilabdan öncə gəncə və qeyri-gəncə elm, sənaye və digər sahələrdə yaradıcılıq imkanı verilmirdi, yaradıcı işlər etinasızlıqla üzləşirdi. İnqilab isə cəmiyyətimizdə özünəinam yaratdı. Odur ki, bu hiss də böyük imkanlardan biridir.[489]

**Korpus - elm və tədqiqata söykənən mütərəqqi təşkilat**

Bu gün Keşikçilər Korpusu həm koordinasiya və insani məsələlərdə, həm dəstək, təminat, döyüş sursatları və lazımi texnikalar sahəsində, həm tədqiqat, texniki və elmi inkişaflarda, həm də əməliyyat layihələri sahəsində inkişaf etmiş, kamilləşmiş və elmi əsaslara söykənən bir təşkilat olmuşdur. Düşmənin qorxduğu və yoxluğuna sevindiyi də budur. Əgər diqqət yetirmisinizsə, əcnəbi və düşmənlərin təbliğatında və təəssüf ki,

---

[488] Ölkənin elmi elitasının nümayəndələri ilə görüşdə çıxışdan: 1999.
[489] Tehranın böyük müsəllasında gənclərlə görüşdə çıxışdan: 2000.

əcnəbilərin sözünü səsləndirən bəzi daxili mərkəzlərdə - bu yerlərdə deyilənlər düşmənlərin və əcnəbilərin sözünün səsləndirilməsindən başqa bir şey deyil – korpusu onun üstünlüyü olan elmdən ibarət dəyərli zinətindən ayrı göstərməyə çalışırlar. Onlar korpusda olan elm və bilgi təməlini etiraf etmirlər.

Korpusun müxtəlif sahələrində minlərlə mömin, mütəxəssis, yüksək elmi dərəcələrə malik və parlaq istedadlı gənc işlə, tədqiqatla, istehsalla və proqram hazırlamaqla məşğuldur. Bizim bəzi idarələrimiz bu iyirmi il ərzində korpusun koordinasiya, elmi iş, istehsalat, tədqiqat və digər bu kimi sahələrdəki uğurlarının yüzdə birinə nail olmayıblar.

Elmi iş, inkişaf, ölkəni xarici silah və sursat mənbələrinə güvənməkdən, hətta əkinçilik və bu kimi digər sahələri xarici imkanlardan ehtiyacsız etmək korpusun ixtisaslı işi olmasa da, bu sahələrdə də işləyə bilmişdir.[490]

### İnqilabdan sonrakı elmi inkişaflar

İnqilabdan sonra universitetlərdə həqiqətən elmi hərəkət başlandı. Müəllimlərin çoxu getsə, qalmasa, yaxud yaxşı işləməsə də, hər halda, inqilab gəncləri və alimləri meydana atıldılar. Elm və tədqiqat üçün şərait də münasib idi. İş elə bir yerə çatdı ki, biz istər tibdə, istər digər elmlərdə diqqətəlayiq uğurlar əldə etdik. Siz indi ölkədə tibbin vəziyyətinə, ürək, böyrək, göz və digər cərrahiyyə əməliyyatlarının vəziyyətinə baxın və onu on beş il öncə ilə müqayisə edin. Görün o zaman harada idik və indi haradayıq. Siz yaxın olduğunuzdan bu vəziyyəti çox yaxşı görürsünüz. Bizim alimimiz olmasaydı, bunlar mümkün olmazdı; mütəxəssisimiz olmasaydı, yalnız çalışmaq və ürək yandırmaqla bu işlər baş tutmazdı.[491]

### İnqilabdan sonra elmə daha böyük diqqət

Çıxış edənlərin sözləri arasında eşitdiyim bəzi fikirlərə görə demək istəyirəm ki, mənim gördüyüm və etimadlı şəxslərdən eşitdiyim qədərincə,

---

[490] İslam İnqilabının Keşikçiləri Korpusunun komandirlərinin böyük toplantısında çıxışdan: 2000.

[491] Bazar ertəsi görüşlərində Gilan Tibb Universitetinin məsul şəxslər ilə görüşdə çıxışdan: 2000.

bu gün ölkə miqyasında elmə diqqət kəmiyyət və keyfiyyət baxımından inqilabdan öncədən çox artıqdır. Bu, xoşbəxtlikdən, inqilab hərəkətinin və inqilab proqramlarının yaxşı nəticələr əldə etdiyi çoxlu sahələrdən biridir. Həqiqətən dərs oxumaq istəyən şəxslər var; onlar həm sayca çoxdurlar, həm də keyfiyyətlə işləyir və çalışırlar. Həqiqətən yaxşı işləyən bəzi şəxsləri biz özümüz də tanıyırıq. Universitet işləri harada sənaye ehtiyaclarına calaqlanmışsa - nümunəsi sizin müdafiə işlərinə dair bu universitetiniz, silah-sursata aid sahələr və sair qurumlardır - biz inkişaf etmişik; həm bizim həmin universitetimiz, elmi sahəmiz inkişaf edib, həm də necə deyərlər, müştəri, yəni sifariş edən.[492]

**İnqilab və universitetin iki böyük bəladan xilası**

Universitet Qərbə vurğun idi, yenilik üçün çalışmaq istəmirdi. Müəllim və tələbədə bu meyl var idi, amma universitetə hakim mədəniyyət bu deyildi, şah rejiminin güclü şəkildə yaydığı asılılıq mədəniyyəti idi. Universitet daxilində ziyalılıq iddiasında olan şəxslər də xalq ziyalıları deyildilər, xalqdan uzaq kafe ziyalıları idilər. Onların çoxu inqilabdan sonra getdilər və indi də Avropa ölkələrində kafe adamlarıdır, mühitləri daha çox kafelərdir. Universitet belə bir durumda idi.

İnqilab universiteti bu iki böyük təhlükədən xilas etdi. Universiteti özü düşünən, müstəqil, özünə inanan, elm və düşüncə istehsalı gücünə malik, xalqın müxtəlif təbəqələri ilə əlaqədə, xalqın mədəniyyətinə bağlı və xalq arasında mövcud olan etiqad və istəklərə bağlı etdi. Bu çox böyük əhəmiyyətə malikdir.[493]

**İnqilabdan sonra universitetlərin inkişafına rəğmən, onların elmi yoxsulluğu**

Bu gün bizim elmə ehtiyacımız var. Bu ölkənin hərəkətinin əsas açarı elmdir. Bizim universitetlərimiz elm yoxsulluğuna düçar olmuşlar. Düzdür, inqilabdan sonra çoxlu işlər görülmüş, universitetlərin həm

---

[492] Şərif Sənaye Universitetinin məsul şəxsləri və müəllimləri ilə görüşdə çıxışdan: 2000.
[493] Əmir Kəbir adına Sənaye Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışdan: 2001.

kəmiyyəti, həm də keyfiyyəti çox fərqlənmiş və çox inkişaf etmişdir. Onun əlamətlərini həm elmi inkişaflarda, həm elmi yarışlarda, həm parlaq istedadların aşkarlanmasında, həm müxtəlif sahələrdə malik olduğumuz möhtəşəm istehsalatda görürsünüz. Amma bunlar çox ağır durumdadır və günümüzə uyğun deyil. Bizim günümüzə uyğun olan çox dərin və güclü elmi hərəkətdir. Onun əsası sizin yaşlarınızda - şagirdlik dövründə və orta məktəbdə qoyulur. Siz orada elmi sözün həqiqi mənasında mənimsəməlisiniz.[494]

**Korpusun nailiyyətlərinin inqilabçı ruhdan qaynaqlanması**

Düşüncə və elm istehsalında, ədəbiyyat və incəsənət yaradıcılığında, quruculuq işlərində, ictimai fəaliyyətlərdə və digər sahələrdə korpus yenilik və yaradıcılıq qabiliyyətini göstərdi. Bu da inqilaba xas ruhdan irəli gəlir. Bunlar nəsil-nəsil inkişaf edir. Bunları qoruyun.[495]

**İnqilab - elmi asılılığı və özünə inamsızlığı aradan qaldıran amil**

Bu ölkə Allahın lütfü ilə bu imkanlara malikdir. Bu gün inqilabın sayəsində düşünmək imkanı yaranmışdır. Amma bir zaman ümumiyyətlə, buna icazə verilmirdi. İnqilabdan öncə ölkə universitetlərində əsla belə bu fikir mövcud deyildi ki, bir iranlının öz ölkəsinin elmi quruculuğunda müstəqil hərəkət etməsi mümkün olsun. Bəzi dostlar haqlı olaraq dedilər ki, ölkəmizin elm və təhsil proqramları digərlərinin həmişə istifadə və istismar etmək istədikləri ölkələr üçün hazırlanan proqramlar idi və icra olunurdu. Kənarında mədəniyyət də vardı: elm və əməldə Qərbə asılılıq və Qərbi böyük saymaq mədəniyyəti; yəni onun kölgəsinə də çatmaq olmaz, nəinki özünə çatıb onu geridə qoymaq. İnqilab bunları ortadan götürdü.[496]

**Özünəinam sayəsində elmi inkişaf**

---

[494] Məktəb Parlamentinin nümayəndələri ilə görüşdə çıxışdan: 2001.

[495] İslam İnqilabının Keşikçiləri Korpusunun İmam Hüseyn (ə) diviziyasının döyüşçüləri ilə görüşdə çıxışdan: 2001.

[496] 2001-2002-ci illərdə ali məktəblərə qəbul imtahanlarının nümunəvi abituriyentlərinin, dünya və ölkə üzrə olimpiada qaliblərinin toplantısında çıxışdan: 2002.

Bizi bütün sahələrdə - elm, quruculuq sahələrində inkişaf etdirə bilən amil özünəinam hissidir. Bizdə özünəinam hissi olmasaydı, elmdə də inkişaf edə bilməzdik. Düzdür, düşmənlər bunu inkar edirlər, amma həqiqətdir.[497]

**Özünəinam - elmi inkişaf üçün inqilabın səmərəsi**

Nüvə texnologiyası İslam quruluşunun və İslam inqilabının İran xalqına bəxş etdiyi özünəinamın nəticəsidir. Biz keçmişdə belə bir texnologiyanı nə sınaqdan keçirmişdik, nə də bilirdik. Keçmişdə - yəni tağut dövründə bundan çox-çox kiçik olan sənaye və texnologiyalara nail olmaq üçün İranın əli digərlərinə uzanırdı. Sizin bu əziz şəhidiniz, yoldaşları Şəhid Ərdistaninin, Şəhid Babainin, bir neçəsi sizdən və hamısı bu məmləkətin, bu suyun və torpağın övladları olan digər əziz şəhidlərin köməyi ilə İran İslam Respublikası ordusunun Hərbi Hava Qüvvələrində qurucu və yaradıcı işlər görən Şəhid Səttari mənə dedi ki, tağut dövründə F-5 təyyarəsinin bir hissəsini təmir etmək üçün onu təyyarə ilə ABŞ-a aparıb-gətirirdik. Bu gün isə həmin təyyarəni iranlı gənclər digərlərinin köməyinə diqqət belə yetirmədən özləri düzəldirlər. O zaman İran xalqına bu haqda düşünməyə, ürəklərindən belə bir arzu keçirməyə də icazə verilmirdi. Onlar iranlı gənclərin inkişafına və özlərini təmin etdiklərinə görə qəzəblənmişlər.[498]

**Yerli texnologiyanın əbədiliyi**

Bu günlərdə bütün dünyada barəsində çox danışılan nüvə sənayesi və bəlli nailiyyətlər həqiqətən bizim fəxrimizdir. Beynəlxalq agentliyin nümayəndələri İrana gəlib bizim Nətənzdəki fəaliyyətlərimizə baxanda həqiqətən təsəvvür etdiklərindən çox şey gördülər. Səbəb bu deyildi ki, biz bir kompleks yarada bilmişik; təəccüblərinin səbəbi bu kompleksin bütün hissələrinin ölkə daxilində istehsal olunduğunu görmələri idi. İndi fərz edin, Nətənzi bombalayıb məhv etsələr də, məsələ bitmir, çünki texnoloji

---

[497] Pişva və Vəramin şəhidlərinin ailələri ilə görüşdə çıxışdan: 2003.
[498] Yenə orada.

elmi burada mövcuddur və iranlılar özləri bu elmi yarada bilmişlər. Mənim məmurlara təkidim budur ki, bu məqam üzərində dayansınlar.[499]

**Məcburi müharibədə gənc istedadların aşkara çıxması**

Siz əziz gənclər məcburi müharibə dövrünü xatırlamırsınız, bu məclisdə iştirak edən yaşlılar xatırlayırlar. Məcburi müharibədə həmin fitri istedadların nümunələri göründü. 17-18 yaşlı gənc müharibənin əvvəlində adi bir şəxs və sadə bir Bəsic üzvü kimi müqəddəs müdafiəyə qoşuldu. Amma 3-4 ildən sonra istedadı elə inkişaf etdi ki, bir diviziyanın, bir briqadanın komandiri, bir neçə min insanın başçısı, döyüş taktikalarının müəllifi və düşmənin qənimi oldu. Müxtəlif sahələrdə istedadın aşkara çıxması budur. Onlar müharibədən sonra universitetlərə girib yüksək elmi dərəcələr aldılar. Bu gün Allaha şükür olsun ki, bizim parlaq keçmişi olan gənclərimiz arasında elmi baxımdan da dəyərli şəxslər var. Bu, istedadların aşkara çıxmasına görədir.[500]

**İnqilabdan sonra elm və sənaye inkişafları**

İslam inqilabı və quruluşu yetmiş faizdən artıq savadsızı olan bir ölkəni təhvil aldı. Lakin bu gün biz savadlıların faizi çox yüksək olan bir ölkəyə çevrilimişik. Mən onun faizini təyin etmirəm; çünki 1-2 faiz aşağı-yuxarı deyilməsini istəmirəm, lakin miqdarı bəllidir. Universitet və tələbənin sayı baxımından ölkəmiz möcüzəvi bir iş görmüşdür. İslam quruluşunun yarandığı dövrdən on dəfə artıq tələbəmiz, ölkənin bütün yerlərində universitetimiz var. Bu ölkədə hansı kiçik, yaxud böyük şəhər var ki, orada ən azı 1-2 universitet olmasın?!

Texnologiya sahəsində - petrokimyada, neftdə, poladda, müdafiə istehsalı və sənayesində olan inkişaflar da heyrətamizdir. Bir gün yuxuda da görməzdik ki, bizim ölkəmiz bu gün istehsal olunan müdafiə qurğularının hətta məhsullarına malik olsun, lakin bu gün onları özü istehsal edir. Bütün düşmənliklərinə rəğmən, məcbur qalıb dedilər ki, İran nüvə yanacağı aparatını istehsal edən on ölkədən biridir. Bu az iş deyil.

---

[499] Sənət adamları ilə görüşdə çıxışdan: 2003.

[500] Parlaq istedadlı şagirdlərlə görüşdə çıxışdan: 2003.

Əlbəttə, belə uğur əldə ediləndə, ardınca ajiotaj yaradırlar ki, bəli, bunlar belə etmək istəyirlər, elə etmək istəyirlər, bomba düzəltmək istəyirlər. Bu mühüm inkişaflar İslam quruluşunun sayəsində əldə olunmuşdur.

Mənim bəzən baş çəkdiyim - uzaqdan da məlumatım var, yaxından da gedib görürəm - mühüm və böyük universitetlərin hər birinin tədqiqat işləri təqdirəlayiqdir. Halbuki ötən illər ərzində dövlətin problemləri tədqiqata lazımi büdcə ayrılmasına imkan verməmişdir. Tibb sahələrində, həmçinin ölkənin infrastruktur işlərində - bənd tikməkdə, yol çəkməkdə, neft üçün dəniz terminallarında və digər bu kimi işlərdə gözəçarpan nailiyyətlərimiz var. Bunlar doğrudan da Allahın lütfü ilə, müstəqil və ehtiyacsız şəkildə əldə edilmişdir.[501]

**Beynəlxalq embarqolar nəticəsində yerli çiçəklənmə**

Biz hərdən dünya qapılarının üzümüzə bağlanmasına görə çox narahat oluruq. Amma bu bizim özümüzlə məşğul olmağımıza, öz istedadlarımızdan istifadə etməyimizə və bu kimi inkişaflara səbəb olur. Mütəxəssislər, əsas işçilər özümüzünküdür. Düzdür, dünya elmindən bacardığımız qədər istifadə etmişik, çünki dünya elmi də, bizim elmimiz də bütün insanlara məxsusdur. Bir zaman İslam dünyası bütün dünyaya xidmət göstərdi. Bu gün də biz dünya elmindən istifadə edirik.[502]

**Ölkədə elmi inkişafın sürəti**

Ölkəmizin elm və texnologiya sürəti və uğurları, mütəxissislərin fikrinə əsasən, bizə oxşar bütün ölkələrdən artıq olmuşdur. Bir nümunəsi dünyada qalmaqal yaradan bu nüvə məsələsidir. Elmi tədqiqat mərkəzlərinə baş çəkib bizim mömin gənclərimizin işlərinə baxsanız, pis olmaz. Bunu da sizə deyim: bütün bu sahələrdə ən mühüm kadrlar mömin, inqilabçı, İslamın və inqilabın əsaslarına etiqadlı qüvvələrdir.[503]

**Yerli nüvə elmi - həmişəyaşar nailiyyət**

---

[501] İran İslam Respublikası quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışdan: 2003.
[502] Yenə orada.
[503] Xarici İşlər Naziri, səfirlər və nazirliyin əməkdaşları ilə görüşdə çıxışdan: 2003.

Bəziləri istəyirlər ki, İranda ümumiyyətlə, nüvə yanacağının texnologiyası olmasın. Bu, böyük texnologiyadır. Bunu bizim gənclərimiz, alimlərimiz, fəal elmi kadrlarımız gecə-gündüz çalışıb zəhmətlə əldə etmişlər. Bu, bir milli nailiyyətdir, idxal olunan texnologiya deyil. Onlar bunu yerliləşdirə bilmişlər. Belə deyil ki, bu gün bizim hansısa nüvə stansiyamız hərbi hücuma məruz qalsa, düşmən öz işini görmüş olsun. Xeyr! Bu texnologiya yerlidir və ölkəmizdə mövcuddur.[504]

**Kök hüceyrələr - mömin gənclərin böyük uğuru**

Bir neçə gün öncə kök hüceyrələrin istehsalı, çoxaldılması və dondurulması haqda mənə məlumat verdilər. Bu çox böyük və mürəkkəb elmi işdir və dünyanın azsaylı ölkələrində aparılır. Bu iş bizim ölkəmizdə səssiz-səmirsiz baş vermiş və hələ elan olunmamışdır. Mənim fikrimcə, bu işin əhəmiyyəti bizim gördüyümüz nüvə işinin əhəmiyyətindən az olmayacaq. Dünya tibbinin gələcəyində bunun çox dəyəri olacaq, dünya bunu tibbin inqilabı adlandırır. Universitet cihadının bir qrup mömin, inqilabçı və həqiqətən mücahid gənci bir neçə il bu məsələ üzərində işləyib yaxşı nəticələrə nail olmuşlar. Sözsüz ki, iş davam etdirilməli və son nəticələrə çatdırılmalıdır. İnşallah özləri elan edəcəklər. Bizim ölkəmizdə böyük dəyəri olan belə elm və düşüncə inkişafları var.[505]

**Gənc istedadlara güvənmək və inqilabdan sonrakı elmi inkişaflar**

Biz Quran sayəsində şeytan qüvvələri qarşısında öz boynumuzdan, əl və ayağımızdan itaət və təslimçilik zəncirlərini aça bildik. Biz Quran sayəsində gənclərimizi inkişaf etdirə və tərəqqi yoluna çıxara bildik. Bu gün ölkəmizin elm və inkişaf təməli inqilabın qələbəsindən öncə ilə müqayisə ediləsi deyil. Bu gün milyonlarla iranlı gənc insani müstəqillik hissi ilə və istedadlarına göstərilən hörmətlə hərəkət edirlər.[506]

**İnqilabın ölkənin elmi inkişafına təsiri**

---

[504] Yenə orada.

[505] Dövlət Şurasının üzvləri ilə görüşdə çıxışdan: 2003.

[506] Beynəlxalq Quran müsabiqəsinin iyirminci mərhələsinin yekun mərasimində çıxışdan: 2003.

İnqilab bu ölkəyə elmi inkişaf bəxş edə bilmişdir. Çox çətin keçən bu dövrdə bizim elmi inkişafımız dünyanın ən çox elmi inkişaf etdiyi 50-60 ilinə nisbətən dəfələrlə artıq olmuşdur. Dünyada güclü su axını hərəkət edirdi, biz isə kənarda bir körfəz kimi donub qalmışdıq. Nə vaxt lazım olsaydı, bir şey ötürürdülər, dalğa yaranması lazım olanda isə qarşısını alırdılar. Bizim ölkəmiz belə idi.[507]

**İnqilabdan sonrakı universitetin nailiyyətləri**

Mənim əzizlərim! İnqilabın əvvəllərində bizdə həkim, alim, müəllim və tədqiqatçı az idi. Əvvəla ümumiyyətlə, ölkənin özündə az idi, amma bundan əlavə, bəziləri də xalqa arxa çevirib ona və inqilaba yardım əli uzatmadılar. Lakin quruluş müqavimət göstərmək qərarına gəldi. Bu gün bu müqavimətin nəticəsi odur ki, universitet rektorunun dediyi və mənim də bildiyim məlumata əsasən, sizin vilayətinizdə tələbə inqilabdan qabaqkı dövrə nisbətən 250 dəfə artmışdır. Yaradılan ixtisaslı təhsil mərkəzi, burada çıxış edən bu gənc tədqiqatçı, bir yerə toplaşmış bu elmi nümunələr[508] qiymətsiz nailiyyətlərdir. Bunların hamısı inqilabın sayəsində baş vermişdir.[509]

**Bugünkü elmi inkişafların dünənki fədakarlara borclu olması**

Bu gün bizim xalqımız elm, tədqiqat, siyasət və ölkə quruculuğu sahəsində inkişaf etmişdir. Kiçik bir abadlıq işi üçün əcnəbi mütəxəssislər gətirməyə məcbur olan bir xalq bu gün müxtəlif sahələrdə ölkəni öz gücü və gənclərinin əli ilə qurur. Bir xalq üçün inkişaf bunlardır. Bizim xalqımız dünyanın elm müsabiqələrində yer turur; uzun illər elmi inkişaf baxımından bizdən öndə olan ölkələrlə - ləyaqətsiz tiranlar bu xalqı öz istedadını göstərməyə qoymayıb və geridə saxlamışlar - elm yarışına girir və onlara qalib gəlir. Bunlar cəmiyyətimizin reallıqlarıdır. Bunlar sizin

---

[507] Ölkənin cümə imamları ilə görüşdə çıxışdan: 2003.

[508] İİR-da elmi məqalələrlə çıxış edən, kitab yazan, elmi konfrans və müsabiqələrdə uğurlu nailiyyətlər qazanan əlaçı tələbələr Elmi Nümunələr Fondu tərəfindən müəyyənləşdirilir, onlara xüsusi imtiyaz və imkanlar verilir.

[509] Zəncan vilayəti universitetlərinin müəllim və tələbələri ilə görüşdə çıxışdan: 2003.

gənclərinizin, şəhidlərinizin fədakarlığı, siz müharibə əlillərinin sağlığı və siz veteranların dözdüyü əziyyətlər sayəsində əldə olunmuşdur.[510]

**Növbəti əlli ildə ölkənin elmi inkişaf perspektivi**

Düzdür, mən sözlərimdə uzunmüddətli bir perspektiv nəzərdə tuturam. Fikrimcə, bu, qətidir. İnqilabın əvvəlindən bu günə qədər müşahidə etdiyimiz proses günbəgün artmaqdadır; yəni elm və alim şərait yaradır, həmin şərait yenidən elm və alim yetişdirir və beləcə irəliyə doğru inkişaf edir. Mənim şübhəm yoxdur ki, Allahın lütfü ilə ölkəmiz 40-50 ildən sonra elm və texnologiya baxımından çox inkişaf etmiş ölkələrdən olacaq. Bu mənə bəllidir və bunda heç bir şübhə yoxdur.[511]

**Ali təhsil məsələlərinə nikbin baxış**

Bütün fənlərdə ölkənin ali təhsil və tədqiqat məsələlərinə baxışımız nikbin olmalıdır, bədbin, təəssüflü və qəmli yox. Əlbəttə, bu o demək deyil ki, bizim inkişaf və sürət arzumuz olmamalıdır; bəllidir ki, biz ölkədə ali təhsil, tədqiqat, elm və araşdırma işini intensivləşdirmək üçün nə qədər çalışsaq, azdır və qarşıda uzun yolumuz var. Əslində biz inqilabdan sonrakı müddətdə, xüsusən də son illərdə görülən işlərə baxıb yaxşı sürətimizin olduğunu və universitetlərimizin bu sahələrdə yaxşı inkişaf etdiyini bilməliyik.

Mənim soruşduğum və etimadlı məmurların - cənab prezidentin və digərlərinin məlumat verdiyi kimi, son bir neçə ildə tədqiqat büdcəsi çox artmışdır. Həmçinin ölkənin müxtəlif universitetlərindən olan etimadlı elm adamlarının bildirdiyi kimi, Allahın lütfü ilə universitetlərdə əməli baxımdan tədqiqat işi və araşdırmaya meyl çoxalmışdır. Bu bizim hərəkətimizin göstəricisidir. Gözlənti məsələsinə gəldikdə, bəlkə də mənim gözləntim sizdən az deyil. Belə işlərdə inkişaf üçün gözləntim olduqca çoxdur və bu gözlənti olmasa, inkişaf etmərik. Nəsihət etmək istəmirəm ki, bundan artıq gözləntiniz olmasın. Mütləq olsun. Lakin demək istəyirəm ki,

---

[510] Zəncan vilayətinin hörmətli şəhid ailələri, müharibə əlilləri və əsirlikdən azad olunan döyüşçüləri ilə görüşdə çıxışdan: 2003.
[511] Elmi nümunə tələbələrlə görüşdə çıxışdan: 2003.

baxış bədbin və pessimist yox, nikbin olmalıdır. Biz bu baxışla işə başladıq, Allahın lütfü ilə inkişaf etdik və bundan da artıq inkişaf edəcəyik. İnşallah tədqiqat müxtəlif sahələrdə özünəlayiq şəkildə inkişaf edəcək. Reallıq bunu bizə deyir.[512]

**Yerli nüvə elminin dəyəri və əhəmiyyəti**

Nəyin bahasına olursa-olsun nüvə texnologiyasını əldən verməyə haqqımız yoxdur. Bəziləri təbliğat aparırlar ki, böyük şey əldə olunmayıb. Bu da düzgün deyil. Bunu bilin ki, əldə olunan çox dəyərli və böyükdür. Əgər böyük olmasaydı, düşmənlərimizi bu qədər qıcıqlandırmazdı. Ekspert və mütəxəssislər bu haqda düzgün mühakimə yürüdürlər. Biz ölkəmizdə bir yerli texnologiya əldə etmişik - mühüm olan budur. Əgər bu gün düşmənlərimiz İslam Respublikasının ixtiyarında olan bütün aparatları məhv etsələr - əlbəttə ki, edə bilməzlər – yenə də bu texnologiya məhv olmayacaq. Çünki onu kimdənsə borc almamışıq, bizim öz istedadlı mütəxəssislərimiz ona nail olmuşlar. Əlbəttə, qərblilərin və beynəlxalq güc mərkəzlərinin istəyinə qalsaydı, yüz il sonra da İslam Respublikasının elə bir texnologiya əldə etməsinə qoymazdılar. Bu iş onların istəyinə və bizə qarşı embarqolara rəğmən, baş vermişdir.

Odur ki, əldə olunan dəyərlidir və bu dəyərli elmi nə hökumətin, nə məmurların, nə Atom Enerjisi Təşkilatının, nə də bu ölkə adamlarından hər hansı birinin əldən verməyə və üzərindən bazarlıq etməyə haqqı çatmır. Qətiyyətlə də deyirəm ki, bazarlıq edilməyib və edilməyəcək. Biz bu texnologiyanı və Allahın lütfü ilə əziz ölkəmizin müxtəlif sahələrində əldə etdiyimiz gözəçarpan elm və tədqiqat inkişaflarını qorumalıyıq. Sözsüz ki, texnologiya və elmin ön xətləri ilə məsafəmiz çoxdur. Səbəbi budur ki, sıfırdan yox, sıfırdan da aşağıdan başlamışıq. Bu ölkəni elə vəziyyətə salmışdılar ki, təkcə elmi və texnoloji nailiyyəti yox, hətta ona ümidi də yox idi. Buna əsasən, biz "heç" nöqtəsindən başlamadıq, "heç + ümidsizlik" nöqtəsindən başladıq. İslam inqilabı burada işə qoşuldu və Allaha şükür ki, bu gün inkişaf etmişdir.[513]

---

[512] Ölkə üzrə universitet müəllimləri ilə görüşdə çıxışdan: 2003.

[513] Quruluşun məsul şəxsləri ilə görüşdə çxışdan: 2003.

**Ölkənin böyük universitetlərinin elmi səviyyəsinin artması**

İndi bizim bir çox universitetlərimizdə gənclər fəaldırlar. Məlumatlı və ixtisaslı insanların xəbər verdiyi kimi, ölkənin böyük 20-30 universitetində elm və tədqiqat işinin səviyyəsi istedad, iş, müəllimlərin çalışması, müntəzəmliyi və yaxşı istedadlara malik olmaq baxımından dünyanın inkişaf etmiş universitetlərinə bərabərdir. Allaha şükür ki, inkişaf yaxşıdır. Bunlar kiminsə bu ölkəyə ərməğan etdiyi imkanlar deyil, onun özünə məxsusdur, lakin bir tərəfdən daxili diktatorlar və digər tərəfdən xarici istismarçılar buna imkan vermirdilər. İndi Allahın lütfü ilə ölkə həm müstəqil, həm azaddır. Elə azad olduğuna görə də bu elmlər tədricən daha da çiçəklənəcək.[514]

**Gənclərin istedadlarının aşkara çıxması - inkişafın ən mühüm bazisi**

Allaha şükür olsun ki, ölkənin inkişaf bazisləri yaradılmışdır. İnfrastruktur işlərində məqsəd yalnız gözə görünən işlər - bənd, elevator, zavod, yol və bu kimi məsələlər deyil. Bunlardan mühümü ölkə gənclərinin istedadlarının aşkara çıxmasından və elm üçün çalışmağın zərurətini anlamaqdan ibarətdir. Onlar çalışır və ümidverici nailiyyətlər əldə edirlər. Bu onu göstərir ki, bu xalq elm və texnologiya yolu ilə hərəkət və inkişaf edir. Bu gün ölkənin tədqiqat və elm mühitində mövcud olan özünəinam çox dəyərli amildir. Nəyin bahasına olursa-olsun, bunu əldən vermək, yaxud əhəmiyyətsiz saymaq olmaz.[515]

**İranda elm və tədqiqatın ən yüksək inkişafı**

Mən eşitmişəm ki, dünyanın bəzi mühüm siyasi mərkəzlərində belə demişlər: "Biz bu regionda İslam Yaponiyasının yaranmasına qoymayacağıq". O İslam Yaponiyası sizsiniz. Bu söz əbəs deyilməmişdir. Bizim ölkəmiz elm və tədqiqatın inkişaf sürətinə dair statistik rəqəmlərə əsasən, son bir neçə ildə dünyada ən yüksək göstəriciyə sahib olmuşdur.

---

[514] Yenə orada.

[515] Tehranın cümə namazı xütbələrindən: 2003.

Əlbəttə, bizim malik olduqlarımız dünyanın inkişafı ilə məsafəmizin hələ çox olduğunu göstərir. Lakin məsafə olduqca çox idi və biz onu yüksək sürətlə azaltmağı bacarmışıq. Bu bizim ölkəmizdə son 10-15 ildə baş vermişdir və təbii ki, bu gün bizim qəti nailiyyətlərimiz keçmişə nisbətən çox fərqlənmişdir.[516]

**İnkişaf - yəni elm istehsalı və onun işlədilməsi**

Mən dünyanın mötəbər jurnallarında nəşr olunan elmi məqalələrin sayından xəbərdaram. Amma məqalə istehsalı və onun dünyada nəşri birinci dərəcəli iş deyil, onu görməklə bütün işlər həll olmur. Əslində bu düşüncə burada bişməli, istehsal və icra olunmalı və əməl mərhələsinə çıxmalıdır ki, inkişafın hasil olduğunu söyləmək mümkün olsun. Əlbəttə, bu sahələrdə də ölkədə çoxlu işlər görülmüşdür. Biz hərəkət etmiş və yola düşmüşük.[517]

**Özünəinam və elmi inkişaf - inqilabın səmərəsi**

Bu xalq İslam inqilabı və İslam quruluşu sayəsində özünəinam əldə etdi, bacardığına inandı. Bunu bizə imam öyrətdi və İslam quruluşunun ümumi ab-havası ərməğan etdi. Bu gün bizim gəncimiz, tələbəmiz, müəllimimiz, tədqiqatçımız, sənətkarımız, qurucumuz bacardığına inanır. Bu özünəinam elmdə də bizə kömək etdi. Biz bu gün elm baxımından çox inkişaf etmişik, lakin hələ geridəyik. Heç kəs güman etməsin ki, elmdə inkişaf etdiyimizə görə məqsədə çatmışıq və daha bəsdir. Xeyr! Bizi çox geridə saxlayıblar, amma biz inkişaf etmiş və bu 20-25 ildə çox irəliləmişik. Statistikaya əsasən, inqilab dövründə bizim elmi inkişafımızın nisbəti bütün dünyadan yüksək və çox olmuşdur.[518]

**Elmi inkişaf - inqilabın vasitəsi ilə milli kimliyin dirçəldilməsinin nəticəsi**

---

[516] Gənc alimlərlə görüşdə çıxışdan: 2004.
[517] Yenə orada.
[518] Tehranın cümə namazı xütbələrindən: 2004.

Bir ölkənin milli kimliyinin özü mədəniyyətdir, mədəniyyətin əsas nümunə və şətrlərindəndir. Tərif olunmuş mədəni bir məqsəd əsasında baş verən İslam inqilabının qələbəsindən sonra da mədəniyyət və milli kimlik məsələsinə əhəmiyyət göstərildi. Bu işin bəzi faydaları oldu. Ölkədə bu faydaların yaranması əsla mümkün deyildi. Bu yeniliklər, elmi nailiyyətlər, yeni elm və tədqiqat sahələrinə qoşulmaq cəsarəti - xoşbəxtlikdən, bunlar bu gün ölkəmizdə müşahidə olunur - milli kimliyin dirçəlişindən yaranan özünəinama görədir. Bunu inqilab etdi.[519]

**Ölkədə təsəvvürolunmaz elm və texnologiya inkişafı**

Bizim xalqımız günbəgün inkişaf edir, elm, abadlıq, beynəlxalq siyasət, müxtəlif məlumatların artırılması, ölkənin möhtəşəm infrastrukturlarının qurulması, texnologiya, xalqın istedadlarının dirçəldilməsində və çoxlu digər sahələrdə keşmişdə hətta təsəvvürünü belə etmədiyi uğurlara imza atmışdır. Bu, İslamın sayəsində baş verdi. Bu gün ölkənin infrastrukturları hazırdır, elmi inkişafımız və gənclərimizin istedadlarının aşkarlanması heyrətamizdir. Biz öz hərəkətimizi sürətləndirə bilərik. Bizim xalqımız bu işi də görəcək. Və biz Allahın lütf və qüdrəti ilə inkişaf edəcəyik.[520]

**Ölkənin elm və texnologiyada inanılmaz inkişafları**

Kim düşünərdi ki, müharibəyə məcbur olduğumuz 80-ci ildə RPG silahı olmayan, onu istehsal edə bilməyən İslam Respublikası bu gün silah-sursat sahəsində onlar üçün heyrətamiz görünən inkişaflara nail olsun; elmdə elə inkişaf etsin ki, quruluşun ona məxsus olan alim və istedadlı gəncləri əksər beynəlxalq müsabiqələrdə yüksək yerləri tutsunlar; texnologiyada elə yerə çatsın ki, özünün bütün oxşarlarının əksinə olaraq digərlərinin köməyi, bələdçiliyi və yardımı olmadan özü nüvə

---

[519] Teleradio Verilişləri Şirkətinin əməkdaşları ilə görüşdə çıxışdan: 2004.
[520] İmam Xomeyninin vəfatının on beşinci ildönümü mərasimində çıxşdan: 2004.

texnologiyasını əldə etsin və uranı zənginləşdirsin. Bu inkişaflar təcavüzkar qüvvələri qorxudur.[521]

**Ölkənin bəzi həssas texnologiyalarda uğuru**

Bilməniz yaxşıdır ki, ölkəmizdə elmin çox həssas sahələrinin bəzisində hələ dünyada analoqu olmayan işlər görülmüşdür. Mən bir müddət öncə dedim ki, kök hüceyrələrin istehsalı texnologiyasında Tehranda sizin kimi bir qrup gənc fəaliyyət göstərir. Bunlar iradə ilə çalışdılar, gedib başqalarından öyrəndilər, özləri də fikirləşdilər, düşüncə baxımından sərmayə qoydular və nəticədə kök hüceyrələrin istehsalının, dondurulmasının, qorunmasının və əkilməsinin açarını əldə etdilər. Bu gün bunlar ilk dəfə olaraq İranda insulin düzəldən kök hüceyrələr istehsal etmişlər. Bu hələ dünyada istehsal olunmamışdır.[522]

**Dini və əxlaqı qorumaqla yanaşı elmi inkişafın əməli isbatı**

Bizim yeni sözümüz budur ki, bu üsul səhvdir, bu həyat əyri yolla gedir, düzgün mənəviyyat xəttindən yayınmışlar və xətt uzandıqca bucaq da daim açılır, genişlənir. Biz əməlimizlə göstərdik ki, mənəviyyatı qorumaq, həyatın əsas istehsallarına və quruluşuna dini, mənəviyyatı və əxlaqı daxil etmək, eyni zamanda fəal, həvəskar, mütərəqqi və elmli cəmiyyətə malik olmaq olar. Biz bu yola qədəm qoymuşuq və çoxlu uğurlarımız da olmuşdur. Biz demirik ki, bu gün elm və inkişaf baxımından iki yüz ildir bu yolda irəliləyən dünya ilə bərabərlik edə bilərik. Xeyr! Deyirik ki, bizi içərisinə salıb qapısını da hördükləri çuxurdan və daxmadan özümüzü çıxarıb yolun çox hissəsini getmişik. Biz bunu göstərdik və ölkəmizi qüdrətli ölkə etdik.[523]

**Hövzə və universitetdə tədqiqatçı və çalışqan gənc nəslin yetişməsi**

---

[521] Həmədan vilayətinin Bəsic üzvləri və Təhlükəsizlik şöbəsinin şəxsi heyəti ilə görüşdə çıxışdan: 2004.

[522] Həmədan vilayəti universitetlərinin müəllim və tələbələri və həmədanlı gənclərlə görüşdə çıxışdan: 2004.

[523] Xarici ölkələrdəki mədəniyyət nümayəndələri ilə görüşdə çıxışdan: 2004.

Biz elm və quruculuq baxımından inkişaf etdik. Bu ölkədə müxtəlif sahələrdə görülən işlər həqiqətən örnək ola bilər. Bütün sahələrdə dinin təbliği, elmin inkişafı, genişlənməsi, istedadların çiçəklənməsi, ölkənin idarəsi və ümumi rifah üçün lazım olan möhtəşəm infrastrukturlar və digər böyük işlər görülmüşdür. Bu gün həm universitetlərdə, həm hövzələrdə mövcud olan çoxsaylı tədqiqatçı, alim və çalışqan gənc nəsil yetişmişdir. Bunlar həqiqət və reallıqdır. Bu onu göstərir ki, bu ölkə əvvəldən də davamlı, möhkəm, genişlənməyə və kök salmağa qabiliyyətli olmuşdur. Dünya bunu görür.[524]

**İnqilabdan sonra aktiv elmi hərəkət**

Biz bu illərdə yaxşı inkişaf etmişik. İyirmi iki il ərzində - İslam Respublikasının özünə gəlməsindən və müxtəlif quruculuq işlərinə başlamasından, yəni inqilabın ikinci və üçüncü illərindən bu günə qədər bizim inkişafımız yaxşı olmuşdur. Biz tikanlı məftili də xaricdən idxal edən bir ölkə idik, bu gün isə raketimizi ixrac edirik. Biz o zaman müxtəlif elm sahələrində hər yerdə dalanlarda idik, amma bu gün əksər elm sahələrində yolun açıq, meydanın geniş və yolçuların fəal olduğunu müşahidə edirik. Ölkədə elm hərəkatı başlamış, çoxlu inkişaflar da əldə olunmuşdur. Onların bəzisini bu gün cənab prezident statistik rəqəmlərlə bəyan etdi. Digər nümunələr də çoxdur.[525]

**İnqilabdan sonra universitetlərin keyfiyyət və kəmiyyət inkişafı**

Bu ölkədə elmə rəvac verilməlidir. İnqilabın mühüm işlərindən biri bu idi: elmi ölkə daxilində yaydı. İnqilabın əvvəlində qısa bir dövrdə biz universitetsiz qalmağa məcbur olduq. Universitet mədəni inqilaba və universitetdə mövcud məsələlərə görə tələbələrin təkidi ilə tətil olundu. Tehran Universitetində müxtəlif qruplaşmalar döyüş otaqları düzəldib universitetdən çaxnaşma, fitnə, inqilabla, quruluşla və İslamla müharibə üçün istifadə edirdilər. Universitet bir müddət bağlı qaldı. Lakin bu qısa müddətdən sonra elmi fəaliyyət, universitet və tələbə fəaliyyəti möcüzəli

---

[524] Dini Ekspertlər Məclisinin üzvləri ilə görüşdə çıxışdan: 2004.
[525] Quruluşun məsul şəxsləri ilə görüşdə çıxışdan: 2004.

şəkildə inkişaf etdi. Siz bu gün axının içindəsiniz; bizim hansı vəziyyətdə olduğumuzu və haradan haraya çatdığımızı yaxşı bilmirsiniz.

Biz uzun illər bu ölkədə öz müalicəmiz üçün taylandlı, pakistanlı və hindistanlı həkimə müraciət etməyə məcbur idik. Çünki ciddi həkim çatışmazlığı vardı. Bu gün isə dövlətin narahatlıqlarından biri budur ki, bu qədər həkimi necə işlə təmin etsin. Bəziləri bundan ötrü kədər içindədirlər. Mənim fikrimcə isə, bu, üslubun yanlış olmasından irəli gəlir.

O zaman ölkənin azsaylı universitetlərinin idarəsi üçün müəllimimiz yox idi. Düzdür, inqilabın əvvəlində bir qədər müəllim ölkədən getdi, amma gedənlər çox deyildilər, onların sayını şişirtdilər. Bu gün xoşbəxtlikdən, ölkədə açılmış bütün bu universitetlərdə çalışan fəal müəllimlərimiz çoxdur. Bugünkü universitetlərimizin sayı keçmişlə müqayisəedilməzdir. Onların siyasətlərinin təyin və icrasında bəzi səhvlər baş verə bilər. Kəmiyyətin bu formada artımını da mən mütləq şəkildə müdafiə etmirəm, lakin əsas məsələ budur ki, elmə əhəmiyyət verildi.[526]

**İranın nüvə yanacağı və kök hüceyrələr istehsalında inkişafı**

İndi onlarla ölkə nüvə yanacağından istifadə edir. Nüvə yanacağını istehsal edən ölkə çox azdır. Bəlkə də təxminən on ölkədir və onlardan biri də İrandır. Bu gün bu məsələ barədə qalmaqal yaratmışlar.

Mənim indiyədək bir neçə dəfə dediyim bu kök hüceyrələr məsələsinə gəldikdə isə bizim mömin, təqvalı və inqilabçı gənclərimiz öz laboratoriyalarında kök hüceyrələri istehsal edə, çoxalda, dondura və işlədə bilmişlər; ürək düzəldir, ürəyə, sümüyün iliyinə vururlar. Bu, dünyanın mürəkkəb, mütərəqqi və mühüm işlərindəndir. Təxminən 7-8 ay öncə bir seminar keçirildi. Dünya alimləri gəlib bunu yaxından görəndə inanmırdılar. Heyrətlənib etiraf etdilər ki, çox böyük iş görülmüşdür. Onların etirafları televiziyadan yayımlandı. Bu işdə İran dünyanın on ölkəsindən biridir. Biz inkişaf etmişik.[527]

**Karun-3 bəndinin elmi və texnoloji əhəmiyyəti**

---

[526] Mübarək ramazan ayında tələbələrlə görüşdə çıxışdan: 2004.
[527] Tehranın cümə namazı xütbələrindən: 2004.

Digər müxtəlif texnologiyalar barədə də söz çoxdur. Lakin nüvə texnologiyası dillər əzbəri olduğundan biz bu məsələni qeyd etdik. Digər sahələrdə də çoxlu böyük və yaxşı elmi işlər görülmüşdür. Cənab prezidentin bir müddət öncə açılışını etdiyi Karun-3 bəndi barədə bizim dostlarımızın biri deyirdi ki, başqa ölkələr olsaydı, Karun-3 bəndi üçün nəğmə bəstələydilər; yəni bu qədər mühümdür.[528]

**İnqilabdan sonra elm və texnologiyada sıçrayışlar**

İslam inqilabının qələbəsindən sonra çatışmazlıqları aradan qaldırmaq üçün düzgün hərəkət başlanmışdır. Əlaməti də bu gün xəbərini eşitdiyiniz bütün elmi nailiyyətlər, bu gün gördüyünüz texnologiyalardır. Biz hara, uranın zənginləşdirilməsi üçün sentrifuq aparatlarının istehsalı hara?! Bu, İranın elm və texnologiya adamlarının, xalqının yuxusuna da gəlməzdi. Biz hara, çox həssas texnologiya olan kök hüceyrələrin çoxaldılması hara?! Aşağı səviyyələrə gəlin: biz hara, hərbi təyyarə düzəltmək hara?! Biz hara zərif kompüter cihazları düzəltmək hara?!

Hərbi Hava Qüvvələrində bir zaman bizim aviamühəndisimiz və texnik-zabitimiz çox kübar şəkildə bu xalqın pulu ilə alınmış F-4, F-5 və F-14 təyyarələrini təmir edə bilmirdi. Mən bunu dəfələrlə demişəm, siz gənclər də bilin: məsələn, 20-30 ədəd bolt-qaykası və xırda hissəsi olan detallar məcmusunu bağlı şəkildə təyyarəyə qoyub ABŞ-a aparır və yenisini gətirirdilər. Yəni bizim texnik-zabitimizə həmin hissəni açıb içərisinə baxmağa icazə vermirdilər.

Biz elə vəziyyətdən bu həddə çatmışıq. Bu gün özümüzdə hansısa mütərəqqi raketi düzəltmək həvəsini, ümidini və bacarığını görürük, hansısa mühüm raketi dəyişməyi və hansısa təyyarədən daha səmərəli istifadə etməyi düşünürük. Son bir neçə ildə görülən belə işlər çoxdur.[529]

**Ölkədə elmi inkişaf prosesi**

Siz görün on il öncədən indiyə qədər vəziyyət nə qədər dəyişmişdir. On il qabaq bizdə belə şeylər yox idi; olimpiada inkişaflarımız,

---

[528] Vəhdəti Gücləndirmə Şöbəsinin üzvləri ilə görüşdə çıxışdan: 2005.

[529] Şəhid Səttari adına Aviasiya Universitetinə baxış keçirərkən etdiyi çıxışdan: 2005.

universitetlərdə belə yeniliklərimiz yox idi, bu gün isə var. Əlbəttə, bu proses həndəsi yüksəlişlə gedir, getdikcə törəyir və çoxalır. Bu proses inşallah artacaq. Şübhəsiz, Allaha ümidlə, bugünkü siz gənclər ortayaşlı kişilər olduqda və bu ölkəni idarə etdikdə inşallah işlər çox asanlaşacaq. O zaman biz olmayacağıq, amma siz möhtəşəm və böyük bir işə girişəcəksiniz.

Mən bir məsələni mötərizə arasında deyim, ötən həftə buraya gəlmiş bir qrup gəncə də dedim: Biz elə bir gün üçün çalışmalıyıq ki, dünyada hansısa alim bir elmi nəzəriyyəni anlamaq, öyrənmək, həll etmək və bir ixtira ilə tanış olmaq istədikdə fars dilini öyrənməyə məcbur olsun.[530]

**İranın elmi inkişaf gücünə ən böyük dəlil**

Gənc iranlı nəslin texnologiya və elmdə yenilik yaradıb elmin sərhədlərini qıra və irəliyəyə bilməsinə - mən bir neçə il öncədən bu mövzunu təkrarlayıram - ən böyük dəlil indi baş verənlərdir. Ozamankı siyasətçilərin çoxu universitet məzunları idilər, adları da bəllidir. Onlar deyirdilər ki, iranlı bacarmır. Xeyr, iranlı bacarır. İranlı bu gün çox inkişaf etmişdir və çox geniş üfüqü olan elm sərhədini qırıb irəliləyə, yeni sərhəd yarada bilir. Lakin biz bu işin 5-10 il ərzində görülməsini gözləmirik.[531]

**İnqilabdan sonra yüzlərlə və minlərlə faiz inkişaf**

İslam inqilabı və İslam quruluşu ölkəni asılılıqdan xilas etdi, zəncirləri götürdü və xalqın yolunu açdı. Bu gün ölkə sənayedə, istehsalatda, texnologiyada, elmdə, ölkənin gələcəyi üçün lazım olan əsaslı infrastrukturların yaradılmasında inqilabdan öncə ilə müqayisə olunası deyil. Statsitik rəqəmlərə baxanda görürük ki, inkişafın əsas göstəricilərində bəzi sahələr yüzlərlə, bəzi sahələr min və bəzi sahələr minlərlə faiz inkişaf etmişdir.[532]

**İnqilabdan sonra elmi istedadların parlaması**

---

[530] Ölkənin gənc ixtiraçıları və elmi yenilikçiləri ilə görüşdə çıxışdan: 2005.
[531] Yenə orada.
[532] Kerman əhalisinin böyük toplantısında çıxışdan: 2005.

İslam inqilabı və İslam quruluşu xalqı oyatmış, öz hüquqları ilə tanış etmiş, istedadları sərbəstləşdirmişdir və indi onlar yüksək dərəcələrə nail ola bilirlər. Tağut rejiminin təzyiq və şiddət dolu mühitində kim təsəvvür edərdi ki, ucqar şəhərlərin gəncləri və uşaqları elm sahələrində belə parlayıb inkişaf edə bilərlər?! Bu gün bu baş vermişdir və bundan sonra da Allahın lütfü ilə günbəgün artacaq.[533]

**Müharibə dövrünün embarqolarından elmi inkişaf üçün istifadə**

Dünyanın bütün çətinlikləri bir insanın və bir xalqın inkişafına nərdivan ola bilər. Müqəddəs müdafiə və müharibə dövründə bu ölkənin ətrafını, elm, məlumat, texnologiya və zəruri məhsullar yolunu bağladılar, bizə adi patron və silah da vermədilər. Lakin bizim xalqımız bu böyük sıxıntıdan öz inkişafı üçün istifadə etdi. Bu gün dünya İran xalqının atom silahı düzəltməsindən qorxur. Biz atom silahı istəmirik, lakin İran xalqının istedadı və qabiliyyəti elə bir həddə çatmışdır ki, dağıdıcı və dəhşətli silahlara, atom bombasına malik olan modern dünya İran xalqından, İranın gənclərindən və alimlərindən qorxur. Bu böyük inkişafdır. Bu inkişafı necə və haradan əldə etdik? İran xalqı o sıxıntı və problemlərdən nərdivan kimi istifadə edib yuxarıya qalxmağı bacardı.[534]

**Elmi yaradıcılıq - inqilabın yeni baxışının məhsulu**

Elm, tədqiqat və mənəviyyat sahəsinə baxış, düşüncə, beyin və elmi yaradıcılıqda inkişaf ən azı son onilliklərdə ölkəmizdə keçmişi olmayan məsələlərdəndir. Bunlar inqilabın bizə verdiyi yeni baxışın məhsuludur. Biz bu gün özümüzlə fəxr edir, elm, bilgi, texnologiya və müxtəlif bəşəri bilgilərdə inkişaf edib yenilik yarada bildiyimizi hiss edirik. Dünən ölkəmizdə bu inam yox idi, necə ki, bu gün bəzilərində hələ də yoxdur.[535]

**Elmi inkişaf - milli özünəinamın nəticəsi**

---

[533] Yenə orada.
[534] Zərənd əhalisinin böyük toplantısında çıxışdan: 2005.
[535] Kerman vilayətinin elmi elitasının nümayəndələri ilə görüşdə çıxışdan: 2005.

Biz inqilabın əvvəlində çoxlu zəruri məsələlərimizdə digərlərinin düşüncə nailiyyətlərindən istifadə etməyə möhtac idik. Amma bu gün dünyada çoxları iranlının düşüncə nailiyyətlərindən istifadə edir. Bu həqiqətdir. Biz inkişaf etmişik. Bu, özünəinama görədir. Elm sahəsindəki milli özünəinamı gücləndirmək lazımdır. İslam bizə bunu öyrədir və biz inşallah inkişaf edəcəyik.[536]

**İnqilabdan sonra tələbənin gözəçarpan artımı**

Bir gün bu vilayətdə üç mindən az tələbə təhsil alırdı, amma bu gün Kermanın yetmiş minə yaxın tələbəsi var. Ölkə əhalisi iki dəfə artıb. Çox gözəl, üç min tələbə də altı min olmalı idi. Lakin bizim bu vilayətimizdə yetmiş min tələbə var. Bu, inkişaf və irəliləyişdir.[537]

**Ölkənin elmi inkişafı və onun səmərələri**

Biz bu yola daxil olduq, bir qədər də inkişaf etdik və həmin bir qədər inkişafın nəticələrini də müşahidə etməkdəyik. Bu məmləkətdə nə qədər iş görülmüşdür, bu ölkə elm və texnologiya sarıdan nə qədər inkişaf etmişdir, gənclərin elm, texnologiya və digər sahələrdə özünəinamı nə qədər yüksəlmişdir. Halbuki bu xalqı heç bir iş görə bilmədiyinə, hər şeyi digərlərindən almalı olduğuna, o isə oturub tamaşa etməli və onlardan dilənməli olduğuna inandırmışdılar. Bu xalq hal-hazırda ehtiyacsızlıq və bacarıq hissinə nail olmuş, öz qarşısında yeni üfüqlər açmışdır. Biz çox inkişaf etmişik, amma hələ yolun əvvəlindəyik və bundan çox-çox artıq inkişaf etməliyik.[538]

**Nüvə məsələsinin elmi və iqtisadi dəyəri**

Nüvə məsələsi bizim üçün elmi və iqtisadi məsələdir. Nüvə məsələsində indiyədək getdiyimiz və Allahın lütfü ilə tam şəkildə uğur qazandığımız yolu davam etdirib sona çatdıra bilsək, bu, ölkə üçün böyük elmi inkişaf olacaq. İranlı gənclər bu sahədə öz məharətlərini, istedadlarını,

---

[536] Yenə orada.

[537] Kerman vilayəti universitetlərinin müəllim və tələbələrilə görüşdə çıxışdan: 2005.

[538] Şəhid ailələri ilə görüşdə çıxışdan: 2005.

elmi güclərini sübut etmişlər. Bu, elmi baxımdan bizim üçün çox dəyərlidir.[539]

**Elm və tədqiqat adamlarına əhəmiyyət inkişaf əlamətidir!**

Biz iş istəyirik. Bu gün sizin söylədiyiniz sözlər – elmə, tədqiqata, texnologiyaya əhəmiyyət vermək, elmi nümunələrlə məşğul olmaq məsələsi - biz bir elmi nümunənin ürəyini alsaq, dünyanın harasına getsə, ölkəyə məxsus olacaq - və digər çoxlu məsələlər həm də mənim fikrimdir. Bunlar mənim 10-12 il öncədən dediyim sözlərdir. Mən bu gün görürəm ki, siz quruluşun məsul şəxsləri tərəfindən deyildiyini bilmədən, yaxud xatırlamadan bir gün özünüz bu sözləri ürəkdən deyirsiniz. Bu, bizim istəyimiz inkişafdır. Düşmənlərin acığına, bu inkişaf baş vermişdir.

Bu gün gənclərimizin tədqiqata meyli var. Bir gənc olaraq sizin gileyiniz budur, buraya gəlib deyirsiniz ki, bizim tədqiqat büdcəmiz 0,7 faizdir. Əlbəttə, deyəsən çoxdur, qardaşımızın dediyi statistika bu qədər deyil. O dedi ki, təxminən 1,5 faizdir. İndi dəqiq yadımda deyil, amma deyilən miqdardan çoxdur. Yaxud siz mənim yanıma gəlib şikayət edirsiniz ki, tədqiqat büdcəsi vermirlər və ya tədqiqatı gözləmirlər. Bizim son arzumuz bu idi ki, sizdə bu hiss yaransın və siz bunlarla maraqlanasınız.[540]

**Ölkədə gözəçarpan inkişaf və potensiallar**

Bizim ozamankı problemimiz bu gün daha mövcud deyil. Həmin illərdə bizdə yetərincə həkim, universitet müəllimi yox idi, ağır işlər yerdə qalmışdı, bütün sahələrdə problemlər vardı; ali təhsilli, alim və müəllim problemimiz vardı. Bu gün xoşbəxtlikdən, həmin səylər nəticə vermişdir və nəticəsi də sizin bəyan etdiklərinizdir. Allaha şükür olsun ki, ölkə sırf elmi, təcrübi sahələrə, müxtəlif elm və inkişaflara şahiddir. Əlbəttə, sizin dəfələrlə dediyiniz və mənim də düşündüyüm kimi, potensial bunlardan

---

[539] Tehranın cümə namazı xütbələrindən: 2005.
[540] Ölkənin elmi nümunələri və tələbələrlə görüşdə çıxışdan: 2005.

olduqca böyükdür. Mən bunu çıxış xatirinə yox, elmi və qəti faktlara əsaslanaraq deyirəm.[541]

**Hegemonizmin gümanının ziddinə olaraq ölkənin elmi inkişafı**

İslam Respublikası quruluşu yarandığı gün dünya hegemonları onun elmi inkişafını nə güman edirdilər və nə də ona zərrə qədər razı idilər. Gənclərin biri dedi ki, inqilabın əvvəllərində bizim müəllim, həkim, mütəxəssis problemimiz var idi, bu gün isə ölkəmiz elmi cəhətdən çox inkişaf etmişdir. Əlbəttə, biz öz səyimizi azaltmamalıyıq. İndiyə qədər əldə edilənlər lazım olanlara və bacardığımığa nisbətən çox azdır. Mənim həmişə ürəkdən inandığım budur ki, İslam Respublikası quruluşunun istedadı və bacarığı bunlardan çoxdur. Biz bacarırıq, bizim layiqli yerimiz budur. Bu gün əleyhimizə çalışdıqlarını, təxribat hazırladıqlarını və hücum etdiklərini görürsünüzsə, buna görədir.[542]

**Tarixi təhqirlərə rəğmən, böyük elmi inkişaflar**

Bu xalqı özünə inamsız etmək üçün bütün mədəni və informasiya vasitələri ilə yüz il, yaxud daha artıq müddət ərzində iş aparıblar. Məşhur şəxsiyyətlərdən biri deyirdi ki, iranlı bir lüləhəng də düzəldə bilmir. Lüləhəng palçıq aftabaya deyilir. Bu xalqı belə təhqir edirdilər. Bu xalq indi bioloji sahələrdə, müxtəlif elmi tədqiqat fəaliyyətlərində dünyanın ilk on ölkəsindən biridir. Bu, zarafat deyil. Bu məsələ bizim xalqımıza, harada olsanız, hansı sahədə çalışsanız, siz gənclərə xəbərdarlıq edir ki, öz qədrinizi bilin, hərəkət edin, ümidinizi itirməyin. Siz bacarırsınız.[543]

**Embarqo - ölkənin elm və sənaye inkişafının səbəbkarı**

Hədələyirlər ki, biz İran xalqına embarqo tətbiq edəcəyik. Məgər indiyədək tətbiq etməmisiniz?! Məgər indiyədək İran xalqı siz hegemon güclərin embarqosuna məruz qalmayıb?! Əgər biz bu gün inkişaf etmişiksə, elm və sənayedə region üzrə birinci sözü deyiriksə, buna

---

541 Universitet müəllimləri ilə görüşdə çıxışdan: 2005.
542 Nümunəvi tələbələr və tələbə birliklərinin nümayəndələri ilə görüşdə çıxşdan: 2005.
543 Minlərlə Bəsic üzvü ilə görüşdə çıxışdan: 2005.

embarqo şəraitində nail olmuşuq. Biz hərbi, elmi sahədə inkişaf etmişik, tibdə heyrətamiz inkişaflarımız var, dünyanın güman etmədiyi çox mürəkkəb sənayelərin bəzisində, bioloji elmlərdə inkişaf etmişik. Biz elə elmlərdə inkişaf etmişik ki, onlara malik olanlar heç zaman öz kiçik çevrələrindən kənar birisinin onlara yiyələnməsinə imkan vermirlər.

Bütün bunlar embarqo şəraitində əldə olunmuşdur. Bəlkə də embarqo tətbiq etməsəydilər, bu nailiyyətləri əldə etməzdik. Əgər pulumuzu alıb özlərinin köhnə silahlarını bizə versəydilər, biz gənclərimizin yaradıcılığından və istedadından istifadə etmək barədə fikirləşməz, bu gün təyyarə, tank, raket istehsal etməz və bu istehsalatda regionun çoxlu ölkələrindən öndə olmazdıq. Əgər bazarları açıb istədiyimizi versəydilər, pulumuzu da alıb ciblərinə qoysaydılar, bu gün bu inkişaflara nail olmazdıq. Bizi embarqo ilə qorxudursunuz?![544]

**İnqilab vasitəsi ilə "biz bacarırıq" fikrinin yaranması**

İran cəmiyyəti dayanmamışdır. İnqilab yolu açdı və bu qüdrətə özünəinam əlavə etdi. İnqilabın qələbəsindən öncə həm yolları bağlayır, həm də həvəsləri zəiflədib deyirdilər ki, iranlı heç nə bacarmır. Bunu böyükləri açıq şəkildə söyləyir, bu səmərəli nəslin və parlaq istedadın başından vururdular. Onların ən böyük xəyanətlərindən biri budur. İnqilab həm yolu açdı, həm də dedi ki, siz bacarırsınız. Gedib gördük ki, doğru deyirlər, biz bacarırıq.

Uzun illər ərzində bu ölkədə yalnız bir neçə bənd tikilmişdi, hamısı da əcnəbilər tərəfindən. Kim inanardı ki, bu ölkə bənd tikməkdə texnologiya, bacarıq, elmi qüdrət, hesab dəqiqliyi və bu kimi məsələlər baxımından region üzrə birinci olsun?! Kim inanardı ki, əksər bölgələri adi elektrik enerjisindən məhrum olan bu ölkə digərlərindən borc almadan yalnız özü atom enerjisi və texnologiyasını təmin etsin, dünyanın ən mütərəqqi üsulu ilə elektrik enerjisi əldə etməyə çalışsın?! Kim düşünərdi?! Gedib gördük ki, mümkündür; hərəkət etdik, gördük ki, bacarırıq. Bu xalq bu təcrübəyə malikdir. Bundan sonra da belə olacaq.[545]

---

[544] İmam Rzanın (ə) məqbərəsində çıxışdan: 2006.
[545] Fəhlələrlə görüşdə çıxışdan: 2006.

**Gözəl İslam Respublikası ağacının şirin meyvələri**

Biz özünü unutmuş, öz daxili qüvvələri ilə tanış olmayan, onlara inanmayan, əcnəbilərin bərbəzəyinə göz dikmiş və aldanmış bir xalq idik. Lakin bu pak ağac bizi yaradıcı, özünə güvənən, müxtəlif sahələrdə yeni sözlərə malik bir xalqa çevirdi. Bu gözəl ağacın şirin meyvələri bu gün müxtəlif sahələrdə - istər humanitar, istər təcrübi elmlərdə, istər ictimai məsələlərdə, istər siyasətdə, istər dində minlərlə tədqiqatçı, alim, mütəfəkkir beyin və qüdrətli qoldur. Bu gün biz əksəriyyəti gənc olan məqsədli, imanlı və inkişafın bütün şərtlərinə malik bir xalqıq.

Mənim əzizlərim! Ölkəmiz inkişaf və tərəqqi yolundadır, böyük inqilabımız və İslam Respublikası sayəsində on illərlə davam edən qəflət yuxusundan ayılmışdır.

Bu gün müəllim və tədqiqatçılar bu ölkədə müxtəlif elmlərdə görülən hər bir elm və tədqiqat işi üçün onlarla, yüzlərlə və minlərlə hazırlıqlı beyin tapa bilirlər. Bu gün xalqımızın və dünyanın aktual məsələsi olan nüvə texnologiyasında digərlərindən heç bir borc almadığımız halda fəal beyinləri, sənətkar və qüdrətli əlləri olan yüzlərlə mömin, mütəfəkkir və işgüzar gənci toplaya bilmişik. Onlar bizim xalqımız üçün bu ağır yükü çiyinlərinə götürüb aparmışlar. Bütün sahələrdə belədir.[546]

**Məmurları ölkənin elmi inkişafına həvəsləndirən amil**

İnqilabın uğurlu təcrübəsi göstərmişdir ki, biz quruluşun və ölkənin məsul şəxsləri olaraq bu sahəyə girsək, hərəkət sevindirici və həvəsləndirici olar. Say baxımından bu gün inqilabdan öncəkindən təxminən on beş dəfə artıq tələbəmiz var. Ölkənin əhalisi təxminən iki dəfə artsa da, tələbələrin sayı təxminən on beş dəfə artmışdır. Universitetlərin, müəllimlərin, fakültələrin, yeni elmi, texnoloji və təcrübi işlərin sayı aidiyyətli şəxsləri bu sahədə inkişafa həvəsləndirir.[547]

---

546 Həzrət İmam Xomeyninin vəfatının 17-ci ildönümü mərasimində çıxışdan: 2006.

547 Universitet rektorları, ali təhsil müəssisələrinin və tədqiqat mərkəzlərinin başçıları ilə görüşdə çıxışdan: 2006.

**Ölkədə elm və texnolgiya inkişafının sürətli hərəkəti**

Başqa bir məsələ ölkənin elmi inkişaf prosesinə aiddir. Bəzi dostlar bu prosesin zəif olduğunu dedilər. Mənsə demək istəyirəm ki, xeyr, dünyanın ən sürətli elmi inkişaflarından biri bizə aiddir. Elmi hesablamalarla bəlli olmuşdur ki, biz ölkənin elm və texnologiya inkişafı baxımından dünya miqyasında ən sürətlilərdənik. Lakin məsafəmiz olduqca çox olduğundan bu sürət öz bəhrəsini aydın hiss etdirmir. Allahın yardımı ilə həmin sürəti 10-15 il də qoruyub davam etdirə bilsək, o zaman özünü tam şəkildə göstərəcək.

Mən buna çoxlu misallar göstərə bilərəm. Statistikadan xəbərdar olmasanız, bəzi misallar sizə qəribə görünə bilər. Lakin indi hiss və müşahidə olunanlar, məsələn, nüvə enerjisi tədqiqatları bizim hərəkətə başladığımız nöqtədən əldə olunmuşdur. Fərq çox dəhşətli idi, lakin bu iş baş tutdu. Biologiya sahəsində kök hüseyrələr məsələsi və hərbi istehsalata aid müxtəlif tədqiqatlar da belədir. Sizin bütün baş verənlərdən xəbəriniz olmadığına və onların KİV-dən yayımlanmadığına görə bunu çox da hiss etmirsiniz.[548]

**İnqilabın sayəsində elmi inkişafın başlanması**

Asılı, azğın, bacarıqsız qüvvələrin və zalım padşahların uzun illər xalqımızı belə bir vəziyyətdə saxlamalarına baxmayaraq, İslam inqilabı vasitəsilə qapılar açılan kimi, xalqımız beynəlxalq rəqabətlərə qoşulan kimi böyük nailiyyətlər əldə etdi. Bizim xalqımız bu gün həm elmi, həm siyasi sahələrdə dünyada tanınmış bir xalqdır. Biz elmdə nisbətən inkişaf etmişik.

Əlbəttə, 200 illik gerilikləri 20, yaxud 30 il ərzində düzəltmək olmaz. Lakin biz bu dövrdə həmin zamana nisbətən olduqca sürətlə inkişaf etmişik. Bu gün bizim gənclərimiz nüvə enerjisi, kök hüceyrələr, onurğa beyni və digər onlarla sahədə inkişaf etmişlər. Bu gün ölkəmizin elmi şəxsiyyətləri dünyada ad çıxara, xalqların tərifini qazana bilmişlər.[549]

**Embarqonun nəticəsi**

---

[548] Gənc alimlərlə görüşdə çıxışdan: 2006.
[549] İmam Rzanın (ə) pak məqbərəsinin ziyarətçilərinin toplantısında çıxışdan: 2007.

Embarqo bizə zərbə vura bilməz. Məgər indyədək embarqo tətbiq etməyiblər?! Biz embarqo vəziyyətində nüvə enerjisinə nail olmuş, elmdə inkişaf etmiş, ölkədə böyük quruculuq işləri görmüşük. Embarqo bəzi şəraitlərdə bizim xeyrimizə tamamlanır, iradəmizi artırır.[550]

**İnkişafı ölçmək üçün düzgün müqayisə**

Keçmiş bugünkü gəncimizin, tələbəmizin gözü önündə deyil ki, müqayisə apara bilsin. Siz bu gün ölkənizi, misal üçün, iki yüz il elmi fəaliyyəti, elm və tədqiqat stajı olan mütərəqqi bir ölkə ilə müqayisə edib çatışmazlığın olduğunu deyirsiniz. Sözünüz doğrudur, lakin bu müqayisə obyektiv deyil. Ölkəni əvvəlki vəziyyəti ilə, oxşar və qonşu ölkələrlə müqayisə etmək lazımdır.[551]

**Ölkədə elm və texnologiya inkişafının yüksək sürəti**

Bu gün İranın elmi inkişafı bütün dünya üzrə birinci, yaxud birincilərdəndir. Düzdür, bununla yanaşı hələ çox geridəyik, lakin görülən işlər bütün sahələrdə inkişafa səbəb olmuşdur. Siz öz tələbə çevrənizdə bunun nümunələrinə baxın. İnqilabdan sonra əhali iki dəfə artıb, tələbələrin sayı isə on dəfə, universitetlərin, fakültələrin və uyğun inkişafların sayı isə bəlkə on dəfədən də artıq. Bir zaman biz ən sadə bir şeyi də digərlərindən dilənirdik, bu gün isə ölkəmiz ən mürəkkəb texnologiyaları özü əldə edir. Bu inkişaflar heyrətləndiricidir, möhtəşəmdir. Bunu digərləri də təsdiq edirlər.[552]

**Özünə inamsızlıq - ölkənin elmi inkişafının bəlası**

Biz nüvə və digər elmi nailiyyətlərimizi iqtisadi embarqo şəraitində əldə etmişik. Bunu qərblilər də bilir, anlayırlar. Lakin təəssüf ki, daxildə bəzi şəxslər Qərbin sözünə, təfəkkürünə və əsaslarına o qədər vurulub aldanmışlar ki, bunu qəbul etmək istəmirlər. Hətta digərləri təsdiq etməyincə ölkənin elmi inkişafına səbəb olan amilləri də qəbul etmirlər.

---

[550] Yenə orada.

[551] Məşhədin Firdovsi Universitetində tələbələrlə görüşdə çıxışdan: 2007.

[552] Yenə orada.

Mənim yadımdadır, təxminən iki il yarım öncə bizim sentrifuqlarımız işə düşəndə, gənclərimiz və alimlərimiz bunu düzəltməyi bacaranda, ozamankı məmurlar, prezident və digərləri bunu elan edəndə yaxşı və çox sağlam insanlar olan bir qrup fizikimiz mənə məktub yazdılar ki, ağa, bunlara inanma, belə bir şey mümkün deyil; inanmaq və qəbul etmək istəmirdilər. Bu, sözügedən təlqinlərin nəticəsidir. Qərblilər - MAQATE və digərləri gəlib baxmayınca, təsdiq və etiraf etməyincə İranda belə bir şeyin əldə edilməsinə inanmırdılar; bundan sonra ölkə daxilindəki gec inananlar da inandılar.

Bu hadisə eynilə kök hüceyrələr məsələsində də qarşıya çıxdı. Mən bir neçə çıxışda kök hüceyrələr haqda araşdırmalarda nailiyyətlərdən danışdım. Ölkənin bəzi universitetlərindən mənə məktub yazdılar ki, ağa, siz bu haqda bu qədər danışmayın, bu həqiqət deyil, belə bir şey yoxdur; kök hüceyrələr və klonlaşdırma barədə nailiyyətlərin əldə olunmasına inanmayın, belə bir şey baş verməyib və verməyəcək. Klonlaşdırılmış qoyunu hamıya göstərəndə, keçirilən seminarda dünyanın məşhur alimləri, birinci dərəcəli bioloqları danışıb bu inkişafın heyrətləndirici olduğunu təsdiq edəndə isə gec inananlar da inandılar. Bu da bir problemdir ki, biz öz istedad, inkişaf və bacarığımıza inanmırıq.[553]

## Milli özünəinamın zəruriliyi

İnqilabın verdiyi milli özünəinamı günbəgün gücləndirməliyik. Xalqın özünə inamı olsun, bilsin ki, möhkəm iradə ilə çalışsa, bütün ölkə əl-ələ versə öz məqsədlərinə çata bilər; bunu bilməliyik. Bizim universitet adamlarımız öz sahələrində, elmi tədqiqatlarında buna ürəkdən inanmalıdırlar. Bizim tələbəmiz, müəllimimiz, tədqiqatçımız, universitet rektorumuz bilməlidir ki, iradə, çalışma, zəhmət və fəaliyyət sayəsində istədiyi hər bir işi görə bilər. Bu bizə zəruridir.[554]

## Regionda elmi durğunluğa son qoymaq

---

[553] Yenə orada.
[554] Yenə orada.

İslam Respublikası quruluşu bu müddətdə bütün sahələrdə çox iri addımlarla inkişaf edə bilmişdir; dünyanın siyasi ədəbiyyatını mühüm elementlərlə dəyişdirdi; elm sahəsində bu regiona və ölkəyə hakim olan mütləq durğunluğa son qoydu, gənclərimiz özlərinə ümidvar oldular, inandılar.[555]

**Dünyanın İranın elmi inkişafına təəccüblənməsi**

Əziz qardaş və bacılar! Bizim Böyük İmamımızın yaratdığı bu yeni kimlik bütün dünyanı heyrətə saldı. Məcburi müharibə zamanı davam gətirib qələbəni öz adına yazdıranda dünyanı növbəti dəfə təəccübələndirdi. Nüvə məsələsində və digər elmi məsələlərdə inkişafı ilə öz bacarığını sübuta yetirəndə mütəxsissləri növbəti dəfə heyrətləndirdi və onların diqqətini cəlb etdi. Mən deyirəm: Qarşıdakı uzun yolunuzda saysız-hesabsız uğurlar sizi gözləyir. İran xalqının indiyədək əldə etdiyi uğurlar inşallah gələcəkdə möhkəmlik, aydınlıq və ayıqlıq sayəsində əldə edəcəyi uğurlar qarşısında çox kiçik görünəcək, İran xalqının gələcəyi bundan dəfələrlə yaxşı olacaq.

İran xalqı öz dözümlülüyü və dəstəyi ilə həm elm və texnologiyaya aid sahələrdə, həm ölkənin ictimai və siyasi idarəçiliyində, həm də beynəlxalq münasibətlərdə özünü çox yüksək yerlərə çatdıra bildi və regionun müsəlman xalqlarına örnək olmağı bacardı.[556]

**Faydalı elmi hərəkətə görə minnətdarlıq**

Bir neçə ildir ölkədə faydalı elmi hərəkət başlanmışdır. Hamı qəbul edir ki, bu dəyərli hərəkət ölkənin elmi toplumu - müəllimlər, tələbələr, tədqiqatçılar, universitetlər və tədqiqat mərkəzləri arasında az-çox yayılmışdır. Mən bizim alimlərimizin, tədqiqatçılarımızın, müəllimlərimizin bütün ölkədə başlatdığı bu böyük hərəkətə görə təşəkkür etməyi özümə borc bilirəm.

---

[555]Həzrət İmam Xomeyninin vəfatının on səkkizinci ildönümü mərasimində çıxışdan: 2007.

[556] Yenə orada.

Mənim bu gün Royan Tədqiqat Mərkəzinə gəlişim əslində ölkəmizdə başlayan genişmiqyaslı elmi hərəkətə hörmət bildirmək üçün simvolik bir hərəkətdir. Buranı isə əvvəla Royana, ikincisi isə Universitet cihadına görə seçdik.[557]

**Universitet cihadı təşkilatının kimliyi**

Universitet cihadı inqilabın mübarək övladıdır. Necə ki, Allah Qurani-kərimdə iki məscidi müqayisə edərkən buyurur: "İlk gündən binası təqva üzərində qurulmuş məscid namaz qılmağına daha layiqdir. Orada paklanmağı sevən insanlar vardır"[558]. Universitet cihadı da belədir. İnqilabın özünün azsaylı cücərtilərindəndir.

Bunun mənası o deyil ki, bu təşkilat əvvəldən necə olmuşsa, nə düşünmüşsə, necə işləmişsə, hamısı düzgün olmuşdur. Xeyr! Biz insanlar bəzən düzgün fikirləşirik, bəzən səhv; bəzən düzgün işləyirik, bəzən səhv. Meyar bu dəyişiklik və eniş-yoxuşlar deyil, məqsəd və istiqamətlər və onları qorumaqda davamlılıqdır. İnsan bəzən səhvə yol verə və bir qədər yayına da bilər.[559]

**İnsanın elm arzularının ideal nümunəsi**

Royan müəssisəsi insanın arzuladığı uğurlu, ideal, gözəgəlimli və nümunəvi bir müəssisə olub və indi də elədir. Mən mərhum Səid Kazimini çox sevirdim, indi də o əziz gəncin xatirəsini uca tuturam. Onun hərəkəti, iş tərzi, idarəçiliyi, müntəzəmliyi həqiqətən ideal idi. Royan da onun və əvvəldən burada işləyən digər həmkarların köməyi ilə belə yetişdi, inkişaf etdi və cücərdi. Mən bunu əvvəldən hiss etmişəm.[560]

**Royan Tədqiqat Mərkəzinə hörmətin səbəbi**

Bu gözəl örnəyi bir cümlə ilə təqdim etmək istəsəm, deməliyəm ki, Royan Tədqiqat Mərkəzi elm, iman və çalışmanın birləşməsindən ibarətdir. Bu mərkəzin əməkdaşları həm elmə ciddi yanaşdılar, həm imana və

---

[557] "Royan" Tədqiqat Mərkəzində keçirilən görüşdə çıxışdan: 2007.
[558] "Tövbə"/108.
[559] "Royan" Tədqiqat Mərkəzində keçirilən görüşdə çıxışdan: 2007.
[560] Yenə orada.

təqvaya bir yük kimi yox, toplumun və fəaliyyətin əsas elementi kimi baxdılar, həm də yorğunluğu unutdular. Mənim fikrimcə, mərhum Kazimi öz canını və sağlamlığını da bu yolda qurban verdi. Buna görə Royan mənə çox əzizdir, bu mərkəzdə işləyən siz əziz gənclər, mömin kişi və qadınlar mənə əzizsiniz. Düşünürəm ki, Royanda işləmək və inkişaf etmək üçün olduqca böyük potensial var.[561]

**Yaxşı işlərə rəğmən, təlim və tərbiyə qurumlarında dəyişikliyin edilməməsi**

İnqilab dövründə təlim və tərbiyə qurumlarında çoxlu işlər görülmüşdür, lakin təhsil sistemi dəyişməmiş və köhnə sistem saxlanmışdır. Sizlərin, xüsusən də qədim və təcrübəli müəllimlərin, maarif müdirlərinin, ayıq və qədim tərbiyə işçilərinin adətən saydığı bu eyiblər və dedikləri kimi, təhsilin əzbərçiliyə əsaslanması, gənclərdə yaradıcılıq hissi yaratmaması, düşünmənin olmaması, işin sıxlığı və sair nöqsanların hamısı o zamandan qalmış qədim təhsil sistemindən irəli gəlir. Əvvəllər də qeyd etdiyim kimi, bu üsullar köhnə, yığnaqlı, toz basmış və skleroz halında bizim sistemimizdə qalmışdır.

Daha çox formaca işlər görülmüşdür: kitablar "Bismillah" ilə başlamırdı, indi isə başlayır, Quran ayəsi yox idi, indi isə var. Yaxşı işlər görülmüşdür. Mən yaxşı işləri inkar etmirəm. Mən bu 28 ildə müxtəlif üslublarla müxtəlif dini və milli əsasların dərs kitablarına salındığını və hər bir dövrdə bir işin görüldüyünü görmüşəm.

İndi işarə vurulan bu işi - elmi korifeylərin dərs kitablarına salınmasına dair işi də gətirdilər və mən gördüm. Çox yaxşı işdir. Bizim gəncimizin dərs kitabında ölkəsinin alimlərini, keçmişini və elmi korifeylərini tanıması lazımdır. Bizim gəncimiz hansısa ölkənin milli komandasının bir oyunçusunu İbn Sinadan, Məhəmməd ibn Zəkəriyya Razidən çox yaxşı tanıyır. Kino ilə maraqlananlar məşhur bir Fransa, yaxud Amerika aktyorunu filan riyaziyyatçı alimdən, yaxud məsələn, böyük fars ədibindən çox-çox yaxşı tanıyırlar. Bunlar dərs kitablarına salınmalıdır. Bu çox yaxşı işdir. Biz bu işləri təqdir edirik, lakin bunların

---

[561] Yenə orada.

heç biri dəyişiklik deyil. Dəyişiklik köklü olmalıdır və siz bunu edə bilərsiniz. Bu gün ölkənin mühüm vəzifələrində və təhsil qurumlarında çalışanların bu işə yetərincə marağı var və bu iş görülməlidir.[562]

**Ölkənin təhsil sistemində yenilik cəsarətini alqışlamaq**

Yenilik bir sözdür, lakin onun arxasında bir dünya iş yatır. Əvvəla, bu işlər hansılardır? İkincisi, bu işlər hansı məqsədlə görülməlidir? Üçüncüsü, bu işlər necə görülməlidir?

Bu sualın cavabı bir ömür iş deməkdir. Biz bunların hamısını bir sözdə toplayıb deyirik: Yenilik. Sizin yenilik fikrinə düşməyinizin və ölkənin təhsil işində əsaslı dəyişiklik yaratmaq istəməyinizin özü həqiqətən təqdirəlayiq haldır. Siz iradə, cəsarət göstərdiniz və yenilik sözünü dediniz. Çünki bəzən sistemlər elə əbədi, möhkəm və dəyişməz görünür ki, insan dəyişdirmək məqsədi ilə onlara yaxınlaşmağa cürət etmir. Siz cəsarət edib dediniz ki, ölkənin təhsil sistemini dəyişdirmək istəyirsiniz. Bunun özü çox əhəmiyyətlidir.[563]

**Elmi arzuların ümumi istəyə çevrilməsi**

Burada sizin bəyan etdiyiniz məsələlərin hər biri - istər humanitar elmlərə, istər əxlaqi təlim-tərbiyəyə, istər elm və sənayenin əlaqəsinə, istər istedadlara və elmi nümunələrə imkan yaratmağa aid olanların hər biri mənim köhnə arzularımdandır. Uzun illər bunları demişik, istəmişik və bu gün görürəm ki, ümumi istəyə çevrilmişdir.[564]

**Embarqoların ölkənin elmi hərəkətinə əks-təsiri**

İslam Respublikasının öz qüdrəti, yaradıcılığı və daxili qüvvəsi ilə əldə etdiyi nailiyyətlər insanları məftun etmişdir. Müxtəlif elm, texnologiya və digər inkişaflar belədir. Onun bir nümunəsi nüvə enerjisi məsələsidir. Bunların hamısı embarqo və təzyiq dövründə əldə olunmuşdur. Yəni

---

[562] Təlim və Tərbiyə Naziri, nazir müavinləri və ölkə üzrə maarif müdirləri ilə görüşdə çıxışdan: 2007.
[563] Yenə orada.
[564] Gənc alimlərlə görüşdə çıxışdan: 2007.

embarqolar nəinki təsir etmədi, hətta əks-təsir göstərdi, daxili qüvvələri düşünməyə və hərəkətə vadar etdi.[565]

**Elm və texnologiya sahəsində quruluşun nailiyyəti**

Bilin ki, sizin quruluşunuz bacarıqlı və dəyərli bir quruluşdur. Düşmənləriniz zorla sizə anlatmağa, qəbul etdirməyə və inandırmağa çalışırlar ki, quruluşunuz bacarıqsızdır. Xeyr! Təsadüfən bu quruluş çox bacarıqlıdır və müxtəlif sahələrdə öz bacarığını göstərmişdir.

Bir sahə özünəinam məsələsidir. Bu, elmdə, siyasi işlərdə, texnologiyada özünü göstərmişdir və göstərməkdədir. Bu ölkədə bizim mühəndislərimiz elektrik stansiyası, bənd, hava limanı tikmək sözünü deməyə cürət etmirdilər. Bu işlərin hamısını xaricilər görməli idilər. İranlı mühəndisin maksimum hünəri xarici bir mühəndisin, yaxud şirkətin götürdüyü proyektdə çalışmaq idi; bunu da əgər onlar qəbul etsəydilər.

Mən 3-4 il öncə Kərxə bəndi haqda müsahibə verdim və bunu geniş açıqladım. Həmçinin Karun-3 bəndini Dez bəndi ilə müqayisə etdim. Dez bəndi tağut dövründə tikilmişdi, Karun-3 bəndi isə İslam Respubilkası dövründə. Onlar bir-birinə bənzəyir; su və elektrik baxımından bir-birinə yaxın imkanlara malik iki beton bənddir. Dez bəndinin tikilişində nə qədər iranlıları təhqir etdilər, nə qədər aşağıladılar, iranlı mühəndisi, iranlı iş adamını rüsvay etdilər. Lakin bu bəndin tikilişində betonun tökülməsi və dağa birləşdirilməsi baxımından Dez bəndindən daha həssas və mühüm olan bu böyük və mürəkkəb işi iranlı gəncin, mühəndisin özü gördü; bunu təfərrüatı ilə bizə izah etdilər. Stansiyasını özü tikdi, bəndini özü tikdi, suyun altındakı sıradan çıxmış yolu və uzun asma körpünü özü düzəltdi, həm də fəxrlə. Təri axdı, amma fəxrlə başını dik tutdu. Bu kiçik iş deyil. Siz bunu hər şeydə görə bilərsiniz.

Bu gün iranlı mühəndis, alim, doktor, hərbçi qurmağı, istehsal etməyi, yaratmağı, işlətməyi və digərlərindən daha böyük bacarıq göstərməyi özünə borc bilir. O zaman isə hətta təsəvvür də etmirdilər; bunun misalları olduqca çoxdur. Bu, indiki quruluşun işgüzarlığıdır. Bu quruluş bu işi gördü.

---

[565] Tehranın cümə namazı xütbələrindən: 2007.

Ölkənin məhv edilmiş əkinçiliyini bu quruluş dirçəltdi. Ölkənin sadə və ibtidai sənayesini bu quruluş mürəkkəb və həssas nüvə sənayesinə çevirdi. Bu quruluş indi yeni sənaye sahələrində - Nano texnologiyada və digər bu tip sənayelərdə təxminən birinci sıradakılarla çiyin-çiyinə hərəkət edir və işləyir. Bunlar quruluşun səmərəliliyidir.[566]

**Elmi inkişafların hissolunan və ölçülən olması**

Biz çox inkişaf etmişik. Göz önündə olan, hiss edilən və ölçüyə gələnlər bizim elmi inkişaflarımızdır. Onun bir nümunəsi nüvə məsələsidir; digər çoxlu nümunələri də var. Bizim düşmənlərimiz bu inkişafa təbii ki, müxalifdirlər.[567]

**İran xalqı və elmi zirvələrin fəthi**

Bəşəriyyətin məktəb və hiylələrdən bezikib mənəviyyata, ədalətə, məntiqə sarı etimadlı yol axtardığı indiki şəraitdə əziz İran xalqı, xüsusən də onun gənc və tələbə nəsli həvəs və uğurla elm zirvələrini bir-birinin ardınca fəth edir. Düşmənlərin hiylələri, o cümlədən beynəlxalq istismarçılar tərəfindən tətbiq olunan elmi aparteid Allahın yardımı ilə onların iradə və əzmkarlığının möhkəmlənməsinə səbəb olmuşdur.[568]

**Yəzdlilərin elmi istedadlara diqqəti**

Yəzd vilayəti son 14 il ərzində ardıcıl olaraq ölkə üzrə universitetlərə qəbul olanların ən çox faizinə malikdir. Bu, kiçik nailiyyət deyil. Bu onu göstərir ki, bu vilayətdə elmi istedad, alim olmaq potensialı və xalqı tərpədib İslam inqilabının təsvir etdiyi gələcəyə sarı apara bilən güclü qollara və mütəfəkkir beyinlərə çevrilmə imkanı çoxdur.

Yəzdli gənc, kişi və qadın, yəzdli ruhani, ziyalı və müəllim bu istedadın qədrini bilməlidir. Hamı bilməlidir ki, bu nemətin şükrü onu tanımaq və işlətməkdir.[569]

---

[566] Quruluşun məsul şəxsləri ilə görüşdə çıxışdan: 2007.

[567] Bəsic üzvü olan şagird və tələbələrlə görüşdə çıxışdan: 2007.

[568]Avropada təhsil alan tələbələrin İslam Birliyi İttifaqının 42-ci illik iclasına müraciətdən: 2007.

[569] Yəzd əhalisinin böyük toplantısında çıxışdan: 2008.

**İranlılarda özünəinamının əlamətləri**

Özünəinamın əlamətlərindən biri İran xalqının yüksək səviyyəli elmi kəşflərə girişməsidir; başqa birisi indi bütün xalqımızın dilində əzbər olan nüvə enerjisi məsələsidir. Lakin yalnız bu deyil, çox həssas, dəqiq və yeni olan digər sahələrdə də gənclərimiz, alimlərimiz, dəyərli şəxsiyyətlərimiz işə girişdilər, böyük işlər gördülər. Kök hüceyrələr məsələsini, müalicəsi çətin olan bəzi xəstəliklər üçün yeni və bənzərsiz dərmanların kəşfini elan etdilər, inşallah sonra yenə elan edəcəklər. İranlı müxtəlif məsələlərdə öz istedadını işlətdi, özünəinam göstərdi və inkişaf etdi. Biz bundan sonra da inkişaf edəcəyik.[570]

**Bugünkü başucalığı hissinin amilləri**

Siz bu gün düşmən qarşısında başucalığı hiss edir, özünüz düzəldir, özünüz öyrənir, özünüz tədqiqat aparır və araşdırırsınız. O zaman onların verdiyini gözübağlı qəbul etməyə məcbur idiniz. Bir xalqı tərəqqi və əzəmətin zirvəsinə çatdıran bunlardır. İran xalqı inkişaf yolunu tapdı və onda hərəkətə başladı. Biz bunun bədəlini də ödədik.[571]

**Daxili xəzinələrin kəşfinin səmərəsi**

İran xalqının öz ölkəsində, istedadları daxilində və tarixinin dərinliklərində olduqca çoxlu xəzinələri var. Biz bu xəzinələri kəşf etmək istəyirik. Bu xəzinələr dirçəldikdə bir xalq sərvətli, alim olur, texnologiya, elm, sivilizasiya və beynəlxalq məsələlər barədə danışmaq və üstün mövqeyə sahib olmaq imkanı qazanır. Bundan sonra isə digər xalqlara örnək olur. Bizim xalqımız bu günə qədər örnək olmuşdur.[572]

**İranın elmi inkişafı**

---

[570] Yenə orada.

[571] Ordunun Hərbi Hava Qüvvələrinin komandirləri və şəxsi heyəti ilə görüşdə çıxışdan: 2008.

[572] 29 Bəhmən günü münasibəti ilə Azərbaycan əhalisinin müxtəlif təbəqələri ilə görüşdə çıxışdan: 2008.

İslam Respublikası ölkəni elmi, texnoloji, sosial və digər böyük xidmətlər baxımından inkişaf etdirə bilmişdir.

Elmi inkişafda dünyanın sonuncu yerlərində duran bu ölkə bir çox sahələrdə birinci yerlərdədir. Görürsünüz ki, İslam Respublikası bəzi sahələrdə dünyanın səkkiz, doqquz, on ölkəsindən önə keçmiş, yaxud onlara çatmışdır. Onların bəzi sahələrdə uzun illər ərzində getdikləri yolu İran xalqı gənclərinin iradəsi və öz istedadı sayəsində daha tez gedə bilmişdir. Üfüq aydın, gələcək ümidvericidir. Bu, İran xalqının inkişafıdır.[573]

**Fars vilayətinin elmi nailiyyətləri**

Bu gün bu vilayətin elmi, texnologiyası, dərin tədqiqatı və elmi yeniliyi dillər əzbəridir, sizin şəhərinizdən və vilayətinizdən olan alimlər elmin beynəlxalq simalarından sayılırlar. Bu vilayət tibdə, elektron sənayedə, petrokimyada, müxtəlif elm və sənaye sahələrində öncüldür. Şiraz Universiteti çoxlu fakültə və ixtisasların açılmasında qabaqcıldır.[574]

**Böyük elmi nailiyyətlər nəyin səmərəsidir?**

İmamla, inqilabla və İslam Respublikası ilə beyəti sındıranlar özlərinə zərər vururlar: "Kim (beyəti) pozsa, ancaq öz əleyhinə pozmuş olar (bunun zərəri yalnız onun özünə dəyər). Kim Allahla etdiyi əhdi yerinə yetirsə, (Allah) ona böyük mükafat verər!"[575] Biz bu beyəti qorumalı, saxlamalı və indiki nəslin beyəti sayəsində çox böyük işlər görməliyik.

Böyük işlərin bir nümunəsi nüvə enerjisi məsələsidir. Görürsünüz ki, İran xalqı dünyanın diqqətini özünə cəlb etmişdir. Düzdür, siyasətçi və təbliğatçılar söyürlər, amma bilin ki, xalqlar tərifləyirlər. Həmin siyasətçilərin özləri də ürəklərində İranı alqışlayırlar. İstər Atom Enerjisi Təşkilatında, istər bəzi siyasi təşkilatlarda aparılan müxtəlif müzakirələrin stenoqramını bizə gətirirlər. Görürük ki, İran xalqını müntəzəmliyə, elmə həvəsinə, elmi və milli qürurunu qorumaqda israrlı olduğuna görə

---

[573] İmam Rzanın (ə) müqəddəs məqbərəsinin ziyarətçilərinin böyük toplantısında çıxışdan: 2008.

[574] Şiraz əhalisi ilə görüşdə çıxışdan: 2008.

[575] "Fəth"/10.

tərifləyir və təəccüblənirlər. Bizdə olan məlumatlar bunu təsdiq edir. Bu bir nümunədir.[576]

**Düşünmə yerinə əzbərləmənin əsas olması**

Hər halda, bu müəllim-şagird məsələsi sonsuzluğa qədər sürməməlidir. Bəli, bilmədiyimizi bilən şəxsə şagirdlik etməyə hazırıq. Lakin insan həmişə şagird qalmamalıdır. Biz özümüz müəllim olmalıyıq. Öyrəndiyimiz şeylərdən biri təlim-tərbiyə məsələsidir. Onların yaxşı təlim-tərbiyə üsulları vardı və biz də onlardan öyrəndik. İbtidai məktəblərin qədim məktəbxanalardan yaxşı olması, ibtidai və orta məktəb bölgüləri yaxşı idi. Biz bunları rədd etmirik, bunlar faydalıdır, lakin nə qədəri, necə və hansı istiqamətdə olanı? Biz daha buna diqqət yetirmirik və bütövlüklə götürürük. Onlar dedilər ki, 6 sinif belə olsun, 6 sinif elə olsun. Biz də onu gətirdik. Sonra onlar üsullarını dəyişdirdilər: 5 sinif, 3 sinif və sair. Biz də bunu öyrəndik və gətirdik. Axı belə olmaz! Onların müxtəlif fənlərdə dərs vəsaitləri vardı. Dedilər ki, bunları öyrədin. Biz də beləcə bu təlimlər yığnağını öyrəndik. Orta təhsilin idarə tərzi həm forma, həm məzmun baxımından tam təqlid olunmuş bir tərzdir.

Bu düzgün deyil. Biz baxmalıyıq ki, bizə nə lazımdır, mövcud üsulun harasında nöqsan var. Bu üsulun bəzi eyibləri var. Onlardan biri düşünmək yerinə əzbərləmək amilidir. Bizim məktəblərimiz əzbərçilik üzərində qurulub. Uşaqlar daim əzbərləyirlər.

Mötərizə arasında deyim ki, əzbərləmə yaddaşı pis bir şey deyil. Uşaqların əzbərləməsinin, kitab oxumasının və çox oxumasının heç bir eybi yoxdur. Bu yaxşı haldır, çünki əzbərlədiyi qalır. Düzdür, bəzilərini başa düşməyə bilərlər... Lakin əzbərlədikləri zehnin fəallığına zəmin yaradır. Əzbərləmələr yaxşıdır, ancaq əzbərçiliyə əsaslanmaq pisdir. Yəni fəaliyyətin əsası əzbərləməkdən deyil, əzbərləməklə yanaşı olsa da, düşünməkdən ibarət olmalıdır. Bu böyük eyibdir. Bunu düzəltmək lazımdır.[577]

---

[576] Fars vilayətinin müəllimləri ilə görüşdə çıxışdan: 2008.
[577] Yenə orada.

**Şəhid və müharibə əlillərinin övladlarının elmi dərəcələri**

Mən Şiraz şəhidlərinin tərcümeyi-halında gördüm ki, Şirazın və Fars vilayətinin bəzi şəhid övladları elm və tədqiqatda yüksək dərəcələrə nail olmuşlar. Bu necə əldə olunur? Şəhid anasının, xanımının, böyük bir qadının və Allah yolunun mücahidinin zəhməti ilə. Onun cihadı budur: yaxşı xanım olmaq, ərinin hörmətini, şəxsiyyətini qorumaq. Yaxşı xanım olmaq budur. Bir nümunəsi budur ki, Allah yolunda qurban gedən ərinin uşaqlarını öz ağuşunda və tərbiyəsi altında layiqincə böyüdür, onlar fəxrlə atalarının yolunu davam etdirmək istəyirlər.[578]

**"Biz bacarırıq!" şüarı**

Bu gün görürük ki, hamıda "biz bacarırıq" düşüncəsi var. Əgər "dünyanın ən dəqiq və ən zərif sənaye sahiblərini keçə bilərsinizmi?" - desələr, siz deyərsiniz ki, bəli, iradə ilə çalışsaq, bacararıq. İslam Respublikasında alim və müsəlman gənc özünü hər bir işə qadir bilir. İnqilabın əvvəlində isə belə deyildi. Öncəki tərbiyələr buna tam zidd idi. Hansı işi görmək lazım olurdusa, deyirdilər ki, biz bacarmarıq. "Cənab, filan şeyi düzəldin!" Deyirdilər ki, biz bacarmarıq.[579]

**Fars vilayəti - elmi üstünlüyə rəğmən, utancaq vilayət**

Bu vilayət yüksək istedadlara rəğmən, utancaq və həyalı vilayətdir; çoxlu savadı və dəyəri olan, lakin danışmaqla, göstərməklə, fikir bildirməklə çox da arası olmayan insanlar kimi. Burada bu hiss olunur. Bu qədər qədim və yeni nailiyyətlər var. Mən dünən elm, ədəbiyyat və iş adamlarını, cəmiyyət üçün istər zehin, istər əməl baxımından faydalı şəxsiyyətləri görüb həzz aldım. Eyni zamanda Şirazdakı bütün bu istedadları təbliğ etmək, göstərmək lazımi həddə deyil. Fars vilayətinin adamları söz adamı, danışan deyillər. İnsan bunu hiss edir.

Allaha şükür olsun ki, burada çoxları işgüzardır; sənaye və əkinçilikdə elmi, əməli fəaliyyət! Bu, təqdirəlayiqdir. Fars vilayətinin

---

[578] Fars vilayətinin müharibə əlilləri, fədakarları və şəhid ailələri ilə görüşdə çıxışdan: 2008.

[579] Şiraz universitetlərinin müəllim və tələbələri ilə görüşündə çıxışından: 2008.

əhalisi danışmağı, səs salmağı, xalqın diqqətini cəlb etməyi sevmir. Bir yolla bu boşluğu aradan qaldırmaq lazımdır.[580]

**Nüvə texnologiyası - yerli və alınması mümkün olmayan elm**

Dəfələrlə İran xalqına demişik, yenə də deyirik: Nüvə texnologiyası sahəsində İran xalqının əldə etdiyi nailiyyət əzəmətli və tarixi bir nailiyyətdir və onun heç kəsə minnət borcu yoxdur. Bu, yerli bir elm olmuşdur. Bunu sizin gənclərinizin istedadı, həvəsi və məmurlarınızın uzaqgörənliyi İran xalqına ərməğan etmişdir. Bu, İran xalqına məxsusdur, heç bir qüvvə bu imtiyazı, bu texnologiyanı və bu böyük hüququ İran xalqından almağa qadir deyil.[581]

**Ölkədə elm karvanının hərəkəti və inkişafı**

Sizin işə başladığınız və ölkədə elm karvanının hərəkət etdiyi bu illərdə olduqca böyük nailiyyətlər əldə olunmuşdur. Ölkədə elmə təmayülün, elmlə məşğul olmağın, Elm istehsalı hərəkatı, Proqramlaşdırma hərəkatı və alim yetişdirmək təfəkkürünün başlandığı təxminən son 10-12 ildən bu günə qədər biz çox inkişaf etmişik. Bu inkişaflar çox faydalıdır.[582]

**Elm inkişafı barədə söhbətin nəticələri**

Alim, seçilmiş və ölkənin gələcəyi üçün ümidverici bir qrup arasında oturub ölkənin ən əsas məsələlərindən biri – elm və onun əsasında texnologiya inkişafı barədə söhbət etmək mənim üçün çox şirin və xoşdur. Bizim əziz qardaşlarımızın, bacılarımızın, övladlarımızın burada bəyan etdiyi məsələlər insanda bu fikri gücləndirir ki, ölkə gəncləri arasında alim yetişdirmək və qurucu fikri inkişaf etdirmək hissi güclənir və yaxşı gələcəyi müjdələyir. İnsan görür ki, həm elmin inkişafına, elm və

---

[580] Fars vilayətinin icra məmurları ilə görüşdə çıxışdan: 2008.

[581] Həzrət Əlinin (ə) doğum günü münasibətilə xalqın müxtəlif təbəqələri ilə görüşdə çıxışdan: 2008.

[582] Universitetlərin gənc alimləri ilə görüşdə çıxışdan: 2008.

texnologiyanın əhəmiyyətinə diqqət və maraq çoxalıb, həm də bunlar İslam Respublikası quruluşunun uca məqsədlərinə daha uyğunlaşmışlar.[583]

**Aşkar elmi uğurları inkar etməyə dair təəssüf**

Mən təəssüf ki, bəzi yazı və fikirlərdə bu xalqın aşkar uğurlarının sual altına qoyulduğunu görürəm. Onlar bunu etməməlidirlər. Bu pisdir, xalqa təpik atmaqdır, yalandan xalqın ümidini sarsıtmaq və onu məyus etməkdir. Bizim bugünkü möhtəşəm elmi inkişaflarımızı kim inkar edə bilər?! Bu inkişaflar bir çox sahələrdə bizi azsaylı ölkələrin sırasına salmışdır. Bu azdır?!

Təxminən bir ay öncə bu hüseyniyyədə bir sərgi təşkil etdilər, yüzlərlə yeni elmi əsər arasından 51-52 elmi yeniliyi göstərdilər. Bəzisi dövlətə, bəzisi özəl sahələrə məxsus olan elmi layihələrin sahibləri məlumat verirdilər ki, bunların bəzisi ölkədə, bəzisi isə dünyada misilsizdir. Onların təxminən iki-üçü dünyada yeni idi. İnsan bunu inkar etməlidir?!

Tarixi dəqiq yadımda deyil; ya ötən il, ya da ondan bir qədər qabaq burada xüsusi bir mövzu barədə böyük elmi toplantı keçirildi. Mən indi onun xırdalıqlarını təkrarlamaq istəmirəm. Dünyanın bir neçə inkişaf etmiş ölkəsindən buraya gəlib bizim elmi, texnoloji və tədqiqat inkişaflarımızı gördülər. Onlar müsahibələrində deyirdilər ki, biz özümüz görməsəydik, İranın belə bir nailiyyət əldə etdiyinə inanmazdıq.

Belə nümunələr bir-iki deyil. Nüvə texnologiyası bir nümunədir; mən dəfələrlə demişəm ki, bu bir nümunədir. Bizim çoxlu belə nümunələrimiz var. Bunlar bizim elmi inkişaflarımızdır. Abadlıq işləri, xalqın məişətinin yaxşılaşması, həyat səviyyəsinin yüksəlməsi və digər hansı inkişaf inkar oluna bilər?! Təəssüf ki, insan bəzi yazılarda əbəs yerə və dəyərsiz bəhanə ilə bu məsələlərin sual altına salındığını görür. İran xalqının bu böyük hərəkəti çox dəyərlidir.[584]

---

[583] Yenə orada.

[584] Qanunverici, icra və məhkəmə hakimiyyətlərinin başçıları və quruluşun müxtəlif sahələrinin məmur və müdirləri ilə görüşdə çıxışdan: 2008.

**Elmi mövzularda məqbul inkişaflar**

Bir məsələ budur ki, biz nə deyiriksə, hamısına bu önfərziyyə ilə baxılmalıdır. Bizim bir neçə önfərziyyəmiz var. Biri budur ki, müxtəlif fənlərdə elmi inkişaf ölkə üçün həyati əhəmiyyət kəsb edir. Elmlərin dərəcə ilə sıralanmasını sonra deyəcəyik. Bu, mühüm işlərdən biridir.

İkinci önfərziyyə budur ki, bu elmi inkişaf, mütərəqqi elm mərkəzlərindən və ölkələrindən elmi öyrənməklə hasil olsa da - onun bir hissəsi şübhəsiz, budur - elmi öyrənmək bir məsələdir, elmin istehsalı isə başqa bir məsələ. Biz elm işində öz vaqonumuzu Qərbin lokomotivinə bağlaya bilmərik. Düzdür, bu asılılıq yaransa, bəzi inkişaflar əldə olunacaq; bunda şübhə yoxdur. Lakin belə inkişafın qəti nəticələrindən biri də başqasının ardınca getmək, yaradıcılığın olmaması və mənəvi cəhətdən asılılıqdır. Bu isə yolverilməzdir.

Buna görə də elmi biz özümüz istehsal etməliyik. İnsanın elmi rütbələrdə ucaldığı hər bir pillə onu sonrakı addımı atmağa və bir pillə yüksəlməyə hazırlayır. Biz bu hərəkəti özümüzdən, öz daxilimizdən, düşüncə əsaslarımızdan və mədəni irsimizdən istifadə ilə davam etdirməli və buna diqqət yetirməliyik.

Üçüncüsü budur ki, bu elmi inkişaf əvvəla özünəinamla, ikincisi müvəfəqiyyətə ümidlə, üçüncüsü cihadabənzər hərəkətlə yanaşı olmalıdır. Çünki biz fərz edirik ki, elmi inkişaf yerli baxışla və öz mədəniyyətimizə arxalanmaqla - bizim mədəniyyətimiz dini və milli irslərimizdir - həmçinin ölkənin ehtiyaclarına hesablanmış olmalıdır. Bu bizim elmi fəaliyyətimizin əsasını təşkil etməlidir. Bəzi adamlar irad tuta bilərlər ki, məgər bu mümkündür? Burada bəzi cənabların buyurduğu kimi, biz bacardığımıza inanmalıyıq, bilməliyik ki, hərəkət başladıqda müvəfəqiyyətə ümid də olur.

Dördüncüsü budur ki, bu hərəkətdə tənbəllik, rahatlıq istəyi və işi bir-birinin üstünə atmaq yolverilməzdir. Cihadabənzər hərəkət etmək lazımdır. Cihad yalnız döyüş meydanında olmur; həyatın bütün sahələri kimi elmdə də cihad lazımdır. Cihad ağlın qəbul etdiyi həddə təhlükəyə atılmaqla yanaşı olan davamlı fəaliyyət, inkişaf və gələcəyə ümiddir.

Bunlar bizim önfərziyyələrimizdir. Bunlar barədə çox söhbət etdiyimizdən, dəfələrlə danışdığımızdan alim və müəllimlər tərəfindən qəbul olunmuş sayılır. Bu onu göstərir ki, elmin bu inkişafı, elmdə yeni zirvələr fəth etmək, elm sərhədlərində yenilik və inkişaf yaratmaq bir təfəkkür kimi bizim bugünkü elmi toplumumuzun fikirlərindəndir; buna şübhə yoxdur.[585]

**İnanılmaz inkişaflara nail olmaq imkanı**

Əgər inqilabdan qabaq, xalqımızda bu hərəkətin və fəallığın yaranmasından, maneələr qarşısında qorxmazlıq hissinin vücuda gəlməsindən öncə ölkəmizin müxtəlif elmlərdə bu mərhələyə çatacağı deyilsəydi, şübhəsiz, heç kəs inanmazdı. Bu gün əyalətlərdə yerləşən üçüncü və dördüncü dərəcəli xəstəxanalarımızda asanlıqla müalicə olunan adi bir xəstəlik üçün insanlar xarici ölkələrə getməyə, çoxlu pullar xərcləməyə və minnətlər çəkməyə məcbur olurdular. Bu, çox keçmişə aid deyil, inqilabdan öncəki dövrə aiddir. Bu gün bizim müxtəlif elmlərdə və müxtəlif sahələrdə vəziyyətimiz şübhəsiz, bir zaman çoxlarına əlçatmaz görünürdü. Lakin xalqımız buna nail oldu, gənclərimiz bunu əldə etdilər. Nüvə məsələsi və digər elmi məsələlər bu qəbildəndir.[586]

**1387-ci ilin bəzi elmi uğurları**

1387-ci (21 mart 2008-20 mart 2009) il nüvə barədə xoş xəbərlə başlandı. İran xalqı gənclərinin, elmli və çalışqan alimlərinin beynəlxalq embarqolara rəğmən, nüvə sahəsində inkişaflarını və İran xalqının belə bir mühüm bacarığını bütün dünyaya sübut etmələrindən xəbərdar oldu. Bu təkcə elmdə yox, digər sahələrdə də İran xalqı üçün yeni beynəlxalq dəyər və imic yaratdı.

Allaha şükür olsun ki, ilboyu müxtəlif sahələrdə digər böyük işlər də görülmüşdür. Sözügedən nüvə sahəsində Buşəhr stansiyasının müvəqqəti test mərhələsi başlandı. Bu da mühüm və böyük xəbərdir və təbii ki, ölkə

---

[585] Elmi nümunələr və universitet müəllimləri ilə görüşdə çıxışdan: 2008.
[586] Elm və Sənaye Universtetində müəllim və tələbələrlə görüşdə çıxşdan: 2008.

daxilindəki alimlərimizin inkişafının nəticələrindəndir. Bu bütün dünyaya başa saldı ki, İran xalqının nüvə inkişafının qarşısını almaq olmaz.

Elmdə digər böyük işlər də görülmüşdür. Onları sadalamaq üçün geniş vaxt lazımdır. Mən bu inkişafların mühümlərinə şahid oldum və sərgidə yaxından gördüm. Həqiqətən heyrətamizdir. Bizim əziz gənclərimiz, iradəli və fəal xalqımız böyük elmi inkişaf göstərə bilmişlər. Bu mühüm və möhtəşəm inkişaflar müxtəlif yerlərdən inqilab əleyhinə aparılan otuzillik təbliğatı zərərsizləşdirdi.

Bu elm və texnologiya inkişaflarından biri də Ümid peykinin kosmosa göndərilməsi idi. Bu, uyğun texnologiyada ölkəni dünyanın çox azsaylı ölkələri sırasına daxil edən böyük işin birinci addımıdır. Ümid peyki dünyanın diqqətini İrana yönəltdi və İran xalqının daxildən çiçəkləndiyini, inkişaf etdyini və İran xalqının inkişaf bacarığının məhdud olmadığını göstərdi.[587]

**Bugünkü elmi inkişafların dünənlə müqayisəsi**

Başqa bir amil ölkənin infrastrukturlarıdır. Bu gün ölkəmiz inqilabın birinci, yaxud ikinci onilliyi kimi deyil ki, ölkədə elmi və digər infrastrukturlar olmasın. Bu gün bizim gənclərimiz, mütəxəssislərimiz, alimlərimiz hansı sahəyə daxil olurlarsa, böyük işlər görə bilirlər. Allaha şükür olsun ki, bu gün ölkədə rabitə, kommunikasiya, elmi tədqiqat və istehsalat sahələrində böyük bir inkişaf üçün lazım olan imkanlar mövcuddur. Bizim mühüm və beynəlxalq yollar çəkmək, hava limanı tikmək, simsiz və simli əlaqə vasitələri, rabitə şəbəkələri və bənd tikmək baxımından digərlərinə ehtiyacımız yoxdur.

Bir zaman heç kim təsəvvür etmirdi ki, daxili mütəxəssislər bənd, elevator tiksinlər, magistral yolu çəksinlər, hava limanı, polad zavodu tiksinlər; bütün bu işlərdə xalqımızın gözü əcnəbilərə dikilirdi. Əcnəbilərin istismarına son qoyanda da biz bu cəhətdən yoxsul qaldıq. Bu gün isə bu sahələrdə çox bacarığımız var. Bizim gənclərimiz mürəkkəb zavodlar tikir, elm və texnologiya işləri görür, ölkənin ehtiyacını təmin edir, məsləhətçi,

---

[587] Yeni il münasibəti ilə müraciətdən: 2009.

elm və texnologiya mütəxəssisləri kimi digər ölkələrə də kömək edirlər. Bu cəhətdən ölkənin dəyərli mövqeyi var. Bu, az nailiyyət deyil.

Bir zaman bizim gənclərimiz hətta RPG silahından istifadə edə bilmirdilər. Bu gün həmin gənclər kosmik raket göndərir, dünya alimlərinin diqqətini cəlb edirlər.

Bir zaman ölkədə stansiyalardan istifadə etmək üçün mütəxəssisə ehtiyacımız vardı. Bu gün isə ölkəmizin gəncləri sənayedə elə inkişaf etmişlər ki, neftayırma zavodunu və müxtəlif imkanları özləri düzəldir və istehsal edirlər.

Bir zaman ölkə biologiyada mütləq yoxsulluq içində idi. Bu gün isə bioloji elmlərdə inkişafa, o cümlədən dünyada mühüm məsələ olan kök hüceyrələrin istehsalına nail olmuşlar. Bu gün ölkədə bu imkanlar mövcuddur. Bunların hamısı gələcək inkişafları asanlaşdıran infrastrukturlardır.[588]

**Kürdüstanın bugünkü elmi vəziyyətinin tağut dövrü ilə müqayisəsi**

Bu gün Kürdüstan vilayətində iyirmidən artıq ali təhsil müəssisəsində əlli minə yaxın tələbə təhsil alır. Lakin tağut dövründə yalnız 360 tələbə var idi. Tağut dövründə bu vilayətdə savadsızlığın nisbəti də dəhşətli idi: vilayət əhalisinin yalnız 29 faizi savadlı idi. Tağut rejimi kürd xalqının - bu istedadlı və zəkalı insanların savadlanmasını istəmirdi. Vilayət əhalisinin yalnız 29 faizi bu şəkildə və bu keyfiyyətdə savada malik idi.[589]

**Elmi inkişaf - İslam quruluşunun həmişəyaşarlığının və qüdrətinin isbatı**

Əgər bu quruluşu ilk illərdə dəfn edə bilsəydilər, İslamın zərərinə bitərdi, deyərdilər baxın, İslam bacarmır. Bir inqilab etdi, bir quruluşu hakimiyyətə gətirdi, amma iki ildən, beş ildən artıq yaşada bilmədi. İslam

---

[588] Həzrət Əli ibn Musa Rzanın (ə) ziyarətçilərinin böyük toplantısında çıxışdan: 2009.

[589] Sənəndəc şəhərinin Azadlıq meydanında Kürdüstan vilayəti əhalisinin toplantısında çıxışdan: 2009.

quruluşu qalıb inkişaf etməsəydi, İslamın zərərinə olardı, deyərdilər ki, İslam quruluşu xalqı tarixdən qabaqkı dövrə aparmışdır; nə elm var, nə inkişaf, nə texnologiya. Lakin İslam inqilabı həm davam etdi, həm kök saldı, həm heyrətamiz elmi inkişafa nail oldu, həm alim və ziyalı gənc nəsil təhvil verdi. Siz eşidirsiniz ki, İranın kök hüceyrələr sahəsində dünyanın səkkizinci ölkəsi olduğunu deyirlər; bu çox böyük sözdür. Bu, bütün inkişaf imkanlarından məhrum edilən iranlıdır.

İslam quruluşu ölkəni təhvil alanda infrastrukturlar əsla belə elmi inkişaflara uyğun deyildi. İslam Respublikasının kosmosa peyk göndərən - bu, İslam Respublikasının rəqiblərinin və düşmənlərinin heyrətinə səbəb oldu – onuncu, yaxud doqquzuncu ölkə olduğunu deyirlərsə, bu çox böyük sözdür. İran? Bunu kim etdi? İslam quruluşu. Kim elmi bu şəkildə inkişaf etdirdi? Ölkədə elm hərəkatını kim yaratdı? İranlının fitri istedadını yeniliyin və yaradıcılığın xidmətində kim işlətdi? İslam quruluşu. Deməli, İslam quruluşu həm davam etdiyini göstərdi, həm də bir xalqı inkişaf etdirmək üçün öz bacarığını.[590]

**İndiki elmi inkişafın şəhidlərin qanı sayəsində baş verməsi**

Elm və texnologiya inkişafı, alim, tələbə və tədqiqatçıların sayının artması - bunların hamısı şəhidlərin qanı sayəsində baş vermişdir.[591]

**Ölkənin ümumi elmi xəritəsini hazırlamaq prosesinin tənqidi**

Dostlardan bir neçəsinin burada dediyi ümumi elmi xəritə haqda neçə ildir söhbət gedir, elm müavinliyində araşdırılıb, Mədəni İnqilab Ali Şurasına gəlib. Düzdür, hələ məsul şəxslərin ixtiyarında qəbul olunmuş bir şey yoxdur, yalnız müzakirə aparılıb, yaxud ümumi mədəni layihə barədə danışılıb. Bunlar deyilmiş və bəhs olunmuş məsələlərdir. Lakin bir müəllimin, alimin, mütəxəssisin bu məsələlərə günün ehtiyacı kimi baxması onu göstərir ki, gördüyümüz iş hələ tətbiq və əməl mərhələsində deyil. Yəni işimiz hələ bitməyib. Məmur dostlar buna diqqət yetirsinlər. Qərar verdik, danışdıq, dedik, lakin lazımi iş görülməmişdir.

---

[590] Kürdüstan vilayətinin şiə və sünni ruhaniləri ilə görüşdə çıxışdan: 2009.

[591] Şəhid ailələri ilə görüşdə çıxışdan: 2009.

Bizim müəllimlərimiz ölkənin ümumi elmi xəritəsinə dair sual verirlərsə, yaxud ümumi bir elmi xəritənin əllərində olmamasını, onun yoxluğunu göstərən bəzi sözlər deyirlərsə, bəllidir ki, indiyədək bu sahədə gördüyümüz bütün işlər yarımçıq olmuşdur. Bir neçə il ötmüşdür - üç ildir bu məsələ irəli sürülüb - eyni zamanda hələ aidiyyətli qurumların əlində bir şey yoxdur, ölkə alimləri ölkənin ümumi elmi xəritəsini bilmirlər. Biz işi sürətləndirməli, intensivləşdirməli və bununla daha ciddi məşğul olmalıyıq.[592]

**Ölkənin ümumi elmi xəritəsinin yoxluğundan irəli gələn zəiflik**

Bu cənablar burada ölkənin ümumi elmi xəritəsinin yoxluğuna işarə vurmasaydılar da, universitetlərdə ümumi elmi proqramlara sadə bir baxış onun olmadığını göstərərdi. Mənim məruzələrdən əldə etdiyimə, mütəxəssis universitet adamlarının və vəzifəli şəxslərin mənə verdikləri xəbərə əsasən, müxtəlif elmi fənlər haqda proqramlarda aparılan bölgü ədalətli, düzgün və ölkənin ehtiyaclarına uyğun deyil. Bizim bəzi yerlərdə gözəçarpan inkişaflarımız var, bəzi yerlərdə isə ümumiyyətlə, hərəkət müşahidə olunmur.

Bu səhvdir və ümumi elmi xəritənin olmamasından irəli gəlir. Düzdür, biz hansı fəndə inkişaf etsək, faydalıdır, tağutların hakimiyyəti dövründəki on illər boyu bəşərin elm karvanından geri qalmış ölkəmiz üçün qənimətdir; bunda şübhə yoxdur. Lakin ölkənin sözün həqiqi mənasında elmi rütbə qazanmasını, elmin ölkədə oturuşmasını istəyiriksə, müxtəlif fənlərin istər təhsilində, istərsə də tədqiqində düzgün və ədalətli balans yaratmalıyıq. Bu, vacib məsələdir.[593]

**Müqəddəs müdafiə elm və texnologiya inkişaflarının rəhni kimi**

Bu gün xalqımız və gənclərimiz öz parlaq istedadları ilə elm və texnologiya sahəsində iştirak edirlərsə, bunun böyük hissəsi müqəddəs müdafiəyə borcludur.[594]

---

592 Universitet müəllimləri ilə görüşdə çıxışdan: 2009.

593 Yenə orada.

594 Mübarək Fitr bayramı namazının xütbələrindən: 2009.

**Ümidverici elmi nümunələr**

Ölkədə ümid səbəbləri çoxdur. Bu gün ölkənin infrastrukturu çox möhkəmdir. Bu illər ərzində mühüm işlər görülmüşdür. Bu gün ölkə irəliyə doğru sürətli bir hərəkətə hazırdır. Bu gün elmi inkişaflar aydın nəzərə çarpır və göz oxşayır. Belə ki, digər ölkələrin alimləri, siyasi qərəzi olmayan şəxslər bunu etiraf edirlər. Bir nümunəsini bu axşam televiziyada gördünüz.

Kök hüceyrələrə aid uğurları görüb etiraf etdilər ki, İranda belə inkişafın olduğuna inanmazdıq. Biri deyir ki, mən ötən il də bu elmi konfransda iştirak etdim, bu il də və bu illə ötən il arasında çox fərq yaranmış, çoxlu inkişaflar baş vermişdir. Bu bir nümunəsidir. Onlarla belə nümunə vardır. Bunlar ümid yaradan elmi inkişaflardır.[595]

**İnqilabın otuzillik möhtəşəm elmi uğurları**

Ölkənin potensialı böyükdür. Mənim əzizlərim! Bu otuz ildə xalq və ölkə bütün sahələrdə inkişaf etmişdir. Təsiri xalqın məişətində görünəcək böyük və köklü bir hərəkət üçün əlverişli şərait vardır. Biz iqtisadi infrastrukturlar sahəsində çox inkişaflara nail olmuşuq, rabitə və kommunikasiya infrastrukturları sahəsində böyük işlər görülmüşdür, elm və texnologiya inkişafında bir müddət öncədən indiyədək sürətli proses başlanmışdır. Görürsünüz ki, elmi işlərdə bizim gənclərimiz, universitet adamlarımız, alimlərimiz, görkəmli şəxsiyyətlərimiz elm, tədqiqat, texnologiya və elmi yaradıcılıq mərhələsindən çox uzaq olan bir ölkə üçün çox möhtəşəm mərhələlərə çatmışlar.

Əziz gənclər! Bu gün sizin ölkənizdə İranı dünyanın birinci on, yaxud səkkiz ölkəsi sırasına çıxaran işlər az deyil. Müxtəlif sahələrdə, bioloji elmlərdə, Nano elmlərində, kosmik elmlərdə əsasən həvəskar və aktiv gənclərdən ibarət alimlər ölkəni dünyanın birinci səkkiz, on

---

[595] Dini Ekspertlər Məclisinin üzvləri ilə görüşdə çıxışdan: 2009.

ölkəsindən etmişlər. Bu, möhtəşəm inkişaf, ölkə üçün mühüm bir mövqedir.[596]

**İnqilabın ali təhsilli nəslinin xüsusiyyəti**

Quruluşun böyük imkanlarından biri ölkəmizdə mövcud olan ali təhsilli, enerjili və aktiv gənc nəsildir. Bunlar təhsil almışlar, dərs oxumuşlar, həvəslidirlər, müxtəlif sahələrdə müxtəlif məsələləri dərk etməyə çalışırlar, özlərinə güvənirlər. Biz bu gün gənclərimizdə keçmişdə mövcud olmayan bir özünəinam duyuruq. Bunu az xalqlarda müşahidə etmək olar. İnsan elmə və ixtisasa ehtiyacı olan müxtəlif iqtisadi, texnoloji, siyasi və ictimai məsələlərin hansı birini gənclərlə və tədqiqatçılarla bir araya qoyursa, onların özlərinə inanaraq "bacararıq" deməsini görür. Onlar aciz və bacarıqsız olduqlarını hiss etmirlər, bacardıqlarını duyurlar.

Bu özünəinam bir xalq üçün çox dəyərlidir. Uzun illər bizə təlqin olunurdu ki, siz bacarmırsınız; bizim xalqımıza deyilirdi ki, sizin bacarığınız yoxdur.

Ölkənin siyasiləri, ölkəmizə hakim olan və əksərən bu xalqın düşmənləri ilə əl-ələ verən zalımlar ölkəmizə, xalqımıza və bizim gənclərimizə çox zaman təlqin edirdilər ki, bacarmırsınız, əbəs yerə zəhmət çəkməyin. Yəni gərək biz oturaq, digərləri tədqiqat aparsınlar, inkişaf etsinlər, biz də gedib onlardan dilənək, alaq, özümüz bir şey yarada bilməyək. Bizim xalqımıza, gənclərimizə və nəslimizə belə təlqin olunurdu və bu, xalqın inamlarından birinə çevrilmişdi.[597]

**Elmi təşkilatlarda özünəinam**

Bizim gənclik dövrümüzdə "iranlı bacarmır" hissi cəmiyyətdə aydın görünürdü. Yəni avropalı və amerikalılar irəliyə doğru getməli, biz onların ardınca hərəkət etməli və onlardan öyrənməli idik. Bizim də bir yol açmağımız, bir hərəkət başlamağımız, həyatın mühüm sahələrindən birini fəth etməyimiz xalqımız üçün inanılmaz bir iş idi.

---

[596] İmam Rzanın (ə) müqəddəs məqbərəsinin ziyarətçilərinin toplantısında çıxışdan: 2010.

[597] Yenə orada.

Bu gün isə tam əksi baş vermişdir. İranlı gənc üçün elə bir mühüm sahə yoxdur ki, təklif olunsun və o bacarmadığını hiss etsin. Qeyd etdiyim kimi, elmi, texnoloji və siyasi məsələlərdə əsasən ölkəmizin gənclərindən ibarət olan tədqiqat və araşdırma mərkəzlərinə müxtəlif iş və inkişaflardan danışdıqda iranlı gənc bacardığını hiss edir.

Bu özünəinam çox mühüm amildir. Elmi təşkilatlarda bu özünəinamın dayağı milli özünəinamdır. Mən bir neçə il bundan qabaq dedim ki, xalq milli özünəinam mərhələsinə çatmalı, yəni bütün böyük işləri iradə, istək və hərəkətlə görməyin mümkünlüyünü hiss etməlidir. Biz heç bir işə aciz deyilik. Bunlar inkişafın şərtləridir.[598]

**Ölkənin heyrətamiz elmi inkişaf potensialı**

Ölkənin elmi inkişaf potensialı həqiqətən heyrətamizdir. İnsan hərəkəti bir qədər sürətləndirdikdə, ciddiləşdirdikdə, israr etdikdə birdən bu bağda çiçək açan gülləri, boy atan yeni ağacları görür. İnsan bunu təsəvvür və güman etmirdi, lakin görürük ki, oldu və olur.[599]

**Tağut dövründən öndə, ideal vəziyyətdən isə geridə**

Əzizlər! Biz geridəyik. Sözsüz ki, tağut dövrü ilə müqayisə etsək, çox öndəyik. Tağut dövründə biz istehsal, maşın, zavod və sənaye sektorlarında ən kiçik iş üçün də əcnəbiyə möhtac idik. İstehsalatla məşğul olan zavodlar da montaj zavodlar və əcnəbilərdən yüz faiz asılı halda idi. Nə layihə bilirdik, nə istehsal bilirdik, nə lazımi amilləri tanıyırdıq; hər şeyi digərlərindən götürməli, istəməli, yalvarmalı, neft, pul, abır-həya və siyasi dəstək verməli, onların istismarı altına girib nəsə əldə etməli idik.

Bu gün İran xalqı texniki cihazlar ixrac edir. Bu gün sizin ölkəniz bütün dünyada bənd və stansiya tikmək üzrə ən qabaqcıl və yüksək səviyyəli ölkələrdən biridir. Bu hara, o hara?! Bu gün sizin gördüyünüz sənaye işlərinə, sənaye və texniki xidmətlərə bir çox ölkələrdə müştəri var. Siz dünyanın çoxlu ölkələrində istehsalat mərkəzləri təsis edirsiniz. Tağut dövründə bu sözlər ümumiyyətlə, mənasız idi. Biz çoxlu əhalisi, bəlkə də

---

[598] Yenə orada.

[599] İslam Respublikası quruluşunun məsul şəxsləri ilə görüşdə çıxışdan: 2010.

nefti və sərvəti olan bir ölkəyə gedib sənaye mərkəzi aça bilərdik? Bu sözlər ümumiyyətlə, mənasız bir şey idi, bu gün isə həyata keçmişdir.

Buna əsasən, biz keçmişə nisbətən çox öndəyik, lakin İran xalqının layiqli yerinə, tarixi irsimizə uyğun olana və İranın dünya ölkələri arasında tutmalı yerinə nisbətən geridəyik. Biz inkişaf etməli və çoxlu işlər görməliyik.[600]

---

[600] Beynəlxalq Əmək Günü ərəfəsində ölkənin nümunə fəhlələri ilə görüşdə çıxışdan: 2010.

## Altıncı fəsil: Elm – ölkənin qüdrət amili

### Digərləri ilə əlaqə qurarkən birinci mübadilə

Cəmiyyət məlumatlı olsa, düşmən qarşısında müqaviməti çox olar. Cəmiyyətin elmə qarşı həssaslığı olsa, digər ölkə və xalqlarla əlaqə qurduqda əvvəlcə onların elmini öyrənməyə çalışar.[601]

### İslamın bəşərin ehtiyacı olan bütün elmlərə diqqəti

İslam "bütün insanlar üçündür"; yəni bəşəriyyəti və bəşərin ümumi həyatını əhatə edir. İslamın bu xüsusiyyəti erkən İslam çağından sonra kağız üzərindən başqa heç bir yerdə görünmürdü. Bəzən kağız üzərində də onu inkar edir və deyirdilər ki, İslam ümumiyyətlə, bunun üçün deyil. Lakin İslam Respublikası bütün insanlar üçündür və həqiqi İslamı tərənnüm edir. Deməli, hər bir cəhətdən, o cümlədən bəşərin ehtiyacı olan elm baxımından təməlləri polad kimi möhkəm və güclü olmalıdır.[602]

### Elmi mübarizə və mütəfəkkir qərar

Sizin vəzifəniz bu ön xətdə öz düşməninizə zərbə vurmaqdır. Sözsüz ki, bunun üçün düşüncə və elm lazımdır. Səhv sözləri çox olan qədim marksistlərin düz sözlərindən biri bu idi: "Mübarizə bir elmdir". Maonun, Leninin, yaxud başqa birisinin sözü olduğunu bilmirəm, amma düz sözdür. Mübarizə bir elmdir və bütün sahələrində elmə malik olmaq lazımdır. Siz bu elmi öyrənməlisiniz. Bu elmi öyrənmədən mübarizə aparmaq olmaz. Elmi öyrəndikdən sonra başqa bir işiniz də var. O da oturmaq, düşünmək və dəqiq qərar çıxarmaqdır.[603]

### Hərbi Hava Qüvvələrinin elmi inkişaflara və fəal təhsil qurumuna ehtiyacı

Bu qüvvələrdə hərbçilikdən əlavə bilik, elm, tədqiqat və sənaye inkişafları da ideal həddə olmalıdır. Bundan əlavə, müxtəlif amillər tələb

---

[601] Müəllim və fəhlələrlə görüşdə çıxışdan: 1992.

[602] Ölkə hakimlərinin İslam birliyi və İslam cəmiyyəti ilə görüşdə çıxışdan: 1994.

[603] İslam Respublikası Xəbər Agentliyinin direktoru, məsul şəxsləri, baş redaktorları və xaricdəki nümayəndəliklərinin rəhbərləri ilə görüşdə çıxışdan: 1994.

edən bir qurum olduğundan onda lazımi nizam-intizamın bərqərar olunmasına ehtiyac var. Buna əsasən, hərbi, elmi və nizam-intizam sarıdan inkişaf olmalıdır ki, bütün bunların perspektivi olsun, heç bir yerə birləşməyən, suyu buxarlandıqda, yaxud başqa bir hadisə baş verdikdə yox olan böyük bir göl kimi olmasın. Yəni çağlar bir bulaq kimi olması üçün fəal, qurucu, canlı və özünə güvənən təhsil qurumu olmalıdır.

Əlbəttə, bütün bunların ruhu bəndəlik, dindarlıq, dinin əlamətlərinə və zahiri işlərinə boyun əymək, dini inanc və əməldir.[604]

**Ölkənin inkişafı üçün universitetin əhəmiyyəti**

Universitet ölkənin gələcəyi qədər əhəmiyyətlidir. Biz gələcəkdə böyük, abad, inkişaf etmiş, mütərəqqi, sivil, həm maddi və həm mənəvi yönümlü bir ölkə istəyiriksə, universitetlə məşğul olmalıyıq; başqa çarə yoxdur. Bizim hər bir şeyimiz elmə əsaslanmalıdır. Bu gün elm və elmi baxış olmadan dünyada bir addım atmaq və uğur qazanmaq olmaz. Düzdür, insan ziyanın qarşısını almaq istəməsə, gözübağlı da yola düşmək olar. Lakin ölkənin bütün işlərində, ümumi idarəçilikdə, xüsusən də xalqa sıx bağlı olan bir ölkənin böyük və ümumi məsələlərinin koordinasiyasında, ölkə quruculuğunda, hətta ölkənin əxlaq və mənəviyyatının inkişafında da elm açıq göz sayılır.[605]

**Ölkənin qüdrət və rifahında elmi fəaliyyətin əhəmiyyəti**

Əziz gənclər! Görün elmi iş nə qədər əhəmiyyətlidir! Əhəmiyyəti birinci dərəcəlidir. Əgər biz bir ölkə üçün ucalıq, hörmət, rifah, beynəlxalq iqtidar və elmi inkişaf istəyiriksə, elm yolu ilə getməliyik. Mən demirəm ki, bir cəmiyyətin səadəti üçün elm kifayətdir. Görürük ki, dünyada elmi olan, lakin həqiqətən xoşbəxt olmayan və çoxlu problemlər içində çabalayan ölkələr var. Şübhəsiz, elm nəinki vacib, hətta olduqca vacib bir şərtdir və ölkədə inkişaf etməlidir. Bu gün bir ölkə elmi baxımdan inkişaf etməsə, nə iqtisadiyyatı inkişaf edər, nə beynəlxalq iqtidarı, nə xalqın məişət

---

[604] Hərbi Hava Qüvvələrinin komandirlərinin toplantısında çıxışdan: 1995.
[605] Ölkənin universitet rektorları ilə görüşdə çıxışdan: 1998.

səviyyəsi. Hər halda, ölkədə elm inkişaf etməlidir; xüsusən də biz geridə qalmışıq və daha çox çalışmalıyıq.[606]

**Düşmənlərin yalnız iqtidar, başucalığı, elm və sənayenin inkişafı ilə dəf edilməsinin mümkünlüyü**

Düşmənlər yalnız İranın iqtidarı, başucalığı və müstəqilliyi ilə dəf edilə bilər, xarlıqla və ehtiyacla yox. Əgər müsəlman İran siz gənclərin və inkişafda olan bugünkü nəslin səyi ilə elmi dərəcələrə nail olsa, sənaye, üstün sənaye, texnologiya, üstün texnologiya və bu gün ehtiyac duyulan elm baxımından hegemonluq edə bilməyəcəkləri qədər yüksələ bilsə, o zaman onların düşmənliyinin azalması mümkündür. Odur ki, mümkün olsa, o zaman mümkün olacaq.[607]

**Elmi inkişaf - istismarçı quruluşla mübarizənin şərti**

Mənim əzizlərim! Bu gün ölkəmizdə elmi inkişafa ehtiyac var. Bu gün elm üçün sərmayə qoymasaq, çalışmasaq, sabahımız qaranlıq olar. Bəziləri elmi inkişaf prosesini zəiflətmək, dayandırmaq və ya diqqətdən kənarlaşdırmağa çalışırlar. Amma xeyr, bu gün ölkədə bu nəslin vacib işlərindən biri - bu vacib əməl birinci dərəcədə sizin kimi universitet mənsublarının üzərinə düşür - ölkənin elmi təməllərini möhkəmlətməkdən ibarətdir. Elmimiz olmasa, iqtisadiyyatımız, sənayemiz, hətta idarəçiliymiz və ictimai məsələlərimiz də geri qalacaq. Bu gün dünyada tanrılıq edən şəxslər, dünyanın böyük insani və maddi resurslarını mənimsəyən sirli əllər, bütün okeanları və həssas boğazları nəzarətdə saxlayan, istədikləri yerə müdaxilə edən supergüclər elm vasitəsi ilə bəşəriyyəti belə bədbəxtliyə sürükləməyi bacardılar. Onlara qarşı mübarizə aparmaq üçün də məhz elm lazımdır.[608]

**Bütün inkişafların əsası**

---

[606] Ölkənin elmi elitasının nümayəndələri ilə görüşdə çıxışdan: 1999.

[607] Ərdəbil vilayətinin gəncləri ilə görüşdə çıxışdan: 2000.

[608] Əmir Kəbir adına Sənaye Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışdan: 2001.

Ölkədə elm və tədqiqat məsələsi ciddi məsələdir. İşarə vurduğunuz kimi, maddi və sənaye inkişafı və onun ardınca maliyyə, siyasət və beynəlxalq inkişaf ölkənin bütün inkişaflarının əsasıdır.[609]

**Ölkə üçün üç önəmli iş**

Təbii ki, məmləkəti gücləndirmək lazımdır. Əməli güc və qüdrət olmadan işlər çox çətin olar. Bu güc nədədir? Bunun bir hissəsi sizin əlinizdə olan siyasi gücdür; diplomatik fəaliyyət siyasi güc yaradır. Bir hissəsi iqtisadi gücdür. İqtisadi güc həm düzgün iqtisadi fəaliyyətə və düzgün iqtisadi üslubların seçilməsinə, həm də elmin inkişafına ehtiyaclıdır. Mən 3, 4, yaxud 5 il üçün bu ölkəyə üç əsaslı iş təklif və ya təyin etmək istəsəm, biri güclü elm və tədqiqat olar; yəni müxtəlif sahələrdə elm və tədqiqatla məşğul olmaq. İşlərimizin əsas dayağı budur. Biz elm və tədqiqat sahəsində çalışmalıyıq. Biri milli birlik, biri də dini imanın gücləndirilməsi olar. Bunlar bizim işlərimizin əsas amilləridir.[610]

**Çoxlu təcrübələrlə müqayisədə elmin rolu**

Elm göz kimidir; insan onu açdıqda haraya getdiyini bilir. Elmsiz insan yalnız çoxlu təcrübələrə güvənib işləməyə çalışsa, gözlərini bağlayıb cihazı təmir edən bir şəxs kimi olar. Elmi olduqda isə simlərə və onların birləşməsinə baxır, əlaqələri görür və işləyir.[611]

**Həqiqi iqtidara doğru**

Biz müqavimət, yaxşı ruhiyyə, dərin, möhkəm və ayıq imanla çox yüksək elm mərhələlərini keçə bilərik. Bir ölkə üçün həqiqi iqtidar budur. Biz bunu istəyirik. Deyilir ki, bu gün elm və texnologiyaya malik olanlar

---

[609] İslam Şurası Məclisinin Təhsil, tədqiqat və texnologiya komissiyasının üzvləri ilə görüşdə çıxışdan: 2001.

[610] İran İslam Respublikasının Xarici İşlər Nazirliyinin əməkdaşları və xarici ölkələrdəki səfirlərlə görüşdə çxışdan: 2002.

[611] Təlim və Tərbiyə Nazirliyinin Tədqiqat müavinliyinin əməkdaşları ilə görüşdə çxışdan: 2003.

onun başqa ölkələrin ixtiyarına keçməsini sevmirlər. Bu bir həqiqətdir. Onlar mane olmağa çalışırlar.[612]

### İman və elm istehsalı - müsəlman İranın iqtidar sirri

Müsəlman İranın daxildə unikal zavoduna malik olduğu amil imandır. Bizim düşmənlərimiz də bundan qorxur və bu istehsalatdan vahiməyə düşürlər. Digər sözlər yalan, bəhanə və hiylədir. Siz mömin gənclər elmi, imanı, şücaəti, yaradıcılığı, yeniliyi və fürsətdən istifadəni birləşdirib elm və əməl sahəsində işlədəcəyiniz gün bu zavodun ən gözəl məhsulları olacaqsınız. Görürsünüz ki, İslam Respublikası bütün dairələrdə istismarçı düzənin hərəkətini problemlə üz-üzə qoymuş, beynəlxalq istismarçı quruluşa əngəl törətmiş, bütün düşmənliklərə və problemlərə rəğmən, 25 ildir əvvəlkindən daha canlı, daha qıvraq, daha köklü və qüdrətlidir. Bunun sirri həmin elm və iman istehsalındadır. Özünüzdə elmi və imanı gücləndirin. Siz bu ölkənin tarixinin həssas dönəmində yaşayan nümunəvi gənclərsiniz. Bu da sizin bəxtinizdir.[613]

### Universiteti uca tutmağın zəruriliyi

Bu məclisin birinci məqsədi universiteti uca tutmaqdır. İstədik ki, bütün ölkədə unversitetə və tələbəyə hörmət göstərilsin. Tələbə və universitetə hörmət elmə hörmət deməkdir. Belə deyil ki, biz hansısa tələbə üçün lovğalığı və qüruru icazəli bilək. Xeyr! Əsla belə deyil. Tələbə və universitetə hörmət elmə hörmətdir. Əgər ölkəmiz elm üçün sərmayə qoyib çalışmasa, şübhəsiz ki, hərtərəfli inkişaf və tərəqqi üçün uzun illər gecikəcəyik. Necə ki, ölkəmizin tağut dövründə - istər Pəhləvilər, istər Qacarlar dövründə geri qalmasının səbəbi burada elmə əhəmiyyət verilməməsi, elmin uca tutulmaması idi.[614]

### Milli özünəinamın milli zəfərlərdən irəli gəlməsi

---

[612] Elmi nümunə tələbələrlə görüşdə çıxışdan: 2003.

[613] İran İslam Respublikası ordusunun nəzdindəki universitetlərin tələbələrinin müştərək məzuniyyət mərasimində çıxışdan: 2004.

[614] Mübarək ramazan ayında tələbələrlə görüşdə çıxışdan: 2004.

Bilməliyik ki, elm bir fərddə başucalığı və özünəinam yaratdığı kimi, bir xalqda da eyni işi görür. Siz baxın, özü üçün hər hansı bir elmi məqam tanıyan alim insan pul və siyasi güc qarşısında qalarkən, bəzi ehtiyaclar üzündən zahirən kiçilsə və güzəştlərə getsə də, ürəyində özünə ucalıq və hörmət tanıyır, özündə olanı tərəf-müqabilinin uyğun yoxsulluğu ilə müqayisə edib başucalığı, özünəinam və qürur hissi keçirir.

Bir xalq da belədir. Elmdən bəhrələnən, elmi tərəqqisi olan və elmdə yenilik göstərə bilən xalq, təbii olaraq özünə inanar və qürur duyar. Hər hansı bir millətdə inam və başucalığı olsa, onun çoxlu problemləri həll olunar, böyük işlər görər, risklərdən qorxmaz, çətin işlərə girişər, dağları yerindən qoparar. Bütün bunların açarı elmdir. Biz ölkəmizdə elmi dirçəltməliyik. Əsas məsələ budur.[615]

**Elm və texnologiyada irəliləyişin milli iqtidar amillərindən olması**

Bizim daxildə yarada biləcəyimiz iqtidar atom bombası, nüvə silahı və hərbi qüvvənin gücləndirilməsi ilə deyil. Sözsüz ki, hərbi potensialı normal həddə gücləndirmək lazımdır, lakin bizi müxtəlif səviyyələrdə düşmənlərin hərtərəfli hücumlarından qoruyacaq amil qeyd etdiklərimdir: imanı, elmi, texnologiyanı gücləndirmək, günün texnikalarına yiyələnmək, elm istehsalında qabaqcıl olmaq, xalqın və gənclərin müxtəlif sahələrdə - humanitar, təbii və müxtəlif təcrübi elmlərdə istedadlarının çiçəklənməsi, milli birliyin və xalq arasında həmrəyliyin gücləndirilməsi. Bir xalqı gücləndirən bunlardır. Xalq bunlarla həm öz dünyasını abadlaşdıra bilər, həm onları düşmənlərin təhlükəsindən qoruyar. Bunlar təhlükəsizlik vasitələridir. Biz bunlarla məşğul olmalı və bunları həyata keçirməyi özümüzə borc bilməliyik.[616]

**Quruluşun elmi inkişafının hegemonizmə böyük təhlükəsi**

Bu gün İslam Respublikası quruluşu iş başındadır, ədalət, zülmlə mübarizə və insani dəyərləri müdafiə iddiası edir. Belə bir quruluş öz

---

[615] Təhsil Naziri və universitet rektorları ilə görüşdə çıxışdan: 2005.
[616] Kermanın alim və ruhaniləri ilə görüşdə çıxışdan: 2005.

xalqını elmin zirvəsinə çatdıra bilsə, şübhəsiz, dünya hegemonlarına böyük təhlükə yaradacaq. Bu, reallıqdır.[617]

**Elmi inkişaf - ölkənin gələcək qüdrətinin dayağı**

Bu problem qarşısında necə uğur qazana bilərik? Bu siz gənclərlə çox əlaqədar bir məsələdir. Müxtəlif inkişaflar arasında birinci yerdə elm durur. Universitetlər bunun üçün məsuliyyət daşıyır. Əgər İslam İranı elmdə öz sözünü dünyanın birinci sözləri səviyyəsinə qaldıra bilsə, hər şey düzələr. Çünki elm sərvət də yaradır, hərbi qüvvə də, özünəinam da. Mən dəfələrlə demişəm, yenə də təkidlə deyirəm ki, siz əziz xalqın gələcək qüdrətinin dayağı və bazisi elmi inkişafdır.[618]

**Elmi güc - ölkənin beynəlxalq iqtidarının mənşəyi**

Mənim sizə sözüm bütün tələbələrə dediyimdir. Baxın, mənim əzizlərim! Bu gün dünyada bəzi qüvvələr zülm edir, beynəlxalq qanunları pozur, insanların, xalqların, dövlətlərin beynəlxalq münasibətlərində ən həyasız mövqeyi seçir, eyni zamanda xəcalət də çəkmir və başlarını dik tuturlar. Nə üçün? Çüki gücləri var; iqtisadi, iqtisadiyyatdan qaynaqlanan siyasi, bunların hamısından üstün və hamısının mənşəyi olan elmi qüvvələri var. İqtisadi və siyasi qüvvənin də qaynağı elmdir. Dünyanın bu tərəfində bizim haqq sözümüz çoxdur. Sözümüzü cəsarətlə deyir, məntiqli dialoq zamanı isbat da edirik. Allahın yardımı bu xalqa şamil olduğundan və həmçinin imanı sayəsində əməldə də imanı qədərincə inkişaf edir; yəni onlar bu xalqla bağlı arzularına çata bilməyiblər. Lakin bizim başqa bir şeyə də ehtiyacımız var. O da beynəlxalq iqtidardan ibarətdir. O zaman biz bu yolu narahatlıq olmadan, düzgün, kamil, hərtərəfli və əyər-əskiksiz davam etdirib məqsəd və amallarımıza çata bilərik.

Bu iqtidarı - iqtisadi, siyasi və mədəni gücü necə əldə etməliyik? Bunların hamısının təməli elmdir. Bir xalq elmin gücü ilə öz sözünü dünyanın bütün insanlarına çatdıra bilər; elmin gücü ilə siyasət dünyasında üstün mövqeyə malik olar. İqtisadiyyat da bunların ardınca

---

[617] Universitet müəllimləri ilə görüşdə çıxışdan: 2005.
[618] Nümunəvi tələbələr və tələbə birliklərinin nümayəndələri ilə görüşdə çıxışdan: 2005.

əldə olunur. Pul bacarığa bağlıdır. Bu gün belədir; elmi pula çevirmək və iqtisadi baxımdan güclənmək olar. Elmin mövqeyi belədir.[619]

**Əmirəlmömininin (ə) sözündə elmin iqtidar amili olması**

Əmirəlmöminindən (ə) nəql olunan bir hədisdə buyurulur: "Elm şahlıqdır; ona malik olan hökm verər, malik olmayana isə başqaları hökm verərlər".[620] Elmə yiyələnən adam hökmranlıq edə bilər. Elmli xalq hökmranlıq edə bilər. Elm sarıdan əliboş xalq isə özünü digərlərinin hökmranlığına hazır etməlidir.[621]

**Ölkədə elmin çiçəklənməsi üçün istedadların işlədilməsi**

Milli iqtidar amili olan elmi hamı ciddi saymalı və onunla məşğul olmalıdır. Xalqı elmsiz olan bir ölkə heç zaman öz hüququnu əldə edə bilməz. Elmi digərlərindən dilənmək olmaz. Elm daxildən törəməlidir. Bir xalqın istedadları işləməlidir ki, sözün həqiqi mənasında alim olsun.[622]

**Sivilizasiyanın açarı: elm və texnologiya**

Bir ölkə üçün əvvəla özünün həqiqi və əsaslı ehtiyaclarını düzgün tanıması və onları aradan qaldırmağa qərar verməsi, ikincisi isə bu ehtiyacları aradan qaldırmaq üçün birinci növbədə insani düşüncə və istedad amillərinə malik olması çox əhəmiyyətli və tarixi məsələdir. Bu, sivilizasiya yarada bilər. Öz taleyinə və hətta dünyanın bir hissəsinə sahib olan ölkələrlə qlobal siyasətdə saman çöpü kimi o tərəf-bu tərəfə düşən ölkələr arasındakı fərq bundadır. Əsas açar da elm və elmlə yaranan texnologiyadır. Öz taleyini yazmağa, özünü xoşbəxt etməyə qərar verən ölkə və xalq bu açarı tapmalıdır.[623]

---

[619] İmam Sadiq (ə) Universitetinin məsul şəxsləri, müəllim və tələbələri ilə görüşdə çıxışdan: 2006.

[620] "Şərh Nəhcül-bəlağə", c. 20, səh: 319.

[621] İmam Rzanın (ə) məqbərəsində çıxışdan: 2006.

[622] Həzrət İmam Xomeyninin vəfatının 17-ci ildönümü mərasimində çıxışdan: 2006.

[623] Atom Enerjisi Təşkilatının məsul şəxsləri və nüvə ekspertləri ilə görüşdə çıxışdan: 2006.

**Üstün elm kəşfinin neft kəşfindən daha əhəmiyyətli olması**

Sizin işiniz insan beynində yatmış fövqəltəbii qüvvəni çıxarmaqdır. Siz bu qüvvəni kəşf edirsiniz; dünyanın bütün üstün elmləri kimi. Biz varlıq aləminin çoxlu həqiqətlərini görmürük, lakin insanların beyni onları kəşf edir, işlədir və həyatın yaxşılaşması üçün onlardan istifadə edir. Siz bu işi görürsünüz. Bunun dəyəri nefti kəşf edib çıxarmaqdan və neft sənayesini işlətməkdən olduqca böyükdür. Sizin işiniz yeni bir tarix yazır.[624]

**Ölkənin bütün fəaliyyətlərinin elm və tədqiqata əsaslanmasının zəruriliyi**

Adətən belə bir məclisdə bizim sözümüz elmin əhəmiyyəti barədə olur. Biz təkrarı vacib olan bu sözü o qədər deməliyik ki, sözün həqiqi mənasında və ürəkdən bu zərurətə inanaq, ölkəni uzun illər düçar olduğu xroniki xəstəlikdən xilas edək və bütün fəaliyyətlər elm və tədqiqata əsaslansın. Dəfələrlə demişik və yüz dəfə də deyəcəyik: tələbə, müəllim, rektor, məmur və nazir bizdən tövsiyə istəsə, bizim tövsiyəmiz bu olacaq ki, elm, tədqiqat və araşdırma ilə Allah-Taalanın insanın qarşısında qoyduğu, həmçinin dərinliyinə getmək gücünü verdiyi bu böyük okeanda bacardığınız qədər gəzin və dərinlikləri kəşf edin. Elm bizim bu günümüz və sabahımız üçün həyati əhəmiyyətə malikdir. Biz başqa nə iş görsək də, elm sarıdan yoxsul olsaq, digər işlər də nəticəsiz olacaq.[625]

**Elmi inkişafa diqqət - mühafizəkarlığın mühüm göstəricisi**

Mühafizəkarlığın mühüm göstəricilərindən biri elmə və elm inkişafına diqqətdir. Görün nə zaman deyildi ki, elm öyrənmək müsəlman, yaxud mömin kişi və qadınlara vacibdir?[626] İslamın yarandığı dövrdə; yəni namaz, zəkat və digər bu kimi məsələlər gələndə elm öyrənmək də gəldi, "Elm Çində olsa belə, gedib öyrənin"[627] əmri də verildi. Mən dəfələrlə

---

[624] Yenə orada.

[625] Universitet rektorları, ali təhsil müəssisələrinin və tədqiqat mərkəzlərinin başçıları ilə görüşdə çıxışdan: 2006.

[626] "Əl-Kafi", c. 1, səh: 30.

[627] "Vəsail əş-şiə" c. 27, səh: 27.

təkrar etmişəm: bu ona görədir ki, cəmiyyət elm olmadan öz amallarına çata bilməz. Bu ona bənzəyir ki, insanın haqq sözü var, lakin deməyə dili yoxdur. Elmsizlik belə bir şeydir. Elm sizin ixtiyarınızda olan amalları, məqsədləri, aydın xətti, düzgün və işıqlı yolu ortaya qoyub bəşəriyyətin çoxunu ona yönəltmənizə bais olur. Elminiz olmasa, bu mümkün olmayacaq. Buna əsasən, milli, bəşəri və insani inkişafın, yüksəlişin amili olan elm vacib məsələdir və ona diqqət yetirməlisiniz.[628]

**Elmi nümunələrlə toplantıların məqsədi**

Bu əsasən simvolik bir məclisdir. Əvvəla İslam Respublikası quruluşunun elmə, ikincisi elm öyrənənə hörmətini, üçüncüsü isə ölkənin inkişafında elmin əhəmiyyətini göstərir. Simvol bunlardır. Simvolik işlərdə məqsəd də ola bilər, lakin ən çox simvolik hərəkət üzərində dayanılır. İslam əlamətləri də belədir. Biz istəyirik ölkədə elm və təhsilin İslam Respublikası quruluşu üçün dəyər və əhəmiyyəti bəlli olsun. Bu əslində İran xalqının beynində əsaslı və qabarıq bir nöqtədir. Biz elmdə gerilik səbəbindən çox ziyan görmüşük.[629]

**Geriliklərin elm silahı ilə düzəldilməsi**

Biz bu tarixi geriliyi düzəltməliyik. Biz elmsizlikdən zərər çəkmişik. Bu gün İslam dünyası iqtisadi, mədəni, yaxud siyasi cəhətdən geridədirsə, bu ona görədir ki, rəqib, yəni Qərb dünyası elmlə silahlanmışdır; siyasətdə, iqtisadiyyatda və mədəniyyətdə qələbə çalmaq üçün elm silahından istifadə edir.

Biz bu silahı əldə etməliyik. Biz elmlə silahlanmalıyıq ki, rəqib və düşmənlərin - onların hamısı eyni deyil - təhdidi indiyədək olduğu kimi keçərli ola bilməsin. Biz buna malik olmalıyıq. Bu, çox dəyərli strateji məqsəd, çox mühüm və həyati məsələdir.[630]

**İdeal nöqtəyə çatmağın açarı**

---

[628] Prezident və Dövlət Şurasının üzvləri ilə görüşdə çıxışdan: 2006.
[629] Gənc alimlərlə görüşdə çıxışdan: 2006.
[630] Yenə orada.

Geniş elm və tədqiqat yolunda hərəkət etmədən ölkəmizin ideal mövqeyə nail olması mümkün deyil. Bu təkcə ölkəmizə məxsus deyil. Açar - elm və tədqiqatdır. Digərlərinin biliklərini öyrənmək də alim olmaq demək deyil. Bu, yalnız müqəddimədir.[631]

**Ayrıseçkiliyi aradan qaldırmaqda istedadlı ölkələrin rolu**

Əgər bir ölkənin keçmişi, tarixi və təcrübəsi onun istedad səviyyəsinin yüksək və orta səviyyədən yuxarı olduğunu göstərsə - bizim ölkəmiz şübhəsiz, belədir - o ölkə elmi inkişaf etdirməkdə rol oynamalıdır. Əgər bu rolu ifa etməyi bacarsa, o zaman bütün siyasi, ictimai və iqtisadi sahələrdə olan bu gerilik, ayrıseçkilik və ədalətsizlik ortadan götürüləcək, digər ölkə və supergüclər qarşısında bərabər payı olacaq. O zaman özünü idarə edə, öz ayağı üstə dayana, bir şey verib, bir şey ala biləcək. Bu gün isə belə deyil.[632]

**Böyük və milli arzulara çatmağın yeganə yolu**

Ölkədə elm hərəkatı məsələsinə çox əhəmiyyətli yanaşmaq və onu ciddi saymaq lazımdır. Hər hansı ölkə, o cümlədən bizim ölkəmiz özünün böyük və milli arzularına yalnız o zaman çatar ki, elmi yarışmada yer və mövqe tuta bilsin. Elmi geriliyin ardınca mütləq siyasi, iqtisadi və mədəni gerilik də gəlir.[633]

**Elmin müstəqillik və başucalığı ilə əlaqəsi**

Elmə ehtiyacdan xəbərdarsınız. Ancaq yenə də bunu deməyim yaxşıdır ki, əli elm sarıdan boş olan bir ölkə ucalıq, istiqlaliyyət, kimlik, şəxsiyyət, təhlükəsizlik və rifah gözləyə bilməz. Bəşər həyatının xisləti və həyatın qanunu belədir. Elm ucalıq bəxş edir.

Nəhcül-bəlağədə çox dərin məzmunlu bir cümlə var. Buyurur ki, elm iqtidardır, şahlıqdır; kim onu əldə etsə, hökm edə, qələbə çala bilər; kim əldə etməsə, digərləri ona qalib olar və hökm edərlər.

---

[631] "Royan" Tədqiqat Mərkəzində keçirilən görüşdə çıxışdan: 2007.

[632] Yenə orada.

[633] Hökumət həftəsi münasibəti ilə prezident və Dövlət Şurasının üzvləri ilə görüşdə çıxışdan: 2007.

Bu məsələni İran xalqı uzun bir dövrdə öz əti və qanı ilə hiss etdi. Bizə hökmranlıq və hegemonluq etdilər, sərvətlərimizi ələ keçirdilər, xalqımızı məhrum etdilər. Bizim ölkəmizin yüz il davam edən belə acı və kədərli tarixi var. Biz onun nəticələrini indi dadırıq. Biz hərəkətə başladıq, inqilab vəziyyəti dəyişdirdi, vərəqi çevirdi.

Bu gün ölkəmiz dünyada siyasi və beynəlxalq iqtidar baxımından bənzəri az olan bir ölkədir. Bunu bizim düşmənlərimiz də qəbul edirlər. Xalq oyanmışdır, qorxmazdır, ölkə heysiyyətli və şəxsiyyətlidir, amma eyni zamanda nəticələrini görməkdəyik. Yəni elmi bizdən yüz il, iki yüz il qabaq əldə edib irəlidə hərəkət edənlər, inkişaf edənlər, elmin faydalarına qovuşanlar hegemonluq etməkdədirlər. Bu nüvə enerjisi, nüvə elmi və texnologiyası bir nümunədir: "Bu sizdə olmasın, biz sizə inanmırıq!" Hegemon söz! Bunu kimlər deyirlər? İyirmi il ərzində iki dünya müharibəsi edən və bütün dünyanı müharibə alovunda yandıran avropalılar.

Bu hegemonluqlar nədəndir? Bunlar elm silahına görədir. Baxın, bu siz gənclər üçün çox ibrətamizdir.

ABŞ kimi əxlaqdan, mənəviyyatdan uzaq və beynəlxalq hüquqa etinasız bir dövlət elmə malik olduğundan, elmi texnologiyaya çevirib həyatda işlətməyi bacardığından özünü beynəlxalq miqyasda belə hegemonluğa haqlı bilir. Kimin elmi olsa, digərlərinə hökm edər, elminiz olmasa, sizə hökm edərlər. Baxın, zərurət buradadır.

Özünü, öz kimliyini, ailəsini, övladlarını, gələcəyini, nəslini, millətini, ölkəsini, milli və dini kimliyini sevən heç bir insan bu məsələyə etinasız yanaşa bilməz. Məhz buna görə mən illərdir elm hərəkatı üzərində təkid göstərir, israr edirəm.

Elm və təhsilin inkişafı ölkəmizin birinci ehtiyacıdır. İndi deyəcəyəm ki, təkcə təcrübi elmlər yox, bütün elmlər. Bütün elmlərlə məşğul olmaq lazımdır və bizim ölkəmiz bunu bacarar. Buna əsasən, birinci məqamın nəticəsi budur ki, ölkənin elmi nümunələrdən ibarət böyük gülüstanının bir dəstəsi olan sizlər milli iqtidarın yaradılmasında, ölkənin quruculuğunda və gələcəyində təsirli ola bilərsiniz.[634]

---

[634] Gənc alimlərlə görüşdə çıxışdan: 2007.

### Hegemonizmin nüvə enerjisinin hər iki növünə dair yanaşması

Nüvə enerjisi və digər oxşar məsələlərdə hegemonizmin və beynəlxalq təxribatçıların İran xalqı ilə düşmənliyinin səbəblərindən biri budur. Siz görürsünüz ki, amerikalılar və onların bəzi avropalı davamçıları İran xalqının nüvə enerjisi əldə etməsinə qarşı çıxır, çalışır, təhdid edir və kobud sözlər deyirlər, lakin elm və sənaye baxımından qat-qat geridə və İran xalqından zəif olan digər ölkələrə gedib nüvə enerjisinə dair müqavilə bağlayırlar. Bunun mənası nədir? Mənası budur ki, nüvə enerjisi bir xalqın özünə daha çox güvənməsinə səbəb olsa, ona imkan vermək olmaz. Onlar bir xalqın öz yaradıcılığı, öz əli ilə və onlara ehtiyac duymadan tam müstəqil şəkildə əldə etdiyi nüvə enerjisinə qarşıdırlar.

Bizim əziz gənclərimiz və böyük xalqımız özlərinə arxalanıb bu mütərəqqi elm və sənayeyə nail olmuş, ölkəni asılılıqdan qurtarmışlar. Hansısa hegemon dövlətin digər xalqlara verdiyi nüvə enerjisi asılılıq amilidir. Lakin özü əldə edən, yaradan, yaradıcılıq göstərib istehsal edən İran xalqı üçün asılılığın bitməsinə səbəb olur. Qlobal hegemonizm və İran xalqının düşmənləri bununla düşməndirlər.[635]

### Qərbin elmi istismarçılığına son qoymaq üçün elmi hərəkətin zəruriliyi

Bu istismarçılığı ortadan götürmək üçün elmi hərəkət lazımdır. Bu gün dəyər sistemi baxımından Qərb istismarçılarının əks qütbü olan İslam Respublikası quruluşu... hər bir insanın qəbul etdiyi uca insani məqsədləri təmin etmək üçün elmlə məşğul olmalıdır. Buna görə deyirəm ki, bu gün ölkəmizin ən mühüm məsələlərindən biri elm və texnologiyanın inkişafı olmalıdır. Bunun oyan-buyanı yoxdur.

Biz elmi inkişaf əldə etmədən, elmi gücü artırmadan, elmi potensialı öz məişət səviyyəmizə çıxarmadan və maddi həyatımızı yüksəltmədən o güclərin qarşısında dayanmaq imkanına malik olmayacağıq. İslam

---

[635] Həzrət İmam Xomeyninin vəfatının 19-cu ildönümü mərasimində çıxışdan: 2008.

Respublikasının ucaltdığı bayraq o zaman dalğalanacaq, yüksəkdə duracaq və qalib olacaq.[636]

**Elm - milli iqtidar və sərvət amili**

Baxın, elm qüdrət və sərvət amilidir. Əgər sizin ölkəniz və İslam Respublikası quruluşu öz xalqını, ölkəsini, dəyərlərini və quruluşunu himayə və mühafizə etmək üçün bu iqtidara malik olmalıdırsa - iqtidar digərlərinə hegemonluq etmək üçün deyil, digərlərinin hegemonluğunun qarşısını almaq üçündür - və əgər bunun yanında bu ölkədə uzun illər davam edən istibdadın miras qoyduğu müxtəlif problemləri aradan qaldırmaq üçün sərvətə ehtiyacı varsa, mütləq elm əldə etməlidir. Elm bir xalq üçün milli iqtidar və milli sərvət amilidir.[637]

**Elmi başucalığına çatmaq - düşmən təxribatlarının anında kəsilməsi**

Biz öz hərəkətimizi sürətlə davam etdirə bilərik. Sözsüz ki, düşmənin hiyləsini gözləyirik. Bu hiylələr bir dövrə qədər davam edəcək. O dövr ölkənin universal iqtidarından ibarətdir və bu siz tələbələrin, siz gənc nəslin işidir. Siz ölkəni elmi və iqtisadi baxımdan qüdrətləndirdikdə, ölkə üçün elmi başucalığı təmin etdikdə, o zaman təxribatlar mütləq azalacaq, məyus olacaqlar. O nöqtəyə çatmayınca təxribatları gözləmək və onlara qarşı mübarizəyə hazır olmaq lazımdır.[638]

**Elm sahəsində milli başucalığının mənası**

Elmi sahədə milli başucalığı budur ki, onun tələbə gənci, tədqiqatçısı, araşdırmaçı alimi elmin sərhədlərini keçməyə - biz bunu Proqramlaşdırma və Elm istehsalı hərəkatı adlandırmışıq - və elmi istehsal etməyə çalışsın. Elmi bu mərhələyə çatdıran şəxslər orta istedad baxımından bizdən geridə olmasalar da, öndə deyildilər. Bizim tarixdə əsrlərlə parlaq elmi

---

[636] Universitetlərin gənc alimləri ilə görüşdə çıxışdan: 2008.
[637] Yenə orada.
[638] Elm və Sənaye Universtetində müəllim və tələbələrlə görüşdə çıxışdan: 2008.

keçmişimiz olub. Bu gün də elmi istehsal, kəşf etməliyik və dünyanın elmində əsas payımız olmalıdır. Başucalığı budur.[639]

**Elm və tədqiqat sahəsində bir neçə illik təkidin səbəbi**

Daxilində Amerika Birləşmiş Ştatlarının, Avropa dövlətlərinin və öz regionumuzun sərvətli neftxorlarının çoxunun olduğu bu birlik inkişaf etməkdə, ucalmaqda və boy atmaqda olan belə bir gücə sərt müxalifdirlər. Buna görə ona qarşı bacardıqları hər bir işi görürlər. Bu otuz ildə bikar durmayıblar, nə qədər ötsə də bikar durmayacaqlar. Yalnız sizlər çalışdıqda, siz gənclər ölkənin elmi, iqtisadi və təhlükəsizlik risklərini sıfra yaxınlaşdırdıqda kənara çəkiləcəklər və təxribatlar bitəcək. Mənim bu bir neçə ildə universitetlərdə müntəzəm olaraq elm, tədqiqat, yenilik, Proqramlaşdırma hərəkatı, sənaye və universitetin əlaqəsi və bu kimi məsələlər üzərində etdiyim təkidlər bundan ötrüdür ki, ölkənizin və xalqınızın uzunmüddətli təhlükəsizlik şərti elmdir.[640]

**Elm - inkişaf və ədalət onilliyində inkişafın əsas təməllərindən biri**

Bu il başlayan növbəti onillik inkişaf və ədalət onilliyi elan olunmuşdur. Şübhəsiz, onun əsas şərtlərindən biri elm, elmi inkişafdır; necə ki, bu onillik ölkədə görünən elmi inkişaflara arxalanaraq inkişaf onilliyi elan olunmuşdur. Yəni bu ümid yaranmışdır ki, biz on il ərzində elmdə nəzərəçarpacaq inkişaf və sürətli hərəkət edib geriliklərimizin bir hissəsini düzəldə bilərik. Buna əsasən, elm mühüm məsələdir. Elm və tədqiqat sahəsində əsas məsələ də tədqiqata, araşdırmaya aiddir.[641]

**Elm – qüdrətli inkişafın əsası**

Mən burada sizə tövsiyə edirəm: Bir ölkənin qüdrətli inkişaf sirri, bir ölkənin iqtidarı üçün əsas amil elmdir. İslam Respublikası əleyhinə aparılan bugünkü təxribatların bir çoxunun hədəfi elm, elm adamı, elm tələbələri və elm ocaqlarıdır. Buna diqqət yetirin, bu oxun düşmənin

---

[639] İmam Xomeyninin vəfatının 20-ci ildönümündə çıxışdan: 2009.
[640] Tələbələr və elmi nümunələrlə görüşdə çıxışdan: 2009.
[641] Universitet müəllimləri ilə görüşdə çıxışdan: 2009.

seçdiyi hədəfə dəyməsinə qoymayın, elmi işin dayanmasına imkan verməyin. Danışılan bütün bu sözlərdən ən mühümü elm və tədqiqat məsələsidir.

Qərb dünyasının sərvəti, iqtidarı, bu gün etdiyi hegemonluğu malik olduğu elmə görədir. Pul öz-özlüyündə iqtidar gətirmir, iqtidar amili bilikdir. Əgər bu gün ABŞ özünün elmi inkişafına malik olmasaydı, dünyada belə hegemonluq edə və bütün işlərə qarışa bilməzdi. Sərvət də elmdən yaranır. Elmə əhəmiyyətli yanaşın. Mənim illərdir elm, tədqiqat, inkişaf, yenilik və elmin indiki sərhədlərini aşmaq üzərində təkidim bundan ötrüdür. Müxtəlif elmlər olmadan ölkənin iqtidarı mümkün olan deyil. Elm qüdrət gətirir.[642]

**Elm - düşmənin hücumundan mühafizə amili**

Dedilər ki, gəlin İranın nüvə mərkəzlərini bombalayın. Dünyanın yüksək rütbəli rəsmilərindən biri - indi adını çəkmək istəmirəm, hamı bilir, bəlkə də bilirsiniz, hər yerdə yayımlanıb; mən bəzilərinin adını çəkməyi sevmirəm - dedi ki, elmi bombalamaq olmaz. Doğru deyir. O haqlıdır. Dedikləri bütün səhv sözlərə rəğmən, bu sözləri düzgündür. Tutaq ki, Nətənzi bombaladınız, İsfahan zavodunu bombaladınız, elmi necə bombalayacaqsınız? Baxın, elm mühafizə yaradır, iqtidar yaradır. Ehtiyatlı olun ki, universitetinizdə, sinfinizdə, tədqiqat mərkəzinizdə, araşdırma işinizdə əngəl yaratmasınlar. Kimin əngəl yaratdığını görsəniz, ona bədbin olun. Bilin ki, sizin iqtidarınızı, gələcəyinizi hədəf seçmişlər.[643]

**Bütün elmi səviyyələrdə elm və tədqiqatın əhəmiyyəti**

Gənclər elmlə məşğul olmalıdırlar. Mən dəfələrlə demişəm, yenə də təkrar edirəm ki, bir xalqın həqiqi iqtidarı elmdən asılıdır. Digər iqtidar amillərini ölkəyə bəxş edən də elmdir. Elmi unutmayın. İstər şagirdiniz, istər tələbəniz - hansı dərəcədə olursunuzsa-olun, bilin ki, elm və tədqiqat məsələsi dinin kənarında olan mühüm məsələdir.[644]

---

642 Ölkənin elmi elitasının nümayəndələri ilə görüşdə çıxışdan: 2009.
643 Yenə orada.
644 13 Aban (4 Noyabr) ərəfəsində şagirdlərlə görüşdə çıxışdan: 2009.

## Yeddinci fəsil: İranın elmi inkişafı üçün çalışmaq

### Digərlərinin elmlərindən istifadə etməklə yanaşı öz qüvvələrinə güvənmək

İran İslam Respublikası bu gün malik olduqlarını öz övladlarının səyi ilə əldə etmişdir. Dünyada heç kəsin bizə minnəti yoxdur. Düzdür, dünyanın modern təchizatından istifadə etmişik, lakin başucalığı ilə; yenə də başucalığı ilə istifadə edəcəyik. Eyni zamanda bizim ən çox ümid və etimadımız əziz müsəlman İranın daxili qüvvələrinədir. Bizi təchiz etməli olan amil gənclərimiz, mütəfəkkir beyinlərimiz, mahir əllərimiz, böyük, qurucu və yaradıcı ruhlarımızdır.

Mən bu gün bu torpağın sizin kimi şücaətli övladlarına deyirəm: özünüzə güvənin. Biz qapını və yolu bağlamırıq ki, dünyanın imkanlarından və yeni texnologiyadan istifadə etməyək. Elm və texnologiya bütün bəşəriyyətə məxsusdur, heç kəs onu yalnız özünə aid edib kiməsə minnət qoya bilməz. Bugünkü insani mədəniyyətin formalaşmasında bütün bəşəriyyətin payı var. Biz yolu üzümüzə bağlamır və bunu öz haqqımız bilirik, lakin əsas güvənimiz öz qüvvələrimizədir. Siz çalışmalısınız, siz qurmalısınız, siz bacarıq əldə etməlisiniz. Necə ki, İslam inqilabının qələbəsindən sonra bu yolda çox uca addımlar atdınız.[645]

### Zavodlarda tədqiqatın ciddiyə alınması

Başqa şərt budur ki, işdə və ölkənin iqtisadi fəaliyyətində yaradıcılıq olsun. Çox yaxşı olar ki, ölkəmizdə işləyən zavodlar - istər dövlətinkilər, istər özəl zavodlar - bu gün çoxlu istehsal mərkəzləri özəlləşdirilib və xalqın ixtiyarındadır - gəlirlərinin bir qədərini tədqiqata, işin inkişafına və məhsulların keyfiyyətini yüksəltməyə sərf etsinlər. Biz nə üçün oturmalıyıq ki, birisi Avropada, yaxud dünyanın başqa bir yerində tədqiqat aparsın və biz ondan öyrənək?! Məgər biz ondan əskikik?! Məgər biz az anlayırıq?! Tədqiqat aparmaq, yaradıcılıqla məşğul olmaq, istehsalı inkişaf etdirmək, sənayeni inkişaf etdirmək, məhsulun keyfiyyət və kəmiyyətini artırmaq

---

[645] İsfahanın Şəhid Babai adına aviabazasının şəxsi heyətinin toplantısında çıxışdan: 1992.

lazımdır. Dünya miqyasında bəşərin tələbat bazarına elə bir şey təqdim edin ki, diqqətlər sizə yönəlsin, ona ehtiyac duysunlar. Yalnız iddia yox, bu sahədə həqiqətən əməl lazımdır.[646]

**Dünyanın elmi investisiyasında iştirak etmək**

Əlbəttə, bizim üstünlüyümüz var və dünyanın elmi investisiyasında qlobal məsələlərə dəxaləti olan şəriklərdən biri kimi diqqətəlayiq paya malik ola bilərik. Bu mühüm məsələdir. Yəni baxışı daxili istehlakdan çıxarmalıyıq. İndi bizim məişətimizin bağlı olduğu elm və tədqiqatlara ehtiyacımız var. Sözsüz ki, bu, reallıqdır. Lakin bundan artığını fikirləşmək lazımdır. Biz tədqiqatı, elmi və təhsili inkişaf etdirməyə çalışmalıyıq. Ona görə yox ki, əldə etdiklərimizə ehtiyacımız var; əslində dünyanın elmi investisiyasında şərik olmağımızdan və bu xalqın haqqını verə bilməmizdən ötrü. Yəni şərafətli bir xalq və toplum kimi dünyada öz yerimizi tapa bilək, bizi tapdamasınlar, adi həyatımızı yaşamağa, əldə etdiyimiz çörəyi yeməyə qoysunlar. Bu gün dünyada elmin bu qədər təsiri var.[647]

**Bütün fənlərdə dalanları açmaq**

Bu ölkənin və bəşər həyatının bütün elmlərə ehtiyacı var. Elm sahəsində bizim geriliyimiz olduğundan çalışın yeni yollar açın. Yəni araşdırın, dalanları açmağa çalışın. Təəssüf ki, biz iki-üç əsrdir mütərəqqi və sürətli elmdə məcburən geri saxlanmışıq. Bu geriliyə müəyyən həddə əlac edəcək amil qısa yollardır. Siz bununla məsafəni dayanmadan azalda bilərsiniz.[648]

**Elmdən düzgün istifadənin faydaları**

Elm rifah, səadət və ədalətə səbəb ola bilər. Nə yaxşı olar ki, sizin elminiz olsun və ədalət tərəfdarı olan bir xalq kimi ədalət bayrağını ucalda,

---

[646] Müəllim Günü və Beynəlxalq Əmək Günü münasibətilə fəhlə və müəllimlərlə görüşdə çıxışdan: 1993.

[647] Universitet rektorları ilə görüşdə çıxışdan: 1993.

[648] Kuhgiluyə və Buyer Əhməd vilayətinin universitet mənsubları və mədəniyyət işçilərilə görüşdə çıxışdan: 1994.

elmlə ədaləti yüksəldəsiniz. Deməli, birincisi elmdir. Dərs oxuyun, işləyin, müxtəlif sahələrdə elmi baxımdan özünüzü hazırlayın.[649]

**Tibb elmində tədqiqat səviyyəsinin yüksəldilməsi**

Bu gün elmin bir hissəsi sizin ixtiyarınızdadır. Odur ki, tibb elminə bu gözlə baxın. Təbabət yalnız bir peşə deyil, həm də uca və ali səviyyəli bir elmdir. Düzdür, bu elmin və onun tədqiqinin məqsədi insanların canını xilas etməkdir; buna şübhə yoxdur. Lakin insanların canını nə zaman xilas etmək olar? Bu elmin səviyyəsi yüksəldikdə. Deməli, təbabət bir elm və uca elmi hərəkətdir. Siz İslam Respublikasında bu sahəni ən yaxşı formada bəzəməyə çalışın.

Bizim siz mömin həkimlərdən istəyimiz budur, cəmiyyətin tibb sahəsini bu səmtə aparmanızı gözləyirik. Biz həkimlərimizin xəstələrlə yaxşı rəftar etməsi ilə qane olmuruq. Yaxşı rəftar bəyənilmiş əməldir, amma hər şey deyil. Yaxşı və inqilabçı həkimimizin müharibədə və inqilabda fəal iştirakı ilə qane olmuruq. Bu iki sahədə fəal iştirak etmək çox mühüm işdir, lakin hər şey deyil. Biz istəyirik ki, siz laboratoriyalarınızda, tədqiqat yerlərinizdə, dərs siniflərinizdə və insan beyninin elmi cəhətdən çiçəkləndiyi hər yerdə tibbin səviyyəsini yüksəltmək üçün uca addımlar ata və həqiqətən çalışasınız.[650]

**Elmə sadiqlik - hər bir məqamda ən mühüm vəzifə**

Cənab Doktor Vilayətidə mənim çox xoşladığım xüsusiyyətlərdən biri budur ki, bütün siyasi və diplomatik fəaliyyətləri ilə yanaşı, öz həkimlik peşəsini qoruyub saxlamışdır. Bu, çox yaxşı haldır. Mən də çox vaxt onu bu işə, eləcə də elmi konfranslarda iştirak etməyə həvəsləndirmişəm. Belə işlər elmə sadiqliyin göstəricisidir. Siz cənablar da elmə sadiqliyi bacardıqca qorumalısınız. Hansı işdə çalışsanız, sizin ən mühüm iş və vəzifəniz elmi inkişaf etdirməkdir.[651]

---

[649] Yenə orada.
[650] Ölkə həkimlərinin İslam birliyi və İslam cəmiyyəti ilə görüşdə çıxışdan: 1994.
[651] Yenə orada.

**Müdafiə sənayesində alimlərin elmi yeniliyi**

Mən xahiş edirəm ki, əziz alim qardaşlar, müdafiə sahəsində düşüncə və elm sahibləri öz yenilik və yaradıcılıqlarını bacardıqları qədər ölkəyə, inqilaba və xalqa xidmətə sərf etsinlər. Bu xalq o qədər geridə saxlanıb ki, siz nə qədər çalışsanız, çox deyil.[652]

**Hərtərəfli inkişaf üçün elmi və əməli səyin zəruriliyi**

Əgər ölkənin abadlaşmasını, bir tərəfdən rifahın, iqtisadi rövnəqlənmənin, hərtərəfli inkişafın, siyasi qüdrətin, ictimai təhlükəsizliyin, peşə təhlükəsizliyinin, elm və tədqiqat inkişafının və digər tərəfdən mənəviyyatın bu ölkəni işıqlandırıb nura boyamasını istəyirsinizsə, iki amili nəzərdən qaçırmamalısınız. Bu iki amil bütün təbəqələrin, xüsusən də ayıq təbəqələrin diqqət mərkəzində olmalıdır.

Kimsə düşünməsin ki, məmləkət quruculuq fəaliyyəti olmadan yalnız zikr söyləməklə abadlaşacaq. Əsla belə deyil; çalışmaq, elmi və əməli baxımdan zəhmət çəkmək lazımdır.

Amerikalıların dünyanın sahibi olduqlarını güman etdikləri, dünyanın müxtəlif ölkələri üçün xətt çəkib qərar verdikləri dövr bitdi. Bunların hamısı siz xalqın bu iki işi unutmamanızdan asılıdır: Biri ölkə quruculuğunda iştirak etməkdir; həm elmi quruculuqda - yəni dərs oxuyun, dərs deyin, araşdırın, düşünün, yenilik edin, yaradın, qısa yollar tapın, dalanları açın və irəliləyin - həm də əməli işdə.[653]

**Xalqın müqaviməti sayəsində elm və tədqiqatın inkişafı**

ABŞ-ın maneələrinə rəğmən, İslam, Quran və İslam inqilabının sözü inkişaf etdi. Bu ölkədə quruculuq, tam iqtisadi müstəqillik, elm və tədqiqatın inkişafı - bunların hamısı siz xalqın müqaviməti ilə öz nəticələrinə və məqsədlərinə çatacaq.[654]

**Embarqolar nəticəsində yenilik həvəsinin yaranması**

---

[652] Müdafiə Nazirliyinin Mexanika zavodlarına baxış keçirərkən etdiyi söhbətlərdən: 1994.

[653] Sari əhalisinin toplantınsında çıxışdan: 1995.

[654] Qorqan şəhərinin idman stadionunda çıxışdan: 1995.

Heç zaman deməyin ki, filan şeyi almamışıq, ona görə yoxumuzdur. Filan texnikanı almamışıqsa, daha yaxşı; hansısa yeni alətləri idxal etməmişiksə, daha yaxşı. Əgər idxal etsəydik, işləyib yenilik yaratmaq üçün tər tökməzdiniz. Bəzi yerlərdə qapılar üzümüzə bağlanmışdırsa, bunun qədrini bilin. Əgər qapılar açıq olsa, insanın səhlənkarlıq və tənbəllik ruhu onu bir yerə çatmağa qoymaz. İnsanın zəhmət çəkməsi üçün böyük həvəs lazımdır. Bəzi şəxslərin daim yenilik etmələrinin səbəbi budur ki, elmi prosesləri onları bu hərəkətə vadar etmiş və sonra iş onlara asanlaşmışdır. Bundan əlavə, dünyanın pulu və müstəmləkəsi onların arxasındadır. Bu gün qərblilər elm vasitəsi ilə dünyaya hakim olmuşlar. Onları bu işə həvəsləndirən amil var. Elmi baxımdan geridə saxlanan ölkələr də inkişaf və hərəkət üçün özlərində maraq oyatmalıdırlar. Maraq yaradan amillərdən biri yolların bağlanmasıdır. Biz Allaha şükür edirik ki, yollar tam şəkildə açıq deyil və bəzi yerlərdə bağlanmışdır.[655]

**Elmin onu araşdıranların ixtiyarında olması**

Çalışmaq, işləmək və yaratmaq lazımdır. Bu dövr ölkə quruculuğu dövrüdür. Bu quruculuğun bütün işlərində bizim iki-üç məsələyə ehtiyacımız var: biri işə həvəs göstərmək və ürək yandırmaqdır; ikincisi elmə, təcrübəyə və ixtisasa diqqətdir. Gözübağlı işə girişmək olmaz. Nəyin bahasına olursa-olsun bu elmi əldə etmək lazımdır. Elm hava və su kimidir; kim onu istəsə və ona sarı getsə, ona qovuşar. Elm elə bir şey deyil ki, Allah-Taala onu xüsusi bir qrupun ixtiyarında qoysun. Xeyr, elm yeraltı sərvət olan neft kimidir; qazsanız, ona çatarsınız; digəri də qazsa, çatar. Lakin qazmasanız, heç zaman çatmazsınız. Digəri çatıb onu çıxarar və hər damlasını sizə baha qiymətə satar. Əgər tədqiqat aparsanız, qazsanız, zəhmət çəksəniz, Allah-Taala insanlar üçün ayırdığı neməti - yəni elmi, qanunları öyrənməyi, həqiqətləri öyrənməyi, maddi aləmdə mövcud olan əlaqələri öyrənməyi sizə nəsib edər. Bizim sadə fəhləmiz də elm öyrənməlidir. Hər bir səviyyədə və hər bir kəs üçün elmin bir mənası var. Bütün ölkədə insanların elmi səviyyəsi yüksəlməli, elm və biliyə

---

[655] Ordu komandirləri və şəxsi heyəti ilə görüşdə çıxışdan: 1996.

yiyələnmiş şəxslər işə cəlb olunmalı və onların elmindən istifadə edilməlidir.[656]

**Elmin və əxlaqın keşikçilik meyarlarından olması**

Əgər hərbçi və korpus keşikçisi də olsanız, sizə elm lazımdır. Elmlə hərəkət etməlisiniz. Əvvəldən Keşikçilər Korpusunun əsas sütunları alim gənclər idilər: təhsilli, savadlı insanlar, bəzən universitet, bəzən də hövzə tələbələri, ən yaxşı və ən parlaq gənclər. Korpus - inqilab və İslam təməllərinə möhkəm bağlı olan bu hizbullahçı toplum ölkənin ən savadlı, ən ixtisaslı və ən hazırlıqlı təşkilatlarından biridir. Bu gün də biz müxtəlif işlərdən ötrü elmi və əxlaqi səlahiyyətlərə malik adam axtarsaq, korpusda tapmaq olar.[657]

**Yüzqat çalışmağın və inkişafın zəruriliyi**

Siz gənc, bacarıqlı və alimsiniz, şərait də əlverişlidir. İrəliləyin və əsla dayanmayın. Mənim bu gün gördüyüm işlər çox yaxşı idi. Əlbəttə, mən təxmin edirdim ki, bunların çoxu görülməlidir və görüləcək. Allaha şükür olsun ki, görülmüşdür, lakin bunu sizin görməli olduğunuz işin yüzdə biri sayın, bundan yüz dəfə artıq işləməli və inkişaf etməlisiniz.[658]

**Hərbi elm və tədqiqatın inkişafı**

İndi nəyin bahasına olursa-olsun bu işə girişməlisiniz. O zaman görəcəksiniz ki, bacarırsınız. Bunlar işə başladılar və gördülər ki, bacarırlar. Odur ki, təyyarə, tank, inkişaf etmiş silah və raketlər ərsəyə gəldi. Bunları kimlər düzəltdilər? Həm orduda, həm də korpusda olan siz gənclər və siz hərbçilər. Deməli, inkişaf etmiş texnikalardan istifadə və onları imkan daxilində istehsl edin. Bu elmdən maksimum bəhrələnin. Sizin institutunuz həqiqətən elm, informasiya və tədqiqat mərkəzi olsun:

---

[656] Buşəhr limanının petrokimya kompleksinə baxış keçirdikdən sonra çıxışdan: 1997.
[657] İmam Hüseyn (ə) Universitetində çıxışdan: 1998.
[658] Parçin silahqayırma kompleksinə baxışdan sonra çıxışdan: 1998.

gənclər öyrənsinlər, müəllimlər zəhmət çəksinlər və tədqiqatçılar araşdırsınlar.[659]

**Elm inkişafının çətinliyi**

Dünyada yaranan bütün nailiyyətlər çətinliklə əmələ gəlmişdir, bütün elmi inkişaflar çətinliklə hasil olmuşdur. Siz bu imkanlardan istifadə edib cibini pulla dolduran tacirə baxmayın; elmin tanınmaz hissəsini kəşf edib tanıtdıran şəxsə baxın. Bunların hamısı zəhmətlə əldə olunur.[660]

**Elmi geriliyi düzəltmək üçün elm və tədqiqat cihadı**

Bu ölkə bütün bu istedadlı insanlara, elm, texnika, sənaye və müxtəlif elm sahələrində inkişaf şəraitinə və bütün bu imkanlara rəğmən, bu gün çox böyük bir məsafə ilə geridədir. Biz bu məsafəni qət etməliyik. Özlərində hər hansı bir sahədə - istər istehsalat, istər sənaye sahəsində, istər əkinçilikdə, istər elm, tədqiqat və alim insanlar yetişdirməkdə, istər digər sahələrdə, hətta idman və incəsənətdə bacarıq görənlər bu fəxrli orduya qoşulmalı, bu yolda irəliləməli, ölkənin problemlərini həll etməlidirlər və Allahın lütfü ilə həll edəcəyik. Bu problemlər imanlı, Allaha təvəkkül edən və özünə güvənən bir toplumun imkanlarından çox kiçikdir. Həll olunacaq və həll edəcəyik, lakin bu işə qoşulanlar nə qədər izdihamlı, keyfiyyətli, həvəskar və aktiv olsalar, bu iş daha tez görüləcək və sona çatacaq. İnşallah sizin hamınız bu səadətə nail olasınız.[661]

**Məqsəd: İdeal elmi mövqe qazanmaq**

İndi məqsəd nədir? Məqsəd budur ki, dünyanın modern və postmodern məhsulları səviyyəsində məhsullarımız olsun, yoxsa özümüzə elmi mövqe qazanaq? Mənim fikrimcə, məqsəd ikincisidir. Çünki birinci məqsəd də ikincidən irəli gəlir. Biz istər elmdə, istər əməldə, yəni sənayedə öz elmi istedadımızı işlətsək və özümüzü elmin ideal səviyyəsinə

---

[659] Ordunun informasiya mühafizəsinin komandirləri ilə görüşdə çıxışdan: 2000.

[660] Təlim və tərbiyə idarələrinin məsul şəxsləri və Ümumdünya Əhli-beyt Assambleyasının gəncləri ilə görüşdə çıxşdan: 2000.

[661] Ərak şəhərinin elm adamları ilə görüşdə çıxşdan: 2000.

çatdırmağa çalışsaq, bu müddətdə məhsulumuz nə olsa, bizim üçün yaxşıdır; istər dünyanın postmodern məhsullarına çatsın, istər çatmasın.[662]

**Bəzi tədqiqat mərkəzlərində səhv təfəkkür**

Mən bunu demək istəyirəm: Kimsə düşünməsin ki, biz nə qədər çalışsaq da, onların postmodern məhsullarına çatmarıq, bəs nə üçün özümüzü zəhmətə salaq?! Mən eşitmişəm ki, bəzi mərkəzlərdə, hətta silahlı qüvvələrdə və korpusdakı bəzi tədqiqat mərkəzlərimizdə bu təfəkkür var. Lakin bu çox səhvdir ki, biz nə qədər işləsək, o məhsulu istehsal edə bilmərik; qoy edə bilməyək.

Biz elmi dərəcələrə yüksəlməliyik. Bizi aşağıda saxlayıblar, hərəkət etməyə qoymayıblar. İnqilabdan sonrakı siz gənclərin və inqilab uşaqlarının hünəri budur ki, elmi dərəcələrə nail ola və böyük həddə yüksələ bilmisiniz. Məhsulunuz nə olsa və nə düzəltsəniz, yaxşıdır; deməyin ki, bu, düşmənin filan raketinin, təyyarəsinin, yaxud elektron cihazının qarşısında bir şey deyil. Xeyr! Əsas budur ki, biz elmi baxımdan inkişaf edək.[663]

**Yeni tədqiqat layihələri və onlarda müntəzəmlik**

Əziz qardaşlar! İnkişaf etdiyiniz sənaye və elm işində azca səhlənkarlıq belə etməyin, çalışın, müntəzəm işləyin, yeni layihələr gətirin və məyus olmayın. Əsla düşünməyin ki, hətta bunu düzəltsək, yenə də digərlərinin məhsullarından istifadə etməliyik. Çünki bu məhsullarla çox böyük işlər görmək olar. Bu işləri davam etdirin; həm korpus, həm Müdafiə Naziriliyi, həm Hava Qüvvələri, həm də sənaye və elm işlərində çalışan digər qurumlar müxtəlif sahələrdə işləri ciddi şəkildə davam etdirsinlər.[664]

**Elmin ən böyük düşməni**

---

[662] Korpusun Hərbi Hava Qüvvələri layihəsinin məsul şəxsləri ilə görüşdə çıxışdan: 2001.
[663] Yenə orada.
[664] Yenə orada.

Siz bir xəzinəsiniz. Bu xəzinəni çıxarmaq lazımdır. Onu kim çıxarır? Sizin özünüz. Öz vücudunun xəzinəsini çıxarmaqda addım atan və işə başlayan birinci şəxs insanın özüdür.

Mən dəfələrlə demişəm ki, insanın ən böyük düşməni tənbəllikdir. Tənbəllik və bikarlıq cahillikdən də pisdir və hətta elmi tələf edir. Tənbəl alim uca fikir sahibi, lakin tənbəldir. Baxın, bu gün dünyada elm və sənayenin inkişafında tədqiqatın mühüm yeri var. Tədqiqat nədir? Yəni araşdırma və daimi fəaliyyət. Bu, tənbəlliyə 180 dərəcə əksdir. Tənbəllik etmək olmaz. Ümidsiz də olmamalıyıq. Bu hərəkəti hansı yolda işlədək? Müştərək və özəl yerlər var. Mən daha çox siz gənc nəslə aid olanları deyəcəyəm.[665]

**İslam quruluşuna aid məsələlərdə tədqiqatın zəruriliyi**

İndi inqilabın müxalifləri müxtəlif sahələrdə tədqiqat aparırlar. Siz də Bəsicin düşüncəli insanları vasitəsi ilə tarixi məsələlərdə, inqilaba, İslam quruluşunun siyasi sisteminə və konstitusiyaya aid mövzularda elmi araşdırmalar apara bilsəniz, dəyərli iş görmüş olarsınız.[666]

**Elmi inkişaf müntəzəm və proqramlı işin nəticəsidir, haqlı olmağın yox!**

Əmin olun ki, Allah-Taala başqa hər bir işdə olduğu kimi, elm öyrənməkdə də çalışan bir ölkəyə və xalqa kömək edəcək. Bu, Allahın qanunudur: kim hansı yolda çalışsa, Allah-Taala o yolda ona kömək edəcək. Quran açıq şəkildə buyurur: "Onların və bunların hər birinə Rəbbinin nemətindən verərik"[667]; istər dünya üçün, istər özü üçün, istər amalları üçün, istərsə də xalqları üçün çalışanlara. Allah-Taala çalışanın işinə kömək göstərəcək. Buna görə də dünyada elm sahəsində çalışanlar tərəqqiyə nail oldular. Elmi tərəqqi heç bir ölkə, ideya və təfəkkürün haqq olmasına dəlil deyil, lakin düzgün proqramın və ciddi fəaliyyətin

---

[665] Məktəb Parlamentinin nümayəndələri ilə görüşdə çıxışdan: 2001.
[666] İsfahanda Korpusun və Bəsicin nailiyyətləri sərgisinə baxış keçirərkən etdiyi söhbətlərdən: 2001.
[667] "İsra"/20.

göstəricisidir; göstərir ki, bu xalqda ciddi iradə olmuş, çalışmış və yaxşı proqramla buraya çatmışdır.[668]

**Elm öyrənmək üçün çalışmağa və proqram hazırlamağa dair tövsiyə**

Siz də əgər çalışsanız, yaxşı proqram hazırlasanız və yaxşı iradə göstərsəniz, bugünkü dünyada həmin dəyərli nailiyyəti - yəni hər bir ölkənin birinci dərəcəli inkişaf amili olan elmi əldə edəcəksiniz. Bunun üçün ölkə daxilindəki qurumlar proqram hazırlamalıdırlar. Biz ümidvarıq ki, məmurlar bu proqramları inşallah bizim xalqımızın istedadlı gəncinə yaraşan tərzdə hazırlasınlar. Hər halda, xaricdəki gənclərimizin hər zaman xatırlamalı olduqları budur ki, bütün səylərdən, imkan və istedadlardan öyrənmək üçün istifadə etsinlər, lakin bu elmi öz milli kimliklərinin və dəyərlərinin xidmətində işlətsinlər. Biz İslamın sayəsində hərəkət etmək hissinə yiyələnmişik.[669]

**Elmi inkişafların milli və dini səyin sayəsində baş verməsi**

Belə deyil ki, dünyanın bir hissəsində bizə kömək üçün çoxlu və böyük maraq mövcud olsun; əksi isə olmuşdur. Əngəl törətməyə çalışan mərkəzlər olmuşdur. Bu gün istər texnologiya sahəsində, istər ölkənin gələcəyi üçün infrastruktur və əsaslı tikintilər sahəsində, istərsə də digər sahələrdə gördüyünüz bu elmi uğurları öz milli və dini kimliyimiz sayəsində əldə edə bilmişik. Bunu davam etdirmək lazımdır.[670]

**Tarixdəki elmi birinciliyin təkrarına çalışmaq**

Bizim tariximiz elmi inkişaf baxımından parlaqdır. Müsəlman cəmiyyətlərində, o cümlədən bizim ölkəmizdə elm məsələsi çox qədim və köklü bir məsələdir. Biz bəzi dövrlərdə dünyanın ən parlaq elmi şəxslərinə malik olmuşuq. Düzdür, bu gün müxtəlif amillər səbəbindən müsəlman ölkələr, o cümlədən bizim ölkəmiz elmi baxımdan geri qalmışdır, öz

---

[668] Şərqi Avropa İslam Təşkilatları İttifaqının bir qrup tələbəsilə görüşdə çıxışdan: 2002.
[669] Yenə orada.
[670] Dövlət Şurasının üzvləri ilə görüşdə çıxışdan: 2003.

öncüllüklərini, tarixi və mədəni üstünlüklərini qoruya bilməmişdir. Lakin bu, əbədi bir tale deyir. Bunu bilmək lazımdır. Necə ki, müsəlman ölkələrinin, o cümlədən bizim ölkəmizin hicri tarixi ilə 4-5-ci əsrlərdəki, yəni Avropa renessansından öncəki elmi zirvəsi daimi və əbədi olmadığı, diqqətsizlik üzündən məhv olduğu və digərlərinin zirəklik göstərib inkişaf etdiyi kimi, bu gün də elə deyil ki, siz Avropanın, Qərbin və ABŞ-ın elmi inkişafının əbədi bir tale olduğunu düşünəsiniz, necə deyərlər, inkişaf etməkdə olan, yaxud elmi baxımdan geriqalmış ölkələrin - bu gün onların bir hissəsi müsəlman ölkələridir - həmişə geri qalmağa məhkum olduğunu fikirləşəsiniz. Əsla belə deyil. Tərəzinin bu gözünün bir gün ağırlaşması tamamilə mümkündür; yəni siz elmi baxımdan ən inkişaf etmişlər olasınız və Qərbin sizə ehtiyacı olsun.

Əgər siz çalışıb iradə göstərsəniz, hamı – həm siz gənclər, həm məsul şəxslər, həm müəllim və tədqiqatçılar ölkənin imkanlarından gözəl şəkildə istifadə etsələr və yaxşı bir iş baş versə - bunun əlamətləri ölkədə görünür - 30, 40, 50 ildən sonra ölkəmizi dünyanın ən qabaqcıl elmi xəttində müşahidə etməyimiz tamamilə mümkündür. Bu ön xətdə İranın yanında hansı ölkələrin durmasının bizə dəxli yoxdur. Lakin çoxları geri qalacaqlar və biz ön xətdə olacağıq. Bunun üçün iradə, zəhmət və istedad lazımdır. Bizdə bu istedad var və bu zəhməti də çəkməliyik.[671]

**Elm və tədqiqat işində cihad ruhiyyəsinin təsiri**

Ümumi hərəkət həvəsi, ürək yandırmaq, iş və yaradıcılığa girişmək və kollektiv yardımlaşma cihad hərəkətindən arxayın və qəlbində cihad yanğısı olan bir xalqa məxsusdur. Bu, müqəddəs müdafiə dövrünün Bəsic ruhiyyəsidir. Bu, şəhadət qüslü alıb səngər qazmaq üçün buldozer üzərində oturan Quruculuq cihadının səngərsiz səngərdüzəldənlərinin ruhiyyəsidir. Biz bu hissi qorumalıyıq. Bu hissin elmi iş və təşkilat nizam-intizamı ilə heç bir ziddiyyəti yoxdur. Təsadüfən, cihad ruhiyyəsi olanda elmi iş daha yaxşı görülür.

Mən sizə deyirəm: Müxtəlif sahələrdə bizim olduqca çoxlu elm və tədqiqat inkişaflarımız olmuşdur. Bu işlərin əsas tərəfini inqilabçı gənclər

---

[671] Elmi nümunə tələbələrlə görüşdə çıxışdan: 22 2003.

və mömin uşaqlar təşkil etmişlər. Onlar meydana atıldılar, həmin ruhuyyə ilə mühüm elmi işləri və çoxlu tədqiqat keçidlərini arxada qoydular. Bəli, mənəviyyat insanın dünyasını da abadlaşdırır, lakin sağlam dünyasını.[672]

**Düşmənin təzyiqi və elm yollarının kəşfi**

Əcnəbilər iqtisadi və siyasi təzyiqlər göstərirlər, lakin faydasızdır. İqtisadi təzyiqin yaxın gələcək üçün İran xalqına ziyan vurması mümkündür, lakin özləri də bilirlər ki, uzaq gələcək üçün İran xalqının xeyrinə və onların zərərinə olacaq. Həmin təzyiqlər İran xalqını, bizim istedadlı gənclərimizi və alimlərimizi elmin yollarını qət etməyə, mürəkkəb və əlçatmaz elmi məsələləri kəşf etməyə vadar edir. Odur ki, iqtisadi təzyiqin təsiri yoxdur; nə qədər ki, siz səhnədəsiniz, siyasi təzyiqin də təsiri olmayacaq.[673]

**Ölkənin elmi inkişafı üçün ümumi səy**

Ölkənin məsul qurumları, dövlət orqanları, müxtəlif idarələr, qanunvericilər, universitetlər, ölkənin elm və tədqiqat müdirləri, Təhsil Nazirliyi - hamı ciddi çalışmalıdır. Biz yolu tapmışıq, bilirik ki, bu yolla getməli və özümüzü uca zirvəyə çatdırmalıyıq. Biz işləməliyik. Düzdür, çətindir, tər töküləcək, yorğunluq yaranacaq, əhdində zəif olan bəzi adamlar yorulub yarıyoldan qayıdacaqlar, amma əksəriyyət gedəcək. Biz bu yolu getməliyik. Bu çətin işdir, asan deyil, amma bu işi görə bilərik və Allahın lütfü ilə görəcəyik də.[674]

**Ölkənin elmi hərəkəti üçün çox yaxşı üfüq**

Ölkədə iş üfüqu çox yaxşıdır, istedadlar yaxşıdır, ölkənin mövcud potensialları məqbuldur. Bu imkanları artırmaq olar. Dövlətin icraçı qurumları elmə əhəmiyyət göstərməkdə maraqlıdırlar, elmin ölkə üçün həqiqi inkişaf amili olmasını qəbul etmişlər. Biz elmsiz bir yerə çata bilmərik. Bu həm iyirmiillik mənzərə sənədində göstərilmiş, həm də bu

---

672 Cihad üzvləri və əkinçilərlə görüşdə çıxışdan: 2004.
673 Tehranın cümə namazı xütbələrindən: 2004.
674 Həmədan vilayəti universitetlərinin müəllim və tələbələri və həmədanlı gənclərlə görüşdə çıxışdan: 2004.

məsələ ətrafında baş verən müzakirələrdə aydın şəkildə hamı üçün izah olunmuşdur. İndi həm idarəçi qurumlarda, həm də birbaşa bu işə məsuliyyətli olan siz möhtərəm müəllimlərdə iradə lazımdır.[675]

**Elmin zirvələrini fəth edənə qədər çalışmağın zəruriliyi**

Elm öyrənməkdə, elmi imkanlarınızı artırmaqda əsla səhlənkarlıq etməyin. Gördüyünüz işlərlə qane olmayın və onu birinci addım bilin. Siz zirvəyə çatmağa can atan alpinist kimisiniz; indi yolun ilk dolanbaclarında hərəkət edirsiniz. Bəzən insan tər də tökür. Yolun ibtidai uğurları ilə qane olmayın. Baxın görün zirvə haradadır. Zirvəyə çatmaq üçün zəhmət çəkməli və çətinliklərə dözməlisiniz.[676]

**Dövrün ədalətli elmi inkişafa ehtiyacı**

Hər dövrün bir xüsusiyyəti var. Ötən dövrlərdə məmurların hər biri bəzi işlər gördülər. Bu gün ölkəmizdə ictimai ədalət və fəsadla mübarizə ilə yanaşı olan elm və texnologiya inkişafına ehtiyac var. Gələcək prezident üçün çox əhəmiyyətlidir ki, bütün vücudu ilə xalqa xidmət etsin.

Bu gün qlobal hegemonizm üçün təhlükə odur ki, müsəlman xalqlar öz kimliklərini, şəxsiyyətlərini, köklərini və müstəqilliklərini ciddi saysınlar. Qeyd etdiyimiz kimi, onlar İslam regionunun, Şərq ölkələrinin və müxtəlif səbəblərdən elm karvanından geri qalmış ölkələrin həmişə cəhalət və acizlik içində çabalamasını istəyirlər. Onlar geriqalmış hər bir ölkədə hər bir inkişafa müxalifdirlər. Onlar tağut dövrünün bir geriqalmış ölkəsinin bu gün elm və sənaye sahələrində cəsarətlə çıxış etdiyini, uzun illər inkişaf etdiklərini duyduqları sahələrdə mürəkkəb texnologiya və sənaye işinə girişən bir ölkəyə çevrildiyini görərkən təhlükə hiss edirlər.[677]

**İctimai ədalətin kölgəsində elm və texnologiya inkişafının zəruriliyi**

---

[675] Universitet müəllimləri ilə görüşdə çıxışdan: 2004.
[676] Ölkənin gənc ixtiraçıları və yenilik sahibləri ilə görüşdə çıxışdan: 2005.
[677] Kerman əhalisinin böyük toplantısında çıxşdan: 2005.

Bizim hamımız bu ölkənin elm, texnologiya, tədqiqat və iqtisadi inkişaflarını bilir və görürük. Bu xalq üçün bu inkişaflar təbiidir. Əgər bu xalq inkişaf etməsə, qeyri-təbii olar. Üzərində təkid göstərməli və barəsində çalışmalı olan budur ki, bu hərəkət və inkişaflar ictimai ədalətin kölgəsində baş versin ki, gənclər və bütün vətəndaşlar ölkənin inkişafından istifadə edə bilsinlər.[678]

**Elmi və texniki gerilikləri düzəltmək üçün iman və güclü iradə**

Elmin əhatəsini genişləndirək. Biz istedadlı xalqıq. Bizim tariximiz və mədəni irsimiz bunu təsdiq edir. Bizim istehsal porensiallarını artıra, kəmiyyətləri yüksəldə, keyfiyyətləri günbəgün yaxşılaşdıra, sənayedə, mədəndə, əkinçilikdə, elmdə, texnikada və insan həyatının digər sahələrində məchul yerləri hər gün daha artıq tanıya bilməmiz ilahi rəhmət və uğur əlamətidir. Əgər həmin ciddiliyi və səyi davam etdirsək, ilahi rəhmət davam edəcək. Və bu yolun sonuna qədər getmək üçün bizdə güclü iradə və əzmkarlıq vardır.

İnşallah gerilik tozu bu ölkənin çöhrəsindən tamamilə təmizlənsin! Bu, İslamın və siz xalqın imanı sayəsində baş verəcək. Bu xalqın imanı və güclü iradəsi bu yolu davam etdirməyin ən mühüm təminatçısı ola bilər.[679]

**Elm karvanından geri qalmış ölkələrin vəzifəsi**

Dünyanın ekspansionist gücləri bütün dünyanı özləri üçün istəyirlər, xalqların elmindən, savadından, yaradıcılığından acıqları gəlir, dünyanın idarəsinin öz əllərində qalmasını istəyirlər. Elm və sivilizasiya karvanından hələ geridə olan xalqların əsas vəzifəsi budur ki, elm, texnologiya və yaradıcılıq barədə düşünsünlər, işləyib-çalışsınlar, özlərinin gecə və gündüzlərini sərf edib ölkə və xalqları üçün başucalığı yaratsınlar. Ölkə məmurlarının vəzifəsi də budur ki, həm bu hərəkətə həvəsləndirsinlər, onu asanlaşdırsınlar, maneələri ortadan götürsünlər, həm də bu səyin məhsulunun bütün xalqın ixtiyarında olmasını təmin etsinlər, cəmiyyətin

---

[678] Rəfsəncan əhalisinin böyük toplantısında çıxışdan: 2005.
[679] Sərçeşmə misi kompleksinin əməkdaşları ilə görüşdə çıxışdan: 2005.

bütün təbəqələri ondan bəhrələnsin, iş və fəaliyyət sahəsi açıq olsun və müxtəlif istedadlar işə qoşula bilsinlər.[680]

**Elmi inkişafın ölkənin bütün əsas işlərinin başında durması**

Hörmətli müəllimlər və elm adamları! Bunu bilin: önfərziyyə budur ki, elmi inkişaf və tərəqqi ölkənin inkişafı üçün bütün mühüm işlərin başında durmalıdır. Yəni ölkədə ən mühüm amil elmli insan kapitalıdır. Biz özümüzü elmi yoxsulluqdan xilas etməliyik. Bu bizim birinci və əsas işimizdir. Ötən iyirmi ildən artıq müddətdəki təcrübə bunu dəfələrlə sübut etmişdir.[681]

**Vaxtında göstərilən səyin yeni elmlərdə öncüllük amili olması**

Dünyanın bəzi yeni elmlərində bizim bu elmlərin öncülləri ilə məsafəmiz çox deyil. Vaxtında gözü açıb işə başlamaq çox yeni olan bəzi elmlərdə dünya ilə məsafəmizin çox az olmasına səbəb olmuşdur. Əgər iradə ilə çalışsaq, onları keçə də bilərik.[682]

**Tükənməz elmi hərəkət**

Mənim adımdan danışırlar ki, demişəm: "Kök hüceyrə bir elmi hərəkatdır". Bu, həqiqətdir. Sizin kök hüceyrələrinizin tükənməz tədqiqat sahəsi var. Siz nə qədər tədqiqat aparıb inkişaf edirsinizsə, başqa bir sahə açılır, görürsünüz ki, onu tədqiqat mövzusu etmək, irəliləmək və daha yeni sərhədlərə çatmaq olar. Royan da belədir. Sizin bu qrupunuz nə qədər işləsə və inkişaf etsə, yenə də daha artıq inkişafa çıxarlıdır. Bu və yaxud hər hansı bir başqa qrupda elmə inanan imanlı tədqiqatçıların hər biri belədir; yəni bunların bacarığı tükənməzdir.[683]

**Ölkənin elmi inkişafını davam etdirmək üçün məmurların proqramı**

---

[680] Yenə orada.
[681] Universitet müəllimləri ilə görüşdə çıxışdan: 2005.
[682] Universitet rektorları, ali təhsil müəssisələrinin və tədqiqat mərkəzlərinin başçıları ilə görüşdə çıxışdan: 2006.
[683] "Royan" Tədqiqat Mərkəzində keçirilən görüşdə çıxışdan: 2007.

Bizim hərəkətimiz başlanıb, lakin hələ işin əvvəlindəyik. Həm elm və tədqiqat mərkəzlərinə kömək olunmalıdır, həm elmi proyektlərə, tədqiqat və texnologiya layihələrinə kömək olunmalıdır, həm də elmə, tədqiqata və araşdırmaya təmayül hər yerdə mövcud olmalıdır. Bu, müəllim və tədqiqatçının inhisarında qalmamalıdır, tələbələr arasında genişlənməlidir; yəni tələbə elm öyrənməyə və elmi istehsal etməyə həvəs göstərməlidir. Bu işin ağıllı proqrama ehtiyacı var, tövsiyə ilə, xahiş, təmənna, sifariş, sərəncam və bu kimi məsələlərlə olmayacaq.

Bizim ölkəmizin təhsil üzrə məsul şəxsləri – istər Təlim və Tərbiyə Nazirliyi, istər Təhsil Nazirliyi, istər Səhiyyə Nazirliyi, istər mədəni proqram məsələlərinə aid sahələr bu işlər üçün məsuliyyət daşıyırlar. Onlar elə bir iş görsünlər ki, universitet doğrudan da elm axtaran yer olsun, gənclər alim olmaq istəsinlər, təkcə diplom almağı, yaxud kiçik bir iş üçün ad çıxarmağı düşünməsinlər. Bunun üçün hərəkət lazımdır. Bu hərəkət davam etdirilməlidir. Bu sahədə hökumətin, aidiyyətli qurumların, yüksək mövqeyi olub dinləyicilərinin zehninə təsir göstərə bilən şəxslərin köməyi mütləq lazımdır.[684]

**Həqiqi və köklü yeniliyin tərifi**

Biz nə istəyirik? Təlim və tərbiyə qurumlarının məhsulunun və məzununun nə olmasını istəyirik? Əvvəlcə bunu təyin və təsvir etməli, sonra görməliyik ki, belə bir varlıq, belə kişi, qadın və gənc yetişdirmək üçün hansı mühüm və əsaslı işlər görülməli, hansı təhsil proqramı arasında hansı lazımi təlimlər verilməlidir. Sonra işgüzar insanlarımız oturub o sistemi tərif etsinlər, yazsınlar, lazımi cəsarətlə meydana atılsınlar, təlim və tərbiyə qurumlarını o sistemə uyğun tərif etsinlər və həyata keçirsinlər. Bu, həqiqi və köklü dəyişiklik olacaq.[685]

**Elmi hərəkətin mənzil başına çatmasına ümid**

---

[684] Yenə orada.

[685] Təlim və Tərbiyə Naziri, nazir müavinləri və ölkənin maarif müdirləri ilə görüşdə çıxışdan: 2007.

Ola bilsin müxtəlif amillər bizi bu arzulara çatmaqda bir qədər yubatsın, lakin bilin ki, bu elmi hərəkət, bu coşqu və çiçəklənmə, bu fəxr və səmərəlik dayanan deyil və Allahın köməyi ilə inkişaf edəcək. Bu, bir şəxsdən asılı da deyil. Ölkədə bu hərəkət başlanmış, bu özünüdərk vücuda gəlmişdir, inşallah mənzil başına da çatacaq.[686]

**Elmi hərəkətin ölkəyə çox zəruri olmasının səbəbi**

Yeni olmayan bir məqam budur ki, elmi hərəkət ölkəmiz üçün daha zəruridir, daha təkidli bir ehtiyacdır. Nə üçün ehtiyacdır? Çünki elm bir xalqın başucalığının, qüdrət və təhlükəsizliyinin amilidir. Bunu qısa izah edəcəyəm. Nə üçün daha artıq və daha təkidlidir? Çünki yüz ildən ibarət ən gözəl zamanında bu vəzifəyə əməl olunmayıb. Qacarlar dövrünün ortalarından, yəni dünyada elm və sənaye hərəkatının zirvəyə çatdığı və çiçəkləndiyi dövrdən - on doqquzuncu əsrin ikinci yarısının ortalarından elm özünü müstəmləkə formasında göstərdi, Qərb elmə yiyələnməklə dünyanı istismar etməyə başladı. O gündən etibarən təxminən yüz il, yaxud daha artıq müddətdə, yəni bizim oyanış vaxtımızda bu böyük vəzifə - ölkənin elmi inkişafı müxtəlif səbəblərdən tərk edildi və dayandırıldı. Əsas dəlil də bu idi: avtoritar hakimiyyət, tağutların hakimiyyəti, qeyri-müstəqil, zəif və zəbun sultanların hakimiyyəti. Biz bu geriliyin varisiyik. Buna görə bizim səyimiz daha artıq olmalıdır. Deməli, bu, təkidli və böyük ehtiyacdır.[687]

**Ümumi elmi xəritəni hazırlamaqda ciddilik**

Ümumi elmi xəritə lazımlı bir şeydir. Müxtəlif elmlərin hər birinin yeri, tələbənin sayı, cinsiyyəti, müxtəlif bölgülər - bunların hamısı aydın olmalıdır. Biz nə iş görmək istədiyimizi bilməliyik. Əlbəttə, bu işlər başlanıb, lakin onu ciddi surətdə davam etdirməlisiniz.[688]

**Quruluşun səmərəliliyini artırmaq qaydası**

---

[686] Gənc alimlərlə görüşdə çıxışdan: 2007.
[687] Yenə orada.
[688] Yenə orada.

Biz elmlə, ağılla və iradə ilə bu səmərəliliyi artırmalıyıq. Bu iş alimcəsinə, aqilcəsinə və iradə ilə olmalıdır. Tənbəllik və səhlənkarlıqla inkişaf etmək olmaz. Elmi və ağlı işlətsinlər, bir mühərrik kimi milli iradəni də işə salsınlar. Biz bu səmərəliliyi artıra bilərik.[689]

**Ölkəni elmi mənbəyə çevirmək üçün ən mühüm iş**

Bir məsələ ümumi elmi xəritə barədədir. Mən burada demək üçün onu qeyd etmişdim. Xoşbəxtlikdən, gördüm ki, bugünkü natiqlərin üç-dördü sözlərinin arasında həmin ümumi elmi xəritəyə toxundular. Cənab Doktor Laricani də bir qədər izah etdi. Bu bəzi işlərin görülməkdə olduğunu, bu ümumi elmi xəritənin hazırlanması, təqdim olunması və gələcəyin elmi proqramlarında plan kimi bilinməsi üçün bəzi işlərin görülməsindən xəbər verir.

Bu yaxşı müjdədir, lakin bunu ondan eşidənə qədər belə bir məlumatım yox idi. Mən bilirəm ki, Mədəni İnqilab Ali Şurasında bu iş görülür; yəni bəzi komitələrdə müzakirə olunur. Lakin gözlənilən və bizim nəzərimizdə lazım olan bu deyil ki, bu iş təxirə salınsın və uzansın, bir il, iki il oturub gözləyək və nəhayət ümumi elmi xəritə hazırlansın. Yox! Mədəni İnqilab Ali Şurasının təşkilatçılığı ilə alimlər, istedadlar, dəyərli şəxsiyyətlər oturub bunu bitirsinlər, bişmiş və kamil bir şey hazırlasınlar, ölkənin universitetləri və gələcəyi üçün onun əsasında elmi proqramlar hazırlansın.

Mən burada həm möhtərəm nazirlərə, həm Mədəni İnqilab Ali Şurasının burada iştirak edən möhtərəm üzvlərinə tövsiyə edirəm ki, bu məsələ ilə maraqlansınlar.

Biz mənzərə sənədinin həyata keçməsini, ölkə üçün nəzərdə tutulan elmi mərkəzliyin vücuda gəlməsini və icra olunmasını istəyiriksə, bu işləri görməyə məcburuq. Onların ən mühümü ümumi elmi xəritənin hazırlanmasıdır. Bu mühüm bir addımdır, nəzərdə tutulan və bu gün Allahın lütfü ilə elm mərkəzlərində aktual bir mövzu formasına düşmüş məqsəd və şüarların icra olunmasına sarı mühüm bir darvazadır.[690]

---

[689] Quruluşun məsul şəxsləri ilə görüşdə çıxışdan: 2007.
[690] Universitet rektorları və müəllimlərilə görüşdə çıxışdan: 2007.

**Elm və tədqiqat işinə diqqətin səbəbi**

Biz nə üçün universitetə, elmə və tədqiqata aid məsələlərə belə diqqət və maraq göstəririk? Çünki geri qalmışıq, geridə saxlanmışıq; çünki bizim inkişafımız, ucalığımız, milli və dini kimliyimiz bu sahədə ciddi iş görməyimizdən asılıdır. Səbəbi budur. Biz misal üçün, qısamüddətli bir mədəniyyəti olan hansısa ölkədən fərqlənirik. Bizim regionumuzdakı bəzi ölkələrin bir ölkə kimi varlıqları yüz ilə çatmır. Ötən yüz ildə bu adda belə bir coğrafi kimlik ümumiyyətlə, olmamışdır. Bizim regionumuzda bəzi xalqların mühüm tarixi keçmişi yoxdur. Dünyanın başqa yerlərində də belələri var. Latın Amerikasında, Avropada və digər yerlərdə belə ölkələr mövcuddur.

Bizim ölkəmiz və xalqımız isə köklüdür. Bizim tarixi kökümüz, keçmişimiz var, biz yeni cücərməmişik. Biz öz keçmişimizdən də qidalana bilərik və qidalanmalıyıq. Bu ölkəyə İslamdan sonrakı elm inkişafının, beş, altı və yeddinci hicri əsrlərinə qədərki elm inkişafının gözü ilə baxın. Əgər biz həmin templə inkişaf etsəydik, bu gün zirvədə olardıq. O templə inkişaf etmədik. Nə üçün inkişaf etmədik? Bunu araşdırmağa və təhlil etməyə dəyər. Hökumətlər yaramaz idilər, iradələr zəif idi. Sonra son 200-300 ildə xarici amillər təsir qoydu və nəhayət, həqiqət budur ki, biz həmin sürətlə hərəkət etmədik, hətta süquta da uğradıq.

İndi bunu düzəltmək istəyirik. İndi hökumət ləyaqətli və bacarıqlı hökumətdir, xalq ayıqdır, istedadlar imkana sahib və səhnəni idarə edən istedadlardır. İndi düzəltmək istəyirik. Bəli, bir zaman mənzərə sənədini fəxrli kimlik sənədi kimi cibimizə qoyuruq, bəzən başımızın üstündə və əlimizdə tuturuq, bir zaman da yox, mənzərə sənədini proqram sayırıq və onun hər bir hissəsi üçün yol tapırıq. Əgər biz ilham mənbəyi və bölgədə elmin mərkəzi olmaq istəyiriksə, bunun yolu var. Yolunu mənzərə sənədində biz müəyyən etməli deyilik, icra sahəsində məsul şəxslər müəyyən etməlidirlər. Bizim təkidimiz budur. Biz istəyirik ki, bu iş elm və tədqiqat sahəsində düzgün, yaxşı və kamil formada həyata keçsin. Diqqət və təkidin səbəbi budur.[691]

---

[691] Yenə orada.

**Mənəviyyatla yanaşı olan elm inkişafı**

Dünyada elmin inkişaf dövrü olan ötən onilliklər ərzində bizim dünya ilə elmi məsafəmizi artırdılar. Lakin biz Allahın lütfü ilə bu məsafəni azaldacağıq və elmlə də kifayətlənməyəcəyik. Biz mənəviyyatı, əxlaqı və mənəvi islahı özümüzə vəzifə bilməliyik.[692]

**Özünəinam tövsiyəsinin əsas ünvanı**

Əsas və birinci müraciət tərəfi sizsiniz. Özünəinama ciddi ehtiyacı olan təbəqə bizim gənc təbəqəmizdir; xüsusən də elm adamları və ölkənin elmi, siyasi, praktik və icra baxımından idarəçisi olan gənc təbəqə.[693]

**Yerli inkişaf modeli**

Mən ötən il Məşhəd və Simnan səfərlərində bir-iki tələbə görüşlərində inkişaf modeli haqda danışmışam. Yerli inkişaf modeli odur ki, biz ölkənin inkişafı üçün Avropa alimlərinin nəzəriyyələrinə müraciət etməyək. Demirəm onların elmindən bəhrələnməyək, amma onların nüsxəsi özləri üçündür. Onların elmini öyrənərik, amma xəstəliyimizin nüsxəsini özümüz yazmalıyıq ki, etimadlı olsun, ona arxalanaq və arxayın olaq.

Özünəinam olmasa, deyəcəyik ki, məgər bir bacararıq?! Digərləri bu qədər təcrübə etmişlər, biz indi onlardan yaxşısını etmək istəyirik?! Bu, özünə inamsızlıqdır. İndi də təəssüf ki, bizim bəzi ali təhsillilərimiz bunu deyirlər.[694]

**Digər inkişafların kənarında elmi inkişaf**

Siz bu inkişafda gərək istedadınıza uyğun rol ifa edəsiniz. Bu söz bütün sahələrə aiddir. Mən elə quru adamlardan deyiləm deyim ki, biz şeiri, incəsənəti neyləyirik, indi hələlik elmi başlayaq; belə adamlardan deyiləm. Baxmayaraq ki, elm mənim fikrimcə, ölkənin inkişafında birinci

---

[692] Yəzd əhalisinin böyük toplantısında çıxışdan: 2008.
[693] Yəzd vilayəti universitetlərinin tələbələri ilə görüşdə çıxışdan: 2008.
[694] Yenə orada.

dərəcəli əhəmiyyətə malikdir, bunu tələbə gənclərə və müəllimlərə dəfələrlə demişəm. Eyni zamanda düşünürəm ki, hər şey birgə inkişaf etməlidir: elm, din, incəsənət, sənaye, müxtəlif quruculuqlar, əkinçilik, təminat, xarici əlaqələr. Bunların hərəsi bir sahədir və gərək hamısı birgə inkişaf etsin.[695]

**Təlim və tərbiyə qurumlarında böyük yeniliyə dair məqamlar**

Mən ötən il Tehranda müəllimlərlə görüşəndə təlim və tərbiyə sahəsində böyük yenilik məsələsini irəli sürdüm. Böyük yenilik nə deməkdir? Dəfələrlə demişəm ki, biz qərblilərdən, qeyri-qərblilərdən və əcnəbilərdən öyrənməyə xəcalət çəkmirik, bundan imtina etmirik. Biz bir idarə üsulunu, tədris üsulunu, elmi və ixtiranı digər ölkələrdən öyrənməyə utanmırıq, səhlənkarlıq da etmirik, dalınca düşüb şagirdlik də edirik. Lakin bu şagirdliyin yanında iki məqam var; təəssüf ki, ölkəmizin mədəni dəyişiklik dövrü olan Pəhləvi dövründə bu iki məqama riayət etmədilər, gözlərini bağlayıb qucaqlarını açdılar; kim gəldi və nə verdisə, bunlar da aldılar.

Bu iki məqamdan biri odur ki, biz aldığımızı dəyərləndirək, görək işimizə yarayır, yoxsa yox. Əgər işimizə tam yarayırsa, tam qəbul edək. Əgər tam yaramırsa və zərərlidirsə, hamısını rədd edək. Əgər bu iki vəziyyətin ortasındadırsa, bizə yarayan qədərini qəbul və qalanını rədd edək. Bu birinci məqam.

Mən misal çəkib dedim ki, bir meyvəni, xörəyi və yaxud dərmanı görüb tanıyan, öz əli və öz meyli ilə ağzına qoyub udmaq istəyən şəxslə əl-ayağı bağlanıb ampulla bədəninə bir şey vurulan şəxs arasında fərq vardır. Birincisi düzgündür, ikincisi isə yox. Bizə ampul kimi köçürməməlidirlər, özümüz seçməliyik. Bu, yaddan çıxdı. Özündən gedib hissiz və halsız şəkildə bir tərəfə düşən, bədəninə bir şey vurulan, yaxud boğazına bir şey tökülən insanlar kimi olmayaq. Biz mədəni dəyişiklik dövründə gözlədik ki, boğazımıza bir şey töksünlər.

İkinci məqam budur ki, bu müəllim-şagird məsələsi sonsuzluğa qədər sürməməlidir. Bəli, biz bilmədiyimizi bilən şəxsə şagirdlik etməyə

---

[695] Yəzd vilayətinin elm adamları ilə görüşdə çıxışdan: 2008.

hazırıq. Lakin insan həmişə şagird qalmamalıdır. Biz özümüz müəllim olmalıyıq. Bu iki məqama diqqət yetirilmədi.[696]

**Ekspertlərdən istifadə**

Digər məsələ təlim və tərbiyə mərkəzləri üçün müəllim yetişdirmək məsələsidir. Bu çox əhəmiyyətlidir. Bu gün xoşbəxtlikdən, Təlim və Tərbiyə Nazirliyinin pedaqoq hazırlığı sahəsində yaxşı imkanları var, bu imkanlardan maksimum istifadə etmək lazımdır. Düşünürəm ki, universitetlərin imkanlarından də istifadə olunmalıdır. Çalışın bütün imkanlardan istifadə edin.

Bəzən bir şəxsin universitet diplomu olmaya bilər, lakin bir fəndə və bir işdə ekspert ola bilər. Bizdə Məşhəddə heç bir universitet təhsili və hətta bəzilərinin universitetdən də aşağı təhsili olmayan bəzi ədəbiyyat və şeir adamları vardı, lakin ustad idilər: nasirxosrovşünas, sədsalmanşünas, sədişünas, hafizşünas, saibşünas; universitetdə ədəbiyyat təhsili almış çoxlu müəllimlərdən daha yaxşı. Bu vəziyyət digər sahələrdə də ola bilər. Özünü bunlardan məhrum etmək düz deyil.[697]

**Orta məktəblərin fəaliyyət dairəsi**

Mən qarşılıqlı olaraq digər tərəfdən demək istəyirəm ki, orta məktəblər bütün səviyyələrdə dərs oxumuş və bacarıqlı insanlar təhvil vermək üçün məsuliyyət daşıyır. Orta məktəblərin zəruri olaraq universitetə hazırlıq olduğunu düşünmək səhvdir. Bəziləri özlərinin dünya və axirətlərini universitetə girməkdə görürlər. Eşitmisiniz ki, qəbul imtahanlarından kəsilmiş bəzi gənclər başlarına bəla gətirir, yaxud depressiyaya düşür və ya ata-anaları tərəfindən başıqapazlı edilirlər. Xeyr, cənab, universitet elm və tədqiqatın inkişaf etdiyi mərkəzdir.

Siz bilirsiniz ki, mən elmi inkişafın təbliğatçısıyam, bunun üzərində təkid edirəm. Lakin bunun mənası o deyil ki, biz yaxşı satıcı istəmirik, yaxşı sürücü istəmirik, yaxşı tacir istəmirik, yaxşı usta istəmirik. Ölkənin

---

[696] Fars vilayətinin müəllimləri ilə görüşdə çıxışdan: 2008.
[697] Yenə orada.

bütün səviyyələrində kişi və qadınların mütləq universitetə girməsi lazım deyil. Lakin onlar orta təhsilə ehtiyaclıdırlar.

Deməli, orta məktəblər yalnız universitetə hazırlıq və onun üçün yarımçıq yem düzəldən olmamalıdır. Xeyr, universitet də çox yaxşıdır, lazımdır, ancaq orta təhsilin əhatəsi universitetdən çox genişdir. Siz orta təhsil mərkəzlərində elə insanlar yetişdirməyə çalışmalısınız ki, bunlar lazım olan həddə elm və məlumata malik olsunlar; harada çalışsalar, elmin bu qədərini bilsinlər. Bəzilərində istedad, həvəs var, universitetə girirlər, bəzilərində isə xeyr, ya həvəs, ya da istedad yoxdur və getmirlər.[698]

**Savadsızlığın kökünü qazmaq layihəsi**

Bir məsələ də savadlanma məsələsidir. Biz bu savadsızlıq bəlasını nəhayət, ölkədən uzaqlaşdırmalıyıq. Əvvəla görünür ki, ölkənin bəzi bölgələrində icbari təhsil yaşında olan uşaqlar məktəbə getmirlər. Bu çox təhlükəli bir şeydir, çox pis haldır. Elə etmək lazımdır ki, ibtidai təhsil hamı üçün icbari olsun; ən azı ibtidai təhsil şəhadətnaməsi almaq icbari sayılsın; pasport kimi, sürücülük vəsiqəsi kimi hamı buna malik olsun.

Bu çox mühüm məqamdır, lakin ona diqqət yetirilmir. Bu diqqətsizliklər də ölkənin bəzi yerlərində sui-istifadələrə bais olur. Uşaqlar məktəblərə gəlib bu mərhələni keçirməlidirlər, sonra nə iş görsələr, özləri bilərlər. Bu mərhələ isə icbari olmalıdır.

Təlim və tərbiyə mərkəzləri və Savadlandırma hərəkatının idarələri həqiqətən oturub bir hədd müəyyənləşdirməlidirlər. Misal üçün, 50, 55, yaxud 60 yaşdan aşağı insanlar üçün bir müddət müəyyən edib desinlər ki, filan müddətə, məsələn, beş ilə qədər bütün ölkədə bu insanlar mütləq savadlanmalıdırlar. Bu yaşlardan yuxarı olanlar da ümumi şəkildə buraxılmasınlar, sadəcə olaraq, onlarla az işlənsin. Lakin 50, yaxud 55 yaşdan aşağı olan bütün kişi və qadınlar mütləq savadlansınlar ki, daha ölkədə belə savadsız insan olmasın.[699]

**Elm adamlarına ciddilik tövsiyəsi**

---

[698] Yenə orada.
[699] Yenə orada.

Mən bir neçə il öncə ölkə gənclərinə dedim ki, ölkənin gələcəyi sizə məxsusdur, gedin elmlə və elmi yeniliklə məşğul olun. Bizim universitet gənclərimiz də müsbət cavab verdilər. Bizim təcrübəli müəllimlərimiz bu sahədə öz iştirakları və ciddilikləri ilə işi inkişaf etdirdilər. Bu gün baxanda görürük ki, ölkənin elmi inkişafı bundan 10-15 il öncəyə nisbətən çox artmışdır və göz oxşayır. Bundan sonra da belə olacaq.[700]

**İranın layiqli yerinə çatmağa ümidi**

Bütün əlamətlər bizə ümid, inkişaf müjdəsi verir. Bütün sahələrdə ümidvarıq ki, bu müjdələr inşallah bir nəsildən də tez həyata keçsin və bizim gənclərimiz müsəlman İranın özünə layiq yerdə durmasını, dünya xalqlarının, dünyanın alim və mütəfəkkirlərinin elmi məsələlərdə yeni addımlar atmaq üçün İrana, İranın dilinə və mədəniyyətinə ehtiyaclı olduqlarını hiss edəcəkləri günü görsünlər. Bu mümkündür. Bu gün bəşərin ehtiyacı olan bir çox fənləri öyrənmək üçün insanın hansısa ölkənin və hansısa xalqın dilini öyrənməyə ehtiyacı olduğu kimi, o zaman da dünya xalqı hiss edəcək ki, sizin dilinizi, mədəniyyətinizi öyrənməyə ehtiyacı var.

O gün gələcək və mümkündür. Əgər biz səy göstərsək və bu gün Allahın lütfü ilə gənclərimizin, mütəfəkkirlərimizin və xalqımızın ürəyinə dolmuş həmin maraq inşallah davam etsə, o gün çox uzaqda olmayacaq.[701]

**Son illərin elmi sıçrayışını davam etdirməyin zəruriliyi**

Elm istehsalı, Proqramlaşdırma hərəkatı, özünəqayıdış və universitetlərdə tədqiqata səy məsələlərinin irəli sürüldüyü son illərdə bu sahədə bir sıçrayış yaranmışdır. Bəzi elm məsələlərində, nümunələrini müşahidə etdiyiniz elmi və texnoloji işlərdə, tibb elmlərində, yeni elmlər sahəsində, nüvə məsələlərində, Nano və digər sahələrdə bizim universitetlərimizdə mühüm işlər görülmüşdür. Keşmişdə bunları bacarmağımız təsəvvür olunmurdu; təsəvvür olunmurdu ki, bizim

---

[700] Kazirun rayonun əhalisi ilə görüşdə çıxışdan: 2008.
[701] Fars vilayətinin yüzlərlə alim və ziyalısı ilə görüşdə çıxışdan: 2008.

tədqiqatçımız, müəllimimiz, tələbəmiz, gəncimiz bunları əldə edə bilsin və bu sıçrayışa nail olsun. Amma bu gün nail olmuşdur.

Mühüm olan budur ki, bu sıçrayış davam etdirilsin. Biz elmi sahələrdə ardıcıl geriliyə düçar olmuşuq. Mühüm olan sürətli hərəkətin davam etdirilməsidir. Biz bu sürəti illərlə davam etdirməliyik. Bizim bir an da dayanmağımız yolverilməzdir. Çünki bizim elmdə inkişaf etmiş dünyaya nisbətən geriliyimiz çoxdur. Bunu bilir, anlayır və bundan əziyyət çəkirik.

Bizim xalqımız orta həddən aşağı istedada malik bir xalq deyil ki, bu vəziyyətlə qane olsun. Bizim xalqımız dünyanın orta həddindən yuxarı istedada malik bir xalqdır. Bu, sübut olunmuş bir sözdür, hamı deyir və təsirləri də müşahidə olunur. Bizim elmi keçmişimiz, elm tariximiz də bunu təsdiqləyir. Bu xalq Yer kürəsinin bu həssas nöqtəsində elmi baxımdan məcburən sürükləndiyi geriliyə və yoxsulluğa düçar olmuşdur. Bu, dözüləsi deyil.

Biz Allaha şükür edirik ki, bu geriliyi, yoxsulluğu bizə anlatdı. Allaha şükür edirik ki, bu geriliyi aradan qaldırmaq üçün bizə iradə, həvəs və ümid verdi. Buna əsasən, indiki sürət illərlə davam etdirilməlidir.[702]

**Elmi hərəkətdə bizim yalqız və məzlum olmağımız**

Mən sözsüz ki, bununla qane olmuram. Bu o demək deyil ki, mən məqsədimizə çatdığımızı düşünürəm. Xeyr! Bu tarixi və uzun geriliyi düzəltmək üçün çox iş görmək lazımdır. Xüsusən də biz yalqızıq! Heç kim İslam quruluşunu və İslam təfəkkürünü dəstəkləmir. Siz çinliləri gördünüz; Pekində keçirilən olimpiyada çinlilərin texniki bacarıqlarının bir hissəsi göründü. Onlar elmi baxımdan çox yaxşı inkişaf etmişlər. Lakin unutmayın ki, 1948-ci ildə yeni və kommunist Çin qurulanda bunların heç nəyi yox idi. Lakin ideoloji baxımdan, elmi və texniki inkişaflar sarıdan olduqca təcrübəli dövlət olan SSRİ-nin nəyi vardısa, Çinin ixtiyarına buraxdı. Onda Stalin dövrü idi. Böyük Sovet ölkəsinin yanında və Asiyanın qəlbində Çin kim böyük bir ölkənin olması - əlbəttə, o zaman Çinin əhalisi indiki qədər deyildi, amma hər halda böyük, geniş və əhalisi

---

[702] Elm və Sənaye Universtetində müəllim və tələbələrlə görüşdə çıxışdan: 2008.

çox olan bir ölkə idi - ozamankı kommunist SSRİ üçün çox mühüm idi. Onların nəyi vardısa, çinlilərin ixtiyarına buraxdılar, hətta nüvə enerjisini də.

Nüvə enerjisini bizim gənclərimiz özləri əldə etdilər, çinlilər isə onu ruslardan hədiyyə aldılar. Şimali Koreyaya da verdilər; həm çinlilər verdilər, həm ruslar. Görürsünüz ki, Çin kimi ölkələrin inkişafı digər ölkələrin çox böyük və müstəsna dəstəkləri sayəsində həyata keçdi. Hindistan da başqa cəhətlərdən belə ölkələrdəndir.

Bilirsiniz ki, Stalindən sonra bir neçə onilliyə qədər Rusiya ilə Çin arasında dərin uçurum yarandı; Şərq və Qərb konflikti kimi və bəlkə də daha kəskin. Bu iki böyük kommunist ölkəsi arasında qarşıdurma rusların Çinin qonşusu olan hindlilərə kömək etməsinə, çinlilərin isə Hindistanın rəqibi olan Pakistana kömək etməsinə səbəb oldu. Yəni müttəfiq seçməkdə siyasi amillər öz rolunu oynadı. O zaman çinlilər nüvə enerjisini Pakistana, ruslar da nüvə enerjisini və bir çox mütərəqqi vasitələri Hindistana verdilər. Yəni həm Hindistan, həm də Pakistan məhsullarını digərlərindən aldılar.

Mən nə qədər baxıramsa, görürəm ki, müxtəlif sahələrdə belə inkişaf etmiş bu ölkələrin heç biri bizim ölkəmiz kimi deyil. Biz məzlum, yalqız və bütün bu düşmənllərin əhatəsindəyik. Həm kommunist Şərq, həm də kapitalist Qərb bizimlə kəskin düşmən idilər; Avropa orta bir rol ifa etməyə meyl göstərsə də, o da bizə heç bir kömək etmədi, hətta zərbə də vurdu. Lakin xalqımızın bu istedadlı, zirək və bəzən çox qoçaq gəncləri bu yeni işləri inkişaf etdirib ərsəyə gətirə bildilər. Böyük işlər görülmüşdür. Bu çox ümidvericidir.

Bu işləri gələcəkdə də görə bilərsiniz. Mən gələcəyə çox nikbinəm. İndiki vəziyyəti təqdirəlayiq bilsəm də, bu vəziyyətlə qane olmağı heç kim üçün - nə hökumət adamları, nə siz gənclər, nə də müəllimləriniz üçün düzgün sayıram. Biz hələ çox yol getməliyik, çox hərəkət etməliyik. Bizim zirvələrlə və hətta bəzi zirvədən aşağılarla məsafəmiz çoxdur. Bu məsafələri qət etməliyik.[703]

---

[703] Universitetlərin gənc alimləri ilə görüşdə çıxışdan: 2008.

**Sərvətin xəzinəni boşaltmaqla yox, elmlə istehsal olunması**

Sözsüz ki, bunlar üçün sərvət və pul lazımdır. Pulu həmin yolla əldə etməliyik. Dostların dediyi bu məsələlərin əksəriyyəti düzgündür və bizə verilən qeydlərdə hamısı mövcuddur. Onlar da dedilər ki, sərvəti bu yolla əldə etməliyik. Ölkənin gəlirini elmimiz vasitəsi ilə əldə etdiyimiz və neft quyularının ağzını plombladığımız gün bizim üçün yaxşı gün olacaq. Bu gün biz ehtiyatlarımızı yeyirik. Ölkə büdcəsinin çoxu neftdəndir. Neft bizim ehtiyatımızdır. Biz çarəsizlikdən xəzinəmizi boşaltmaqdayıq.

Elə bir gün çatmalıdır ki, öz elmimizdən çörək yeməliyik, bu xalq öz elmi ilə sərvət istehsal etməlidir. O zaman o sərvətin özü elmin inkişafına kömək edəcək. Elm sərvətə kömək edəcək, sərvət də elmə; daim bir-birini artıracaqlar. Biz belə bir günə çatmalıyıq. Əlbəttə, istiqamətlər düzgün, mənəvi və ilahi olmalıdır.[704]

**Elm və təhsil fəaliyyətlərində xidmətin niyyəti**

Ölkəyə elmlə xidmət etmək şərəfini uca tutun. Müxtəlif yollarla ölkəyə xidmət etmək olar. Ən yaxşı yolların biri elm yolu ilə xidmət etməkdir. Bəli, siyasətçilər də ölkəyə xidmət edirlər, Allah yolunun mücahidləri və hərbçilər də ölkəyə xidmət edirlər, tacirlər, sənətkarlar və digərləri də. Lakin ölkəyə xidmətin ən dəyərli yollarından biri elmdir. Öncə deyilən dəlillərə əsasən, elm milli iqtidar, hər bir ölkəyə qüdrət, sərvət və şərəf amilidir.

Siz bu niyyətlə dərs oxuyub yüksək elmi dərəcələrə nail olsanız, işiniz ibadət olar. İnsanın bir iş iki müxtəlif niyyətlə iki müxtəlif hala düşər: bəzən ibadət olar, bəzən isə günah.

...Siz təhsili, elmi fəaliyyəti xalqa, ölkəyə xidmət üçün və İslam quruluşunun başucalığı üçün etsəniz, şübhəsiz, savab işlərinizdən biri olar.[705]

**Elmi mənbə olmaq məqsədilə elmi başucalığına çatmaq**

---

[704] Yenə orada.

[705] Yenə orada.

Dedik ki, ölkə elmi ucalığa nail olmalıdır. Məqsəd də dəfələrlə dediyimiz kimi, dünyada elmi mənbə olmaqdır. Yəni bu gün sizin elm üçün, elmi məhsulları əldə etmək üçün digər ölkələrin alim və kitablarına müraciət etməyə məcbur olduğunuz kimi, elə bir mərhələyə çatmalıyıq ki, elm öyrənənlər elminizdən istifadə etmək üçün sizin yanınıza gəlməyə, sizin kitabınızı tapmağa və sizin dilinizi öyrənməyə məcbur olsunlar. Məqsəd bu olmalıdır.

Bu, xam xəyal deyil, mümkün məsələdir. Bizim bu gün elm və texnologiya baxımından qərarlaşdığımız vəziyyət də bir zamanlar xam xəyallardan sayılırdı.[706]

**Ölkənin ümumi elmi xəritəsini hazırlamağın zəruriliyi**

Bizim ölkəmizin və xalqımızın bir gün elm karvanını irəliyə aparıb dünyada elmin mənbəyi ola bilməsi mümkündür. Düzdür, bunun üçün bəzi işlər görülməlidir; bu işlər başlanmışdır da. Bunların biri özünüdərkdir; yəni iş görməyin lazım olduğunu və işi bacardığımızı hiss edək.

İşlərdən başqa birisi ölkənin ümumi elmi xəritəsini hazırlamaqdır ki, ölkə elm öyrənmək və müxtəlif elmlər baxımından çaş-baş qalmasın. Bu iş xöşbəxlikdən, görülmüşdür. Universitetlərdən və sizin universitetinizdən çıxmış dostlar, tədqiqatçılar, görkəmli şəxsiyyətlər ümumi elmi xəritəni hazırlamışlar, bitmək üzrədir və bu, ölkədə elmin inkişafı yolunda çox böyük bir addımdır.

Əlbəttə, ümumi elmi xəritə hazırlandıqdan sonra digər işlər də görülməlidir; o cümlədən bu xəritənin mühəndislik sistemini yaratmaq, ümumi elmi xəritəni yüzlərlə elmi layihəyə çevirmək və bu layihələri həmin universitetlərdən, universitetlərin müəllimlərindən və tədqiqat mərkəzlərindən ibarət etimadlı podratçılara tapşırmaq, sonra bu elmi inkişafa nəzarət şəbəkəsi qurmaq, gözəl icra etmək, müəllimi, tələbəni və tədqiqatçını bu işlərə qoşmaq; bunlar ümumi elmi xəritənin mühəndislik layihəsində mütləq nəzərə alınmalıdır. Hər bir tələbə rol ifa edə bilər.

---

[706] Elm və Sənaye Universtetində müəllim və tələbələrlə görüşdə çıxışdan: 2008.

Tədqiqat və təhsil mərkəzlərindən hər biri rol ifa edə bilərlər; müəllimlər də həmçinin.

Odur ki, bu, bir neçə ilin işidir. Bu iş ciddi, tam intensivliklə və ümidlə icra olunmalıdır və inşallah yaxşı nəticələrə çatacaq. Mütləq elə bir gün çatacaq ki, siz İran universitetlərinin və İran alimlərinin elmi mənbə olmasının imkandan xaric olmadığını və sizə çox yaxın olduğunu görəcəksiniz. Siz gənclər mütləq bunu görəcəksiniz; mənim şübhəm yoxdur.

Bu birinci məsələ barədə: universitetlər, tələbəlik və tələbədən gözlənti. Əlbəttə, bu işdə müəllimlərin rolu çox təyinedici, mühüm və həssasdır.[707]

**Beşinci inkişaf proqramında elm və texnologiyaya baxış**

Cənab Doktor Əhmədinejad!

İran İslam Respublikasının möhtərəm prezidenti!

Salam!

Ölkənin iyirmiillik mənzərə sənədinin ikinci beşilliyinin çatması, bir tərəfdən, 44-cü prinsipin ümumi siyasətləri kimi bəzi ümumi siyasətlərin elan olunması və digər tərəfdən, bəzi beynəlxalq hadisələr tələb edir ki, iyirmiillik mənzərə sənədinə münasib olan dönəm məqsədlərinin əldə edilməsi istiqamətində ölkənin beşinci beşillik proqramı bacardıqca tez tərtib edilsin. İndi İran İslam Respublikasının beşinci beşillik inkişaf proqramının əsası olan ümumi siyasətlər elan olunur.

Hövzə və universitet mütəfəkkirlərinin ədalət və onun tələblərinin izahı sahəsində ciddi iştirakının bu işdə təyinedici rolu var. Mən həmçinin Quruluşun Məsləhətini Müəyyənləşdirən Quruma, möhtərəm Dövlət Şurasına, qurumun katibliyinə, eləcə də bu idarələrlə əməkdaşlıq edən və beşinci proqramın ümumi siyasətlərinə aid təkliflərin tənzim olunmasında böyük rol oynayan fəal ekspertlərə səmimi minnətdarlığımı bildirirəm.

...

İran İslam Respublikasının iqtisadi, ictimai və mədəni inkişafının beşinci proqramının ümumi siyasətləri

---

[707] Yenə orada.

...

-Mədəni işlər

Quruluşun mədəni məqsədlərinin həyata keçməsi üçün informasiya və rabitə texnologiyalarından yaxşı istifadə

-Elmi və texnoloji məsələlər

1. Ali təhsil və tədqiqat sistemində aşağıdakı dəyişikliklər edilsin:

Beşinci proqramın sonuna qədər tədqiqat büdcəsinin ümumi daxili məhsulun üç faizinə qədər artması və bakalavr pilləsinin məzunlarının daha yüksək təhsil pillələrinə girişinin iyirmi faizə çatdırılması;

Regionda elm və texnologiyanın ikinci yerinə çatmaq və onun beşinci proqramda təsbit olunması;

Universitetlər və tədqiqat mərkəzləri ilə sənaye və cəmiyyətə aid sahələr arasında təsirli əlaqə;

Elm və texnologiya istehsalında iştirak etmək üçün qeyri-hökumət sektorunun gücləndirilməsi;

Ehtiyac duyulan mütərəqqi texnologiyalara nail olmaq.

2. Ölkənin ehtiyac və prioritetlərinə əsasən elm, peşə və tərbiyə sahəsində keyfiyyəti yüksəltmək məqsədi ilə ibtidai və orta təhsil sistemində dəyişiklik və həmçinin şagirdlərin psixoloji və fiziki sağlamlığının artırılması;

3. Humanitar elmlərdə yenilik və inkişaf: Bu elmlərə diqqətin artırılması, istedadlı və həvəskar kadrların cəlb olunması, dərs vəsaitlərinin, proqramlarının və üsullarının islahı və onlara yenidən baxış, tədqiqat mərkəzlərinin və fəaliyyətinin kəmiyyət və keyfiyyətinin yüksəldilməsi, nəzəriyyə yürütməyə həvəsləndirmə, tənqid və azadfikirliliyə rəvac vermə;

3. Elm və texnologiya yeniliklərinə və alimlərinə maddi və mənəvi cəhətdən məqsədyönlü dəstəklərin artırılması: Alimlərin ictimai nüfuzunun, elm və peşə səviyyəsinin yüksəldilməsi, yeniliklərin tədqiqat və laboratoriya mərhələlərində maliyyə təhlükəsi ilə bağlı narahatlıqların aradan qaldırılması və onların nailiyyətlərinin ticariləşdirilməsinə kömək etmək;

4. Ölkənin ümumi elmi xəritəsinin təkmili və icrası;

-İctimai işlər

1. Gənclərin İslam inqilabının amallarına uyğun milli kimliyini gücləndirmək, peşə nigaranlıqlarını, iş yerləri, izdivac, ev və onların ictimai təhdidlərinə dair narahatlıqlarını aradan qaldırmaq istiqamətində çalışmaq, düşüncə və elmi inkişaf mühiti yaratmaq, gənclik dövrünün tələb, ehtiyac və bacarıqlarına diqqət yetirmək;

2. Xüsusən yüksək texnologiya ilə təminat sahəsində ixracatın inkişafı strategiyası üzərində dayanmaq; belə ki, neftsiz ticarət balansının kəsri azaldılsın və təminat ticarətində tarazlıq yaradılsın;

3. Cənub-Qərbi Asiya regionu ölkələri ilə ticarətdə investisiya və texnologiyada hərtərəfli əməkdaşlığın artırılması;

4. İnformasiya proqramının vahid sistemini yaratmaq, kompüter məlumatlarının mühafizə səviyyəsini yüksəltmək, informasiya mübadiləsi şəraitini qorumaq məqsədi ilə informasiya və rabitə təhlükəsizliyini qorumağa aid elm və texnolgiyaların inkişafı, virtual qanun pozuntuları ilə mübarizə üçün texnikanı gücləndirmək, şəxsi və ümumi informasiyaları qorumaq;

5. Yeni elm və texnologiyaları və mütərəqqi müdafiə proqramlarını öyrənmək, müdafiə sənayesinin yenidən qurulması, tədqiqatın inkişafı və ölkənin bütün sənaye potensiallarından bəhrələnməklə özünütəmin əmsalını artırmaq.[708]

**Təhsil sistemində dəyişikliyin zəruriliyi**

Təlim və tərbiyə məsələsində mənim təkid göstərdiyim məsələ birinci növbədə təhsil sistemində dəyişiklik layihəsindən ibarətdir. Möhtərəm nazir də buna toxundu, biz də dəfələrlə təkid etmişik. Bizim təlim-tərbiyə sistemimiz təqlidçi və köhnədir, onda iki pis xüsusiyyət var:

Əvvəla, qaranlıq Pəhləvi dövründə və ondan bir qədər əvvəl ölkədə tətbiq edilən təlim-tərbiyə sistemində ilk gündən ölkənin ehtiyaclarını və ənənələrini nəzərə almadılar. Ölkə ənənələrinin təməli olmalı, digərlərinin təcrübələrindən də maksimum istifadə edilməlidir. Biz hansısa Qərb

---

[708] İnqilabın Böyük Rəhbəri tərəfindən Beşinci inkişaf proqramının ümumi siyasətləri: 2009.

ölkəsinin öz tələblərinə uyğun və bütün mümkün xətaları ilə işlətdiyi bir örnəyini götürüb eynilə buraya gətirməməliyik. Təəssüf ki, bu işi gördülər. Bu, mütləq təqlidçilik idi.

İkincisi budur ki, o da köhnəlmişdir. Bir zaman ölkəmizin asılı məmurlarının "təqlid müctəhidi" olanların özləri bu gün bu üsullardan imtina etmiş və yeni üsullara keçmişlər, biz isə hələ də qədim üsullardan yapışmışıq. Yenilik lazımdır.[709]

**İnkişafın elmi örnəyinin hazırlanması**

İnkişafın xüsusiyyətləri bunlarla bitmir, diqqətlə araşdırmaq lazımdır. Fikir sahibləri universitetlərdə bu məsələlər üzərində araşdırma aparsınlar, elmi şəkildə izah etsinlər, örnək yaratsınlar ki, bunu proqrama çevirib icrasına başlayaq və on ildən sonra xalq həqiqətən inkişaf etdiyini duysun.

Hər bir inkişaf örnəyi ölkənin müstəqilliyinə təminat verməlidir. Bu bir meyar sayılmalıdır. İnkişaf üçün irəli sürülən örnəklərin hər hansı biri ölkəni asılı və xar etsə, siyasi, hərbi və iqtisadi baxımdan qüdrətli ölkələrə təqlidçi etsə, rədd edilməlidir. Yəni inkişaf onilliyində inkişaf modelinin qəti məsələlərindən biri müstəqillikdir. Siyasətdə, iqtisadiyyatda və ya digər sahələrdə formal və asılı inkişaf inkişaf sayılmır.

Bu gün xüsusən Asiyada texnologiya, elm və sənaye baxımından formal inkişafı olan ölkələr var. Onlar dünyanın çoxlu yerlərini tutmuşlar, lakin asılıdırlar, xalqın və hökumətin nə beynəlxalq siyasətlərdə, nə dünya iqtisadiyyatında, nə də beynəlxalq miqyasda mühüm layihələrdə rolu var. Onlar digərlərinin və əksərən ABŞ-ın ardınca düşmüşlər. Bu, inkişaf deyil və dəyəri yoxdur.[710]

**Universitet kadrları tərəfindən inkişafın yerli örnəyinin hazırlanmasının zəruriliyi**

Ölkəmizdə inkişafın bizim tarixi və coğrafi şəraitimizə, torpaq və məmləkətimizin vəziyyətinə, xalqımızın vəziyyətinə, adət-ənənələrimizə,

---

[709] Müəllimlər, feldşerlər və fəhlələrlə görüşdə çıxışdan: 2009.
[710] Kürdüstan vilayətinin müəllim və tələbələri ilə görüşdə çıxışdan: 2009.

mədəniyyətimizə və tarixi irsimizə uyğun olan özəl örnəyi var; o örnəyi axtarıb-tapmalıyıq. O örnək bizi inkişafa aparacaq, digər nüsxələr bizə yaramaz. İstər Amerika inkişaf nüsxəsi, istər Qərbi Avropa inkişaf nüsxəsi, istər fərqli bir növ olan Şimali Avropaya - Skandinaviya ölkələrinə xas Avropa inkişaf nüsxəsi – bunların heç biri bizim ölkəmizin inkişafı üçün ideal model ola bilməz. Biz öz yerli modelimizi axtarmalıyıq. Bizim hünərimiz bu olacaq ki, öz şəraitimizə münasib olan yerli inkişaf modelini tapaq.

Mən bu söhbəti universitetdə edirəm. Mənası budur ki, bu tədqiqatı və bu araşdırmanı siz tələbə və müəllimlər, siz universitet mənsubları ciddi şəkildə aparmalısınız. Və inşallah bunu bacaracaqsınız.[711]

**Elmi təşkilatların sayını artırmaq yerinə onların səmərəliliyini çoxaltmaq**

Bəzi dostlar dedilər ki, ölkənin elm və mədəniyyət qurumlarının indiki fəaliyyəti ölkə ehtiyaclarına cavab vermir. Mən təcrübəyə əsaslanaraq demək istəyirəm ki, təşkilatların artması problemlərin həllinə kömək etmir. Biz daha bir təşkilat, fərz edin, Universitet Ekspertləri Birliyi adlı bir şey yaradaq. Bu məqsədlərə çatmaq üçün müxtəlif idarə və dövlət təşkilatları yığnağı həqiqətən təsirli deyil. Mövcud təşkilat və orqanların fəaliyyətini səmərəli etmək lazımdır.

Fərz edin, Təhsil Nazirliyinin özü aidiyyətli müavinliklərdə və onların tabeliyində olan şöbələrdə diqqətli olub savadlı, işgüzar, mömin, inqilabçı, cəsur və düşüncəli kadrları vəzifəyə təyin etsinlər. Yaxud mənim dəfələrlə tövsiyə etdiyim kimi, Mədəni İnqilab Ali Şurası elmi nümunələrlə əlaqəsini asanlaşdırsın və onların fikirlərindən istifadə etsinlər. Ölkədə elm və tədqiqatı inkişaf etdirmək üçün mövcud təşkilatları gücləndirmək lazımdır.[712]

**Elmi nümunələrin son illərin elmi hərəkətinin dayanmasına mane olması**

---

[711] Yenə orada.

[712] Universitet müəllimləri ilə görüşdə çıxışdan: 2009.

Görməli olduğumuz işlər arasında xüsusi olaraq bir nöqtə üzərində dayanmaq istəyirəm. O nöqtə elmdir. Bir neçə ildir ölkədə elmi hərəkət başlanmışdır. Elm adamları bu hərəkətin zəifləməsinə, yaxud Allah eləməmiş, dayanmasına qoymasınlar. Bu barədə hövzə və universitetin üzərinə ağır məsuliyyət düşür; müəllim və tələbələrin hamısı məsuliyyət daşıyırlar. Siz elmin yolunu tapmalısınız. Bir xalq elmdə inkişaf edə bilməsə, uğur qazana bilməz.

Əgər bəzi şəxslərin dünyada açıq şəkildə, qorxmadan zülm etdiklərini görürsünüzsə, bu, elmlərinə görədir. Onlar üçün sərvət, siyasi güc, dünyada və müxtəlif bölgələrdə nüfuz yaradan amil elmdir. İnkişafın açarı elmdir. Elmi hərəkətin dayanmasına qoymayın.[713]

**Gələcək ehtiyaclar əsasında gələcək fəaliyyətlərin təsviri**

Əziz gənclərin biri dedi: "Fəaliyyətlər gələcək ehtiyaclar əsasında olmalıdır; bu gələcəyi təsvir edin, bu ehtiyacları təsvir edin!" Yaxud eyni mövzuda başqa bir əziz gənc dedi ki, hərəkət istiqamətimizi özümüz müəyyənləşdirək, digərlərinin - qərblilərin təsvir etdiyi hərəkət istiqamətini seçib onların krossvordlarını doldurmayaq; görək nəyə ehtiyacımız var, onu təmin edək. Bu sözlər çox böyük, çox mühüm sözlərdir. Bunlar elə sözlərdir ki, hər bir ayıq, mütəfəkkir, qayğıkeş və məsuliyyətli insan ölkənin elmi hərəkətinə ümumi şəkildə baxdıqda bunları dərk edir. Lakin bu dərk lazım olsa da, kifayət etmir; mühüm məsələ onun əsasında proqram hazırlamaqdır.[714]

**Elm və tədqiqat sahəsində "daha çox səy və daha çox iş"**

Bu əsasla daha çox səy göstərilməli və daha çox iş görülməlidir. Müxtəlif sahələr var: Birinci növbədə elm və tədqiqat sahəsi, universitetlər və bütün fənlərdə - təcrübi elmlərdə, ölkə üçün lazım olan humanitar elmlərin bütün sahələrində aparılan tədqiqat mərkəzlərində tədqiqata və elmə səylərini artırsınlar, daha uzaq mərhələləri diqqətdə saxlasınlar, işi çoxaltsınlar.

---

[713] Mübarək Fitr bayramı namazının xütbələrindən: 2009.
[714] Ölkənin elmi elitasının nümayəndələri ilə görüşdə çıxışdan: 2009.

Mən dedim ki, bizim gənclərimizin məqsədi ölkələrini bir-iki onillikdən sonra dünya alimləri üçün elmi bir mənbəyə çevirmək olmalıdır. Elm və tədqiqat sahəsində "daha çox səy və daha çox iş" budur.[715]

**Düşüncə istehsalında daha çox səy və iş**

Daha çox səy və iş tələb edən mühüm məsələlərdən biri də düşüncə istehsalı məsələsidir; kitab oxumaq və müxtəlif sahələrdə ümumi məlumatı artırmaq. Bizim universitet və hövzələrdə yaradılmasını dediyimiz və təklif etdiyimiz azad diskussiyalar cəmiyyətdə çox dəyərli bir düşüncə cərəyanının əsasını qoya bilər.[716]

**Sənaye sahəsində tədqiqatın zəruriliyi**

Əhəmiyyətli olan başqa bir məsələ də tədqiqat məsələsidir; tədqiqat və texnologiyanın inkişafı. Bu gün dünyanın bütün sənayeləri, o cümlədən maşınqayırma sənayesi elmə əsaslanır; daim düşünür, işləyir, tədqiqat aparır, araşdırırlar ki, məhsullarını daha yaxşı, nöqsansız, daha gözəl, daha qənaətcil və daha ucuz çıxarsınlar. Bu, elmi inkişaf olmadan, diqqət və tədqiqat olmadan imkansızdır. Tədqiqat qapısını açıq qoymaq lazımdır. Müxtəlif qurumlar, sənaye zavodları, sənaye müdirləri və sənaye işinə nəzarət edən dövlət məmurları tədqiqat üzərində çox çalışmalıdırlar. Bu, çətin rəqabət şəraitində sənayenin özünü qorumasına və inkişaf etmiş rəqiblərlə rəqabətdə yıxılmamasına kömək edər. Bu, tədqiqatla mümkündür.[717]

**Sənayedə tədqiqat vasitələri ilə inkişaf**

Bizim üçün əkinçiliyin böyük əhəmiyyəti var və məncə ölkəmizin həyatının əsas sütunlarından biri budur. Bu da sənayeyə bağlıdır. Sənaye inkişafı olmadan əkinçiliyin inkişafı mümkün deyil. Yəni mənim sənaye üzərində təkidim əkinçilik sahəsinin inkarı kimi başa düşülməsin. Bu, əslində ölkənin əkinçiliyinin də daxil olduğu ümumi inkişafına köməkdir.

---

[715] İmam Rzanın (ə) müqəddəs məqbərəsinin ziyarətçilərinin toplantısında çıxışdan: 2010.

[716] Yenə orada.

[717] Maşınqayırma sənayesinin məhsullarına baxış keçirərkən etdiyi söhbətlərdən: 2010.

Mən sənaye inkişafında israrlıyam və bu inkişaf da tədqiqatla, Allahın lütfü ilə siz əziz gənclərdə olan zəngin düşüncə və istedadı işlətməklə və sizin mahir əllərinizlə mümkün olacaq.

Mən sizə deyirəm ki, bu gün sənayedə məşhur olan və dünyada birinci sırada duran ölkələrin çoxusu haqda dəqiq məlumatım var; onların istedad səviyyəsi ölkəmizin orta istedad səviyyəsindən çox aşağıdır. Lakin çoxlu iş və fəaliyyətlə inkişaf edə bilmişlər.

İstedad və beyin gücünə malik olmaq bizdə olan çox mühüm amillərdən biridir. Biz ikinci amil olan müntəzəm iş, fəaliyyət və yorulmazlıq amilini də ona əlavə etməliyik. Bilin ki, o zaman ölkə inşallah güclü hərəkətə başlayacaq, güclü inkişaf edəcək və böyük işlər görəcək. Necə ki, biz bu gün ölkəmizin bəzi sahələrdə ilk on, yaxud səkkiz ölkə sırasında dayandığını görürük. İndi burada çıxış edənlərin biri dedi ki, dünyanın altı ölkəsindən biriyik. Bu imkanımız var və bu işi görə bilərik. Bunlar çox mühümdür. Bu elə bir ölkədir ki, inqilabdan öncə sənaye, yaradıcılıq və fəaliyyətlə kilometrlərlə məsafəsi vardı; nə ümidi olub, nə özünəinamı, amma bu gün bu səviyyəyə çatmışdır. Bu, çox mühüm məsələdir. Buna əsasən, yolunuz açıq və inkişaf istedadı çoxdur. Allah-Taaladan istəyirik ki, inşallah sizə uğur bəxş etsin və köməkçi olsun![718]

**Elm - ölkənin maddi inkişafına lazım olan iki amildən biri**

İndi məsələnin mahiyyətinə baxaq. Ölkənin maddi inkişafı birinci növbədə iki amilə bağlıdır: onun biri elmdir, biri istehsal. Əgər elm olmasa, istehsal da ziyan görər. Ölkə elmlə inkişaf edir. Elm olsa, amma bu elmin əsasında istehsal yenilənməsə, kamilləşməsə və artmasa, ölkə yenə də yerində sayacaq. Tağutların hakimiyyəti dövründə bizim problemimiz bu idi ki, elmimiz və buna görə də elmə əsaslanan, irəliləyən və inkişaf edən istehsalımız yox idi. Odur ki, dünya sənaye işlərinə başlayanda inkişaf etdi; sənaye işinə Avropadan gec başlayan Asiya qitəsi inkişaf etdi, lakin biz tağutların hakimiyyəti və müxtəlif şəraitlər səbəbindən geridə qaldıq.

Bunu düzəltmək üçün elmə və istehsala əhəmiyyətli yanaşmaq lazımdır. Elm, tədqiqat mərkəzlərində yeni və modern şəkillərdə çalışmaq

---

[718] Yenə orada.

lazımdır. Mən bir neçə ildir elm üzərində təkid göstərirəm və Allaha şükür olsun ki, ölkədə elmi inkişaf və elm istehsalı hərəkətə başlamışdır. Təbii ki, daha da sürətlənməlidir. Biz hələ yolun əvvəlindəyik.[719]

**Ölkənin sabahının müəllimin əlində olması**

Əziz müəllimlər bu ölkənin sabahı üçün bizim necə insana ehtiyacımızın olduğunu diqqətdə saxlasınlar. Bu ölkəni ideal şəkildə qurmaq üçün bizim qadın və kişilərimizin hansı xüsusiyyətləri olmalıdır? Bu sizin əlinizdədir. Sinifdə qarşınızda oturan yeniyetmə, yaxud uşaq sizin ixtiyarınızdadır. Siz öz söz və rəftarınızla ona özünəinam aşılaya, ümid verə, işə sövq edə, layiqli dindarlıq ruhunu köçürə, onu zirək, çalışqan, ictimai və ümummilli mənafeyi uca tutan şəkildə yetişdirə və onda yaradıcılıq ruhunu dirçəldə bilərsiniz.

Bizim dəyərli müəllimimiz öz sinfi çərçivəsində bu işləri görə bilər. Bu, ölkə müəllimlərin ümumi vəzifəsidir.[720]

---

[719] Beynəlxalq Əmək Günü ərəfəsində ölkənin nümunə fəhlələri ilə görüşdə çıxışdan: 2010.

[720] Ölkə müəllimləri ilə görüşdə çıxışdan: 2010.

## Səkkizinci fəsil: İran mədəniyyəti və istedadı - elmi öncüllüyün əlverişli şərti

**Öz elm və istedadımıza güvənmək**

Gənclər istedadlıdılar. Bizim aramızda elmi kadrlar var. Bizim xalqımızda yaradıcılıq ruhu çoxdur. Bu xalq öz ayağı üstə dura bilər. Düşmən möminlərə və İslama heç bir kömək etməyəcək. Bunlar İslamla düşməndirlər. Müxtəlif sahələrdə çalışan bütün məmurlar bu məsələyə diqqət yetirsinlər. Biz özümüzə - öz sərvətlərimizə, elmimizə, istedadımıza, maddi potensialımıza, yeraltı ehtiyatlarımıza güvənməliyik. Bu o demək deyil ki, alış-veriş yolunu bağlayaq. Bu o deməkdir ki, düşmənin gücünə təslim və məğlub olmayaq.[721]

**Gənclərin yüksək istedadından maksimum istifadə**

Gənclərin və həmçinin müəllimlərimizin istedadından maksimum istifadə etməli, elm və tədqiqatı gücləndirməliyik. Bu barədə nə qədər danışsaq, təkrardır və siz özünüz bilirsiniz ki, bizim gənclərimizin istedadı dünyada orta həddən yuxarıdır, tədqiqat bunu sübuta yetirmişdir. Təbii ki, bizim müəllimlərimiz də belədirlər və biz tədqiqata, elmə, dərin biliyə qiymət və əhəmiyyət verməliyik.[722]

**Ölkəmizin elmi mövqeyi və istedadı**

Bizim ölkəmiz elm ölkəsidir; siz bunu yaxşı bilirsiniz. Bizim elm tariximiz qədimdir. Tarixin bir dönəmində və hətta çoxlu dönəmlərində olan elmi tərəqqimizi və uyğun nailiyyətlərimizi dost və düşmən etiraf edir; bunlar kiminsə inkar edəcəyi bir şey deyil. Bu gün ölkəmizdə gənc və tələbələr arasında çox dəyərli istedadların olduğunu hamı bilir. Mən dünyanın böyük elm mərkəzlərində olmuş dostlardan eşitmişəm ki, iranlı tələbələr orta hesabla dünya tələbələrindən üstündürlər. Yəni dünyanın orta istedad səviyyəsindən yüksəyik, amma bundan əlavə, gənclər arasında çoxlu dahilər də görünür. Bu bir həqiqətdir.

---

[721] Məhərrəm ayı münasibəti ilə xalqın müxtəlif təbəqələri ilə görüşdə çıxışdan: 1992.
[722] Mədəniyyət və Ali Təhsil Nazirliyinin məsul şəxləri ilə görüşdə çıxışdan: 1992.

Təəssüf ki, bu dəyərli istedad zalımların hakimiyyəti altında - bu cəhətdən, şahlar həqiqətən ən zalım adamlar olmuşlar - günbəgün tənəzzülə uğramış, parçalanmış, zəifləmiş və qurumuşdur. Bu gün isə Allaha şükür ki, şərait əlverişlidir, mövcud potensiallardan maksimum istifadə şəraiti və istedadı vardır.[723]

**Köhnə paltarı təmizləmək**

Biz özümüz bunu dirçəltməliyik. Sədinin təbiri ilə desək, köhnə paltarı təmizləmək borc paltar almaqdan yaxşıdır. Paltar da təsadüfən qiymətlidir, bütün köhnəliyinə rəğmən, hələ də öz gözəlliyini qoruyur. Biz öz elmimizi dirçəltməli, eyni zamanda dünya elmindən də istifadə etməli və tədqiqat ruhunu gücləndirməliyik.[724]

**Yüksək iranlı istedadından bəhrələnmək və elmi inkişaf etdirmək**

İran xalqının müsbət cəhətlərindən biri yüksək istedadıdır. İran xalqının bu müsbət cəhətə malik olmasını yalnız biz iddia etmirik, dünyanın bu məsələlərlə tanış olan bütün ali təhsilliləri, universitet müəllimləri iranlının orta istedadının dünyanın orta istedadından yüksək olduğunu bilirlər. Bütün dünyada xalqların istedad əmsalını təxmin edən mütəxəssislər və işi istedadları ölçməkdən ibarət olan tədqiqatçılar iranlıların bu müsbət cəhətini etiraf edirlər. Buna əsasən, İran xalqı istedadlı xalqdır və bu müsbət cəhətin nəticəsində onun elmi, sənaye və siyasi inkişafı mümkündür.[725]

**İstedadların parlaması üçün elmi müstəqilliyin öyrədilməsi**

Bizim möhtəşəm İslam inqilabımız Allahın lütfü ilə daxili qüvvələri azad bir mühitə çıxardı. Belə ki, bu gün bizim texniklərimiz döyüş təyyarəsinin keçmişdə bir-iki nəfərin get-gəl xərci ilə birgə və digər təmtəraqlarla xaricə göndərilən xarab olmuş hissəsini az vaxt və az maliyyə sərf etməklə əvvəlkindən də yaxşı təmir edə bilirlər.

---

[723] Elmlər Akademiyasının üzvləri ilə görüşdə çıxışdan: 1993.
[724] Yenə orada.
[725] Ordu Günü münasibəti ilə ordu nümayəndələri ilə görüşdə çıxışdan: 1994.

Müsəlman iranlı müəllim yeniyetmə və gənc şagirdə bu İslam təfəkkürünü öyrətsin və on ildən sonra iş yerlərimizdə, təlim, təhsil və tədqiqat mərkəzlərimizdə elə iş görülsün ki, bu xalqın bütün istedadı təcəssüm olunsun və parlasın. O zaman hər kəs üçün hər yerdə rahat yaşayış və rifah təmin olunacaq, düşmənin iqtisadi istismarı sıfra enəcək, ölkənin sərvətləri qorunacaq, hörməti və əzəməti təmin olunacaq.[726]

**İstedad və yaradıcılıq sahibləri üçün ümidverici daxili şərait**

Bu gün ölkə daxilində düşüncə, istedad, yaradıcılıq və fikir sahibləri üçün hər şey ümidvericidir. Hər şey ölkənin, xalqın və inkişafın xidmətindədir, dini inanc və etiqad elmi işin dayağıdır. Bunlar çox dəyərli amillərdir. Bu böyük xalq bunlardan maksimum istifadə etməlidir.[727]

**Parlaq istedadlar yetişdirmək**

Ölkəmiz daxilində istedad dəyərli və orta həddən yüksəkdir. Dəfələrlə demişəm ki, İranda istedadın orta həddi bütün dünyada istedadın orta həddindən yüksəkdir. Riyaziyyat, fizika, kimya və digər olimpiadalarda əldə etdiyimiz uğurlar yüksək istedadlara malik gənclərimizin olduğunu göstərdi. Bu yarışmalarda yüksək yer tutanlar müstəsna şəxslər deyildilər, bu məmləkətin övladları idilər. Şübhəsiz ki, bu məmləkətdə belələrindən minlərlə və yüz minlərlədir; təhsillə, tərbiyə ilə, elm və tədqiqatın inkişafı ilə bunları yetişdirin.[728]

**Fitri bacarıqlarla geriliyi düzəltmək**

Xoşbəxtlikdən, bu gün bu ölkə və xalqlar 150 il dünyaya hakim olan bu nəzəriyyənin yalan olduğunu sübut edirlər. Xüsusən müsəlman İranda sizin inkişaflarınız çox dəyərlidir; həm bunu göstərir ki, on illərlə və hətta ölkəmizin 150 il sürən bu uzun geriliklərini inkişafla, istedadların aşkarlanması ilə və fitri bacarıqlarımızı işlətməklə düzəltmək olar, həm də

---

[726]Beynəlxalq Əmək və Müəllim günlərində fəhlə və müəllimlərlə görüşdə çıxışından: 1994.

[727] Müdafiə Nazirliyinin Mexanika zavodlarına baxış keçirərkən etdiyi söhbətlərdən: 1994.

[728] Hökumət həftəsi münasibəti ilə prezident və nazirlərlə görüşdə çıxışdan: 1995.

onu göstərir ki, bir xalq özünə güvənsə və daxili imkanlarına arxalansa, əliboş və aciz qalmaz.[729]

**İranlı gənclərin dəyərli istedadı**

Elm barədə sizə bir cümlə deyim. Hamı üçün danılmazdır ki, iranlı gənclərin istedadı yüksəkdir. Mən aparılmış tədqiqatlara əsaslanaraq əvvəllər bunu təkrar-təkrar deyirdim, amma bəziləri şübhə ilə yanaşırdılar. Eindi isə elmi səhnədə baş verənlər, dünyada iranlılar tərəfindən görülən işlər və daxildə müşahidə olunanlar səbəbindən burada yüksək istedadın olduğunu təxminən hamı qəbul etmişdir.[730]

**Ordunun texniki asılılıqlarına son qoymağın zəruriliyi**

Hər halda, ordu öz daxilində bəzi texniki və elmi asılılıqlara son qoymalıdır. Burada yalnız iqtisadi asılılıq yoxdur, elmi və texniki asılılq da var. Bu asılılıqlar bitməlidir. Düzdür, bitmək üzrədir, lakin daha tez bitirin. Siz özünüz ordu daxilində qurun, yaradın. Mənim orduda yenidən qurmaq, yaxşılaşdırmaq, qorumaq, təmir etmək və yaratmaq üzərində təkidim bundan otrudur. Sizin potensialınız da var; Hərbi Hava Qüvvələrinin, Hərbi Dəniz Qüvvələrinin, Quru qoşunların böyük potensialı var. Sizin müxtəlif sahələrdə elmi-texniki işlər, yenilik və yaradıcılıqlar üçün potensialınız vardır.[731]

**Dəyərli istedadlardan bəhrələnmək**

Hər iki sahənin məsul şəxslərinə deyirəm ki, cari və gündəlik problemlərə qərq olmasınlar, bu problemlərin fonunda öz sahələrinin keyfiyyətini yüksəltmək barədə düşünsünlər. Bizim xalqımızın istedadı parlaqdır. Biz bir neçə il öncədən iranlı istedadı üzərində təkid göstəririk. Bəzi adamlar elə bilirdilər ki, xalqımıza və ölkəmizə sevgi üzündən nəsə demək istəyirik. Halbuki bizim dediyimiz statistik məlumatlara əsaslanır. Xoşbəxtlikdən, son bir neçə ildə güclü sənədli məlumatlar və xəbərlər

---

[729] Elmi olimpiadalarda iştirak edən şagirdlərlə görüşdə çıxışdan: 1995.

[730] Bazar ertəsi görüşlərində Tehran Universitetinin Rəyasət Heyəti ilə görüşdə çıxışdan: 1996.

[731] Ordu komandirləri və şəxsi heyəti ilə görüşdə çıxışdan: 1996.

yayılıb xalqın ixtiyarına buraxıldı və nümunələrini gördünüz. Beynəlxalq olimpiadalarda görürsünüz ki, bizim gənclərimiz işə təzə başlasalar da, əksər ölkələrdən yüksək nəticə göstərirlər. Beynəlxalq musabiqələrdə, elmi yarışlarda, bəzi böyük və mürəkkəb sənaye işlərində, dəqiq və kiçik sənayedə və sair sahələrdə ölkəmizin nümayəndələri digərlərinə üstün gələ bildilər. Bu, sözügedən dəyərli istedada görədir.[732]

**Qərbin texnologiyasını təqdir etmək olar, həqarət hissi keçirmək isə yolverilməzdir!**

Əgər məftun olmağın mənası insanın bir şeyi təqdir etməsidirsə, bunun eybi yoxdur. Bəli, təqdir etmək lazımdır. Nə eybi var?! Bir insan beyninin inkişafından və üstünlüyündən xəbər verən hər bir məsələ təqdirəlayiqdir; bizim də tərifləməyimizin eybi yoxdur. Lakin məftun olmaq özünü onun qarşısında kiçik görmək və aşağılamaq mənasında olsa, əsla yolverilən deyil.

Əgər sizin də ixtiyarınızda həmin imkanlar olsa, onun kimisini və ondan da yaxşısını yaradarsınız. Siz bu bir neçə ildə diqqət yetirmisinizsə, bizim gənc və yeniyetmələrimizin qatıldığı bu sahələrdə - riyaziyyat, fizika, kompüter və digər olmpiadalarda iranlı uşaqların öz taylarından, yəni dünyanın əksər ölkələrindən önə keçdiklərini görürsünüz. Məgər belə deyil?! Halbuki bu imtahan və sınaqlarda təcrübə müddətləri çox qısadır.

Buna əsasən, bir iranlı yeniyetmə asanlıqla elmi kəşflər edə bilər. Əgər beyin və istedadını işlətsə, həqiqətən dərs oxusa və istəsə, o da böyük işlər görə bilər.[733]

**İranlı gənclərin istedad və imanı ilə elmi irəliləyiş**

Bizim onillik elmi inkişaf sürətimiz ABŞ-ın iki yüz illik elmi sürəti qədərincə deyil, amma mən sizə demək istəyirəm ki, iranlı tələbə istedadı, imanı, müstəqillik hissi və bu gün İran xalqında, xüsusən də bizim gənc və

---

[732] Beynəlxalq Əmək Günü və Müəllim Günü ərəfəsində fəhlə və müəllimlərlə görüşdə çıxışdan: 1997.

[733] Gənc və yeniyetmələrlə səmimi söhbətlərdən: 1998.

tələbələrimizdə olan başucalığı ilə otuz il çalışsa, digərlərinin yüz ili qədərincə inkişaf etməyə ümid var.[734]

**İman və yaradıcılıq vasitəsi ilə elmi məsafələrin qət edilməsi**

İnkişaf etmiş ölkələrlə məsafə çoxdur. Onlar malik olduqları imkanlarla anbaan bu məsafəni artıra bilirlər, sizdə isə belə imkanlar, modern laboratoriyalar, inkişaflar və digər elmi imkanlar yoxdur. Buna əsasən, Allahın sizə verdiyi gücdən, öz yaradıcılıq qüvvənizdən və inqilabın ixtiyarınızda qoyduğu hərarətdən bacardığınız qədər istifadə edin və yorğunluq hiss etməyin. O zaman bu məsafə qət olunacaq.[735]

**İranın elmi və mədəni inkişaf potensialı**

Bu xalqın parlaq istedadı var. Bu ölkə bir gün dünyada həm maddi, mənəvi, üstün sənaye, elm və uca mədəniyyət baxımından, həm də dini cəhətdən parlaya bilər. Bu sizin əlinizdədir.[736]

**İstedadlı gənclərlə elmi fəallıq**

Bizim uşaqlarımız istedadlı və zirəkdirlər, inşallah gedib onlardan öyrənəcəklər. İndi də öyrənirlər. Dünya elmindən istifadə edəcəklər, istedadları da yaxşıdır. Bizim mədəniyyətimiz dərin və köklü mədəniyyətdir. Dinimiz də bizə kömək edəcək ki, daha artıq ümidlə elmdə inkişaf edək.[737]

**Ölkədə istedadların yüksək kəmiyyət və keyfiyyəti**

Ölkəmizdə bəşəri istedadlar baxımından elmi inkişaf imkanı var. Biz istedad baxımdan dünyanın orta səviyyəsindən yüksəkdə dururuq. Mən bunu bu sahədə araşdırma və tədqiqat aparan, işləyən və nümunələri görən şəxslərin məlumatına əsaslanaraq deyirəm, öz gümanıma əsasən demirəm. Ölkəmizin orta istedadı dünyanın orta istedad səviyyəsindən yüksəkdir. Bundan da bir addım yuxarısı odur ki, ölkəmizdə parlaq və

---

[734] Tehran Universitetində keçirilən sual-cavab məclisindəki söhbətlərdən: 1998.

[735] Parçin silahqayırma kompleksinə baxışdan sonrakı söhbətlərdən: 1998.

[736] Tehran universitetlərinin müxtəlif tələbə birlikləri ilə görüşdə çıxışdan: 1999.

[737] Yenə orada.

yüksək istedadların sayı dünyada yaxşı, parlaq və üstün istedadların sayı səviyyəsindədir. Məsələn, çox parlaq istedadları olan ölkələrdə hər on min nəfərdən biri qeyri-adi istedada malikdirsə, həmin rəqəm geriqalmış ölkələrdə hər əlli min nəfərdən biri səviyyəsindədirsə, bizim ölkəmiz öndə gedən ölkələrdəndir. Yəni parlaq istedada malik olan insanların kəmiyyəti faiz etibarilə yüksəkdir.

Mən demək istəyirəm ki, başqa bir məqam da var. O da budur ki, ölkəmiz müstəsna istedadlara malikdir. Bəzən dünyada müstəsna istedadlar yaranır. Dünyada olan, indi də yaşayan, adları və əsərləri əsrlər boyu qalan məşhur alimlər müstəsna istedadlardır. Bizim ölkəmiz müstəsna istedadlar baxımından da inkişaf etmiş ölkələrdən biridir. Bunun dəlili istər fəlsəfədə, istər elmdə İbn Sina, Farabi, Razi və bu qəbildən olan, sizin tanıdığınız və adlarını eşitdiyiniz böyük şəxsiyyətlərdir. Odur ki, biz bu bəşəri cəhətdən də əskik deyilik.[738]

**Bir xalqın inkişafının üç elementi**

Həqiqət budur ki, bir xalq üç əsas elementə malik olduqda onun inkişafı qaçılmaz olur: onların biri bizim xalqımızın da malik olduğu istedaddır; başqa birisi İslam və İslam Respublikası sayəsində malik olduğumuz düşüncə, amal və məqsədlilikdir.

Bunlara başqa bir amil də əlavə olunmalıdır və o, elmdir. Siz gənclər - istər qızlar, istər oğlanlar elm öyrənməli və elmdən istifadə etməlisiniz.[739]

**Elmi zirvəyə qayıdış üçün ölkənin hazırlığı**

Bilirsinizmi miladi təqvimilə onuncu, hicri tarixi ilə dördüncü əsrdə sizin İranda və İslam regionunda vəziyyət necə idi? Hicri dördüncü əsr bizim ölkəmizdə və İslam dünyasında elm və fəlsəfənin çiçəklənmə dövrüdür, ibnsinalar, farabilər, razilər, böyük ilahi filosoflar əsridir; elə şəxsiyyətlərin əsridir ki, onların bəzi elmi əsərləri bizim və sizin yaşadığımız dövrə qədər dünyanı fəth etmişdir.

---

[738] Ölkənin elmi elitasının nümayəndələri ilə görüşdə çıxışdan: 1999.

[739] Dəmavənd Elm Hövzəsinin tələbələri və Rifah mədrəsəsinin şagirdləri ilə görüşdə çıxışdan: 2000.

Bu gün ölkəmizin şəraiti böyük şəxsiyyətlər yetişdirmək baxımından, heç şübhəsiz, ibnsinaları, farabiləri, xarəzmiləri, raziləri, tusiləri və digər alimləri yetişdirən dövrlərdən dəfələrlə əlverişlidir. Nə üçün qoymurlar? Onlar qoymurlarsa, nə üçün mən və siz təslim olmalıyıq?! Nə üçün mən və siz onların istəyinə uyğun hərəkət etməliyik?! Nə üçün iranlı gənc, siyasətçi, yaxud mədəniyyət xadimi ABŞ-ın, sionizmin və digərlərinin siyasi ideoloqlarının İrana yenidən hökmranlıq etmək üçün ehtiyacları olan işi görməlidir?! Bu, eyibdir. Heç kəs anlamasa da, öz aramızda eyibdir. Bizim universitetlərin səmərəsi müsbət, fəal, məsuliyyətli, dindar və ümidli inqilabçılar olmalıdır. Mən buna ümidvaram. Mən universitetlərə, o cümlədən bu əziz universitetə baxdıqda, bunu müşahidə edirəm.[740]

**İran və çox uca elmi məqam**

Mənim sizin kimi seçilmiş toplumlara həmişə israr etdiyim iki məqam var: biri budur ki, bizim ölkəmiz, quruluşumuz və xalqımız bu gün dünyanın elm və sənaye sahələrində tutduğu elmi mövqedən öndə durmağa layiqdir. Həqiqətən bizim xalqımız bundan çox öndə durmağa layiqdir. Bəli, bu xalq bu tarixlə, bu istedadlarla və həmçinin malik olduğu xalq quruluşu və dərin imanla bunlardan çox öndə olmalıdır. Ötən dövrlərdə də qarşısını almasaydılar, şübhəsiz, bundan önə keçərdi. Yəni keçmiş müstəbid rejimlər, sonra ona siyasi və iqtisadi asılılığın və bu asılılıqdan irəli gələn fəsadların əlavə olunması yüz il, yaxud daha artıq müddətdə bu ölkənin istedadlarının çiçəklənməsinin qarşısını aldı, ölkəmiz elm və sənaye baxımından geri qaldı.[741]

**Tədqiqat mərkəzlərinin gənclərlə rəftarı**

9-11-ci sinif şagirdləri istedad və çiçəklənmə halındadırlar. Məşhədlilərin yaxşı bir sözü var; çox parlaq olan bir şeyə deyirlər ki, “vəlvəl” vurur. İnsan alova baxdıqda parıltıdan “vəlvəl” vurduğunu görür. Gənc 9-11-ci sinif dövründə saflıq və istedada görə həqiqətən “vəlvəl”

---

[740] Əmir Kəbir adına Sənaye Universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışdan: 2001.

[741] Korpusun Hərbi Hava Qüvvələri layihəsinin məsul şəxsləri ilə görüşdə çıxışdan: 2001.

vurur. Buna görə də onun səhvə düşməsinin qarşısını almağa çalışın. Onun şəxsi günah və səhv etməsi mümkündür, amma adətən xəyanət etmir. Sizin tədqiqat qruplarınız elə olmasın ki, gənci bir nəticəyə sövq etsin və sonra cənab Hacı Əli Əkbəri gəlib "sənin nəticən səhvdir" - desə, "xeyr, cənab Hacı Əli Əkbəri də bizim sözümüzü anlamır" - desin. Buna əsasən, iş, düşüncə və tədqiqat mərkəzləri tam şəkildə və sözün həqiqi mənasında hidayət olunsunlar, düşünsünlər, çağlasınlar, cücərsinlər, lakin hidayət, nəzarət və riayətlə.[742]

**Rəhbərə ən dəyərli hədiyyələrdən biri**

Fikrimcə, bu medallar bir neçə cəhətdən indiyədək bizə verilən ən dəyərli hədiyyələrdən biridir. Bir cəhət budur ki, bizim gənclərimizin elmi nailiyyətlərinin sənədidir. Övladı məktəbdən, yaxud universitetdən bir elmi nailiyyət şəhadətnaməsi gətirdikdə ürəkdən sevinən hər bir ata kimi biz də sizin bu medallarınızı gördükdə eyni hissi keçirir və ürəkdən sevinirik ki, bizim gənclərimiz və bu xalqın əziz övladları Allahın lütfü ilə elm sahələrində bu uğurlara imza atmışlar.[743]

**Çatışmazlıqlara rəğmən, universitetlərin elmi inkişafı**

Elmi sahədə dediyiniz çatışmazlıqlar var: müəllim problemi, müdiriyyət problemi, proqram problemi, büdcənin azlığı və sair. Bunları bilirəm; bunlar mənim son 10 ildə universitet mənsubları ilə - müəllim, tələbə və rektorlarla görüşdə daim təkrar etdiyim və maraqlandığım məsələlərdir. Bunlar bir qədər yaxşılaşmışdır. Lakin bütün bu problemlərə baxmayaraq, universitetlərdə elmə həvəs və istedadların çiçəklənməsi duyulur. Bunu görməzdən gəlib həmişə məyusluq ayəsi oxumaq düz deyil.[744]

**Universitetlərin elmi inkişaf müjdəsi**

---

[742] Şagirdlərin İslam Birlikləri İttifaqının məsul şəxsləri ilə görüşdə çıxışdan: 2001.
[743] Nümunəvi şagirdlərlə görüşdə çıxışdan: 2002.
[744] Universitetlərin nümunəvi tələbələri ilə görüşdə çıxışdan: 2002.

Mənim vermək istədiyim bu müjdə həqiqidir. Bizim universitetlərdə elmi hərəkət və istedad çiçəklənməsi inkişafa doğru gedir. Siz baxın, daxili və xarici olimpiadalarda müxtəlif fənlər üzrə iştirak etmək istəyənlərin sayı artır. Mənə məruzə etdilər ki, səhv etməsəm, ötən il yüz min nəfər riyaziyyat olimpiadasında iştirak etmək istəmişdir. Bu, yüksək rəqəmdir. Dedilər ki, həmin yüz min nəfərin ən azı qırx min nəfəri dərs və təhsil baxımından ideal vəziyyətdədirlər. Yaxud fundamental elmlərdə biz beynəlxalq olimpiadalarda həmişə dünyanın ilk on ölkəsindən biri oluruq. Hətta bütünlüklə idxal fənni olan, yəni heç bir uğurlu keçmişimiz olmayan kompüter sahəsində də dünya olimpiadalarında yüksək yerlər tuta bilmişik.[745]

**Beynəlxalq texnologiya ilə əlaqənin kafi yox, lazım olması**

Bəzi dostlar yaxşı məqama toxundular; dedilər ki, bizim istedadımız və bacarığımız var, yaxşı müdirlərimiz və yaradıcılarımız da var. Şübhəsiz, inkişaf etmiş beynəlxalq texnologiya ilə əlaqə olmadan inkişaf etmək mümkün deyil və kamil olmaz. Biz uzun yol getməliyik. Mən bunu qəbul edirəm və bu, mümkündür də. Lakin hər şeyin beynəlxalq texnologiya ilə əlaqə yaratmaqdan asılı olduğunu güman etməməliyik.[746]

**Hövzə və universitetdə istedadlı gənclərdən ibarət ümidverici nəsil**

Allaha şükür olsun ki, inqilabdan sonra açıq şərait və geniş fəaliyyət sahəsi bizi buraya çatdırıb, gənclərimiz dünyanın elmi olimpiadalarında daim uğur qazanırlar. Bu, kiçik nailiyyət deyil. Bu, istedadların parlaması üçün şəraitin yarandığını göstərir.

Mən müxtəlif universitetlərə, tədqiqat mərkəzlərinə və gənclərimizin gördüyü işlərə baxış keçirərkən çox dəyərli nümunələrlə rastlaşıram. Bütün sahələrdə, elm hövzələrində də belədir. Bu gün bizim elm hövzəmizdə İslam təfəkkürünü çox güclü şəkildə təqdim edən elmli və dərrakəli gənc nəsil yetişmişdir. Bu, düşmənlərin istəyinin əksinə olaraq,

---

[745] Yenə orada.

[746] Sənət adamları ilə görüşdə çıxışdan: 2003.

bizim milli və İslam kimliyimizi qorumaq üçün yaranmış möhkəm hasarlardır.

Ölkə gəncliyi yaxşı gənclikdir. Bədbin və bədgüman insanların daim bildirdiyi bəzi fikirlərə rəğmən, mən ölkə gənclərinə - universitet və hövzə gənclərinə, peşə fəaliyyətləri ilə məşğul olan gənclərə görə çox nikbin və ümidliyəm. Şərait əlverişlidir və ölkə üçün elə bir gələcək müjdələyir ki, iranlı istedadının uğurları inşallah, bütün dünyanın diqqətini özünə cəlb edəcək.[747]

**Ölkədə həvəskar istedadların möhtəşəm səmərələri**

Ölkəmizdə orta istedad əmsalı dünyaya nisbətən yüksəkdir. Siz nümunə olaraq səkkizillik müqəddəs müdafiə dövrünə - istedadların çiçəklənməsi üçün şəraitin münasib olduğu 80-88-ci illərə baxın. Ehtiyac çox idi, lakin dünya qapılarını üzümüzə bağlamışdı. Müharibədə kömək edəcək heç bir şeyi bizə vermək istəmirdilər; nə silahı, nə sursatı, nə dəstəyi və nə informasiyanı. Bir tərəfdən də ölkə öz kimliyini, torpağını, sərhədlərini və evini müdafiə etməklə məşğul idi. Bu ehtiyac bütün sahələrdə - elmdə, hərb və döyüş sahəsində istedadların işlədilməsinə bais oldu. Bu gün bəzi nümunələrini eşitdiyiniz elmi inkişafların əsası müqəddəs müdafiə dövründə qoyulmuşdur.

Bu gün ölkənin çox həssas elmi işlərində çalışan çoxlu gənclər müqəddəs müdafiənin kadrlarıdır; həmin ruh yüksəkliyi və həvəslə işləyirlər. Bu gün onların möhtəşəm işlərinin bir nümunəsi uranın zənginləşdirilməsidir. Bu, dünyanın ən məxfi texnologiyalarındandır. Böyük güclər onu tam inhisarlarında saxlamışdılar, amma bizim gənclərimiz öz istedadlarına və mahir əllərinə güvənib bu böyük işi görə bildilər. Siz dünya hegemonlarının reaksiyasını görürsünüz. Bu gün dünyada mövcud olan qalmaqallar sizin istedad, bacarıq və nailiyyətlərinizin qarşısında reaksiyadır.

Başqa bir nümunə də ötən ay dediyim kök hüceyrələrin istehsalı və çoxaldılması məsələsidir. Bu yaxınlarda özləri də gəlib gördülər. Dünyanın mütəxəssis və alimləri bizim gənclərimizin iman, iradə və qeyrətləri ilə

---

[747] Parlaq istedadlı şagirdlərlə görüşdə çıxışdan: 2003.

gizli istedadlarını aşkara çıxarıb bu böyük işi gördüklərini etiraf etməyə məcbur oldular. Tədqiqat sahəsində bizim belə nümunələrimiz çoxdur.[748]

**Beynəlxalq statistikalara əsasən, İranda tədqiqatın gözəçarpan artımı**

Allaha şükür olsun ki, bizim iş və tədqiqat bacarığımız yaxşıdır. Bu yaxınlarda mənə dünyanın yazılı tədqiqatlarını toplayan müəssisənin statistikasını göstərdilər. Bu statistikada İran dünyanın tədqiqat və elm inkişafının təxminən 80 faizinə sahib olan ilk otuz ölkədəndir. Düzdür, biz bu otuz ölkə arasında otuzuncu yerdəyik, ABŞ isə birinci ölkədir. Müsəlman ölkələr arasında İrandan başqa heç bir ölkə bu siyahıya düşməyib. Bu uğur inqilabdan sonrakı illərə məxsusdur. Yəni inqilabdan sonrakı bütün çatışmazlıqlara, zəif cəhətlərə və gərginliklərə rəğmən, bizim daxili istedadımız elə həddədir ki, özümüzü bu cədvəlin sonlarından yuxarıya cəkə və dünyanın ilk otuz ölkəsindən edə bilmişik. Bu çox əhəmiyyətli və dəyərli məsələdir. Əlbəttə, bu rəqəm yazılı əsər və tədqiqatlar barədədir, digər çoxlu nümunələrə şamil olmur. Bizdə qeyri-yazılı əsərlər də var. Deməli, bu iş üçün istedadımız və yeni sözümüz var.[749]

**Dünyanın elm istehsalında şərikliyə sarı**

Elmdən maksimum istifadə edin. Elm bütün problemlərin açarıdır. Elmsiz ağlın təsiri çox az olur. Elmi olmayan ağıl iş alətləri olmayan insan kimidir. Ağlın aləti elmdən ibarətdir. Siz elmdən istifadə etməlisiniz. Dünya bütün elmlərdə işləmişdir. Bu elmlərin istehsalında bizim rolumuz olmamışdır, halbuki ola bilərdi. Bu gün elmi işlərə qoşulduğumuzda görürük ki, gənclərimiz, uşaqlarımız, istedadlarımız elmin çoxlu dalanlarından rahatlıqla keçirlər. İranlı istedadı dünyanın orta həddindən yüksəkdir. Elm öyrənməyə hazırlıq baxımından biz öz qərbli rəqiblərimizdən öndəyik; bəzilərindən öndəyik, bəzilərindən də ya geridə,

---

748 Şagirdlərin İslam Birlikləri İttifaqının üzvləri ilə görüşdə çıxışdan: 2003.

749 "İslam mədəniyyəti və düşüncəsi" Tədqiqat Mərkəzinin uzvləri ilə görüşdə çıxışdan: 2004.

ya da çox geridə deyilik. Lakin müstəbid, azğın və fəsad törədən şah rejimləri uzun illər iranlını öz yerini tutmağa qoymayıblar.

Dünyada bugünkü elmin böyük həcmini yaratmaqda rolumuz az olub, lakin mənim proqnozum budur ki, inşallah gələcəkdə bu elmi artırmaqda payımız olacaq. Biz görməsək də, inşallah illərlə yaşayacaq siz gənclər o günü görəcəksiniz. Elm bizim məntiqliliyimiz, tədbirimiz, güclü iradə və əzmkarlığımız üçün yol aça bilər. Elmdən maksimum istifadə edin.[750]

**Elmin zirvələrinə çatmaq üçün elmi nümunələrin istedadına güvənmək**

Bu məclis "Biz bacarırıq!" şüarının simvoludur. Ölkənin elmi nümunələri təkcə sizlər deyilsiniz, lakin sizlər bu dəyərli təbəqədən seçmələrsiniz. Bu hamıya göstərir ki, bizim gənclərimiz arasında beynəlxalq yarışlarda və ölkə daxilindəki geniş müsabiqələrdə yüksək yerlər tuta bilən şəxslər var. Bunlar parlaq istedadlardır. Ölkədə belə parlaq istedadlarımız çoxdur. Bunlara arxalanmaqla İran xalqı və bizim əziz ölkəmiz özünü quracaq, inkişaf etdirəcək və bizimlə dünya elminin zirvəsi arasında yaradılan dərin uçurumu tədricən dolduracaq.[751]

**Möhtəşəm inkişaflara ümid yaradan iki milli ayıqlıq**

Bu gün ölkəmiz xoşbəxtlikdən, elə bir dövrü yaşayır ki, onda iki ayıqlıq mövcuddur: biri öz bacarığına və fitri istedadına ayıqlıq, ikincisi isə ölkəmizə və bizə bənzər digər ölkələrə hökmranlıq etmək istəyən qüvvələrin ölkəmizin alim olmasının və elmi inkişafının ən mühüm düşmənləri olmasına ayıqlıq; yəni özünü, düşməni və təxribatı tanımaq. Bu iki ayıqlığın sayəsində ümidvarıq ki, möhtəşəm elmi nailiyyətlərə nail ola biləcəyik.[752]

---

[750] Yeni il münasibəti ilə hərbçi və komandirlərlə görüşdə çıxışdan: 2005.
[751] Ölkənin elmi nümunələri və tələbələrlə görüşdə çıxışdan: 2005.
[752] Universitet müəllimləri ilə görüşdə çıxışdan: 2005.

**İnqilabdan sonra istedadların çiçəklənməsi üçün əlverişli şəraitin yaranması**

Bu gün İranda bu iş baş tutmuşdur. Bu gün ölkəmizdə istedadların aşkarlanması, elm, texnika və texnologiyanın inkişafı üçün əlverişli şərait vardır. Siz bunu göstərən ən yaxşı nümunələrsiniz. Mən sizin möhtəşəm miniatür sərginizdə bəzi işləri gördüm; mənə dedilər ki, bizim gənc alimimiz, gənc sənətkarımız öz istedadı və təcrübəsi ilə, öz beyninə güvənərək heç bir ilk nümunəsi olmadan böyük bir iş görə bilmişdir. Biz bunu çoxlu yerlərdə müşahidə etməkdəyik.[753]

**Elm inkişafı üçün iranlının yüksək istedadı**

Elmi işlərə qatılmaq və bu sahədə inkişaf etmək üçün bizim yaxşı insan kapitalımız var, biz dünya üzrə bəşəri istedadın orta həddindən irəlidə və yuxarıdayıq. Bu gün bu, danılmazdır. Əvvəllər bunu deyəndə bəziləri şübhə ilə baxırdılar, bu gün isə danılmaz faktdır.[754]

**Yolda qalmaq - istedadların tanınmamasının nəticəsi**

Mən ölkəmizin gənc nəslində bu istedadı görürəm. Mən əbəs danışmaq istəmirəm; bu, şüarçılıq deyil. Heç kəs bizdən xahiş də etməyib ki, gəlib bu sözləri danışaq. Bunlar həqiqətdir. İranlı gənc müxtəlif sahələrdə yüksək istedada malikdir. Əgər bizim kimi məsul şəxslər tanımasaq, bizim günahımızdır. Əgər onun özü bu istedadı tanımasa, onun günahıdır. Günahın da öz nəticəsi var: yoldan qalmaq və məqsədə çatmamaq. Lakin gözümüzü açıb yolu tapsaq, iradə göstərsək və məqsədi itirməsək, şübhəsiz, çatacağıq.[755]

**Elmi nümunələrdə dünyanın orta həddindən yüksək səviyyə**

İkinci məqam budur ki, ölkəmiz elmi elita istedadı baxımından orta səviyyədən yüksəkdə durur. Bu, nəzərə alınmalıdır. Mən bu hüseyniyyədə bundan bir neçə il öncə ölkə məmurlarının toplantısında dedim ki,

---

[753] Atom Enerji Təşkilatının məsul şəxsləri və nüvə ekspertləri ilə görüşdə çıxışdan: 2006.

[754] Universitet rektorları, ali təhsil müəssisələrinin və tədqiqat mərkəzlərinin başçıları ilə görüşdə çıxışdan: 2006.

[755] Simnan vilayəti universitetlərinin müəllim və tələbələri ilə görüşdə çıxışdan: 2006.

ölkəmizin coğrafi sahəsi dünya coğrafiyasının yararlı hissəsinin təxminən yüzdə biri qədər və ölkəmizin əhalisi də yetmiş milyondur; bu da bəşər cəmiyyətinin təxminən yüzdə biridir. Buna əsasən, dünyanın yeraltı sərvətləri sarıdan orta hesabla bizim haqqımız yüzdə bir olur. Amma biz ən mühüm yeraltı sərvətlərdə yüzdə birdən artığına malikik: ölkəmizdə əsas filizlər, polad, mis, qurğuşun və bir çox mədənlərdə dünya ehtiyatlarının üç faizi, iki faizi, dörd faizi mövcuddur. Neftin vəziyyəti də bəllidir: biz Fars körfəzində və Orta Şərqin neft regionunda ikinci ölkəyik. Biz qaz ehtiyatı sarıdan dünyanın ikinci ölkəsiyik. Görün bizim xalqımız bəşərin adam başına düşən həddindən nə qədər artıq təbii sərvətlərə malikdir.

Mən indi demək istəyirəm ki, bu nisbi üstünlük insan kapitalına da aiddir. Yəni ölkəmiz dünyanın elmi kadrlarının yüzdə birinə deyil, yüzdə birindən artığına malikdir; rəqəm deyə bilmərəm, çünki hesablanmamışdır. Təbii sərvətlər haqda dediyim rəqəmlər hesablanmışdır, bunu isə hesablamamışıq. İnşallah ümidvarıq gələcəkdə bunlara da çataq, amma faktlar bunu göstərir. Bizim dünya universitetlərinin tədqiqatçılarının dünyagörmüş şəxslərindən eşitdiklərimiz bunu təsdiqləyir.

Mən çoxlarından eşitmişəm ki, dünyanın ən yaxşı universitetlərində iranlı elmi nümunələrin sayı digər ölkələrdən iki dəfə, üç dəfə çoxdur.

Mərhum Doktor Çəmranın özü həqiqətən güclü elmi kadr idi. Onun elmi şəxsiyyəti hərbçilik, mücahidlik, fədakarlıq və şəhadət cəhətinin şüası altında qalıb. O, ABŞ-ın ən qabaqcıl universitetlərində təhsil almışdı. O mənə deyirdi ki, həmin universitetlərdə digər ölkələrdən də qabaqcıl tələbələr var idi, amma belə iranlıların sayı daha çox idi, onlar daha uğurlu təhsil alırdılar. Əlbəttə, o, danışanların biri idi; mən bunu çoxlu insanlardan eşitmişəm, bu barədə çox məlumatım var. Deməli, bizim gələcəkdə insani resurs çatışmazlığımız olmayacaq. Bizim keçmişimiz də bunu göstərir.[756]

**Bütün elmi sahələrə giriş istedadı və cəsarəti**

---

[756] Gənc alimlərlə görüşdə çıxışdan: 2007.

Əgər iyirmi il öncə bu ölkədə kimsə desəydi ki, bir gün iranlı gənclər özləri kimdənsə öyrənmədən, pərakəndə təlimlərlə və özlərinin zehni fəaliyyətləri və yaradıcılıqları ilə sentrifuq düzəldib uranı zənginləşdirə və urandan elektrik enerjisi istehsal edə biləcəklər, min nəfərdən biri də inanmazdı. Bunu inkar edən birinci şəxslər mütəxəssislər və ali təhsillilər olardı. Deyərdilər ki, olmaz, məgər belə bir şey mümkündür, məgər asandır?!

İran xalqı sübut etdi ki, bacarır. Bütün sahələrdə belədir. Bu bir nümunə aşkara çıxmış, dünyada gül kimi açmışdır. Bu xalqın bütün sahələrdə belə istedadı, həvəsi, cəsarəti var.[757]

**İranlıların dünyanın orta həddindən yüksək istedadına əngəl yaratmaq**

Bəlkə də demək olar ki, İran xalqını təxminən 150 il yerində saxlayıblar. Sizin bu gün gördüyünüz parlaq istedad bu günə məxsus deyil, iranlı nəsillər həmişə bu istedada malik olmuşlar. Bunlar müxtəlif səbəblərdən dayanmışdır. Əsas səbəbi də bütün zamanlarda – xüsusən də son dövrdə asılılığın və fəsadın əlavə olunduğu avtoritar və zalım hakimiyyətlər olmuşdur.

Bu gerilik vardır. Lakin İran xalqının istedadı orta həddən yüksəkdir. Biz bunu dəfələrlə demişik. Bəziləri elə bildilər ki, biz bunu iddia edirik. İndi bu tədricən dünya miqyasında da görünür. Dünyada müxtəlif yerlərdə iranlının olduqca güclü istedadına dair etiraf və təsdiqlər təkrar olunur; Amerika jurnalları da yazır və bizim bəzi universitetlərimizin adlarını çəkirlər. Əlbəttə, onların ad çəkməsi qərəzlidir. Onların adlarını çəkdikləri, istər Tehranda, istər İsfahanda olan universitetlər güclü universitetlərdir; bunda şübhə yoxdur. Lakin onların ad çəkməsi qərəzlidir. Çünki universitet insan kapitalı üzərində durur: tələbə, müəllim və əlbəttə ki, müdiriyyət. Həm tələbə, həm də müəllim iranlı nəsillərdəndirlər. Odur ki, bu, ümumidir və xüsusi universitetə məxsus deyil. Harada iş görülsə, həmin müvəffəqiyyət görünəcək və onlar bəzi

---

[757] Fars vilayətinin müəllimləri ilə görüşdə çıxışdan: 2008.

yerlərdə bunu etiraf edirlər. Buna əsasən, bizim çox yüksək olan belə insani potensialımız var. Bu, geriliyi düzəldə bilər.[758]

**İranlıların qeyri-adi istedadına nümunələr**

Heç kəsin kömək etmədiyi, sənaye məhsulları və texnoloji inkişaf qapılarının üzünə bağlandığı bir xalq indi sentrifuqun ikinci, üçüncü və dördüncü nəslini özü istehsal edir, dünyada nüvə enerjisinə və nüvə sənayesinə malik olanların hamısı mat qalır.

Bunlar kimdən öyrəndilər? Qəfildən baxıb görürlər ki, bioloji elmlərdə heç kəsin kömək etmədiyi bir xalq kök hüceyrələrlə heyvan istehsal edir. Dünyada neçə ölkə buna malikdir? Yeddi, səkkiz, doqquz ölkə. Bütün bu ölkələr, bütün bu iddiaçılar arasında gözlənilmədən məsələn, iki yüzüncü yerdən gəlib səkkizinci yerə çıxır. Bu nədən irəli gəlir? Bu, qeyri-adi istedaddan xəbər vermir?!

Müharibənin əvvəlində biz RPG-nin nə olduğunu bilmirdik. RPG kiçik bir raketdir. Müharibədə olanlar onu görüb və dəfələrlə təcrübə ediblər. Bundan nə varımız idi, nə də onun nə olduğunu bilirdik. İndi bir neçə il ötdükdən sonra embarqo dövründə ölkəmiz Sicil raketi düzəldir, kosmik raket düzəldir, dünya da eləcə təəccüblə baxır. Əvvəl inkar etdilər, dedilər ki, yalandır, bacarmazlar; sonra gördülər ki, xeyr, var.

Bütün sahələrdə belədir. Yaxşı, bunların mənası nədir? Mənası budur ki, bu gənc çox istedadlıdır, bu xalqın böyük potensialı var, bu insani resurs çox dəyərlidir. Bundan istifadə etmək lazımdır. Deməli, biz bacarırıq. Bu potensialı aktuala çevirmək lazımdır.[759]

---

[758] Universitetlərin gənc alimləri ilə görüşdə çıxışdan: 2008.

[759] Beynəlxalq Əmək Günü ərəfəsində ölkənin nümunə fəhlələri ilə görüşdə çıxışdan: 2010.

## Doqquzuncu fəsil: Kitabın və kitab oxumağın əhəmiyyəti, indiki xoşagəlməz vəziyyət və mədəniyyət yaratmağın zəruriliyi

### Kitabın tərk olunması - bir xalq üçün böyük xəsarət

Kitabla əlaqəsinin olmaması bir xalq üçün böyük xəsarətdir. Bir fərd üçün kitabla ünsiyyət, həmişə ondan bəhrələnmək, yeni şeylər öyrənmək böyük səadətdir. Bu baxışla bu tarixi həqiqətin sirli və dərin mənasını aydın şəkildə dərk etmək olar ki, Allah-Taalanın əziz İslam Peyğəmbərinə (s) ilk müraciəti belə olmuşdur: "Oxu!" Və Allahın o böyük elçisinə nazil olan ilk surədə qələmin adı hörmətlə yad olunmuşdur: "Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir! O Rəbbin ki, qələmlə (yazmağı) öyrətdi" [760].[761]

### Kitab oxumağın və elm öyrənməyin dində vacib buyurulması

İndi İran xalqı gerilikləri düzəltməlidir. İndi din və elm hakimiyyətindən irəli gələrək İranda bənzərsiz bir fürsət yaranmışdır. Bu ölkənin elmi-mədəni yüksəlişi üçün ondan istifadə etmək lazımdır. Bu gün kitab oxumaq və elm öyrənmək təkcə milli bir vəzifə yox, həm də dini baxımdan vacib əməldir. Hamıdan artıq gənc və yeniyetmələr vəzifə duymalıdırlar. Baxmayaraq ki, kitabla ünsiyyət yayıldıqda kitab oxumaq bir vəzifə yox, şirin bir iş, qaçılmaz ehtiyac, şəxsiyyəti zənginləşdirmək üçün bir vasitə hesab olunacaq və təkcə gənclər yox, bütün nəsillər, bütün təbəqələr rəğbətlə ona üz tutacaqlar. Bu qızıl sikkənin o biri üzünə diqqət yetirmək lazımdır: kitab müəllifləri, mütərcimləri və çap edənləri üçün ağır məsuliyyətin kənarında dəyərli işlər və böyük mükafatlar vardır. Kitab oxuyan cəmiyyətdə kitabı istehsal və təklif edən uca tutulmalıdır və o da öz işini onun təsir və əhəmiyyətinə diqqətlə görməlidir.[762]

### Kitab istehsalçılarının böyük cinayəti

---

[760] "Ələq"/3-4.

[761] Kitab həftəsi münasibətilə müraciətdən: 1993.

[762] Yenə orada.

Düşüncə və ruhun qidası sağlam və güclü olmalıdır. Bundan başqasını edənlər qeyri-sağlam, yaxud faydasız qida maddələri təklif edənlərdən böyük səhv, yaxud cinayət törədirlər.[763]

**Xalqın kitab oxumasının xoşagəlməz vəziyyəti**

Mən həqiqətən müxtəlif cəhətlərdən əziz ölkəmiz İranda kitabın vəziyyətindən razı deyiləm. Həqiqət budur ki, kitab hələ də istehlak baxımından ixtisaslı bir məhsuldur, kiminsə "kitab oxuyun" deməsinə ehtiyacı olmayan elm, kitab və tədqiqat adamlarına və kitabxanaçılara məxsusdur. Onlar gəlib bizə deyirlər ki, kitab əldə etmək üçün bizim bu problemlərimiz var.[764]

**Kitab - sivilizasiyaların anası və şirəsi**

Həqiqət budur ki, kitab ən dəyərli bəşər məhsullarından biri, bəşərin elm və tədqiqatdan ibarət ən böyük sərvətinin xəzinəsidir. Bəşərin dini və dünyası, insanın cismi və canı kitabla təmin olunur, qidalanır və bəşəri kamillik prosesi kitabın vasitəsi ilə həyata keçir. Kitab sivilizasiyaların anası və həmçinin şirəsidir. İnsan kitabı ərsəyə gətirməklə yaranış kitabında ona öyrədilən saysız-hesabsız dərsləri toplayır, insanlar arasında yayır və beləliklə bəşər sərvətinin xəzinəsi günbəgün daha da zənginləşir.[765]

---

[763] Yenə orada.

[764] İlin nümunəvi kitablarının naşir və müəllifləri ilə görüşdə çıxışdan: 1993.

[765] "Kitab və kitabxana" mövzusunda konfransa müraciətdən: 1995.